AZƏRBAYCAN RESPUBLIKASI
ELM VƏ TƏHSIL NAZIRLIYI
Azərbaycan Texnologiya Universiteti

# İNNOVASİYALI İQTİSADİYYAT VƏ MENECMENT

№ 2 2023

**Baş redaktor:**

**Yaşar Adil oğlu Ömərov, dosent**

**Redaksiya heyəti**

**Baş redaktorun müavini:**
**Gülalıyev Mayıs Gülalı oğlu i.e.d., dos.**

**Məsul katib:**
**Zəminə Novruzova**

Hacıyeva Nüşabə, i.f.d., dosent
Qurbanova Xatirə, i.f.d, dosent
Qarayev Maarif , f.f.d., dosent
Hümbətov Yusif, i.f.d., dosent
Əhmədova Mətanət, t.f.d., dosent

**GƏNCƏ – 2023**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınıb: Reyestr №4155**

**Azərbaycan Texnologiya Universitetinin Elmi Şurasının qərarı ilə çap olunur**

**Jurnal aşağıdaki Beynəlxalq elmi məlumat bazalarına daxildi:**

*International Scientific Indexing (ISI), International Institute of Organized Research (I2OR), Journal factor, Cite factor, Academic Scientific Journals, Scientific Indexing Services*

**Print** – 2616-8626

*Innovasiyali iqtisadiyyat və menecment №2, 2023, - 349 səh.*

©Azərbaycan Texnologiya Universiteti

Redaksiyanın ünvanı: AZ2011, Azərbaycan, Gəncə ş. Şah İsmayıl Xətai prospekti 103
Azərbaycan Texnologiya Universiteti Tel: +(994-22) 57-56-29,
Faks: +(994-22) 57-29-61 E-mail: info@atu.edu.az, uteca.iem@gmail.com

© Azərbaycan Texnologiya Universiteti 2023

MÜNDƏRİCAT

**HÜMBƏTOV Yusif Əbülfət oğlu, QƏDIROV Tural Vüqar oğlu, MƏMMƏDOV Kamil Pərviz oğlu**
Aqrar sahədə sahibkarlıq mühitinin formalaşdırılması........ 7

**ƏLİYEV Şəfa Tiflis oğlu**
Şuşa şəhərinin formalaşması və inkişafının əsas xüsusiyyətləri (18-21-ci əsrlər)......... 13

**ABBASOV Fuad Zakir oğlu, BAĞIROV Ərturqut Şikar oğlu, ƏHMƏDOVA Ayşə Seydi qızı**
Biznesdə kontroliq sisteminin təşkili və strateji istiqamətləri........ 19

**ABBASOVA Brilyant İdris qızı, Pərvin Pərviz oğlu DƏRYAGİR**
Menecment sistemində tətbiq olunan yeni texnologiyaların müəssisəyə faydasının əsaslandırılması........ 27

**ABBASZADƏ Yasəmən Mübariz qızı**
Milli səhiyyə sisteminin inkişafında heydər əliyev mərhələsi........ 32

**ABBASOVA Şəhla Rauf qızı**
Yüngül sənaye sektorunun davamlı inkişafının təmin olunmasında klasterlərin rolü... 37

**AĞAYEVA Xalidə Mehdi qızı, MUSAZADƏ Xaliq Əloysat oğlu**
Kiçik biznesdə innovasiya potensialı........ 42

**AĞAZADƏ Elnur Aqşin oğlu**
Müəssisələrində innovasiya fəaliyyətinin tədqiqinin nəzəri aspektləri........ 49

**ƏHMƏDOV Kamal Nizami oğlu**
Azərbaycanda müvafiq strategiyaların formalaşmasında marketinqin rolu ........ 58

**ƏHMƏDOV Yusif Binnət oğlu, XUDİYEVA Telnaz Saleh qızı**
İdarəetmə uçotu və onun təkmilləşdirilməsi........ 64

**ƏHMƏDOV Yusif Binnət oğlu, NƏZƏRLI Asif Zahid oğlu**
İnnovasiya yönümlü investisiya qoyuluşunun stimullaşdırılması mexanizminin təminatında mühasibat uçotunun rolu........ 69

**ƏSƏDOV Əliyar Xudarəhim oğlu**
Səmərəliliyin qiymətləndirilməsində dayanıqlı balanslaşdırılmış uğur göstəriciləri sisteminin tətbiqi perspektivləri ........ 74

**ƏZİZOV Şamil**
"Bir Kəmər, bir yol" təşəbbüsünün gözlənilən təsirləri........ 80

**BAYRAMOVA Lamiyə İlyas qızı, MƏMMƏDOVA Gülnar Elbrus qızı, ƏKBƏRZADƏ Aytac Valeh qızı**
İnsan kapitalının formalaşması və onun sosial-iqtisadi səmərəliliyi ........ 88

**BABAKIŞIYEVA Sevinc Firuddin qızı, ASLANOVA Nərminə Asim qızı**
Aqrar sahədə ixrac məhsullarının struktur dəyişikliklərinin təkmilləşdirilməsi......... 96

**CAVADZADƏ Xəyyam Natiq oğlu, HÜSEYNOVA Aysel Ədalət qızı**
İnvestisiyaların turizm fəaliyyətinə təsirinin tətqiqi........ 105

**CAVADZADƏ Xəyyam Natiq oğlu, SALAHOV Sənan Qüdrət oğlu**
Turizm sektorunun inkişafı və onun məşğulluğa təsiri........ 110

**CƏFƏROV Cəfər Firdovsi oğlu**
Müstəqillik dövründə aqrar sığorta bazarının yaranma mərhələləri........ 116

**CƏFƏROVA Raibə Məmmədbağır qızı, MUSAYEV Fərid Bayram oğlu**
Menecmentin formalaşması və inkişafına nəzəri metodoloji yanaşma…………………… 122

**GULAHMADOV Muhammad**
The beginning of a new transport era: the Zangazur Corridor as the backbone of Post-War Regional cooperation projects in South Caucasus........................................................ 127

**HACIYEVA Ruhiyyə Cəfər qızı**
Aqrar iqtisadiyyatın kadr təminatı: problemlərin həll yolları........................................... 132

**HACIYEVA Sevda Tofiq qızı, Pərviz Aqil oğlu BALAŞOV**
Regional əmək bazarının formalaşması və inkişaf problemləri…………………………….. 139

**HƏMİDOV Afiyəddin Həmid oğlu, MİRZƏYEVA Samirə Rafiq qızı**
Sosial inkişafın təmin edilməsinin regional aspektləri………………………………….. 148

**HƏSƏNOV Arzu Nəcəf oğlu, QULİYEV Maarif Arif oğlu**
Azərbaycanda qeyri-neft sektorunun inkişaf strategiyasına uyğun olaraq turizm sənayesində aqroturizm sahəsinin inkişaf perspektivləri............................................................ 154

**HƏSƏNOVA Xanım Ehtibar qızı**
Azərbaycan Respublikasında aqrar sahədə qadın sahibkarlığının mövcud vəziyyəti və inkişaf istiqamətləri.............................................................................................................. 160

**HƏSƏNZADƏ Əkrəm Niyazi oğlu**
Aqrar sektorda innovasiya əsaslı yaşıl enerjinin tətbiqi prespektivləri…………………… 16

**HÜMBƏTOV Yusif Əbülfət oğlu, OSMANOVA Xəyalə Akif qızı, QURBANOVA Nuranə Rafiq qızı**
Respublikamızda aqrar bazarlar və ərzaq mallarının ixracı məsələləri……………………... 171

**HÜSEYNOV Məhərrəm Cəlal oğlu, ALLAHVERDIYEV Sahil Seyfəddin oğlu**
Ekologiya və ətraf mühitin mühafizəsi sistemində risklərin idarə edilməsi....................... 178

**HUSEYNOV Ragif Tofiq oghlu, DILGAMLI Nijat Pasha,**
A study on the role of advertısement ın socıal networks as the maın determınant of busıness development.............................................................................................. 184

**HÜSEYNOV Mehman Məzahir oğlu, NOVRUZOVA Fatimə Badil qızı**
Torpaq, tikili və avadanlıqların nəzəri – metodoloji əsasları……………………………. 190

**HÜSEYNOV Mehman Məzahir oğlu, MEHDIYEV Sənan Rövşən oğlu SADIQOVA Səbinə Bəxtiyar qızı**
Debitor və kreditorlarla hesablaşmaların uçotu və onun təkmilləşdirilməsi istiqamətləri ...... 196

**HÜSEYNOVA Mehriban Rövşən qızı, SADIQOVA Aysel Vaqif qızı**
Respublikamızda yeyinti sənaye sektorunun inkişafının təmin olunması………………… 205

**XURŞUDOV Şahin Nadir oğlu, OSMANLI Məftunə Turman qızı**
Turizmdə reklam marketinqinin yaxşılaşdırılması yolları..................................................... 213

**İSAYEVA Gülanə Vaqif qızı**
Müəssisələrin maliyyə vəziyyətinin qiymətləndirilməsinin nəzəri aspektləri………………. 218

**İSGƏNDƏROV Fərman Alisgəndər oğlu, MUSTAFAYEV Ramin Ramis oğlu HÜSEYNZADƏ**
Şərqi Zəngəzur regionunda turizmin inkişaf potensialları və onlardan səmərəli istifadə yolları..................................................................................................................... 223

**KƏRIMOV Fazil Cəmil oğlu, ƏHMƏDOVA Ayşə Seydi qızı**
Gəncə-Daşkəsən ərazisinin sosial-iqtisadi inkişafında turizmin rolü........................ 230

**KƏRIMOV Fazil Cəmil oğlu, NƏZƏRLI Jalə Etibar qızı, SƏFƏRLI Fərid Arzu oğlu**
Azərbaycan Respublikasında azad iqtisadi zonaların formalaşması və inkişafın sosial-iqtisadi aspektləri........................................................................................................ 236

**KƏRIMOVA Minurə Hacı qızı, SADIQOVA Səbinə Bəxtiyar qızı, BAYRAMOV Oqtay İmran oğlu**
Müasir şəraitdə maliyyə risklərinin neytrallaşdırılması və idarə olunması mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri ................................................................ 243

**KƏRİMOVA İradə Cəmil qızı, FƏRZƏLİYEV Vüqar Amil oğlu**
Azərbaycan Respublikasında tətbiq edilən vergi siyasətinin sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına təsiri........................................................................................ 248

**QULUZADE Xəlil İlqar**
Əmək bazarına şok təsirlər: tələbə şok təsirlərin və təklifə şok təsirlərin qiymətləndirilməsi metodları........................................................................................................ 254

**MƏMMƏDZADƏ Cahangir Bəhmən Oğlu**
Tullantıların idarə edilməsi sahəsində beynəlxalq təcrübənin əsasları..................... 260

**MİRZƏYEV Qurban Rauf oğlu**
Lizinq əməliyyatlarının uçotu və auditi üzrə standartların tələblərinə uyğun avtomatlaşdırılmanın əsas istiqamətləri.............................................................................. 266

**MUXTAROVA Pərvin Elman qızı, MƏMMƏDLI Rəşad Təşəkkül oğlu**
Heyvandarlıqda məsrəflərin və məhsul çıxımının uçotunun təşkili və onun təkmilləşdirilməsi........................................................................................................ 272

**NƏRİMANOV Nicat Adil oğlu, SULTANOV Nəcəf İsaq oğlu, SƏMƏDOVA Ülviyyə Nəriman qızı**
Ölkədə milli innovasiya sisteminin inkişaf etdirilməsi istiqamətləri........................... 279

**NƏRİMANOV Nicat Adil oğlu, KƏRIMOVA Minurə Hacı qızı, HÜSEYNOVAAytac Aqşin qızı**
Azərbaycanda MMUS- nın tətbiqinin qanunvericilik bazasının təkmilləşdirilməsi.............. 285

**NƏSİBOVA Çinarə Nizami qızı**
Aqrar sahədə ixrac potensialının formalaşması mexanizmi və onu şərtləndirən amillər...... 291

**SƏFƏROVA Günel Mustafa qızı**
Lızınq xıdmətlərı bazarının ınkışafında rəqabət və qıymət amıllərı......................... 296

**ŞÜKÜROV Rafayıl Şükür oğlu, POLADLI Ülkər Mehman qızı**
Biznesin inkişafında dövlətin investisiya siyasəti.......................................................... 301

**PİRİYEV Kahraman Muhammad**
The Coronavirus (COVID-19) pandemic: economic implications and challenges...... 307

**URKAYEV Məmməd Hacıyov oğlu, KƏRİMOVA Minurə Hacı qızı, HƏSƏNOV Elnur Ələddin oğlu**
Strateji marketinqin emal sənaye müəssisələrində tətbiqi....................................... 312

**VƏLIYEVA Sevda Adıgözəl qızı**
Aqrar sekktorun maliyyə dayanıqlılığının yüksəldilməsi istiqamətləri...................... 318

**VƏLİYEV Ceyhun Amin oğlu, ƏMİROV Elşad Elşən oğlu**
Azərbaycanın kənd təsərrüfatı məhsullarının istehsalında regionların rolü…………….... 325

**VERDİYEV Nazim Davud oğlu, AYDINLI Səid Malik oğlu**
Turizm müəssisələrində yeni marketinq xidmətlərinin təşkili və idarə olunması............ 330

**YASİNLİ Altun Cəlaləddin oğlu**
Kiçik və orta müəssisələr Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının əsas hərəkətverici indikatoru.................................................................................................... 336

**ZEYNALLI Elay Cəlal oğlu, KƏRİMOVA Minurə Hacı qızı, ZEYNALOV Fərid Rauf oğlu**
Aqrar sahənin innovasiyalı inkişafının tənzimlənməsinin informasiya bazasının formalaşdırılması istiqamətləri........................................................................... 342

**Yusif Əbülfət oğlu HÜMBƏTOV, i.e.d, dos.**

**Tural Vüqar oğlu QƏDIROV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Kamil Pərviz oğlu MƏMMƏDOV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: hümbetov-1964@mail.ru

# AQRAR SAHƏDƏ SAHİBKARLIQ MÜHİTİNİN FORMALAŞDIRILMASI

**Xülasə**

Aqrar sahibkarlıqda hüquqi tənzimlənmənin mövcud prinsip, metod və xüsusiyyətləri iqtisadi cəhətdən mübadilələr, hüquqi baxımdan müqavilələr zənciri olan bazar iqtisadiyyatında aqrar subyektlər arasındakı bu münasibətlərinin səmərəli şəkildə qurulmasının və stabilliyinin dövlət tərəfindən təminatına xidmət edir.

Ölkəmizdə aqrar sahənin davamlı inkişafının idarə edilməsi və onun strateji məqamları araşdırılmalı, onun idarə edilməsinin elmi prinsipləri müəyyənləşdirilməlidir. Bu halda aqrar sahədə müxtəlif sahibkarlıq formalarının inkişafı istiqamətində uğurların əldə olunması, sabit iqtisadi artıma və sağlam rəqabət prinsiplərinin formalaşmasına şərait yaranmasına səbəb ola bilər

Sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması məqsədilə Azərbaycan Respublikasının Konstitusiyasında bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şəraitin yaradılması, sahibkarlığa təminat verilməsi, rəqabət mexanizminin formalaşması və inkişafı, həmçinin rəqabətin qorunması ilə bağlı müddəalar öz əksini tapmışdır.

**Açar sözlər:** sahibkarlıq, innovasiya sahibkarlığı, sahibkarlıq mühiti, sahibkarlığın təminatı.

**JEL: O12**

## Giriş

Müstəqilliyimizin əvvəllərində iqtisadiyyatımızda sahibkarlığın maddi əsasını formalaşdıran özəlləşdirmə, qiymətlərin liberallaşdırılmasından əvvəl həyata keçirilməli idi. Lakin obyektiv və subyektiv səbəblər ölkəmizdə iqtisadiyyatda dövlət mülkiyyətinin inhisarı şəraitində qiymətlərin sərbəstləşdirilməsi prosesinə başlanılması məcburiyyətində qaldı.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər bir şəxs «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununu dərindən bilməli və ona əməl etməyə borcludur. Qanun Azərbaycan Respublikasında sahibkarlığın prinsiplərini, sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquq və vəzifələrini, sahibkarların dövlət orqanları ilə qarşılıqlı münasibətlərini müəyyənləşdirir.

Qanun 15 dekabr 1992-ci il tarixində ölkə Prezidentinin 405 saylı fərmanı ilə qüvvəyə minmişdir. Dörd bölmə, 17 maddədən ibarət olan qanuna görə sahibkarlıq fəaliyyəti şəxsin müstəqil həyata keçirdiyi əsas məqsədi öz əmlakından istifadə etməklə, əmtəə satışından, işlər yerinə yetirilməsi və ya xidmətlər göstərməsi və sonda mənfəət əldə edilməsi fəaliyyətidir (maddə 1).

Sahibkarlığın inkişafına texniki-təşkilati strukturlar müxtəlif təsirlərə malikdir. Odur ki, innovasiya və dayanıqlı sahibkarlıq mühitinin formalaşdırılması üçün əlverişli biznes mühitinin yaradılması zəruridir.

Müstəqillikdən sonra keçən dövrdə iqtisadi cəhətdən müstəqil fəaliyyət göstərən, təşəbbüskarlığa əsaslanan sahibkarlığın inkişaf etdirilməsinə əlverişli şərait yaradılmışdır. Hazırda sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması strategiyası ölkəmizdə uğurla həyata keçirilməkdədir.

**İnnovasiyalı sahibkarlığın inkişaf istiqamətləri**

İnnovasiya prosesi müəssisədə istehsalın genişləndirilməsini stimullaşdırır. İnnovasiyanın tətbiqində sahibkarların xüsusi rolu vardır. Sahibkar bazara daxil olan yeni rəqiblərə qalib gəlmək üçün daha mütərəqqi məhsul istehsal etməyə, mövcud məhsulun yeni çeşid və

modellərini hazırlamağa, istehsalın daha da təkmilləşdirilməsinə can atır.

Ölkədə innovasiya fəaliyyətinin həyata keçirilməsi Azərbaycan Elmlər Akademiyasına aid olan institutlar, təhsil və tədqiqat müəssisələrinin vəzifəsidir. Bu təşkilatlar elmi-texniki nailiyyətlərin intellektual məhsullara çevrilməsinə və istehsala tətbiqinə şərait yaratmaqla iqtisadi tərəqqinin əldə edilməsinə xidmət göstərməlidir. Elmi tədqiqat müəssisələri ölkənin əsas sənaye sahələri ilə əlaqədə fəaliyyət göstərərək yüksək ixtisaslı kadr hazırlanmasına nail olmalıdır.

Müasir dövrdə sahibkarlığın əsas istiqamətlərindən biri innovasiyalı sahibkarlıqdır. Ənənəvi sahibkarlıqda obyektin seçilmiş məqsədə doğru hərəkəti zamanı qarşıya çıxan problemlər, hərəkəti ləngidə bilir, innovasiyalı sahibkarlıqda isə bu cür qarşılaşmaq ehtimalı qismən aşağıdır.

İnnovasiyalı sahibkarlıqda, bir çox hallarda idarəetmə obyektinin dəyişdirilməsi (yenilənməsi, təkmilləşdirilməsi) nəzərdə tutulur. İnnovasiyanın məqsədi - idarəetmə obyektini dəyişməkdir, yeni elmi, texniki, iqtisadi və sosial effekt əldə etməkdir. İnnovasiya yeni və ya təkmilləşdirilmiş məhsul (xidmət), texnika, texnologiya, istehsalın və idarəetmənin təşkili şəklində təcəssüm etmiş və müxtəlif effektlər verən elmi biliklərin kommersiyalaşdırılması kimi qiymətləndirilir.

Azərbaycan Respublikasında bütövlükdə çoxcəhətli təsərrüfatın formalaşdırılması üçün əlverişli təbii iqlim şəraiti vardır. Qədim dövrlərdən əkinçiliklə məşğul olan ölkəmizdə taxılçılıq, üzümçülük, meyvəçilik, tərəvəzçilik və heyvandarlıq yüksək inkişaf etmiş və bazar münasibətləri şəraitində hər bir sahənin iqtisadi problemlərinin həll edilməsi zərurətindən dogan məsələlərin tədqiqini, ölkə iqtisadiyyatının aparıcı sahələrindən biri olan aqrar sahənin idarə edilməsinin təkmilləşdirilməsini və bu sahədə kompleks təsərrüfatların yaradılmasını zəruri edir.

Son illərdə ölkə iqtisadiyyatının inkişafının yeni keyfiyyət səviyyəsinin təmin olunması, regionların tərəqqisinin daha da sürətləndirilməsi, ölkənin qloballaşma tələblərinə uygunlaşması və digər bu kimi amillər həyata keçirilmişdir. Aqrar sahədə intensiv inkişafın dəstəklənməsi üçün normativ-hüquqi bazanın möhkəmləndirilməsi məsələsinə xüsusi diqqət yetirilmiş, ölkə başçısının (2014-cü ilin 16 aprel tarixli 152 nömrəli) Fərmanı, "Kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı texnikası ilə təminatına əlavə dəstək haqqında" (4 iyun 2014-cü il tarixli) Sərəncamı imzalanmaqla, yeni inkişaf mühiti formalaşmışdır.

**Aqrar sahədə sahibkarlıq mühitinin yaxşılaşdırılması**

Azərbaycanda sahibkarlığın təşəkkülü, xüsusilə müstəqilliyin ilk illərində istisna təşkil etməmiş, sonrakı illərdə sosial-iqtisadi həyatın bütün sahə və istiqamətlərində canlanma, dirçəliş və tərəqqi sahibkarlığın da inkişafına öz böyük və müsbət təsirini göstərmişdir. Yeni əsrin başlangıcı ölkədə sahibkarlığın inkişafı üçün genişmiqyaslı həlledici tədbirlərlə əlamətdar olmuşdur.

Sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınması Azərbaycan Respublikasının vergi qanunvericiliyi ilə tənzimlənir.

Cavabdehlik, təşəbbüskarlıq və çeviklik kimi keyfiyyətləri özündə birləşdirməklə sahibkar, dinamik iqtisadi fəaliyyət mühitində innovasiya yönümlü fəaliyyətin zərurətini dərk edir. Təcrübə göstərir ki, insanların tələbatına **uyğun** məhsullar istehsal etməyə və xidmətlər göstərməyə çalışmaqla sahibkarlıq subyekti istehsal amillərini bir araya gətirməyi bacarmalı, nəinki dəyişən situasiyalarda, hətta fors-major hallarda belə özünü təsdiqləməyi bacarmalıdır. "Sahibkarlıq cəmiyyətin maddi nemətlər və xidmətlərə olan tələbatını ödəməyə yönəlmiş fəaliyyətdir və sahibkar qazanc əldə etmək məqsədi ilə başqalarının ehtiyacını ödəyə biləcək mallar (xidmətlər) istehsal etməyə çalışan və bu məqsədlə də istehsal amillərini bir araya gətirməyi bacaran şəxsdir [4, s. 128-132].

Yeni iqtisadi formasiya şəraitində bazar münasibətlərinin daha da inkişafı, yeni iş yerlərinin açılması, yeni texnologiyaların biznesə tətbiqinin sürətləndirilməsi və sahibkarların işinə haqsız müdaxilələrə yol verməməsi üçün dövlət sahibkarların hüquqlarının müdafiəsini öz üzərinə götürür Aqrar sahədə islahatların aparılması nəticəsində mülkiyyət münasibətləri dəyişilmiş və müxtəlif təşkilati-hüquqi formalı təsərrüfatlar və yeni istehsal strukturları formalaşmışdır. İstehsalın strukturunun müəyyənləşdirilməsində, məhsullara qiymət qoyuluşunda, satış kanallarının seçilməsində, əldə edilən mənfəətin bölüşdürülməsində, həmçinin kooperasiya və inteqrasiya əlaqələrinin formalaşdırılmasında təsərrüfat subyektləri tamamilə sərbəstdirlər və öz

istehsal-satış fəaliyyətlərinə dair qərarları müstəqil şəkildə qəbul edirlər.

Aqrar sahədə istehsal və bazar infrastrukturunun inkişaf etməsi, əhalinin maddi istehsaldan uzaqlaşmasına və işsizliyin artmasına səbəb ola bilər. Aqrar sahədə sahibkarlıq qurumlarına məxsus bazar infrastrukturlarının inkişaf etdirilməməsi ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində xeyli problemlərin yaranmasına səbəb olur ki, bu da ölkənin xarici əmtəə istehsalçılarından və beynəlxalq bazar konyukturundan asılılıgına səbəb olur.

Bu gün aqrar sahənin tarazlı inkişafına təsir edən əsas amillərdən qiymət, maliyyə, kredit, vergi və s.-dən istifadənin səmərəli mexanizminin bazar tələblərinə uyğun və ya sahibkarlığın inkişafı məntiqilə formalaşdırılması vacib şərtlərdəndir.

Regionlarda əhalinin məşğulluğunda olduqca əhəmiyyətli rol oynayan sahibkarlığın inkişafı, regionların tarazlı inkişafını təmin etməklə yanaşı, bölgələrin sürətli inkişafına və xüsusən də kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsi regionlardakı problemlərin aradan qaldırılmasına şərait yaratmışdır.

Dövlət proqramlarının icrası nəticəsində bölgələrin siması bütünlükdə dəyişdi. Regionlarda sənayenin, aqrar sektorun inkişafına təkan verildi. Sənaye parkları, aqroparklar, fabrik və zavodların açılışı vaxtilə işsizlik səbəbindən paytaxta üz tutan insanları yenidən regionlara qaytardı və hazırda həmin müəssisələrdə yüzlərlə insan çalışır. Aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramlarının və genişmiqyaslı infrastruktur layihələrinin uğurla icra olunması Azərbaycanı dünyada güclü və demokratik dövlət, nüfuzlu və etibarlı tərəfdaş kimi tanıtmışdır.

Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin nəticəsində son 17 ildə sahibkarlıq subyektlərinin sayı 4,2 dəfə, hüquqi şəxslərin sayı 2 dəfə, kiçik müəssisələrin sayı 2 dəfə, fərdi sahibkarların sayı 5 dəfə artmışdır. Həmçinin 2004-2021-ci illərdə ölkəmizin qeyri-neft ixracı 4 dəfə artmışdır. Müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur [5].

Həyata keçirilən struktur islahatları hesabına 2020-ci ildə ölkəmizdə makroiqtisadi sabitlik və iqtisadi artım əldə edilmişdir. Sahibkarlığın inkişafı iqtisadiyyatımızda dayanıqlı inkişafı təmin etmiş və 2021-ci ildən iqtisadiyyatın qeyri-neft sektorunda canlanmaya səbəb olmuşdur.

Aqrar sahədə qiymətlərin liberallaşdırılması, daxili bazarın zəruri, mümkün olan bazar tələblərinə uyğun prinsiplər və tələblər səviyyəsində qorunmaması, kənd təsərrüfatı məhsulları ilə ona xidmət edən (və ya yardımçı, davamçı, köməkçi) sənaye məhsulları qiymətləri arasında kəskin fərqlər, vergi və kredit üzrə müəyyən olunmuş güzəstlərin sona qədər təkmil və ya stimullaşdırıcı olmaması, aqrar islahatların maliyyə təminatının hələlik zəif olması və s. digər tərəfdən isə istehsal və bazar infrastrukturlarının mövcud inkişaf səviyyəsi hazırda aqrar sahənin inkişafına mənfi təsir göstərməkdədir [2, s.56-64].

Aqrar sahədə həyata keçirilən struktur dəyişiklikləri bazar münasibətlərinin xarakterinə uyğun olmaqla, konyunktur dəyişmələrinə adekvat reaksiya göstərmək qabiliyyətinə malik olan sistemin yaradılmasını ehtiva edir. Ümumiyyətlə, bazar konyunkturunda baş verən dəyişikliklər haqqında məhsul istehsalçıları yetərincə məlumatlandırılmalı və şəraitə uyğun olaraq istehsal prosesində zəruri dəyişikliklər həyata keçirilməlidir.

Aqrar sahədə struktur dəyişikliklərinin mühüm xüsusiyyəti əsasən bazar münasibətlərinin tənzimlənməsi zamanı iqtisadi mexanizmlərin fəallaşdırılması ilə bilavasitə bağlıdır. Bu isə kənd təsərrüfatında ekoloji təmiz məhsul istehsalının təmin edilməsinə istiqamətləndirilməsi, istehsalçılar və istehlakçılar üçün əlverişli şəraitin yaradılmasıdır.[3, s.388-395].

Aqrar sahədə münasibətlərin tənzimlənməsində istifadə edilən əsas mexanizmlərdən biri mülkiyyət və sahibkarlıq münasibətləri üzrə tətbiq edilən normativ-hüquqi aktların qəbul edilməsidir. Təsərrüfatdaxili və təsərrüfat xarici olmaqla iki böyük münasibətlər blokunu özündə birləşdirən aqrar münasibələr sisteminin tənzimlənməsi zamanı normativ-hüquqi aktların qəbulundan geniş istifadə edilir. Xüsusilə, keçid iqtisadiyyatı şəraitində bu sahədə qəbul olunmuş normativ - hüquqi aktlar həyata keçirilən transformasiya prossesinin həm vasitəsi (tənzimləmə aləti), həm də bir növ nəticəsi rolunda çıxış edir.

Belə ki, qəbul edilən hər bir yeni normativ-hüquqi akt və ya ona edilmiş əlavə və dəyişikliklər bir tərəfdən yeni iqtisadi münasibələrin formalaşmasına xidmət edirsə, digər tərəfdən inkişaf edən yeni iqtisadi münasibətlər sistemi yeni normativ

aktların qəbulunu və ya onlarda müəyyən dəyişiklik edilməsini zəruri edir. Bu zaman normativ-hüquqi aktların tənzimləmə obyekti kimi aqrar təsərrüfatlarda torpaq üzərində mülkiyyət və ondan istifadə hüquqları, yaradılan əmlak üzərində ümumi və fərdi mülkiyyət hüquqlarının təsbiti, əməyin təşkili, əmək intizamı, əməyin ödənilməsi və mühafizəsi sferasında yaranan münasibətlər, təşkilati-idarəetmə ilə bağlı münasibətlər, müqavilə münasibətləri, büdcə - vergi münasibətləri, mülkiyyət hüququnun həyata keçirilməsi ilə bağlı digər şəxslərlə yaranan münasibətlər və üçüncü şəxslərlə bağlı delikt münasibətləri çıxış edir.

Dünyanın bir sıra ölkələrində aqrar sahənin fəaliyyətinin nəzəriyyə və təcrübəsi göstərir ki, bu sahənin fəaliyyətinin tənzimlənməsində dövlət mühüm rol oynayır. Aqrar sahibkarlığa dövlət dəstəyi hesabına kənd yerlərində yeni iş yerləri açılmaqla, kənddə həyat səviyyəsinin yüksəlməsinə, kənd və şəhər əhalisinin həyat səviyyəsindəki fərqlərin azalmasına səbəb olur. Yuxarıda qeyd edilənlərdən belə qənaətə gəlirik ki, bazar iqtisadiyyatı şəraitində aqrar sahədə sahibkarlıq fəaliyyətinə dövlət dəstəyi obyektiv bir zərurətdir.

Aqrar sahədə həyata keçirilən struktur dəyişiklikləri bazar münasibətlərinin xarakterinə uyğun olmalıdır. Ümumiyyətlə, bazar konyunkturunda baş verən dəyişikliklər haqqında məhsul istehsalçıları yetərincə məlumatlı olmalıdırlar. Bu sahədə bazar infrastrukturuna xüsusi olaraq baxılmalı, hər bir infrastrukturun, xidmət etdiyi əsas istehsal sahəsi ilə birgə təhlil edilməsi məqsədəuyğundur.

Kənd təsərrüfatı məhsullarının istehsalının artımı ixrac həcminin də artmasını stimullaşdırır. 2020-ci ildə isə ölkə üzrə UDM - in tərkibində kənd təsərrüfatı məhsulunun faktiki qiymətlərlə həcmi 8428,9 mlyn.manat olmuş, ixracda isə kənd təsərrüfatı məhsullarının payı - 14% - ə bərabər olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına əsasən, yerli qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə sahibkarlara ixrac təşviqinin ödənilməsi həyata keçirilir.

Hesab edirik ki, kənd təsərrüfatında istehsal olunan məhsulların ixracının artırılması sahənin inkişafına müsbət təsir edən əsas amildir. Odur ki, ixrac bazarlarının coğrafiyasının genişləndirilməsi və ənənəvi ixrac bazarlarındakı mövqelərin möhkəmləndirilməsinə dəstək verilməsi, "Made in Azerbaijan" brendinin təşviqinin həyata keçirilməsi vacibdir.

Azərbaycanda aqrar sahə ilə əlaqədar sahələrin inkişafında olan müsbət meyilləri dəstəkləmək üçün bütün sivil olkələrdə olduğu kimi dövlət dəstəyi həyata keçirilir. Hazırda sahibkarların maliyyə imkanları məhdud olduğu üçün kənd təsərrüfatına dəstək məqsəsilə büdcə vəsaitlərindən istifadə dövlət siyasətinin əsas vəzifələrindən birinə çevrilir.

**Nəticə**

Respublikamızda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün dünya təcrübəsindən istifadə edilməsi və yerli şərait nəzərə alınmaqla həyata keçirilməsi vacib şərtlərdəndir. Müstəqillik əldə etdikdən ötən dövr ərzində Respublikamızda sahibkarlıq fəaliyyətinin inkişafına dövlət siyasətinin qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi sahibkarlığın inkişafında yeni bir mərhələyə qədəm qoymuşdur.

Müasir dövrdə ölkəmizdə innovasiyalı sahibkarlığın inkişafının zəruriliyi onun tətbiqi məsələlərinin araşdırılmasına ehtiyac duyur. Bunun səbəblərindən biri ənənəvi sahibkarlıqda obyektin seçilmiş məqsədə doğru hərəkətini, qarşıya çıxan problemlər ləngidə bilirsə, innovasiyalı sahibkarlıqda belə vəziyyətlə qarşılaşmaq ehtimalı qismən aşağıdır. Məsələ ondadır ki, innovasiyalı sahibkarlıqda, bir çox hallarda idarəetmə obyektinin dəyişdirilməsi (yenilənməsi, təkmilləşdirilməsi) nəzərdə tutulur.

İnnovasiyanın məqsədi - yeni elmi, texniki, iqtisadi və sosial effekt əldə etməkdir. Həmçinin innovasiya yeni və ya təkmilləşdirilmiş məhsul (xidmət), texnika, texnologiya, və müxtəlif effektlər verən elmi biliklərin kommersiyalaşdırılması kimi qiymətləndirilir.

İnnovativ sahibkarlıq fəaliyyətinin ortaya çıxmasında böyük artım göstərən ölkələrdə eyni səviyyədə də işsizlikdə azalmalar görünür. r. Bu fəaliyyət nəticəsində ölkələr təbii sərvəti olan əməyini daha çox və səmərəli istifadə edərək həm sosial fayda verir, həm də iqtisadiyyatlarını daha möhkəm təməllərə oturtmağı bacarırlar.

Aqrar sahədə idarəetmə bu sahə ilə əlaqədə olan digər sahələrin qarşılıqlı əlaqəsini tənzimləyən bir sistemin yaradılmasını zəruri edir. Aqrar sahənin idarəetmə mexanizmi sistemli olmaqla,

sahəni idarə etmək üçün tətbiq olunan və oluna biləcək idarəetmə forma və metodları, təsərrüfat – hüquqi mənafeləri, təşkilati və idarə strukturunun məcmusudur.

Aqrar sahədə idarəetmə iqtisadi prosesləri qanunların vasitəsi ilə hərəkətə gətirməklə ölkənin ərzaq təhlükəsizliyini təmin edən fəaliyyətdir.

Hesab edirik ki, bu sahədə idarəetmə strukturlarında dəyişikliklərin edilməsinə ehtiyac vardır. Hazırda aqrar sahədə bir – birini təkrar edən mövcud strukturları ləğv etməklə, cəmiyyəti və iqtisadiyyatı mərkəzləşdirmə proseslərində təcridə hazırlıqlı vəziyyətə gətirmək lazımdır.

Bazar münasibətləri şəraitində hər bir sahənin iqtisadi problemlərini həll etməsi zərurətindən dogan məsələlərin tədqiqi, , ölkə iqtisadiyyatının aparıcı sahələrindən biri olan aqrar sahənin idarə edilməsinin təkmilləşdirilməsini və bu sahədə kompleks təsərrüfatların yaradılmasını zəruri edir.

Müasir dövrdə ölkə iqtisadiyyatının əsas tərkib hissələrindən biri olan aqrar sahədə müasir tələblərə uyğun istehsalı təşkil etməklə dayanıqlı inkişafa nail olmaq bu sahənin qarşısında duran əsas vəzifədir.

## ƏDƏBİYYAT SİYAHISI:

1..Azərbaycanda innovasiya sahibkarlığının davamlı inkişafının təmin edilməsi yolları. səh. 77-85

2..Azərbaycan Respublikasının Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”

3.Cavadov, N.Ə. Aqrar sahənin struktur dəyişiklikləri. Monoqrafiya. / N.Ə.Cavadov, – Bakı: Elm, – 2009, – 440 s.

4. Hümbətov.Y.Ə, Pürhani.S.H, "İqtisadiyyat" Dərs vəsaiti. Bakı 2002, 171səh.

5. www.azstat.gov.az - Azərbaycan Dövlət Statistika Komitəsi

**Юсиф Абульфат оглы ГУМБАТОВ, д. э.н.**

**Турал Вугар оглы ГАДИРОВ**

**Камил Парвиз оглы МАМЕДОВ**
E-mail: hümbetov-1964@mail.ru

# ФОРМИРОВАНИЕ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ СРЕДЫ В СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ СФЕРЕ

## Резюме

Существующие принципы, методы и особенности правового регулирования в аграрном предпринимательстве служат обеспечению эффективного установления и устойчивости этих отношений между аграрными субъектами в условиях рыночной экономики, представляющей собой цепь хозяйственных обменов и юридических договоров.

В нашей стране должно быть исследовано управление устойчивым развитием аграрного сектора и его стратегических точек, а также должны быть определены научные принципы его управления. В этом случае достижение успеха в развитии различных форм предпринимательства в аграрной сфере может привести к устойчивому экономическому росту и формированию принципов здоровой конкуренции.

В целях создания благоприятных условий для развития предпринимательства в Конституцию Азербайджанской Республики включены положения, касающиеся создания условий для развития экономики на основе рыночных отношений, обеспечения гарантий предпринимательства, формирования и развития механизм конкуренции, а также защита конкуренции.

**Ключевые слова:** предпринимательство, инновационное предпринимательство, предпринимательская среда, гарантия предпринимательства.

**Yusif Abulfat oghlu HUMBATOV, d. e.s.**

**Tural Vugar oghlu GADIROV**

**Kamil Parviz oghlu MAMMADOV**
**E-mail: humbetov-1964@mail.ru**

# FORMATION OF ENTREPRENEURIAL ENVIRONMENT IN THE AGRICULTURAL FIELD

**Summary**

The existing principles, methods and features of legal regulation in agrarian entrepreneurship serve to ensure the effective establishment and stability of these relationships between agrarian subjects in the market economy, which is a chain of economic exchanges and legal contracts.

In our country, the management of the sustainable development of the agricultural sector and its strategic points should be investigated, and the scientific principles of its management should be defined. In this case, achieving success in the development of various forms of entrepreneurship in the agricultural sector can lead to stable economic growth and the formation of healthy competition principles.

In order to create favorable conditions for the development of entrepreneurship, the Constitution of the Republic of Azerbaijan includes provisions related to the creation of conditions for the development of the economy based on market relations, the provision of guarantees for entrepreneurship, the formation and development of the competition mechanism, as well as the protection of competition.

**Keywords:** entrepreneurship, innovation entrepreneurship, entrepreneurial environment, entrepreneurship guarantee

**Şəfa Tiflis oğlu ƏLİYEV**
Sumqayıt Dövlət Universitetinin professoru,i.e.d.,
UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzinin Rəhbəri.
ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563

# ŞUŞA ŞƏHƏRİNİN FORMALAŞMASI VƏ İNKİŞAFININ ƏSAS XÜSUSİYYƏTLƏRİ (18-21-Cİ ƏSRLƏR)

**Xülasə**

**Tədqiqatın məqsədi** – 18-21-ci əsrlərdə Şuşa şəhərinin formalaşması və inkişafının əsas xüsusiyyətlərinin araşdırılması və ümumiləşdirilməsidir. Bu məqsədlə Şuşa şəhərinin inkişaf prosesləri təhlil olunmuş və əsas məqamlar ümumiləşdirilmişdir. Şəhərin Qarabağın mərkəzi kimi formalaşmasının başlıca xüsusiyyətləri verilmişdir. 18-19-cı əsrlərdə Şuşa şəhərində sənətkarlıq sahələrinin, həmçinin toxuçuluq və bir çox xidmət sahələrinin inkişaf etməsinin başlıca amilləri baxılmış və sistemləşdirilmnişdir. 20-ci əsrdə Şuşa şəhərinin başına gələn fəlakətlər təhlil edilmiş, xüsusilə keşmir SSRİ dövründə şəhərin Qarabağın mərkəzi statusundan kənarlaşdırılması məsələlərinə toxunulmuşdur. Ümummilli Lider Heydər Əliyevin 1970-1985-ci illərdə Şuşa şəhərinin sosial-iqtisadi inkişafı ilə bağlı gördüyü işlər və tarixi xidmətləri verilmişdir. Böyük Qarabağ Zəfərindən sonra Şuşa şəhərinin strateji rolunun artması və regionun inkişafında aparıcı rol oynamasının başlıca xüsusiyyətləri ümumiləşdirilmiş və uzaq perspktivlər nəzərə alınmaqla, inkişaf prioritetləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın metodu kimi** – əsas etibarilə bir sıra elmi metodlardan - analiz, sintez, müqayisə və ümumiləşdirmə metodları götürülmüşdür. Eyni zamanda, məqalədə baxılan problemlər üzrə elmi əsərləri olan tədqiqatçıların elmi müddəalarına da diqqət yönəldilmişdir.

**Tədqiqatın nəticələri** – məqalədə alınan elmi nəticələrdən Şuşa şəhərinin iqtisadiyyat quruculuğunun modernləşdirilməsi və inkişaf etdirilməsi tədbirlərində istifadə oluna bilər.

**Açar sözləri:** Azərbaycan, Heydər Əliyev, Şuşa, Şuşa şəhərinin tarixi inkişaf prioritetləri, Şuşanın inkişaf xüsusiyyətləri, Şuşanın dirçəldilməsi, Şuşanın iqtisadiyyat quruculuğunun prioritetləri.

**JEL: O12**

## Giriş

Şuşa şəhərinin formalaşması və inkişaf etməsi prosesləri kifayət qədər fundamental araşdırmaları və sistemli yanaşmaları şərtləndirir. Belə ki, bu strateji şəhərin Azərbaycanda dövlətçilik ənənələrinin formalaşdırılmasında, milli dəyərlərinin qorunub saxlanılmasında və milli ruhun inkişafına böyük rolu lmuşdur. Digər tərəfdən, Şuşa elə bir ərazidə yerləşir ki. burada həm təbiətin füsunkarlığı ilə mürəkkəb relyef vəhdət təşkil edir və son nəticədə Şuşa alınmaz bir qala əzəmətini özündə ehtiva edir. Burada həmçinin qədim sənətçilik ənənələrinin formalaşması və inkişaf etməsi, məsələn ipəkçilik sexlərinin fəaliyyət göstərməsi və ipək məhsullarının hazırlanması diqqət çəkirdi. Eyni zamanda əl işləri kimi papaqçılıq, dərziçilik, musiqi alətlərinin düzəldilməsi də geniş yayılmışdır.

Artıq 19-cu əsrin əvvəllərində Şuşa regionun Qarabağın mərkəzi funksiyası rolunu yerinə yetirirdi. Rusiya Qarabağ Xanlığını özünə birləşdirəndən sonrakı dövrdə də Şuşa həmin funksiyanı davam etdirmişdi. Rusiya imperiyasınınn 21 may 1843-cü il tarixli qərarı ilə Şuşa şəhərinə şəhər statusu verilmiş və şəhərin gerbi təsdiq olunmuşdu. Bunlarla bərabər Şuşa Cənubi Qafqazın əsas ticarət mərkəzlərindən birinə çevrilmişdi. 19-cu əsrin sonlarında Şuşa əhalisinin sayı 25,7 min nəfərə yaxın idi. Bu dövrdə Şuşa şəhərinin idarə edilməsində müəyyən dəyişikliklər baş verdi və bütün bunlar şəhərin inkişafına təsir göstərməyə bilməzdi. Məsələn, 1841-ci ildə Şuşa qəzası mərkəzi Şuşa olmaqla öz daxilində Cavanşir, Cəbrayıl və Zəngəzur nahiyələrinə bölündü. Bir müddətdən sonra – 1846-cı ildən Şuşa qəzası Şamaxı, 1859-cu ildən Bakı, 1865-ci ildən sonra Yelizavetpol quberniyalarının tərkibinə verildi. Bütün bu ciddi hadisələr və onların yaratdığı fəsadlar əhalinin dinamikasına, mexaniki hərəkətinə əhəmiyyətli dərəcədə təsir edirdi [1, s. 18].

20-ci əsrdə də Şuşanın sosial-iqtisadi inkişafına mənfi təsir göstərən hadisələr və faktlar çox olmuşdur. İrəlidə bunlar barəsində qeydlər veriləcəkdir. Lakin, qeyd etmək istərdik ki, Şuşa üzərində nə qədər qara buludlar artsa da Şuşa

şəhəri özünün milli koloritini və milli ruhunu saxlaya bilmişdir.

21-ci əsrdə isə Şuşa şəhəri bütün çətinliklərdən üzü ağ çıxaraq, bütün dünya Azərbaycanlılarının və bütövlükdə Türk dünyasının qəhrəmanlıq və igidlik rəmzinə çevrilə bildi. Şuşanın işğaldan azad edilməsi və bütün dünyada hərb dərsliklərinə düşməyə iddialı olan Şuşa döyüşləri, Şuşa fatehlərinin qəhrəmanlıqları bir dastana çevrilmişdir. Hazırda Şuşanın intensiv olaraq dirçəldilməsi, bütövlükdə Qarabağ bölgəsini və işğaldan azad olunmuş ərazilərin nə dərəcədə müqəddəs və strateji olmasının ifadəsi kimi də qiymətləndirilə bilər. Şuşa dirçəldikcə, işğaldan azad olunmuş torpaqlar yenidən qurulduqca – Azərbaycan dövlətinin qüdrəti və beynəlxalq imici daha da artmaqdadır. Müstəqil Azərbaycanın regionda güclü dövlət kimi formalaşmasında Şuşanın dirçəldilməsini müstəsna əhəmiyyəti vardır.

### XVIII-XIX əsrlərdə Şuşa şəhərinin formalaşması proseslərinin təhlili

18-19-cu əsrlərdə Şuşa şəhərinin formalaşması prosesləri baxımından qeyd etmək istərdik ki, artıq 18-ci əsrin sonlarından etibarən Şuşanın Cənubi Qafqazda rolu xeyli genişlənmişdi. Şəhərin meydanında ticarət qaynayırdı, burada ticarət mərkəzləri fəaliyyət göstərirdi, eyni zamanda sənmətkarlıq obyektləri işləyirdi, karvansaraylar var idi. Nəticədə dünyanın bir çox regionlarından – Avropa ölkələrindən, Osmanlı imperiyasının müxtəlif məkanlarından, hindistan və Rusiya imperiyasından gələn tacirlər Şuşada bir araya gəlirdi və ticarət yarmarkalarından alver edirdilər. Burada əsasən ipək parçalar, boya məhsulları, həmçinin digər mallar satılırdı. Yəni Şuşa mədəniyyət mərkəzi olmaqla bərabər, həm də bir ticarət mərkəzi kimi inkişaf edirdi. Əvvəldə qeyd etdiyimiz kimi Şuşada müxtəlif sənətkarlıq obyektləri var idi və bunlar əsasən toxuculuq, dərziçilik, dulusçuluq kimi sahələri əhatə edirdi. Maraqlı bir fakta diqqət yetirmək olar ki, XIX əsrdə Şuşada 500-dən çox toxuculuq dəzgahı var idi və bunların sayəsində ipək xammalı, həmçinin digər parça növlərinin istehsalı üzrə işlər gedirdi. Bütün bunlar Şuşa şəhərinin Qarabağın mərkəzi kimi formalaşmasında böyük əhəmiyyət kəsb etmişdir [2]. Digər tərəfdən, həmin dövrdə Şuşa şəhərində əhalinin rahat yaşaması üçün məhəllələr tikilmiş və eyni zamanda abidələr, yəni milli koloritə malik abidələr inşa olunmuşdur. Tarixən Şuşanın mövqeyinə, tarixi-iqtisadi və coğrafi, mədəni amillərinə görə müxtəlif formada təsvir etmişlər. Məsələn, XIX əsrin II yarısında Şuşa Qafqazın konservatoriyası kimi məşhurlaşmışdır, Azərrbaycanlılar isə Şuşanı ilk növbədə milli musiqmizin beşiyi kimi qiymətləndirmişlər. Burada tarixi abidələr və ziyarətgahlar kifayət qədərdir, həm də bu abidələrin əksəriyyəti Şuşanı tikibquranlar, onu inkişaf etdirənlərlə bilavasitə bağlıdır. Bu sırada Pənah Xanın sarayı, İbrahim Xanın bürcü, İbrahim Xanın qəsri, Natəvanın evi və s. qəbildən olan abidələr və tarixi memarlıq nümunələri Azərbaycan xalqının milli sərvətləri kimi dəyərləndirilə bilər. İsa bulağı isə hər tərəfdən insanları ora cəlb edən bir məkan olmuşdur. Ümumən Şuşa XIX əsrdə geniş inkişaf yolu keçmişdir. Akademik Z.Ə.Səmədzadənin tədqiqatlarında qeyd edilir ki, Şuşa şəhəri özünün sənətkarlıq məhsulları ilə şöhrət qazanmışdı. XIX əsrin əvvəllərində şəhərdə 50-dən artıq sənət sahəsi üzrə ixtisaslaşmış böyük sənətkarlar ordusu fəaliyyət göstərirdi. Onların arasında toxucular, papaqçılar, çəkməçilər, dərzilər, dülgərlər, həllaclar çoxluq təşkil edirdi. Şəhər Azərbaycanda xalça istehsalının mühüm mərkəzlərindən biri idi. XIX əsrin sonlarında dünya bazarlarında Azərbaycan xalçalarına tələbatın artması Şuşada xalçaçılığın daha da inkişaf etməsinə səbəb oldu. XIX əsrin sonu, XX əsrin əvvəllərində Şuşada 8 boyaqxana fəaliyyət göstərirdi. Şuşada istehsal olunan yəhərlər, başmaqlar, ayaqqabılar, çarıqlar yüksək keyfiyyəti ilə seçilirdilər. XIX əsrin sonlarında Şuşada 78 nəfər zərgər müxtəlif növ baş, boyun, sinə, qulaq, bel, qol və barmaq üçün zərgərlik məmulatları hazırlayırdılar [3, s. 99].

Qeyd edək ki, Şuşa şəhərinin inkişaf proseslərində Rusiya imperiyasının təsiri daha çox olmuşdur və bu da şəhərin Rusiya imperiyasına tabeçiliyi ilə əlaqəli idi. XIX əsrin II yarısında Şuşalı sənətkarlar Moskvada keçirilən sərgilərdə iştirak edirdilər. Amma təkcə Moskva yox, həm də Vyana və Marsel şəhərləri ilə də ticarət və sənərkarlıq əlaqələri mövcud idi. Əvvəldə qeyd etdiyimiz kimi kapitalizmin inkişafı ilə əlaqədar olaraq Şuşada bir sıra müəssisələrin tikintisi də həyata keçirilmişdir və artıq sənaye müəssisələri yaranmağa başlamışdır. “XVIII əsrin ikinci yarısında Yaxın Şərqə, Türküstana və Avropaya gedən karvan yolları ayrıcında yerləşən Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün yunu, xalçası, ipəyi, dərisi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxa bilmiş, istehsal etdiyi

sənaye və kənd təsərrüfatı məhsullarını Tehran, Təbriz, İstanbul, Bağdad, Səmərqənd, Moskva, Həştərxan kimi böyük şəhərlərdə sata bilmişdi. XX əsrin əvvəllərində şəhərdə 1464 dükan qeydə alınmışdı ki, bunların da bazarlarla birlikdə illik ticarət dövriyyəsi 6 milyon rubla çatmışdı. XVIII əsrin 80-ci illərində şəhərin dövrəsinə möhtəşəm qala divarları çəkilib başa çatdırıldı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri yaranır, ticarət daha sürətlə inkişaf edirdi. Şuşalı tacirlər Təbriz, Tehran, İsfahan, İstanbul, Bağdad, Səmərqənd, Moskva, Leypsiq, London, Mançester, Marsel və başqa şəhərlərlə ticarət əlaqələri saxlayırdı. Şəhərdə "Pənahabadi" adlı gümüş sikkələr zərb edilirdi" [4].

XX əsrin əvvəllərində Şuşa artıq regionun mərkəzi statusuna malik inkişaf etmiş mədəniyyət və ticarət mərkəzi kimi cəlbedici bir şəhər idi.

**XX-XXI əsrlərdə Şuşa şəhərinin inkişaf xüsusiyyətləri və prioritetləri**

XX əsrin əvvəllərində Şuşa Qarabağın inzibati-siyasi mərkəzi kimi statusa malik idi, lakin sovetlər birliyinin yaranması ilə Azərbaycan demokratik respublikasının süqut etməsi, bolşeviklərin hakimiyyətə gəlməsi Şuşa şəhərinə də bəlalar gətirdi. 1920-ci illərin əvvəllərindən başlayaraq ermənilərin fitnə-fəsadları ilə şəhərin seçilib sayılmış bəyləri və nüfuzlu sakinləri təqiblərə məruz qalmış, güllələnmiş və ya həbs olunmuşdur. İlk vaxtlar Şuşa şəhəri o vaxt yaradılan qondarma Dağlıq Qarabağın inzibati mərkəzi olaraq müəyyənləşdirilmişdir. Lakin sonralar bu vilayətin mərkəzi kimi Xankəndi seçilmişdir və bununla da Şuşanın ağır günləri başlamışdır. Şəhərə ögey münasibət formalaşmış, şəhər əhalisinin tərkibinin dəyişdirilməsi üçün erməniləşdirmə amili ön plana çıxmışdır. nəticədə Şuşa şəhərində əhalinin sayında azalmalar baş vermiş və şəhərin sosial-iqtisadi inkişafında ləngimələr yer almışdır.

Bu cür yanaşmalar 1970-ci ilədək davam etmişdir. Lakin ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikası kominist partiyası rəhbərliyinə gələndən sonra Şuşa şəhərinin sosial-iqtisadi inkişafında yeni mərhələ başlamışdır. Heydər Əliyev Şuşa şəhərinə şəxsən səfərlər etməklə, buradakı problemləri yerindəcə öyrənir və onların aradan qaldırılması üçün zəruri tədbirlər görürdü. Şəhərin abadlaşdırılması məqsədilə daha çox vəsait ayrılır, əsaslı kapital qoyuluşu zamanı mühüm sosial və istehsal sahələrinin yaradılması problemləri nəzərə alınırdı [5]. Bir-birinin ardınca tədbirlər keçirilir, festivallar təşkil olunur və Şuşanın qarabağın mərkəzi statusunu özünə qaytarmaq üçün davamlı işlər görülürdü. Lakin SSRİ-nin dağılması və separatçılıq hallarının baş qaldırılması nəticəsində 1990-cı illərin əvvəllərində erməni silahlı qüvvəlləri Azərbaycan torpaqlarının 20 %-ni işğal etdilər və müqəddəs şəhərimiz olan Şuşa da işğala məruz qaldı.

İkinci dəfə hakimiyyətə gələn Heydər Əliyev 1993-cü ilin ortalarından başalayaraq, Azərbaycanda siyasi və iqtisadi sabitliyin bərqərar edilməsinə nail oldu [6]. Neft strategiyası həyata keçirildi, islahatlar aparıldı və müasir ordu quruculuğuna başlanıldı. 2004-cü ilin əvvəllərindən başalayaraq, prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda hərtərəfli siyasi və iqtisadi islahatlar reallaşdırıldı. Azərbaycan dövləti daha da gücləndir və Azərbaycan regionun dinamik inkişaf edən ölkəsinə çevrildi. Əsas hədəflərdən biri də müasir və rəşadətli Azərbaycan ordusunun yaradılması və torpaqlarımızın işğaldan azad edilməsi idi. Bu tarixi an Azərbaycan xalqına və bütün Türk dünyasına 2020-ci ilin sentyabr ayının 27-dən başalyan və 44 gün davam edən Böyük Qarabağ Zəfəri nəticəsində nəsib oldu.

Torpaqlarımızın azad edilməsində önəmli və aparıcı, motivasiyaedici məqamlardan biri məhz Şuşa uğrunda gedən döyüşlər olmuşdur. Şuşanın düşmənlərdən azad edilməsi hərb tarixinə düşmüşdür və Azərbaycan ordusunun qəhrəmanlıq səlnaməsinə qızıl hərflərlə yazılmışdır. Zəfər qələbəsindən sonra qarşıda tarixi quruculuq və dirçəliş işləri dururdu.

İşğaldan azad olunmuş ərazilərin bərpa edilməsi və dirçəldilməsi istiqamətində konseptual yanaşmalar formalaşdırılmış və gecikdirilmədən layihələrin icrasına başlanılmışdır. Ölkə üzrə regional idarəetmə formalarının təkmilləşdirilməsi və iqtisadi rayonların yaradılmasında tarixi-coğrafi və digər mühüm amillərin nəzərə alınması məqsədilə yeni rayonlaşdırma bölgüsü aparılmışdır [7]. Nəticədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları təşkil olunmuşdur. Həmin iqtisadi rayonların yaradılması işğaldan azad olunmuş ərazilərin bərpasında zəruri olan addımların atılması baxımından mühüm əhəmiyyət kəsb edir, belə ki, hər bir iqtisadi rayonun özünəməxsus xüsusiyyətlərinin əzərə alınması mümüknü olacaqdır [8]. Bu iqtisadi rayonların yaradılması ilə ölkəmizdə yeni iqtisadi

inkişaf drayverlərinin formalaşdırılması və iqtisadi artım mənbələrinin yaradılmasında önəmli addımlar atılmışdır [9]. Yeni yaradılan iqtisadi rayonlar işğaldan azad olunmuş ərazilərin dirçəldilməsində zəruri olan resurs potensialının formalaşdırılmasında, onlardan səmərəli istifadə edilməsində xüsusi əhəmiyyət kəsb edəcəkləri [10].

Şübhəsiz bərpa və dirçəliş tədbirlərində əsas diqqətlər Şuşa şəhərinə yönəldilmişdir. Belə ki, Şuşa şəhərindən formalaşan iqtisadi inkişaf impulsları bütövlükdə Qarabağ iqtisadi rayonunun daha intensiv şəkildə bərpa edilməsi, sahəvi iqtisadiyyat quruculuğunun yaradılması, dirçəliş tədbirlərinin yüksək səviyyədə təşkil edilməsi anlamına gəlir [11]. Bir çox mütəxəssislərin, çoxsaylı tədqiqatçıların, ictimai xadimlərin yekdil fikrinə görə Şuşanın sosial-iqtisadi yüksəlişi və dirçəldilməsi, ümumən müasir dövrdə işğaldan azad olunmuş ərazilərin daha tez, kompleks və sistemli şəkildə bərpa edilməsi ilə bərabər, həm də Azərbaycanın tərəqqisinin yeni zirvəsi kimi çıxış edir [12].

Şuşa şəhərinin Qarabağın mərkəzi kimi formalaşması, onun regionda və Türk dünyasında strateji rolunun artması prosesləri sürətlənməkdədir [13].Təsadüfi deyildir ki, bütün türk dünyası üçün mühüm əhəmiyyət kəsb edən və Azərbaycanla Türkiyə arasında qardaşlığı və müttəfiqliyi ən yüksək səviyyə qaldırılmasını özündə ehtiva edən  Şuşa Bəyannaməsi – məhz Şuşa şəhərində imzalanmışdır [14]. Hazırda əsas prioritetlər şəhərin sosial-iqtisadi inkişaf hədəflərinin sürətləndirilməsi və keçmiş məcburi köçkünlərin şəhərə qayıtmasının təmin edilməsidir. Eyni zamanda, şəhərdə aparılan çoxsaylı quruculuq və tikinti işlərinin dairəsinin genişləndirilməsi də vacib hesab olunur. Bu işlərdə dövlət büdcəsindən ayrılan vəsaitlərlə yanaşı, özəl sektorun və xarici investorların yatıracağı sərmayələrdəndə istifadə edilməsi məqsəduyğun olardı və bu özünü dünya təcrübəsində doğrultmuşdu. Hesab edirik ki, Şuşanın investisiya cəlbediciliyini artırmaq üçün kifayət qədər resurslar mövcuddur [15]. Eyni zamanda 2026-cı ilədək olan dövr üçün sosial-iqtisadi inkişaf strategiyası çərçivəsində prioritet hədəflərin olması işğaldan azad olunmuş ərazilərin daha sürətlə bərpa edilməsinə əlavə imkanlar formalaşdırmışdır [16]. Bunlarla bərabər, ölkə Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda Şuşanın dirçəldilməsi ilə bağlı olan genişmiqyaslı tədbirlər də diqqət çəkir [17].

**Nəticə**

Yaxın illərdə Şuşa şəhərinin Qarabağın mərkəzi kimi daha da inkişaf etdirilməsi məqsədilə bir sıra tədbirlərin xüsusi diqqət mərkəzində saxlanılması səmərə verə bilər:

– Şuşa şəhərinin iqtisadiyyat quruculuğunun onun resurslarına və mövcud imkanlarına uyğun şəkildə formalaşdırılması və təşkili mühüm əhəmiyyət kəsb edir.

– şəhərin mədəniyyət mərkəzi kimi daha çox xarakterizə edilməsi və türk dünyasının mədəniyyət mərkəzi kimi qiymətləndirilməsi amilləri nəzərə alınmaqla, burada mədəniyyət iqtisadiyyatı modelinin yaradılması və inkişaf etdirilməsi üzrə məqsədli fəaliyyət strategiyası hazırlanması və tətbiq edilməlidir.

– Şuşa şəhərində dövlət-özəl sektor əməkdaşlığının mütərəqqi dünya təcrübəsinin tətbiq edilməsi, milli ruhda olan layihələrin həyata keçirilməsində özəl sektorun rolunun genişləndirilməsi məqsədilə xüsusi qrant müsabiqələri keçirilməli, layihələr hazırlanmalı və işlək maliyyə kredit mexanizmləri təklif olunmalı, mövcud güzəştlər paketi daha da təkmilləşdirilməli və bu qeyd olunanların reallaşdırılması tədbirləri görülməlidir və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Şuşa-270. Şuşanın demoqrafik, sosial-iqtisadi inkişafı: dünən, bu gün və perspektivlər. Bakı, – 2022. – 268 s.

2. Əliyev, Ş.T. Heydər Əliyevin Şuşa şəhərinin Qarabağin mərkəzi kimi qorunmasinda və inkişaf etdirilməsində tarixi rolu / SDU-nun rəsmi saytı. 08.05.2023. - https://sdu.edu.az/az/news_society/119?fbclid=IwAR1Uw2mwN6LFhNI3IRDM0v-jwkjJZkpo9rJK4iUOBRagAH9F0o5qcvI9Mso. Google Scholar - https://scholar.google.com/citations?user=iLFtk9wAAAAJ&hl=ru.

3. Səmədzadə, Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə: 5 cild/ Z. Səmədzadə; [baş red. A. Səmədzadə; red. Y. Məmmədova]. Bakı: Kitab Çapı, 2022. – 856 s.

4. Şuşa - Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı. https://azertag.az/xeber/Susa_Azerbaycanin_tarixi_ve_strateji_ehemiyyetli_medeniyyet_paytaxti-1921706.

5. Əliyev, Ş,T., Cəbiyev, F.A. Şəhərinin sosial-iqtisadi inkişafinin təmin edilməsində

Heydər Əliyevin rolu // "İnnovasiyalı iqtisadiyyat və menecment" jurnalı, Bakı 2023, №1, S.11-18.

6. Aliyev, Sh.T. Bağımsız Azerbaycan devletinin kurucusu. AK GAZETE 14 Mayıs, 2023 Kaynak Linki = https://www.akgazete.com.tr/makale/bagimsiz-azerbaycan-devletinin-kurucusu-396; Google Scholar. https://scholar.google.com/citations?view_op=view_citation&hl=ru&user=iLFtk9wAAAAJ&pagesize=100&citation_for_view=iLFtk9wAAAAJ:VaXvl8Fpj5cC.

7. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. – Bakı, – 7 iyul 2021-ci il.

8. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. // Geostrategiya jurnalı, – 2021. № 04 (64), – s.67-72.

9. Гасымлы, В. Карабах и Восточный Зангезур будут новым драйвером экономического роста в Азербайджане / В.Гасымлы // Интерактивная наука. – 2022. № 3(68), – с. 69-70.

10. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана // "Вопросы истории", Москва, 2022 №06,с.148-155. https://elibrary.ru/item.asp?id=48808624 (Web of science; Scopus).

11. Алиев, Ш.Т. Стратегическая важность возрождения Шуши в интенсификации социально-экономического развития Карабахского экономического района /VII Международная Научно-Практическая Конференция «Современные тенденции развития науки и мирового сообщества в эпоху цифровизации», – Москва, – 30 июня 2022. –с. 321-329.

12. Şuşanin Sosial-İqtisadi Dirçəldilməsi – Azərbaycanın Tərəqqisinin Yeni Zirvəsidir - adlı ümumrespublika elmi məqalə müsabiqəsinin Elektron məqalə toplusu. Bakı-2022. Elektron-kitab. UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi, 30.12.2022.- http://unec.edu.az/application/uploads/2022/03/Kitab-m-sabiqe.pdf?fbclid=IwAR2z1Sir8_8Em_kEoVd_j_apQDKTcDPbdOQxpCvhMEihh4CmsTP2iXgGDc.

13. Əliyev, Ş.T. Şuşanın dirçəlişi bütün Türk dünyasının yüksəlişidir. Demokratik.az saytı- 24 may 2022. https://demokratik.az/xeberler/siyaset/29739-professor-shefa-eliyev-shushanin-dircelishi-butun-turk-dunyasinin-yukselishidir.html.

14. Əliyev, Ş.T., Şuşa Bəyannaməsi – Azərbaycan Türkiyə qardaşlığını və müttəfiqliyini misli görünməmiş səviyyəyə qaldırmaqdadır. "İki sahil" qəzeti / saytı. 15 iyun 2022. http://ikisahil.az/post/321035-shusha-beyannamesi-azerbaycan-turkiye-qardashligini-ve-muttefiqliyini-misli-gorunmemish-seviyyeye-qaldirmaqdadir.

15. Алиев, Ш.Т., Аббасова, Ч.И., Гамидова, А.М. Оценка потенциала и пути развития Карабахского экономического района Азербайджана / VIII International Scientific and Practical Conference International forum: problems and scientific solutions held in Melbourne, Australia. Scientific collection «interconf», September 6-8, 2021, № 73, p. 7-15. https://ojs.ukrlogos.in.ua/index.php/interconf/article/view/14257/13074.

16. Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası. Bakı, – 22 iyul 2022.

17. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. AR Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

**Шафа Тифлис оглы АЛИЕВ,**
Профессор Сумгаитского Государственного Университета, д.э.н.
Руководитель Центра Исследования Экономики Карабаха UNEC.
ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563

## ФОРМИРОВАНИЕ И ОСНОВНЫЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ ГОРОДА ШУША (18-21 ВЕКА)

### Резюме

***Цель исследования*** – процессы формирования и определения основных особенностей развития города Шуша в 18-21 веках. С этой целью последовательно анализированы и

обобщены исторические процессы развития города Шуша. Даны ключевые особенности формирования города Шуша в качестве центра Карабаха. Рассмотрено и систематизировано развитие искусствоведения, текстильной сферы и других сфер услуг в городе Шуша в 18-19 веках. Анализированы негативные воздействия и процессы, способствующие отдалению города Шуша от статуса центра Карабаха в 20 веке при бывшем СССР. Особо отмечены исторические заслуги и проводимые работы Общенационального Лидера Гейдара Алиева по социально-экономическому развитию города Шуша в 1970-85-х годах. Обобщена стратегическая роль города Шуша после Великой Карабахской Победы в регионе и определены основные приоритеты развития города с учётом долгосрочной перспективы.

***Метод исследования*** - в основном, состоит из ряда научных методов - анализа, синтеза, сравнения и обобщения. Одновременно, учтены научные труды отдельных учёных, исследующих процессы формирования и развития города Шуша.

***Результаты исследования*** рассматриваются с возможностью использования полученных научных результатов, которые могут использоваться в модернизации структуры экономики и подготовке комплексных мероприятий по развитию города Шуша.

***Ключевые слова***: Азербайджан, Гейдар Алиев, Шуша, приоритеты исторического развития города Шуша, особенности развития города Шуша, возрождение города Шуша, приоритеты экономического построения города Шуша.

**Shafa Tiflis ALIYEV,**
Professor at Sumgait State University.
Head of the UNEC Centre for Karabakh Economic Research.
ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563

## THE FORMATİON AND MAİN FEATURES OF THE DEVELOPMENT OF THE SHUSHA CİTY (18TH-21ST CENTURİES)

### Summary

*The purpose of the research* is the processes of formation and determination of the main features of the development of the Shusha city in the 18th and 21st centuries. The historical processes of the development of the city of Shusha are analyzed for this purpose. Key features of the formation of the city of Shusha as the center of Karabakh are given. The development of art history, textile sphere and other service spheres in the city of Shusha in the 18th-19th centuries is considered. Negative impacts and processes contributing to the distance of the city of Shusha from the status of the center of Karabakh in the 20th century under the former USSR are analyzed. The historical merits and works of the National Leader of Heydar Aliyev on the socio-economic development of the city of Shusha in the 1970-85s are especially noted. The strategic role of the city of Shusha after the Great Karabakh Victory in the region is summarized and the main priorities for the development of the city are determined taking into account the long-term perspective.

*The research method* mainly consists of a number of scientific methods - analysis, synthesis, comparison and generalization. At the same time, the scientific works of individual scientists investigating the processes of formation and development of the city of Shusha are taken into account.

*The results of the research* are considered with the possibility of using the obtained scientific results, which can be used in the modernization of the structure of the economy and the preparation of complex measures for the development of the city of Shusha.

***Key words:*** Azerbaijan, Heydar Aliyev, Shusha, priorities of historical development of Shusha city, features of Shusha city development, revival of Shusha city, priorities of economic construction of Shusha city.

**Fuad Zakir oğlu ABBASOV, i.f.d., dos.**

**Ərturqut Şikar oğlu BAĞIROV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Ayşə Seydi qızı ƏHMƏDOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: leqendav81@mail.ru

# BİZNESDƏ KONTROLİQ SİSTEMİNİN TƏŞKİLİ VƏ STRATEJİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

İnsan resursları sosial-iqtisadi kateqoriya olub, cəmiyyətin (ölkənin) malik olduğu fiziki və intellektual imkanların məcmusunu təşkil edir. İnsan resurslarının xüsusiyyəti ondan ibarətdir ki, ilk növbədə insanlar nə qədər çox peşə fəaliyyətinə qoşulurlarsa, bir o qədər çox həyat və peşə təcrübəsi qazanır, bir o qədər az vaxt ərzində peşə vəzifələrini daha keyfiyyətlə yerinə yetirir, ölkə, müəssisə, təşkilat və s. üçün daha çox dəyərlər yaradırlar; ikincisi, insanlar sosial idarəetmənin ən mürəkkəb obyektidir; üçüncüsü, insanların peşəkar olması üçün fəaliyyət növlərinin peşəkarlaşması çoxlu kapitaltutumluluğu tələb edir; dördüncüsü, peşəkarların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi onların imkanlarının düzgün idarə edilməsi sisteminin yaradılması ilə əldə edilir. İnsan potensialının idarə edilməsinin mahiyyəti ondan ibarətdir ki, insanlar rəqabət obyekti olaraq məqsədə çatmaq üçün başqa resurslarla yanaşı səmərəli yerləşdirilməli, inkişaf etdirilməli və motivləşdirilməlidirlər. İnsan resurslarının idarə edilməsi idarəetmə təcrübəsini biznes strategiyası ilə əlaqələndirir. Buna görə də, o, innovasiya xarakteri daşıyır və son məqsəd kimi ölkənin (müəssisənin, təşkliatın, kompaniyanın) iqtisadi nəticələrinin yüksəldilməsi və əhalinin tələbatının ödənilməsi vəzifəsini qarşıya qoyur.

**Açar sözlər**: sahibkarlıq, kommersiya, biznes, istehsal.

JEL: **H16**

**Giriş**

İqtisadi ədəbiyyatda «biznes» termininin müxtəlif anlayışlarına rast gəlinir. Məsələn, Alan Xoskinq biznesə belə tərif vermişdir: «Biznes təbii nemətlərin hasilatı, əmtəənin istehsalı, yaxud əldə edilməsi və satışı, digər əmtəələrin dəyişdirilməsində xidmətlərin göstərilməsi, maraqlı şəxslərin, yaxud təşkilatların qarşılıqlı gəlirinə xidmət, pul üzrə fiziki şəxslərin, müəssisələrin və təşkilatların həyata keçirdikləri fəaliyyətdir». Biznes proses kimi müəyyən funksiyaları: maliyyə və uçot, kadr və maddi-texniki təminat, istehsal, marketinq, elmi-tədqiqat və layihə işlərini nəzərdə tutur. Digər iqtisadçılar biznesə müəyyən struktur çərçivəsində təşkil edilən, məqsədi və nəticəsi gəlir götürmək olan konkret iqtisadi fəaliyyət növü kimi baxırlar.

Beləliklə, istənilən biznesin müəssisə şəklində öz iqtisadi-təşkilati forması olur. Müəssisə oxşar mühitdən bazarda ayrılmağa cəhd edərək firma adı və atributları şəklində öz fərqli cəhətlərini yaradır. Burada biznes anlayışı genişdir: biznesə təkcə fəaliyyət prosesi kimi deyil, həm də mülkiyyət obyekti kimi baxılır, hansı ki, satmaq, girov qoymaq, sığortalamaq, vəsiyyət etmək olar. Bu halda biznes saziş, əmtəə obyektinə çevrilir.

Biznes ticarət-istehsal-ticarət sxemi üzrə əmtəənin son istehlakçıya çatdırılması ilə əlaqədar həyata keçirilən fəaliyyətdir. Deməli, biznes təkcə kommersiya fəaliyyəti deyil, həm də istehsal sferasında həyata keçirilən fəaliyyət növüdür.

Aydındır ki, iqtisadiyyatın bütün sahələrində və təkrar istehsalın bütün fazalarında işgüzar münasibətlər qurulur, biznes fəaliyyəti həyata keçirilir.

«Biznes» və «sahibkarlıq» anlayışları bir-biri ilə sıx əlaqədardır və çox vaxt onlar sinonim kimi işlədilir. Lakin kəsb etdiyi mənalara görə bu anlayışlar bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər.

Biznes və sahibkarlıq anlayışları təkamül prosesi keçmiş və onların mahiyyətinə aydınlıq gətirilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında və "Sahibkarlıq fəaliyyəti haqqında" Qanununda təsbit edilmişdir ki, fiziki və hüquqi şəxslər qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında müstəqil biznes fəaliyyəti ilə məşğul olmaq hüququna malikdirlər.

Biznes – istehlakçıların tələbatının ödənilməsi və mənfəətin (gəlirin) əldə edilməsi məqsədilə təşəbbüskar insanlar arasında işgüzar münasibətlərin məcmusudur. Biznes və onun mühüm istiqaməti olan sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsidir, iqtisadi artım tempini, ümumi daxili məhsulun strukturunu və keyfiyyətini müəyyən edir. Biznesin inkişafı demokratik prinsiplərə və azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşması və davamlı inkişafına kömək edir. Belə ki, müasir biznesin sürətli inkişafı sayəsində Azərbaycan iqtisadiyyatında qeyri-dövlət sektoru aparıcı mövqeyə çıxmış, yəni ümumi daxili məhsulda onun payı 81 faizə çatmışdır.

Biznes fəaliyyətini inkişaf etdirmək və milli iqtisadiyyatda onun rolunu artırmaq üçün "Biznesin təşkili və idarə edilməsi" ixtisası üzrə yeni kadrların hazırlanması məsələsi zəruriyyətə çevrilmişdir. Biznesin məqsədi dedikdə, müəssisənin kifayət qədər uzun müddət ərzində nail olmağa cəhd etdiyi son nəticə başa düşülür. Biznesin məqsədi xarakterindən, inkişaf səviyyəsindən və s. amillərdən asılı olaraq müxtəlif ola bilər. Biznesin məqsədinə çatmaq üçün konkret vəzifələrin həlli nəzərdə tutulur. Biznes məqsədlərinin düzgün seçilməsi və yerinə yetiriləcək konkret vəzifələrin müəyyənləşdirilməsi müəssisənin potensial imkanlarının tam səfərbərliyə alınmasına, əmək, material və maliyyə resurslarından daha səmərəli istifadə edilməsinə imkan verir.

Biznesin növləri sahibkarın əsas fəaliyyət sferasını müəyyənləşdirir. Biznesin bütün növləri ayrıca, yaxud birlikdə fəaliyyət göstərə bilər [1].

İstehsal biznesi - çoxşaxəli biznes fəaliyyətinin aparıcı və mürəkkəb növü hesab edilir. İstehsal biznesində məhsul istehsal edilir, iş və xidmətlər yerinə yetirilir, müəyyən mənəvi dəyərlər yaradılır. İstehsal biznesinin üstün sürətlə inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməlidir, çünki o, digər biznes növlərinin inkişaf istiqamətlərini müəyyənləşdirir. İstehsal biznesinin tərkibinə məhsul və xidmətlər istehsalı və onların istehsal istehlakı, innovasiya, elmi-texniki fəaliyyət və s. aiddir.

İstehsal biznesi ilə məşğul olan şəxs, hər şeydən əvvəl, istehsal edəcəyi məhsulu və göstərəcəyi xidmət növünü müəyyənləşdirməli, potensial istehlakçını axtarıb tapmalı və onunla əlaqə qurmalıdır. Bazar iqtisadiyyatının inkişaf etdiyi qərb dövlətlərində sahibkarla potensial istehlakçı arasında şifahi razılaşmalar etibarlı təminat sayılır, yalnız zəruri hallarda bu razılaşma sonradan saziş formasında bağlanıla bilər. Bazar iqtisadiyyatına keçid dövründə sahibkarla istehlakçı arasında şifahi razılaşma çox vaxt etibarlı olmur.

**Konsultativ biznes** - mütəxəssislər tərəfindən verilən ödənişli məsləhətlər şəklində həyata keçirilir. Dünya təcrübəsində idarəetmə məsələləri üzrə kommersiya məsləhəti və ödənişli məsləhət verilməsi "konsaltinq" adlanır. İqtisadiyyat və idarəetmə üzrə Məsləhətçilər Assosiasiyasının Avropa Federasiyasının verdiyi tərifə görə Menecment Konsaltinq problemlərin, yaxud imkanların müəyyənləşdirilməsi, qiymətləndirilməsi və reallaşdırılmasına dair müvafiq tədbirlər və tövsiyələr daxil olmaqla idarəetmə məsələləri üzrə müstəqil məsləhətlər verməkdən və köməklik göstərməkdən ibarətdir. Sənayecə inkişaf etmiş ölkələrdə konsultativ xidmət formasında intellektual mülkiyyətə qoyulan vəsait yeni avadanlığa və mütərəqqi texnologiyaya qoyulan vəsaitdən heç də az səmərə vermir.

Məsləhətləşmənin müxtəlif metodları vardır. Onlardan ən çox tətbiq edilən və məqbul sayılanı ekspert, proses və öyrədilmə metodlarıdır. Ekspert məsləhətləşməsi konsaltinqin ən passiv forması sayılır. Burada məsləhətçi sərbəst diaqnostikanı həyata keçirir, qərarları və onların tətbiqi üzrə tövsiyələri hazırlayır. Bu zaman müştəri yalnız məsləhətçini lazımi informasiyalarla təmin edir. Proses məsləhətləşməsində konsaltinq firmasının mütəxəssisləri layihənin

işlənilməsinin bütün mərhələlərində müştərini öz ideyasını və təklifini söyləməyə vadar edərək onunla fəal surətdə qarşılıqlı hərəkət edirlər; məsləhətçi müştəri ilə birlikdə problemi təhlil edir və təkliflər hazırlayır. Öyrədilmə məsləhətləşməsində mütəxəssisin başlıca vəzifəsi ideyanın baş verməsi və qərarların qəbulu üçün lazımi zəmin hazırlamaqdır. Bu məqsədlə mütəxəssislər müştəriyə mühazirə oxuyur, seminar məşğələsi keçir, bütün zəruri nəzəri və praktiki informasiyalar təqdim edərək müştəri üçün dərs vəsaiti hazırlayır. Təcrübədə adı çəkilən məsləhətləşmə metodlarından heç biri təmiz şəkildə tətbiq edilmir, bir qayda olaraq üçünün birgə kombinasiyasından istifadə olunur [2].

Bazar iqtisadi sistemində insan resurslarının və kadrların idarə olunmasında əsas məqsəd kimi onların potensial gücündən, kreativ insanlardan maksimal şəkildə istifadə olunmsıdır. Hal-hazırda müəssisələrin, firmaların və şirkətlərin fəaliyyət sferasında insan resurslarının rolunun yüksəlməsi insan amilinin, onun intellektual və yaradıcı funksiyasına formalaşan zəruri tələbatdan qaynaqlanır. İnsan resursları müəssisələrin və təşkilatların həyatında xüsusi önəm daşıyır. Bu nöqteyi-nəzərdən müəssisədaxili fəaliyyətin səmərəliliyini təmin etmək və bunu ümumi keyfiyyətin artırılmasına doğru yönləndirmək ən əsas vəzifələrdəndir.

İnsan resurslarının idarə olunması müəssisənin tələblərinə cavab verən kadr ehtiyatlarının toplanması, təkmilləşdirilməsi, ixtisaslaşdırılması, müəyyən edilməsi, yerləşdirilməsi, qiymətləndirilməsi və onların əmək fəaliyyətinin təşviq edilməsi və stimullaşdırılması, əməklərinin qarşılığının ödənilməsi kimi məsələləri özündə birləşdirir. İnsan resurslarının idarə edilməsi müəssisə iqtisadiyyatının əsas hissələrindən olduğu üçün, bu, həm də təşkilatlar haqda təlimin tərkib hissələrindəndir. Bu, həm də dövlətin və firmanın insan kapitalı və kadr siyasəti ilə bilavasitə münasibətdədir. Buna görə də dissertasiya işində insan resurslarının ayrı-ayrı istiqamətləri birlikdə araşdırılmış və tədqiq olunmuşdur. Eləcə də, işçinin sosial, işgüzar və səmərəli fəaliyyətinin real vəziyyətdən asılı olaraq dəyərləndirilməsi məsələləri nəzərdən keçirilmişdir.

İnsan resurslarının idarəedilməsi ilkin olaraq insanların, işçilərin birlikdə fəaliyyətinin əlaqələndirilməsi və təşkil edilməsidir. Buna görə də, işin məqsədi insan resurslarının qiymətləndirilməsi, ondan səmərəli istifadə edilməsi, insan amilinin nəzərə alınması, nüəssisələrdə əməyin təşkil edilməsi, sosial inkişaf, əmək davranışı, kadr siyasəti, əmək bazarı kimi əsas problemləri aşkar etmək və həll etməyə çalışmaqdır. İnsan resurslarının idarə edilməsi, qiymətləndirilməsi, müxtəlif işçi kateqoriyaları ilə müəyyən qaydalar, üsullar, səlahiyyətlər, funksiyalar kontekstində yerinə yetirilən işlərin tədqiq edilməsidir. Bu müəssisə və firmaların insan resursları siyasəti ilə üzvi formada bağlıdır. Müəssisənin insan resursları siyasəti isə ümumilikdə ölkədə kadr siyasəti ilə sıx əlaqədardır. Bu, insan resurslarının hazırkı və gələcək vəziyyətini müqayisəli şəkildə qiymətləndirməyi, problemə müasir elmi yanaşmanı tələb edir. İnsan resurslarının idarə edilməsi həmçinin müəssisənin strateji məqsədinin, missiyasının formalaşması, variantların müəyyən edilməsi, müəssisədaxili və müəssisədən xaric amillərin sistemli şəkildə təhlili ilə də şərtlənir.

İşdə işçilərin operativ və strateji funksiyaları, peşə şəraitində inkişaf istiqamətləri, stimullaşdırma, qiymətləndirmə modellərinin müəyyən edilməsi, menecment konsepsiyasının inkişaf etdirilməsi, şəxsi keyfiyyətin və məhsul keyfiyyətinin artırılması, müəssisədə çalışan işçilərə istehsal prosesinin bir vacib ünsürü kimi yanaşılması, müəssisədaxili səmərəliliyin yüksəldilməsi və başqa məsələlərə kompleks şəkildə yanaşılmışdır [4].

Müəssisədə çalışan insan resursları və onun qiymətləndirilıməsi ilə əlaqədar olan məsələlərdən ibarətdir. İnsan resurslarının düzgün qiymətləndirilməsi, həyat standartlarına uyğun stimullaşdırma, işçilərin potensialının artırılması, insan resurslarından optimal istifadə ilə bağlı olan ölkə və xarici ölkə tədqiqatçılarının əsərləri təşkil edir.

Elmi-texniki tərəqqi təkamül və inqilab formasında təzahür edir. Təkamül forması ənənəvi texniki vasitələrin və texnologiyaların tədricən, fasiləsiz təkmilləşdirilməsi və onların toplanması ilə səciyyələnir. İnqilab forması isə elm və texnikanın nailiyyətlərinə əsaslanır, prinsipcə yeni texnoloji proseslərin və mütərəqqi materialların işlənilməsi və tətbiqi ilə səciyyələnir.

Sahibkarlığın iki forması fərqlənir: yeniliklərin yaradılması və iqtisadi reallaşdırılması - innovasiya sahibkarlığı; xalis bazar sahibkarlığı – marketinq. Azad sahibkarlığın mahiyyəti birinci formada – yeniliklərin, yəni əvvəllər mövcud olmayan yeni istehsal amillərinin kombinasiyasının (yeni istehsal funksiyasının) yaradılması prosesində tam açıqlanır.

İnnovasiya biznesinin səmərəli təşkili "elm-istehsalat" tsiklinin bütün mərhələlərinin sıx əlaqələndirilməsini, elmi araşdırmaların nəticələrinin innovasiya prosesinin bir fazasından digərinə zəncirvari verilməsini, yeniliklər yaradılmasını nəzərdə tutur. Əmtəə bazarının tərkib hissəsi olan yeniliklər bazarı qeyri-müəyyənlik şəraitində yaranır, bazar iştirakçılarının qarşılıqlı münasibətlərinin spesifik mühitində innovasiya prosesinin xarakterindən asılı olaraq formalaşır.

Yeniliklər bazarının normal fəaliyyəti, hər şeydən öncə, intellektual mülkiyyətdən düzgün istifadə olunmasını tələb edir. İntellektual mülkiyyət ağıl, zəka, zehin mülkiyyəti deməkdir. Milli sərvət sayılan intellektual mülkiyyət əsasən dörd növə ayrılır: patent, ticarət markası, müəlliflik hüququ və sənaye sirləri. Bunların özünəməxsus xüsusiyyətləri vardır. Məsələn, patent cəmiyyətdə ixtiraçılar, yaradıcı adamlar arasında müqavilə kimi səciyyələnir; ticarət markası (nişanı) firmanın, şirkətin keyfiyyət rəmzidir, malın (xidmətlərin) mənbəyini və onun başqa əmtəələrdən fərqli cəhətləridir; müəlliflik hüququ isə orijinal müəlliflik işlərinə aiddir [5].

İntellektual mülkiyyətin qorunması şərtləri və müddətləri "İntellektual mülkiyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir. Təsadüfi deyil ki, intellektual mülkiyyət haqqında mükəmməl qanunu olmayan ölkələrin iqtisadiyyatına kifayət qədər xarici investisiya, yeni texnika və texnologiyalar cəlb edilmir.

Kommersiya biznesi - əmtəə və xidmətlərin alqı-satqısı üzrə əməliyyatların həyata keçirilməsi ilə məşğul olur. Biznesin bu növü böyük həcmdə maliyyə vəsaiti tələb etmir və qoyulan vəsait daha tez gəlir gətirir. Məhz, ona görə də, kommersiya biznesi çox geniş yayılmışdır. Kommersiya biznesinin rentabellik səviyyəsi 20 faizdən yüksəkdir.

Kommersiya biznesinin ümumi sxemi istehsal sahibkarlığının fəaliyyət sxeminə müəyyən dərəcədə oxşardır. Lakin fərq ondan ibarətdir ki, kommersiya biznesində material resurslarının əvəzinə hazır məhsul alınır və sonradan müəyyən qiymət fərqi qoyaraq istehlakçılara çatdırılır.

Kommersiya biznesinin fəaliyyət sahəsi əmtəə birjası və ticarət təşkilatlarıdır. Əmtəə birjası satıcıları və alıcıları bir yerə toplamağa imkan verən təşkilati cəhətdən qanunlaşdırılmış daim fəaliyyətdə olan bazardır. Əmtəə birjasında birgə istənilən qaydalara uyğun olaraq ticarət əməliyyatları aparmaq üçün kommersiya vasitəçiləri könüllü surətdə birləşirlər. Əmtəə birjasının məqsədi azad rəqabətin idarə olunması mexanizmini yaratmaq və onun köməyi ilə tələb və təklifin dəyişdirilməsini nəzərə almaqla real bazar qiymətlərini aşkara çıxarmaqdır.

Müxtəlif formalarda təşkil edilən topdansatış ticarəti məhsulun istehsalçıdan bazara doğru hərəkətinin ilkin mərhələsini əhatə edir. Topdansatış ticarəti istehsal və istehlakı əlaqələndirərək vasitəçilik xarakteri daşıyır.

Maliyyə biznesi – kommersiya fəaliyyətinin xüsusi növüdür. Burada alqı-satqı obyekti spesifik əmtəə-pul, valyuta və qiymətli kağızlar hesab edilir. Maliyyə biznesinin fəaliyyət sahəsi kommersiya bankları və fond birjaları hesab edilir. Maliyyə biznesi valyuta bazarının və qiymətli kağızlar bazarının təhlilini və marketinq tədqiqatlarının aparılmasını nəzərdə tutur.

Banklar ilə müştərilər arasında münasibət müqavilə xarakteri daşıyır. "Bank və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müştəri kredit-hesablama xidməti üçün bankı sərbəst seçir.

Sahibkar öz pul vəsaitini banklarda saxlayır və digər təşkilatlar qarşısındakı öhdəlikləri üzrə nağdsız qaydada hesablaşma aparır. Bank öz müştərilərinə kredit xidməti göstərir. Bu cür münasibətin hüquqi forması kredit müqaviləsi adlanır. Həmin müqavilənin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bank borcverici kimi çıxış edir. Bank üçün əsas fəaliyyət növü, kredit verməkdir, onun hesabına bank mənfəət əldə edir.

Kredit kapitalın hərəkətini ifadə edir və yenidən bölüşdürmə, tədavül xərclərinə qənaət, ka-

pitalın təmərküzləşməsi və mərkəzləşdirilməsinin sürətləndirilməsi funksiyalarını yerinə yetirir.

Sığorta iqtisadi təhlükəsizliyin və əmin-amanlığın təmin olunması üsullarından biridir, düşünülmüş, ağıllı ehtiyatlılıqdır. Sığorta olunan və ya xeyrinə sığorta müqaviləsi bağlanmış digər şəxslərə dəyən zərərin ödənilməsi yolu ilə onların əmlakının və əmlak mənafelərinin müdafiəsi sahəsində münasibətdir. Sığortanın iqtisadi mahiyyəti zərərlə nəticələnən əlverişsiz vəziyyət baş verən zaman dəyən zərəri minimuma endirməkdir.

Təhlil subyektindən asılı olaraq müəssisənin maliyyə hesabatının xarici təhlili içərisində auditor xidməti xüsusi yer tutur. Auditin inkişafının hüquqi bazasını “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanunu (1994-cü il) təşkil edir. Audit – mülkiyyət formasından və təşkilati-hüquqi tabeçiliyindən asılı olmayaraq respublika ərazisində fəaliyyət göstərən bütün təsərrüfat subyektlərində mühasibat uçotunun dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılmasıdır. Audit yoxlamaları məcburi və ya təsərrüfat subyektlərinin təşəbbüsü ilə könüllü ola bilər.

Lizinq – istehlakçının sifarişi əsasında əmlakı satın almaqla onu istehlakçıya müəyyən müddətə icarəyə vermək məqsədilə həyata keçirilən xidmət növüdür. Lizinq xidməti sahibkarlıq fəaliyyətini maliyyələşdirməyin ən əlverişli üsullarından biridir. Lizinq münasibətləri “Lizinq xidməti haqqında” Azərbaycan Respublikası Qanununun (1994-cü il) vasitəsilə tənzimlənir. Sahibkar lizinq xidmətindən istifadə etməklə müxtəlif cür istehsal amillərinin, istehsal təyinatlı binalar, dəzgahlar, maşınlar, avadanlıqlar, nəqliyyat vasitələri və s. əmlak ala bilər.

Qiymətli kağızlar - qiymətli kağız sahibinin emitet barəsində əmlak hüququnu və ya borc münasibətlərini təsdiqləyən pul sənədidir. Qiymətli kağızların meydana gəlməsi ilə kapitalın ikiyə bölünməsi prosesi baş verir. Bir tərəfdən istehsal fondları ilə təqdim edilən real kapital, digər tərəfdən isə qiymətli kağızlarda onun əksi mövcuddur,.

Qiymətli kağızların ən geniş yayılmış növləri səhm, istiqraz vərəqəsi, dövlət xəzinə öhdəlikləri, əmanət sertifikatları sayılır. Qiymətli kağızların tədavülə buraxılması və qeydiyyata alınması qaydası, qiymətli kağızlar bazarı iştirakçılarının fəaliyyəti “Qiymətli kağızlar və fond birjaları haqqında” Azərbaycan Respublikası Qanunu (1992-ci il) ilə tənzimlənir.

“Əmək resursları”anlayışı ilə “işçi qüvvəsi” anlayışı arasındakı fərqi izah etməyə mühüm ehtiyac vardır. Əmək resursları (əmək ehtiyatları) daha çox əhali ilə bağlıdır, demoqrafik əlamətlərlə, seqmentlərlə fərqlənir. İşçi qüvvəsi dedikdə, əsasən məşğullar, işləyənlər və onların əmək qabiliyyəti (potensialı) nəzərdə tutulur.

Əmək resursları real deyil, potensial işçi qüvvəsi kimi özünü göstərir, başqa sözlə həm fəaliyyətdə olan, həm də potensial işçi qüvvəsini özündə əks etdirir. Bununla yanaşı, “işçi qüvvəsi” anlayışını “əmək resursları” analayışı ilə müqayisə etdikdə daha çox iqtisadi və sosial məzmun daşıyır. Yəni, bir qayda olaraq işçi qüvvəsinin alqı-satqısı deyilir. Amma əmək resursları haqqında bu ifadəni işlətmək olmur. Həm də işçi qüvvəsi bütün formalarda belə sövdələşmə obyektinə çevrilmir. Tarixin müəyyən dövrlərində, işçi qüvvəsi fiziki bədənə malik fərddə deyil, ona sahib olan quldarın mülkiyyətində olub. İndi isə işçi qüvvəsi fərdin, yəni onun əsl sahibinin əmtəəsinə çevrilmişdir. Bununla belə, iş qüvvəsi bir istehsal amili kimi bütün istehsal sistemlərində, üsullarında vacib fizioloji, psixoloji keyfiyyətlərə müvafiq bilik və peşə təcrübəsinə malik olmalıdır.

Əmək resurslarından səmərəli istifadə edilməsi mürəkkəb və çoxölçülü bir problemdir. Bu kimi məsələlərin həll edillməsi zamanı müxtəlif iqtisadi, sosioloji və demoqrafik amilləri əsas götürmək, eləcə də, hər bir regionun və mili iqtisadiyyatın sahəsinin konkret iqtisadi və coğrafı xarakteristikalarını bilmək, həmçinin bunun əsasında cəmiyyətin əmək resurslarından və işçi qüvvəsindən istifadənin ən yaxşı variantlarını müəyyən etmək tələb edilir. Əmək ehtiyatlarının əsas hissəsini əmək qabiliyyəti yaşda olan əhali təşkil edir. Əhalinin minimum və maksimum əmək qabiliyyəti səviyyəsi müəyyən cəmiyyətdə formalaşan fizioloji və ictimai-iqtisadi amillərlə müəyyən edilir.

Əmək resurslarından səmərəli istifadə edilməsinin planlaşdırılması onların milli iqtisadiyyatın sektorlar və regionlar üzrə bölüşdürülməsi və istifadə edilməsini, milli iqtisadiyyatın və qeyri-maddi istehsal sahələrinin işçi qüvvəsinə olan tələbinin müəyyən olunması və əhali

məşğulliyyətini habelə az əmək sərf etməklə mənfəət əldə etmək üçün müvafiq tədbirlərin həyata keçirilməsini özündə birləşdirir.

Müəssisə və firmalarda insan resurslarının qiymətləndirilməsindən, müvafiq norma və qaydalardan, qiymətləndirmə metodlarından istifadə edirlər. Burada ən əsas məqsəd həm müəyyən edilmiş qiymətləndirmə qaydalarının özünün keyfiyyətli olması, həm də işçilərin qiymətləndirilməsinin obyektiv şəkildə yerinə yetirilməsidir. İnsan resurslarının düzgün şəkildə qiymətləndirilməsi müəssisə və firmaların səmərəli fəaliyyətinin əsas şərtlərindən biridir.

Müəssisələrdə insan resursları müəyyən obyektiv qaydalara əsasən attestasiyadan keçirilir. Həmin attestasiya sadəcə yeni vəzifələrə irəli çəkilmək üçün deyil, həm də işçinin işlədiyi sektorda qalmasının məqsədə uyğunluğu üçün də zəruridir. Həyata keçirilən attestasiyanın nəticələri kadr uçotu şəxsi vərəqədə qeyd edilir. Attestasiya müəyyən edilmiş qaydada balla ifadə edilir. Maksimal bal bütün keyfiyyət tələblərinə cavab verən işçi üçün müəyyən edilir.

Menecerlər işçi ehtiyatını formalaşdırmaq işini yüngülləşdirmək üçün matrisa cədvəlindən istifadə edirlər. Burada hər bir menecerin sahib olmalı olduğu bütün işgüzar və şəxsi keyfiyyətlər göstərilir, bu həm müxtəlif peşələr, vəzifələr üzrə dəqiqləşdirilir, bu səbəbdən də, bu, bəzən matrisa metodu kimi adlandırılır. Matrisada müxtəlif keyfiyyət əlamətlərinin bal üzrə xüsusi payı müəyyən edilir. Matrisa metodunun əsas üstün cəhəti ondan ibarətdir ki, onunla yalnız potensial rəhbərlərin deyil, faktiki işləyən işçilərin də fəaliyyətini dəqiq qiymətləndirmək olar. Bu, habelə işçilərin mükafatlandırılması, mənəvi maraqlandırılması, eləcə də onlar üçün yüksək səviyyəli aylıq maaşın müəyyənləşdirilməsi üçün də mühüm sənədlərdəndir.

İnsan resurslarının öyrənilməsi çox cəhətli idarəçilik fəaliyyəti ilə bağlıdır. Bu, sosiologiya, psixologiya, həmçinin mühəndis psixologiyası, əməyin nəticə etibarilə bərabər, məcmu halında şəxsiyyətin, onun peşə-təşkilatçılıq qabiliyyətinin kompleks araşdırılmasını nəzərdə tutur. Bu halda bir sıra formalardan – anket məlumatlarından, söhbətlərdən, müşahidə və testləşdirmədən geniş şəkildə istifadə edilir. Burada hər bir formanın öz xüsusi yeri və əhəmiyyəti vardır. Müşahidə, söhbət və testləşdirmə insan resurslarının öyrənilməsinin ən çox istifadə edilən formalarıdır.

Mütəxəssislər isə ali məktəblərdə və orta ixtisas məktəblərində yetişdirilir. Müasir elmi-texniki tərəqqi prosesləri mütəxəssislərin hazırlanmasına qarşı yeni tələblər qarşıya qoyur. Mütəxəssislər və təsərrüfat rəhbərlərinin ixtisasının artırılması, yenidən hazırlanması sahə və sahələrarası ixtisasartırma kursları və fakültələr, daimi şəkildə fəaliyyət göstərən tədris mərkəzləri, qısa müddətli seminarlar vasitəsilə reallaşdırılır. Burada tədris proseslərinin modeli, tədris planı, tədris proqramları, tədrisin forması və müddəti, vəzifə peşə-ixtisas modeli, vəzifəyə, biliyə olan tələblər, rəhbər kadrlarının hazırlanması mərhələləri və təlim metodları, idarəetmə funksiyaları ilə konkret təsərrüfatçılıq situasiyalarının əlaqələndirilməsi, tədrisin intensivləşdirilməsi və s. məsələlər əsas yer tutur.

**Nəticə**

Müəssisələrin, firmaların işçilərə olan tələbatının müəyyən olunmasında gələcək dövr üçün olan tələbin düzgün müəyyən olunmasının xüsusi əhəmiyəti vardır. Bu zaman mütəxəssis hazırlığının səviyyəsi, əhalinin, istehsalın, iş yerlərinin artımı və azalması və s. məsələlər nəzərdə tutulmalıdır. Mütəxəssislərə olan tələbin müəyyən olunmasında səhvlərə yol verdikdə işçi hazılığına dövlət və özəl tədris müəssisələrinin artıq vəsait məsrəflərinə, diplomlu mütəxəssislərin iş yerləri ilə təmin olunmasındakı ciddi çətinliklərə, sosial gərginliyə rəvac verir. Bu səbəbdən də mütəxəssislərə olan tələb müəyyən olunarkən elmi baxımdan əsaslanmış müvafiq kompleks normativ və metodiki məlumatlar əsas götürülməldir. Bu işə ciddi şəkildə yanaşmalı, hər bir müəssisə və ya şirkətin strateji inkşaf məqsədlərinin ən vacib tərkib hissəsi, eləcə də, makroiqtisadi məşğulluq siyasətinin əsas problemi kimi qiymət verilməlidir. Diplomlu mütəxəssislərə tələb müəyyən olunarkən, onun proqnozları verilərkən aşağıda göstərilən əsas metodikalar nəzərə alınmalıdır:

Ştat: nomenklatura metodu: vəzifə normaları, ştat cədvəlləri, vəzifələr üzrə ixtisas-sorğu kitabları; vəzifələrin miqdarının artıb-azalması amilləri.

Normativ metod: işin, istehsalın həcmi, mütəxəssislərin müvafiq əmək normaları.

Kadrların öyrənilməsi, onların fəaliyyəti üzərində ardıcıl nəzarətin qoyulması və təsərrüfat, sosial-iqtisadi məsələlər üzrə qəbul olunmuş qərarların icra edilməsinin yoxlanılması idarəetmə fəaliyyətinin təşkil edilməsi üçün xüsusi əhəmiyyətə sahibdir. Ardıcıl nəzarət kadrlarının yetişdirilməsi, tapşırılmış iş üçün onların məsuliyyətinin yüksəldilməsi, buraxılan səhvlərin vaxtında düzəldilməsi üçün zəruridir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Azərbaycan Sovet Ensiklopediyası. Bakı, I-X cild, 1976-1987.
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı, "Qanun", 2004.
3. Azərbaycan Respublikasının Statistik Toplusu. Bakı, 2005.
4. AMEA-nın 2002-ci ildəki fəaliyəti haqqında hesabat. Bakı, "Elm", 2003, səh.135.
5. Əliyev M. Həmidov H. İnsan resurslarının idarə edilməsi. Bakı, "Nurlan", 2002.
6. "Əmək bazarı və kadr hazırlığı problemləri" elmi-praktik konfransın materialları. Bakı, 2002.

**Фуад Закир оглы АББАСОВ, к. э. н., доцент**

**Эртургут Шикар оглы БАГИРОВ**
Азербайджанский Технологический Университет Айша

**Сейди кызы АХМЕДОВА**
Азербайджанский Технологический Университет
E-mail: leqendav81@mail.ru

## ОРГАНИЗАЦИЯ И СТРАТЕГИЧЕСКИЕ НАПРАВЛЕНИЯ СИСТЕМЫ УПРАВЛЕНИЯ В БИЗНЕСЕ

**Резюме**

Человеческие ресурсы относятся к категории социально-экономических и составляют совокупность физических и интеллектуальных возможностей общества (страны). Особенность человеческих ресурсов заключается в том, что изначально, чем больше люди занимаются профессиональной деятельностью, чем больше жизненного и профессионального опыта они приобретают, чем легче они выполняют свои профессиональные обязанности в более короткие сроки, тем более ценны они для страны. , предприятие, организация и т. д. создают большую ценность; во-вторых, люди являются наиболее сложным объектом социального управления; В-третьих, продвижение деятельности по трудоустройству требует больших капиталовложений; Кроме того, высокая эффективность деятельности сотрудников достигается созданием надлежащей системы управления их возможностями.

Суть управления человеческим потенциалом заключается в том, что люди должны эффективно расставляться, развиваться и мотивироваться наряду с другими ресурсами для достижения цели как конкурентоспособного объекта. Управление человеческими ресурсами связывает методы управления с бизнес-стратегией. Поэтому она носит инновационный характер и ставит в качестве конечной цели задачу улучшения экономических результатов страны (учреждения, организации, предприятия) и удовлетворения потребностей населения.

**Ключевые слова:** предпринимательство, торговля, бизнес, производство.

**Fuad Zakir oghlu ABBASOV, Ph.D., Associate Professor**

**Erturgut Shikar oghlu BAGIROV**
Azerbaijan Technology University

**Aysha Seydi gizi AHMEDOVA**
Azerbaijan Technology University
E-mail: leqendav81@mail.ru

# ORGANIZATION AND STRATEGIC DIRECTIONS OF THE CONTROL SYSTEM IN BUSINESS

**Summary**

Human resources belong to the socio-economic category and constitute the set of physical and intellectual capabilities of the society (country). The peculiarity of human resources is that, initially, the more people engage in professional activities, the more life and professional experience they gain, the more easily they perform their professional duties in a shorter period of time, the more valuable they are for the country, enterprise, organization, etc. they create a lot of value; secondly, people are the most complex object of social management; Thirdly, the promotion of activities for people to be employed requires a lot of capital; In addition, the high efficiency of the employees' activity is achieved by creating a proper management system of their opportunities. The essence of human potential management is that people should be effectively placed, developed and motivated along with other resources in order to reach the goal as a competitive object. Human resource management connects management practices with business strategy. Therefore, it has the character of innovation and sets the task of improving the economic results of the country (institution, organization, company) and meeting the needs of the population as the final goal**.**

**Keywords:** entrepreneurship, commerce, business, production.

**Brilyant İdris qızı ABBASOVA, baş müəllim**

**Pərvin Pərviz oğlu DƏRYAGİR**
Azərbaycan Dövlət Aqrar Universiteti

# MENECMENT SİSTEMİNDƏ TƏTBİQ OLUNAN YENİ TEXNOLOGİYALARIN MÜƏSSİSƏYƏ FAYDASININ ƏSASLANDIRILMASI

**Xülasə**

Menecment sistemində olan yeni texnologiyalar və kommunikasiyada olan inkişafa paralel olaraq müəssisələrdə olan yeni idarəetmə yanaşmalarında kompüter texnologiyalarından istifadənin artması, Müəssisə Resurslarının Planlaşdırılması proqram təminatlarının inkişaf etdirilməsi ilə nəticələnmişdir. Müəssisə Resurslarının Planlaşdırılması, şirkətlərin istehsaldan çatdırılmaya qədər bütün funksiyalarını bir sistemin dəstəyi ilə idarə edə bilməsini təmin edən geniş proqram təminatıdır. Müəssisələr sahib olduqları resursları effektiv şəkildə istifadə edə bilmək üçün son 40 ildir böyük ölçüdə səy göstərməkdədirlər. Bu proqram təminatı vasitəsilə toplam verimlilik faktoriyasının artdığı təyin edilmişdir. Müəssisənin sahib olduğu bir çox resurs faydalılığa təsir edən komponentlərdən biri olaraq çıxış edir. Anbar idarəetməsində rast gəlinən proseslərdən biri kimi qalıq məhsulun düzgün hesablanmaması nəticəsində məhsulun zay məhsul qisminə keçməsini faydalılığın aşağı düşməsinə misal olaraq göstərə bilərik. Menecment sistemində tətbiq olunan yeni texnologiyalar vasitəsilə mühasibatlıq, maliyyə, satış, istehsal planlaması, təchizat və logistika, keyfiyyət idarəetməsi, insan resursları kimi sahələrin arasındakıkommunikasiyanı artırmaq və inkişaf etdirmək mümkündür. Müəssisələrin bütün fəaliyyətlərini birbiriləri ilə əlaqəli olaraq idarəetmək bu sistemlərin əsas vəzifəsidir. Günümüzdə bütün proqram təminatlarının məqsədi maliyyə parametrlərində verimli nəticələr əldə edə bilməkdir. Menecment sistemində tətbiq olunan yeni texnologiyalar müəssisələrdə müxtəlif iş fəaliyyətlərinin tək bir sistem içərisində, müxtəlif modullar vasitəsilə vizual olaraq göstərə bilir. Bu modullar iş axını zəncirini yaratmaq, informasiya axınını idarəetmək, müəssisə ilə müştəri və tədarükçüləri düzgün əlaqələndirmək üçün faydalı olur.

**Açar sözlər:** Biznes effektivliyi, müəssisə resurslarının planlaşdırılması, faydalılıq

**JEL: D01**

## Giriş

Menecment sistemində tətbiq olunan yeni texnologiyalar mövzusuna fərqli istiqamətlərdən baxmaq mümkündür. Bu sistemləri bütün sektorlarda (telekommunikasıya, pərakəndə, istehsal, dövlət, səhiyyə və s.) mövcud fəaliyyət sahələrini (satış, insan resursları, maliyyə, təchizat və's) əhatə edən şirkətlərdə informasiya axınlarının əlaqələndirilməsini təmin edən proqram təminatları kimi izah verə bilərik [www.erpcrm.com]. Müəssisə Resurslarının Planlaşdırılması şirkətin strateji məqsəd və hədəfləri istiqamətində müştəri tələblərini ən uyğun şəkildə qarşılaya bilmək üçün fərqli coğrafi bölgələrdə olan tədarük, istehsal və logistika resurslarının ən effektiv və verimli şəkildə planlaması, koordinasiyası və nəzarət edilməsi funksiyalarını özündə ehtiva edən proqram təminatı sistemidir. Bu sistemlər, bəsit olaraq desək, bir şirkəti tam əhatə edən məlumat sistemidir. Müəssisənin maliyyə, istehsal, satış, logistika, insan resursları və başqa funksiyalarını əlaqələndirən proqram təminatlarının bütünündən ibarətdir. Bu bütünün ibarət olduğu parçaları effektiv olaraq müəssisənin məqsədləri istiqamətində idarə etmək bu texnologiyaların əsas vəzifəsidir.

Menecment sistemində tətbiq olunan yeni texnologiyalara 3 fərqli istiqamətdə baxmaq mümkündür;

1. Proqram təminatı kimi alınıb satıla bilən bir məhsuldur.
2. Müəssisənin bütün proseslərini və informasiyaları vahid, inteqrasiya olunmuş struktur altında toplayan inkişaf vasitəsidir.
3. İş proseslərinə həllər təklif edən infrastrukturun əsas elementidir.

Fərqli sektorlarda yayılmaqda olan bu sistemlərin tətbiq edilməsinin hədəfi müəssisədəki

proseslərin inteqrasiyasını təmin etmək, həmçinin müəssisəxarici əlaqələri inkişaf etdirmək və şirkətin digər fəaliyyətlərini dəstəkləməkdir. Menecment sistemində tətbiq olunan yeni texnologiyaların əsas xüsusiyyəti fərqli bölgələrdə olan şirkətlərin filiallarının, tədarükçülərin və logistika mərkəzlərinin düzgün idarəedilməsidir. Bu çərçivədə hansı müştəriyə aid sifarişin hansı logistika mərkəzindən qarşılanması və ya hansı filialda istehsal edilməsinin məqsədəuyğun olduğu, bütün filialların məhsul və xidmət tələblərinin haradan təmin edilməsinin uyğun olacağı, müəssisələrin vəsaitlərinin (avadanlıq, məhsul, işgücü, enerji və s.), istehsal və logistik resursların paralel olaraq necə istifadə edilə biləcəyi təyin edilmişdir. Bu sistemlər informasiya müəssisəsinin bütün resurslarını planlayan və bütün məlumat tələblərini qarşılayan, inteqrasiya edilmiş kompüter dəstəkli bir iş idarəedilməsi sistemidir.

EPR sistemlərinin əsası 1960-cı illərdə qoyulmuşdur. İlk vaxtlarda Material Tələblərinin Planlaşdırılması (Materials Requirement Planning – MRP) olaraq bilinən bu üsul, əsas istehsal proqramında yer alan məhsulları detallı olaraq komponent tələbləri halında parçalara ayıran bir sistem olaraq irəli çıxmışdır. Xam maddə və material tələblərini daha effektiv hesablamaq məqsədi ilə inkişaf etdirilmiş bir sistem olan MRP, yekun olaraq hazırlanan əsas istehsal qrafikini istifadə edərək lazım olan xam maddə və digər materialların miqdarlarını təsbit edərək satınalma və iş əmrlərini hazırlayan idarəetmə texnikasıdır. Daha sonrakı illərdə dəyişən istiqamətlərə uyğun olaraq İstehsal Resurslarının Planlaması (Manufacturing Resources Planning – MRP II) idarəetmə texnikası inkişaf etdirildi. MRP II sistemi; satın alma, anbar idarəetməsi və planlaşdırma kimi funksiyaların da əlavə edilməsi ilə inkişaf etdirilmişdir. MRP II, müəssisədəki bütün fəaliyyətləri planlamaq və yeniləmək üçün satın alma, istehsal, insan resurslarını və satışı tək bir verilənlər bazasından istifadə edərək koordinasiya edir. MRP II-nin inkişaf nəticəsində Kompüter İnteqrasiya edilmiş sistemlər (Computer Manufacturing Systems, CİM) və şirkətlərin məhsul paylama kanallarını idarəetməyi təmin edən Paylama Resurslarının Planlaşdırılması (Distribution Resource Planning, DRP) yaranmışdır. 1990-cı illərdən etibarən yalnız istehsal sektoruna deyil, digər sektorlara da xidmət verə bilən Müəssisə Resurslarının Planlaşdırılması (Enterprise Resources Planning – ERP) sistemi yaranmışdır. ERP qlobal məlumat inteqrasiyasını reallaşdıran vahid proqram strategiyasıdır. Müştəri ilə şirkət arasında əlaqəni təmin edən ERP sistemləri, Müştəri Əlaqələri İdarəetməsi (Costumer Relationship Management, CRM), Təchizat və Logistika idarəetməsi (Supply Chain Management – SCM) və günümüzdə getdikcə inkişaf edən hərfi tərcüməsi Biznes Zəkası (Business İntelligent – Bİ) olan anlayışların da əlavə edilməsi ilə müəssisənin bütün proseslərində effektivliyini artırmaqdadır.

Dünya üzrə 500-dən çox ERP proqram təminatı təklif edən şirkətlər öz aralarında rəqabət etməkdədirlər [Kirkpatrick, 2012]. 2022-ci il məlumatlarına görə dünya üzrə ERP bazarında SAP, Oracle ilk sıralarda yer alır [N Pollock, J Cornford - Information technology & people]. Alman şirkəti olan SAP, ERP sistemlərinin irəli gələn tədarükçüsüdür və bazar payının təxminən 35%-ni əldə edib. ERP sistemləri, satınalma, istehsal, məhsulun dəyəri, nəzarət və s. kimi bir çox modulları əhatə edir. ERP tədarükçüsü şirkətlərin müştərilərini razı salmaq üçün daimi olaraq sistemlərinə yeni xüsusiyyətlər əlavə edərək inkişaf etdirirlər. ERP tədarükçülərinin ümumi düşüncəsi tətbiqlərini şirkətin informasiya sistemlərinin mərkəzinə yerləşdirərək, inteqrasiya olunmuş sistem yarada bilməkdir. Bu düşüncədə ERP sistemi, mərkəzi məlumat deposu və verilənlər bazası yaratmağı hədəfləyir. Bir çox ERP tədarükçüsü müəssisədəki iş ehtiyacları üçün müxtəlif dəstəklər təklif edərkən bəzi tədarükçülər bir sahə üzrə digərlərinə görə daha güclüdürlər və uğur qazanmışdırlar. Oracle güclü verilənlər bazarı ilə bu proseslərə aparıcılıq etmiş və bu təcrübənin ERP sistemlərinə tətbiqində vacib rol oynamışdır. ERP proqram təminatları çoxşaxəli sistemlərdir, ancaq hər sektorun özünəxas tələblərinin olduğunu da gözdən qaçırmamalıyıq. ERP sistemlərindən çoxu maddi məhsullar istehsal edən şirkətlər üçün nəzərdə tutulmuşdur. Xidmət sektorunda olan şirkətlər, bu sistemlərin tətbiq edilməsi və istifadəsində çətinlik yaşaya bilirlər. Bu səbəblə ERP tədarükçülərinin baza sistemlərini xidmət sektoru üçün uyğunlaşdırmaqlarına ehtiyac vardır.

ERP sistemlərinin əsas xüsusiyyətləri aşağıdakılardır:

1. Bütün sektorları hədəf alan və tətbiq olunan müəssisəyə uyğunlaşdırıla bilən proqram təminatıdır
2. Digər proqram təminatlarına nisbətən şirkətə tətbiqdə daha tez uyğunlaşdırıla bilir
3. Verilənlər bazası üzərindən bütün prosesləri effektiv idarəetmək mümkündür
4. İş axışlarını vizual olaraq bütöv şəkildə görmək mümkündür
5. Şirkətin problemli prosesləri haqqında həll yolları təklif edə bilir
6. Mühasibatlıq və insan resursları sahəsində olan ölkələr arası fərqlilikləri (qanunvericilik) nəzərə alıb bu qaydalara uyğunlaşdırıla bilir.

ERP sistemləri vasitəsilə şirkətin aşağıdakı sahələrini idarə etmək mümkündür:

Anbarın idarəedilməsi: Alınan materialların depolara girişindən, məhsul olaraq müştəriyə satılmasına qədər olan anbar proseslərini əhatə edir. Bu komponent şirkətdə bütün materiallara aid bilgiləri toplayan, emal edən və hesabat verən bir sistemdir.

Satışın idarəedilməsi: Satış komponenti, müştəridən məhsul sifarişlərinin alınıb, istehsaldan çatdırılmağa qədər olan müddəti əhatə edir. Satış komponentinin informasiya sistemi, şirkətin hansı sektorda olduğu, coğrafi mövqeyi, məhsul çeşidliliyi və başqa kriteriyalara görə dəyişiklik göstərə bilir.

Keyfiyyətin idarəedilməsi: Keyfiyyət idarəetmə komponenti, keyfiyyət sertifikasiyasının tələblərinin qarşılanacağı bütün addımların izlənməsini və idarəedilməsini əhatə edir. İstehsal, anbar idarəetməsi, nəzarət əməlliyyatları və daşınma proseslərinin ehtiyac olan addımlarında keyfiyyət sisteminin tətbiq edilməsiylə standartlardan kənar bütün proseslərin təqib edilməsi və ehtiyac yaranarsa, imtina edilməsi mümkündür.

İnsan Resursları: İnsan Resursları komponenti, çalışanların işə qəbullarından karyera planlamasına və təlim-inkişaf qrafiklərinə qədər, müasir insan resursları yanaşmalarının bütün strateji nöqtələrini əhatə edir.

Maliyyə idarəetməsi: Maliyyə idarəedilməsi komponenti, iqtisadi hərəkətlərin, kreditor və debitor proseslərinin təqibini və s. həyata keçirir. Bu komponent ümumi mühasibatlıqdan büdcələndirməyə, iqtisadi göstəricilərin hesablanmasına qədər olan əməliyyatları əhatə edir.

İstehsal Planlaması və Nəzarət: İstehsal planlama və nəzarət komponenti, bazarın tələbləri ilə müştərilərin sifarişlərini, ən uyğun şəkildə istehsalı planlamağı, izləməyi, büdcələndirməyi və nəzarəti əhatə edir. Daha geniş mənada satış əməliyyatlarının planlaması, resursların planlaması, istehsalın idarəedilməsi istehsal planlama və nəzarət komponentinin tərkibində həyata keçirilən fəaliyyətlər arasındadır.

Təchizat Zəncirinin İdarəedilməsi: Təchizat zəncirinin idarəedilməsi komponenti şirkətdaxili, xarici və şirkətlər arası minimum qalıqla zəncirin bütün iştirakçıları arasında dərhal informasiya axınını, çevik reaksiyanı, resurslardan ən yaxşı şəkildə istifadə imkanlarını təmin edir.

Satınalma: Satınalma komponenti, müəssisəyə bölmələrindən gələn material tələblərinin müəyyən edilib, satıcı şirkətə bildirilməsi, təqib edilməsi və təslim alınması müddətini əhatə edir.

Müştəri Əlaqələlərinin İdarəedilməsi (CRM): Müştəri əlaqələrinin idarəedilməsi komponenti, müştəriyönümlü təklif və qərarların, böyük bir elastiklik içərisində idarəedilməsini təmin edir.

ERP sisteminin tətbiq olunduğu şirkətlərə aşağıdakı faydaları verdiyi müəyyən olunmuşdur [P. Hawking; A. Stein; S. Foster, Revisiting ERP systems: benefit realization]:

1. Rəqabət mühitində çevik reaksiya vermə qabiliyyəti
2. Daha elastik konfiqurasiya
3. Xərclərin azaldılması
4. Strateji qərarlar qəbul etmədə çeviklik
5. Müəssisə daxili koordinasiyanın artması
6. İstehsal performansının artması
7. Müəssisə resurslarının effektiv və verimli istifadə edilməsi
8. Müştəri məmnuniyyətinin artması
9. Məlumatların inteqrasiyası və bir verilənlər bazasından məlumatı əldə etmə bacarığı
10. Daha az kağız sərfiyyatı

Menecment sistemində tətbiq olunan yeni texnologiyalar mühasibatlıq, maliyyə, satış, satın alma, istehsal planlama, anbar idarəetməsi, keyfiyyət idarəetmə, insan resursları, təchziat və logistika arasındakı əlaqələri inkişaf etdirib, hər bir sahə üzrə effektivliyi artıraraq müəssisənin inkişafına böyük töhfələr verməkdədir.

**Nəticə**

Qloballaşan dünyada informasiya-kommunikasiya texnologiyalarında olan inkişaf nəticəsində müəssisələrin ən vacib problemi rəqabətə tab gətirib ayaqda qala bilməkdir. İnformasiya əsri olaraq adlandırılan, günümüzdə müəssisələrin rəqabət gücü, istehsal edə bildikləri və sahib olduqları informasiya ilə ölçülməkdədir. Bu istiqamətdə informasiyanın düzgün idarəedilməsi zəruriyyəti əhəmiyyət qazanmışdır. Doğru zamanda, doğru informasiya ilə effektiv resurs istifadəsini təmin edəcək idarəetmə alətlərinə olan tələbat, menecment sistemində yeni texnologiyaların yaranmasını zəruri etmişdir. ERP, informasiya texnologiyaları köməyilə bütün resursların planlaşdırılmasını və bütün məlumat tələblərini təmin edən bir idarəetmə sistemidir. Günümüzdə ən vacib dəyər olan informasiyanın ümumi bir sistemdə toplanmasını, müəssisənin müəyyən etdiyi qaydalar çərçivəsində bu informasiyanın emal edilməsini, emal edilən informasiyanın müəssisənin bütün ehtiyacları istiqamətində istifadə edilməsini və əlaqəli strukturlara çatdırılmasını təmin edir. Müəssisələrin bir çox funksiyasını tək bir sistem içərisində inteqrasiyaetmə, informasiyaya tək bir mənbədə çatabilmə, müştəri və tədarükçülərlə qarşılıqlı əlaqəni inkişaf etdirmə, qloballaşma, rəqiblərə və digər təsirlərə uyğunlaşma və strateji üstünlük təmin etmə bu sistemlərin şirkətlərə qazandırdığı əsas faydalardandır. Bu gün dəqiq informasiyaya olan tələbat və texnoloji inkişaflar nəticəsində müəssisələrin dəqiq informasiya istehsal etməsi, informasiyanın emal edilməsi və saxlanması zərurəti yaranmışdır. Qloballaşan dünyada və rəqabət mühitində sürətli, effektiv və səmərəli işlərin həyata keçirilməsi zərurət halına gəlib. Əsasən, müəssisələrdə ERP proqram təminatlarının və biznes proseslərinin inteqrasiyasını təmin etməklə, informasiyaya çıxışın asanlaşdırılmasına və daxili kommunikasiya axınının artırılmasına nail olmaq olar. ERP proqram təminatı müxtəlif aspektlərdən bizneslərə bir çox üstünlüklər verir. Araşdırmalar nəticəsində ERP proqram təminatının şirkətə dəyər qatdığı və əməliyyat xərclərini azaltdığı görülür. Müasir informasiya əsrində məlumatların toplanması, inteqrasiyası və dəqiq hesabatların nəşri biznes menecerlərinin, eləcə də maraqlı tərəflərin ən böyük arzularıdır. Yaradılan hesabatlar sayəsində müəssisələr gələcək üçün investisiya, böyümə və ya daralma kimi bəzi qərarlar qəbul edir və bizneslərin gələcəkdə necə istiqamətləndiriləcəyini planlaşdırırlar.

## ƏDƏBİYYAT SİYAHISI:

1. P MA Rashid, L Hossain, JD Patrick - Enterprise resource planning
2. IJ Chen - Business process management journal, 2001
3. M Al-Mashari - Industrial Management & Data Systems, 2003
4. N Pollock, J Cornford - Information technology & people, 2022
5. K Kumar, J Van Hillegersberg - Communications of the ACM, 2015
6. Joseph R. Muscatello, Michael H. Small, Injazz J. Chen, International Journal of Operations & Production Management
7. P. Hawking; A. Stein; S. Foster, Revisiting ERP systems: benefit realization
8. J. C. Wortmann, Strategic Management of the Manufacturing Value Chain, Evolution of ERP Systems
9. Moutaz Haddara; Ondrej Zach, ERP Systems in SMEs
10. Paul Hawking, Brendan McCarthy, Andrew Stein, Second Wave ERP Education

**Брильянт Идрис кызы АББАСОВА, Старший преподаватель**

**Парвин Парвиз оглы ДАРЬЯГИР**
Азербайджанский Государственный Аграрный Университет

## ОБОСНОВАНИЕ ПРЕИМУЩЕСТВ НОВЫХ ТЕХНОЛОГИЙ, ПРИМЕНЯЕМЫХ В СИСТЕМЕ УПРАВЛЕНИЯ, ДЛЯ ПРЕДПРИЯТИЯ

### Резюме

В результате расширения использования компьютерных технологий в новых подходах к

управлению на предприятиях параллельно с развитием новых технологий в системе управления и связи возникла разработка программного обеспечения для планирования ресурсов предприятия. Планирование ресурсов предприятия — это комплексное программное обеспечение, которое позволяет компаниям управлять всеми своими функциями от производства до поставки с помощью одной системы. В течение последних 40 лет предприятия прилагали огромные усилия, чтобы иметь возможность эффективно использовать имеющиеся у них ресурсы. С помощью этого программного обеспечения было установлено, что общий коэффициент производительности увеличивается. Многие ресурсы, принадлежащие предприятию, выступают в качестве одной из составляющих, влияющих на полезность. В качестве одного из процессов, обнаруженных в управлении складом, в результате неправильного расчета остатка продукта, мы можем показать, что продукт становится отходами в качестве примера снижения полезности. Благодаря новым технологиям, применяемым в системе управления, можно увеличить и развить связь между такими областями, как бухгалтерский учет, финансы, продажи, планирование производства, снабжение и логистика, управление качеством и человеческими ресурсами. Основной задачей этих систем является управление всей деятельностью предприятий по отношению друг к другу. Целью всего программного обеспечения сегодня является достижение эффективных результатов в финансовых условиях. Новые технологии, применяемые в системе управления, позволяют визуально отображать различные виды деятельности на предприятиях в одной системе через разные модули. Эти модули полезны для создания цепочки рабочих процессов, управления потоком информации и правильной связи предприятия с клиентами и поставщиками.

**Ключевые слова:** эффективность бизнеса, планирование ресурсов предприятия, полезность.

**Brilyant İdris gizi ABBASOVA, Senior Lecturer**

**Parvin Parviz oghlu DARYAGIR**
Azerbaijan State Agrarian University

## JUSTIFICATION OF THE BENEFIT OF THE NEW TECHNOLOGIES APPLIED IN THE MANAGEMENT SYSTEM TO THE ENTERPRISE

**Summary**

The result of increasing the use of computer technologies in new management approaches in enterprises in parallel with the development of new technologies in the management system and communication has resulted in the development of Enterprise Resource Planning software. Enterprise Resource Planning is a comprehensive software that enables companies to manage all their functions from production to delivery with the support of one system. Businesses have been making great efforts for the last 40 years to be able to use the resources they have effectively. Through this software, the total productivity factor has been determined to increase. Many resources owned by the enterprise act as one of the components affecting the utility. As one of the processes found in warehouse management, as a result of incorrect calculation of the remaining product, we can show that the product becomes a waste product as an example of the decrease in usefulness. Through the new technologies applied in the management system, it is possible to increase and develop communication between areas such as accounting, finance, sales, production planning, supply and logistics, quality management, and human resources. The main task of these systems is to manage all activities of enterprises in relation to each other. The goal of all software today is to be able to achieve efficient results in financial settings. The new technologies applied in the management system can visually show different work activities in enterprises in a single system, through different modules. These modules are useful for creating a workflow chain, managing the flow of information, and properly connecting the enterprise with customers and suppliers.

**Keywords:** Business efficiency, enterprise resource planning, profitableness.

**Yasəmən Mübariz qızı ABBASZADƏ**
Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant

# MİLLİ SƏHİYYƏ SİSTEMİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

**Xülasə**

Səhiyyənin inkişaf etdirilməsi istənilən ölkənin cari və gələcək inkişafının real zamanətlərindən biridir. İnkişaf etmiş səhiyyə sağlam vətəndaş və gələcəyin estafetini öz üzərinə götürən sağlam nəsildir. Bu baxımdan elmi, texnoloji, təşkilati və kadr təminatı baxımından səhiyyənin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab edilir.

Təqdim olunan elmi məqalədə Azərbaycanın səhiyyə sisteminin inkişaf tarixi xronoloji şəkildə nəzərdən keçirilmişdir.Eyni zamanda Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə səhiyyənin inkişafı istiqamətində qəbul edilən qərarların və strategiyaların yerinə yetirilməsi nəticələrinmin təhlili aparılmışdır.

**Açar sözlər:** inkişaf, siyasət, strategiya, islahat.səhiyyə, xidmət, idarəetmə.

**JEL: I 20**

**Giriş**

Keşməkeşli tarixə sahib olan Azərbaycanda bu tarixin gətirdiyi dəyişikliklər, tənəzzül, islahatlar və müxtəlif siyasi hadisələr səhiyyə sahəsindən də yan keçməmişdir. Belə ki, son yüzillikdə əhalinin dəyişən həyat səviyyəsinin və tələbatların dəyişməsi müstəvisində səhiyyədə əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bugünkü Azərbaycan səhiyyəsi maddi-texniki təchizat və kadr təminatı baxımından regionun inkişaf etmiş ölkələrindən geri qalmır. Bu uğura, daha dəqiq desək, vaxtilə formalaşdırılmış təşkilati, hüquqi və resurs bazasına görə milli səhiyyə sistemi Ulu Öndərə borcludur. O, hakimiyyətinin hər iki dövründə digər sahələr kimi. səhiyyənin də inkişafını diqqət mərkəzində saxlamışdır.

**Azərbaycanda səhiyyə sisteminin inkişafı tarixi.** Ölkəmizdə səhiyyə sisteminin tarixinə nəzər salsaq ilk öncə 20-ci əsrin ilkin dövrlərini qeyd edə bilərik. 1913-1914-cü illər arasında ölkə üzrə cəmi 45 həkim mövcud idi və müstəqil sanitar xidmətləri Bakı və Gəncədə mövcud idi. Sonrakı dövrdə səhiyyənin tarixini ölkədə baş verən iqtisadi ələlxüsus siyasi dəyişikliklərə görə dəyərləndirsək üç dövrə ayıra bilərik:

I.1918-1920-ci illər. Bu dövrü Azərbaycan Xalq Cumhuriyyətinin yaranması və fəaliyyəti dövrü səciyyələndirmək olar.Həmin dövrdəki əsaslı yeniliklər arasında Azərbaycan Xalq Cümhuriyyəti Səhiyyə və Sosial Təminat Nazirliyinin (1918) yaradılması xüsusi yer tutur.

II. 1920-1991-ci illər. Bu dövr Azərbaycan sovetlər birliyinin tərkibində olması ilə xarakterikdir. Sovetlərin mövcud olduğu müddət ərzində də əsas diqqət səhiyyənin idarə olunması və təşkili məslələrinə yönəldilmişdir. Orta hesabla yetmiş il ərzində fəaliyyəti bu istiqamətdə qurulan Azərbaycan Sovet Sosialist Respublikası Xalq Səhiyyə Komissarlığının (1920–1947) və Azərbaycan Sovet Sosialist Respublikası Səhiyyə Nazirliyinin (1947–1991) yaradılmasını qeyd edə bilərik.

III, Müstəqil Azərbaycan Respublikası dövrü. !991- cildən fəaliyyət göstərən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və onun tabeçiliyində olam müəssisələr öz fəaliyyətlərini davamlı şəkildə təkmilləşdirməklə, dünya səhiyyə elminin son nailiyyətlərini uğurla tətbiq edərək, vətəndaşların sağlamlıq səviyyəsinin yüksəldilməsinə öz töhfələrini verirlər. 2018-ci ildən Azərbaycan Respublikasında İcbari Tibbi Sığorta sisteminin tətbiqini də səhiyyə sisteminin inkişafında yeni mərhələ kimi qiymətləndirmək olar.

Sosial sfera və xüsusən səhiyyə sahəsində keçirilən islahatlar əhalinin istehlak qabiliyyətinə uyğun olmalı və müflisləşdirən səhiyyə xərclərindən azad etməlidir.[1] İslahatları qeyd etməmişdən əvvəl Azərbaycan səhiyyəsinin tarixində bir neçə vacib məsələ qeyd olunmalıdır. Belə ki,

səhiyyəmizin tarixi inkişaf yolunda "altın çağları" Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti vaxtlarına təsadüf edir. Həm SSRİ, həm də müstəqillik dövründə Ümummilli Lider Heydər Əliyevin çoxşaxəli fəaliyyəti bir çox sahədə təkcə Azərbaycan xalqının tərəqqisinə yönəlib.İstər respublikaya birinci dəfə rəhbərlik etdiyi 1969–1982–ci illərdə, istərsə də SSRİ–nin ali hakimiyyət orqanlarında təmsil olunduğu dövrdə, həmçinin azad Azərbaycanın Prezidenti kimi fəaliyyətində ölkənin siyasi iqtisadi sosial-mədəni və səhiyyə- sağlamlıq sahəsində ölkənin bu sadalanan sahələrdə dirçəliş və tərəqqisi üçün əlindən gələni etmişdir.

Bu məqamda Ümumilli Liderin vaxtilə dediyi sözləri vurğulamaq mümkündür: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib" [4].

**Heydər Əliyev dövründə səhiyyə sisteminin inkişaf tipologiyası.** Heydər Əliyev, ölkənin səhhətinin yaxşı səviyyədə olmasının, millətin sağlam gələcəyini şərtləndirən amil kimi, əsas məsələlərdən biri kimi dəyərləndirirdi. Ümumilli Liderin hakimiyyətə gəlişi böyük qürur və sevinc hissi ilə qarşılansa da eyni zamanda durğunluq dövrü kimi qiymətləndirilən bir zamanda qarşıda böyük dəyişikliklərə ehtiyac var idi. Bu dəyişikliklərin ən başlıcası isə sağlam bir cəmiyyət formalaşmasının əsas hesab edilən səhiyyə sahəsində olmalı idi. Həmin dövrlərdə səhiyyədə bir çox problemləri mövcud idi. İlkin olaraq, səhiyyənin maddi–texniki bazası acınacaqlı vəziyyətdə idi. İmmunlaşdırma, bir sıra infeksion xəstəliklər, həmçinin vərəm, malyariya, difteriya, poliomielit və s. kadr çatışmazlığı bütün bunlar səhiyyə sahəsindəki problemlərdən bir neçəsi idi.

Səhiyyə sahəsindəki problemlərin həllinə yönəlik atılmış addımlardan ən başlıcasına 1969–cu ilin avqustunda keçirilmiş tarixi plenumda bu mövzunun müzakirəsi idi. Azərbaycan Respublikası Ali Sovetinin VII Sessiyası (1969–cu il, dekabr) Ümumilli Liderin təşəbbüsü ilə məhz həmin gələcək nailiyyətlərin təməlinə dayanan "Sağlamlıq Məcəlləsi" adlı sənədi qəbul olundu. Bu sənəd bu sahədə tətbiq olunacaq yeniliklərin fəaliyyət planı idi. O dövrdə tətbiq olunan yeniliklərdən biri də korrupsiya və rüşvətxorluğa qarşı mübarizə idi. Heydər Əliyevin səhiyyədəki yeniliklərindən biri də mövcud səhiyyə obyektlərinin abadlaşdırılması və yeni tibb müəssisələrinin tikilərək istifadəyə verilməsi idi. 1970-1980-ci illərdə tikilən səhiyyə obyektlərinin sayında artış mühüm dərəcədə çox idi belə ki, yalnız uşaq poliklinikalarının sayı 150-dən 175-ə çatmışdı.1960-1970-ci illərdə Ümumilli Liderin səhiyyə sahəsində uğurlu islahatlarının bir hissəsi olan səhiyyə obyektlərinin sayının artırılması nəticəsində aşağıda adı qeyd olunan tibb müəssisələri istifadəyə verilmişdi:

- ✓ Urologiya Xəstəxanası;
- ✓ Diaqnostika Mərkəzi;
- ✓ Neyrocərrahiyyə Mərkəzi;
- ✓ Toksikoloji Mərkəz;
- ✓ Ailə Planlaşdırması Mərkəzi;
- ✓ Milli Onkologiya Mərkəzinin yeni korpusunun inşası;
- ✓ Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun yeni kompleksinin tikintisi.

Müasir səhiyyə müəssisələri ixtisaslı kadrlar demək idi lakin ölkədə bu sahədə kifayət qədər ixtisaslı kadr mövcud deyildi. Tibb işçilərinin sayının artırılması üçün də tədbirlər görülməyə başlanılmışdı. İlkin olaraq Azərbaycan Tibb institutuna tələbə qəbulu artırıldı və buna pararlel olaraq uzaq və ya ucqar bölgələrdən gələn tələbələr üçün güzəştlər tətbiq edildi. Bununla da kadr çatışmazlığına qarşı ilkin tədbirlər uğurla görüldü. Bundan başqa ixtisaslılığın artırılmasım üçün 1970-1980-ci illərdə bir qrup tələbə həmçinin Azərbaycan alim və həkimlərinin Moskva və digər başqa şəhərlərə aspiranturaya göndərilməsi prosesi gedirdi.

Ümumilli Liderin səhiyyə sahəsində siyasətlərindən biri də təbabət alimlərinin hazırlığının artırılması, elmi mərkəzlərin açılması və səhiyyənin müxtəlif istiqamətləri üzrə konfrans, forumların, qurultayların keçirilməsi idi. Belə ki, bunlara misal olaraq 1970 və 1981-ci ildə Fizioloq və patofizioloqların; 1974-cü ildə nevropatoloqların;1979-cu ildə tibbi bioloqların; 1977-ci ildə oftalmoloqların; 1978-ci ildə hematoloq və transfuzioloqların və.s Bakıda baş tutmuş konfrans və qurultaylarını misal göstərmək olar. Təbii ki, bunların məqsədi yüksək hazırlıqlı tibbi

kadrların imkanlarını atırmaq və qabiliyyətlərini göstərə bilmələri üçün şərait yaratmaq idi. Bu tədbirlərin elmi-praktiki önəmi ilə yanaşı, siyasi məqsədi də var idi. Burada məqsəd Bakını tibb alimlərinin ənənəvi görüş yerinə çevirmək idi. Məhz göstərilən bu səylər nəticəsində 1970-ci ildə Ümumdünya Səhiyyə təşkilatının regionlararası seminarı və 1972-ci ildə isə, Beynəlxalq Tibbi avadanlıqlar sərgisi Bakıda keçirildi. Bu qəbildən olan tədbirlərə ev sahibliyi etmək şəhərin bu sahədə artan rolunun göstəricisi idi. Bunlarla yanaşı Heydər Əliyev əhalinin sağlamlıq vəziyyəti üçün vacib olan və dövrün aktual problemlərindən olan 3 şəhərin (Bakı, Gəncə, Sumqayıt) sanitar-gigiyenik durumu, Xəzər hövzəsinin gigiyenik vəziyyəti, müxtəlif ağır şəraitli peşələrdə çalışanların əmək şəraiti alkoqolizm və.s qarşı mübarizə dərman və tibbi avadanlıq çatışmazlığı kimi problemlərə gətirdiyi həllər sayəsində Azərbaycanda peşə xəstəlikləri 25% azalma göstərmişdi.

Görülən tədbirlərdən biri də kurort müalicəsinin təşkilinə yəni, Naftalan, İstisu və Abşeron sanatoriyalarında tibbi xidmətin yaxşılaşdırılması olmuşdur. Həmin dövrlərdə əhalinin ilkin səhiyyə xidmətlərinin istifadənin artırılmasına, sahə həkimlərinin işinin fəallaşdırılmasına, xəstəliklərin vaxtında diaqnoz qoyularaq müalicə edilməsinə dair təşviqedici tədbirlər görülmüşdü. Həmin illərdə baş verən önəmli tədbirlərdən biri də 1982-ci ildə keçirilən Sahə həkimlərinin respublika qurultayı idi. Məhz bu qurultaydan sonra, “Əhalinin sağlamlığının qorunmasına dair əlavə tədbirlər haqqında” qərar qəbul edildi.

1980-ci illərin sonu 1990-cı illərin əvvəllərinə təsadüf edən dövrlərdə xalqımızın müstəqillik uğrunda mübarizəsi dövrü idi. Bununla əlaqədar olaraq bu dövrlərdə səhiyyənin inkişafı ləngiyirdi. Xalqımız keçdiyi ağır yol və iqtisadi tənəzzül səhiyyə sahəsindən də yan keçməmişdi. Lakin buna baxmayaraq həmin dövrlərdə aşağıda adları sadalanan bir sıra önəmli qanunlar qəbul olunmuşdur:

- “Qan və onun komponentlərinin donörluğu haqqında”;
- “İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması haqqında”;
- “Əczaçılıq fəaliyyəti haqqında”;
- “İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında”;
- “Tibbi sığorta haqqında” .

Qeyd olunan qanunlarla yanaşı həmin dövrlərdə ölkədə QİÇS və vərəm kimi xəstəliklərin artmasını önləmək üçün milli proqramlar işlənib hazırlanmışdı. Heydər Əliyevin qəbul etdiyi önəmli qərarlardan biri də, səhiyyənin bütün sahələrini əhatə edən , islahatların tətbiqini genişləndirən və 1998-ci ildə qəbul etdiyi “Səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması barədə” sərəncamı idi.

Azərbaycanda müşahidə olunan keçir dövründə səhiyyə sahəsində mütərəqqi dəyişikliklər aparılması və yeni daha müasir bir sistemin qurulması planlanırdı. Bu planların nəticələrindən biri isə, Azərbaycanla BMT–nin Uşaq Fondu arasında Əməkdaşlıq Proqramı imzalanması idi(1994). Həmin qərara uyğun olaraq uşaq ölümünün nisbətən çox olduğu Quba rayonunda islahatlar başlanıldı bu islahatlar sonradan, Lənkəran, Salyan, Cəlilabad rayonlarında davam etdi və sonda müsbət nəticələr əldə olundu.

Müstəqillikdən sonrakı inkişaf dövründə səhiyyənin yalnız dövlət hesabına inkişafı mümkün deyildi. Müharibədən sonrakı iqtisadi vəziyyət və müasir dünya tələbləri buna imkan vermirdi. Bunların nəticəsi olaraq 1999-cu ildə “Özəl tibb fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu qanun nəticəsində özəl səhiyyə sisteminin inkişafına əlverişli şərait yarandı. Özəl səhiyyə müəssisələrinin açılması, tibb işçilərinin maddi rəfahına müsbət təsir göstərdi. Belə ki, 2500 həkim və 400 orta tibb işçisi işlə təmin olundu. Özəl səhiyyə müəssisələrinin yaranması rəqabəti də bərabərində gətirdi. Dövlət və özəl səhiyyə müəssisələri arasında rəqabətin yaranması ilə göstərilən tibbi xidmətin səviyyəsi artmağa başladı.

Müstəqillik illərinin əvvəllərində səhiyyə sahəsindəki problemlərdən biri də qaçqın və məcburi köçkünlərin tibbi təminatı ilə bağlı idi. Problemin həlli olaraq Heydər Əliyev şəhid ailələri və məcburi köçkünlərin Azərbaycanın bütün bölgələrində tibb müəssisələrində himayəyə götürülməsi ilə bağlı 1994–cü ildə qərar verdi. Müstəqillikdən sonrakı dövrdə, tibb müəssisələrinin maddi-texniki bazasının yenilənməsi və təmiri ilə bağlıda işlər aparıldı. O

illərdə ən mühüm hadisələrdən biri də Azərbaycan Tibb Universitetinin yeni korpusunun açılışı və müasir standartlardan geri qalmayan Mərkəzi klinik Xəstəxanasının açılışı idi.

Qeyd olunanları ümumiləşdirərək bir məlumatı da vurğulaya bilərik ki, yuxarıda qeyd olunan bütün səhiyyə sahəsindəki iqtisadi problemlərin həlli istiqamətində aparılan islahatlar və innovasiyalar bunu deməyə imkan verirdi ki, formalaşmış olduğu elmlərdən heç biri onları tam həcmdə tədqiq etmək iqtidarında deyil və bununla da XX yüzilliyin ikinci yarısında səhiyyə iqtisadiyyatı müstəqil bir sahə kimi formalaşmağa başlamışdır.[2] Bu isə Ümumilli lider Heydər Əliyevin dövründə səhiyyənin inkişafında önəmli bir yenilik idi. Təhsildə fərqlənən azərbaycanlı gənclərinyüksək səviyyəli tibb təhsili almaq, elmi araşdırmalar aparmaq üçün sovetlər birliyinin tanaınmış ali tıəhsil müəssisələrinə göndərilməsi Ümumilli lider Heydər Əliyevin uzaqgörənliyini təsdiq edir. O dövrün gənc həkim və alimləri hazırda milli səhiyyə siteminin tanınmış simaları sırasındadırlar. Bu ənənənə Ulu Öndərin davamçısı olan İlham Əliyev tərəfindən dəı davam etdirilir və səhiyyə sahəsinin inkişafı daim diqqət mərkəzində saxlanılr. Məhz bunun nəticəsidir ki, Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair milli prioritetlərlə bağlı qəbul olunan sərəncamda insan kapitalının formalaşdırılması və vətəndaşların həyat tərzi vəzifələri prioritet kimi qarşıya qoyulmuşdur[5].

**Nəticə**

Beləliklə, qeyd etmək mümkündür ki, ölkəmizin hər sahədə olduğu kimi səhiyyə sektorundakı inkişafı da Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın keçdiyi tarixi inkişaf yolunda hər sahədə olduğu kimi iqtisadiyyata təsir edən, sağlam cəmiyyətin inşasında prioritet olan səhiyyə Ulu öndərin diqqətindən qaçmamışdır. Səhiyyənin inkişafı yolunda onun uzaqgörənliklə gördüyü işlər əvəzsiz və dəyərlidir. Müasir səhiyyənin inkişafının təməlini qoyan, Ümumilli lider Heydər Əliyev xalqının sağlamlığının qorunması üçün əlindən gələni etmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi, dərs vəsaiti, Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010.
2. F. P. Rəhmanov. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı: 2021
3. https://az.wikipedia.org/wiki/Səhiyyə_Nazirliyi_(Azərbaycan)
4. http://www.anl.az/down/meqale/respublika/2013/may/308899.htm
5. https://president.az/az/articles/view/50474

**Ясемен Мубариз кызы АББАСЗАДЕ**
Азербайджанский Государственный Экономический Университет, Докторант

# ЭТАП ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ НАЦИОНАЛЬНОЙ СИСТЕМЫ ЗДРАВООХРАНЕНИЯ

**Резюме**

Развитие здравоохранения является одной из реальных гарантий нынешнего и будущего развития любой страны. Развитая здравоохранения, это здоровое гражданство и здоровое поколение, которое принимает эстафету будущего. В связи с этим развитие здравоохранения в плане научного, технологического, организационного и кадрового обеспечения считается одним из основных направлений государственной политики.

В представленной научной статье в хронологическом порядке рассмотрена история развития системы здравоохранения Азербайджана, а также *были проанализированы* результаты реализации решений и стратегий, принятых в направлении развития здравоохранения в период правления Национального Лидера Г.Алиева.

**Ключевые слова:** развитие, политика, стратегия, реформа, здравоохранение, услуг, управление.

**Yaseman Mubariz ABBASZADEH**
Azerbaijan State University of Economics, doctoral student

# HEYDAR ALIYEV STAGE IN THE DEVELOPMENT OF THE NATIONAL HEALTHCARE SYSTEM

**Summary**

The development of health care is one of the real guarantees of the current and future development of any country. Improved healthcare means a healthy citizenry and a healthy generation that takes over the baton of the future. In this regard, the development of health care in terms of scientific, technological, organizational and personnel provision is considered one of the main directions of state policy.

In the presented scientific article, the history of the development of the healthcare system of Azerbaijan was reviewed chronologically. At the same time, the results of the implementation of the decisions and strategies adopted in the direction of the development of healthcare during the reign of the Great Leader Heydar Aliyev were analyzed.

**Key words:** development, policy, strategy, reform, health, service, management.

**Şəhla Rauf qızı ABBASOVA**
Gəncə Dövlət Universitetinin dissertantı
E-mail: sehla.abbasova.2018@mail.ru

# YÜNGÜL SƏNAYE SEKTORUNUN DAVAMLI İNKİŞAFININ TƏMİN OLUNMASINDA KLASTERLƏRİN ROLU

**Xülasə**

Müasir dövrdə hər bir dövlətin iqtisadi rəqabət imkanlarını yüksəldən və onun inkişafına təsir edən ən mühüm meyarlardan biri iqtisadi sahələrin daxili və xarici bazarlarda potensial imkanları və yaratdığı əlavə dəyərdən ibarətdir. Hazırda dünyanın bir çox ölkəsində yüngül sənaye sektoru qeyd olunan xüsusiyyətləri özündə ehtiva etdiyi üçün prioritet sahələrdən hesab olunur. Ənənəvi istehsal prosesi ilə yüngül sənaye sektoru əmək tutumlu istehsal strukturuna sahib olmaqla xüsusilə inkişaf etməkdə olan ölkələr üçün istehsal həcmi, məşğulluq və xarici ticarət gəlirinin yüksəldilməsi baxımından geniş potensiala malikdir. Məhz, bunun üçün bir çox ölkənin sənayeləşmə strategiyasında yüngül səanye sektoru mühüm yer tutur. Son dövrlər dünyada elm və texnologiyanın inkişafı, qloballaşma prosesinin intensivləşməsi, beynəlxalq ticarətin strukturunda baş verən dəyişikliklər yüngül sənaye sektorunun daha mütəşəkkil təşkilati quruluş çərçivəsində inkişafını şərtləndirmişdir. Hesab edirik ki, respublikamızda həyata keçirilən regionların davamlı inkişafı proqramları çərçivəsində istehsal sahələrinin davamlı rəqabət üstünlüyünü təmin etmək üçün yüngül sənaye sektorunun klasterlər daxilində fəaliyyətinin təmin olunması bu aspektdə əhəmiyyətli ola bilər.

**Tədqiqatın məqsədi** – Yüngül sənaye müəssisələrinin klasterlər daxilində fəaliyyətini şərtləndirən amillərin tədqiqi.

**Tədqiqatın metodikası-** Yüngül sənaye müəssisələrinin klasterlər daxilində fəaliyyəti beynəlxalq təcrübədə müşahidə, müqayisə və təhlil metodları əsasında tədqiq olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Tədqiqatda şərh olunmuş müddəalardan respublikamızda yüngül sənaye müəssisələrinin klasterlər daxilində fəaliyyətinin formalaşdırılması praktikasında nəzərə alına bilər

**Tədqiqatın nəticələri – yüngül sənaye sektorunda klasterlərin yaradılması sahəyə** innovasiyaların cəlb olunmasına təkan verər və istehsalatda texnoloji yeniliklərin tətbiqinə müsbət təsir göstərər və s.

**Tədqiqatın elmi yeniliyi** – klasterlər daxilində yüngül sənaye müəssisələrinin cəlbediciliyini artıran amillər müəyyən edilmiş, respublikada senaye sektorunda klasterlərin yaradılmasının əsas aspektləri göstərilmişdir;

**Açar sözlər:** klaster, yüngül sənaye, rəqabət, innovasiya, istehsal, regionlar

**JEL**: **J 21**

**Giriş:**

Son dövrlər dünyada qloballaşma prosesinin sürətlənməsi ilə birlikdə beynəlxalq ticarətə maneələrin azalması, məhsulların, xidmətlərin, kapitalın və əməyin dövriyyəsnin sürətlənməsinə səbəb olmuşdur. Müşahidə olunan bu tendensiyalar nəticəsində "müqayisəli üstünlük" meyarı tədricən öz mövqeyini "davamlı rəqabət üstünlüyü"nə ötürmüşdür. Yaranmış yeni rəqabət mühiti istehsal sahələrində istehsal xərclərinin qənaətinə imkan yaradan innovasiyaların tətbiqinə zəmin yaratmışdır. Qloballaşma prosesi coğrafi məsafənin əhəmiyyətini hər keçən gün bir qədər azaltsa da, isteahsal sahələrinin rəqabət potensialını yüksəldəcək daha təkmil bir təşkilati quruluşun formalaşdırılmasını zərurətə çevirmişdir. XX əsrin əvvəllərindən etibarən dünya iqtisadiyyatında müşahidə olunan iqtisadi inkişaf tendensiyalarının əsas ünsürlərini təhlil edərkən məlum olur ki, bu cür nailiyyətlərin əsas meyarı innovasiyalar və onların tətbiqini dəstəkləyən biznes mühitidir. Bu aspektdə milli innovasiyalar mərkəzinin funksionallığının artırılması, xarici bazarlarda rəqabət apara biləcək iqtisadi fəaliyyətin inkişafına yardım

göstərilməsi təxirəsalınmaz siyasi vəzifədir. İnnovasiyaların dəstəklənməsi iqtisadi subyektlərin rəqabətqabiliyyətini artırmaqla lokal və beynəlxalq bazarlara çıxış imkanlarını da sürətləndirə bilər. Bu baxımdan son illər respublikamızda istehsal sahələrində innovasiyaların tətbiqini təşviq edəcək zəruru addamlarn atılmasını təqdirə layiq hesab etmək olar.

**Mövzunun aktuallığı:**

Klasterləşmə konseptual bir tərəfdən diqqəti çox cəlb edən, digər tərəfdən isə struktur və tətbiq imkanları baxımından hər zaman geniş müzakirələrin predmetinə çevrilmiş bir mövzudur.

Müasir klasterləri formalaşdıran əsas anlyışlar ilk dəfə 1920-ci illərdə Alfred Marşall tərəfindən nəşr olunan sənaye zonaları əsərində gündəmə gəlmişdir. Onun yenidən aktuallaşması isə 1970-ci illərin neft böhranlarından sonra şimal-şərqi İtaliyada yaradılan sənaye zonalarında çevik ixtisaslaşma və yeni rəqabət uğuru əldə olunması ilə baş verdi. Lakin Maykl Porterin 1990-cı ildə nəşr olunan əsəri müasir klasterlər haqqında daha dolğun yanaşmanın təməlinin qoyulmasında əsaslı rol oynamışdır. Bununla belə, klasterlərin fəaliyyəti ilə bağlı birləşdirici nəzəri konsensusun olduğunu söyləmək çətin olsa da onun “Coğrafi yaxınlıq” və “əlaqə sahələri” anlayışlarının istehsal sahələrində istifadəsinə təkan verdiyini söyləmək olar.

Hal- hazırda müasir qlobal iqtisadi proseslərdə rəqabət üstünlüyü əldə etməyin üsulu kimi bir qisim xüsusi faktorlar əhəmiyyət daşıyırlar. Bunlar biznes subyektinin yerləşdiyi məkanın limana yaxın olmasını, yaxud insan resursunun rəqiblərinə nisbətdə daha münasib qiymətlə çalışdırılması kimi nümunələr, xərcləri azaltmaqla rəqabət üstünlüyünü şərtləndirən başlıca amillər hesab olunurlar. Bu qəbildən olan üstünlüyü kortəbii haldan sistemli formaya transformasiya etmək üçün isə müəyyən inzibati tənzimləmələrə ehtiyac duyulur. Rəqabət anlayışına təsir edən biznes klasterləri təkmil metodoloji yanaşma kimi məhz bu zərurəti qarşılamaq məqsədi güdür.

Klasterlər - eyni və yaxud oxşar sahələrdə fəaliyyət göstərən, bir-biri ilə əlaqəli və ya tamamlayıcı fəaliyyət sektorlarının vahid coğrafi ərazidə yerləşməsi ilə meydana gələn, zəruri infrastruktur, texnologiya, işçi qüvvəsi və eyni bazarı paylaşaraq qarşılıqlı ticarət münasibətlərinin formalaşdırılması, kommunikasiya imkanlarına malik olan biznes subyektlərindən ibarət sistemlərdir.

ABŞ-da mühüm sahələr üzrə çoxsaylı biznes klasterləri mövcuddur. Bunların sırasından ən məhşuru Kaliforniya ştatında yerləşən, Apple, Facebook, Google, Netflix, Tesla, Twitter, Yahoo, eBay, Cisco və Oracle kimi dünyaca tanınmış nəhəng şirkətlərə ev sahibliyi edən Silikon Vadisi rəqəmsal klasteridir. Əsasən müdafiə sənayesi üzrə tədqiqatlar üçün nəzərdə tutulmuş, sonradan Stanford Universitetinin təşəbbüsü ilə mülki tədqiqatlara da açılmışdır.

Həmçinin Türkiyə Respublikası universitetlərinin nəzdnində texnoparklar, həmçinin sənaye məhəllələri ilə yanaşı müxtəlif biznes klasterləri yaratmışdır. Həcm etibarilə bunlardan ən böyüyü və ən yenisi “Bilişim Vadisi” adı ilə formalaşmışdır. Türkiyə nümunəsini fərqləndirən cəhət isə biznes inkubatoru adlanan mexanizmin proseslərə inteqrasiya edilməsi ilə uğuru davamlılaşdırmağa hesablanmış addımlar atmasıdır[5].

Klasterlər istehsal subyektləri arasında həm iqtisadi rəqabət, həm də əməkdaşlığın eyni zamanda həyata keçirilməsinə şərait yaradır. Klaster daxilində oxşar sahədə fəaliyyət göstərən biznes subyektləri həm bir-biri ilə rəqabət aparır, həm də eyni təşkilati strukturda hərəkət edirlər [4,səh 41]. Bu sistemin əhəmiyyəti yüngül sənaye sektorunda fəaliyyət göstərən istehsal subyektlərinin rəqabət üstünlüyü üçün yaratdığı imkanlarla xarakterizə olunur. Digər bir tərəfdən isə klasterlər daxilində fəaliyyət göstərən müəssisələrin istehsal xərcləri azalır, marketinq imkanları genişlənir, məhsuldarlıq və rəqabətədavamlı istehsalın intensivləşməsi ilə beynəlxalq bazarlara çıxış imkanı yüksəlmiş olur. Klasterlər iqtisadi artıma müəyyən töhfə verməklə yanaşı, həm də sosial problemlərin həllində mühüm rol oynayır. Qloballaşma prosesinin dərinləşməsi ilə klaster konsepsiyası, sənaye sahələri başda olmaqla bir çox sahədə tətbiqini şərtləndirir. Hesab edirik ki, qeyd olunanlarla yanaşı klasterlərin aktuallığını aşağıdakı xüsusiyyələrilə əlaqələndirmək olar:

- sənaye sahəsində klasterlərin formalaşdırılması innovasiyaların tətbiq imkanlarını genişləndirir;

- daxili ixtisaslaşdırma və standartlaşdırmanı şərtləndirir ;
- klasterin tərkibində innovasiya əsasında biznes subyektlərinin inkişafına şərait yaranır;
- innovasiyaların tətbiqi məsrəflərinin minimallaşdırılması ilə beynəlxalq texnoloji əməkdaşlıq çərçivəsində yeniliklərin əldə edilməsinə zəmin yaranır;
- birgə marketinq proqramları, həmçinin regionun ixracatçılarının təşkilati dəstəyi hesabına subyektlərin ixracatını genişləndirir;
- klasterin müsbət nüfuzu (brend) onun iştirakçılarına şamil edilir və s.

Mövcud vəziyyət:

Dünya təcrübəsi göstərir ki, klasterlərin inkişafı əsasən sənaye sektorunda daha uğurlu olur və bu təşkilati struktur daxilində xüsusilə yüngül sənaye müəssisələrinin inkişafı üçün geniş imkanlar yaranır [3, səh 45].

Yüngül sənaye sektorunda klasterlərin təşkili müəyyənləşdirilmiş ərazidə istehsal, elm, tədris, təchizat və xidmət fəaliyyətinin üzvi vəhdətini nəzərdə tutur. Dünya təcrübəsini araşdırarkən məlum olur ki, rəqabətin və sənaye fəaliyyət inteqrasiyasının müqayisəli üstünlükləri klasterial inkişaf sayəsində reallaşa bilir.

Hazırda dünya üçün ən aktual problemlərdən olan demoqrafik strukturda baş verən dəyişikliklər konkret olaraq əhalinin sürətlə artması və buna müvafiq təbii resurslar hesabına istehsal imkanlarının məhdudlaşması bütün sahələrdə innovasiya yönümlü fəaliyyətin təşviq edilməsini şərtləndirir. Bu baxımdan yüngül sənaye sektorunda intensiv inkişaf imkanlarını genişləndirən klasterial yanaşmaya xüsusi diqqət yetirilməlidir.

Araşdırmalar göstərir ki, sənaye sektorunda sahələrarası və ərazidaxili birgə fəaliyyət imkanlarının reallaşdırılmasının perspektivli istiqamətlərindən biri kimi klaster təşəbbüslərinin dəstəklənməsi əhalinin yüngül sənaye məhsullarına olan tələbatın qarşılanmasında də mühüm rol oynayır. Bundan başqa yüngül sanaye müəssisələrinin klasterlər daxilində fəaliyyətinin təşkil olunması bir sıra məsələlərin həllində də öz müsbət töhfəsini verir:

- sənaye sektorunda klasterlər biznes mühitinin formalaşdırılması və dəstəklənməsində xüsusi rol oynayır;
- sənaye sektorunda klasterial inkişaf təsərrüfat subyektlərinin innovativ inkişaf strategiyasının formalaşdırılması ilə kompleks elmi-tədqiqat işlərinin nəticələrinə uyğunlaşdırılır.

Elmi-texnoloji yeniliklərin istehsal sahələrində tətbiqinin pik həddə çatdığı müasir dövrdə klasterləri modern iqtisadi inkişafın daha dərin aspekti hesab edirlər [4 səh 97.]. Klasterial inkişaf dövlət, özəl sektor, elmi-tədqiqat və təhsil mərkəzləri, beynəlxalq donorların qarşılıqlı fəaliyyəti mühitində mümkündür. Respublikamızda sənaye klasterlərinin inkişafı üçün qabaqcıl dünya təcrübəsi hərtərəfli öyrənilməli və ən optimal variantlar seçilərək tətbiq edilməlidir. Sənaye sektorunda klasterial inkişaf innovativ iqtisadi və idarəetmə texnologiyalarının mümkün nailiyyətləri ilə regional tarazlığa və iqtisadi diversifikasiyanın reallaşdırılmasına xidmət etməlidir və bunun üçün bəzi məsələlərin həllinə xüsusi diqqət yetirilməlidir:

- sənaye sektorunda klasterlər rəqabət potensialı yüksəldilməsinə təkan verməlidir;
- klasterial inkişaf üçün prioritet sahələr müəyyənləşdirilməlidir;
- klasterin fəaliyyətinin kadr təminatının konseptual əsasları yaradılmalıdır;
- innovativ və tətbiqə yararlı elmi araşdırmaları stimullaşdıran təşviq mexanizmi formalaşdırılmalıdır;
- klasterlər daxilində fəaliyyət göstərən sənaye sektorunda klasteri məhsulunun bazarlara çıxışı üzrə marketinq strategiyası hazırlanmalıdır;
- klasterial inkişafın normativ-hüquqi bazası formalaşdırılmalıdır;
- klasterial inkişafın investisiya siyasətinin əsasları formalaşdırılmalıdır və s.

Sənaye sektorunda klasterlərin formalaşdırılmasında qarşıya qoyulan məqsədlər konkret ölkənin potensialı və inkişaf səviyyəsindən asılı olaraq dəyişir. Belə ki, qabaqcıl dünya ölkələrində klasterlərin yaradılması əsasən elmi texniki tərəqqinin naliyyətlərinin istehsal sahələrində tətbiqi ilə innovasiya yönümlü istehsalı genişləndirmək məqsədini güdürsə, nisbətən inkişaf səviyyəsi aşağı olan ölkərlərdə isə klasterlər regionlararası qeyri-bərabər inkişafı aradan qaldırmaq, biznes mühitini təkmilləşdirmək, rəqabətqabiliyyətli istehsalın təşviqinə xidmət edir. Onu da qeyd etmək lazımdır ki, əksər

ölkələrdə dövlət və biznes dairələrinin təşəbbüsü ilə yaradılan klasterlərin məqsədləri bir qədər fərqlidir.

Tədqiqatlar göstərir ki, sənaye sahəsində klasterlərin yaradılması istiqamətində əsas çətinliklərdən biri də maliyyə təminatı ilə bağlı məsələlərdir. Bu aspektdə inkişaf etmiş ölkələrdə dövlət yüksək iqtisadi artım imkanlarını nəzərə alaraq klasterlərin formalaşdırılmasında bütün maliyyə xərclərini öz üzərinə götürür. İnkişaf etməkdə olan ölkələrdə isə klasterlərin yaradılmasında tələb olunan maliyyə vəsaiti əsasən beynəlxalq təşkilatların donorluğu və özəl sektorun təşəbbüsü ilə reallaşdırılır [2,səh.88].

Azərbaycanda yüngül-sənaye klasterlərinin formalaşdırılması istehsal, infrastruktur və elmi təminatın investisiyalaşmasını tələb edir. Müvafiq layihələrdə investisiyaların maliyyələşdirilməsi, artıq qeyd olunduğu kimi dövlət, biznes qurumları və xarici investorlar, sonrakı mərhələlərdə isə klasterlərin özü tərəfindən həyata keçirilə bilər. Bu zaman dövlət büdcəsindən mühüm infrastruktur və elmi-tədqiqat işlərinə, biznes dairələri tərəfindən yerli əhəmiyyətli infrastruktur layihələrinə və istehsalın təşkilinə, həmçinin klaster məhsulunun ixracına investisiyaların maliyyələşdirilməsi motivasiyadır. Belə ki, müvafiq yanaşma klaster iştirakçılarının maraqlarına daha uyğundur.

Sənaye sektorunda klasterlərin formalaşdırılması yüngül sənaye sahəsində institusional və struktur islahatlarnın yeni meyarlar əsasında davam etdirilməsini tələb edir. Məsələ ondadır ki, klasterial inkişaf şəraitində:

- potensial daxili və xarici investorlar yüngül sənaye müəssisələri ilə yeni əməkdaşlıq formaları axtarmağa başlayacaq;
- yüngül sənaye məhsulları ilə müxtəlif formalı təsərrüfat qurumları perspektivli əməkdaşlığa can atacaqlar;
- fəal dövlət himayəsi mühitində elmi-praktik təkliflərə olan ehtiyac elmi-tədqiqat mərkəzləri ilə yaxın əlaqələri stimullaşdıracaq;
- müştərək sahibkarlıq imkanlarını genişlənəcək və s. [2 səh.18].

Respublikamızda yüngül-sənaye sahəsində klasterial fəaliyyəti formalaşdırmaq və inkişaf etdirmək dəyər zəncirinin mərhələlərini - dövriyyə və əsas vəsaitlərlə təchizat, istehsalat, loqistika, çatdırılma və satış üzrə hər bir iştirakçının yerinə yetirəcəyi funksiyanın dolğun təsvir olunmasını şərtləndirir.

**Nəticə:**

Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına aktiv inteqrasiya olunduğu müasir şəraitdə rəqabətqabiliyyətli istehsalı təşviq edəcək mexanizmlər və təşkilati strukturların formalaşdırılması dövlətin iqtisadi siyasətinin prioritetini təşkil edir. Bu aspektdə cəmiyyət üçün əsas tələbat məhsullarının istehsalını təmin edən iqtisadi sahələr xüsusi olaraq qiymətləndirilməlidir. Biznes mühitinin dəstəklənməsi ixracyönümlü istehsal potensialına malik sənaye sahələrinin modern infrastrukturla təmin olunması bu aspektdə strateji hədəflərdən hesab olunmalıdır. Hesab edirik ki, respublikamızda yüngül sənaye müəssisələrinin iqtisadi artımın əsas amilinə çevrilməsi üçün dünya təcrübəsində istifadə olunaraq müasir klasterlərin yaradılması qeyri-neft istehsalının beynəlxalq bazarlarda rəqabət gücünü artırmaqla yanaşı sosial-iqtisadi məsələlərin həllində də mühüm töhfələr verə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Azərbaycan Respublikasınınmilli iqtisadiyyat perspektivi üzrəStrateji Yol Xəritəsi. Azərbaycan Respublikasının Prezdenti. Bakı şəhəri, 2016, 111s.

2.Cəfərov N.Ə. Bazar münasibətləri şəraitində sənaye istehsalının inkişafının stimullaşdırılması məsələləri. Bakı, Azərnəşr, 2010, 196 s.

2.Hüseynova A.D. İnnovasiya sahibkarlığının inkişafi//Azərbaycanda innovasiya fəaliyyətinin inkisaf yolu// Bakı, 2015, 132-139 s.

3. Michael E. Porter. On competition. Boston, Harvard Business School press,2005, 610 s

4. Vəli Məmmədov. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya// Qloballaşma dövründə dünya iqtisadi böhrani və yeni rəqabət şəraitində Azərbaycan müəssisələrinin rəqabətqabiliyyətliliyi// Bakı, 2010, 99-100 s.

5.https://az.wikipedia.org/wiki/Biznes_klasteri

**Шахла Рауф кызы АББАСОВА**
**Гянджинский Государственный Университет**
E-mail: sehla.abbasova.2018@mail.ru

## РОЛЬ КЛАСТЕРОВ В ОБЕСПЕЧЕНИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ ОТРАСЛИ ЛЕГКОЙ ПРОМЫШЛЕННОСТИ

**Резюме**

В современное время одним из важнейших критериев, повышающих экономическую конкурентоспособность каждого государства и влияющих на его развитие, являются потенциальные возможности и добавленная стоимость, создаваемая отраслями экономики на внутреннем и внешнем рынках. В настоящее время во многих странах мира сектор легкой промышленности считается одним из приоритетных направлений. Потому что он содержит упомянутые функции. Сектор легкой промышленности с его традиционным производственным процессом и трудоемкой структурой производства имеет большой потенциал с точки зрения увеличения объема производства, занятости и доходов от внешней торговли, особенно для развивающихся стран. Именно по этой причине отрасль легкой промышленности занимает важное место в стратегии индустриализации многих стран. В последнее время развитие науки и техники в мире, усиление процесса глобализации, изменения в структуре международной торговли обусловили развитие отрасли легкой промышленности в рамках более организованной организационной структуры. Полагаем, что для обеспечения устойчивого конкурентного преимущества производственных площадей в рамках программ устойчивого развития регионов, реализуемых в нашей республике, может быть важным обеспечение деятельности отрасли легкой промышленности в рамках кластеров в данном аспекте.

**Ключевые слова:** кластер, легкая промышленность, конкуренция, инновации, производство, регионы.

**Shahla Rauf gizi ABBASOVA**
Ganja State University
E-mail: sehla.abbasova.2018@mail.ru

## THE ROLE OF CLUSTERS IN ENSURING THE SUSTAINABLE DEVELOPMENT OF THE LIGHT INDUSTRY SECTOR

**Summary**

In modern times, one of the most important criteria that increases the economic competitiveness of each state and affects its development is the potential opportunities and added value created by economic sectors in domestic and foreign markets. Currently, in many countries of the world, the light industry sector is considered one of the priority areas. Because it contains the mentioned features. The light industry sector with its traditional production process and labor-intensive production structure has wide potential in terms of increasing production volume, employment and foreign trade income, especially for developing countries. It is for this reason that the light industry sector occupies an important place in the industrialization strategy of many countries. In recent times, the development of science and technology in the world, the intensification of the globalization process, the changes in the structure of international trade have determined the development of the light industry sector within the framework of a more organized organizational structure. We believe that in order to ensure the sustainable competitive advantage of production areas within the framework of the sustainable development programs of the regions implemented in our republic, it may be important to ensure the activity of the light industry sector within clusters in this aspect.

**Keywords:** cluster, light industry, competition, innovation, production, regions.

**Şəhla Rauf qızı ABBASOVA**
Gəncə Dövlət Universitetinin dissertantı
E-mail: sehla.abbasova.2018@mail.ru

# YÜNGÜL SƏNAYE SEKTORUNUN DAVAMLI İNKİŞAFININ TƏMİN OLUNMASINDA KLASTERLƏRİN ROLU

**Xülasə**

Müasir dövrdə hər bir dövlətin iqtisadi rəqabət imkanlarını yüksəldən və onun inkişafına təsir edən ən mühüm meyarlardan biri iqtisadi sahələrin daxili və xarici bazarlarda potensial imkanları və yaratdığı əlavə dəyərdən ibarətdir. Hazırda dünyanın bir çox ölkəsində yüngül sənaye sektoru qeyd olunan xüsusiyyətləri özündə ehtiva etdiyi üçün prioritet sahələrdən hesab olunur. Ənənəvi istehsal prosesi ilə yüngül sənaye sektoru əmək tutumlu istehsal strukturuna sahib olmaqla xüsusilə inkişaf etməkdə olan ölkələr üçün istehsal həcmi, məşğulluq və xarici ticarət gəlirinin yüksəldilməsi baxımından geniş potensiala malikdir. Məhz, bunun üçün bir çox ölkənin sənayeləşmə strategiyasında yüngül səanye sektoru mühüm yer tutur. Son dövrlər dünyada elm və texnologiyanın inkişafı, qloballaşma prosesinin intensivləşməsi, beynəlxalq ticarətin strukturunda baş verən dəyişikliklər yüngül sənaye sektorunun daha mütəşəkkil təşkilati quruluş çərçivəsində inkişafını şərtləndirmişdir. Hesab edirik ki, respublikamızda həyata keçirilən regionların davamlı inkişafı proqramları çərçivəsində istehsal sahələrinin davamlı rəqabət üstünlüyünü təmin etmək üçün yüngül sənaye sektorunun klasterlər daxilində fəaliyyətinin təmin olunması bu aspektdə əhəmiyyətli ola bilər.

**Tədqiqatın məqsədi** – Yüngül sənaye müəssisələrinin klasterlər daxilində fəaliyyətini şərtləndirən amillərin tədqiqi.

**Tədqiqatın metodikası-** Yüngül sənaye müəssisələrinin klasterlər daxilində fəaliyyəti beynəlxalq təcrübədə müşahidə, müqayisə və təhlil metodları əsasında tədqiq olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Tədqiqatda şərh olunmuş müddəalardan respublikamızda yüngül sənaye müəssisələrinin klasterlər daxilində fəaliyyətinin formalaşdırılması praktikasında nəzərə alına bilər

**Tədqiqatın nəticələri – yüngül sənaye sektorunda klasterlərin yaradılması sahəyə** innovasiyaların cəlb olunmasına təkan verər və istehsalatda texnoloji yeniliklərin tətbiqinə müsbət təsir göstərər və s.

**Tədqiqatın elmi yeniliyi** – klasterlər daxilində yüngül sənaye müəssisələrinin cəlbediciliyini artıran amillər müəyyən edilmiş, respublikada senaye sektorunda klasterlərin yaradılmasının əsas aspektləri göstərilmişdir;

**Açar sözlər:** klaster, yüngül sənaye, rəqabət, innovasiya, istehsal, regionlar

**JEL**: **J 21**

**Giriş:**

Son dövrlər dünyada qloballaşma prosesinin sürətlənməsi ilə birlikdə beynəlxalq ticarətə maneələrin azalması, məhsulların, xidmətlərin, kapitalın və əməyin dövriyyəsnin sürətlənməsinə səbəb olmuşdur. Müşahidə olunan bu tendensiyalar nəticəsində "müqayisəli üstünlük" meyarı tədricən öz mövqeyini "davamlı rəqabət üstünlüyü"nə ötürmüşdür. Yaranmış yeni rəqabət mühiti istehsal sahələrində istehsal xərclərinin qənaətinə imkan yaradan innovasiyaların tətbiqinə zəmin yaratmışdır. Qloballaşma prosesi coğrafi məsafənin əhəmiyyətini hər keçən gün bir qədər azaltsa da, isteahsal sahələrinin rəqabət potensialını yüksəldəcək daha təkmil bir təşkilati quruluşun formalaşdırılmasını zərurətə çevirmişdir. XX əsrin əvvəllərindən etibarən dünya iqtisadiyyatında müşahidə olunan iqtisadi inkişaf tendensiyalarının əsas ünsürlərini təhlil edərkən məlum olur ki, bu cür nailiyyətlərin əsas meyarı innovasiyalar və onların tətbiqini dəstəkləyən biznes mühitidir. Bu aspektdə milli innovasiyalar mərkəzinin funksionallığının artırılması, xarici bazarlarda rəqabət apara biləcək iqtisadi fəaliyyətin inkişafına yardım

göstərilməsi təxirəsalınmaz siyasi vəzifədir. İnnovasiyaların dəstəklənməsi iqtisadi subyektlərin rəqabətqabiliyyətini artırmaqla lokal və beynəlxalq bazarlara çıxış imkanlarını da sürətləndirə bilər. Bu baxımdan son illər respublikamızda istehsal sahələrində innovasiyaların tətbiqini təşviq edəcək zəruru addamlarn atılmasını təqdirə layiq hesab etmək olar.

**Mövzunun aktuallığı:**

Klasterləşmə konseptual bir tərəfdən diqqəti çox cəlb edən, digər tərəfdən isə struktur və tətbiq imkanları baxımından hər zaman geniş müzakirələrin predmetinə çevrilmiş bir mövzudur.

Müasir klasterləri formalaşdıran əsas anlyışlar ilk dəfə 1920-ci illərdə Alfred Marşall tərəfindən nəşr olunan sənaye zonaları əsərində gündəmə gəlmişdir. Onun yenidən aktuallaşması isə 1970-ci illərin neft böhranlarından sonra şimal-şərqi İtaliyada yaradılan sənaye zonalarında çevik ixtisaslaşma və yeni rəqabət uğuru əldə olunması ilə baş verdi. Lakin Maykl Porterin 1990-cı ildə nəşr olunan əsəri müasir klasterlər haqqında daha dolğun yanaşmanın təməlinin qoyulmasında əsaslı rol oynamışdır. Bununla belə, klasterlərin fəaliyyəti ilə bağlı birləşdirici nəzəri konsensusun olduğunu söyləmək çətin olsa da onun "Coğrafi yaxınlıq" və "əlaqə sahələri" anlayışlarının istehsal sahələrində istifadəsinə təkan verdiyini söyləmək olar.

Hal- hazırda müasir qlobal iqtisadi proseslərdə rəqabət üstünlüyü əldə etməyin üsulu kimi bir qisim xüsusi faktorlar əhəmiyyət daşıyırlar. Bunlar biznes subyektinin yerləşdiyi məkanın limana yaxın olmasını, yaxud insan resursunun rəqiblərinə nisbətdə daha münasib qiymətlə çalışdırılması kimi nümunələr, xərcləri azaltmaqla rəqabət üstünlüyünü şərtləndirən başlıca amillər hesab olunurlar. Bu qəbildən olan üstünlüyü kortəbii haldan sistemli formaya transformasiya etmək üçün isə müəyyən inzibati tənzimləmələrə ehtiyac duyulur. Rəqabət anlayışına təsir edən biznes klasterləri təkmil metodoloji yanaşma kimi məhz bu zərurəti qarşılamaq məqsədi güdür.

Klasterlər - eyni və yaxud oxşar sahələrdə fəaliyyət göstərən, bir-biri ilə əlaqəli və ya tamamlayıcı fəaliyyət sektorlarının vahid coğrafi ərazidə yerləşməsi ilə meydana gələn, zəruri infrastruktur, texnologiya, işçi qüvvəsi və eyni bazarı paylaşaraq qarşılıqlı ticarət münasibətlərinin formalaşdırılması, kommunikasiya imkanlarına malik olan biznes subyektlərindən ibarət sistemlərdir.

| ABŞ | 17348 | 18928 | 20544 | 22934 | 25084 | 21,0 | 18,8 | 44,6 |
| Yüksək gəlirli ölkələrin qalan hissəsi | 10268 | 10982 | 11681 | 12808 | 13870 | 11,9 | 10,4 | 35,1 |
| Qərbi Avropanın qalan hissəsi | 18418 | 19310 | 20260 | 21718 | 23203 | 20,7 | 17,4 | 26,0 |

[9, s. 23]-ün əsasında müəllif tərəfindən hesablanmışdır

**Cədvəl 4.**

**Adambaşına ÜDM-in dəyişmə dinamikası, 2014-cü ilin dolları**

| Ölkə, region | 2014 | 2017 | 2020 | 2025 | 2030 | 2020, pay, % | 2030, pay, % | 2030:2014 % |
|---|---|---|---|---|---|---|---|---|
| **Dünya** | 10792 | 11683 | 12655 | 14217 | 15695 | 100 | 100 | 45,4 |
| **KYT ÖLKƏLƏRİ** | 5014 | 5883 | 6859 | 8512 | 10105 | 7,0 | 7,6 | 101,5 |
| Kamboca | 1095 | 1314 | 1570 | 2013 | 2498 | 1,6 | 1,9 | **128,1** |
| Çin | 7587 | 9593 | 11906 | 15851 | 19601 | 12,2 | 14,7 | **158,3** |
| İndoneziya | 3500 | 4140 | 4911 | 6417 | 8056 | 5,0 | 6,1 | **130,2** |
| Laos XDR | 1751 | 2118 | 2529 | 3256 | 4030 | 2,6 | 3,0 | **130,2** |
| Malayziya | 11307 | 12468 | 13724 | 15953 | 18340 | 14,0 | 13,8 | 62,2 |
| Filippin | 2873 | 3149 | 3464 | 4038 | 4700 | 3,5 | 3,5 | 63,6 |
| Tailand | 5970 | 6782 | 7772 | 9655 | 11753 | 7,9 | 8,8 | 96,9 |
| Vyetnam | 2052 | 2444 | 2925 | 3735 | 4620 | 3,0 | 3,5 | **125,1** |
| **Şərqi Asiyanın qalan hissəsi** | 5290 | 5918 | 6609 | 7711 | 8784 | 6,7 | 6,6 | 66,0 |
| Banqladeş | 1087 | 1287 | 1530 | 1980 | 2481 | 1,6 | 1,9 | **128,2** |
| Hindistan | 1577 | 1845 | 2171 | 2781 | 3452 | 2,2 | 2,6 | **118,9** |
| Nepal | 702 | 758 | 835 | 1008 | 1232 | 0,9 | 0,9 | 75,5 |
| Pakistan | 1315 | 1391 | 1502 | 1754 | 2084 | 1,5 | 1,6 | 58,5 |
| Şri Lanka | 3853 | 4573 | 5369 | 6830 | 8393 | 5,5 | 6,3 | **117,8** |
| **Cənubi Asiyanın qalan hissəsi** | 765 | 825 | 897 | 1042 | 1218 | 0,9 | 0,9 | 59,2 |
| **Şərqi və Mərkəzi Avropa** | 10578 | 11750 | 13012 | 15233 | 17531 | 13,3 | 13,2 | 65,7 |
| Rusiya Federasiyası | 14122 | 15863 | 17675 | 20939 | 24436 | 18,0 | 18,4 | 73,0 |
| Polşa | 14337 | 15694 | 17246 | 19630 | 21989 | 17,6 | 16,5 | 53,4 |
| **Şərqi Avropanın qalan hissəsi** | 3739 | 4247 | 4784 | 5810 | 6953 | 4,9 | 5,2 | 86,0 |
| Qazaxıstan | 13155 | 15169 | 17559 | 22561 | 26714 | 17,9 | 20,1 | 103,1 |
| Qırğızıstan | 1280 | 1439 | 1616 | 2020 | 2542 | 1,7 | 1,9 | 98,6 |
| **Mərkəzi Asiyanın qalan hissəsi** | 3615 | 4090 | 4675 | 5707 | 6,859 | 4,8 | 0,0 | 89,7 |
| İran | 5443 | 5563 | 5940 | 6750 | 7628 | 6,1 | 5,7 | 40,1 |
| Misir | 3366 | 3728 | 4298 | 5307 | 6489 | 4,4 | 4,9 | 92,8 |
| Türkiyə | 10304 | 11431 | 12536 | 14363 | 16179 | 12,8 | 12,2 | 57,0 |
| **Yaxın Şərq və Şimali Afrikanın qalan hissəsi** | 11099 | 12228 | 13243 | 14981 | 16837 | 13,5 | 12,6 | 51,7 |
| Keniya | 1368 | 1508 | 1678 | 2030 | 2470 | 1,7 | 1,9 | 80,6 |
| Tanzaniya | 927 | 1037 | 1178 | 1494 | 1885 | 1,2 | 1,4 | 103,3 |
| **QEYRİ-KYT ÖLKƏLƏRİ** | 22321 | 23171 | 24029 | 25192 | 26,19 | 24,5 | 0,0 | 17,3 |
| Efiopiya | 574 | 653 | 746 | 918 | 1140 | 0,8 | 0,9 | 98,6 |
| **Sub-Sahara Afrikasının qalan hissəsi** | 2047 | 2250 | 2495 | 2933 | 3433 | 2,5 | 2,6 | 67,7 |
| Latın Amerikası və Karib ölkələri | 10223 | 11116 | 12088 | 13708 | 15361 | 12,3 | 11,5 | 50,3 |
| ABŞ | 54399 | 58074 | 61696 | 66572 | 70627 | 63,0 | 53,0 | 29,8 |
| Yüksək gəlirli ölkələrin qalan hissəsi | 37792 | 40086 | 42366 | 46153 | 49852 | 43,3 | 37,4 | 31,9 |
| Qərbi Avropanın qalan hissəsi | 42661 | 44436 | 46328 | 49267 | 52340 | 47,3 | 39,3 | 22,7 |

[9, s. 24]-ün əsasında müəllif tərəfindən hesablanmışdır

Məlum olduğu kimi, ölkənin (daha doğrusu, onun əhalisinin) rifahının əsas iqtisadi göstəricisi adambaşına düşən ÜDM-dir. Bu indikatora görə mənzərə maraqlıdır. 2014-2030-cu illərdə adambaşına ÜDM-in ümumən dünya üzrə 45,4% artımı gözlənildiyi halda KYT ölkələri üzrə gözlənti 101,5%, qeyri-KYT ölkələri üzrə isə cəmi 17,3%-dir (cədvəl 4).

Bu indikator üzrə ən yüksək artım Çində (158,3%) gözlənilir. Maraqlı budur ki, növbəti yerləri də, əsasən, Çinlə qonşu olan ölkələr bölüşdürür: İndoneziya və Laos – 130,2%, Kamboca və Banqladeş – 128%, Vyetnam – 125,1%, Hindistan – 118,9%, Şri Lanka – 117,8% (cədvəl 4).

Qazaxıstanda adambaşına ÜDM-in artımı 103,1%, Qırğızıstanda – 98,6%, Türkiyədə - 57,0%, İranda – 40,1%, Pakistanda – 58,5%, Rusiyada isə 73% səviyyəsində gözlənilir (cədvəl 4).

Tədqiq olunan müddət ərzində dünya üzrə məcmu ixracın 1,7% artımı proqnozlaşdırılır və bu artıma əsas töhfəni məhz KYT ölkələri verəcək: bu ölkələrdə artım digər ölkələrlə müqayisədə 4 dəfə çox olacaq (KYT ölkələri üzrə artım 2,8%, KYT ölkələri üzrə – 0,7%) (cədvəl 5). Əlamətdar olan KYT ölkələrində emal sənayesi məhsulları üzrə ixrac artımının yüksək olmasıdır. İqtisadiyyatı əsasən zəif olan həmin ölkələrdə bu, emal sənayesinin güclü inkişafı deməkdir. Məlum olduğu kimi, müasir inkişaf etmiş iqtisadiyyatlarda istehsalın 70%-dən çoxu xidmət sferasının payına düşür. Bu, inkişaf etmiş ölkələrin maddi nemətlərə tələbatının tam ödənilməsi ilə izah olunur – bu ehtiyacların tam qarşılanması bu ölkələrdə turizm və əyləncə kimi dəbdəbə xidmətlərinin inkişafını şərtləndirmişdir. Lakin orta və aşağı gəlirli KYT ölkələrində maddi tələbatın ödənilməsi aşağı səviyyədə olduğundan bu sektorun inkişaf etdirilməsi ilkin zərurətdir. Eyni fikir bu göstərici üzrə ikinci olan kənd təsərrüfatına aiddir, belə ki, dünyada 1 milyarda yaxın yarıac həyat sürən insanların əksəriyyətinin KYT-yə daxil olan Cənubi Asiya və Afrikada yaşaması məlum faktdır.

Cədvəldən göründüyü kimi, Azərbaycanın əsas strateji tərəfdaş ölkələrində də ixracda hətta Çini də (2,7%) üstələyən yüksək artım gözlənilir: Pakistanda 9,8%, Türkiyədə 5,8%, Qırğızıstanda 5,4%, İranda 4,2%. Maraqlı budur ki, Pakistanda belə yüksək artım ancaq emal sənayesi hesabına olacaq, qalan sahələrdə, əksinə, azalma proqnozlaşdırılır. Emal sənayesində ən yüksək artım isə İranda (21,4%) gözlənilir. Türkiyədə artım başqa ölkələrlə müqayisədə daha çeşidlidir - kənd təsərrüfatını da (1,4%), emal sənayesini də (7,1%), xidmətləri də (3,1%) əhatə edir (cədvəl 5).

**Cədvəl 5.**

**2030-cu ildə baza ssenariyə nəzərən ixrac həcminin dəyişməsi, faizlə**

| Ölkə və regionlar | Cəmi | Kənd təsərrüfatı | Emal sənayesi | Xidmətlər | Digər sahələr |
|---|---|---|---|---|---|
| **Dünya** | **1,7** | **2,8** | **2,1** | **0,8** | **0,1** |
| **KYT ölkələri** | **2,8** | **2** | **3,9** | **0,5** | **-0,2** |
| **Qeyri-KYT ölkələri** | **0,7** | **3,1** | **0,5** | **1** | **0,7** |
| Türkiyə | 5,8 | 1,4 | 7,1 | 3,1 | -2,8 |
| Qazaxıstan | 1,1 | 22,6 | 5,1 | 1,1 | -1,3 |
| Qırğızıstan | 5,4 | -13,1 | 11,6 | 8,4 | -1,6 |
| Pakistan | 9,8 | -31,7 | 14,2 | -1,6 | -5,8 |
| İran | 4,2 | 4,6 | 21,4 | 9,2 | -5,4 |
| Rusiya | 1,2 | 5,9 | 0,9 | 0,1 | 1,3 |
| Çin | 2,7 | 7,2 | 2,7 | 1,9 | -3,0 |

Mənbə: [9, s. 30-33]

İdxalın artımında da KYT ölkələri digər ölkələri üstələyir: uyğun olaraq, 5,4% və 2,0% (cədvəl 6). Bu fakt KYT ölkələrində gəlirlərin daha yüksək artımı ilə şərtlənir (cədvəl 3, cədvəl 4). Bu göstərici üzrə də Qırğızıstan çox irəlidədir (17,5%). Diqqətli müşahidə göstərir ki, Azərbaycanın tərəfdaş ölkələri arasında, əvvəla, idxalın artımı bütün sektorları əhatə edir, ikincisi də, ən çox artım kənd təsərrüfatı məhsullarında gözlənilir. Məsələn, idxalının ümumi artımı

9,3% olan Pakistanda kənd təsərrüfatı məhsullarının artımı 52,4%, Qırğızıstanda isə 35,1% olacaq. Xidmət idxalının artımı ümumən yüksək deyil (cədvəl 6).

**Cədvəl 6.**

**2030-cu ildə baza ssenariyə nəzərən idxal həcminin dəyişməsi, faizlə**

| Ölkə və regionlar | Cəmi | Kənd təsərrüfatı | Emal sənayesi | Xidmətlər | Digər sahələr |
|---|---|---|---|---|---|
| **Dünya** | **3,4** | **4,6** | **4,1** | **1,9** | **0,4** |
| **KYT ölkələri** | **5,4** | **6,2** | **6,4** | **3,9** | **1,4** |
| **Qeyri-KYT ölkələri** | **2,0** | **2,1** | **2,6** | **1,0** | **-0,5** |
| Türkiyə | 8,5 | 13,4 | 9,2 | 6,2 | 3,2 |
| Qazaxıstan | 3,4 | 11,2 | 3,2 | 3,7 | 1,6 |
| Qırğızıstan | 17,5 | 35,1 | 17,9 | 12,9 | 11,9 |
| Pakistan | 9,3 | 52,4 | 6,7 | 7,7 | -7,4 |
| İran | 7,4 | 7,6 | 8,8 | 3,3 | 7,8 |
| Rusiya | 2,8 | 5,2 | 2,7 | 2,9 | 0,9 |
| Çin | 5,6 | 4,4 | 7,4 | 4,5 | 0,9 |

Mənbə: [9, s. 38-41]

**Nəticə**

Araşdırma aşağıdakı nəticələri çıxarmağa imkan verir:

- Təbiidir ki, KYT üzrə nəzərdə tutulan investisiyalar həm coğrafiyaya aid olan bütün ölkələri əhatə etmir. Həmçinin KYT-yə cəlb olunan ölkələrdə də bütün regionlarda KYT çərçivəsində infrastruktur layihələrinin həyata keçirilməzi nəzərdə tutulmur. Bununla bərabər KYT həm qlobal səviyyədə, həm də ölkələrin daxilində bütün regionlara təsir edir. Məsələn, sərhəd keçidlərinin sadələşdirilməsi bütün regionlar üçün xarici ticarəti asanlaşdıracaq, sürətlərin artımı isə ticarət xərclərini azaldacaq.
- Nəqliyyat infrastrukturuna qoyulan investisiyalar nəticəsində iki kateqoriya regionlar ən çox rifahın artımı baxımından yararlanır [10, s. 24]:

- nəqliyyat xərcləri əhəmiyyətli dərəcədə azalanlar;
- işçilər üçün cəlbedici olan ərazilər, hətta ixracda müqayisəli üstünlüyə malik olmasalar belə.

- Nəqliyyat infrastrukturu layihələrinin təsirlərinin effektivliyi əlavə amillərdən asılı olmaqla müxtəlif ölkə və regionlarda fərqlidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. de Soyres F., Mulabdic A., Murray S., Rocha N., Ruta M. How Much Will the Belt and Road Initiative Reduce Trade Costs? – WBG, WPS 8614, 2018. – 43 p.
2. Trebilcock M., Rosenstock M. Infrastructure Public–Private Partnerships in the Developing World: Lessons from Recent Experience. // Journal of Development Studies, 2015, No. 51, pp. 335–354
3. Harris C., Chao J. Declining private investment in infrastructure – a trend or an outlier? – july 20, 2017 / https://blogs.worldbank.org/ppps/declining-private-investment-infrastructure-trend-or-outlier
4. Foster V., Briceno-Garmendia C.M. Africa’s Infrastructure: A Time for Transformation - The World Bank: Washington, DC, USA, 2009. - 386 p. - ISBN 978-0-8213-8041-3
5. Quium A. Transport Corridors for Wider Socio–Economic Development // Sustainability 2019, 11, 5248; doi:10.3390/su11195248
6. Sequeira S., Hartmann O., Kunaka Ch. Reviving Trade Routes. Evidence from Maputo Corridor. - World Bank Group, SSATP, 2014. – 89 p.
7. Learning Materials on Transport Corridors. – UN ESCAP, 2020. – 66 p.
8. Chen M.X., Lin C. Foreign Investment across the Belt and Road: Patterns, Determinants and Effects. - WBG, WPS 8617, 2018. – 77 p.
9. Maliszewska M., van der Mensbrugghe D. The Belt and Road Initiative Economic, Poverty and Environmental Impacts. – WB Policy Research Working Paper 8814 Macroeconomics, Trade and Investment – WB: April 2019. – 69 p.

10. Lall S. V., Lebrand. Who Wins, Who Loses? Understanding the Spatially Differentiated Effects of the Belt and Road Initiative. – WB, Social, Urban, Rural and Resilience Global Practice, Policy Research Working Paper 8806, 2019. – 55 p.

**Шамиль АЗИЗОВ, д.ф.э.**
**Докторант АГЭУ по степени доктора наук**
Помощник директора Центра Гейдара Алиева

## ОЖИДАЕМЫЕ ПОСЛЕДСТВИЯ ИНИЦИАТИВЫ "ОДИН ПОЯС, ОДИН ПУТЬ"

**Резюме**

Инициатива "Один пояс, один путь" (ИПП), выдвинутая в 2013 году, реализуется динамично. Если проекты, реализуемые по этой инициативе, до сих пор в основном охватывали соседние с Китаем страны, то после освобождения Азербайджаном своих земель и, следовательно, открытия Среднего коридора, проекты, предназначенные для нашей страны, становятся актуальными. В связи с этим особый интерес представляет текущее состояние ИПП, понимание особенностей реализуемых в его рамках проектов и изучение ожидаемых эффектов.

В статье представлен обзор исследований, проведенных в этой области. Реализованные инвестиции и сделанные прогнозы анализируются с экономической точки зрения.

**Ключевые слова:** инициатива "Один пояс, один путь", инвестиции в инфраструктуру, изменение ВВП, изменение экспорта

**Shamil AZIZOV, Doctor of Philosophy in Economics**
**Doctoral student of ASUE with the degree of Doctor of Sciences**
Assistant to the Director of the Heydar Aliyev Center

## EXPECTED CONSEQUENCES OF THE "ONE BELT, ONE ROAD" INITIATIVE

**Summary**

The "One Belt, One Road" Initiative (BRI), put forward in 2013, is being implemented dynamically. If the projects implemented under this initiative have so far mainly covered the countries neighboring China, then after the liberation of their lands by Azerbaijan and, consequently, the opening of the Middle Corridor, the projects intended for our country become relevant. In this regard, of particular interest is the current state of the BRI, understanding the specifics of the projects implemented within its framework and studying the expected effects.

The article presents an overview of the research conducted in this area. Realized investments and made forecasts are analyzed from an economic point of view.

**Keywords:** One Belt, One Road initiative, infrastructure investments, GDP change, export change

**Lamiyə İlyas qızı BAYRAMOVA, müəllim**

**Gülnar Elbrus qızı MƏMMƏDOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Aytac Valeh qızı ƏKBƏRZADƏ**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: utecalamiya@gmail.com

# İNSAN KAPİTALININ FORMALAŞMASI VƏ ONUN SOSİAL-İQTİSADİ SƏMƏRƏLİLİYİ

**Xülasə**

Müasir innovasiyalı iqtisadiyyatın ən aktual problemlərindən biri biliyin rolunun artması və iqtisadi artımın, tərəqqinin təmin edilməsində onun ən mühüm əhəmiyyətli resurslardan birinə, yəni intellektual kapitala çevrilməsidir. Yeni bilklər onu istifadə edən müəssisənin bazar dəyərini və rəqabətqabiliyyətliliyini yüksəltdiyi üçün bu biliyə müəssisənin strateji əhəmiyyətli ehtiyatlarından biri kimi baxmaq olar. Ona görə də, son illər əmtəə və xidmətlərin istehsalında intellektual kapitalın rolu getdikcə artmaqdadır. 21-ci əsrin əvvəllərində yüksək texnologiyalı Amerika şirkətlərində intellektual kapitalın dəyəri onun ümumi dəyərinin 80%-ə qədərini təşkil edirdi.

Əgər cəmiyyətin sənaye (industrial) inkişafı mərhələsində məhsulların istehsalında harda çox xammal, materiallar, enerji resursları, iş qüvvəsi tələb olunurdusa, artıq postindustrial və informasiya cəmiyyəti fiziki resurslardan çox, intellektual resursların, yəni biliyin istifadəsinə ehtiyac yaratmışdır ki, bu da yaradılan yeni məhsul növlərində, yeni texnologiyalarda, yeni vərdişlər, bacarıqlar, istehlakçılarla yeni münasibətlər sistemində özünü təzahür etdirir, çünki müasir iqtisadiyyatda bilik inkişafın lokomativi rolunu oynayır.

**Açar sözlər:** insan kapitalı, müəssisə, kadr təhsili, peşə, heyət.

**JEL: J 41**

## Giriş

Məlum olduğu kimi, hazırda ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin qarşısında duran əsas vəzifələrdən biri də əldə olunmuş iqtisadi inkişafın nəticələrinin sosial inkişafa yönəldilməsini təmin etməkdən ibarətdir. Çünki aparılan iqtisadi siyasət nəticəsində əldə edilən makroiqtisadi sabitlik və iqtisadiyyatın real sektorunda baş verən davamlı inkişaf, cəmiyyətin keçid dövründən irəli gələn sosial problemlərin həll edilməsinə obyektiv zəmin yaratmışdır.

Hər bir müəssisənin idarəedilməsində həlli zəruri olan məsələlərdən biri də müəssisənin işçi heyətinin formalaşdırılması, onun idarə olunmasıdır. Bu baxımdan hər bir müəssisədə kadrların hazırlanması, düzgün yerləşdirilməsi və idarə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Məhz buna görədir ki, bu gün uğurlu fəaliyyət göstərən müəssisələrin hər biri kadr siyasətini uğurla həyata keçirmiş olan təşkilatlardır. Elə isə, tədqiqatımızı idarəetmə sistemində kadrların hazırlanması, onların düzgün bölüşdürülməsi, eləcə də, kadr siyasətinin həyata keçirilməsi üzərində əhatəli təhlil, sistemli yanaşma metodlarına əsaslanmaqla davam etdirək.

Qeyd etdiyimiz kimi, hər bir müəssisənin idarəedilməsində əsas məsələlərdən biri də kadrların düzgün seçilməsi, peşə ixtisas səviyyəsindən, təhsilindən, həmçinin də potensialından asılı olaraq onların düzgün yerləşdirilməsinin təmin olunmasıdır. Bu fəaliyyətin həyata keçirilməsində isə hər bir müəssisə, idarə və yaxud da təşkilat özünün kadr siyasətini əlində rəhbər tutur. Müəssisənin kadr siyasəti dedikdə nə başa düşülür? [1].

Kadr siyasəti dedikdə, müəssisənin işçi personalı ilə aparılan elə siyasət başa düşülür ki, bu siyasət nəticəsində müəssisənin dayanıqlı, uzunmüddətli dövrdə effektli və iqtisadi səmərə verə biləcək şəkildə işləməsini təmin edəcək işçi personalının seçilməsi, yığılması, onların təhsilinin və

peşə ixtisas səviyyəsinin artırılması, eləcə də ixtisas səviyyəsindən asılı olaraq işçi həyətinin düzgün rotasiyasının müəyyən edilməsini təmin edən nəzəri baxışların, prinsiplərin, həmçinin də tələblərin məcmusu başa düşülür. Əmək adamının formalaşdırılması ilk növbədə əmək potensialının tam realizə olunmasına imkan verən sosial-psixoloji keyfiyyətləri ön plana çəkir. Bununla əlaqədar əməyin motivasiyası sisteminin yaradılması böyük əhəmiyyətə malikdir. Beləliklə əmək adamının əməyə olan münasibəti yaşama vasitəsinin mənbəyi və özünü realizə vasitəsi kimi onun səciyyəvi xüsusiyyətidir. Şəxsiyyətin inkişafının prioritetliyinin qəbul edilməsindən çıxış edərək işçilərə onların şəxsi keyfiyyətlərini və maraqlarını nəzərə almayan "kadr" kimi birtərəfli yanaşmanın geniş yayılmış praktikasından imtina edilməlidir. Bu baxımdan kökü qarşılıqlı fəaliyyətdə olan fərdiyyətlərin (şəxsiyyətlərin) məcmusundan ibarət təsəvvürlə əlaqəli "heyət" anlayışından istifadə edilməsinin qanunauyğunluğunu qəbul etmək lazımdır.

Bazar münasibətləri şəraitində heyətin formalaşdırılması müəssisədaxili bazar mexanizminin fəaliyyətinə söykənir. Belə bir mexanizmin yaradılması və istifadə edilməsi müəssisənin zəruri kadrlarla təmin edilməsinin daha çevik formasının yaradılmasına imkan verir.

Azərbaycan Respublikasında aparılan sosial-iqtisadi islahatlar prosesində bu anlayışların mahiyyətinin müəssisələrin struktur dəyişikliklərini aparılan mütəxəssislər tərəfindən dərk edilməsinin böyük praktiki əhəmiyyəti var.

Belə ki, müəssisə heyətinin formalaşdırılması fəhlələrin və mütəxəssislərin peşə strukturunun, funksional strukturunun, sosial strukturunun, işçilərə olan tələbatın və işçilərin şəxsi heyətinin müəyyən edilməsini tələb edir [2].

Müəssisə heyətinin formalaşdırılmasının ən əsas elementlərindən biri də onun tələb olunan səviyyəyə, yəni hər bir işçinin maraqları ilə müəssisə tələbatının uyğunluq səviyyəsinin adekvatlığının təmin edilməsidir. Bunun üçün işçilərin və iş yerlərinin attestasiyasının aparılması zəruridir.

Eyni zamanda, peşə, funksiya və sosial struktur baxımından heyətin kateqoriyalar üzrə daxili əmək bazarında təhlili aparılır.

Bu zaman struktur dəyişikliklərlə əlaqədar ixtisar edilmiş işçilərin işə düzəldilməsi və çatışmayan kadrlarla təmin olunmaq üçün regional əmək bazarına müraciət edilmə imkanları da araşdırılır.

Bu vəzifələrin həll edilməsində əməyin funksional təhlilinin böyük əhəmiyyətini qeyd etmək lazımdır.

Əməyin funksional təhlili ilkin mərhələ kimi funksiyaların müəyyən edilməsini, onların qiymətləndirilməsini və yenidən təşkil edilməsini əhatə edir.

Funksional təhlilin davamı kimi əmək prosesinin təhlili aparılır. Bu zaman işin və prosesin seçilməsi, müşahidə edilməsi, alınmış nəticələrin tənqidi təhlili və artıq proseslərin ləğvi və yeni əmək texnologiyasının layihələşdirilməsi aparılır.

İşçilərə olan tələbatın müəyyən edilməsində ehtimal olunan təşkilati strukturun böyük əhəmiyyətini qeyd etmək lazımdır. Müəssisənin təşkilati strukturu istehsal strukturunu və idarəetmə strukturunu əhatə edir.

Beynəlxalq təcrübəyə müvafiq olaraq hər bir müəssisənin (firmanın) strukturunu məhz onun strategiyası müəyyən edir. Eyni zamanda, strateji kursun seçilməsinə müəssisənin ölçüləri, istehsal həcmi və mənfəətin miqdarı da təsir edir.

Müəssisənin strategiyası- onun resurslarının (əmək, əmtəə, kapital) koordinasiyası yolu ilə qarşıya qoyulmuş zəruri məqsədlərə (nizamnamə funksiyası) nail olmaq üçün ümumi fəaliyyət modelidir (Marchington,2016: 491)

Strategiyanın müəyyən edilməsi: müəssisədə tətbiq edilən texnika və texnologiyada, kadrların idarə edilməsində, resursların bölünməsində, əmək münasibətlərində və s. kritik nöqtələrin müəyyən edilməsini; daxili və xarici inkişaf amillərinin qiymətləndirilməsini və onların təsnifatının müəyyən edilməsini; müəssisədaxili şəraitin və qüvvələr nisbətinin ilkin müzakirəsini tələb edir.

Beləliklə, öz fəaliyyətini əsasən uçot və işçilərin işə qəbulu və azad edilməsi üçün lazım olan sənədlərin tərtib edilməsi funksiyaları ilə bitmiş hesab edən ənənəvi kadrlar şöbəsindən fərqli olaraq müəssisə heyəti ilə mükəmməl işin aparılmasının təşkili, bu xidmət sahəsinin formalaşdırılmasına tamamilə yeni bir yanaşma tələb olunur.

Bazar münasibətlərinə keçid respublikada bir sıra iqtisadi islahatların keçirilməsini zəruri etmişdir. Həyata keçirilən iqtisadi islahatlar dövlətin sosial siyasətinin sürətləndirilməsi, insan amilinin rolunun artırılması və əmək ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsi proseslərindən bilavasitə asılıdır. İnzabati amirlik sistemindən və mərkəzləşdirilmiş vahid iqtisadi

idarəetmə sistemindən ayrılmış Azərbaycanın iqtisadi inkişafında insan amilinin aparıcı rol oynaması cəmiyyətin başlıca məhsuldar qüvvəsi olan iş qüvvəsinin təkrar istehsalının kadr hazırlığının aktuallığını xeyli artırmışdır.

Bazar iqtisadiyyatı şəraitində Azərbaycanda fəaliyyət göstərən və öz fəaliyyətində uzunömürlülüyü ilə seçilən ticarət müəssisələrindən biri də Azərsun Holdinqdir. Adı çəkilən ticarət müəssisəsi bu günkü uğurlu fəaliyyətinə daim rəqabət mübarizəsində uğurlu taktika və strategiyalar həyata keçirməklə nail olmuşdur. Belə ki. müəssisənin idarə edilməsi yüksək ixtisaslı menecerlərə həvalə olunmuşdur ki, bunun da məntiqi nəticəsi olaraq müəssisə bu gün uğurla fəaliyyətini davam etdirir [3].

Heyətin idarə edilməsi sahəsində, müəssisənin fəaliyyətinin təşkilində insan resurslarının idarə edilməsi şöbəsi dayanır. Bu şöbənin fəaliyyətinin əsasında müəssisəyə yeni kadrların cəlb olunması dayanır. Müəssisə işçi işə götürən zaman öncə öz missiyalarının düzgün qəbul edilməsini anlayan işçiləri seçməyə çalışır. Belə ki, müəssisənin insan resurslarının idarə edilməsi departamenti bilavasitə boş iş yerlərinə işçilərin seçilməsi prosesinə elə kadrlarla müəssisəni təmin etməyə diqqət yetirir ki, bu kadrlar müəssisənin uzunömürlü və daimi fəaliyyətində müstəsna rol oynasınlar və eyni zamanda da müəssisəyə yalnız maaş mənbəyi kimi baxmasınlar.

Haqqında danışdığımız müəssisədə kadrların seçilməsi və onların idarə olunması xüsusiyyətləri kifayət qədər mürəkkəbdir. Belə ki, öncə müəssisənin insan resurslarının idarə edilməsi şöbəsi mövcud kadrların onun missiyasının qavranılması sahəsində mühüm addımlar atır, öz idarəetmə sistemlərində daha çox innovativ metodlardan istifadə edirlər. Belə ki, müəssisə uğurlu idarəetmə siyasətinin əsasında innovativ tədbirlərin həyata keçirilməsini zəruri hesab edir.

Müasir dövrdə kadr hazırlığında başlıca diqqət iş qüvvəsinin kəmiyyət deyil, keyfiyyət baxımından yüksəldilməsinə yönəldilməlidir. Çünki, yeni iqtisadi sistemin ən mühüm tələblərindən biri kadr və mütəxəssis hazırlığı ilə ETT-nin nailiyyətlərinə uyğun istehsal vasitələrinin ardıcıl surətdə inkişafına nail olmaqdır. Bu uyğunluq əmək ehtiyatlarının ümumi təhsil səviyyəsi və ixtisasının yüksəldilməsi baxımından ali və orta ixtisas təhsilli işçilərin sayının artması ilə yanaşı yüksək keyfiyyətli iş qüvvəsinin təkrar istehsalı deməkdir.

Bazar münasibətləri şəraitində ETT-nin istehsalata tətbiqi əmək şəraitinin yaxşılaşması, ağır əl əməyinin aradan qaldırılması, həmçinin zehni əmək və fiziki əmək arasında mürəkkəblik səviyyəsinə görə fərqin artmasına səbəb olur. Bu ETT-nin insan amilinə təsirini və kadr hazırlığına yeni aspektlərdən yanaşmanı zəruri edir.

Sahibkarlıq fəaliyyətinin genişləndiyi bir şəraitdə minimum əmək və vaxt sərfi ilə maksimum gəlir əldə etmək prinsipinin yüksəlməsi işçi qüvvəsinin keyfiyyəti baxımından iş vaxtı fondundan səmərəli istifadə problemini qarşıya qoymuşdur. Çünki, iş vaxtından səmərəli istifadə etmək məhsuldarlığın yüksəldilməsi, məhsul vahidinin dəyərinin aşağı düşməsi, asudə vaxtın çoxaldılması ilə sıx əlaqədardır. Bunlar isə öz növbəsində əhalinin həyat səviyyəsinin yüksəldilməsinin başlıca şərtlərindəndir. Kadr hazırlığında iş vaxtına qənaət prinsipinin nəzərə alınması əsas və dövriyyə fondlarından, maliyyə vəsaitlərindən səmərəli istifadə və ən əsası iş qüvvəsinə olan əlavə tələbatı artırmış olur.

Bazar münasibətləri şəraitində kadr hazırlığında dövlət tərəfindən planlı qaydada idarəetmənin aradan qaldırılması əmək bazarında tələb və təklifin nəzərə alınmasını zəruri edir. Bu zaman işçi qüvvəsinə olan tələbə təsir edən amillər mütləq nəzərə alınmalıdır. İşçi qüvvəsinin rəqabət qabiliyyətinə malik olması, onun ETT-nin nailiyyətləri ilə tanışlığı və əvvəlki illərdən fərqli olaraq intellektual səviyyəsinin yüksəkliyi belə amillərdən hesab olunur.

İqtisadi inkişafın sosial yönümünün gücləndirilməsində daxili və beynəlxalq bazarların tələblərinə uyğun ixtisaslı kadrlar hazırlanması problemi diqqət mərkəzindədir. Hazırda dövlətimizin əsas məqsədi istehsal proseslərindən kənarda qalan əmək qabiliyyətli əhalinin tam və səmərəli məşğulluğuna nail olmağa şərait yaratmaqdır. Bunun üçün əmək bazarının rolu əvəzsizdir. Dünya ölkələrinin təcrübəsindən göründüyü kimi, əmək bazarının formalaşması son nəticədə əhalinin rifah halının xeyli yaxşılaşdırılmasına təsir edir [4].

Məlum olduğu kimi, bazar iqtisadiyyatı çox sərt rəqabət şəraiti yaradır. Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olmaq üçün dövlət sosial məsələlərin həlli ilə bağlı zəruri tədbirlər həyata keçirməsi ilə yanaşı, həmçinin işçi qüvvəsinin keyfiyyətini artırmaqla onun rəqabət qabiliyyətini yüksəltməyə, əhalinin səmərəli

məşğulluğunu təmin etmək məqsədi ilə yeni iş yerlərinin yaradılmasına hər cür köməklik göstərməlidir.

Dünya təcrübəsi göstərir ki, bazar rəqabəti olmadan sosial-iqtisadi inkişafı təmin etmək qeyri-mümkündür. Müəssisə rəqabətə dözmək, daha çox mənfəət götürmək üçün əmək məhsuldarlığını artırmağa çalışır. Bu isə öz növbəsində daha yeni və məhsuldar müasir texnologiyalardan istifadəni zəruri edir. Nəticədə fəal işçi ardıcıl olaraq öz peşəkarlığını artırmaq zərurəti ilə üzləşir. Belə ki, əmtəə bazarında olduğu kimi, əmək bazarında da ciddi rəqabət gedir. Təsadüfi deyildir ki, iqtisadi baxımdan inkişaf etmiş ölkələrdə həqiqi ali təhsili və ixtisas diplomu olan işçilər çox yüksək qiymətləndirilirlər və işə götürülərkən onlara üstünlük verilir. Əmək haqqının artırılması da birbaşa təhsillə paralel gedir. Elə buna görədir ki, ABŞ-da 25 yaşında fəaliyyətə başlayan hər hansı bir mühəndis 40 yaşına qədər 8 dəfə ixtisasartırma kursu keçməli olur. Əks təqdirdə, müəssisə təxminən hər beş ildən bir öz kadrlarını tamamilə dəyişmək məcburiyyətində qala bilər. Çünki texniki tərəqqi öz yerində dayanmır və texnologiya təxminən beş ildən bir yenisi ilə əvəz olunur.

Son illər respublikamizda istehsalat proseslərinin kompleks mexanikləşdirilməsi, avtomatlaşdırılması və robot texnikasından istifadə peşə məktəbi və liseylərində, eləcə də orta ixtisas məktəblərində ümumtexniki və ixtisas məktəblərinin, istehsalat təliminin məzmununun yeniləşdirilməsinə yeni yanaşma tələb edir.

Bu mənada pesə təhsilinin strukturunda, məzmununda sənətkar hazırlığının təkmilləşdirilməsində, dovlət standartlarının və ixtisaslaşma klassifikatorunun layihələri hazırlanmısdır.

Respublika iqtisadiyyatının bazar tələblərinə uyğunlaşması göstəricilərindən biri də əmək bazarının tələb və təklif səviyyəsinin müəyyənləşdirilməsi və onun sosial-iqtisadi nəticələrinin araşdırılmasından ibarətdir. Milli əmək bazarının beynəlxalq əmək bazarına uyğunlaşdırılması və təkmilləşdirilməsinə təsir göstərən əsas amillərdən biri də əmək və intellektual potensial kimi xarakterizə olunan kadr hazırlığının həyata keçirilməsidir. Azərbaycanda kadr hazırlığının kəmiyyət və keyfiyyət göstəricilərinin həcmi ümumi təhsil səviyyəsinə uyğun olaraq iki amilə əsaslanır: Birinci, demokrafik vəziyyət; ikinci amil isə milli əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasıdır [6].

Azərbaycanda güclü kapital və maliyyə axınları nəticəsində 90-cı illərin sonlarına yaxın mühəndis-texniki və kənd təsərrüfatı ixtisaslarına maraqların artmasına səbəb olmuşdur. 2000-2001-ci tədris ilində Azərbaycanda ümumi tələbələrin 21%-ni mühəndis-texniki peşələr üzrə tələbələr təşkil etmişdir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 1999-cu il əhalinin siyahıya alınmasına görə məşğul əhalinin təhsil səviyyəsinə görə bölgüsündə ali təhsilli mütəxəssislər şəhər yerlərində 315639, kənd yerlərində isə 116486 nəfər olmuşdur.

Əmək bazarının kadr potensialı ilə təminatındakı təhsil müəssisələrindən başqa digər ölkələrin də təhsil müəssisələri xüsusi rol oynayır. Belə ki, yeni ixtisasların mənimsənilməsi və ixtisaslı mütəxəssislərin daim təkmilləşdirilməsi əmək bazarının əsas atributlarından biridir. Onlar əsasən yeni texnologiyaların və idarəçilik təcrübəsinin öyrənilməsi ilə məşğul olurlar.

Məktəblərdə aparılan tədqiqatlar göstərir ki, tornaçı, frezerçi , çilingər kimi sənaye yönümlü peşələrin müvəffəqiyyətlə öyrənilməsi ilk növbədə şagirdlərin ümumtexniki hazırlığı ilə şərtlənir. Elmi Texniki Tərəqqi ( ETT ) şəraitində ixtisas anlayışı öz məzmununu tez dəyişir. Belə ki, texnika və texnologiyanın fasiləsiz yeniləşdirilməsi və istehsalatın yenidən təşkili fəhlə və texniklərin illərlə öyrəndikləri peşə bacarıqlarının yeniləşməsini tələb edir.

Bu baxımdan texnika və texnologiyanın yeniləşməsini nəzərə almaqla, ixtisaslı fəhlə kadrlarının kiçik mütəxəssislərin təhsil səviyyəsi, o cümlədən onlara ümumtexniki biliklərin aşılanması keyfiyyətcə yüksəldilməlidir.

İstehsal proseslərinin kompleks şəkildə mexanikləşdirilməsi və avtomatlaşdırılması şəraitində yeni əmək alətləri və vasitələri, idarəetmə qurğuları yaranır, həddən artiq möhkəm və kövrək materialların dəqiq emalında lazer texnologiyasındna istifadə edilir. Xalq təsərrüfatında metalların elektron şüa, partlayışlı diffuziya qaynağı və yeni kəsmə metodları geniş tətbiq olunur.

Peşə məktəbi və liseylərin metal emalı peşələrinin öyrənilməsində materialşünaslıq, elektotexnika, texniki rəsmxət və s. fənlər tədris edilir. Bu fənlərin şagirdlər tərəfindən keyfiyyətlə mənimsənilməsi, zəruri ümumtexniki biliklərə yiyələnməsi ixtisas fənlərinin öyrənilməsində səmərəliliyin təmin olunması üçün mühüm şərtdir.

Hazırkı şəraitdə, mürəkkəb texnika və texnologiyanın istehsalata daxil olduğu bir zamanda şagirdlərə ümumi və xüsusi əhəmiyyət kəsb edən ümumtexniki biliklərin verilməsi vacibdir. Umumtexniki biliklər anlayışının mahiyyəti ondan ibarətdir ki, o, mühum obyektlərdə texniki biliklərin nəzəri təsvirini verir. Bu anlayış vasitəsi ilə təsvir edilən, keçmiş bilikərdə əks etdirilən texniki proses texniki biliklərin qazanılması üçün əsas mənbə olur. Texniki prosesi tam və hərtərəfli öyrənmək üçün texniki biliklərin əsası kimi təşəkkül tapan obyektin ayrı- ayrı hissə və elementlərini müəyyən etmək lazımdır.

İqtisadiyyatın inkişafında insanın rolu daha düzgün başa düşüldükcə, onun tədqiq edilib öyrənilməsi zərurəti də get-gedə daha anlamlı olmuş, həmçinin bu sahədə aparılan tədqiqatların əhatə dairəsi və intensivliyi artmışdır.

Bu baxımdan son illər insan inkişafı ilə bağlı tədqiqatların aparılması daha da genişlənmişdir. Belə ki, baş verən köklü iqtisadi-siyasi dəyişikliklər şəraitində insan kapitalının inkişaf etdirilməsi və bu kapitaldan səmərəli istifadə edilməsi mühüm əhəmiyət kəsb edir. Çünki burada məqsəd sosial proseslərin inkişafına təsir edən amilləri aşkara çıxarmaq, meydana çıxa bilən və mümkün olan bütün sosial nəticələrin dövlət səviyyəsində həll edilməsi vəziyyətini qiymətləndirən prosesin inkişaf meyillərinə fəal təsir göstərməkdən ibarətdir. Başqa sözlə desək, insan kapitalının inkişafı və ondan səmərəli istifadə olunması dövlətin fəal siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir.

İnsan kapitalı istehsal prosesinin əsas hərəkətverici amilidir, ictimai təkrar istehsal isə geniş, xalq təsərrüfatı nöqteyi-nəzərindən məhsul istehsalının yenidən başlanılması və bu kapitalın özünün təkrar istehsalıdır. Bu cəhətlər iqtisadçı-nəzəriyyəçilərin daim diqqətini cəlb etmişdir. A.Smit yazırdı ki, "faydalı iş istehsalının artımı hər şeydən əvvəl işçinin çevikliyinin və bacarığının yüksəldilməsindən, ondan sonra isə işlətdiyi maşın və alətlərin təkmilləşdirilməsindən asılıdır". O, hesab edirdi ki, əsas resurslar maşın və başqa alətlərdən, tikililərdən, torpaqdan və "əhalinin və cəmiyyət üzvlərinin əldə edilmiş faydalı bacarıqlarından" ibarətdir. O, qeyd edirdi ki, "bu cür bacarıqların əldə edilməsi bacarıq sahibinin tərbiyəsi, təlimi və ya şagirdliyi dövründə təkmilləşməsi zamanı xərc tələb edir, bu bir növ onun şəxsiyyətini reallaşdıran əsas kapitalı təşkil edir". Bu bacarıqlar, müəyyən şəxsin dəyərinin tərkib hissəsi olmaqla bərabər məxsus olduğu cəmiyyətin də sərvəti olur.

İnsan inkişafı mürəkkəb bir sxemdir və bu inkişaf əsasən ümumi ictimai yüksəlişə əsaslanır. Aydındır ki, insan üç əsas məqsədi reallaşdırmadan onun ictimai yüksəlişi mümkün deyildir. Bu məqsədlərə uzun və sağlam ömür sürmək, biliklər əldə edib onları yeniləşdirmək və genişləndirmək, həmçinin yüksək həyat səviyyəsini təmin edən maddi nemətlər əldə etmək aiddir. İnsan potensialının inkişafı dörd vacib paradiqmaya - uzun və sağlam həyata, biliyə, layiqli həyat üçün tələb olunan resurslara malik olmağa və ictimaiyyətin həyatında iştiraka diqqət ayırır.

Əsas əmək haqqı - bu ildə edilmiş əmək sərfinə görə mütəxəssisin mükafatlandırılmasıdır.

Əlavə əmək haqqı - bu keçmişdə həyata keçirilmiş tədris əməyinin sərfinə görə mükafatlandırmaqdır.

Adətən, "insan kapitalı" ancaq qazanılmış vərdiş və biliyin əsasında təyin edilir və ölçülür, halbuki insanın təbii xüsusiyyətlərini və xarakteristikalarını birləşdirən insan kapitalının daha geniş anlayışı müxtəlif dərk edilməmiş vərdiş və digər xüsusiyyətlərin rifahın yaradılmasında necə iştirak etdiyini daha adekvat göstərir və tədrisi də daxil etməklə ətraf mühitin təsiri altında öz şəklini dəyişə bilər. İnsan kapitalı xüsusilə mədəni mühitdə inkişaf edir.

İnsan kapitalı formal və qeyri-formal təhsil almaq ilə istər işgüzar fəaliyyət prosesində, istərsə də ondan kənarda tətbiq etmə və təcrübə ilə artır, amma insan kapitalı əgər az istifadə olunarsa, qiymətdən düşmə tendensiyasına da malik olur. Bəzi vərdişlər yaşla əlaqədar yox olur və səylər müəyyən yaşa çatandan sonra insan kapitalının müşahidə olunan azalmasını qismən izah edir.

İnsan kapitalı dəyərinin qiymətləndirilməsi üçün, qazanılmış təhsildən asılı olaraq əmək bazarında həyat müddətində qarşıdakı əmək haqqı barədə məlumatları aqreqatlaşdırmaq təcrübəsinə başlanılmışdır. Belə yanaşma təşkilatlarda və digər kollektiv birliklərdə formalaşan "kollektiv bilik və vərdişlərin" vacibliyini nəzərə almır. Qeyd etmək lazımdır ki, buna baxmayaraq ki, insan kapitalı fərdin xüsusiyyəti kimi müəyyən olunur, təşkilatda keyfiyyət və kəmiyyətə görə müxtəlif insan kapitallarının aqreqatlaşdırılması və kombinasiyası fərdi kapitalların adi məbləğini keçən təşkilat

səviyyəsində kompetensiyanı yaradır, yəni sinergetik effekt olur. Eyni zamanda, qəbul edilir ki, fərdlər əsasən firma üçün spesifik insan kapitalına sahib olmadan tam renta əldə etmək iqtidarında olmur, belə ki, işverən (işə götürən) əslində onların spesifik vərdişlərinin vahid mümkün alıcısı kimi çıxış edir. Aqreqatlaşdırmaq xüsusi irəli çəkilmiş işçilərin kollektivində işin sayəsində kapitalın qarşılıqlı təsiri və artması payını nəzərə almağa imkan vermir. Sonda belə yanaşma zamanı insan kapitalının gizli, olan və birmənalı olmayan formasını nəzərə almaq daha çətindir.

Mövcud yanaşmaların qeyd edilmiş natamamlılığı, insan kapitalına investisiya ehtiyatlarına olan tələbatı, beynəlxalq müqayisə səviyyəsində aydınlaşdırır. Bu formal indeksdə əsaslandırılmış insan kapitalı göstəricisinə təşkilatda bilik və vərdişlərin birbaşa qiymətləndirilməsinə əsaslandırılmış spesfik göstəricilər əlavə edilməlidir.

İnsan potensialının inkişafı səviyyəsini müəyyənləşdirən əsas konponentlərdən biri də həyat səviyyəsinin qiymətləndirilməsidir. Həyat səviyyəsi cəmiyyətin tələbatlarının ödənilməsi və inkişafını özündə birləşdirir. Beynəlxalq əmək təşkilatının konvensiyasının 25-ci maddəsinin "sosial siyasətin əsas istiqamətləri və normaları haqqında" bəndinə müvafiq olaraq, insan özünün və ailəsinin sağlamlığnı və firavanlılığını qorumaq üçün zəruri olan qida, paltar, mənzil, tibbi yardım və sosial xidmət də daxil olmaqla yaşayış səviyyəsini təmin etmək hüququna malikdir. BMT-nin zəmanətinə əsasən insanın sağlamlığını, istehlak səviyyəsini, məşğulluğunu, təhsilini, mənzil və sosial təminatını xarakterizə edən göstəricilər sistemi ilə ölçülür [7].

Əhalinin həyat səviyyəsinin əsas göstəriciləri bunlardır: adambaşına düşən milli gəlirin həcmi, onun əhalinin qrupları və sinifləri arasında bölüşdürülməsi, nominal və real əmək haqqı, ictimai istehlak fondundan güzəşt və ödəmələr. Başqa sözlə, həyat səviyyəsinə insanın maddi və mənəvi tələbatlarının ödənilməsi səviyyəsini xarakterizə edən göstəricilər aid edilir. Buna qida, geyim, başqa xalq tələbatı malları, mənzil şəraiti, işləmək və dincəlmək imkanlarının təmin edilməsi daxildir.

Minimum yaşayış büdcəsi minimum fizioloji normalar nəzərə alınmaqla hesablanmış limit həyat standartıdır və onu hesablamaq üçün ərzaq səbətindən istifadə edirlir. Ərzaq səbəti ərzaq məhsullarının minimal normaları əsasında fiziki istehlaka və zəruri kaloriliyə müvafiq təşkil olunur.

Minimum istehlak büdcəsi isə istehlak ənənəsi, istehlakçı bazarının konyunkturu əsasında hesablanır. Buna görə də, bu göstərici yaşayış səviyyəsinin nisbətən yüksək standartıdır. Adətən onların nisbətini 1:2 kimi qəbul edirlər.

"Minimum istehlak büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən "minimum istehlak büdcəsi cəmiyyət tərəfindən onun indiki inkişaf dövründə mümkün olan minimum səviyyə kimi qəbul edilmiş həddən aşağı olmayan səviyyədə insanın fizioloji və sosial-mədəni tələbatının ödənilməsini təmin edəcək istehlak mallarının və xidmətlərinin dəyərini əks etdirir" [8].

Minimum istehlak büdcəsi istehlak səbəti əsasında hesablanır. İstehlak səbətinin dəyəri minimal istehlakçı büdcəsini verir. Minimum istehlak büdcəsi - minimal səviyyədə maddi nemət və xidmət istehlakını əks etdirir. Deməli, o, ən vacib məhsullar və xidmətlərin toplusunu özündə əks etdirməlidir. Ən rasional istehlak büdcəsi ərzaq - 46,1%, qeyri-ərzaq - 39%, xidmətlər - 13,2%, vergilər və ödəmələr - 2,7% kimi qəbul olunur.

Yaşayış minimumu əsasında həyatın dəyəri indeksi hesablanır. Həyatın dəyəri istehlak qiymətləri və istehlak strukturundan asılıdır. Bu faktora istehlak tələbinin dəyişməsi, bazar konyunkturunun vəziyyəti və s. təsir edir. Həyatın dəyəri indeksinin qiyməti əhalinin rifah səviyyəsinə təsirini əks etdirməlidir. Bu məqsədlə, qeyd olunmuş həyat səviyyəsinin qiymətlərin dəyişməsi zamanı saxlanılması məqsədilə zəruri hesab edilən xərclər müqayisə olunur. Bu göstəriciləri hesablayan zaman əhalinin müəyyən qrupunun xərclər strukturuna müvafiq istehlakçı nemətləri (istehlakçı səbəti) təyin olunur.

Əhalinin mal və xidmətlər ilə istehlak səviyyəsi, maddi tələbatı ödəmə imkanları, ömrün uzunluğu, ətraf aləmin vəziyyəti və s. həyatın keyfiyyəti kimi qiymətləndirilir. Qeyd etmək lazımdır ki, bu anlayışların bir çoxunu kəmiyyətcə ölçmək mümkün deyil. Bu isə əhalinin həyat keyfiyyətinin təyin edilməsi prosesini çətinləşdirir.

Həyatın keyfiyyəti səviyyəsi cəmiyyətin sosial-iqtisadi vəziyyətindən asılı olaraq dəyişir və insanın inkişafı konsepsiyası ilə sıx əlaqədədir. Yaşayış minimumunun həcmi insanın həyat fəaliyyətinin saxlanması üçün lazım olan qida məhsullarının

natural toplusunun dəyər qymətləndirilməsini, həmçinin qeyri-ərzaq malları və xidmətlərə, vergi və məcburi ödəmələrə xərcləri özündə əks etdirir.

Göründüyü kimi insan potensialının inkişafı sosial tərəqqi tendensiyalarını təhlil etməklə cəmiyyətdə hər bir fərdin vəziyyətinin müxtəlif indikatorlar vasitəsilə çoxcəhətli dəyərləndirilməsinə əsaslanır. Digər inkişaf problemlərindən fərqli olaraq, İPİ problemi insan həyatının təkcə iqtisadi tərəflərini yox, eyni zamanda, onun sosial aspektlərini də (təhsil, səhiyyə, ekologiya, demoqrafiya mədəniyyət, ailə, məişət və s.) əhatə edir. İnsan inkişafı ictimai həyatın bütün sahələrində fərdin inkişaf imkanlarının genişləndirilməsi prosesinin əsas istiqamətlərinin göstəricisidir. Daha dəqiq desək, İPİ-nin mahiyyəti hər bir insanın fərdi qabiliyyətinin həyata keçirilməsi üçün əlverişli sosial, iqtisadi və ekoloji şəraitin yaradılmasından ibarətdir.

Bəzi alimlər haqlı olaraq hazırkı şəraitdə ictimai tərəqqinin vəziyyətini - iqtisadi inkişafla yanaşı insanların cəmiyyətdəki vəziyyətilə, o cümlədən onların sağlamlıq, uzunömürlülük və dünya görüşü səviyyəsi, mənəvi-psixoloji vəziyyəti ilə müəyyənləşdirilməsini irəli sürürlər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının dövlət büdcəsi zərfi. 2010; 2013.

2. Azərbaycanın statistik göstəriciləri. 2009; 2013.

3. Беккер Г. Человеческое поведение: экономический подход. Избранные труды по экономической теории. Пер. с англ. М.: ГУ ВШЭ, 2003,672 с.

4. Кендрик Дж. Совокупный капитал США и его формирование. М.: Прогресс, 1978, 275 с.

5. Макконел К.Р., Брю С.Л. Экономикс: принципы, проблемы иполитика. Т 2. 1992. 400 с.

6.Цыренова А.А. Развитие человеческого капитала в условиях трансформации институциональной среды. – Улан-Удэ. Изд-во ВСГТУ, 2006, 88 с.

7. http://www.sspf.gov.az/

8. Корнейчук Б.В. «Информасийа игтисадиййаты». Санкт-Петербург.

**Лямия Ильяс кызы БАЙРАМОВА, учитель**

**Гюльнар Эльбрус кызы МАМЕДОВА**

**Айтач Валех кызы АКБАРЗАДЕ**
**Азербайджанский Технологический Университет**
E-mail: utecalamiya@gmail.com

# ФОРМИРОВАНИЕ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА И ЕГО СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ ЭФФЕКТИВНОСТЬ

**Резюме**

Самое актуальное из современной инновационной экономики одной из проблем является возрастающая роль знаний и превращение их в один из важнейших ресурсов, то есть интеллектуальный капитал, в обеспечении экономического роста и прогресса. Поскольку новые знания повышают рыночную стоимость и конкурентоспособность предприятия, которое их использует, эти знания можно рассматривать как один из стратегически важных ресурсов предприятия. Поэтому роль интеллектуального капитала в производстве товаров и услуг в последние годы возрастает. В начале 21 века стоимость интеллектуального капитала в высокотехнологичных американских компаниях составляла до 80% от общей стоимости капитала.

Если на этапе индустриального развития общества для производства продукции требовалось больше сырья, материалов, энергетических ресурсов, рабочей силы, то постиндустриальное и информационное общество создало потребность в использовании интеллектуальных ресурсов, т.е. знания, а не физические ресурсы, которые в новых видах продукции создаются, в новых

технологиях, в новых привычках, навыках, оно проявляется в системе новых отношений с потребителями, ведь знания играют роль локомотива развития в современной экономике.

**Ключевые слова:** человеческий капитал, предприятие, подготовка кадров, профессия, персонал.

**Lamiya Ilyas gizi BAYRAMOVA, teacher**

**Gulnar Elbrus gizi MAMMADOVA**

**Aytac Valeh gizi AKBARZADE**
Azerbaijan Technology University
E-mail: utecalamiya@gmail.com

## HUMAN CAPITAL FORMATION AND ITS SOCIO-ECONOMIC EFFICIENCY

**Summary**

The most relevant of the modern innovative economy one of the problems is the increasing role of knowledge and its transformation into one of the most important resources, that is, intellectual capital, in ensuring economic growth and progress. Since new knowledge increases the market value and competitiveness of the enterprise that uses it, this knowledge can be considered as one of the strategically important resources of the enterprise. Therefore, the role of intellectual capital in the production of goods and services has been increasing in recent years. At the beginning of the 21st century, the value of intellectual capital in high-tech American companies accounted for up to 80% of the total value of capital.

If at the stage of industrial development of the society, more raw materials, materials, energy resources, labor force were required for the production of products, then the post-industrial and information society has created a need for the use of intellectual resources, i.e. knowledge, rather than physical resources, which in the new types of products created, in new technologies, new habits, skills, it manifests itself in the system of new relations with consumers, because knowledge plays the role of a locomotive of development in the modern economy.

**Keywords:** human capital, enterprise, personnel training, profession, personnel.

**Sevinc Firuddin qızı BABAKIŞIYEVA, b.m.**
**Nərminə Asim qızı ASLANOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: sbabakishiyeva@mail.ru

# AQRAR SAHƏDƏ İXRAC MƏHSULLARININ STRUKTUR DƏYİŞİKLİKLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Xülasə**

Bazar iqtisadiyyatında iqtisadi fəaliyyətin səmərəliliyinin statistik öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.“İqtisadi səmərə” və “iqtisadi səmərəlilik” eyni bir anlayışın iki tərəfini əks etdirir. ”Səmərə” anlayışı hərəkət, nəticə mənasını versə də, “səmərəlilik – nəticəli, məhsuldar ,əhəmiyyətli kimi mənada işlənir. İqtisadi səmərənin onun əldə olunmasına çəkilən məsrəflərə və ya resurslara nisbəti iqtisadi səmərəliliyi müəyən edir. Səmərəlilik həmçinin məsrəf və resursların hesabına arta və ya azala bilər. Səmərəliliyin yüksəldilməsinin məqsədi - əlavə məsrəflər olmadan əlavə səmərə alınmasıdır. Bu da resurslara və cari məsrəflərə qənaət hesabına əldə edilir. Səmərəliliyin düzgün qiymətləndirilməsi və uçotu üçün səmərəliliyin meyarı və göstəricilərinin müəyyənləşdirilməsinin mühüm əhəmiyyəti vardır. Meyar qiymətləndirmə ölçüsü, qiymətləndirmənin əsas prinsipidir və hadisəni rəqəmlərin dili ilə səciyyələndirir, onun kəmiyyət müəyyənliyini göstərirlər.

İqtisadiyyatın səmərəlilik meyarı müxtəlif iqtisadi sistemlərdə müxtəlif cür qiymətləndirilir. Bazar iqtisadiyyatında səmərəlilik konsepsiyası bazarların resursları nə qədər yaxşı yerləşdirməsini qiymətləndirmə meyarı kimi istifadə olunur. İqtisadiyyatın bütün sahələrində səmərəliliyin uçotunun proqnozlaşdırılması üçün istifadə oluna bilən mənfəət, rentabellik, fondtutumluluq və s. kimi göstəricilərdən hər biri səmərəliliyin səviyyəsi və dinamikasını qiymətləndirmək üçün istifadə oluna bilməz. İstənilən sistem ayrı-ayrı elementlərin vaciblik dərəcəsinə bölgüsünün, tabeliliyini və onlar arasında səbəb-nəticə əlaqələrinin olmasını nəzərdə tutur. Bu, bütövlükdə səmərəlilik göstəriciləri sisteminə də aiddir.

**Açar sözlər:** aqrar sahə, istehlak bazarı, ölkə iqtisadiyyatı, konsepsiya, mexanizm.

**JEL: Q 10**

## Giriş

İstehsalın səmərəliliyinin təmin edilməsi və onun daim yüksəldilməsi təsərrüfat subyektlərinin idarə olunmasında həmişə əhəmiyyətli məsələlərdən biri hesab edilir.

Səmərəlilik iqtisadi sistemin fəaliyyətinin son nəticələrinin sərf olunmuş resursların dəyərinə nisbətində ifadə olunan göstəricidir. O, iqtisadi sistemin müxtəlif səviyyələrində mövcud olan səmərəlilik göstəricilərinin inteqral forması və mili iqtisadiyyatın fəaliyyətinin yekun səciyyəsidir. Bu baxımdan səmərəlilik göstəricisini makro və mikrosəviyyələrdə nəzərdən keçirmək olar.

Makrosəviyyədə iqtisadi səmərəlilik istehsal olunmuş məhsulun, daha dəqiq desək Ümumi Daxili Məhsulun xərclərə nisbəti ilə müəyyən edilir. Göründüyü kimi, kapitalın, əmək və torpaq resurslarının səmərəliliyi ayrı-ayrılıqda qiymətləndirilə bilər. Mikrosəviyyədə isə səmərəlilik müəssisənin məhsul satışından əldə etdiyi gəlirlərin xərclərə nisbəti kimi müəyyən edilir. Hər iki səviyyənin təhlili göstərir ki, istehsalın səmərəliliyi fəaliyyətdə olan bütün müəssisələrin səmərəliliyi əsasında formalaşır. Müəssisənin səmərəliliyi isə öz növbəsində daha az xərclərlə məhsul istehsal etmək qabiliyyətilə səciyyələnir.

İstehsalın iqtisadi səmərəliliyi barədə bir-birini tamamlayan və təkzib edən fikirlər mövcuddur. Bir qrup alimlərin fikirlərinə görə müəssisənin malik olduğu resurslar məhsul istehsalına cəlb edilərsə, həmin istehsal iqtisadi cəhətdən səmərəlidir. Doğrudur, resursların tam şəkildə istehsala cəlb olunması müsbət addımdır. Lakin bu, istehsalın səmərəliliyi demək deyil. Ona görə ki, resursların tam tətbiqi onlardan istifadənin səmərəliliyini ifadə etmir[1].

İqtisadi ədəbiyyatlarda səmərəliliyin səbəb, səmərənin isə nəticə olması fikri üzərində formalaşan nəzəriyyələr də vardır. Səmərəlilik son nəticəlilik, texnikadan istifadə dərəcəsi, onun istismar prosesində faydalılığı kimi xarakterizə olunur. Bu fikirlərlə müəyyən mənada razılaşmaq olar. Ona görə ki, həqiqətən texnikanın iqtisadi potensialından səmərəli istifadə ardıcıl olaraq əmək məhsuldarlığının yüksəlməsini və məhsuln əməktutumluğunun azalmasını təmin edə bilər.

Qeyd olunmalıdır ki, istehsalın təşkilinin və idarə olunmasının müasir təsərrüfat mexanizminin tələblərinə uyğunlaşdırılması, mühüm sosial-iqtisadi vəzifələrin həlli, bilavasitə istehsalın səmərəliliyi ilə bağlıdır. Təbii ki, məhsul istehsalının həcmi, keyfiyyət və səmərəlilik göstəriciləri müxtəlif amillərdən asılıdır. Həmin amillər də ilk növbədə həcm və struktur baxımından dəyişən tələbatın ödənilməsi dərəcəsi və yolları ilə əlaqədardır. Bu baxımdan prioritet vəzifə müəyyən xərclər sərf edilməsi müqabilində tələbatın maksimum ödənilməsinə nail olunmasıdır. Göstərilən məsələnin uğurlu həll edilməsi istehsalın kəmiyyət və keyfiyyətcə səmərəliliyinin təmin olunması ilə bağlıdır. Bu məqsədə nail olmaq üçün hər şeydən əvvəl cəmiyyətin malik olduğu iqtisadi potensialdan tam istifadə olunmalı, istehsalın səmərəliliyi yüksəldilməlidir. Onu da nəzərə almaq lazımdır ki, səmərəliliyin yüksəldilməsi yalnız iqtisadi, sosial, texniki və təşkilati tədbirlərlə deyil, həm də qeyri-istehsal amilləri ilə də bağlıdır. Bu, istehsalın iqtisadi səmərəliliyini müəyyən edən göstərici və meyarların əsaslandırılmasını tələb edir. Ona görə ki, istənilən sosial-iqtisadi prosesin kəmiyyət və keyfiyyət cəhətlərini özündə əks etdirən meyar və göstəriciləri müəyyən etmədən onun idarə edilməsi mümkün deyil. Prinsip etibarilə səmərə mütləq göstərici kimi xərclərlə əlaqəli deyil və ona görə də, istehsalın səmərəliliyi barədə tam təsəvvür yarada bilmir.

Nəzərə almaq lazımdır ki, hər bir göstərici meyarın mahiyyətinə uyğun olmalı, onu özündə əks etdirməli və ümumiyyətlə, keyfiyyətcə ondan fərqlənməməlidir. Bu baxımdan istehsalın iqtisadi səmərəliliyinin bir tərəfdən resurslardan istifadənin intensivləşdirilməsi, digər tərəfdən isə istehsal xərclərinin tədricən aşağı salınması ilə əlaqəsini qeyd etmək olar.

İstehsalın iqtisadi səmərəliliyini təhlil edən zaman ona təsir edən amillərin özünə_məxsusluğunu, sahəvi fərqlərini nəzərə almaq lazımdır.

İqtisadçı alimlər iqtisadi səmərəliliyin müəyyən edilməsi zərurətini təhlil edərək istehsalın səmərəliliyinə texnoloji, iqtisadi və sosial səmərəlilik baxımından yanaşmağı məqsədəuyğun hesab edirlər. Eyni zamanda, onlara təsir edən amilləri təbii mühit amillərinə, təşkilati, iqtisadi, hüquqi, texniki, texnoloji, sosial və bazar amillərinə ayırırlar. Onlar siyasi-hərbi amilləri də iqtisadi səmərəliliyə təsir edən amillərə daxil edirlər. Belə hesab edirik ki, iqtisadi səmərəliliyə təsir edən amillərin tərkibinə siyasi-hərbi amillərin daxil edilməsi heç də digər amillərdən az əhəmiyyət kəsb etmir. Ona görə də, aqrar istehsalının iqtisadi səmərəliliyinin kompleks amillərin uçotu əsasında müəyyən edilməsi məqsədəuyğundur[2].

Hazırda yeni iqtisadi münasibətlər formalaşması ilə əlaqədar olaraq torpağın, texnikanın, binaların və digər əmlak növlərinin icarəyə verilməsindən, qiymətli kağızlara investisiya qoyuluşundan, başqa istehsalçılara xidmət göstərilməsindən sahibkarın hesabına vəsait daxil olur. Ona görə də, müəssisədə iqtisadi səmərəliliyin qiymətləndirilməsi zamanı belə daxilolmaların nəzərə alınması da lazımdır.

Araşdırılan fikirlərin və ideyaların heç birinə ciddi şübhə ilə yanaşmaq mümkün olmasa da, onu qeyd etmək olar ki, istənilən istehsal sahəsində, o cümlədən aqrar sferada iqtisadi səmərəliliyin ən mühüm göstəricisi əmək məhsuldarlığıdır. Lakin bunu birtərəfli qaydada söyləmək də düzgün deyil. Belə ki, sahədə yüksək iqtisadi səmərəliliyə nail olunması sosial səmərəsizlik, vətəndaşların həyat və sağlamlığına biganəlik və biznes maraqları üzərində qurulmamalıdır. Fikrimizcə, dünya ərzaq istehsalında geni dəyişdirilmiş məhsulların çoxalması nəticəsində insanların həyat və sağlamlığının risklərə məruz qalması bu məsələnin tədqiqinə xüsusi yanaşmanı tələb edir.

Tələbatın maksimum səviyyədə ödənilməsi üçün səmərəliliyin həm kəmiyyət göstəricilərindən, həm də dəyər göstəricilərindən istifadə edilir. Məlumdur ki, əmək məsrəfinin azalması nəticə göstəricisinə təsir göstərir. Məhsul istehsalına çəkilən xərclər maya dəyəri göstəricisinə daxil olduğundan maddiləşmiş əmək

məsrəflərini əks etdirir. Ona görə də, əmək məhsuldarlığı, fond tutumu, material tutumu, rentabellik göstəricisi ayrı-ayrılıqda mühüm əhəmiyyət kəsb etsələr də, ümumi səmərəlilik göstəricisini tam səciyyələndirmir. Odur ki, dəyər ifadəsində iqtisadi səmərəlilik göstəriciləri hesablanarkən nəzərə alınmalıdır ki, istehsal sahəsi (bitkiçilik, heyvandarlıq və s.) və obyektlərdən (bina, üzümlük, texnika və s.) asılı olaraq səmərəlilik göstəricisinin xarakteri də müxtəlif olacaqdır.

İqtisadi ədəbiyyatlardan məlumdur ki, səmərə – əldə edilən nəticədir. Səmərəlilik – səmərənin ölçüsüdür. Ona görə də, iqtisadi səmərəlilik meyarı kimi əmək məhsuldarlığının səviyyəsi götürülür. Bununla yanaşı əksər hallarda səmərəliliyin daha çox əmək məhsuldarlığı və əmək haqqı, maya dəyəri, fondverimi, bir manatlıq istehsal fonduna ümumi və xalis gəlirin həcmi, bir nəfər orta illik işçiyə qarışıq yem istehsalı, bir ton qarışıq yem istehsalına elektrik enerjisi məsrəfi kimi göstəricilərlə ifadə olunması kimi təkliflərə də rast gəlinir.

Fikrimizcə, iqtisadi səmərəlilik göstəricisinin ilk növbədə, istehsalın nəticələrini özündə əks etdirən ümumiləşdirici yekun göstəricilərə, yəni əmtəəlik məhsul, ümumi gəlir, xalis gəlir və mənfəət göstəricilərinə ayıraraq tədqiq edilməsi elmi-metodiki baxımdan daha düzgün hesab olunur.

Bir qrup iqtisadçılar hər 100 hektar torpaq sahəsindən götürülən ümumi və əmtəəlik məhsulun dəyərini, hər hektardan məhsuldarlığı, istehsal xərcləri vahidinə görə əldə edilən mənfəəti kənd təsərrüfatı məhsulları istehsalının ümumi səmərəliliyini xarakterizə edən göstərici kimi qəbul edirlər.

Məlumdur ki, mühüm iqtisadi kateqoriya olmaqla istehsalın səmərəlilik göstəricilərindən biri də mənfəətdir. Onun artması təkrar istehsalın artırılması, istehsalçının marağının və rifahının yüksəldilməsinin mühüm mənbəyi, həmçinin tələbatın ödənilməsi vasitəsidir. Mənfəət göstəricisini elmi cəhətdən öyrənmədən istehsalın rentabelliyinin, vəsait qoyuluşunun, təsərrüfat fəaliyyətinin nəticələrinin səmərəliliyini təhlil etmək mümkün deyil. Təsərrüfatçılıq təcrübəsinə görə mənfəət satılmış məhsuldan əldə edilən pul ilə onun istehsalına çəkilən xərclər arasındakı fərqdir. Belə hesab edirik ki, kənd təsərrüfatı məhsullarının bir hissəsi saxlanıb sonrakı ildə yaxud mövsümdənkənar dövrdə satıldığı, habelə təsərrüfat ehtiyaclarının ödənilməsinə yönəldildiyi üçün real mənfəətin həcmi hesabat dövründə düzgün müəyyən edilməyə bilər[3].

Yeni iqtisadi şəraitdə iqtisadiyyatın bütün sahələrində cəmiyyətin inkişafının müasir tələblərinə uyğun təsərrüfat mexanizminin yaradılması dövrün tələbi kimi qarşıya qoyulmuşdur. Bu vəzifənin reallaşdırılmasında istehsalın mühüm tənzimləyicisi və resursların səmərəli bölüşdürülməsi aləti kimi qiymətlərə geniş yer verilir.

Öz xarakterinə görə qiymətin əmələ gəlməsi problemi müstəsna mürəkkəbliyə malikdir. Xarici ölkələrin uzunmüddətli təcrübəsi və milli iqtisadiyyatın müstəqillik dövründəki inkişaf meyilləri bunu bir daha sübut edir.

Nəzərə almaq lazımdır ki, qiymət siyasətində buraxılan səhvlər iqtisadi böhranın baş verməsinə səbəb ola bilər. Qiymətlər istənilən dövrdə iqtisadi vəziyyətin real indikatorlarından biri kimi çıxış edirlər. Onlar iqtisadi, sosial, siyasi, ideoloji və s. amillərin təsirlərini özündə əks etdirirlər. Bununla yanaşı hələ də onların mahiyyəti, formalaşmasının nəzəri-metodoloji əsasları, təsərrüfat həyatındakı yeri və rolu haqqında elmi mübahisələr davam etməkdədir.

Qiymət əmtəə-pul münasibətlərinin mühüm elementi olan iqtisadi kateqoriyadır. Onun mahiyyətinə bir-birinə əks olan iki konsepsiya əsasında baxılır. Onlardan birincisi dəyər nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə əmtəənin qiyməti onun dəyərinin pulla ifadəsidir. Dəyər isə öz növbəsində dəyər əmtəədə madiləşmiş əmək məsrəflərinin məcmusudur. Beləliklə, qiymət nəticə etibarilə ictimai zəruri əmək xərclərini əks etdirir.

Qiymət əmələ gətirən amillər sistemi nəzərə alınmaqla qiymətin mikroiqtisadi təhlili bu məsələni müəyyən qədər həll etməyə imkan yaradır. Mikroiqtisadi təhlilin üstün cəhəti ondan ibarətdir ki, burada qiyməti formalaşdıran obyektiv şərait və müxtəlif təsərrüfat subyektlərinin maraqları kompleks şəkildə nəzərə alınır. Belə nəticəyə gəlmək olar ki, qiymətin əmələ gəlməsinin ümumi prinsipləri, amilləri və qanunauyğunluqları ilə yanaşı təsərrüfatçılıq subyektlərinin fəaliyyəti isqtiqaməti və təyinatından irəli gələn amillər də mövcuddur. Bu da, qiymətəmələgəlmənin sahəvi xüsusiyyətlərinin

araşdırılması zərurətini qarşıya qoyur. Şübhəsiz ki, milli iqtisadiyyatın əsas sahələrindən biri kimi kənd təsərrüfatında qiymətlərin formalaşması və tənzimlənməsinin özünəməxsus xüsusiyyətləri mövcuddur.

Aqrar sahədə qiymətlərin formalaşması və onların təsərrüfat fəaliyyəti göstəricilərinə təsiri mexanizminin tədqiqi bir çox tanınmış iqtisadçı alimlərin və mütəxəssislərin elmi fəaliyyətində xüsusi yer tutur. V.A. Davıdov göstərir ki, kənd təsərrüfatı məhsullarına qiymətlərin əmələ gəlməsi mürəkkəb proseslərdən biridir. Yararlı torpaqlardan və maddi-texniki resurslardan səmərəli istifadə, sahədaxili və sahələrarası əlaqələr, məhsulun keyfiyyətinin yüksəldilməsi, elmi-texniki tərəqqinin stimullaşdırılması və s. əhəmiyyətli dərəcədə onun səviyyəsindən asılıdır. Qiymətlər vasitəsi ilə müəyyən dərəcədə geniş təkrar istehsal prosesi tənzimlənir, əkin sahələrinin, mal-qara və quşların sayının artırılması üçün şərait yaradılır. Eyni zamanda, dövlət qiymətlərdən istifadə etməklə müxtəlif təbii-iqtisadi zonalarda yerləşən təsərrüfatların vəziyyətini bərabərləşdirir, milli gəliri aqrar-sənaye kompleksinin sahələri arasında yenidən bölüşdürür.

Son dövrlərdə aqrar sferada təsərrüfat münasibətlərinin yenidən qurulması ilə əlaqədar qiymətlərin əhəmiyyəti daha da yüksəlmişdir. Aqrar istehsal müəssisələrinin fəaliyyətinin ən mühüm meyarları sırasına aid edilən mənfəət və rentabellik digər vacib göstəricilərlə yanaşı məhsulun reallaşdırılması qiymətindən də asılıdır. Ona görə də, tətbiq olunan qiymət növlərinin və səviyyəsinin düzgün seçilməsi mühüm əhəmiyyətə malikdir.

Kənd təsərrüfatı məhsullarının reallaşdırılması zamanı hesablaşmalarda satınalma qiymətlərindən əlavə barter və birja qiymətlərindən istifadə olunur. Müstəqil Dövlətlər Birliyinə daxil olan respublikalarda kənd təsərrüfatı məhsullarının birja dövriyyəsi çox olmasa da, birja qiymətləri daha real bazar qiymətləri hesab edilir, çünki onlar tələb və təklifdən asılı olaraq formalaşırlar.

Satınalma qiymətləri ilə tədarük, emal müəssisələri və digər təşkilatlar kənd təsərrüfatı məhsullarını fermer təsərrüfatlarından və digər kənd təsərrüfatı istehsalçılarından, eləcə də, əhalidən alırlar.

İstənilən sahibkar kimi mənfəətin maksimumlaşdırılmasına səy göstərən fermer də bir neçə qərar qəbul etməlidir: “resurs-məhsul” qərarı, yəni əmtəənin istehsalı üçün verilən resursdan hansı həcmdə götürülməlidir; resursların daha mənfəətli uzlaşdırılmasına aid olan “resurs-resurs” qərarı və “məhsul-məhsul” qərarı, yəni əmtəələrin hansı uzlaşdırılması daha mənfəətlidir. Şübhəsiz ki, bu qərarların hər hansı birinin seçilməsi əmtəənin maya dəyərinə və fermerin mənfəətinə öz təsirini göstərməlidir. Bu da, öz növbəsində qiymət səviyyəsində öz əksini tapır.

Dəyişən resursun kəmiyyətinin artması yüksək mənfəətin əldə edilməsinə gətirib çıxarır: məhsulun əlavə qiymətliliyi (son hədd məhsulunun qiymətliliyi) əlavə resurs vahidinin qiymətindən (resursun son hədd xərclərindən) yüksək olur. Bu nöqtədən başlayaraq əlavə resurs vahidindən əldə olunan qiymətlilik əlavə xərcləri ödəmir. Maksimum mənfəətə isə resursun (amilin) son hədd xərclərinin son hədd məhsulunun qiymətliliyinə bərabər olduğu nöqtədə nail olunur.

Kənd təsərrüfatında orta satış qiymətlərinin formalaşmasına təsir göstərən amillərdən biri təbii-coğrafi amildir. İqlim şəraiti və relyef xüsusiyyətləri eyni kənd təsərrüfatı məhsullarının istehsalına müxtəlif ərazilərdə müxtəlif xərcləri müəyyən etməklə respublika və onun regionları üzrə orta satış qiymətlərinin ərazi differensiallaşdırılmasını şərtləndirir.

Kənd təsərrüfatı həmçinin mövsümi istehsal sahəsidir ki, mövsümi satış qiymətlərinin tətbiqi bilavasitə onunla bağlıdır. Mövsümi qiymətlər ilin əlverişsiz dövründə məhsul istehsalı və yaxud məhsulun uzunmüddətli saxlanılması ilə əlaqədar əlavə xərclərin uçotu əsasında müəyyənləşdirilir.

Aqrar bölmədə istehsalın iqtisadi səmərliliyinə təsir edən, onu formalaşdıran amillərə əsasən təbii amillər, bazar amilləri, texnoloji amillər, iqtisadi amillər (maliyyə, kredit, qiymət, vergi, istehsalın stimullaşdırılması), eləcə də, qarşılıqlı münasibətlərin yeni prinsiplər əsasında qurulması aid edilir. İnkişaf etmiş ölkələrin təcrübəsi və son illərdə respublikada kənd təsərrüfatının inkişafı sahəsində toplanmış təcrübə göstərir ki, mülkiyyət formasından asılı olmayaraq bütünlükdə aqrar bölmə və eləcə də, ayrı-ayrı müəssisələr onlara lazımi maliyyə yardımı

göstərildikdə və istehsal prosesi tənzimləndikdə daha səmərəli fəaliyyət göstərə bilərlər.

Kənd təsərrüfatının özünəməxsus xüsusiyyətlərinə görə hətta aqrotexniki, təşkilati, iqtisadi, texniki tədbirlərin yüksək səviyyədə həyata keçirildiyi şəraitdə bəzi müəssisə və təsərrüfatlar səmərəli fəaliyyət göstərməyə bilər. Bundan əlavə maddi-texniki resursların qiymətinin kəskin yüksəlməsi zamanı kənd təsərrüfatı istehsalçılarının məhsul satışından əldə etdiyi pul vəsaitlərinin onların istehsal xərclərini ödəməməsi də istisna olunmur [5].

Yuxarıda qeyd olunanlarla yanaşı kənd təsərrüfatında əmtəə istehsalçılarının xarici bazarın zərərli təsirindən lazımi səviyyədə qorunmaması, təminatlı daxili bazarın formalaşmaması səbəbindən istehsalın həcminin və səmərəliliyinin aşağı düşməsi onları böhranlı vəziyyətlə üzüzə qoya bilər. Bununla yanaşı ayrı-ayrı regionlarda torpaqların keyfiyyət göstəriciləri və resurs ehtiyatları ilə təminat səviyyəsi eyni deyil. Belə şəraitdə kənd təsərrüfatı müəssisələrini vahid sistem üzrə vergiyə cəlb etmək, onlara istehsal-texniki xidmətlər göstərmək, kreditləşdirmə və investisiya siyasətini həyata keçirmək gözlənilən nəticələri təmin edə bilməz. Bu baxımdan aqrar sferada istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi məsələləri göstərilən amillərin uçota alınması ilə kompleks şəkildə araşdırılmalıdır.

Hər bir ölkənin özünütəminat və ərzaq təhlükəsizliyi konsepsiyasının reallaşdırılması, həmçinin sənaye və kənd təsərrüfatı arasında ekvivalent əmtəə mübadiləsinin təmin edilməsi üçün kənd təsərrüfatında istifadə olunan sənaye məhsullarının qiymətləri ilə kənd təsərrüfatı məhsullarının orta satış qiymətləri arasında paritetlik təmin olunmalıdır. Göstərilən qiymət növlərinin dinamikasının müxtəlifliyi hər bir ölkədə paritetlik probleminin həllini ön plana çıxarır.

Unutmaq olmaz ki, hər bir cəmiyyətdə qiymət mexanizminin elmi əsaslarla düzgün müəyyənləşdirilməsi və istifadə olunması sosial-iqtisadi inkişafın vacib atributlarından biridir.

Aqrar sferada mövcud qiymət sistemi əslində istehsalçılarla istehlakçılar arasında alqı-satqı prosesinin həyata keçirilməsinə şərait yaratmalıdır. Lakin qiymətlərin formalaşmasında olan tam sərbəstlik prinsip etibarilə qiymət növləri arasında əlaqəni təmin etmir. Ona görə də, qiymət sistemi sərbəst qiymətəmələgəlmə prinsiplərinin gözlənilməsi, istehsalçıların, istehlakçıların və dövlətin maraqlarının təmin edilməsi əsasında qurulmalıdır[6].

Bazar münasibətləri şəraitində strateji məhsulların və xidmətlərin qiymətlərinin səviyyəsi əvvəlcədən təsbit olunur. Aqrar sahədə demək olar ki, bütün dövrlərdə istifadə olunan maddi-texniki vasitələrin qiymətlərinin nəzarətdə saxlanılması dövlətin diqqət mərkəzində olmuşdur. Bundan sonra da qiymət paritetliyinin gözlənilməsi sahənin inkişafını təmin edən, onu iqtisadiyyatın inhisarçı sahələrindən qorunmasına imkan verən başlıca prinsip kimi çıxış edir. Hələlik isə bu sahədə qiymət ekvivalentliyi təmin olunmur. İldən-ilə bu sahə ilə məhsul istehsalçıları konkret növ maddi-texniki resurslarına nail olmaq üçün daha çox miqdarda məhsul satışına məcbur olurlar. Nəticədə təsərrüfat subyektlərinin bir hissəsi maliyyə göstəricilərinin pisləşməsi üzündən öz fəaliyyətlərini dayandırırlar.

Hazırda qiymət ekvivalentliyinin təmin olunması üçün əlaqədar dövlət orqanları tərəfindən həm iqtisadi, həm də inzibati xarakterli tədbirlər sisteminin hazırlanaraq tətbiq edilməsi olduqca vacib məsələlərdəndir. İnzibati xarakterli tədbirlərə istehsal vasitələri kimi istifadə olunan qiymət qoyuluşunda inhisarçı mövqe tutan sənaye sahələrinin rentabelliyinin reqlamentləşdirilməsi, həmin sahələrin məhsullarının qiymətlərinin yuxarı hədlərinin məhdudlaşdırılması, həmçinin məhsulların minimum alış qiymətlərinin təsbit olunması və s. aid edilə bilər. İqtisadi xarakterli tədbirlərə isə vergi siyasəti, gömrük, sığorta siyasəti və s. aiddir. Göstərinlənlərə aid olan düşünülmüş tədbirlər vasitəsilə sahənin inkişafını lazımi istiqamətə yönəldə bilmək və onun inkişafında dinamikliyi təmin etmək olar. Sözsüz ki, bu zaman həyati əhəmiyyətə malik istehsal sahəsi kimi artan templə inkişaf da həmişə diqqət mərkəzində saxlanılmalı və ümumiyyətlə, ayrı-ayrı sahələrin balanslaşdırılmış formada inkişafının təmin olunması probleminin həllinə nail olmaq olar.

Ümumiyyətlə, yeni iqtisadi şəraitə uyğun qiymətəmələgəlmənin metodoloji əsaslarını işləyib hazırlamaqla qiymətlərin fəaliyyət mexanizmini müəyyən etmək mümkün deyil. Xarici ölkələrin təcrübəsi də bunu sübut edir və bu

baxımdan ABŞ-ın təcrübəsi böyük maraq doğurur.

Bu ölkədə fermerin istehsal etdiyi məhsulların reallaşdırılması bazar qiymətləri ilə dövlət tərəfindən həyata keçirilir, Həmin qiymətlərin səviyyəsi məqsədli qiymətlərdən yüksək, ondan aşağı və onun səviyyəsinə bərabər ola bilər. Lakin ilin sonunda (bəzən də il ərzində avans ödəmələri üzrə) məqsədli qiymətlə satış qiyməti arasındakı fərq dövlət tərəfindən fermerə ödənilir. Bu, bazar qiymətinin səviyyəsinin məqsədli qiymətin səviyyəsindən aşağı olması zamanı baş verir. Beləliklə, məqsədli qiymətlərin reallaşdırma qiymətlərindən aşağı olmasına görə kompensasiya ödənişləri sayəsində məqsədli qiymətlər fermerlər üçün iqtisadi reallığa çevrilməklə son reallaşdırma qiymətləri kimi çıxış edirlər.

İnkişaf etmiş xarici ölkələrdə aqrar istehsal məhsullarına qiymətəmələgəlmənin əsas xüsusiyyəti məqsədli qiymətlərin təsərrüfat ilinin ayrı-ayrı ayları üzrə onların illik səviyyəsinin on faizi həddində diferensiallaşdırılmasından ibarətdir. Qiymətlərin diferensiallaşdırılması reallaşdırılmamış məhsulların bilavasitə təsərrüfatda saxlanılması məsrəflərinin kompensasiya edilməsi, həmçinin kommersiya və dövlət anbarlarında məhsulların saxlanılması xərclərinin ödənilməsi məqsədilə həyata keçirilir. Bundan əlavə məqsədli (təminatlı) qiymətlərin diferensiallaşdırılması saxlanma zamanı kənd təsərrüfatı məhsullarının itkilərindən dəyən zərərin bir hissəsinin kompensasiya olunmasını təmin edir.

Avropa İqtisadi Birliyinə daxil olan ölkələrdə aqrar istehsal məhsullarının böyük əksəriyyəti üzrə qiymətlərin dəyişməsi meyillərinin müşahidəsi aparılır. Bu müşahidənin başlıca məqsədi bazarın sağlamlaşdırılmasına nail olunmasıdır. Bazarın sağlamlaşdırılması isə tələblə təklif arasında tarazlığa nail olunması, bazar qiymətlərini tənzimləməklə onların müəyyən hədlər daxilində saxlanılması əsasında təmin edilə bilər. Bütün bunlara baxmayaraq, vahid qiymətlər daxil edilməklə, tələb və təklifin təsiri nəticəsində qiymətlərin sərbəst surətdə formalaşmasına da məhdudiyyət qoyulmur. Onu da qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə qiymət sisteminin formalaşdırılması mənfəətin və qiymətlərin səviyyələrini reqlamentləşdirən qanunlar vasitəsilə həyata keçirilir. Bu daha çox əhalinin istehlak səbətinə daxil olan məhsullara aid edilir. Bu zaman qiymətlərin səviyyəsini tənzimləməklə bərabər dövlət sərbəst qiymətəmələgəlmə prinsipini gözləyir və ardıcıl olaraq iqtisadi proseslərin idarə olunmasını həyata keçirir.

Ölkə iqtisadiyyatının inkişafının başlıca məqsədi əhalinin sosial-iqtisadi tələbatının hərtərəfli ödənilməsidir. Ona görə də, aqrar sahənin hərtərəfli inkişaf etdirilməsi, xüsusən bununla bağlı respublikamızda formalaşan aqrar istehlak bazarının iqtisadi mexanizminin təkmilləşdirilməsi qeyd etdiyimiz məqsədə xidmət edir, onun hərtərəfli araşdırılması xüsusi aktuallıq kəsb edir.

Ölkə iqtisadiyyatının inkişafı gedişini təhlil edərkən görürük ki, respublikamızda aqrar istehlak bazarının məhsullarının istehsalı və pərakəndə mal dövriyyəsi əmtəələrin idxalı və ixracı kimi məsələlərin araşdırılması, problemlərinin həlli yollarının ortaya çıxarılması zərurəti qarşıda durur. Belə ki, aqrar istehlak malları bazarına iqtisadi mexanizmlərin səmərəli tətbiqi, tələb və təklifin strukturu, həcmi, tarazlığı, istehlak bazarında əmtəə istehsalçıları ilə istehlakçıların hüquqlarının müdafiəsi, tərəflər arasında rəqabət mühitinin formalaşması və inkişafı əmtəə istehsalçıları olan kənd təsərrüfatı və emal sənayesi ilə ticarət arasında qarşılıqlı əlaqələrin formalaşacağı mürəkkəb bir sistemi ifadə edir. Bu prosesi tədqiq etmək hər bir dövr üçün zəruridir və xüsusi bir aktuallıq kəsb edir. Bu baxımdan aqrar istehlak malları bazarının səmərəli inkişafına nail olmaq üçün problemi elmi baxımdan araşdırmaq və həll etmək lazım gəlir.

Ərazimizin 20 faizinin erməni vandalları tərəfindən 30 ilə yaxın dövrdə işğalda saxlanılmasına baxmayaraq ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi dövründə uğurla həyata keçirilən regional inkişaf proqramları, habelə kənd təsərrüfatının inkişafı və kənd təsərrüfatı məhsullarının satışı, xammal və qida bazarlarının tənzimlənməsi üzrə dövlət proqramlarının qəbulu, tənzimləmə tədbirləri, iqtisadi mexanizm elementlərini çətin iqtisadi şərtlərə və dəyişikliklərin məqsədyönlü təbiətinə uyğunlaşdıraraq iqtisadiyyatın aqrar sahədəki vəziyyətini xeyli yaxşılaşdırdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının

Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi" sözügedən istiqamətlər üzrə strateji məqsəd və hədəfləri, nəzərdə tutulan tədbirlərin qiymətləndirmə və maliyyələşdirmə mexanizmlərini müəyyən edir.

Bu baxımdan iqtisadi mexanizmin transformasiyasına nəzəri və metodoloji yanaşmaların inkişafı, eyni zamanda ölkə səviyyəsində fəaliyyət xüsusiyyətlərinin müəyyənləşdirilməsi aqrar sahədə istehlak bazarının fəaliyyətinin iqtisadi vasitələrlə tənzimlənməsi məsələləri müasir dövrdə çox aktualdır və yüksək nəzəri və praktiki əhəmiyyətə malikdir.

Problemin işlənmə dərəcəsinə gəldikdə isə qeyd olunmalıdır ki, son dövrlərdə aqrar sahənin iqtisadi mexanizminin inkişafı və fəaliyyətinin səmərəliliyinin müxtəlif problemləri bir çox alimlərin tədqiqat mövzusu olmuşdur.

Ölkənin aqrar sahədə istehlak bazarının iqtisadi mexanizminin təkmilləşdirilməsi üzrə nəzəri və metodoloji müddəaların əsaslandırılması və inkişafı əsasında, aqrar-ərzaq bazarının davamlı inkişafının təmin edilməsi ilə bağlı nəzəri və praktiki təklif və tövsiyələrin hazırlanması vacibdir .

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi məqsədəuyğun sayılır:

- aqrar sahədə istehlak bazarının iqtisadi mexanizminin tədqiqinin nəzəri-metodoloji problemlərini araşdırmaq əsasında bu sahədə istehlak bazarının iqtisadi mexanizminin məzmun elementləri və mahiyyətini aşkarlamaq:
- aqrar sahədə istehlak bazarına dair mövcud konsepsiyalar və nəzəriyyələri tədqiq etmək;
- aqrar sahədə istehlak bazarının infrastrukturunun formalaşması zəruriliyini əsaslandırmaq və inkişaf xüsusiyyətlərini müəyyənləşdirmək;
- aqrar sahədə istehlak bazarının inkişafı və əhalinin ərzaq məhsulları ilə təminatı məsələlərini araşdırmaq;
- aqrar sahədə istehlak bazarının formalaşmasının zəruriliyi və mövcud durumun təhlilini və qiymətləndirilməsini aparmaq;
- aqrar sahədə istehlak bazarının formalaşmasında beynəlxalq təcrübədən istifadə imkanlarını tədqiq etmək;
- aqrar sahədə istehlak bazarının makroiqtisadi tənzimlənməsi məsələlərini qiymət siyasəti, vergi mexanızmini araşdırmaq, istehlak bazarında kənd təsərrüfatı məhsullarının qiymət tənzimlənməsi mexanizmlərini tədqiq etmək, istehlak bazarının və sahibkarlığın qiymət mexanizmi ilə dəstəklənməsi yollarını müəyyənləşdirmək;
- aqrar sahədə istehlak bazarının iqtisadi mexanizminin tənzimlənməsi vasitələrindən, o cümlədən kreditdən, sığortadan, eləcə də investisiyalardan səmərəli istifadənin yollarını araşdırmaq;
- aqrar sahədə istehlak bazarının iqtisadi mexanizminin təkmilləşdirilməsi problemlərini tədqiq etmək, aqrar-ərzaq məhsullarının idxalı və ixracının dövlət dəstəklənməsini təhlil etmək;
- aqrar sahədə istehlak bazarı məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi imkanlarını və xarici bazara çıxışının istiqamətlərini müəyyənləşdirmək;
- kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılmasını təmin edən aqrar sahənin istehlak bazarının iqtisadi mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətləri kimi dövlət dəstəyinin yaxşılaşdırılması və yaşıl aqrar-ərzaq təchizatı zəncirlərinin tətbiqi və idarə olunması mexanizminin təkmilləşdirilməsi metodikasına dair və s. təkliflər hazırlamaq [10].

Aqrar klasterlərin yaradılması aqrar sahədə mütərəqqi tədarük zəncirlərinin tətbiqi amili kimi logistika infrastrukturunun inkişaf etdirilməsinin yollarından biridir. Yüksək keyfiyyətli aqrar-ərzaq məhsulları bazarını formalaşdırmaq üçün xidmət strukturlarının (soyutma, qablaşdırma və nəqliyyat) inkişafı və möhkəmləndirilməsinə əlavə olaraq yaşıl tədarükün idarə olunması fəlsəfəsini tətbiq etmək, marketinq xidmətləri, malların keyfiyyətinin araşdırılması, ticarət müəssisələri və sığorta şirkətlərinə xidmət göstərən kommersiya banklarına məlumat verən vasitəçi firmaların fəaliyyətini inkişaf etdirmək lazımdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycanın statistik göstəriciləri. ADSK. Səda nəşriyyatı, Bakı, 2015

2.Azərbaycanın kənd təsərrüfatı. ADSK. Səda nəşriyyatı,Bakı, 2015

3.A. İ. Cabbarova. " Beynəlxalq statistika" fənnindən metodik göstəriş. Bakı, 2011

4.Ə.C.Qasımov. "Aqrar- sənaye müəssisələrinin iqtisadiyyatı və idarəedilməsi" Bakı, 2005.

5.Hüseynov V.Ə. "Özəl Kənd Təsərrüfatı müəssəsələrində istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi yolları". Bakı, 2001

6.Xurşudov Ş.M. "Bazar münasibətlərinə keçid şəraitində aqrosanaye istehsalının iqtisadi səmərəliliyinin yolları". Bakı, 1998

7.Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri. ADSK. Səda nəşriyyatı, Bakı,2015

8.Məmmədov A.I. "Kənd təsərrüfatının iqtisadiyyatı". Bakı, 1992

9.Məmmədov R.F. "Kənd təsərrüfatı istehsalının ıxtısaslaşdırılması və səmərəliliyi". Bakı, 1986

10.Məmmədov R.Ş. " Sənaye statistikası". II hissə . Bakı, 1998

**Севиндж Фируддин кызы БАБАКИШИЕВА, ст.пред.**

**Нармина Асим кызы АСЛАНОВА**
Азербайджанский Технологический Университет
E-mail: sbabakishiyeva@mail.ru

# СОВЕРШЕНСТВОВАНИЕ СТРУКТУРНЫХ ИЗМЕНЕНИЙ ЭКСПОРТА ПРОДУКЦИИ В СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ОБЛАСТИ

## Резюме

В условиях рыночной экономики большое значение имеет статистическое изучение эффективности хозяйственной деятельности.«Экономическая эффективность» и «экономическая эффективность» отражают две стороны одного и того же понятия.Хотя понятие «эффективность» означает действие, результат, «эффективность» употребляется в значении последовательного, продуктивного, важного. Отношение экономического эффекта к затратам или ресурсам, затраченным на его достижение, определяет экономическую эффективность. Эффективность также может увеличиваться или уменьшаться за счет затрат и ресурсов. Целью повышения эффективности является достижение дополнительной эффективности без дополнительных затрат. Это достигается за счет экономии ресурсов и текущих затрат. Определение критериев и показателей эффективности важно для правильной оценки и учета эффективности. Мера переоценки является основным принципом оценки и характеризует событие на языке чисел, показывая его количественную оценку.

Критерий эффективности экономики оценивается по-разному в разных экономических системах. В рыночной экономике понятие эффективности используется как критерий оценки того, насколько хорошо рынки распределяют ресурсы.Прибыль, рентабельность, эффективность использования капитала и т. д. могут использоваться для прогнозирования учета эффективности во всех сферах экономики. Каждый из этих показателей не может использоваться для оценки уровня и динамики эффективности. Любая система предполагает разделение отдельных элементов по степени важности, их подчиненность и наличие между ними причинно-следственных связей, это относится и к системе показателей эффективности в целом.

**Ключевые слова:** аграрный сектор, потребительский рынок, национальная экономика, концепция, механизм.

**Sevindzh Firuddin BABAKISHIEVA, senior lecturer**

**Narmina Asim ASLANOVA**
Azerbaijan Technology University
E-mail: sbabakishiyeva@mail.ru

# IMPROVING THE STRUCTURAL CHANGES OF EXPORT PRODUCTS IN THE AGRICULTURAL FIELD

**Summary**

In the market economy, the statistical study of the efficiency of economic activity is of great importance. "Economic efficiency" and "economic efficiency" reflect two sides of the same concept. Although the concept of "efficiency" means action, result, "efficiency" is used in the sense of consequential, productive, important. The ratio of the economic benefit to the costs or resources spent on its achievement determines the economic efficiency. Efficiency can also increase or decrease at the expense of costs and resources. The goal of efficiency improvement is to achieve additional efficiency without additional costs. This is achieved by saving resources and current costs. Determining efficiency criteria and indicators is important for proper evaluation and accounting of efficiency. The revaluation measure is the main principle of evaluation and characterizes the event in the language of numbers, showing its quantification.

The efficiency criterion of the economy is evaluated in different ways in different economic systems. In the market economy, the concept of efficiency is used as a criterion for evaluating how well markets allocate resources. Profit, profitability, capital efficiency, etc., can be used to predict efficiency accounting in all areas of the economy. Each of these indicators cannot be used to assess the level and dynamics of efficiency. Any system assumes the division of individual elements according to the degree of importance, their subordination and the existence of cause-and-effect relationships between them. This also applies to the system of efficiency indicators as a whole.

**Keywords:** agrarian sector, consumer market, national economy, concept, mechanism.

**Xəyyam Natiq oğlu CAVADZADƏ, i.f.d., dos.**
**Aysel Ədalət qızı HÜSEYNOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: fariz_h@mail.ru

# İNVESTİSİYALARIN TURİZM FƏALİYYƏTİNƏ TƏSİRİNİN TƏTQİQİ

**Xülasə**

Məqalədə mövzunun aktuallığı qeyd edilmişdir. Turizm sektorunu daha dinamik inkişaf etdirmək üçün əmək məhsuldarlığını artırmaq, xidmətin səmərəliliyini yüksəltmək, əməyin təşkili formasını və üsulunu təkmilləşdirmək, stimulverici tədbirlərin müxtəlifliyini və miqyasını genişləndirmək, turizm sosial servis xidmətlərini yenidən təşkil etmək, xüsusilədə investisiya qoyuluşunu davamlı artırmağın zəruriliyindən bəhs edilmişdir. Turizmə başlıca təsir edən amillər, investisya qoyuşuluşu, iqtisadiyyatın tarazlıq və səmərəlliyini təmin etmək, məsrəflərin hər manatına çox məhsul və gəlir şəraitini, ictimai istehsalın planlı inkşafı investisiya vasitəsilə həyata keçirilməsi haqqında qeydlər vardır. Turizm dövrün ən aktual və gəlirli sahəsidir ki, investisiya qoyuluşu ilə bu sahəni daha yaxşı inkişaf etdirmək mümkündür. Turizm yüz milyonlarla insanın gündəlik həyatına daxil olub insanların yaşayış və iş yerlərində sərbəst hərəkət etmək və bu zaman yaranan tələbatları ödəmək üçün xidmətlər sahəsini özündə cəmləşdirir. Ölkəmiz turizm sahəsini inkişaf etdirmək üçün yüksək potensiala malikdir. Azərbaycanın füsunkar təbiəti, iqlimi, gəzməli yerlərinin çoxluğu turizm axını üçün əlverişli imkan yaradır.

Respublikamızda ölkəiqtisadiyyatının bütün sahələrini əhatə edən radikal iqtisadi islahatlar həyata keçirilmişdir. Beləki, ”İnvestisiya fəaliyyəti haqqında”, ”Xarici investisiyaların qorunması haqqında”, ”Sahibkarlıq fəaliyyəti haqqında” və bir sıra digər qanun və qanunvericilik aktlarının qəbul edilməsi nəticədə Respublikada investisiya fəaliyyətinin geniş vüsət almasına şərait yaratmışdır.

**Açar sözlər:** investisiya qoyuluşu, turizm fəaliyyəti, investisiya prosesi, iqtisadiyyat, inkişaf.

**JEL: L 83**

## Giriş

Turizm bir növ kəşfiyyatdır. Lakin tam olaraq kəşfiyyatdan fərqli cəhəti budurki, burada insanlar planlı, daha dəqiq desək öncədən kəşf edilmiş yol ilə hərəkət edirlər. Beynəlxalq turizm isə XXI əsrin əvvəlindən başlayaraq dünyanın ən mühüm iqtisadiyyat sahələrindən birinə çevrildi.Turizm sənayesi genişmiqyaslıdır.Turizm inkişaf etdiyi ölkədə demək olarki,bütün sahələri inkişaf etdirir. Turizm bir ölkənin inkişafında, xüsusilədə onun iqtisadiyyatının dirçəlməsində ən mühüm rola sahib olan sahədir. Bu səbəbdən böyük investisiya qoyuluşlarıda tələb edir.

İnvestisiya gəlir əldə etmək üçün əmanətlərindən istifadə edən şəxslərə və ya qurumlara aid bir anlayışdır. İqtisadiyyatın ayrilmaz bir hissəsidir. Demək olarki, ölkələrin iqtisadi cəhətdən inkişafı səviyyəsi investisiya qoyuluşuna ayrılan vəsaitlərlə müəyyən olunur. İnvestisiyalar - həm pul, həm də real kapitala qoyulmuş vəsaitlərdir. Bu, pul vəsaitləri, kreditlər, qiymətli kağızlar, daşınar və daşınmaz əmlaka, intellektual mülkiyyətə və digər dəyərli sahələrə qoyulan vəsaitlər şəklində həyata keçirilə bilər.

**Mövzunun aktuallığı:** Qeyd olunanlara əsasən turizm XXI əsridə daha genişmiqyaslı, gəlirli, inkişafetdirici sahədir. Ümumiyyətlə, özəl dövlət, xarici birgə investisiya fəaliyyəti o zaman istənilən nəticəni verir ki, vəsaitlərin bölüşdürülməsi və istifadəsi yüksək səviyyədə daha səmərəli şəkildə həyata keçirilir. Turizm sektoruna qoyulan investisiya özünü daha çox daşınmaz əmlak, infrastruktur kommunikasiya və başqa təchizatında tapır ki, buda biznes sahəsində çox etibarlı əməkdaşlıq sayəsində xarici investorları maraqlandırır. Turizmin ekoloji tarazlığın qorunmasında və tənzimlənməsində, neft hasilatı, onun emalı, həmçinin nəqli ilə bağlı ərazidə yaranmış ekoloji böhranın neytrallaşmasında, ətraf mühitin qorunmasında və əvvəlki mənzərəsinin qorunub saxlanılmasında turizm daha əlverişli fəaliyyət forması kimi çıxış edə bilər. Turizm inkişaf edən regionlarda inteqrasiyanın güclənməsinə çox əlverişli

şərait yaradır. Dünyada elə regionlar var ki, orada iqtisadiyyatın başqa sahələrinin inkişafında əlverişli şərait olmadığı üçün turizm həmin bölgərdə insanların işlə təmin olunmasında da yeganə vasitə sayılır.

**Tədqiqatın məqsədi:** Tədqiqat işinin məqsədi turizm fəaliyyətinə investisiya qoyuluşunun əhəmiyyətinin öyrənilməsi, investisiya proqramlarının tərtibi istiqamətlərinin müəyyən edilməsi, investisiyaların tətbiqi xüsusiyyətlərinin öyrənilməsindən ibarətdir.

**Tətqiqatın obyekti:** Tətqiqatın obyekti dünyada və Azərbaycanda turizmə investisiyaların cəlb edilməsi, onların turizm sektoruna təsirini tətqiq etməkdən ibarətdir.

**Tətqiqatın metodları:** Conferences.az saytı, Azərbaycanda  Turizm haqqında Qanun, dövlət proqramları təşkil edir. Eyni zamanda ali məktəb dərsliklərinədə müraciət edilib.

Materiallar və müzakirələr

Turizm xidmət sahəsinin əsas ayrılmaz hissəsidir.

Keçən əsrin ortalarından etibarən turizm iqtisadiyyatı turizm fəaliyyətinin iqtisadi tərəflərini özündə əks etdirən bu fəaliyyət növünü həm nəzəri, həm də praktiki yönlərini öyrənən sahə kimi formalaşmağa başlamışdır.

Turizm istirahət, dincəlmək və buna bənzər digər məqsədlərlə insanların öz evlərindən xaricdə kommersiya xidmətlərindən istifadə edərək vaxt keçirməsi prosesidir. Turizm bir növ kəşfiyyatdır,lakin kəşfiyyatdan fərqli cəhəti budurki burada insanlar planlı, daha dəqiq desək öncədən kəşf edilmiş yol ilə gedirlər. Qədim tarixi kökə malik olan turizm, son dövrlərin ən gəlirli sahələrindən birinə çevrilmişdir. Fransız dilindən olan bu söz “gəzinti, əyləncə, istirahət” mənasını İfadə edir. Bəzən turizm sözünə “səyahət”,”səyyah” sözlərinin  sinonimi kimi baxılır. Bu sözün törəməsi olan “turistika” isə yeni elm sahəsi olan turizmin inkişafını öyrənir. Turizm iqtisadiyyatda yeni elm sahəsi kimi qəbul edilir və dinamik inkişafa malikdir.

İnsan təbiətinə uyğundurki, ömür boyu işləyir, yaradır, yorulanda istirahət edir. İtirilən enerji istirahət edilən vaxtda bərpa olunur, bu isə rekreasiya adlanır. Bu nəticəyə gəlirki, istirahət vacib elementdir. İstirahət etmədən, itirilən enerjini bərpa etmədən daim fəaliyyətdə olmaq qeyri- mümkündür. Deməli istirahət insan yaşamının ayrılmaz hissəsidir. Bildiyimiz kimi turizm elə bir biznes növüdür ki, onun rəqabətqabiliyyətliyi birbaşa bu sahələrin təsiri altında formalaşır.

Turizmin inkşafı bir çox amillərdən asılı olmayaraq əksər ölkələrdə sosial inkşafın əsas elementi hesab olunur. Turizm iqtisadi cəhətdən nə qədər səmərəlidirsə, o millətlər və xalqlar arasında qarşılıqlı hörmətin,mədəni dini və digər amillərin inkşafında da böyük əhəmiyyət daşıyır. Ona görə də turizmin inkşafı üçün dövlətin müvafiq qurumları bu istiqamətdə investisiya qoyuluşunu müəyyən etməli, və sektorun inkşafında maraqlı olmalı və öz töhfəsini verməlidir. Turizm sektorunu daha dinamik inkişaf etdirmək üçün əmək məhsuldarlığını artırmaq, xidmətin səmərəliliyini yüksəltmək, əməyin təşkili formasını və üsulunu təkmilləşdirmək, stimulverici tədbirlərin müxtəlifliyini və miqyasını genişləndirmək, turizm sosial servis xidmətlərinin yenidən təşkil etmək çox zəruridir.

İnvestisiya anlayışı, əsasən mənfəət əldə etmək məqsədilə həm ölkə daxilində, həm xaricində həyata keçirilən maliyyə resursudur. Buda istər – istəməz kapital qoyuluşlarının iqtisadiyyatın hər bir sahəsi üzrə tətbiq olunması meyli ortaya çıxır.

İnvestisiya milli iqtisadiyyatda bir növ, bütün sahələrdə, başlıca olaraq həm istehsalat, emal, həm də xidmət sahəsinə tətbiqi uzunmüddətli, qisamüddətli xarakter daşımasına səbəb olur. Eyni xüsusi təyinatlı investisiyalar xüsusən gəlir qazanmaq məqsədi daşıyır, bu da, milli iqtisadiyyatın müəyyən bir sahəsinin mənfəətlik dərəcəsini bu sahənin investisiya üstünlüyünün səviyyəsini müəyyənləşdirir. Bu baxımdan sahənin yaxud hər hansı iqtisadi sahənin mənfəətlik səviyyəsi tətbiq olunacaq kapital qoyuluşlarının üstün cəhətlərini müəyyən edən mühüm yaradıcı bir meyardır .

**Turizmdə investisiyaların tətbiqi xüsusiyyətləri**

İnvestisiya sahəsinə kapital axınını təmin etmək üçün dövlət tərəfindən həyata keçirilən siyasət, həmin ölkənin beynəlxalq müqavələlər və onlara necə əməl edilməsi, dövlət idarəetmə sisteminin sabitliyi, həmçinin, dövlətin iqtisadi fəaliyyətə müdaxilə etməsi miqyası, metodları, dövlət aparatının səmərəli işləməsi qəbul olunmuş qərarların operativ və iqtisadi siyasətin tətbiq olunmasında ardıcıllığın gözlənilməsi və s. təsir edir. Bütün bu deyilənləri nəzərə alanda, Azərbaycanda investisiya mühitinin formalaşması yönündə görülən işləri və formalaşmış mühiti yüksək qiymətləndirmək olar.

- Xarici kapitalı ölkə iqtisadiyyatına cəlb etmək, onun əhatə dairəsini

genişləndirmək neft sektoru ilə birlikdə başqa sahələri və ölkənin hər bir bölgəsini

əhatə etmək.

- inkşaf etmiş ölkələr ilə elmi-texniki əməkdaşlığı daha çox genişləndirmək,

süni yaradılan maneələr aradan qaldırılmaq, daxili bazarı qorumaq üçün iqtisadi

vasitələrə üstünlük verilmək.

- Ölkəmizə xarici investisiyaları cəlb etmək, onu həyata keçirmək və cəlb

edilmiş vəsaitləri regionlar üzrə proporsional formada bölüşdürmək.

- xarici investisiyaları qorunmaq və onların səmərəliliyini yüksəltmək məqsədi

ilə daha böyükmiqyaslı addımlar atmaq.

- ölkəmizin ayrı-ayrı ərazilərində eyni zamanda, bölgələrində olan təbii və

iqtisadi potensialdan səmərəli istifadə edərək xidmət sektorlarını inkşaf etdirmək

məhsul, xidmətlərin əlverişli şəkildə ixrac olunmasına diqqəti artırmaq, turistlərin marağının yüksəldilməsində müvafiq addımlar atmaq həmin sahədə beynəlxalq

təcrübəsini öyrənmək və tətbiq edilməsi məqsədilə müvafiq tədbirləri həyata

keçirmək.

- xarici investiyaların infrastruktur sahələrini inkşaf etdirilmək, dövlət

investisiya siyasətinin başlıca istiqamətlərindən birini təşkil etmək.

Ümumiyyətlə, özəl dövlət, xarici birgə investisiya fəaliyyəti o zaman istənilən

nəticəni verir ki, vəsaitlərin bölüşdürülməsi və istifadəsi yüksək səviyyədə daha

səmərəli şəkildə həyata keçirilir.

**Turizm sferasında regionların investisiya fəaliyyətinin təhlili və qiymətləndirilməsi**

Regionlarda turizm sektorunu inkşaf etdirmək üçün qarşıya aşağıdakı əsas vəzifələr qoyulmuşdur:

1) Turizm sahəsindəki sahibkarlıq – bura əsasən kiçik və orta sahibkarlığın inkşaf etdirilməsi rəqabətə dözümlü turizm bazarını yaradılması nəzərdə tutulur.

2) Turistlərə xidmətin keyfiyyətinin yüksəltmək, yəni keyfiyyətin beynəlxalq standartlara cavab verməsi;

3) Turizm fəaliyyətində dövlət tənzimlənməsini təmin etmək.

4) Turizmdən gələn gəlirlərin həcmini artırmaq, və bu gəlirlərin dövlətə və yerli büdcələrə daxil olmasına şərait yaratmaq.

5) Turizmin maddi – texniki bazasını yaratmaq və infrastrukturu möhkəmlətmək

6) Xarici investorları, turizm sferasına cəlb etmək, onlar üçün əlverişli şərait yaratmaq.

u vəzifələrin həyata keçirilməsi çox gərgin və məsuliyyətli zəhmət tələb edir. Ümumiyyətlə ölkəmizin turizm sahəsi üzrə çox böyük potensialı var. Turizmin inkşafı heç də başqa sahələrin geri qalması demək deyil. Turizmin inkşafı gələcəkdə yeni iş yerlərinin açılması, və sonda daha çox gəlir əldə etməkdir.

Ölkədə kifayət qədər turizm resurslarının çoxluğu və böyük potensialının olması hər şeyin həlli demək deyil. Azərbaycanın dünyada turizm ölkəsi kimi tanınması üçün turizm sahəsi üzrə dövlət siyasəti formalaşmalı, təkmilləşməli infrastruktur təminatı beynəlxalq standartlara cavab verməli xidmət sahələri turistlərin zövqünə və tələbatına uyğun təmin olunmalıdır.

Turizmdən gələn gəlir çox tez dövriyəyə daxil olur ki, oda tezliklə öz səmərəsini verir. Əgər regionda daha çox xidmət göstərilib və bu zaman gələn gəlir satılırsa, həcmi də yüksək olacaqdır ki, bu da yerli istehsalın gücləndirilməsi üçün stimul yaradacaqdır, həmçinin turizm sektoru ekoloji cəhətdən də region üçün əlverişli sayılır.

**Turizmdə sektorunun nəzəri əsasları**

Turizm sektorunu daha dinamik inkişaf etdirmək üçün əmək məhsuldarlığını artırmaq, xidmətin səmərəliliyini yüksəltmək, əməyin təşkili formasını və üsulunu təkmilləşdirmək, stimulverici tədbirlərin müxtəlifliyini və miqyasını genişləndirmək, turizm sosial servis xidmətlərinin yenidən təşkil etmək çox zəruridir. Turizm yüz milyonlarla insanın gündəlik həyatına daxil olub insanların yaşayış və iş yerlərində sərbəst hərəkət etmək və bu zaman yaranan tələbatları ödəmək üçün xidmətlər sahəsini özündə cəmləşdirir. Turizm müasir dövrümüzdə millətlərin həyatının bütün sahələrində beynəlmiləşdirmək insanlar arasında ünsiyyət, siyasi, iqtisadi və mədəni əlaqələrin qurulmasında ayrı-ayrı şəxslərin asudə vaxtlarının istifadə olunmasının əsas formasına çevrilmiş bir fəaliyyət sahəsidir. Ona görə də, müasir dövrümüzdə turizmə həyat keyfiyyətinin yaxşılaşdırılması üçün hər bir fərd əsas amil olaraq diqqət göstərməlidir. Turizm iqtisadiyyatın böyük

bir sektorunu əhatə edir. Müasir dünya iqtisadiyyatında tutduğu mövqeyə görə yalnız neftçıxarma və avtomobilqayırma sahəsi ilə rəqabət apara biləcək industriya halına gəlmişdir. Cəmiyyətin sosial-iqtisadi nöqteyi nəzərindən turizmin əhəmiyyəti əvəzedilməzdir. Bütövlükdə ölkədə və regionlarda turizmin inkişaf etdirilməsi bir sıra sosial-iqtisadi problemlərin öyrənilməsi və həll edilməsi üçün çox əlverişli şərait yaradır. Turizmin inkişafı ilə yeni-yeni iş yerlərinin açılması , kənd əhalisinin şəhərə kütləvi axının qarşısının alınmasında, kommersiya və mədəni əlaqələrin qurulmasında çox böyük irəliləyişlərə nail olmaq mümkündür.

Aşağıdakı istiqamətlər turizmin yeri və rolunun nəzəri-metodoloji aspektlərini formalaşdırır:

- turizmin iqtisadi artımda rolu və ölkə iqtisadiyyatının inteqrasiya amili olaraq zəruriliyini formalaşdırır;
- turizmin ölkə əhalisinin məşğulluğu və yerli resursların istehsal və xidmət dövriyyəsinə cəlb edilməsinin əsas istiqamətlərini müəyyənləşdirir;
- turizmin inkişafı ixracatyönlü siyasətin yeni və daha səmərəli forması olaraq turist tələbatına uyğun struktur transformasiyanın modelini yaradır;
- turizm ölkəsi daha çox səmərəli fəaliyyət, turizm sferasına baxış, onun məqsədi, vəzifələri və təşkili fəaliyyətində iştirak edən subyektlər və mexanizmlər, onun metodoloji əsaslarını təşkil edir.

Turizmin sosial-iqtisadi mahiyyəti.

Turizmin sosial-iqtisadi mənası çoxşahəli və kompleks göstəricilərlə ifadə olunur. Onun əsas məqsədi kommersiya gəlirləri gətirmək, yerli resurslardan istifadə etmək, əhalinin rifahı üçün infrastrukturu genişləndirməkdən ibarətdir. Turizm fəaliyyət dairəsi olmaqla sahibkarlığa şərait yaradır. Turizm biznesin və korporativ idarəetmənin obyekti olaraq genişlənir. Turizmin sosial mənası iş yerlərinin açılması, ev təsərrüfatının inkişafı və kəndin sosial-iqtisadi inkişafını təşkil etmək vəzifəsi təşkil edir. İqtisadi və sosial inkişaf problemləri, həmin resurslardan istifadənin səmərəli təşkili və məşğulluğun artması məqsədlərinə uyğun olaraq təşkil olunur. Turizm fəaliyəti xidmət sferası olmaqla turistlərin ehtiyacını ödəmək üçün fəaliyyət göstərir. Turizm fəaliyyətinin təşkilinin resurs potensialı, regionun resurs potensialı, əhalinin rifahının yüksəldilməsi problemlərinin həlli üçün aparıcı amil rolunu oynayır.

**Tədqiqatın nəticələri-** Beynəlxalq təcrübədən göründüyü kimi bir çox dövlətlərdə ( ABŞ, Cənubi Koreya və s. ) əksər iqtisadi sahələri inkişaf etdirmək üçün dövlət sərmayesindən, müxtəlif kreditlərdən, özəl sektor və sahibkarların maliyyə imkanlarından, yerli sığorta şirkətlərinin maddi ehtiyyatlarından istifadə edilir. ölkədə turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, ayrı-ayrı regionlarda turistlərin istirahəti üçün lazımi şəraitin yaradılması ilə yanaşı turizm sektorunun inkişafı üçün mövcud olan nəqliyyat dəhlizlərinin imkanlarından maksimum istifadə edilməsi zəruridir.

Turizmin motivlərində təbii iqlim amili, xüsusilə şəhərlərdə məskunlaşanların, psixoloji və bioloji tələbatını ödəyir. Coğrafi və iqlim şərtləri, yay və qış idman növlərinin tərəqqisi üçün əsas faktordur. Araşdırmalardan məlum olur ki, müalicə və sağlamlıq üçün əlverişli şəraiti olan, yəni müalicə - kurort bölgələrinin mövcud olduğu regionlar insanlar üçün daha cəlbedicidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" 6 7. Azərbaycanın statistik göstəriciləri – 2017.

2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. dekabr 2016-cı il.

3. B.Ə.Bilalov, Ç.G.Gülalıyev – " Turizmin Əsasları " – Bakı – 2015.

4. B.Ə.Bilalov – " Turizm Fəaliyyətinin Tənzimlənməsi " – Bakı – 2006, Mütərcim nəşriyyatı.

5. Əhmədov M.A., Hüseyn A.C. Dövlətin iqtisadi siyasəti. Bakı-2011.

6. Ə.Q.Əlirzayev - " Turizmin iqtisadiyyatı və idarə edilməsi " – Bakı – 2010 " İqtisad Universiteti " Nəşriyyatı.

7. Əliyev Q, "İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi" Bakı 2008

8. G.Ə.Gənciyev Beynəlxalq iqtisadi münasibətlər : müasir vəziyyət və inkişaf problemləri. Bakı, Elm 2005.

9. Hümbətov.Y.Ə., Kərimov.F.C., Qapaqov.V.F., Cavadzadə X.N. "Turizm sənayesinin təşkili" Bakı, Avropa nəşriyyatı 2021-ci il.

10. "İqtisadi nəzəriyyə kursu" Azərbaycan Dövlət iqtisad universitetində tərcümə olunmuş dərsliklər Bakı 2012

11. İ.X.İbrahimova – "Azərbaycanın regionlarının inkişafında turizmin rolu", "Azərbaycan

dirçəliş yolunda “ məqalələr toplusu.Bakı : Elm, 2005
12. Namazova C. “İnvestisiyalar” Bakı 2014

**Хайям Натиг оглы ДЖАВАДЗАДЕ, к. т. н., доцент**

**Айсель Адалат кызы ГУСЕЙНОВА,**
Азербайджанский Технологический Университет
E-mail: fariz_h@mail.ruingilis

## ИЗУЧЕНИЕ ВЛИЯНИЯ ИНВЕСТИЦИЙ НА ТУРИСТИЧЕСКУЮ ДЕЯТЕЛЬНОСТЬ

**Резюме**

Во введении обосновывается актуальность темы диссертации, характеризуется степень изученности проблемы, ставятся цель и задачи, обосновывается практическая значимость работы, раскрывается научная новизна исследования, а также отражаются сведения об апробации результатов исследования и их внедрении. Методологические исследования научнотеоретические основы инвестирования проведен сравнительный анализ исторических этапов развития формирования системы инвестирования, а также наряду с изучением научных подходов различных ученых был проведен анализ систем инвестирования разных стран. Анализ и оценка инвестиций в развитии туризма в Азербайджанской республике анализируются инвестиций в развитии туризма. Составление и перспективные направления реализации инвестиционных программвыдвинуты предложения по обеспечению устойчивости системы инвестиционных программ, формирования и развития системы инвестирования. Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

**Ключевые слова:** инвестиции, туристская деятельность, инвестиционный процесс, экономика, развитие.

**Khayyam Natig oglu JAVADZADE, i.f.d., Assoc.**

**Aysel Adalat gizi HUSEYNOVA**
Azerbaijan Technology University
E-mail:  fariz_h@mail.ruingilis

## STUDY OF THE IMPACT OF INVESTMENTS ON TOURISM ACTIVITY

**Summary**

İn an introduction part the paper introduce the importance of the problem, aims and objectives, the practical importance of the work and literature review and important scientific research done by different scientist. Investment and scientific methodological basis of the study legislative and economic aspects of investment system, comparatively investigated historical aspects of the formulation of investment system and international experience. Analysis and evaluation of investments in the development of tourism in the Republic of Azerbaijan analyzed the current situation of investments assistance and benefits. Preparation and implementation of investment programs of the promising areas investigated and gave policy implications on investment programs, and benefits system sustainability. The dissertation consists of introduction, three main chapters, and a conclusion and policy implications.

**Keywords:** investment, tourism activity, investment process, economy, development.

**Cəfər Firdovsi oğlu CƏFƏROV**
Azərbaycan Dövlət Aqrar Universitetinin "Maliyyə və iqtisadi nəzəriyyə" kafedrasının dissertantı
E-mail: jafar.jafarov@adau.edu.az

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AQRAR SIĞORTA BAZARININ YARANMA MƏRHƏLƏLƏRİ

**Xülasə**

Təbii riskləri təminata götürən effektiv sığorta mexanizmi nəinki kənd təsərrüfatı məhsul istehsalçılarının risklərini onlar arasında bölüşdürür, həm də kənd təsərrüfatının inkişafını istiqamətləndirir. Məqalədə aparılan tədqiqatın məqsədi Azərbaycanın aqrar sahəsində sığorta bazarının formalaşması mərhələləri və prinsipləri, dövlətin bu prosesdə rolunun öyrənilməsidir. Tədqiqatın metodologiyasının əsasında dünya aqrar sığorta bazarının təcrübəsinin, ilk növbədə Türkiyənin TARSİM modelinin mahiyyətinin və onun Azərbaycanda tətbiqi üsullarının araşdırılması dayanır. Eyni zamanda, statistik məlumatların bazasında Azərbaycanda tətbiq olunan sığorta modeli ətraflı təhlil edilmişdir. Məqalədə aparılan aqrar sığorta bazarının yaranma mərhələlərinin tədqiqatının elmi əhəmiyyəti ilə bağlı irəli sürülən bir çox fikirlər bu bazarın təkmilləşdirilməsində istifadə oluna bilər. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq Azərbaycanda aqrar sığorta bazarının yaranma mərhələləri, bu mərhələlər arasında fərq və hər bir mərhələnin üstünlükləri və çatışmazlıqlarının ətraflı tədqiqatı aparılmışdır. Paralel olaraq, bu sahənin inkişafı prosesində mövcud olan potensiallar qabarıq şəkildə üzə çıxarılmışdır.

**Açar sözlər:** aqrar sığorta, aqrobiznes riskləri, sığorta modeli, dövlət tənzimləməsi, risklərin idarə olunması.

**JEL**: G22, Q14

**Giriş**

1991-ci ildə Azərbaycan Respublikası öz müstəqilliyini yenidən bərpa etdiyi zamandan başlayaraq SSRİ dövründən miras qalan iqtisadi problemlərin həlli ölkəmizdə aparılan iqtisadi islahatın mərkəzində dururdu. İqtisadi islahatın əsas məqsədi inzibati amirlik sisteminin bazar sisteminə çevrilməsi idi. Bu dövrü iqtisadi ədəbiyyatda keçid dövrü də adlandırırlar. Keçid dövründə iqtisadi problemlərin həll olunmasının açarı inzibati amirlik sisteminin əsasını təşkil edən dövlət mülkiyyətinin özəl mülkiyyətə transformasiyası əsasında bazar iqtisadi sisteminin formalaşdırılması və hakim sistemə çevrilməsi idi. Aqrar sahə də bu proseslərdən kənarda qalmadı. XX əsrin 90-cı illərində iqtisadi islahatlar çərçivəsində aqrar sahədə ulu öndər Heydər Əliyev tərəfindən aparılan məqsədyönlü siyasətin nəticəsində Azərbaycanın aqrar sahəsində kolxoz və sovxozların fermer təsərrüfatlarına çevrilməsi prosesi baş verdi. Fermer təsərrüfatlarının kənd təsərrüfatında hakim mövqe tutması aqrar bazarın yaranmasının təməlini təşkil etdi.

Dünya təcrübəsindən məlumdur ki, aqrar sahənin yüksək riskliliyi bu sahədə iqtisadi artımın qarşısında dayanan əsas maneədir. Aqrar sahədə risklərin yüksək intensivliyi və səviyyəsi sahənin səciyyəvi xüsusiyyətləri ilə əlaqədardır. İlk növbədə sahədə biznes fəaliyyətinin təbii risklərə məruz qalmasıdır. Bu səbəbdən də, digər sahələrdən fərqli olaraq aqrar sahədə təbii hadisələr nəticəsində yaranan riskləri aqrobiznes riskləri də adlandıra bilərik [6]. Aqrobiznes risklərinin yüksək səviyyəsi öz təzahürünü ilk növbədə fermerlərin gəlirlərinin həcmində tapır. Bu səbəbdən də, kənd təsərrüfatı məhsul istehsalçılarının gəlirlərinin sabitləşdirilməsi iqtisadi artımın təməl daşını təşkil edir. Gəlirlərin sabitləşdirilməsi isə ancaq aqrar sahədə mövcud olan aqrobiznes risklərinin effektiv idarəedilməsindədir. Aqrobiznes risklərinin effektiv idarəedilməsinin ən geniş yayılmış üsullarından biri və başlıcası kənd təsərrüfatı məhsullarının sığorta təminatına götürülməsidir. Müstəqillik dövründə aparılan iqtisadi islahatlar bu problemi nəzərdən qaçırmamış və bu sahədə zəruri olan ilkin addımlar atılmışdır. Aqrobiznes

risklərinin idarəedilməsinin kökündə aqrar sığorta bazarının yaradılması dayanır. Aqrar sığorta bazarının Azərbaycanda formalaşmasını biz iki mərhələyə bölə bilərik.

**Aqrar sığorta bazarının yaranmasının ilkin mərhələsi: dövlətin passiv iştirakı**

Birinci mərhələnin təməli 2002-ci ildə qəbul olunmuş "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qoyulmuşdur [3]. Bu qanunun məqsədi Azərbaycan Respublikasında aqrar sığorta bazarının formalaşmasının institusional əsaslarını yaratmaqla yanaşı, fermerlərin investisiya və təsərrüfat fəaliyyətinin stimullaşdırılması idi. Bununla bərabər, aqrar sığorta bazarının tənzimlənməsi məqsədi ilə dövlət büdcəsi tərəfindən sığorta haqlarının subsidiyalaşdırılmasını nəzərdə tuturdu. Baxmayaraq ki, qanunun tətbiq edildiyi ilkin dövrlərdə (2004-cü il) yalnız buğda məhsulu üzrə sığorta haqqının 25%-i dövlət büdcəsi hesabına subsidiyalaşdırılırdı, sonrakı illərdə bu siyahı genişləndirilərək bir çox dənli məhsulları (arpa, qarğıdalı, günəbaxan və s.), meyvə və üzüm məhsullarını da əhatə etmişdir. Qeyd edək ki, 2007-ci ildən dövlət hesabına sığorta haqlarının subsidiyalaşdırılması isə 50%-ə çatdırılmışdır [8].

Digər tərəfdən isə, kənd təsərrüfatı məhsullarının (bitkiçilik və heyvandarlıq) təbii hadisələrdən sığortalanmasının həm dövlət şirkətləri, həm də özəl sığorta şirkətləri tərəfindən həyata keçirilməsi nəzərdə tutulurdu. Lakin, birinci mərhələdə özəl şirkətlər aqrar sığorta bazarına elə də böyük maraq göstərmədilər. Təkcə onu demək kifayətdir ki, birinci mərhələdə sığorta bazarında maksimum 29 şirkətdən ancaq 5 şirkət eyni zamanda aqrar sığorta bazarında da fəaliyyət göstərirdi. Özəl şirkətlərin aqrar sığorta bazarında zəif iştirakını sahənin yüksək riskliliyi və dövlət tərəfindən tənzimlənməsinin passiv xarakteri ilə izah etmək olar. Həmin dövrün statistik məlumatları da deyilənləri tam təsdiqləyir. Belə ki, 2013-cü ildə Maliyyə Nazirliyi tərəfindən kənd təsərrüfatı məhsullarının sığortalanmasına ayrılan vəsaitlərin ancaq 0,9%-i, 2014-cü ildə isə cəmi 2,3%-i təyinatı üzrə istifadə olunmuşdur. Eyni zamanda, sığorta şirkətləri heyvanların sığortalanmasına üstünlük verirdilər. Məsələn, 2014-cü ildə bitkiçilik məhsulları üzrə yığılan sığorta haqları ümumi sığorta haqlarının 18%-ni, heyvandarlıqda isə 82%-ni təşkil etmişdir [10]. Sonrakı illərdə də, bu dinamikada əhəmiyyətli dəyişiklik baş verməmişdir və heyvandarlığın payı yüksək səviyyədə qalmışdır. 2014-2019-cu illər arasında bitkiçilik məhsullarının payı müəyyən qədər artsa da, bizim hesablamalara görə 2019-cu ildə heyvandarlığın payı ən yüksək həddə çataraq aqrar sahədə yığılan sığorta haqlarının 88,71%-nə çatmışdır. Sahələr arasında belə disproporsiya sığorta ödənişlərində də öz əksini tapmışdır. Bu illər ərzində ümumi tendensiya ondan ibarət olmuşdur ki, baş vermiş hadisələrə görə sığorta ödənişləri göstərilən illər üzrə heyvandarlıqda artaraq 2019-cu ildə demək olar ki, 100%-ə çatmış, bitkiçilikdə isə sıfırlanmışdır [5].

Aqrar sığorta bazarında bitkiçilik və heyvandarlıq istiqamətlərində yığılan sığorta haqları arasında belə kənarlaşmanın iki səbəbi olmuşdur. Birinci səbəbi ondan ibarətdir ki, heyvandarlıqla müqayisədə bitkiçilik məhsulları təbii hadisələrin təsirinə daha çox məruz qalır və müvafiq olaraq risklərin səviyyəsini də artırır. Tarixən məlumdur ki, sığorta şirkətləri daha az riskli sahələri "sevirlər" və riskləri təminata götürdükdə bu sahələrə daha çox üstünlük verirlər. İkinci səbəbi isə heyvandarlıqda lizinqin geniş yayılmasıdır. Belə ki, Azərbaycanda heyvandarlığı stimullaşdırmaq məqsədi ilə cins heyvanların lizinq yolu ilə güzəştli satışı həyata keçirilir. Məlumdur ki, lizinq də kredit əməliyyatları kimi əmlakın sığortalanmasını tələb edir. Cins heyvanlar da əmlak olduqları və güzəştli şərtlərlə satıldığı üçün hökmən satış şirkəti tərəfindən əmlakın sığortalanmasını məcburi hala çevirirdi və hazırda da çevirir.

Sığorta şirkətlərinin aqrar sığorta bazarının inkişafında maraqlı olmamaqları ilə yanaşı, kənd təsərrüfatı məhsul istehsalçılarının da bu bazara olan etimadsızlığı onun inkişafına mənfi təsir göstərməyə bilməzdi. Kənd təsərrüffatı məhsul istehsalçılarının sığorta şirkətlərinə olan etimadsızlığını müəyyən səbəblərlə izah etmək olar:

- ilk növbədə müqavilələrin bağlanmasında bürokratik əngəllərin mövcud olması və sığorta şərtlərinin sərt xarakteri;
- risklərin qiymətləndirilməsinin müstəqil ekspert tərəfindən deyil, sığorta şirkətinin nümayəndəsi tərəfindən aparılması;

- sığorta ödənişlərinin qarşısında suni əngəllərin yaradılması;
- tarif dərəcələrinin cəlbediciliyinin aşağı olması;
- sığortanın mahiyyəti və üstünlüyü haqqında maarifləndirmənin zəif olması.

Nəticədə aqrar sığorta bazarı ölkənin ümumi sığorta bazarının zəif həlqəsinə çevrilmişdir. Bu hal aqrar sığorta bazarının ümumi sığorta bazarının payında da öz təzahürünü göstərmişdir. Təsadüfi deyil ki, 2019-cu ildə heyvandarlıqda yığılan sığorta haqqı ölkə üzrə yığılan ümumi sığorta haqlarının payında 0,2%, bitkiçilikdə isə cəmi 0,03% təşkil etmişdir. Belə vəziyyət, həm də sığorta ödənişlərində özünü biruzə vermişdir. Belə ki, əgər ölkə üzrə ümumi sığorta ödənişlərinin həcmi yığılan sığorta haqlarında 44,3% təşkil etmişdirsə, aqrar sahədə bu rəqəm 0,3%-ə bərabər olmuşdur [5].

Apardığımız analitik və statistik təhlildən belə nəticə çıxartmaq olar ki, 2020-ci ilə kimi davam etmiş sığorta bazarının ilkin mərhələsi inkişaf imkanları tapmayaraq tənəzzülə uğramışdır. Bu tənəzzülün baş verməsində yuxarıda sadalanan və təhlil olunan səbəblərlə yanaşı onların aradan qaldırılması dövlətin zəif müdaxiləsi ilə izah olunur. Deməli, bu ilkin mərhələni biz aqrar sığorta bazarının dövlət tərəfindən tənzimlənməsinin passiv dövrü kimi də qələmə verə bilərik. Bu vəziyyətdən çıxış yolu aqrar sığorta bazarının tənzimlənməsində dövlətin rolunun passiv formadan aktiv formaya çevrilməsi idi. Bu proses 2019-cu ildə "Azərbaycanda Aqrar Sığorta haqqında" qanunun qəbul edilməsi və Aqrar Sığorta Fondunun yaradılması ilə başlanmışdır. Bundan sonrakı dövrü biz aqrar sığorta bazarının formalaşmasının ikinci mərhələsi də adlandıra bilərik.

**Aqrar sığorta bazarının yaranmasının ikinci mərhələsi: dövlətin aktiv iştirakı**

İkinci mərhələdə qəbul olunmuş qanuna müvafiq olaraq aqrar sığorta bazarının əsas obyektləri və subyektləri konkret şəkildə ifadə olunmuş və bu bazarın tənzimlənməsində dövlətin əsas vəzifələri müəyyən edilmişdir. Eyni zamanda, aqrar sığorta bazarının tənzimlənməsi məqsədi ilə xüsusi yaradılmış Aqrar Sığorta Fondu sığorta şərtlərini müəyyənləşdirən, həyata keçirən və sığorta bazarının işləmə mexanizmini təşkil edən qeyri-kommersiya təşkilatıdır. Sığorta şərtlərinə görə sığorta haqlarının 50%-i dövlət büdcəsi vəsaiti hesabına subsidiyalaşdırılır [3]. Xüsusi ilə qeyd edək ki, yeni qanuna əsasən tətbiq edilən sığorta modeli Türkiyənin TARSİM modelinin təcrübəsinə əsaslanaraq dövlət və özəl tərəfdaşlığını nəzərdə tutur. Qanuna əsasən 41 adda bitkiçilik məhsulları, 19 adda isə meyvə məhsulları risklərdən təminata götürülür. Heyvandarlıqda isə 3 yaşa qədər ətlik mal-qara, 7 yaşa qədər südlük mal-qara və 5 yaşa qədər xırdabuynuzlu heyvanların sığortalanmasını əhatə edir [4].

Yeni qəbul edilmiş sığorta modelinin aşağıdakı üstünlüklərini xüsusi vurğulamaq olar:

- aqrar sığorta bazarın tənzimlənməsində dövlətin passiv rolunun aktiv rola çevrilməsi və onun aqrar sığorta bazarının inkişafında aparıcı rola malik olması;
- sığorta haqlarının 50%-nin subsidiyalaşdırılması və Aqrar Sığorta Fondunun qeyri-kommersiya xarakteri daşıması;
- azgəlirli təsərrüfatların aqrar sığorta bazarında iştirakının təmin edilməsi;
- müstəqil ekspertlərin risklərin qiymətləndirilməsinə cəlb edilməsi və müvafiq olaraq onun şəffaflığının təmin edilməsi;
- risklərin qiymətləndirilməsində çevikliyin və vaxtın qısaldılması;
- baş vermiş təbii hadisələrə görə ödənişlərin vaxtının konkret müəyyənləşdirilməsi;
- iqtisadi rayonlarda coğrafi iqlim şəraitindən asılı olaraq risklərin səviyyəsinə uyğun tarif dərəcəsinin diferensiallaşdırılması;
- müxtəlif güzəştlərin tətbiqi;
- apelyasiya şurasının yaradılması.

Əlbəttə, Türkiyə təcrübəsinə əsaslanan modelin yaradılması və bu bazarın tənzimlənməsində dövlətin aktiv iştirakı aqrar sığorta bazarının inkişafında yeni mərhələyə keçməsinin əsas şərtlərindən biridir. Son illərdə aqrar sığorta bazarının fəaliyyətinin statistik təhlili də bu fikri təsdiqləyir. Ən əsası isə odur ki, yeni model 2020-ci ildən başlayaraq bu sahədə əhəmiyyətli dönüş yaratmışdır. Xüsusilə də, bu dönüş bitkiçilik və heyvandarlıq məhsullarının sığorta haqlarının yığılmasında və ödənişlərinin aparılmasında baş vermişdir. Belə ki, artıq 2021-ci ildə yığılan sığorta haqlarına görə bitkiçilik sahəsi heyvandarlıq sahəsinə bərabərləşdi, 2022-ci ildə isə üstələmə müşahidə

olunmağa başlandı. 2022-ci ildə bitkiçilik sahəsində yığılan sığorta haqlarının payı ümumi aqrar sığorta haqlarının payında 62,2%, heyvandarlıqda isə 37,8% təşkil etmişdir. Eyni tendensiya sığorta ödənişlərində də müşahidə olunmaqdadır. Baxmayaraq ki, sığorta ödənişlərinin ümumi məbləğində hələ də heyvandarlıq məhsulları üstünlük təşkil edir, lakin, onlar arasında fərq getdikcə azalmaqdadır. 2022-ci ildə yığılan sığorta haqlarının 18,2%-i bitkiçilik sahəsində baş vermiş təbii hadisələrə görə, 19,3%-i isə heyvandarlıqda sığorta hadisələrinə görə ödənişlər edilmişdir. Ümumi tendensiya isə ondan ibarətdir ki, artıq 2022-ci ildə 2020-ci illə müqayisədə sığorta hadisələrinə görə ödənişlərdə heyvandarlığın payı 39% azalmış, bitkiçliyin payı isə 61% artmışdır.

Aqrar sığorta bazarında köklü dönüşün yaranmasında əsas məqamlardan biri də odur ki, bu bazarın ümumi sığorta bazarında da payı dəfələrlə artaraq 2022-ci ildə 1,53%-ə çatmışdır. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2019-cu ildə cəmisi 0,23% təşkil edirdi [5]. Əbəttə, təhlil etdiyimiz üç ilin göstəriciləri onun nə qədər uğurlu olması haqqında tam məlumat vermir. Çünki, zəif inkişaf etmiş bazarın stimullaşdırılması nəticəsində ilkin illərdə müvafiq göstəricilərin baza dövrü ilə müqayisədə yüksək artım tempi müşahidə oluna bilər. Onun növbəti illərdəki göstəriciləri isə hələlik məlum deyil. Türkiyə təcrübəsi göstərir ki, aqrar sığorta bazarı o zaman inkişaf edir ki, risklərə daha çox məruz qalan bitkiçilik sahəsi bütün sığorta göstəriciləri üzrə (sığorta haqları və ödənişlər) daha az riskli olan heyvandarlıq sahəsini üstələsin. Bu baxımdan Türkiyəni misal kimi gətirsək görərik ki, bitkiçlik sahəsində yığılan sığorta haqlarının payı 2021-ci ildə ümumi yığılan sığorta haqlarında 85,3%-ə qədər qalxmışdır. Sığorta ödənişlərində isə bu göstərici ümumi yığılan sığorta haqlarının 72%-ni təşkil etmişdir [9]. Rəqəmlərdən göründüyü kimi, aqrar sığorta bazarının inkişafı ilk növbədə bitkiçilik sahəsi ilə birbaşa əlaqəlidir. Dünya təcrübəsi də bu fikri təsdiq edir. Belə ki, dünya üzrə aqrar sığorta haqlarında bitkiçlik məhsullarının payı 90%-ə bərabərdir. Digər sahələr isə, heyvandarlıq da daxil olmaqla akvakultura, meşəçilik və istixanalar cəmisi ümumi yığılan sığorta haqlarının ancaq 10%-ni təşkil edir [11].

Amma, onu da qeyd edək ki, Azərbaycanın aqrar sığorta bazarının inkişafı üçün böyük potensiallar mövcuddur. Hazırda ölkəmizdə əkinə yararlı sahələrin ümumi miqdarı 4780,6 min hektara qədərdir [1]. Aqrar Sığorta Fondunun 2022-ci il statistik məlumatlarına əsasən sığortalanmış əkin sahəsinin həcmi 261223 hektar təşkil edir [2]. Bu da, ümumi əkin sahəsinin cəmi 5,5 %-ni təşkil edir. Müvafiq vəziyyət heyvandarlıq üçün də xarakterikdir. Kənd təsərrüfatı müəssisələri və fərdi sahibkarların balansında olan iribuynuzlu mal-qaranın sayı 2648,8 min baş, qoyun və keçilərin sayı isə 7899,7 min başdır [1]. Sığortalanmış heyvanların ümumi sayı isə cəmi 13102 başdır [2]. Bu da, ümumi sığortalanan heyvanların cəmi 0,12% -ni təşkil edir.

Beləliklə, rəqəmlərdən göründüyü kimi aqrar sığorta bazarının ikinci mərhələsi çox uğurla başlamışdır və bu istiqamətdə əhəmiyyətli addımlar atılmışdır. Ən əsas addım isə ondan ibarətdir ki, dövlət aqrar sığorta bazarının tənzimlənməsinin əsas aparıcı qüvvəsinə və aktiv iştirakçısına çevrilmişdir. Aqrar sığorta bazarının belə inkişafı ilk növbədə kənd təsərrüfatı məhsul istehsalçılarının gəlirlərinin sabitləşməsinə, investisiya imkanlarının artmasına və son nəticədə kənd təsərrüfatının ümumilikdə inkişafında mühüm rol oynayacaqdır. Onu da qeyd edək ki, bu sahənin inkişafı bütün dünyada müsbət trend xarakteri daşıyır və ümumi qanunauyğunluqdur. Aqrar sığorta bazarının inkişafı eyni zamanda müasir dünyada baş vermiş iqlim dəyişiklikləri mühitində öz dəyərini dəfələrlə artırır. Eyni zamanda, hər bir ölkənin strateji məqsədlərindən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi isə aqrar sahənin inkişafından və bu sahədə risklərin effektiv idarəedilməsi ilə bilavasitə qarşılıqlı əlaqədədir. Azərbaycanın aqrar sahəsinin böyük potensialı olmasına baxmayaraq, hələ ki aqrar sığorta bazarının yarandığı ikinci mərhələdə bu potensialdan tam istifadə olunmur. Amma, ümumi trend ondan ibarətdir ki, aqrar sığorta bazarı sürətli şəkildə genişlənməkdədir. Bu potensialın reallaşması sürəti ərzaq təhlükəsizliyinin təmin edilməsində ən əhəmiyyətli addımlardan biri ola bilər.

**Nəticə**

Azərbaycanın aqrar sahəsində sığorta bazarının formalaşmasının tarixi inkişaf mərhələlərinin öyrənilməsi əsasında ümumiləşdirilmiş formada qısa nəticələr çıxarda bilərik:

- aqrar sığorta bazarının formalaşması müəyyən zaman kəsiyində baş vermiş və onun təməli müstəqillik dövrünün əvvəllərində qoyulmuşdur.
- aqrar sığorta bazarının yaranmasının əsas səbəbi məruz qaldığı təbii hadisələr nəticəsində dəymiş itkilərdən fermerlərin müdafiə edilməsi və gəlirlərinin sabitləşdirilməsidir.
- Azərbaycanda formalaşmış müasir sığorta bazarının yaranmasını şərti olaraq iki mərhələyə bölmək olar. Birinci mərhələ 2000-ci illərin əvvəllərindən başlamış və 2019-cu ilə qədər davam etmişdir. Bu mərhələdə sığorta bazarında müəyyən uğurlar qazanılsa da, son nəticədə uğursuzluqla nəticələnmişdir. Bunun əsas səbəbi bazarın tənzimlənməsində dövlətin iştirakının passiv xarakteri və bazarın tam özəl şirkətlərin ixtiyarına verilməsidir. İkinci mərhələ 2020-ci ildən başlamış və hazırda davam etməkdədir. Qeyd edək ki, ikinci mərhələdə dövlətin bazarın tənzimlənməsində və sığorta şərtlərinin müəyyənləşdirilməsində aktiv rolu onun qısa müddətdə sürətlə genişlənməsinin və inkişafının təməl daşına çevrilmişdir.
- Aqrar sığorta bazarının qısa müddətdə bitkiçilik və heyvandarlıqda mövcud vəziyyəti qənaətbəxş hesab edilsə də, lakin, bu sahənin bütöv potensial imkanlarından tam istifadə edilməmişdir. Amma, nəzərə almaq lazımdır ki, aqrar sığorta bazarı Azərbaycanda yenidir və aqrar sahəni tam əhatə etməsinə müəyyən zaman tələb olunur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. Bakı. 2022. s. 53
2. Aqrar Sığorta Fondunun statistik məlumatları www.asf.gov.az
3. Aqrar sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. 27 iyun 2019-cu il
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 dekabr tarixli 505 nömrəli Qərarı ilə təsdiq edilmiş “Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi”ndə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. 21 dekabr 2021-ci il. 397 saylı qərar.
5. Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik məlumatları. https://www.cbar.az/page-189/insurance
6. C.F.Cəfərov. Aqrar risklərin nəzəri əsasları və idarəedilməsində sığorta amili. ADAU-nun Elmi Əsərləri. 2023. s.40-46
7. Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında Azərbaycan Respublikasının qanunu. 18 iyun 2002 Bakı. https://e-qanun.az/framework/1124
8. M.M.Sadıqov, M.C.Hüseynov, H.H.Həsənov. Kənd təsərrüfatının maliyyəsi. Gəncə. ADAU. 2012. s.151
9. TARSİM 2021 Faaliyet Raporu, s.20
10. Гусейнов М.Дж, Салахов Э.А. Основные проблемы финансовой обеспеченности аграрной сферы. Финансовый вестник . 2 (33). Воронеж. 2016.стр.55
11. Atlas magazine «Agriculture insurance: products and schemes». 2018. https://www.atlas-mag.net/en/article/agricultural-insurance-products-and-schemes

**Джафар Фирдовси оглы ДЖАФАРОВ**
Диссертант кафедры «Финансы и экономическая теория»
Азербайджанского Государственного Аграрного Университета
E-mail: jafar.jafarov@adau.edu.az

# ЭТАПЫ СТАНОВЛЕНИЯ РЫНКА СЕЛЬСКОХОЗЯЙСТВЕННОГО СТРАХОВАНИЯ В ПЕРИОД НЕЗАВИСИМОСТИ

**Резюме**

Эффективный механизм страхования, покрывающий природные риски, не только распределяет их между производителями сельскохозяйственной продукции, но и направляет развитие сельского хозяйства. Целью исследования, проведенного в статье, является изучение этапов и принципов формирования страхового рынка в аграрной сфере Азербайджана, роли государства в этом процессе.Методология исследования основана на изучении опыта мирового рынка сельскохозяйственного страхования, в первую очередь, сущности турецкой модели TARSIM и методов ее применения в Азербайджане. В то же время на базе статистических данных была детально проанализирована страховая модель, применяемая в Азербайджане. Научная значимость исследования этапов становления рынка сельскохозяйственного страхования, проведенного в статье, выдвинутые идеи могут быть использованы в совершенствовании этого рынка. Научная новизна статьи заключается в том, что впервые подробно исследованы этапы становления рынка сельскохозяйственного страхования в Азербайджане, различия между этими этапами, преимущества и недостатки каждого этапа. В то же время были отчетливо выявлены имеющиеся потенциалы в процессе развития данной сферы.

**Ключевые слова:** сельскохозяйственное страхование, риски агробизнеса, модель страхования, государственное регулирование, управление рисками.

**Jafar Firdovsi JAFAROV**
Ph.D candidate of Finance and economic theory department of
the Azerbaijan State Agricultural University
E-mail: jafar.jafarov@adau.edu.az

# ESTABLISHMENT STAGES OF THE AGRICULTURAL INSURANCE MARKET DURING THE PERIOD OF INDEPENDENCE

**Summary**

An effective insurance mechanism that covers natural risks not only distributes the risks of agricultural producers among them, but also directs the development of agriculture. The goal of the research presented in this article is to investigate the stages and principles of insurance market creation in Azerbaijan's agrarian area, as well as the involvement of the state in this process. The research approach is based on a review of the global agriculture insurance market's experience, namely the substance of Turkey's TARSIM model and its implementation techniques in Azerbaijan. Simultaneously, the insurance model used in Azerbaijan was thoroughly examined in a statistical data database. Numerous recommendations of scientific value from the article's analysis of the stages of the establishment of the agricultural insurance market can be applied to improve this market. The scientific novelty of the article is that, for the first time, a detailed study of the stages of the creation of the agricultural insurance market in Azerbaijan, the difference between these stages, and the advantages and disadvantages of each stage was conducted. At the same time, the existing potentials in the process of development of this field have been clearly revealed.

**Keywords:** agriculture insurance, agribusiness risks, insurance model, state regulation, risk management

**Raibə Məmmədbağır qızı CƏFƏROVA, i.f.d., dos.**

**Fərid Bayram oğlu MUSAYEV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: feridmusayev483@gmail.com

# MENECMENTİN FORMALAŞMASI VƏ İNKİŞAFINA NƏZƏRİ METODOLOJİ YANAŞMA

**Xülasə**

İdarəetmənin çox qədim olmasına baxmayaraq, o bir elm, təsərrüfatçılıq və tədqiqat sahəsi kimi nisbətən yenidir. Menecment sərbəst elm və fəaliyyət sahəsi kimi XX əsrin əvvəllərində özünü təsdiq etmişdir.

**Tədqiqatın məqsədi** – nəzərdə tutulan qədər mənfəət əldə etmək üçün, firmanın fəaliyyətini bazarın tələb və təklifini, həmçinin konkret istehlakçının tələbatını ödəyə biləcək əmtəələrin istehsalına yönəltmək;

**Tədqiqatın nəticələri**– idarəetmə əməkdaşlarının əməyinin səmərəsini yüksəltmək məqsədilə onun avtomatlaşdırılması və mexanikləşdirilməsi səviyyəsini yüksəltmək;

**Tədqiqatın metodologiyası**- “Metod” yunan sözü olub, “üsul” deməkdir. Bütün elmlərdə olduğu kimi idarəetmə elminin də metodları vardır.

**Açar sözlər :** maliyyə, idarəetmə , menecment , sərmayə, şirkət, qiymətli kağızlar, bank əmanətləri, kredit.

**JEL**: F 43

## Giriş

Menecmentin inkişafı və onun əsas inkisaf mərhələləri.

“Menecment” sözü ingilisdilli ölkələrdə geniş şəkildə istifadə olunur və fərqli mənalarda işlədilir. Fərqli mənalarda istifadə edilməsinə baxmayaraq bu terminin ən sıx istifadəsinə insan fəaliyyətinin, başqa sözlə, işgüzar fəaliyyətin idarə edilməsində rast gəlinir.

Termin olaraq “menecment” sözü ingilis və ya latın sözlərindən əmələ gəmişdir. İngilis dilində bu “management”, yəni idarəetmə, rəhbərlik mənasını verən və ya “to manage”- idarə etmək deməkdir, latınca isə “manus”- əl mənasını verir. Hal-hazırda menecment dedikdə daha çox rəhbərlik etmək, təsərrüfat fəaliyyətində qərarların qəbulu məsələlərini əhatə edən ifadə kimi başa düşülür [1].

İşgüzar təşkilatların formalaşması və inkişaf strategiyaları.

XXI əsrdə baş verən hadisələr, cəmiyyətlərin ə sosial-idtisadi, ictimai və s. sahələrdə bir-birinə yaxınlaşması dünyada qloballaşma meyillərini artırmışdır. Bu artım və digər amillərin təsiri nəticəsində cəmiyyətin inkişafı sürətli xarakter almışdır ki, bu da həmin cəmiyyətlərdə olan fərdlərin öz ideya və fikirlərini təqdim etmələrində geniş imkanlar meydana gətirmişdir. Fikir və ideyaların çoxluğu və əlçatanlığı özəl sektorun inkişafına güclü təkan verərək işgüzar təşkilatların, o cümlədən iri korporasiya, transmilli bank və təşkilatlar, maliyyə-sənaye qrupları və s. oxşar biznes təşkilatlarının sayca çoxalmasına gətirib çıxarmışdır.

Araşdırmalar göstərir ki, dünyada qloballaşma meyillərinin artması və bazar iqtisadiyyatına keçidlə bağlı iqtisadiyyatda hal-hazırda təsərrüfat fəaliyyəti üç əsas subyekt tərəfindən həyata keçirilir və bu subyektlər iqtisadi proseslərin aktiv iştirakçıları kimi xarakterizə edilir ki, bu subyektlərə də aşağıdakıları şamil etmək olar [2]:

- Məhsul istehsalçıları. Məhsul istehsalçıları bazarda əmtəə və xidmətlərin təklifini xarakterizə edən mühüm subyektlər kimi çıxış edir, əmtəə istehsalı və xidmətlərin göstərilməsini özündə əks etdirir. Artıq dünya bazarı səviyyəsində məhsul istehsalını həyata keçirən təsərrüfat subyektləri kimi mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, hər bir müəssisə, təsərrüfat subyekti, işgüzar təşkilatları və s. şamil etmək olar.
- İstehlakçılar. İstehlakçılar, bir qayda olaraq, bazarda yaranan son iqtisadi məhsulun istifadəçisi

kimi çıxış edir. Ümumiyyətlə, bütövlükdə götürdükdə, istehsal fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektləri əhalinin ev təsərrüfatlarının maddi, mənəvi və informasiya ehtiyaclarının ödənilməsi məqsədilə məhsul istehsal edirlər.

Səmərəliliyə birbaşa təsir edən amillərə məhsulun kəmiyyət və keyfiyyəti, istehsal bazasının səviyyəsi, mövcud texnologiyanın uyğunluğu, xammal və materiallardan istifadə imkanları daxildir. Bilvasitə təsir göstərən amillərə isə daha çox menecmentlə əlaqəli, yəni insan amili, istehsalın təşkili, iş üsulları, idarəetmə qaydalarını və s. aid etmək olar. Təbiidir ki, bacarıqlı və ixtisaslı işçilərin məhsuldarlığı və istehsal etdiyi məhsulun keyfiyyəti yüksək olduğundan yüksək istehlak dəyərinə də malik olur. Menecmentin düzgün təşkili təşkilatın bütün istehsal bazasından, əmək və pul ehtiyatlarından səmərəli istifadə olunmasının əsas şərtlərindən hesab edilir. Tətbiq edilən iş üsulları mütərəqqi texnoloji prinsiplərə uyğun gəlməlidir. Nəhayət, idarəetmə amilləri məhsul istehsalı, istifadə olunması, bazar münasibətlərinin uyğunlaşdırılması, istehsalın səmərəliliyini şərtləndirən daxili və xarici amillərin tarazlaşdırılmış ahəngdarlığının təmin edilməsində mühüm rol oynayır.

Səmərəliliyə təsir edən xarici amilləri üç növə bölmək olar:

- quruluş islahatları
- təbii sərvətlər
- hökumət və infrastruktur amilləri [2]:

Quruluş islahatları əsasən iki qrupa bölünür: a) iqtisadi islahatlar, b) sosial və demoqrafik dəyişikliklər.

Təbii sərvətlər torpaq, əmək (işçi qüvvəsi), enerji, xammal və material ehtiyatlarının mövcudluğu baxımından təsnifləşdirilir.

Torpağın tərkibi və keyfiyyəti məhsul istehsalının həcminə və çəkilən xərclərin səviyyəsinə bilavasitə təsir göstərir. Əmək ehtiyatlarının mövcudluğu, onların peşəkarlıq və təhsil səviyyəsindən asılı olaraq sahibkarın işçilərinin keyfiyyət xüsusiyyətləri müəyyənləşdirilir. Enerji təminatının səviyyəsindən asılı olaraq istehsalın təşkili imkanları üzə çıxır. Xammal və material ehtiyatlarının zənginliyindən asılı olaraq istehsal xərclərinin dəyişmə meyilləri təzahür olunur. Bazar sferasında xammal və material bolluğu qiymətlərə bilavasitə təsir göstərməklə sahibkarın aralıq istehlak xərclərini azaltmaqla təşkilatın iqtisadi səmərəliliyinin yüksəldilməsinə bilavasitə şərait yaradır.

Hökumət və infrastruktur amillərinə dövlətin daxili və xarici iqtisadi siyasəti, iqtisadi qanunvericilik paketi, idarəetmə qurumları, infrastrukturlar və s. daxil edilir.

Hökumətin həyata keçirdiyi iqtisadi siyasət, strateji məqsədlərin icrası və ümummilli proqramların həyata keçirilməsi işgüzar fəaliyyətin nəticələrinin səmərəliliyinə böyük təsir göstərir. Qiymətlərə nəzarət, istehsalın tənzimlənməsi, vergi siyasəti, pul-kredit siyasəti, xarici iqtisadi əlaqələrin qurulması və tənzimlənməsi, gəlir və əmək haqqının səviyyəsinin tənzimlənməsi və s. iqtisadi metodların tənzimləyicisi funksiyalarını dövlət və dövlət orqanları həyata keçirirlər.

- Dövlət. Dövlət, bir qayda olaraq, ölkənin milli iqtisadi təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri tədbirlər həyata keçirir, iqtisadiyyatın hüquqi, iqtisadi və inzibati vasitələrlə tənzimlənməsini təmin edir. Bundan əlavə, əksər dövlətlərin praktikasında dövlət resurslarının yenidən bölüşdürülməsi ilə bağlı fəaliyyət həyata keçirir.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi, qeyd olunan məqsədlərlə yanaşı, eyni zamanda, yerli əmtəə istehsalçılarının gəlirlərinə yardım göstərməkdən, əhalisinin həyat şəraitini yaxşılaşdırmaqdan və bütövlükdə iqtisadiyyatın ayrı-ayrı sahələrinin tarazlı inkişafını təmin etməkdən ibarət olur. Bununla belə, qeyd etmək lazımdır ki, iqtisadiyyatın dövlət tənzimlənməsinə istiqamətlənmiş tədbirlər təkcə istehsal, mübadilə və istehlak sferasında baş verən iqtisadi münasibətlərin tənzimlənməsinə deyil, daha geniş və çoxşaxəli problemlərin həllinə istiqamətlənir. Qeyd etmək lazımdır ki, yerli istehsalı təkcə məhsul istehsalını həyata keçirən bir sistem kimi ümumiləşdirmək düzgün olmazdı. Beləliklə, yerli istehsal, bütövlükdə ölkədə çoxfunksiyalılığın qorunub saxlanılması, ekoloji tarazlığın təmin edilməsi və digər alternativ məşğulluğun təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir və bu prosesin dövlət tərəfindən davamlı şəkildə diqqətdə saxlanılması, bütövlükdə milli təhlükəsizliyin təmin edilməsinin başlıca ilkin şərti kimi çıxış edir.

Qeyd etmək yerinə düşər ki, müasir dövrdə hər bir ölkənin iqtisadi gücü həmin ölkədə fəaliyyət göstərən işgüzar təşkilatların sayı və iqtisadi potensialından asılıdır. İşgüzar təşkilatların sayı artdıqca, onların iqtisadi imkanları genişlədikcə, ölkənin də iqtisadi gücü paralel olaraq yüksəlir və nəticədə əhalinin yaşayış səviyyəsi yaxşılaşaraq

onların sosial müdafiəsi təmin olunur. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, əhalinin yaşayış səviyyəsinin yüksəlməsində işgüzar təşkilatlarla yanaşı həmkarlar ittifaqlarının da rolu böyükdür. Bu ittifaqlar sayəsində bir tərəfdən işləyənlərin hüquqları müdafiə olunursa, digər tərəfdən də bazar iqtisadiyyatının səmərəli fəaliyyət göstərməsinə şərat yaradır. Belə ki, əhalinin gəlirlərinin işgüzar təşkilatlarının iqtisadi maraqlarının pozulmaması səviyyəsində artımı son nəticədə ölkənin alıcılıq qabiliyyətinin yüksəlməsinə gətirib çıxarır və nəticədə həm yeni işgüzar təkilatların yaranması, həm də mövcud olanların genişlənməsi baş verir.

Araşdırmalarımız göstərir ki, işgüzar təşkilatların formalaşması onların ölkənin iqtisadi inkişafında lokomotiv rolunda çıxış etməsinə gətirib çıxarır. Xarici təcrübədə işgüzar təşkilatların ölkə iqtisadiyyatında böyük mövqeyə və müəyyən hegemoniyaya sahib olduqları müşahidə olunur. Qeyd edək ki, həmin ölkələrdə belə təşkilatlrın hegemonluğu təbii proses kimi qəbul olunur və qanun çərçivəsində tənzimləndiyi təqdirdə ölkənin güclü maliyyə mənbəyinə çevrilə bilərlər. İşgüzar təşkilatlar ilk təəssüratda iri inhisarçı kimi görünsələr də, əslində isə tam belə deyil. Çünki, onlar bir çox xırda şirkəti bazardan çıxarmaq yerinə onları öz fəaliyyət dairələrinə salmağa daha çox maraqlı olurlar. Düzdür, rəqabətə davam gətirməyən bir çox xırda müəssisə sıradan çıxır, lakin rəqabətə davam gətirənlər daha da güclənirlər və bu güclənmənin arxasında işgüzar təşkilatlarla əməkdaşlığın olması dayanır.

Hal-hazırkı şəraitdə insan resurslarının idarə olunması məsələsi ölkəmizdə də aktual məsələ kimi çıxış edir. Çünki, digər ölkələrdə olduğu kimi biz də istəyirik ki, ölkənin insan resurslarından daha səmərəli istifadə olunsun, habelə istər bütövlükdə cəmiyyətin, istərsə də onun hər bir fərdinin ayrı-ayrılıqda mənafeyi qorunmaqla yaşayış səviyyəsinin yüksəldilməsinə nail olunsun. Buna isə, ancaq ölkənin kadr potensialının yüksəldilməsi yolu ilə nail olmaq mümükündür. Başqa sözlə, ölkənin kadr potensialını artırmadan, əhalinin peşə hazırlığını beynəlxalq standartlara cavab verən səviyyəyə çatdırmadan, qabaqcıl idarətmə metodlarından istifadəni təmin etmədən, insan resurslarından səmərəli istifadə olunması mümkün deyil.

Son illərdə ölkənin kadr hazırlığı məsələləri öz aktuallığını daha da artırmışdır. Bu istiqamətdə bir çox müsbət addımların atıldığını, dövlət proqramlarının həyata keçirildiyini görmək mümkündür. Bunlardan biri kimi istedadlı kadrların seçilməsi, inkişaf etdirilməsi üzrə "Yüksəliş" müsabiqəsini vurğulamaq olar. 2019-cu ildə qəbul olunan "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı əsasında həyata keçirilən proqram sayəsində ölkənin rəhbər şəxslərinin yüksək idarəçilik qabiliyyətlərinin və intellektual səviyyələrinin müəyyən edilməsi və dəstəklənməsi nəzərdə tutulur. Bundan başqa, proqram ölkənin kadr ehtiyatı bankının yaradılmasında da müsbət rol oynayacaqdır.

Umumiyyətlə, menecment anlayışının izahına gəldikdə, bu istiqamətdə fərqli mülahizələrə rast gəlmək mümkündür. Məsələn, ingilis iqtisadçısı U.Lindell və amerikalı iqtisadçı P.Druker hesab edirlər ki, "menecment" termininin mürəkkəb olması onun izahını çətinləşdirir. Belə ki, müasir menecment mütəxəssisləri hesab edirlər ki, menecment və onun prinsip və metodları minimum xərclərlə maksimum səviyyədə öz məqsədlərinə nail olmaq istəyən istər dövlət, istərsə də, təşkilatlar üçün əsas vasitədir. Lakin, bu fikir Amerikada istifadə olunan menecment anlayışından çox uzaqdadır. Çünki, Amerikada "menecment" və ya "menecer" dedikdə yalnız biznes sahəsində fəaliyyət başa düşülür və kənar sahələrdə bu termin işlədilmir.

İdarəetmə məktəbləri menecmentə 5 fərqli mövqedən yanaşırlar. Bu məktəblərə aşağıdakılar aid olunur:

- elmi menecment məktəbi;
- inzibati məktəb;
- insan münasibətləri məktəbi;
- davranış haqqında elmi məktəb;
- kəmiyyət metodları məktəbi.

Prosesli yanaşmada idarəetmə funksiyalarının fasiləsiz olaraq ardıcıl olmasını nəzərdə tutur. Bu funksional ardıcılllığın aşağıda göstərildiyi kimi gözlənilməsi vacibdir:

Planlaşdirma→ təşkiletmə → motivasiya → nəzarət → marketinq

Sistemli yanaşmada ayrı-ayrı elementlərin, o cümlədən daxili və xarici amillərin bir-birilə qarşılıqlı əlaqədə olması başa düşülür.

Situasiyalı yanaşmada isə idarəetmədə situasiyadan asılı olaraq müxtəlif metodlardan istifadəni, yaranmış vəziyyətə uyğun qaydaların qəbulunu nəzərdə tutur. Çünki hər bir situasiya öz unikallığı

ilə fərqlənir və bunu ümumi qəbul olunmuş üsul və qayda ilə idarə etmək hər zaman yaxşı nəticələr verməyə bilər. Bu baxımdan konkret situasiyaya uyğun konkret metod tətbiq olunması daha səmərəli hesab olunur. Lakin onu da qeyd etməliyik ki, situasiyalar qarşısında rəhbərin önəmi böyükdür, onun peşəkarlığı, intuisiyası, şəxsi keyfiyyətləri və s. xüsusi rol oynayır. İnvestisiyaların geri qaytarılması müddətini hesablamaq üçün ilə görə maliyyə axınına investisiya qoyuluşunun miqdarını bölmək lazımdır. Məsələn, şirkətə 1 milyon rubl investisiya qoyulubsa və çıxışda 500 min rubl məbləğində pul alırıq, geri ödəmə müddəti isə iki ilə bərabərdir.

İqtisadi nəzəriyyəyə görə işgüzar fəaliyyətin iqtisadi səmərəliliyi, iqtisadi kateqoriya olmaqla məhsul və xidmətlər istehsalı prosesinin nəticə meyarıdır və öz əksini səmərəliliyin statistika göstəriciləri məcmusunda tapır[8].

Səmərəlilik kimi mürəkkəb bir kateqoriyanı tədqiq etmək üçün istehsalın səmərəliliyi statistikasının göstəriciləri sistemindən istifadə olunur.

Statistikada istehsalın iqtisadi səmərəliliyinin mütləq (ümumiləşdirici ) və nisbi (müqayisəli) göstəriciləri bir-birindən fərqləndirilir.

Müxtəlif məqsədlər üçün hesablanmalarına baxmayaraq, həm ümumi, həm də müqayisəli səmərəlilik sərf olunan məsrəflərə görə əldə edilən səmərənin nisbi kəmiyyətini göstərir.

Ümumi (mütləq) iqtisadi səmərəlilik bir neçə göstərici ilə xarakterizə oluna bilər ki, onlardan hər biri müəyyən maddi istehsal sferasında bu və ya digər məsrəflərin səmərəliliyini qiymətləndirmək (hesablamaq) üçün istifadə olunur. Həmin göstəricilər sisteminin başında ümumiləşdirici inteqral göstərici durur. Onun təyinatı bütövlükdə iqtisadiyyat üzrə səmərəliliyin ümumi nail olunmuş səviyyəsini miqdarca əks etdirməkdən ibarətdir. Həmin göstəricinin dinamikada tədqiqi istehsalın səmərəliliyinin dəyişməsinin əsas qanunauyğunluğunu aşkar etməyə imkan verir. İstehsalın səmərəliliyinin ümimiləşdirici göstəricisi kimi aşağıdakıları götürmək olar:

-məcmu məsrəflərin hər vahidinə düşən sərəncamda qalan gəliri;

-məcmu məsrəflərin hər vahidinə düşən ümumi daxili məhsul. .

Sistem halında birləşdirilən göstəricilər məcmusu istehsalın səmərəliliyini kompleks statistik qiymətləndirmənin məzmununu təşkil edir. Ümumiləşdirici göstərici ilə yanaşı həmin sistemə aşağıdakı göstəricilər daxildir [8]:

1)Əhalinin həyat səviyyəsi göstəriciləri;

MHS konsepsiyasına görə əhalinin həyat səviyyəsinin əsas göstəricilərinə:

-əhalinin hər nəfəri hesabı ilə son istehlaka və ümumi milli yığıma istifadə olunan sərəncamda qalan ümumi milli gəlir;

-hər nəfərə düşən son milli istehlaka qoyulan məsrəflər;

-hər nəfərə görə ev təsərrüfatlarının son istehlakına çəkilən xərclər aid edilir.

Əhalinin hər nəfərinə düşən son istehlaka və yığıma istifadə edilən sərəncamda qalan ümumi milli gəlir, gəlirlərin təkrar bölüşdürülməsi hesabının və əhali balansının məlumatına əsasən sərancamda qalan ümumi gəlirin məbləğini əhalinin orta illik sayına bölməklə hesablanır.

İnkişaf etmiş xarici ölkələrin və ya onların şirkətlərinin təcrübəsinə nəzər saldıqda görmək olar ki, insan amilinə, yəni işçilərin inkişafına xüsusi diqqət göstərilir. Bu diqqət onların ixisas səviyyələrinin artırılması, yaşayış səviyyələrinin yüksəldilməsi, asudə vaxtlarının səmərəli keçirilməsi kimi formalarda təzahür edir. Xüsusilə də, ixtisaslarının artırılmasına ciddi önəm verilir. Çünki, ixtisas artımı son nəticədə əmək məhsuldarlığına və digər iqtisadi səmərənin artmasına gətirib çıxarır. Başqasözlə, , insan resurslarının inkişafına sərf olunan hər bir əlavə vəsait ölkənin iqtisadi potensialını artırmaqla yanaşı, həm də bütövlükdə cəmiyyətin inkişafına, onun intellektual səviyyəsinin yüksəlməsinə və s. müsbət təsir göstərir. Bu baxımdan hesab edirik ki, insan resurslarının idarə olunmasına diqqət artırılmalı, bu istiqamətdə elmi əsaslara söykənən mütərəqqi strateqiya formalaşdırılmalıdır.

Araşdırmalar göstərir ki, müasir dövrdə müəssisələrin səmərəli fəaliyyəti, onların dövrün tələblərinə uyğunlaşmaları qabiliyyətlərindən, , yəni yenilikçi olmalarından çox asılıdır. Belə bir şəraitdə müəssisənin uğur qazanması yolunda onun işçilərinin "novatorluq" qabiliyyətlərinin olması və bu qabiliyyətlərin ortaya çıxarılması mühüm əhəmiyyət daşıyır. Çünki, hər bir insanın gördüyü iş onun bilik və bacarıqları ilə düz mütənasibdir və belə şərtlər altında hər bir işçiyə individual olaraq yanaşılması və onun bilik və bacarıqlarının yüksəldilməsi son nəticədə əmək məhsuldarlığının artması ilə nəticələnəcəkdir. İşçi nə

qədər gördüyü işdə ixtisaslı və peşəkar olarsa, onun gətirdiyi səmərə də yüksək olacaq.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əliyev M., Həmidov H. Biznesdə insan resurslarının idarə edilməsi (dərslik). Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2013. - 532 s.

2. Şahbazov K.A.,Məmmədov M.H. və Həsənov H.S. Menecment. Dərslik. Bakı: 2007

3. Р.А.Исаев. Основы менеджмента: Учебник / Р. А. Исаев. —М.: Издательско-торговая корпорация «Дашков и К°»,2010. — 264 с.

**Раиба Мамедбагир кызы ДЖАФАРОВА, к. э. н., доцент**

**Ферид Байрам оглу МУСАЕВ**
Азербайджанский Технологический Университет
E-mail: feridmusayev483@gmail.com

## ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЙ ПОДХОД К СТАНОВЛЕНИЮ И РАЗВИТИЮ МЕНЕДЖМЕНТА

**Резюме**

Хотя менеджмент очень стар, он относительно нов как область науки, экономики и исследований. Менеджмент зарекомендовал себя в начале 20 века как свободная наука и сфера деятельности.

**Цель исследования** - направить деятельность фирмы на производство товаров, способных удовлетворить спрос и предложение рынка, а также спрос конкретного потребителя, с целью получения ожидаемой прибыли;

**Результаты исследования** - повысить уровень автоматизации и механизации управленческих работников с целью повышения эффективности их труда;

**Методология исследования**. Метод — греческое слово, означающее метод. Как и во всех науках, в науке управления есть методы.

**Ключевые слова:** финансы, менеджмент, управление, инвестиции, компания, ценные бумаги, банковские депозиты, кредит.

**Raiba Mammadbagir gizi CAFAROVA, ph.d., Associate Professor**

**Ferid Bayram oglu MUSAYEV**
Azerbaijan Technological University
E-mail: feridmusayev483@gmail.com

## THEORETICAL METHODOLOGICAL APPROACH TO THE FORMATION AND DEVELOPMENT OF MANAGEMENT

**Summary**

Although management is very old, it is relatively new as a field of science, economics and research. Management established itself in the early 20th century as a liberal science and field of activity.

**The purpose of the study** is to direct the activity of the firm to the production of goods that can satisfy the demand and supply of the market, as well as the demand of a specific consumer, in order to obtain the expected profit;

**The results of the research** - to increase the level of automation and mechanization of management employees in order to increase the efficiency of their work;

**Methodology of the research** - Method is a Greek word that means method. As in all sciences, management science has methods.

**Keywords:** finance, Management, management, investment, company, securities, bank deposits, credit.

**Muhammad GULAHMADOV**
Ph.D. Researcher, Institute of Economics,
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutu
E-mail: gulahmadovmahammad@gmail.com

# THE BEGINNING OF A NEW TRANSPORT ERA: THE ZANGAZUR CORRIDOR AS THE BACKBONE OF POST-WAR REGIONAL COOPERATION PROJECTS IN SOUTH CAUCASUS

**Abstract**

The commencement of the Second Karabakh War between Azerbaijan and Armenia transformed the geopolitical realities of the South Caucasus and served as a "wake-up" call for the countries to recognize the importance of peace and stability for the region. The reconstruction of the transport corridor in the areas liberated following the Second Karabakh War is regarded to be essential for Azerbaijan's economic development and social well-being. Azerbaijan is currently adopting a quick restoration policy in the liberated territory. In this regard, the reconstruction of the commercial and transportation systems in Karabakh and neighboring regions will turn these areas into significant regional transit hubs. The country is taking serious steps to build the main transport projects in these areas, focusing primarily on the development of transport and transit systems in two important regions: The Karabakh and Zengezur economic regions, which are considered the region's transit hubs. Thus, the article also considers the potential economic aspects of a transport corridor in these areas, provided that in the future Karabakh and Zengezur become the main transport corridor connecting East and West.

**Keywords:** economic aspects, transport hub, Karabakh, East Zangazur corridor, logistics, Azerbaijan

**JEL: O 18**

## 1. Introduction

The study focuses on the possible economic integration and regional cooperation needed to convert Karabakh into a significant regional transport hub connecting East and West. Following the Second Karabakh War, the balance of power in the South Caucasus region shifted, resulting in a new geostrategic position. At present, Azerbaijan is taking appropriate measures to turn the Karabakh and East Zangezur regions into a major transport hub connecting Central Asia with the South Caucasus and Europe. The author will mainly analyze the main economic factors that may affect the formation of potential transport corridors in Karabakh and Eastern Zangezur, which may also affect the states of the region [1]. The condition of the roads intended for the movement of vehicles is the main factor that indicates the level of economy, culture and work that needs to be carried out in this area. The transport infrastructure created in Karabakh will turn Azerbaijan into a logistics hub between Central Asia and Europe. All transport projects promise to accelerate the economic development of Karabakh and turn this war-torn region into an important regional transport hub. Connecting new and reconstructed transit routes in and around Karabakh with existing road and rail links in eastern Azerbaijan, as well as the Zangezur Corridor, will not only expand the regional transport network, but will also have a positive impact on regional cooperation.

The result of the second Karabakh war with the victory of Azerbaijan and the end of the conflict created the basis for the emergence of new relations in the region. The tripartite statement, signed on November 10, 2020, included a provision on the construction of new transport links linking Nakhchivan with the main territory of Azerbaijan. Currently, active work is underway in the direction of the Zangezur corridor, and the implementation of this corridor will play an important strategic role in trade and economic exchange and increase the potential of not only

Azerbaijan, but also the region and neighboring states [4]. The implementation of Article 9 of the November 10 statement, which provides for the restoration of economic and transport links, is the main and decisive stage in the development of Karabakh. Armenia's obligations are stated in the statement: "...guarantees the security of transport links between the western regions of the Republic of Azerbaijan and the Nakhchivan Autonomous Republic." In this regard, the opening of the Zangezur corridor is quite legal and is a historical necessity [2].

With the opening of the Zangezur corridor, all transport and economic ties in the region will be freed from the blockade, and the distance between Azerbaijan's regions will be shortened. As a result, Azerbaijan will have to connect with Turkey via train and road via Nakhchivan. On the other side, the opening of the Zangezur corridor will have a significant impact on the Turkic peoples' economies, particularly Turkey. As a result, East-West and North-South transport corridors will be formed, and Azerbaijan will become a transport hub and an important economic and strategic center for the whole world. The implementation of road and rail projects in the northern, southern and eastern directions, the road to the villages of Sugovushan and Talysh, the Ahmedbeyli-Fizuli-Shusha road, the Horadiz-Agband railway, the Barda-Agdam railway are the main part of the Karabakh development strategy [3].

## 2. Materials and Methods

Geniş mənada əmək bazarı regionun dayanıqlı inkişafının mühüm faktoru sayıla bilər, çünki ölkə əhalisinin məşğulluq potensialı və onun pul gəlirləri, məhsul və xidmətlərin istehsalının inkişaf səviyyəsi, kadrların inkişafı və müxtəlif regional proqramlarla yenidən hazırlanması səviyyəsi, regionda sosial vəziyyətin gərginliyi, demoqrafik vəziyyət və s. ilə qarşılıqlı əlaqəlidir. Region səviyyəli əmək bazarı qeyd olunan sistemin digər bazarları ilə, xüsusilə, kredit və maliyyə resursları bazarı ilə sıx qarşılıqlı əlaqədədir, çünki sonuncular iş yerləri şəbəkəsinin genişləndirilməsi mənbəyidir və xüsusilə yüksək kvalifikasiyalı işçilərin cəlb edilməsini stimullaşdıra bilir.

Əhalinin pul gəlirlərinin formalaşması və aidiyyəti üzrə yenidən bölüşdürülməsi, onların tədavül sferasında həyata keçirilməsi prosesində pul və maliyyə axınları vasitəsilə əmək bazarı istehlak malları bazarı ilə də qarşılıqlı əməkdaşlıq şəraitində olur [4].

İstehsalın inkişaf dinamikası, müxtəlif struktur islahatları və potensial iş yerlərinin yeni texniki xüsusiyyətləri nəzərə alınmaqla, kadrların yenidən hazırlanması ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş informasiyalaşdırma və bilik bazarı ilə də sıx əlaqə müşahidə olunur. Əmək bazarı institutlarının müxtəlif faktorların təsiri ilə inkişaf etməməsi səbəbindən davamlı inkişafa nail olunmasında əmək bazarı iştirakçılarının məlumatlılıq dərəcəsi xüsusi əhəmiyyətə malikdir.

Aydın və vaxtında məlumatın olmaması həm işaxtaranlara, həm də işəgötürənlərə birbaşa və dolayı yolla mənfi təsir göstərir və əmək bazarı subyektlərinin davranışının qeyri-adekvat olmasında, məşğulluqda ayrı-seçkiliyin artması, cins tərkibinə və ya yaş qrupuna görə əmək haqqı və s. mümkündür. Əmək bazarının dayanıqlı inkişafını pozan amil kimi informasiya asimmetriyasını aradan qaldırmağın yeganə yolu əmək bazarının subyektlərinə informasiya təminatı səviyyəsinin artırılması, tələblərə cavab verən etibarlı informasiyanın təmin edilməsidir.

Əmək bazarları ilə işçilərin iş yerləri baxımından müəssisələrin maraqları arasında ən sıx əlaqə mövcuddur. Regional

bazarlar müəyyən məkan-zaman parametrləri ilə xarakterizə olunur. Beləliklə, müxtəlif ixtisaslı mütəxəssislərin, peşə işçilərinin, orta texniki işçilərin və mühəndis-texniki işçilərin hazırlanması üçün müxtəlif müddətlər lazımdır. Xüsusilə nəzərə almaq lazımdır ki, müəssisələrin kadr resursları təchizatı ilə bağlı proseslər paralel baş verir. Paralel olaraq kadrların hazırlanması, işə qəbulu və istifadəsi prosesləri həyata keçirilir.

Qeyd olunmalıdır ki, region səviyyəli əmək bazarı bu prosesə xüsusi həssaslıqla yanaşır, eləcə də, tələb və təklifin dinamikasını nəzərə almaqla iqtisadi münasibətlərin tənzimlənməsində fəal iştirak edir. Əmək bazarı qarşılıqlı əlaqədə və ardıcıllıqda fəaliyyətlər həyata keçirir və inkişaf edir. Bu əlaqə miqrasiya şəraitində işçilərin yaşayış yerinin dəyişdirilməsi zamanı mənzillə təmin edilməsində və buna ehtiyacı olan işçilərin yaşayış şəraitinin yaxşılaşdırılmasında, mənzilə sərf olunan əmək haqqının xüsusi çəkisinin əvvəlcədən aşkara çıxarılmasında özünü göstərir.

Əmək bazarının digər regional bazarlar və strukturlarla qarşılıqlı əlaqəsi əmək qüvvəsinə təklif və tələb vəhdətində tarazlığın təmin edilməsinə və konkret regionun siyasi, sosial, iqtisadi inkişafının xüsusiyyətləri nəzərə alınmaqla işsizlik səviyyəsinin təbii səviyyəyə çatdırılmasına kömək edir.

Milli iqtisadiyyatlarda formalaşan dəyişikliklər, onun ayrı-ayrı ərazi subyektlərinin qeyri-bərabər inkişafı bilavasitə regional əmək bazarlarının vəziyyətinə təsir göstərir və onların əhəmiyyətli dərəcədə fərqlənməsinə səbəb olur.

Əksər regionlar tək sənaye istehsalı göstəricisi ilə müəyyən olunur ki, bu da onları inhisarçı edir, əhalinin həyat şəraitini, peşəkar inkişafını və məşğulluğunu müəyyən edir. Regionlar və müvafiq olaraq regional əmək bazarları arasında yaranan fərqlər hər bir regionun həm inkişaf səviyyəsi, həm də xüsusiyyətləri, coğrafi mövqeyi, təbii-iqlim şəraiti, iqtisadiyyatın mühüm sektorlarının inkişafı və onların ixtisaslaşması, investisiya siyasəti ilə bağlıdır.

Regional əmək bazarının davamlı inkişafı bir neçə vacib amillərin təsiri ilə müəyyən edilir. Əmək bazarı amilləri dedikdə, tələbata təsir edən sosial-iqtisadi proseslər və hadisələr başa düşülür.

Faktor prosesləri tələb və ya təklifin parametrlərini dəyişdirərək əmək bazarına təsir göstərə bilər.

Onlar bazarı tarazlıqdan yayındıra və ya yaxınlaşdıra bilərlər. Faktorlar davamlı, dövri olaraq, qısamüddətli və ya uzunmüddətli dövrdə özünü göstərə bilər. Beləliklə, əmək bazarının inkişafına təsir edən bütün amilləri daxili və xarici olaraq təsnif etmək olar [5]

Xarici mühit amillərinə aşağıdakılar daxildir:

– ölkənin ümumi sosial, siyasi və iqtisadi vəziyyəti;

– əmək bazarının müxtəlif dövlət tənzimlənməsi elementləri, o cümlədən, qanunvericilik aktları, məşğulluğun tənzimlənməsi sahəsində dövlət siyasəti və s.

Daxili amillər aşağıdakılarla təmsil olunur:

- əmək bazarı institutlarının inkişaf dərəcəsi
- demoqrafik vəziyyət
- kiçik və orta biznes (KOB) subyektlərinin inkişaf dərəcəsi
- əmək bazarı ilə təhsil xidmətləri bazarı arasında əlaqə və s.

Regionların inkişafındakı qeyri-bərabərlik əhalinin yaşayış minimumu aşağı olan rayonlardan həyat standartları daha yüksək olan olan bölgələrə miqrasiyasını yaradır.

Ölkənin ayrı-ayrı regionları və millətlərarası münasibətlərin kəskinləşməsi, çoxlu sayda miqrantın ölkənin regionları üzrə hərəkətinə səbəb olur və regionun əmək bazarlarına əlavə təzyiqlər yaradır.

Regionlarda həyata keçirilən miqrasiya siyasəti əmək bazarındakı disbalansın aradan qaldırılmasına, işçi qüvvəsinin digər sahələrdə müvəqqəti istifadəsi yolu ilə gərginliyin aradan qaldırılmasına, fermer təsərrüfatlarının inkişafına, qaçqınların və məcburi köçkünlərin məşğulluğunun təşviqinə yönəlib. Miqrasiya axınlarının rasional tənzimlənməsi məhsuldar fəaliyyət həyata keçirən əmək bazarının yaranması və onun dayanıqlı inkişafı üçün çox mühüm şərtlərdən biridir.

Bundan əlavə, regional əmək bazarının sabitliyinə daha çox müəssisələrin daxili əmək bazarının vəziyyəti təsir edir. Əmək qabiliyyətli yaşda olan insanların kütləvi surətdə işdən ixtisarı işsizliyin tempinin artmasına gətirib çıxarır və regional əmək bazarında vəziyyəti qeyri-sabitləşdirir.

Aşağı doğum və ölüm göstəricilərinin artması, əmək qabiliyyətli vətəndaşların orta yaş həddinin artması kimi sosial-demoqrafik amillər gələcəkdə regionda əmək bazarının sabitliyinin pozulmasına zəmin yaradır.

**Azərbaycanda əmək bazarının inkişaf dinamikası**

Məşğulluq siyasətinin uğurla həyata keçirilməsi digər ölkələr kimi, Azərbaycanın da prioritet fəaliyyətlərindən biridir. Məlumdur ki, Azərbaycanda sosial siyasət, xüsusilə də məşğulluq siyasəti bütün regionlarda uğurla həyata keçirilir. Məhz cənab Prezident İlham Əliyevin dediyi kimi Azərbaycan sosial ölkədir. Azərbaycanın özünəməxsus sosial inkişaf modeli vardır. Xüsusilə dövlət büdcəsinin təyinatına nəzər salsaq xərclərin əsas təyinatını sosial, məşğulluq problemlərinin həllinə yönəlmiş xərclər təşkil edir. Bu xərclərin dinamikasına nəzər yetirsək hər il sabit deyil, artmaqda olduğunu müşahidə edə bilərik. Ölkəmizdə məşğulluq siyasətini həyata keçirən mərkəzi hakimiyyəti orqanı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir. Nazirliyin tərkibindəki qurumlar tərəfindən sosial siyasətin ayrı-ayrı istiqamətləri özünəməxsus formada həyata keçirilir.

Məşğulluq siyasətinin həyata keçirilməsində, məşğulluq sahəsindən irəli gələn tədbirlərin həyata keçirilməsində nazirliyin tərkibində fəaliyyət göstərən Dövlət Məşğulluq Agentliyi xüsusi rol oynayır.

2022-ci ildə Dövlət Məşğulluq Agentliyi tərəfindən məşğulluq sahəsində görülən işlərin dinamikası göstərir ki, 2022-ci ildə 39248 nəfər işlə təmin edilib, 7213 nəfər haqqı ictimai əsaslarla ödənilən işlərə cəlb olunub. Özünü məşğulluq proqramına cəlb edilən vətəndaşların sayı ötən illə müqayisədə artaraq 16097 nəfər olmuşdur. Ümumi məşğulluq siyasəti çərçivəsində 4575 nəfər peşə hazırlığı kursuna cəlb edilmişdir. Azərbaycanın ümumi regionları üzrə 69104 nəfərə peşə yönümlü məsləhət xidməti göstərilmiş, 6333 nəfər vətəndaşa işsizlikdən sığorta təyin edilib.

**Nəticə**

Əmək bazarı və onun real vəziyyəti istər konkret regionda, istərsə də bütövlükdə ölkədə iqtisadiyyatın inkişafına mühüm təsir göstərir. Konkret regionun ərazi və geosiyasi xüsusiyyətləri, məşğulluq və işsizlik səviyyəsində, eləcə də sosial-iqtisadi göstəricilər səviyyəsində əhəmiyyətli fərqlə müəyyən edilir.

Məqalədə verilən məlumatların təhlili əsasında tədqiq olunan regionda əmək bazarının vəziyyəti və dəyişikliklərinin qiymətləndirilməsi nəticəsində onun daxili resursları müəyyən edilmişdir. Daxili əmək ehtiyatlarının mobilliyini təmin

etmək üçün regional əmək bazarının inkişafına və əhalinin sosial-iqtisadi şəraitinin yaxşılaşdırılmasına dövlət dəstəyi tədbirləri müzakirə olunub. İşçilərin tələbatının tarazlaşdırılmasına kömək etmək üçün mövcud resurslar, əmək ehtiyatları və tədqiq olunan sahənin sənaye xüsusiyyətləri nəzərə alınmaqla əmək bazarının təkmilləşdirilməsi istiqamətləri təklif olunur.

İqtisadi ədəbiyyatda əmək bazarının iqtisadi kateqoriya kimi müəyyən edilməsi ilə bağlı mübahisələr davam edir. Tədqiqatda əmək bazarının bazar iqtisadiyyatının tərkib hissəsi kimi, muzdla qəbul və əmək təklifi ilə bağlı sosial münasibətlər sistemi, işəgötürənlər və işçilər arasında qiymətlərin və əmək şəraitinin uyğunlaşdırılmasını təmin edən mexanizm kimi başa düşülməsi məsələlərinə toxunuldu. Hakimiyyət orqanları öz səylərini kadrların keyfiyyətini və rəqabət qabiliyyətini artırmaqla əmək bazarında tələb və təklif arasında tarazlığın təmin edilməsinə yönəltməli, habelə əhalinin həyat səviyyəsini və keyfiyyətini yaxşılaşdırmaq və səmərəli məşğulluq üçün şərait yaratmalıdırlar.

Artan əmək bazarında yüksək ixtisaslı kadrlara kəskin ehtiyac yaranır. İşəgötürənlər elm sahəsində mütəxəssis çatışmazlığı hiss edirlər.

Tədqiqatın sonunda aşağıdaki nəticələrə gəlinmişdir:

- zəruri peşəkar ixtisas strukturuna malik kadrların hazırlanması üçün regional sifarişin formalaşdırılması
- əhali ilə peşəyönümü işini həyata keçirmək
- kadrların hazırlanması və yenidən hazırlanması sisteminin planlaşdırılması
- regional miqrasiya siyasətinin formalaşdırılması
- təşkilatlarda kadr hazırlığı məsələlərinə regionlarda işəgötürənlərin diqqətini artırmaq.

Beləliklə, belə bir nəticəyə gələ bilərik ki, regional əmək bazarının təhlili təklif olunan vəzifələrin həllinin mümkünlüyünü ortaya qoydu.

- İqtisadiyyatın real sektorunun müxtəlif fəaliyyət istiqamətləri üzrə rayonun elmi-texniki potensialının artımının təmin edilməsi;

-iqtisadiyyatın bütün sahələrində yeni texnologiyalara investisiyaların stimullaşdırılması;

-Disbalansın azaldılması üçün əmək bazarında tələbat olan ixtisaslara önəm verməklə təhsil sisteminin təkmilləşdirilməsi;

-Daxili immiqrasiya üçün şərait yaratmaq və keyfiyyətli immiqrasiyanın stimullaşdırılması məqsədilə hüquqi və normativ bazanın təkmilləşdirilməsi.

-Qarşıya qoyulan vəzifələrin icrası tələb və təklifin tarazlaşdırılmasına imkan verəcək

regional əmək bazarı, eləcə də onun keyfiyyətcə təkmilləşdirilməsi.

Beləliklə, regional əmək bazarında yaranan ehtiyac və mövcud işçi qüvvəsi arasında tarazlığa nail olmaq resursları həm daxili, həm də beynəlxalq əmək immiqrasiyasından istifadə etməklə mümkündür. Daxili əmək ehtiyatları, habelə rayonun sosial-iqtisadi xüsusiyyətləri və müəyyən edilmiş ehtiyatlar nəzərə alınmaqla əmək bazarında tələbat haqqında obyektiv məlumatların formalaşdırılması regional əmək bazarının səmərəli inkişafını təmin etməyə imkan verir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Arbuz A. V. & Shirokolobova O. S. (2017). Youth migration in the conditions

of the regional labour market (On the materials of the Omsk region). *Siberian Socium, 1*(2), 61-71. https://doi.org/10.21684/2587-8484-2017-1-2-61-71

2. Məmmədova M& Cəbrayılova Z. (2021). "Industry 4.0 Şəraitində əmək bazarının intellektual idarə olunmasına metodoloji yanaşma". *Problems of Information Technology, 12*(1), 70-82. https://doi.org/10.25045/jpit.v12.i1.06

3. Бизин С. (2018). Анализ развития регионального рынка труда и проблемы занятости населения. *Russian Journal of Labour Econ. 5*(3),45760. https://doi.org/10.18334/et.5.3.39415

4. Малинина О. (2022). УСТОЙЧИВОЕ РАЗВИТИЕ РЕГИОНАЛЬНОГО РЫНКА ТРУДА РОСТОВСКОЙ ОБЛАСТИ. *Всероссийская научно-практическая конференция «Географические исследования в контексте социально-экономического развития регионов»,* (1), 231-234. https://doi.org/10.36684/68-2022-1-231-234

5. Конвенция Международной организации труда «О принудительном труде» от 28 июня 1930 г. № 29.

**Севда Тофик кызы ГАДЖИЕВА, к.е.н. доцент**
**Парвиз Агиль оглы БАЛАШОВ**
**Азербайджанский Технологический Университет**
E-mail: **Баласов2016@gmail.com**

# ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ И РАЗВИТИЯ РЕГИОНАЛЬНОГО РЫНКА ТРУДА

**Резюме**

Анализ развития безработицы на региональном уровне показывает, что региональное измерение имеет важное значение в борьбе с безработицей. Ясно, что необходим более детальный анализ, учитывающий экономический рост и рост занятости на региональном уровне, а также динамику межрегиональной (сельско-городской) миграции.

В статье отражены основные проблемы, связанные с трансформацией региональных рынков труда в связи с активизацией социально-экономических процессов в международном масштабе. Исследование включает в себя теоретические знания по проблемам устойчивости регионального рынка труда как социально-экономической системы. Факторы, обеспечивающие устойчивость регионального рынка труда, результаты анализа процессов реформирования институционально-правовой базы, в том числе характеристика трудового потенциала как стратегического ресурса формирования инновационной экономики в сфере трудовых отношений на региональном уровне обоснованы.

Рскрыта сущность инновационного трудового потенциала и представлены результаты оценки региональной политики в сфере занятости в Азербайджане.

В статье отражен комплексный анализ современного состояния регионального рынка труда, включены прогнозы его дальнейшего развития с точки зрения принимаемых мер по совершенствованию государственной политики в сфере занятости. В этом контексте по результатам исследования обсуждаются несколько политических предложений для реализации на региональном уровне в сфере борьбы с безработицей.

**Ключевые слова:** рынок труда, регион, социально-экономическое развитие, занятость.

**Sevda Tofig gizi HAJIYEVA, Associate Professor**
**Parviz Agil oglu BALASHOV**
**Azerbaijan Technological University**
E-mail: **Balasov2016@gmail.com**

## REGIONAL LABOR MARKET FORMATION AND DEVELOPMENT PROBLEMS

### Summary

The research of how unemployment has changed at the regional level demonstrates the significance of the regional dimension in the fight against unemployment. It is obvious that more thorough analyses are required, taking into account regional growth and employment dynamics as well as interregional (rural-to-urban) migration dynamics.

The article highlights the key issues with how regional labor markets are changing as a result of the globalization of socioeconomic processes. The study provides theoretical understanding of the regional labor market's sustainability issues as a socioeconomic system. The factors ensuring the regional labor market's stability, the findings of the analysis of the institutional and legal framework reform processes, as well as the traits of the labor potential as a strategic resource for the development of an innovative economy in the area of labor relations at the regional level are supported.

In addition to presenting the findings of the regional policy evaluation in the area of employment in Azerbaijan, the essence of creative labor potential is highlighted.

The article provides a thorough study of the regional labor market's current situation and provides projections for its future evolution in light of the steps made to enhance governmental employment policy. Several policy ideas to be implemented at the regional level in the battle against unemployment are presented in this context based on the study's findings.

**Keywords:** Labor market, region, socio-economic development, employment

**Afiyəddin Həmid oğlu HƏMİDOV, i.f.d., dos.**

**Samirə Rafiq qızı MİRZƏYEVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: psff2023@gmail.com

# SOSİAL İNKİŞAFIN TƏMİN EDİLMƏSİNİN REGİONAL ASPEKTLƏRİ

**Xülasə**

Tarixən regionlar bir-birindən həm sosial, həm də iqtisadi cəhətdən fərqlənmişdir. Bu fərqlərin əmələ gəlməsinin başlıca səbəbləri, regionun coğrafi quruluşu, relyefi, geoloji ( təbii sərvətlərin mövcudluğu) quruluşudur. Regionlar məşğulluq baxımından bir-birindən fərqlənirlər. Xüsusən də regionlarda əhali disbalansının yüksək olması məşğulluğa təsir göstərir. Bir ölkənin sosial cəhətdən inkişaf etməsi üçün onun regionlara bölünməsi zəruridir. Tədqiqatlar göstərir ki, regionlar sosial-iqtisadi inkişaf səviyyəsinə görə 2 yerə bölünür:

1. İnkişaf etmiş
2. İnkişaf etməkdə olan, yəni zəif inkişaf etmiş regionlar.

İnkişaf etmiş regionlar sosial cəhətdən yüksək inkişaf etmiş sayılırlar. İnkişaf etməkdə olan regionlarda isə sosial problemlərlə yanaşı iqtisadi problemlər də mövcud olur. Qeyd etmək lazımdır ki, iqtisadi vəziyyət ölkədə,regionlarda sosial vəziyyətə də təsir göstərir. Müasir iqtisadi sistemlərdə yaranan bu sosial problemləri həll etmək biraz çətin olur.

Beləliklə, qeyd etmək lazımdır ki, dövlətin apardığı ümumi sosial siyasət birbaşa olaraq regionların sosial inkişafına ciddi təsir göstərir. Dövlətin regionlarda apardığı sosial siyasətin başlıca ünsürləri, məşğulluğu təmin etmək, sosial standart normalarını tətbiq etmək, əhalinin sosial xidmətlərə daha asan əlçatanlığını təmin etməkdir. Regional səviyyədə aparılan sosial siyasətdə əhali qrupları arasında gəlir bərabərsizliyinin azaldılması başlıca məqsədlərdən biridir.

Bu məqalədə dövlətin sosial siyasətində regional aspektlər araşdırılmış, müxtəlif tədqiqatların nəticəsi təhlil edilmiş və sonda Azərbaycanda aparılan sosial siyasət haqqında məlumat verilmişdir.

**Açar sözlər:** Regional inkişaf, sosial inkişaf, iqtisadi inkişaf.

**JEL: O18**

## Giriş

Yaxın keçmişdə regional sosial və iqtisadi inkişaf strategiyalarının hazırlanması zərurəti qarşıya çıxdı. Bu cür strategiyalar geniş dövrləri əhatə edir və ölkənin, onun regionlarının uğurlu sosial-iqtisadi inkişafının əsas amilləridir. Strategiyaların həyata keçirilməsində ərazilərdə mövcud olan resurslardan düzgün istifadə edilməsi qarşıya qoyulan məqsədlərə vaxtında nail olmaq üçün lazımdır. Xüsusi regional inkişaf məsələlərini həll etmək üçün həm adi, həm də əvvəllər istifadə olunmamış resurslardan istifadə etmək çox vacibdir [4].

İqtisadiyyatda elmi istinadlara görə, regional inkişaf, xammal, ərazi, demoqrafik, iqtisadi, innovativ, infrastruktur, maliyyə, ekoloji, coğrafi, inzibati, intellektual resurslar və s. ilə dəstəklənir [5]. Bu gün bu resursların potensialı ərazilər üzrə inkişaf strategiyalarının həyata keçirilməsini dəstəkləmək üçün tədqiqatçılar tərəfindən öyrənilir. Bir çox tədqiqatçılar spesifik resursların potensialını regional inkişaf amilləri kimi öyrənirlər. Məsələn, insan kapitalı əsas tədqiqat obyekti olaraq qalır [6]. Xarici ölkələrin alimlərinin bu və digər oxşar tədqiqatlarının nəticələri hazırda ölkənin və onun regionlarının inkişaf strategiyalarının rasionallaşdırılması üçün istifadə olunur [5].

Sosial-iqtisadi amillərdəki regional fərqlər bir ərazinin regional inkişafını qiymətləndirmək üçün vacibdir. Bir çox tədqiqat müstəqil şəhərlər və ərazilər daxilində regional fərqlərin ümumi qanunauyğunluqlarına diqqət yetirsə də, meqaşəhər rayonlarının iyerarxik məkan-zaman strukturları nadir hallarda müzakirə edilmişdir. Bu boşluğu doldurmaq üçün mövcud sənəd

meqapolis regionları daxilində çoxsəviyyəli regional fərqləri araşdırır. Sosial-iqtisadi göstəricilər kimi ÜDM, əhali və ümumi pərakəndə satışdan istifadə etməklə, sosial-iqtisadi meyillərin məkan-zaman modelləri müəyyən edilir. Ayrı-ayrı şəhərlərin məkan-zaman modellərinin müəyyən edilməsi üçün sosial-iqtisadi oxşarlıqlardan istifadə edən iyerarxik klaster yanaşması təklif olunur [6].

Regional fərqlər tez-tez sosial-iqtisadi inkişafdakı fərqlərlə əlaqələndirilir [8]. Son onilliklərdə regional islahat siyasəti səbəbindən Çin sürətli bir dəyişiklik yaşayır və məhsuldarlıqla əlaqəli bazarlar şəhərlər arasında dəyişir və daha da fərqli iqtisadi tərəqqi nümayiş etdirir [7].

**Metod**

Tədqiqat zamanı sosial inkişaf, regional sosial inkişaf sahəsində elmi tədqiqatların nəticələri təhlil edilmişdir. Tədqiqat zamanı, elmi araşdırmalarda daha çox istifadə olunan keyfiyyət metodlarından, qarışıq metodlardan istifadə edilmişdir. Bu araşdırmada təhlillərlə bağlı tədqiqatların məcmusu verilmişdir. Tədqiqat nəticəsində bu mövzuda aparılmış oxşar tədqiqatların birləşdirilərək yenidən şərh edilməsi və yeni nəticələrə nail olunması prosesinə önəm verilmişdir.

**Sosial inkişafın regional aspektləri**

F.Perroun iqtisadi inkişafın hər yerdə ola bilməyəcəyi, müxtəlif qütblərdə müxtəlif intensivliklə baş verəcəyi və onun təsirlərinin bütün iqtisadiyyata yayılacağı fikri bir çox iqtisadçılar tərəfindən qəbul edilmişdir. Buna əsasən, inkişafın müəyyən sektorda və xüsusən də müəyyən regionlarda başlaması təsadüfi deyil, iqtisadiyyatın inkişafının şərtidir. İnkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafa başlamaq və inkişaf etmiş ölkələrdə problemli bölgələri inkişaf etdirmək üçün regional inkişaf mərkəzləri yaratmağa çalışırlar [8].

İqtisadi inkişaf siyasətində region əsas miqyas vahididir. Region müəssisələrin ən yaxşı inkişaf etdiyi miqyas kimi qəbul edilir. Bu institusional şəbəkələri informasiya mübadiləsinin və qarşılıqlı əlaqələrin yüksək səviyyədə saxlandığı institusional təbəqə və ya tutum kimi müəyyən etmək olar. Qurumlar sosial və iqtisadi şəbəkələrin əsasını təşkil edir və bu qurumlar beləliklə, yerli səviyyədə iqtisadi inkişafı ortaya qoyur və saxlayır [9].

Region iqtisadiyyatlarının uğur və ya uğursuzluğunda şəhərlərdəki iqtisadi fəaliyyətlərin rolu var. Region və inkişafın yeni konsepsiyaları yeni konseptuallaşdırmanın gündəmdə olduğunu göstərir. Bu çərçivədə regional inkişaf böyümə prosesi müxtəlif nəzəriyyələr işlənərək izah olunmağa çalışılır. 1950-ci illərdən bəri görkəmli konsepsiyalar daim dəyişmiş, regional inkişaf dinamikası dünyanın dəyişən şərtləri və yeni yaranan hadisələrin təsiri ilə daim fərqlənmişdir [10].

1980-ci illərə qədər qabaqcıl kapitalist ölkələrində regional və yerli iqtisadi inkişaf siyasətləri əsasən regionlararası bərabərliyin təmin edilməsinə yönəlmiş stimullara əsaslanarkən, kiçik istehsala əsaslanan yerli və regional iqtisadiyyatların öz dinamikası ilə aktivləşməsinə imkan verən təcrübələrə başlanıldı. Yeni regional nəzəriyyələrdə yerli iqtisadi inkişafın təmin edilməsi fenomeni fərdi şirkətlərin deyil, zəngin regionların yaradılmasına, beləliklə, sahibkarlığın uğuru üçün zəruri olan sosial infrastruktura, iqtisadi və institusional təkmilləşdirməyə diqqət yetirir [11].

Regional inkişaf iqtisadi inkişafın hərəkətverici qüvvəsidir. İnsan kapitalı amilinin inkişafı regional iqtisadi inkişaf üçün vacibdir. Bunun üçün işçi qüvvəsinin ixtisasının artırılması həm də özəl sektorda məhsuldarlığın artmasıdır. Bu isə öz növbəsində işsizliyin azalmasına töhfə verir. Ona görə də, dövlət investisiyalarının bir hissəsi yerli işçi qüvvəsinin ixtisasının artırılmasına yönəldilməlidir [12].

Qlobal iqtisadiyyatda yerli işçi qüvvəsinin dəyişikliklərə uyğunlaşması vacibdir. Məşğulluq siyasətinin əsas istiqaməti müəssisələrin işçi qüvvəsinə ehtiyaclarına kömək etmək olmalıdır.

Regionların iqtisadi inkişafının sürətləndirilməsində yerli özünüidarəetmə orqanlarının üzərinə böyük vəzifə düşür. Bu gün xüsusilə regional və şəhər iqtisadiyyatlarında güclü yerli hökumət rəhbərliyinə ehtiyac var. Yerli iqtisadi potensialın yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilməlidir. Yerli hökumətlər regionun və şəhərin gələcək yerləşdirilməsi üçün planlar və proqnozlar hazırlamalıdırlar. İnfrastruktur investisiyaları uğurlu yerli iqtisadiyyatın təməl daşıdır. Beləliklə, yerli investisiya mühitinin sürətli inkişafına nail olmaq lazımdır. Yerli hökumətlər tərəfindən infrastruktur və proqram xərclərinin artırılması regionun iqtisadi artımına

səbəb olacaqdır. Bununla belə, davamlılığı təmin etmək üçün bölgəyə ixtisaslı insan kapitalını cəlb edəcək layihələr də hazırlanmalıdır [13].

Regionun və şəhərin struktur dəyişikliyinin biliyə əsaslanan iqtisadiyyata və cəmiyyətə yönəlməsini təmin etmək üçün perspektivlər hazırlanmalıdır.

Problemin həllinə yönəlmiş bir qurumun yaradılması regional inkişaf üçün səmərəli ola bilər. Özəl sektorla dövlət arasında əlaqə gücləndirilməlidir. Universitet-sənaye əməkdaşlığından əlavə, universitetlər regional problemlərin həllində də iştirak etməlidirlər. Universitetdən özəl sektora texnologiya transferini təmin edəcək bir infrastruktur yaradılmalıdır. Beləliklə, universitetlərə gəlir və prestij təmin etməklə yanaşı, daha az xərclə müəssisələrə tədqiqat və inkişaf imkanları təmin ediləcəkdir [14].

Qeyd etmək lazımdır ki, dünya təcrübəsində sosial inkişafın bir neçə modeli mövcuddur. Bu modellərin müsbət və mənfi cəhətləri vardır. Ancaq bu tədqiqatda modellərin müsbət tərəfləri araşdırılıb. İlk olaraq İsveç modelindən bəhs etmək yerinə düşür. İsveç modelinin müsbət cəhəti dövlətin social sahəyə daha çox diqqət göstərməsi, əhalinin bütün təbəqələrinin sosial müdafiə paketləri ilə əhatə olunmasıdır.

Digər geniş yayılmış modellərdən biri də rifah dövlətidir. Bu model bazar iqtisadiyyatının xüsusiyyətlərini özündə əks etdirir. Səciyyəvi xüsusiyyəti bütün social xidmətləri özündə ehtiva etməsidir.

Bazar təsərrüfatı modelində dövlətin hüquq və vergi sahəsində islahatları üstünlük təşkil edir.

Azərbaycan regionlarının inkişafı ölkədə həyata keçirilən davamlı inkişaf strategiyasının əsas tərkib hissəsidir [3]. Regional inkişaf sahəsində həyata keçirilmiş dövlət proqramlarında, xüusilə regionların inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası regionlarda sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, innovativ sahibkarlıq mühitinin inkişafına, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir [1].

Yuxarıdakı əsas məsələləri özündə ehtiva edən regional inkişafda yeni paradiqma, alternativ inkişafın məqsədlərindən birinə çevrilmək üçün potensialın və səlahiyyətlərin artırılması üçün insan mərkəzli inkişafın formasına çevrilib. Alternativ inkişaf sosial inkişafdır. Sosial inkişaf inkişafa alternativ olan və təhsil, səhiyyə, sosial təminat, mənzil və fərdi sosial xidmətlər kimi müxtəlif sektorları özündə birləşdirən regional inkişafın tərkib hissəsinə çevrilən inkişaf yanaşmasıdır. Sosial inkişaf "iqtisadi inkişafın dinamik prosesi ilə birləşdirilməklə bütövlükdə əhalinin rifahının yüksəldilməsi üçün nəzərdə tutulmuş planlı sosial dəyişiklik prosesidir". Bu zaman sosial inkişafdan irəli gələn cəhətlər 7 formaya gətirib çıxarır, yəni:

- İqtisadi inkişafla bağlı insan inkişafı prosesi. Bu cəhət sosial inkişafı digər inkişaf yanaşmalarından fərqləndirir. Sosial inkişaf sosial rifahı inkişaf etdirmək üçün sosial siyasət və proqramları əhatə etməyə çalışan sosial problemlərə diqqət yetirir.
- Sosial inkişaf müxtəlif sosial elmlərə əsaslanan multidissiplinar diqqətə malikdir. Sosial inkişaf daha da müzakirə edilə bilən və ola biləcək yeni müdaxilələr yarada bilər.
- Mütərəqqi dəyişiklik prosesləri, məsələn, sosial inkişafın təsisçiləri tərəfindən başlanan proseslər. Dəyişiklik ideyası olduqda tənqid edilən sosial inkişaf ideyasının tərəfdarları bu ideyanın bütün insanlar üçün təkmilləşəcəyinə inamla bağlı fikir verə bilərlər.
- Sosial inkişaf prosesi müdaxilə xarakteri daşıyır, bu ideyanın tərəfdarları sosial inkişafın təbii olaraq bazar iqtisadiyyatı ilə işləmək və ya tarixən qaçılmaz impulslar hesabına baş verməsi fikrini rədd edirlər. Buna görə də, sosial inkişaf prosesi daha çox məqsədə çatmaq üçün xüsusi plan və strategiyaları həyata keçirə bilən insanlara yönəldilir.
- Sosial inkişaf məqsədləri müxtəlif strategiyalarla dəstəklənir. Bu strategiya birbaşa və ya dolayı yolla sosial müdaxilələri iqtisadi inkişaf səyləri ilə əlaqələndirməyə çalışır.

Ölkəmizdə regionlar həm sosial, həm də iqtisadi cəhətdən inkişaf edir. Hər ilin yekunlarında ölkənin sosial iqtisadi vəziyyəti ilə əlaqədar geniş hesabat-statistik göstəricilər dərc edilir. Aşağıdakı illik cədvəldə də ölkəmizdəki əsas sosial iqtisadi inkişaf göstəricilərinin müsbət dinamikada artdığını görə bilərik.

**Cədvəl 1.**

**2021-ci İldə regionların əsas sosial-iqtisadi göstəriciləri**

| | Ərazi, min kv.km. | 01.01.2022-ci il vəziyyətinə əhalinin sayı, min nəfər | 01.01.2022-ci ilə təsərrüfat subyektlərinin sayı: hüquqi şəxslər | fiziki şəxslər | Muzdlu işçilərin sayı, min nəfər | Muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı, manat | Əhalinin nominal gəlirləri, min manat | Əsas sahələr üzrə məhsulun ümumi buraxılışı, milyon manat | Sənaye məhsulu, min manat | Kənd təsərrüfatı məhsulu, min manat | o cümlədən: bitkiçilik | heyvandarlıq | Pərakəndə ticarət dövriyyəsi, min manat | Əsas kapitala yönəldilmiş investisiyalar min manat |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası | 86.6 | 10156.4 | 167140 | 1168921 | 1709.1 | 732.1 | 57181500.2 | 105305,9[1)] | 55229080.8 | 9163378.2 | 4510983.9 | 4652394.3 | 44217510.7 | 16815459.0 |
| Bakı şəhəri | 2.14 | 2303.1 | 103431 | 326265 | 877.4 | 951.3 | 33640213.4 | 70443,7[1)] | 45309744.1 | 115974.2 | 93384.2 | 22590.0 | 25648911.4 | 10187183.1 |
| Naxçıvan Muxtar Respublikası | 5.50 | 463.0 | 2043 | 33926 | 109.2 | 553.6 | 1934289.1 | 3814.6 | 1069655,7[*)] | 572096.7 | 376094.9 | 196001.8 | 1724244.6 | 1062165.8 |
| Abşeron-Xızı iqtisadi rayonu | 3.73 | 579.9 | 11123 | 62219 | 98.6 | 605.9 | 2479201.5 | 6153.0 | 4125777.1 | 238490.5 | 93815.1 | 144675.4 | 1893051.3 | 1232180.8 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 6.13 | 326.8 | 2452 | 36882 | 27.7 | 471.0 | 952565.7 | 967.6 | 88589.5 | 401433.5 | 205404.5 | 196029.0 | 757333.0 | 224025.2 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 5.27 | 612.1 | 5120 | 73845 | 80.4 | 528.0 | 2453301.4 | 2282.4 | 860978.1 | 322116.0 | 147833.8 | 174282.2 | 1821917.5 | 422438.2 |
| Qarabağ iqtisadi rayonu | 8.99 | 907.9 | 4674 | 74873 | 65.4 | 437.4 | 1367726.9 | 2816.8 | 194776.3 | 910375.5 | 437889.5 | 472486.0 | 1047354.1 | 1342032.7 |
| Qazax-Tovuz iqtisadi rayonu | 7.03 | 690.6 | 3898 | 87906 | 59.4 | 498.4 | 2129587.9 | 2412.2 | 416258.7 | 1167.6 | 804692.4 | 355805.2 | 1669877.4 | 272930.0 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 6.96 | 561.8 | 4735 | 72652 | 52.6 | 507.0 | 1868268.7 | 2140.4 | 305979.6 | 909613.2 | 445766.9 | 463846.3 | 1459966.6 | 446179.5 |
| Lənkəran-Astara iqtisadi rayonu | 6.07 | 959.4 | 7461 | 116687 | 68.3 | 460.3 | 2453529.4 | 1989.7 | 340950.5 | 810736.4 | 433035.3 | 377701.1 | 1931758.8 | 151446.1 |
| Mərkəzi Aran iqtisadi rayonu | 6.69 | 743.2 | 5279 | 80143 | 75.8 | 454.4 | 2851664.8 | 2453.3 | 646114.9 | 901565.6 | 398289.7 | 503275.9 | 2272632.2 | 151394.7 |
| Mil-Muğan iqtisadi rayonu | 5.67 | 526.4 | 5649 | 59637 | 44.9 | 454.5 | 1381348.8 | 1952.5 | 554466.4 | 816192.8 | 385308.2 | 430884.6 | 1114714.8 | 85147.7 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 8.84 | 632.9 | 5525 | 75840 | 72.7 | 443.9 | 1819432.1 | 1801.7 | 440578. | 716694. | 379964. | 336729. | 1399064. | 193252.4 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 7.47 | 345.0 | 1019 | 3909 | 22.2 | 482.7 | - | 964.2 | 7888.2 | 94448.9 | 11378.7 | 83070.2 | ... | 862228.9 |
| Şirvan-Salyan | 6.08 | 504.3 | 4731 | 64137 | 54.5 | 542.5 | 1850370.5 | 2166.6 | 867323.3 | 635761.9 | 298125.9 | 337636.0 | 1476684.5 | 156047.8 |

**Mənbə: Dövlət Statistika Komitəsi. https://stat.gov.az/source/regions/**

**Nəticə**

Regionların sosial inkişafı üzrə beynəlxalq təcrübə göstərir ki, hazırda həyata keçirilən siyasət sənədlərində davamlı inkişaf konsepsiyasına əsaslanan yanaşmaya daha çox üstünlük verilir. Regional inkişaf sahəsində beynəlxalq təcrübənin təhlili göstərir ki, hazırki dövrdə bu istiqamətdə həyata keçirilən siyasət xətti xarakter dəyişir. Köhnə siyasət xəttinin əsas problemi kimi məşğulluq, gəlirlər, üzrə regional fərqlər önə çəkilirdisə, yeni siyasi xətdə regionların potensialından istifadənin səmərəliliyinin artırılması kimi məsələlər önə çəkilir. Regional yerli iqtisadiyyatın şaxələndirilməsi və onun özəl sektorun cəlbedici mərkəzinə çevrilməsi üçün sabit və daimi mexanizmlər və birliklər yaradılmalı, mikro-iqtisadi göstəricilərin təhlilinin nəticələrinə əsasən inkişaf və artıma yönəlmiş yeni strategiyalar yaradılmalıdır. Ümumi strategiyada əsas prioritet regional, yerli biznesin inkişafı olmalıdır. Bunun üçün proseslər tənzimlənməli, təkmilləşdirilməli, bürokratiya azaldılmalıdır.

Regionların iqtisadi potensialının inkişafı üçün tədqiqat və planlaşdırmadan sonra praktiki tətbiq etmək üçün effektiv regional inkişaf strategiyaları müəyyən edilməlidir. Effektiv regional inkişaf strategiyası yerli resursların, yerli üstünlüklərin və imkanların dəqiq müəyyən edilməsi və bu amillərin qlobal iqtisadi rəqabətdə regionun və ya şəhərin iqtisadi potensialını gücləndirəcək şəkildə qiymətləndirilməsi elementlərini əhatə etməlidir.

Xüsusilə Azərbaycanda regionların inkişafı siyasəti əsasən milli səviyyəni əhatə edən regional inkişaf proqramlarına əsaslanır. Bu proqramların icrası nəticəsində regionlarda sosial sahələrinin inkişafı, yeni iş yerlərinin yaradılması, əhalinin rifahının yüksəldilməsi istiqamətində əhəmiyyətli sosial-iqtisadi nəticələr əldə olunmuşdur. Dünya təcrübəsi göstərir ki, hər bir ölkənin, onun regionlarının, şəhər və kəndlərinin sosial-iqtisadi inkişafında çevik və səmərəli idarəetmə mexanizmləri, innovativ həllərin tətbiqi mühüm rol oynayır. Hazırda qarşıda duran əsas məsələ beynəlxalq təcrübədə təsdiqini tapmış ən yaxşı iqtisadi mexanizmlərin tətbiqi ilə əldə olunan səmərənin artırılmasıdır [1].

**ƏDƏBİYYAT SİYAHISI:**

1. “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
2. Dinc,Mustafa.(2015).Introduction to Regional Economic Development Major Theories and Basic Analytical Tools Enter title
3. Ə.Nuriyev.“Regional siyasət və idarəetmənin əsasları”, Bakı 2011
4. M.M. Mahmudov, İ.M.Mahmudova “Regionların sosial iqtisadi inkişafının tənzimlənməsi”, Bakı 2011
5. P.A.Lewis, “ Economics as Social Theory and The New Economic Sociology”,London, Routledge,2004
6. R.Stryker “The Future of Socio-economics and Society for Advancement of Socio-economics”, New-York, Hollingsworth press, 2002
7. www.preslib.az Prezident kitabxanasının elektron səhifəsi
8. Dövlət Statistika Komitəsi: **https://stat.gov.az/source/regions/**
9. Amin A. (1998). An Institutionalist Perspective on Regional Economic Development. www.egrg.org.uk/pfs/amin.pdf (17.10.2008)
10. Elmas G. (2006). AB ve Türkiye’de Bölgesel Politikalar. (A. Arı derleyen). Bölgesel Kalkınma Politikalar ve Yeni Dinamikler, Derin Yayınları, İstanbul, 148-155
11. Eraydın A. (2004). Bölgesel Kalkınma Kavram, Kuram ve Politikalarında Yaşanan Değişimler. Kentsel Ekonomik Araştırmalar Sempozyumu. C. 1, 126-146.
12. Eşiyok B. A. (2003). Kalkınma Sürecinde İstihdam, Birikim, Büyüme ve Sektörel Gelişme Dinamikleri. Türkiye Kalkınma Bankası Yayınları. www.tkb.com.tr/icerik.aspx (19.09.2007)
13. IsaksenA. (1996). Regional Clusters and Competitiveness: The Norwegian Case. www.econpapers.repec.org/paper/steptepre/1996 (29.11.2008)
14. Pike, A. Pose, A.R. Tomaney, J. (2006). Local and Regional Development. Routledge, London, 310

**Афияддин Гамид оглы ГАМИДОВ, д. ф. э., доцент**

**Самира Рафик кызы МИРЗОЕВА**
Азербайджанский Технологический Университет
E-mail: psff2023@gmail.com

## РЕГИОНАЛЬНЫЕ АСПЕКТЫ ОБЕСПЕЧЕНИЯ СОЦИАЛЬНОГО РАЗВИТИЯ

**Резюме**

Исторически регионы отличались друг от друга как в социальном, так и в экономическом отношении. Основными причинами формирования этих различий являются географическое строение региона, рельеф и геологическое (наличие природных ресурсов) строение. Регионы отличаются друг от друга по уровню занятости. В частности, высокая несбалансированность населения в регионах влияет на занятость. Для того чтобы страна развивалась в социальном плане, необходимо разделить ее на регионы. Исследования показывают, что регионы делятся на 2 места по уровню социально-экономического развития:

1. Разработано
2. Развивающиеся, то есть слаборазвитые регионы.

Развитые регионы считаются социально высокоразвитыми. В развивающихся регионах есть экономические проблемы, а также социальные проблемы. Следует отметить, что экономическая ситуация влияет и на социальную ситуацию в стране и регионах. Решить эти социальные проблемы, возникающие в современных экономических системах, довольно сложно.

Таким образом, следует отметить, что общая социальная политика, проводимая государством, напрямую влияет на социальное развитие регионов. Основными элементами

социальной политики государства в регионах являются обеспечение занятости населения, применение социальных стандартов, облегчение доступа населения к социальным услугам. Сокращение неравенства доходов между группами населения является одной из основных целей социальной политики, проводимой на региональном уровне.

В этой статье были исследованы региональные аспекты социальной политики государства, проанализированы результаты различных исследований и, наконец, представлена информация о социальной политике, проводимой в Азербайджане.

**Ключевые слова:** региональное развитие, социальное развитие, экономическое развитие.

**Afiyaddin Hamid oglu HAMIDOV, d.p.e., associate professor**
**Samira Rafiq gizi MIRZAYEVA**
**Azerbaijan Technology University**
E-mail: psff2023@gmail.com

## REGİONAL ASPECTS OF ENSURİNG SOCİAL DEVELOPMENT

### Summary

Historically, the regions differed from each other both socially and economically. The main reasons for the formation of these differences are the region's geographical structure, relief, and geological (availability of natural resources) structure. Regions differ from each other in terms of employment. In particular, the high population imbalance in the regions affects employment. In order for a country to develop socially, it is necessary to divide it into regions. Studies show that the regions are divided into 2 places according to the level of socio-economic development:

1. Developed
2. Developing, that is, poorly developed regions.

Developed regions are considered socially highly developed. In developing regions, there are economic problems as well as social problems. It should be noted that the economic situation also affects the social situation in the country and regions. It is somewhat difficult to solve these social problems that arise in modern economic systems.

Thus, it should be noted that the general social policy carried out by the state directly affects the social development of the regions. The main elements of the state's social policy in the regions are to ensure employment, apply social standards, and provide easier access to social services for the population. Reducing income inequality among population groups is one of the main goals in social policy conducted at the regional level.

In this article, the regional aspects of the social policy of the state were investigated, the results of various studies were analyzed, and finally, information was provided about the social policy conducted in Azerbaijan.

**Keywords:** Regional development, social development, economic development

**Arzu Nəcəf oğlu HƏSƏNOV, prof.əvəzi.**
**Maarif Arif oğlu QULİYEV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

# AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAF STRATEGİYASINA UYĞUN OLARAQ TURİZM SƏNAYESİNDƏ AQROTURİZM SAHƏSİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə**

Məqalədə qeyri-neft sənayesinin inkişaf strategiyasının nəzəri əsasları, qeyri-neft sənayesinin inkişafında turizm sənayesinin rolu və əhəmiyyəti, Azərbaycanda aqroturizm sektorunun inkişaf perspektivləri və aqroturizm üçün yerli imkanlar məsələlərinə xüsusi yer verilir. Həmçinin, Azərbaycan iqtisadiyyatında qeyri-neft sənayesinin inkişaf strategiyasını zəruri edən səbəblər, turizm sənayesinin inkişafına strateji baxış və aqroturizm sahəsində əhalinin sosial-iqtisadi inkişafına təsiri öz izahını tapır.

Müasir dövrdə Azərbaycanın qarşısında duran əsas strateji hədəflərdən biri də qeyri-neft sənayesinin aparıcı bölmələrindən biri olan turizm sənayesinin inkişafını təmin etmək, o cümlədən aqroturizm sahəsinin potensial imkanlarının qiymətləndirilməsi, yaradılması və inkişaf etdirilməsi əsas istiqamətlərdəndir.

**Açar sözlər:** qeyri-neft sənayesi, turizm sənayesinin potensialı, aqroturizm sektoru

**JEL: L83**

## Giriş

Müasir dövrdə istənilən dövlətin inkişafı onun gələcəyə hədəflənmiş və düşünülmüş strategiyaya malik olmasından asılıdır. Azərbaycan dövlətinin də qarşısında duran əsas hədəf dünya ölkələrinin inkişaf sürəti ilə ayaqlaşıb düşünülmüş strategiya seçərək geriliyə yol verməməkdir. Burada əsas məqsəd isə neft və qaz ixracından mövcud asılılığı aradan qaldırmaq, qeyri-neft sənayesinin inkişafına nail olmaq, iqtisadiyyatın səmərəliliyini artırmaq və innovasiya əsaslı irəliləyişi təmin etməkdən ibarətdir. Reallıq budur ki, müstəqillik əldə etdikdən sonra əsas diqqət neft və qaz sektoruna yönəldildiyi üçün bu sahənin digər sahələrdən daha üstün səviyyədə inkişaf etməsinə şərait yaranmışdır. Nəticədə neft amilinin rolu sürətlə artmış, bu sahəyə yatırılan xarici investisiyaların həcmi böyümüşdür. Buna baxmayaraq, neft sektorunun inkişafı iqtisadiyyatın digər sahələrinə də müsbət təsir göstərmişdir. Bildiyimiz kimi, neft və qazın bərpa olunmayan maddi resurs olması və son dövrlərdə inkişaf etmiş ölkələrin dördüncü sənaye inqilabına sürətlə keçidi dünya neft bazarından asılılığın azaldılması, həmçinin neftin qiymətində olan dəyişiklikləri də nəzərə alsaq, qeyri-neft sənayesinə daha diqqətlə yanaşmanın zəruriliyini açıq şəkildə göstərmişdir. Ölkəmizin fiziki coğrafi mövqeyi, relyefi, iqlimi, mövcud imkanları, təsərrufat şəraiti və s. təhlil edilərək uyğun yanaşmalar əsasında qeyri-neft sənayesinin inkişaf strategiyası daim işlənməlidir və qurulmalıdır. Bu səbəbdəndir ki, qeyri-neft sənayesinin inkişafı üçün əlverişli mühitin yaradılması və özəl sektorun iqtisadi fəallığının stimullaşdırılması hazırda dövlətin qarşısında duran mühüm vəzifələrdən biri sayılır. Azərbaycan iqtisadiyyatında qeyri-neft sənayesinin inkişaf strategiyasını zəruri edən bir çox səbəblər var ki, bura iqtisadiyyatın davamlı inkişafını təmin etmək, maliyyə dayanıqlığının güclənməsinə şərait yaratmaq, ölkədə yaşıl enerji məkanı qurmaq, əhalinin sosial problemlərini həll etmək, vətəndaşların maddi rifahının yaxşılaşmasını daim diqqətdə saxlamaq, sosial-iqtisadi inkişafa nail olmaq və s. daxildir. Düzdür sosial-iqtisadi inkişafda neft və qaz sərvətinin varlığı danılmaz faktordur. Lakin davamlı inkişaf və ölkənin uğurlu gələcəyinin təminatı üçün Azərbaycanda qeyri-neft sənayesinin tərəqqisi sosial-iqtisadi inkişaf strategiyasının əsas tərkib hissəsi olmalıdır. Qeyri-neft sənayesinin inkişafının obyektiv zəruriliyi milli iqtisadiyyatda ilk növbədə dövlət büdcəsinə daxil olmaların tarazlaşdırılması, regionların inkişafı və həmçinin alternativ ixrac sektorunun formalaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, qeyri-neft sektorunun inkişaf etdirilməsi bazar konyukturunda baş verən dəyişikliklərdən milli iqtisadiyyatın sığortalanması məqsədilə alternativ variantların reallıqda tətbiqini özündə əks etdirir. Qeyd olunmalıdır ki, qeyri-neft sektorunun

inkişafına yönəldilmiş hər bir dəstək ölkədə neftin keçmiş əhəmiyyətini itirəcəyi bir şəraitdə öz strateji əhəmiyyəti ilə seçiləcəkdir. Buna görə də, cari şəraitdə neftdən gələn gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi, neftlə bağlı olmayan sahələrin inkişafına investisiyaların yönəldilməsi çox mühüm strateji əhəmiyyətə malikdir

Strategiya dedikdə ümumi yol xəritəsinin seçilməsi, gələcəyə yönəlmiş fəaliyyətlər, strategiyanın müəyyənləşdirilməsi və prioritetlərin təyin edilməsi, strateji çərçivələrə daxil edilmiş fəaliyyətlər və fəaliyyətlərə qoyulmuş hədəflər, hədəflərə çatmaq üçün qəbul edilmiş qərar və hərəkətlər paketi yəni strateji planlaşdırma və idarəetmə sahəsində dövlət proqramları nəzərdə tutulur. Bu sahədə qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulmuş vəzifələrin icrası qeyri-neft sənayesinin inkişafına təkan vermişdir. Belə ki, ölkə iqtisadiyyatının bütün sahələrini əhatə edən "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı" və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın işlənib hazırlanması diqqətin qeyri-neft sənayesinin inkişafına yönəldilməsidir. Neft sektorunun gəlirlərinin səmərəli istifadə sayəsində qeyri-neft sektoruna yönləndirilməsi çox böyük uğurlara gətirib çıxarıb. Statistik göstəricilərə nəzər yetirsək görərik ki, 2012-ci ildən 2021-ci ilə kimi qeyri-neft ÜDM-i hər il orta hesabla 3,5% artmışdır. Belə ki, 2011-ci ildəki göstərici 25,4 mlrd manatdan 2021-ci ilə 57,8 mlrd. manata çatmışdır. Bu da qeyri-neft sektorunda olan payı 2011-ci ildəki 48,8%-dən 2021-ci ildə 62,2%-ə çatmışdır. Bu dövrdə iqtisadi artıma baxdıqda qeyri-neft sənayesi 2,3 dəfə böyümüşdür [1], [2].

Coğrafi relyefinin əlverişli olması, təbii iqlim şəraitinin mövcud olması, beynəlxalq nəqliyyat şəbəkəsinin inkişaf etməsi, təbii maddi resurslar ilə zəngin olması, insan kapitalının inkişafı etdirilməsi, enerji təhlükəsizliyinin formalaşdırılması, böyük iqtisadi bazaya malik olması, kənd təsərrüfatı sahələri üzrə ixtisaslaşması ölkəmizin böyük imkanlarından xəbər verir. Biz bu imkanları düzgün qiymətləndirərək qeyri-neft sənayesini sürətlə inkişaf etdirə bilərik. İstər daxili bazarın boşluğu, istər daxili bazarda olan tələbin günü-gündən artması, istər işğaldan azad olmuş ərazilərimizin yenidən bərpası, istərsə də, xarici bazarlara çıxma imkanlarının geniş olması qeyri-neft sənayesinin istənilən sahəsini gəlirli sahəyə çevirmək mümkündür [6].

Bildiyimiz kimi neftin iqtisadiyyatda rolu olduqca təsirlidir. Bu təsir özünü milli iqtisadiyyatda xüsusi hiss etdirir. Belə ki, neft məhsullarının ixrac strukturu sonda bu sahə üzrə ixtisaslaşmış sənayenin sürətli genişlənməsini və bu sahənin xüsusi çəkisini artırır. Nəticədə neft gəlirləri ixrac gəlirlərinin böyük hissəsini təşkil edir ki, sonda bunun milli iqtisadiyyata ciddi təsiri yaranır. Sənayeləşmiş dövlətlərin təcrübəsinə nəzər yetirsək görərik ki, neft-qaz sənayesinə yatırılmış xarici sərmayələr sürətlə genişlənərək şaxələndirilir və neft-qaz sənayesindən formalaşmış dövlət büdcəsi gəlirlərinin səmərəli idarə edilməsi vasitəsilə milli iqtisadiyyatda həlledici rol oynadığını nümayiş etdirir. Bütün bu sıx əlaqəli və eyni zamanda digər iqtisadi sektorlara yönəldilmiş investisiyalarla dövlətin struktur strategiyasının həyata keçirilməsi əhəmiyyətlidir. Burada investisiyaların qoyulması da mühüm rol oynayır. Belə bir şəraitdə iqtisadi inkişafın dinamik və tarazlı saxlanılması xarakteri xüsusilə qeyri-neft sektorunun artımına kömək edir. Bununla belə, qeyri-neft sənayesinin genişləndirilməsi dövlətin neftdən maliyyə asılılığının azaldılmasına istiqamətlənir. Qeyri-neft sənayesinin genişləndirilməsi yoxsulluğun dərəcəsinə və ərazilərin sosial-iqtisadi inkişafına birbaşa təsir göstərir. Həmçinin beynəlxalq bazarda bir istiqamətli deyil, çox istiqamətli məhsul ixracına töhfə verir ki, bu da vaxtında neft qiymətlərinin və ya neftə olan tələbatının azalması kimi dəyişikliklərdən asılılığın azalmasını qoruyur. İstənilən cəmiyyətin, iqtisadiyyatın, dövlətin inkişafında əsas amil kimi insan kapitalı durur. Çünki insanlar hər bir iqtisadiyyatın ən dəyərli resursudur. Hər bir ölkənin gələcəyi öz əhalisinin istedad, bacarıq və iş səriştəsindən asılıdır. XXI əsrdə qlobal iqtisadiyyat dövründə yaşayırıq. Qlobal iqtisadiyyat qida çatışmazlığı, istedad çatışmazlığı və yoxsulluğun müəyyən formalarının məhdudluğu erasına daxil olur. Bu çatışmazlıqlar və məhdudluğun qarşısını almaq üzrə ən əhəmiyyətli addım isə var olan imkanları düzgün dəyərləndirməkdir. Qeyri-neft sənaye sahələri içərisində xüsusi çəkiyə malik olan sahələrdən biri də turizm sahəsidir. İnkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da turizm sənayesi qeyri - neft sektorunda birinci əsas böyük sahə hesab edilir. Turizm anlayışı olduğun ərazidən başqa bir məkana, fərqli bir mühitə, müəyyən müddət ərzində asudə vaxtın səmərəli

keçirilməsi, işgüzar səfər edilməsi, ailəvi dincəlmək, müalicə və terapiya kimi müxtəlif məqsədlər üçün qısamüddətli səyahət kimi başa düşülür. 2022- ci ildəki statistikaya əsaslanaraq deyə bilərik ki, dünya üzrə 1 milyarddan çox turist səyahəti qeydə alınıb ki, bu da son iki ilə nisbətən ən yüksək göstəricidir. Turizm dedikdə ancaq ölkə sərhədləri xaricinə səyahət nəzərdə tutulmur. Turizm beynəlxalq və daxili olaraq iki növə bölünür. Beynəlxalq turizm daha çox yayılsa da, daxili turizmi də yüksək qiymətləndirmək lazımdır. Nəticə olaraq, turizm əsasən daxili səviyyəsində inkişaf etdirilməlidir ki, ölkə dünya turizm sənayesinə inteqrasiya edə bilsin. Turizm sənayesi nəqliyyat kompleksini, otel təsərrufatını, qida sənayesini, suvenir sənayesini, turizm xidmətlərini həyata keçirən turoperator, turagentlik müəssisələri və kənd təsərrufatının bir çox sahələrini özündə birləşdirən müəssisələrin məcmusudur. Turizm sənayesi bir-biri ilə əlaqəli bir neçə komponentdən ibarətdir. Burada iqtisadiyyatın bir sahəsi digərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Məsələn, nəqliyyat infrastrukturunun inkişafı turizm potensialı olan ərazilərdə yeni mehmanxanaların , yeni ictimai iaşə obyektlərinin, sənətkarlıq sahələrinin açılması yeni iş yerlərinin yaradılmasına təkan verir. Son dövrlərin statistik göstəricilərinə nəzər yetirsək, turizm sahəsi artıq insanların zəruri tələbatına çevrilmişdir. Çünki turizm sənayesinin perspektivi çox böyükdür. Həmçinin regionlarının müəyyən turizm potensialı da mövcuddur. Hər bir ölkənin turizm sektoruna təsir edən bir çox meyarlar var ki, Azərbaycanda bu meyarlar mövcuddur. Bura təbii və ekoloji sərvətlər, tarixi yerlər, mədəniyyət, istifadə səviyyəsi, sosial infrastruktur və s. daxildir. Turizm sahəsi populyar və aktiv istirahət növlərini özündə birləşdirir. Hər il minlərlə yeni insan turist və səyahətçilər sırasına qoşulur. İnsanlara görə turizm sektoru səyahət üçün, sanatoriya üçün, kurort və ya tətil üçün, sağlamlığın qorunması üçün, fiziki gücün artırılması üçün və psixoloji yorğunluğu aradan qaldırılması üçün çox vacibdir. Ölkəmizdə əlverişli iqlim şəraiti, müxtəlif relyef formalarının mövcudluğu, zəngin təbii sərvətlər, minlərlə mədəni və tarixi abidələr, Avropa ilə Asiya qitəsinin kəsişməsində yerləşməsi, termal mineral su qaynaqlarının mövcud olması, qış və dağ turizmi üçün dağlıq relyefə malik olması, Milli Parkların mövcudluğu, coğrafi mövqe cəhətdən turist göndərən xarici bazarlara yaxınlığı və əlverişli yerləşməsi, Azərbaycan əhalisinin mehriban, gülərüz, qonaqsevərlik mədəniyyəti, vacib olan siyasi stabilliyin mövcudluğu, müxtəlif dinlərə hörmət, milli-mənəvi dəyərlərin mövcudluğu, qonşu ölkələrdə turizm sahəsinə maraq göstərmələri, müxtəlif sahələr üzrə beynəlxalq yarışlar üçün böyük arenaların mövcudluğu , ekoturizm və aqroturizm kimi fərqli turizm növlərinə olan marağın tədricən artması, nəqliyyat sektorunun bütün sahərinin inkişaf etməsi, yerli əhali arasında istirahət mədəniyyəti düşüncəsinin formalaşması, dünya əhalisinin sürətlə çoxalması nəticəsində gənc nəslin nisbi üstünlüyü və maraq dairələrinin geniş olması, dövlətin də bu sahəyə maraq və diqqət ayırması sayəsində proqramlarının və davamlı inkişaf strategiyalarının hazırlanması, təsdiqi və reallaşdırılması turizm sənayəsinin inkişafı üçün mövcud olan müsbət imkanlarıdır [7].

Dövlət tərəfindən dəstəyin olması qeyri-neft sektorunda sənayeləşmə istiqamətində mühüm addım kimi qiymətləndirilir. Xüsusilə yerli sənaye formalaşması iş yerlərinin yaradılması üçün əlverişli şərait yaradır. Bu, regionlara ümumi daxili məhsulun həcmini artırmaq üçün bir sıra imkanlar yaradır. Bütün bunları nəzərə alaraq, respublikamızın qeyri-neft sektorunun yüksəldilməsi, eləcə də müasir inkişafa yönəlmiş tədbirlərin görülməsi dövlət tənzimlənməsinin məqsədlərindən biri hesab edilməlidir.

2022–2026-cı illərdə proqnozlaşdırılan ÜDM-in qeyri-neft sektorunda xüsusi çəkisi qeyri-neft sənayesi üzrə hər il orta hesabla 8,3% artacaqdır. Sənaye zonalarının qeyri-neft sənaye istehsalında payı 15% təşkil edəcədir. Həmçinin, 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda da artım olacaqdır. Yaradılacaq əlavə dəyər 2019-cu illə müqayisədə 1,5 dəfə artacaqdır. 2019-cu ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektoru ÜDM-i ürzə payı 2.4% təşkil edib. Ölkəyə gələn turistlərin sayında da irəliləyiş olmuş, 2011-ci ildəki 1,6 mln nəfərdən artaraq 2019-cu ildə 2,9 mln. nəfərə çatmışdır. Həmçinin, son illərə nəzər yetirsək, 2022-ci ilin yanvar ayından sentyabr ayına qədər daxili turist səfərlərinin sayı 2021-ci ilə nisbətən 33,3% artaraq 13 767,6 minə çatmışdır [3]. Beləliklə, statistik göstəricilərinə nəzər yetirəndə görürük ki, turizm sahəsi artıq insanların zəruri tələbatına çevrilmişdir. Daxili turizmdə Dövlət Statistika Komitəsinin statistik göstəricilərə əsasən turizm səfərləri etmiş şəxslərin 2021-

ci ildə 3394500 nəfər idisə, 2022-ci ildə 28.8 faiz artaraq 4371800 nəfər olmuşdur. Səyahət müddəti üzrə səfərlərin bölgüsü isə 2021-ci ildə 13703400 səfər idisə, 2022-ci ildə 29.7 faiz artaraq 17777700 səfər təşkil etmişdir. O cümlədən, bir günlük gecələmə 2021-ci ildə 2083200 gecə idisə, 2022-ci ildə 84.7 faiz artaraq 3847000 gecə olmuşdur. 3 günə kimi gecələmə 2021-ci ildə 5177100 gecə idisə, 2022-ci ildə 13.3 faiz artaraq 5868100 gecə olmuşdur. 7 günə kimi gecələmədə isə 2021-ci ildə 4195000 gecə idisə, 2022-ci ildə 27.6 faiz artaraq 5352300 gecə olmuşdur. Gecələmələrin yerləşmə vasitələri üzrə bölgüsünə gəldikdə isə 2021-ci ildə 54442600 gecə idisə, 2022-ci ildə 23.6 faiz artaraq 67303700 gecə olmuşdur. Həmin gecələmələr üzrə 2022-ci il üçün 67303700 gecənin 1 722400 gecələməsi hotellərdə, 9 466500 gecələməsi kirayə götürülmüş evlərdə, 37 635900 gecələməsi qohumların və ya dostların evində, 18 478900 gecələməsi özünə və ya ailə üzvlərinə məxsus mənzillərdə olmuşdur. Səfərlərin məqsədinə baxdıqda isə maraqlı göstəricilər ilə qarşılaşırıq. İstirahət və əyləncə məqsədilə edilən səfərlər 2021-ci ilə 3265200 səfərə nəzərən 60 faiz artaraq, 2022-ci ildə 5231200 səfər təşkil olunmuşdur. Göründüyü kimi, inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da turizm qeyri - neft sektorunda əsas böyük sahə hesab edilir.

Bu gün Azərbaycanda turizmin digər turizm növləri ilə yanaşı, aqroturizmin inkişafı üçün də münbit şərait mövcuddur. Lakin bu sahənin inkişafı hələlik digərlərindən zəifdir. Aqroturizmi inkişaf etdirmək üçün dünya təcrübəsinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Dünya təcrübəsi, diqqət etsək görərik ki, aqroturizm yerli icmaların, kənd və rayonların, bütünlükdə ölkənin davamlı sosial-iqtisadi və mədəni inkişafında önəmli rol oynayır. Turizm potensialından, əsasən kənd əhalisinin məşğulluğunu artırmaq, gəlirlərini yaxşılaşdırmaq və şaxələndirmək üçün istifadə etmək mümkündür. Bu gün Azərbaycanda turizmin digər turizm növləri ilə yanaşı, aqroturizmin inkişafı üçün də münbit şərait mövcuddur. Lakin bu sahənin inkişafı hələlik digərlərindən zəifdir. Aqroturizmi inkişaf etdirmək üçün dünya təcrübəsinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Dünya təcrübəsi diqqət etsək görərik ki, aqroturizm yerli icmaların, kənd və rayonların, bütünlükdə ölkənin davamlı sosial-iqtisadi və mədəni inkişafında önəmli rol oynayır. Aqroturizm kənd təsərrüfatı və turizm sektorlarının kəsişməsindən meydana gələn xidmət sahəsi olub və kənd əhalisi üçün əsaslı investisiya tələb etməyən, var olan resurslardan istifadə edərək yeni gəlir mənbəyidir. Aqroturizm dedikdə, kənd turizmin bir hissəsi olub, turistləri kənd həyatına cəlb etmək və kənd təsərrüfatında yaşamaları üçün əlverişli şərait yaratmaqdan ibarətdir. Aqroturizmin faydaları olduqca genişdir. Aqroturizmin əsas üstünlüyü ondan ibarətdir ki, kənd əhalisi öz yerli məhsullarından həmçinin mövcud imkanlarından istifadə etməklə iqtisadi çətinliklərini aradan qaldırmağa kömək edir. Turistlər də aqroturizmi seçməyə maraqlıdırlar. Çünki əksər turistlər şəhərdə tapa bilmədiyi bir çox təbii orqanik məhsulların axtarışındadırlar. Əksər turistlər şəhər həyatının gərginliyindən uzaqlaşıb ailə üzvləri və yaxın dostları ilə birlikdə əyləncəli vaxt keçirmək üçün, təbiətlə bütünləşib, meşədə, göl qırağında vaxt keçirmək imkanı üçün, təmiz hava almaq üçün, həmçinin də təbii məhsularla qidalanmaq imkanı üçün regionlara üz tutaraq əyləncə və macəra axtarışındadırlar. Aqroturizm dörd əsas elementi əhatə edir. Birincisi, turizm və kənd təsərrüfatı sektorlarının əsas xüsusiyyətlərini birləşdirir. İkincisi, ictimaiyyət nümayəndələrini kənd təsərrüfatı işlərinə baş çəkməyə cəlb edir. Üçüncüsü, təsərrüfat gəlirlərinin artırılması nəzərdə tutulur. Dördüncüsü isə, ziyarətçilərə zövq, əyləncə və tətil təcrübəsi təqdim edir. Aqroturizmə kimlər maraq göstərir sualına cavab axtarsaq, maraqlı tərəflər ilə qarşılaşacağıq. Uşaqlı ailələr uşaqlarının sağlamlığı üçün təmiz əlverişli hava gəzintisinə maraqlıdırlar. Yaşlı adamlar üçün ən önəmli təsvir təbiətin səsidir. Məhz bu zaman onlar təbiətlə bütünləşib daha çox istirahət edirlər. Gənclər gəldikdə isə daha çox əyləncəli vaxt keçirmək üçün, fərqli təcrübə yaşamaq üçün maraqlıdırlar. Macəra sevənlər üçün aqroturzim isə bir başqa maraqdır. Onlar burda, ov etmək, gəzmək və təbiətlə iç-içə olmaq üçün çox həvəslidirlər. Aqroturizm fəaliyyətinə kənd təsərrüfatlı ilə məşğul olan, ünsiyyətə maraqlı, inkişafa meyilli istənilən şəxs başlaya bilər.

Aqroturizm sahəsində uğurlu nailiyyətlər əldə etmək üçün turistlərə kənd təsərrüafatı və xidmətləri seçdiyi üçün fərqli və keyfiyyətli xidmətlər göstərilməlidir. Bunun üçün də var olan xidmətləri təqdim edərkən resusların qiymətləndirilməsi önəmlidir. Əgər hər hansı bir kənddə göl, çay, şəlalə, dağ, meşə, mənzərəli guşə və s. kimi təbii resurslar varsa, bu imkanlardan da yararlanaraq yerli əhali aqroturizm məhsullarını hazırlaya

bilər və bunun üçün də sadəcə ilkin müsbət addım tur agentliklərini məlumatlandırmaqdır. Aqroturizm sahəsi ilə bağlı digər qonşu ölkələrin təcrübəsindən faydalanaraq yeni aqroturizm məhsulları hazırlana bilər. Bu strategiyada yerli əhali həmçinin həmin ölkənin yerli hakimiyyət orqanları ilə münasibətini gücləndirərək tarix və mədəni abidələrə turlar təşkil edə bilər [4], [5].

Ölkəmizdəki bütün iş yerlərinin 36%-ni kənd təsərrüfatı, 1.5%-ni isə turistlərin yerləşdirilməsi və ictimai iaşə məşğulluğu təşkil edir. Bu mənada yoxsulluğun aradan qaldırılmasının əsas strategiyalarından biri də qeyri-neft iqtisadiyyatının davamlı inkişafında kənd təsərrüfatı və turizmin inkişafı dayanır. Kənd təsərrüfatı ilə məşğul olan əhalinin turizm sektoru ilə əlaqəsinin düzgün qurulması regionların sosial-iqtisadi inkişafında və iqtisadiyyatın şaxələndirilməsində əsaslı rol oynayan amillərdən biri kimi göstərilə bilər. Çünki aqroturizm kənd təsərrüfatı və turizm sektorlarının kəsişməsindən meydana gələn xidmət sahəsi olub, fermerlər üçün əsaslı investisiya tələb etməyən, mövcud resurslardan istifadə edən yeni gəlir mənbəyidir. Turizm sənayesinin potensialından əsasən kənd əhalisinin məşğulluğunu artırmaq, gəlirlərini yaxşılaşdırmaq və şaxələndirmək üçün istifadə etmək mümkündür.

**Nəticə**

Qeyri-neft sənayesinin inkişaf etdirilməsi Azərbaycanın milli iqtisadiyyatının davamlı inkişafında və təhlükəsizliyinin təmin olunmasında vacib rola malik olmalıdır. Burada əsas diqqət qeyri-neft sənayesinin inkişafı üzrə iqtisadiyyatın şaxələndirilməsi tələbidir. Bu səbəbdən dövlətin qarşısında duran vacib məsələlərdən biri də şaxələndirmə prosesinin sürətləndirilməsidir. Bu sahədə əhəmiyyətli addım olaraq ayrı-ayrı bölgələrin inkişafına diqqət yetirilməlidir. Azərbaycanda turizmin inkişafı üçün potensial çox böyükdür. Turizmlə bağlı çoxsaylı sənaye sahələrinin inkişafının əsasını füsunkar təbiət, müxtəlif iqlim tipləri, tarixi yerlər, zəngin milli mətbəxt, xalqımızın böyük mədəniyyəti və digər elementlər təşkil edir. Qeyd edilən bütün elementləri nəzərə alaraq turizm potensialından əsasən kənd əhalisinin məşğulluğunu artırmaq, onların gəlirlərini yaxşılaşdırmaq və fəaliyyətlərini şaxələndirmək üçün istifadə etmək mümkündür. Bu səbəbdən də ölkəmizdə ekoturizmin və aqroturizmin inkişafı üçün geniş imkanlar mövcuddur. Bu sahənin inkişafını sürətləndirmək üçün investisiya təminatı əhəmiyyətli dərəcədə artırılmalıdır. Hər bir bölgənin ayrıca olaraq özünəməxsus aqroturizm strategiyası hazırlanmalı, burada yerli əhalinin, orta fermerlərin və sahibkarların iştirakı təmin edilməli, imkan və maraqları nəzərə alınmalıdır. Onlar məsələnin mərkəzinə qoyulmalı və əlaqələr təmin edilməlidir. Dünya dövlətlərinin təcrübəsi göstərir ki, bu sahələrə diqqət edən Kanada, Almaniya, Avstraliya və s. ölkələr aqroturizmin inkişafı nəticəsində on milyardlarla dollar gəlir əldə edirlər. Düzgün reklam və marketinq işlərinin görülməsi, turizm fəaliyyətində düşüncələrinin formalaşması, turizm təhsilinə maraq görtərilməsi, əcnəbi turistlərin cəlbi üçün xarici dil biliyinin inkişaf etdirilməsi və beynəlxalq turist bazarına çıxış imkanları dəyərləndirilsə, ölkəmizdə də aqroturizmin inkişafı sahəsində müsbət və gəlirli nəticələr əldə etmək mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI:

1. “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 29 yanvar 2019-cu il. №500
2. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında. Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı Bakı şəhəri, 22 iyul 2022-ci il №3378
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Əsas iqtisadi göstəricilər, qeyri-neft sektorunun inkişafı 2022;
4. Uğurlu Aqroturizm Müəssisələri üçün Bələdçi (A Guide to Successful Agritourism Enterprises); Müəllif: Təsərrüfat əsaslı Təhsil Şəbəkəsi, Shelburne təsərrüfatı, Vermont Extension Universiteti (The Farm-Based Education Network, Shelburne Farms, University of Vermont Extension);
5. Sznajder, M., & Scrimgeour, F. (2009). Agritourism. Wallingford: CABI.
6. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 06 dekabr 2016
7.
urizm Sənayesinin Təşkili dərs vəsaiti. Yusif

Hümbətov, Fazil Kərimov, Vüqar Qapaqov, Xəyyam Cavadzadə. Bakı-2021

**Арзу Наджаф оглы ГАСАНОВ, проф.**
**Маариф Ариф оглы ГУЛИЕВ**
Азербайджанский Технологический Университет

## СТРАТЕГИЯ РАЗВИТИЯ НЕНЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

### Резюме

В статье рассматриваются теоретические основы стратегии развития ненефтяной отрасли, роль и значение индустрии туризма в развитии ненефтяной отрасли, перспективы развития агротуристического сектора в Азербайджане, местные возможности для агротуризма. Также объясняются причины, обуславливающие необходимость стратегии развития ненефтяной отрасли в экономике Азербайджана, стратегический взгляд на развитие индустрии туризма и влияние на социально-экономическое развитие населения в сфере агротуризма.

Одной из основных стратегических задач, стоящих перед Азербайджаном в современное время, является обеспечение развития индустрии туризма, являющейся одним из ведущих направлений ненефтяной промышленности, а также оценка, создание и развитие потенциальных возможностей сфере агротуризма.

**Ключевые слова:** ненефтяная промышленность, потенциал индустрии туризма, сектор агротуризма.

**Arzu Najaf oghlu HASANOV, prof.**
**Maarif Arif oghlu GULIYEV**
Azerbaijan Technology University

## DEVELOPMENT STRATEGY OF NON-OIL INDUSTRY IN AZERBAIJAN

### Summary

The article focuses on the theoretical foundations of the development strategy of the non-oil industry, the role and importance of the tourism industry in the development of the non-oil industry, the development prospects of the agro-tourism sector in Azerbaijan, and local opportunities for agro-tourism. Also, the reasons necessitating the development strategy of the non-oil industry in the economy of Azerbaijan, the strategic view of the development of the tourism industry and the impact on the socio-economic development of the population in the field of agrotourism are explained.

One of the main strategic goals facing Azerbaijan in modern times is to ensure the development of the tourism industry, which is one of the leading divisions of the non-oil industry, as well as the evaluation, creation and development of the potential opportunities of the agrotourism field.

**Keywords:** non-oil industry, tourism industry potential, agrotourism sector

**Arzu Nəcəf oğlu HƏSƏNOV, prof.əvəzi.**
**Maarif Arif oğlu QULİYEV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

# AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAF STRATEGİYASINA UYĞUN OLARAQ TURİZM SƏNAYESİNDƏ AQROTURİZM SAHƏSİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə**

Məqalədə qeyri-neft sənayesinin inkişaf strategiyasının nəzəri əsasları, qeyri-neft sənayesinin inkişafında turizm sənayesinin rolu və əhəmiyyəti, Azərbaycanda aqroturizm sektorunun inkişaf perspektivləri və aqroturizm üçün yerli imkanlar məsələlərinə xüsusi yer verilir. Həmçinin, Azərbaycan iqtisadiyyatında qeyri-neft sənayesinin inkişaf strategiyasını zəruri edən səbəblər, turizm sənayesinin inkişafına strateji baxış və aqroturizm sahəsində əhalinin sosial-iqtisadi inkişafına təsiri öz izahını tapır.

Müasir dövrdə Azərbaycanın qarşısında duran əsas strateji hədəflərdən biri də qeyri-neft sənayesinin aparıcı bölmələrindən biri olan turizm sənayesinin inkişafını təmin etmək, o cümlədən aqroturizm sahəsinin potensial imkanlarının qiymətləndirilməsi, yaradılması və inkişaf etdirilməsi əsas istiqamətlərdəndir.

**Açar sözlər:** qeyri-neft sənayesi, turizm sənayesinin potensialı, aqroturizm sektoru

**JEL: L83**

## Giriş

Müasir dövrdə istənilən dövlətin inkişafı onun gələcəyə hədəflənmiş və düşünülmüş strategiyaya malik olmasından asılıdır. Azərbaycan dövlətinin də qarşısında duran əsas hədəf dünya ölkələrinin inkişaf sürəti ilə ayaqlaşıb düşünülmüş strategiya seçərək geriliyə yol verməməkdir. Burada əsas məqsəd isə neft və qaz ixracından mövcud asılılığı aradan qaldırmaq, qeyri-neft sənayesinin inkişafına nail olmaq, iqtisadiyyatın səmərəliliyini artırmaq və innovasiya əsaslı irəliləyişi təmin etməkdən ibarətdir. Reallıq budur ki, müstəqillik əldə etdikdən sonra əsas diqqət neft və qaz sektoruna yönəldildiyi üçün bu sahənin digər sahələrdən daha üstün səviyyədə inkişaf etməsinə şərait yaranmışdır. Nəticədə neft amilinin rolu sürətlə artmış, bu sahəyə yatırılan xarici investisiyaların həcmi böyümüşdür. Buna baxmayaraq, neft sektorunun inkişafı iqtisadiyyatın digər sahələrinə də müsbət təsir göstərmişdir. Bildiyimiz kimi, neft və qazın bərpa olunmayan maddi resurs olması və son dövrlərdə inkişaf etmiş ölkələrin dördüncü sənaye inqilabına sürətlə keçidi dünya neft bazarından asılılığın azaldılması, həmçinin neftin qiymətində olan dəyişiklikləri də nəzərə alsaq, qeyri-neft sənayesinə daha diqqətlə yanaşmanın zəruriliyini açıq şəkildə göstərmişdir. Ölkəmizin fiziki coğrafi mövqeyi, relyefi, iqlimi, mövcud imkanları, təsərrufat şəraiti və s. təhlil edilərək uyğun yanaşmalar əsasında qeyri-neft sənayesinin inkişaf strategiyası daim işlənməlidir və qurulmalıdır. Bu səbəbdəndir ki, qeyri-neft sənayesinin inkişafı üçün əlverişli mühitin yaradılması və özəl sektorun iqtisadi fəallığının stimullaşdırılması hazırda dövlətin qarşısında duran mühüm vəzifələrdən biri sayılır. Azərbaycan iqtisadiyyatında qeyri-neft sənayesinin inkişaf strategiyasını zəruri edən bir çox səbəblər var ki, bura iqtisadiyyatın davamlı inkişafını təmin etmək, maliyyə dayanıqlığının güclənməsinə şərait yaratmaq, ölkədə yaşıl enerji məkanı qurmaq, əhalinin sosial problemlərini həll etmək, vətəndaşların maddi rifahının yaxşılaşmasını daim diqqətdə saxlamaq, sosial-iqtisadi inkişafa nail olmaq və s. daxildir. Düzdür sosial-iqtisadi inkişafda neft və qaz sərvətinin varlığı danılmaz faktordur. Lakin davamlı inkişaf və ölkənin uğurlu gələcəyinin təminatı üçün Azərbaycanda qeyri-neft sənayesinin tərəqqisi sosial-iqtisadi inkişaf strategiyasının əsas tərkib hissəsi olmalıdır. Qeyri-neft sənayesinin inkişafının obyektiv zəruriliyi milli iqtisadiyyatda ilk növbədə dövlət büdcəsinə daxil olmaların tarazlaşdırılması, regionların inkişafı və həmçinin alternativ ixrac sektorunun formalaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, qeyri-neft sektorunun inkişaf etdirilməsi bazar konyukturunda baş verən dəyişikliklərdən milli iqtisadiyyatın sığortalanması məqsədilə alternativ variantların reallıqda tətbiqini özündə əks etdirir. Qeyd olunmalıdır ki, qeyri-neft sektorunun

inkişafına yönəldilmiş hər bir dəstək ölkədə neftin keçmiş əhəmiyyətini itirəcəyi bir şəraitdə öz strateji əhəmiyyəti ilə seçiləcəkdir. Buna görə də, cari şəraitdə neftdən gələn gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi, neftlə bağlı olmayan sahələrin inkişafına investisiyaların yönəldilməsi çox mühüm strateji əhəmiyyətə malikdir

Strategiya dedikdə ümumi yol xəritəsinin seçilməsi, gələcəyə yönəlmiş fəaliyyətlər, strategiyanın müəyyənləşdirilməsi və prioritetlərin təyin edilməsi, strateji çərçivələrə daxil edilmiş fəaliyyətlər və fəaliyyətlərə qoyulmuş hədəflər, hədəflərə çatmaq üçün qəbul edilmiş qərar və hərəkətlər paketi yəni strateji planlaşdırma və idarəetmə sahəsində dövlət proqramları nəzərdə tutulur. Bu sahədə qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulmuş vəzifələrin icrası qeyri-neft sənayesinin inkişafına təkan vermişdir. Belə ki, ölkə iqtisadiyyatının bütün sahələrini əhatə edən "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı" və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın işlənib hazırlanması diqqətin qeyri-neft sənayesinin inkişafına yönəldilməsidir. Neft sektorunun gəlirlərinin səmərəli istifadə sayəsində qeyri-neft sektoruna yönləndirilməsi çox böyük uğurlara gətirib çıxarıb. Statistik göstəricilərə nəzər yetirsək görərik ki, 2012-ci ildən 2021-ci ilə kimi qeyri-neft ÜDM-i hər il orta hesabla 3,5% artmışdır. Belə ki, 2011-ci ildəki göstərici 25,4 mlrd manatdan 2021-ci ilə 57,8 mlrd. manata çatmışdır. Bu da qeyri-neft sektorunda olan payı 2011-ci ildəki 48,8%-dən 2021-ci ildə 62,2%-ə çatmışdır. Bu dövrdə iqtisadi artıma baxdıqda qeyri-neft sənayesi 2,3 dəfə böyümüşdür [1], [2].

Coğrafi relyefinin əlverişli olması, təbii iqlim şəraitinin mövcud olması, beynəlxalq nəqliyyat şəbəkəsinin inkişaf etməsi, təbii maddi resurslar ilə zəngin olması, insan kapitalının inkişafı etdirilməsi, enerji təhlükəsizliyinin formalaşdırılması, böyük iqtisadi bazaya malik olması, kənd təsərrüfatı sahələri üzrə ixtisaslaşması ölkəmizin böyük imkanlarından xəbər verir. Biz bu imkanları düzgün qiymətləndirərək qeyri-neft sənayesini sürətlə inkişaf etdirə bilərik. İstər daxili bazarın boşluğu, istər daxili bazarda olan tələbin günü-gündən artması, istər işğaldan azad olmuş ərazilərimizin yenidən bərpası, istərsə də, xarici bazarlara çıxma imkanlarının geniş olması qeyri-neft sənayesinin istənilən sahəsini gəlirli sahəyə çevirmək mümkündür [6].

Bildiyimiz kimi neftin iqtisadiyyatda rolu olduqca təsirlidir. Bu təsir özünü milli iqtisadiyyatda xüsusi hiss etdirir. Belə ki, neft məhsullarının ixrac strukturu sonda bu sahə üzrə ixtisaslaşmış sənayenin sürətli genişlənməsini və bu sahənin xüsusi çəkisini artırır. Nəticədə neft gəlirləri ixrac gəlirlərinin böyük hissəsini təşkil edir ki, sonda bunun milli iqtisadiyyata ciddi təsiri yaranır. Sənayeləşmiş dövlətlərin təcrübəsinə nəzər yetirsək görərik ki, neft-qaz sənayesinə yatırılmış xarici sərmayələr sürətlə genişlənərək şaxələndirilir və neft-qaz sənayesindən formalaşmış dövlət büdcəsi gəlirlərinin səmərəli idarə edilməsi vasitəsilə milli iqtisadiyyatda həlledici rol oynadığını nümayiş etdirir. Bütün bu sıx əlaqəli və eyni zamanda digər iqtisadi sektorlara yönəldilmiş investisiyalarla dövlətin struktur strategiyasının həyata keçirilməsi əhəmiyyətlidir. Burada investisiyaların qoyulması da mühüm rol oynayır. Belə bir şəraitdə iqtisadi inkişafın dinamik və tarazlı saxlanılması xarakteri xüsusilə qeyri-neft sektorunun artımına kömək edir. Bununla belə, qeyri-neft sənayesinin genişləndirilməsi dövlətin neftdən maliyyə asılılığının azaldılmasına istiqamətlənir. Qeyri-neft sənayesinin genişləndirilməsi yoxsulluğun dərəcəsinə və ərazilərin sosial-iqtisadi inkişafına birbaşa təsir göstərir. Həmçinin beynəlxalq bazarda bir istiqamətli deyil, çox istiqamətli məhsul ixracına töhfə verir ki, bu da vaxtında neft qiymətlərinin və ya neftə olan tələbatının azalması kimi dəyişikliklərdən asılılığın azalmasını qoruyur. İstənilən cəmiyyətin, iqtisadiyyatın, dövlətin inkişafında əsas amil kimi insan kapitalı durur. Çünki insanlar hər bir iqtisadiyyatın ən dəyərli resursudur. Hər bir ölkənin gələcəyi öz əhalisinin istedad, bacarıq və iş səriştəsindən asılıdır. XXI əsrdə qlobal iqtisadiyyat dövründə yaşayırıq. Qlobal iqtisadiyyat qida çatışmazlığı, istedad çatışmazlığı və yoxsulluğun müəyyən formalarının məhdudluğu erasına daxil olur. Bu çatışmazlıqlar və məhdudluğun qarşısını almaq üzrə ən əhəmiyyətli addım isə var olan imkanları düzgün dəyərləndirməkdir. Qeyri-neft sənaye sahələri içərisində xüsusi çəkiyə malik olan sahələrdən biri də turizm sahəsidir. İnkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da turizm sənayesi qeyri - neft sektorunda birinci əsas böyük sahə hesab edilir. Turizm anlayışı olduğun ərazidən başqa bir məkana, fərqli bir mühitə, müəyyən müddət ərzində asudə vaxtın səmərəli

keçirilməsi, işgüzar səfər edilməsi, ailəvi dincəlmək, müalicə və terapiya kimi müxtəlif məqsədlər üçün qısamüddətli səyahət kimi başa düşülür. 2022- ci ildəki statistikaya əsaslanaraq deyə bilərik ki, dünya üzrə 1 milyarddan çox turist səyahəti qeydə alınıb ki, bu da son iki ilə nisbətən ən yüksək göstəricidir. Turizm dedikdə ancaq ölkə sərhədləri xaricinə səyahət nəzərdə tutulmur. Turizm beynəlxalq və daxili olaraq iki növə bölünür. Beynəlxalq turizm daha çox yayılsa da, daxili turizmi də yüksək qiymətləndirmək lazımdır. Nəticə olaraq, turizm əsasən daxili səviyyəsində inkişaf etdirilməlidir ki, ölkə dünya turizm sənayesinə inteqrasiya edə bilsin. Turizm sənayesi nəqliyyat kompleksini, otel təsərrufatını, qida sənayesini, suvenir sənayesini, turizm xidmətlərini həyata keçirən turoperator, turagentlik müəssisələri və kənd təsərrufatının bir çox sahələrini özündə birləşdirən müəssisələrin məcmusudur. Turizm sənayesi bir-biri ilə əlaqəli bir neçə komponentdən ibarətdir. Burada iqtisadiyyatın bir sahəsi digərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Məsələn, nəqliyyat infrastrukturunun inkişafı turizm potensialı olan ərazilərdə yeni mehmanxanaların , yeni ictimai iaşə obyektlərinin, sənətkarlıq sahələrinin açılması yeni iş yerlərinin yaradılmasına təkan verir. Son dövrlərin statistik göstəricilərinə nəzər yetirsək, turizm sahəsi artıq insanların zəruri tələbatına çevrilmişdir. Çünki turizm sənayesinin perspektivi çox böyükdür. Həmçinin regionlarının müəyyən turizm potensialı da mövcuddur. Hər bir ölkənin turizm sektoruna təsir edən bir çox meyarlar var ki, Azərbaycanda bu meyarlar mövcuddur. Bura təbii və ekoloji sərvətlər, tarixi yerlər, mədəniyyət, istifadə səviyyəsi, sosial infrastruktur və s. daxildir. Turizm sahəsi populyar və aktiv istirahət növlərini özündə birləşdirir. Hər il minlərlə yeni insan turist və səyahətçilər sırasına qoşulur. İnsanlara görə turizm sektoru səyahət üçün, sanatoriya üçün, kurort və ya tətil üçün, sağlamlığın qorunması üçün, fiziki gücün artırılması üçün və psixoloji yorğunluğu aradan qaldırılması üçün çox vacibdir. Ölkəmizdə əlverişli iqlim şəraiti, müxtəlif relyef formalarının mövcudluğu, zəngin təbii sərvətlər, minlərlə mədəni və tarixi abidələr, Avropa ilə Asiya qitəsinin kəsişməsində yerləşməsi, termal mineral su qaynaqlarının mövcud olması, qış və dağ turizmi üçün dağlıq relyefə malik olması, Milli Parkların mövcudluğu, coğrafi mövqe cəhətdən turist göndərən xarici bazarlara yaxınlığı və əlverişli yerləşməsi, Azərbaycan əhalisinin mehriban, gülərüz, qonaqsevərlik mədəniyyəti, vacib olan siyasi stabilliyin mövcudluğu, müxtəlif dinlərə hörmət, milli-mənəvi dəyərlərin mövcudluğu, qonşu ölkələrdə turizm sahəsinə maraq göstərmələri, müxtəlif sahələr üzrə beynəlxalq yarışlar üçün böyük arenaların mövcudluğu , ekoturizm və aqroturizm kimi fərqli turizm növlərinə olan marağın tədricən artması, nəqliyyat sektorunun bütün sahərinin inkişaf etməsi, yerli əhali arasında istirahət mədəniyyəti düşüncəsinin formalaşması, dünya əhalisinin sürətlə çoxalması nəticəsində gənc nəslin nisbi üstünlüyü və maraq dairələrinin geniş olması, dövlətin də bu sahəyə maraq və diqqət ayırması sayəsində proqramlarının və davamlı inkişaf strategiyalarının hazırlanması, təsdiqi və reallaşdırılması turizm sənayəsinin inkişafı üçün mövcud olan müsbət imkanlarıdır [7].

Dövlət tərəfindən dəstəyin olması qeyri-neft sektorunda sənayeləşmə istiqamətində mühüm addım kimi qiymətləndirilir. Xüsusilə yerli sənaye formalaşması iş yerlərinin yaradılması üçün əlverişli şərait yaradır. Bu, regionlara ümumi daxili məhsulun həcmini artırmaq üçün bir sıra imkanlar yaradır. Bütün bunları nəzərə alaraq, respublikamızın qeyri-neft sektorunun yüksəldilməsi, eləcə də müasir inkişafa yönəlmiş tədbirlərin görülməsi dövlət tənzimlənməsinin məqsədlərindən biri hesab edilməlidir.

2022–2026-cı illərdə proqnozlaşdırılan ÜDM-in qeyri-neft sektorunda xüsusi çəkisi qeyri-neft sənayesi üzrə hər il orta hesabla 8,3% artacaqdır. Sənaye zonalarının qeyri-neft sənaye istehsalında payı 15% təşkil edəcədir. Həmçinin, 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda da artım olacaqdır. Yaradılacaq əlavə dəyər 2019-cu illə müqayisədə 1,5 dəfə artacaqdır. 2019-cu ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektoru ÜDM-i ürzə payı 2.4% təşkil edib. Ölkəyə gələn turistlərin sayında da irəliləyiş olmuş, 2011-ci ildəki 1,6 mln nəfərdən artaraq 2019-cu ildə 2,9 mln. nəfərə çatmışdır. Həmçinin, son illərə nəzər yetirsək, 2022-ci ilin yanvar ayından sentyabr ayına qədər daxili turist səfərlərinin sayı 2021-ci ilə nisbətən 33,3% artaraq 13 767,6 minə çatmışdır [3]. Beləliklə, statistik göstəricilərinə nəzər yetirəndə görürük ki, turizm sahəsi artıq insanların zəruri tələbatına çevrilmişdir. Daxili turizmdə Dövlət Statistika Komitəsinin statistik göstəricilərə əsasən turizm səfərləri etmiş şəxslərin 2021-

ci ildə 3394500 nəfər idisə, 2022-ci ildə 28.8 faiz artaraq 4371800 nəfər olmuşdur. Səyahət müddəti üzrə səfərlərin bölgüsü isə 2021-ci ildə 13703400 səfər idisə, 2022-ci ildə 29.7 faiz artaraq 17777700 səfər təşkil etmişdir. O cümlədən, bir günlük gecələmə 2021-ci ildə 2083200 gecə idisə, 2022-ci ildə 84.7 faiz artaraq 3847000 gecə olmuşdur. 3 günə kimi gecələmə 2021-ci ildə 5177100 gecə idisə, 2022-ci ildə 13.3 faiz artaraq 5868100 gecə olmuşdur. 7 günə kimi gecələmədə isə 2021-ci ildə 4195000 gecə idisə, 2022-ci ildə 27.6 faiz artaraq 5352300 gecə olmuşdur. Gecələmələrin yerləşmə vasitələri üzrə bölgüsünə gəldikdə isə 2021-ci ildə 54442600 gecə idisə, 2022-ci ildə 23.6 faiz artaraq 67303700 gecə olmuşdur. Həmin gecələmələr üzrə 2022-ci il üçün 67303700 gecənin 1 722400 gecələməsi hotellərdə, 9 466500 gecələməsi kirayə götürülmüş evlərdə, 37 635900 gecələməsi qohumların və ya dostların evində, 18 478900 gecələməsi özünə və ya ailə üzvlərinə məxsus mənzillərdə olmuşdur. Səfərlərin məqsədinə baxdıqda isə maraqlı göstəricilər ilə qarşılaşırıq. İstirahət və əyləncə məqsədilə edilən səfərlər 2021-ci ilə 3265200 səfərə nəzərən 60 faiz artaraq, 2022-ci ildə 5231200 səfər təşkil olunmuşdur. Göründüyü kimi, inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da turizm qeyri - neft sektorunda əsas böyük sahə hesab edilir.

Bu gün Azərbaycanda turizmin digər turizm növləri ilə yanaşı, aqroturizmin inkişafı üçün də münbit şərait mövcuddur. Lakin bu sahənin inkişafı hələlik digərlərindən zəifdir. Aqroturizmi inkişaf etdirmək üçün dünya təcrübəsinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Dünya təcrübəsi, diqqət etsək görərik ki, aqroturizm yerli icmaların, kənd və rayonların, bütünlükdə ölkənin davamlı sosial-iqtisadi və mədəni inkişafında önəmli rol oynayır. Turizm potensialından, əsasən kənd əhalisinin məşğulluğunu artırmaq, gəlirlərini yaxşılaşdırmaq və şaxələndirmək üçün istifadə etmək mümkündür. Bu gün Azərbaycanda turizmin digər turizm növləri ilə yanaşı, aqroturizmin inkişafı üçün də münbit şərait mövcuddur. Lakin bu sahənin inkişafı hələlik digərlərindən zəifdir. Aqroturizmi inkişaf etdirmək üçün dünya təcrübəsinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Dünya təcrübəsi diqqət etsək görərik ki, aqroturizm yerli icmaların, kənd və rayonların, bütünlükdə ölkənin davamlı sosial-iqtisadi və mədəni inkişafında önəmli rol oynayır. Aqroturizm kənd təsərrüfatı və turizm sektorlarının kəsişməsindən meydana gələn xidmət sahəsi olub və kənd əhalisi üçün əsaslı investisiya tələb etməyən, var olan resurslardan istifadə edərək yeni gəlir mənbəyidir. Aqroturizm dedikdə, kənd turizmin bir hissəsi olub, turistləri kənd həyatına cəlb etmək və kənd təsərrüfatında yaşamaları üçün əlverişli şərait yaratmaqdan ibarətdir. Aqroturizmin faydaları olduqca genişdir. Aqroturizmin əsas üstünlüyü ondan ibarətdir ki, kənd əhalisi öz yerli məhsullarından həmçinin mövcud imkanlarından istifadə etməklə iqtisadi çətinliklərini aradan qaldırmağa kömək edir. Turistlər də aqroturizmi seçməyə maraqlıdırlar. Çünki əksər turistlər şəhərdə tapa bilmədiyi bir çox təbii orqanik məhsulların axtarışındadırlar. Əksər turistlər şəhər həyatının gərginliyindən uzaqlaşıb ailə üzvləri və yaxın dostları ilə birlikdə əyləncəli vaxt keçirmək üçün, təbiətlə bütünləşib, meşədə, göl qırağında vaxt keçirmək imkanı üçün, təmiz hava almaq üçün, həmçinin də təbii məhsularla qidalanmaq imkanı üçün regionlara üz tutaraq əyləncə və macəra axtarışındadırlar. Aqroturizm dörd əsas elementi əhatə edir. Birincisi, turizm və kənd təsərrüfatı sektorlarının əsas xüsusiyyətlərini birləşdirir. İkincisi, ictimaiyyət nümayəndələrini kənd təsərrüfatı işlərinə baş çəkməyə cəlb edir. Üçüncüsü, təsərrüfat gəlirlərinin artırılması nəzərdə tutulur. Dördüncüsü isə, ziyarətçilərə zövq, əyləncə və tətil təcrübəsi təqdim edir. Aqroturizmə kimlər maraq göstərir sualına cavab axtarsaq, maraqlı tərəflər ilə qarşılaşacağıq. Uşaqlı ailələr uşaqlarının sağlamlığı üçün təmiz əlverişli hava gəzintisinə maraqlıdırlar. Yaşlı adamlar üçün ən önəmli təsvir təbiətin səsidir. Məhz bu zaman onlar təbiətlə bütünləşib daha çox istirahət edirlər. Gənclər gəldikdə isə daha çox əyləncəli vaxt keçirmək üçün, fərqli təcrübə yaşamaq üçün maraqlıdırlar. Macəra sevənlər üçün aqroturzim isə bir başqa maraqdır. Onlar burda, ov etmək, gəzmək və təbiətlə iç-içə olmaq üçün çox həvəslidirlər. Aqroturizm fəaliyyətinə kənd təsərrüfatlı ilə məşğul olan, ünsiyyətə maraqlı, inkişafa meyilli istənilən şəxs başlaya bilər.

Aqroturizm sahəsində uğurlu nailiyyətlər əldə etmək üçün turistlərə kənd təsərrüafatı və xidmətləri seçdiyi üçün fərqli və keyfiyyətli xidmətlər göstərilməlidir. Bunun üçün də var olan xidmətləri təqdim edərkən resusların qiymətləndirilməsi önəmlidir. Əgər hər hansı bir kənddə göl, çay, şəlalə, dağ, meşə, mənzərəli guşə və s. kimi təbii resurslar varsa, bu imkanlardan da yararlanaraq yerli əhali aqroturizm məhsullarını hazırlaya

bilər və bunun üçün də sadəcə ilkin müsbət addım tur agentliklərini məlumatlandırmaqdır. Aqroturizm sahəsi ilə bağlı digər qonşu ölkələrin təcrübəsindən faydalanaraq yeni aqroturizm məhsulları hazırlana bilər. Bu strategiyada yerli əhali həmçinin həmin ölkənin yerli hakimiyyət orqanları ilə münasibətini gücləndirərək tarix və mədəni abidələrə turlar təşkil edə bilər [4], [5].

Ölkəmizdəki bütün iş yerlərinin 36%-ni kənd təsərrüfatı, 1.5%-ni isə turistlərin yerləşdirilməsi və ictimai iaşə məşğulluğu təşkil edir. Bu mənada yoxsulluğun aradan qaldırılmasının əsas strategiyalarından biri də qeyri-neft iqtisadiyyatının davamlı inkişafında kənd təsərrüfatı və turizmin inkişafı dayanır. Kənd təsərrüfatı ilə məşğul olan əhalinin turizm sektoru ilə əlaqəsinin düzgün qurulması regionların sosial-iqtisadi inkişafında və iqtisadiyyatın şaxələndirilməsində əsaslı rol oynayan amillərdən biri kimi göstərilə bilər. Çünki aqroturizm kənd təsərrüfatı və turizm sektorlarının kəsişməsindən meydana gələn xidmət sahəsi olub, fermerlər üçün əsaslı investisiya tələb etməyən, mövcud resurslardan istifadə edən yeni gəlir mənbəyidir. Turizm sənayesinin potensialından əsasən kənd əhalisinin məşğulluğunu artırmaq, gəlirlərini yaxşılaşdırmaq və şaxələndirmək üçün istifadə etmək mümkündür.

**Nəticə**

Qeyri-neft sənayesinin inkişaf etdirilməsi Azərbaycanın milli iqtisadiyyatının davamlı inkişafında və təhlükəsizliyinin təmin olunmasında vacib rola malik olmalıdır. Burada əsas diqqət qeyri-neft sənayesinin inkişafı üzrə iqtisadiyyatın şaxələndirilməsi tələbidir. Bu səbəbdən dövlətin qarşısında duran vacib məsələlərdən biri də şaxələndirmə prosesinin sürətləndirilməsidir. Bu sahədə əhəmiyyətli addım olaraq ayrı-ayrı bölgələrin inkişafına diqqət yetirilməlidir. Azərbaycanda turizmin inkişafı üçün potensial çox böyükdür. Turizmlə bağlı çoxsaylı sənaye sahələrinin inkişafının əsasını füsunkar təbiət, müxtəlif iqlim tipləri, tarixi yerlər, zəngin milli mətbəxt, xalqımızın böyük mədəniyyəti və digər elementlər təşkil edir. Qeyd edilən bütün elementləri nəzərə alaraq turizm potensialından əsasən kənd əhalisinin məşğulluğunu artırmaq, onların gəlirlərini yaxşılaşdırmaq və fəaliyyətlərini şaxələndirmək üçün istifadə etmək mümkündür. Bu səbəbdən də ölkəmizdə ekoturizmin və aqroturizmin inkişafı üçün geniş imkanlar mövcuddur. Bu sahənin inkişafını sürətləndirmək üçün investisiya təminatı əhəmiyyətli dərəcədə artırılmalıdır. Hər bir bölgənin ayrıca olaraq özünəməxsus aqroturizm strategiyası hazırlanmalı, burada yerli əhalinin, orta fermerlərin və sahibkarların iştirakı təmin edilməli, imkan və maraqları nəzərə alınmalıdır. Onlar məsələnin mərkəzinə qoyulmalı və əlaqələr təmin edilməlidir. Dünya dövlətlərinin təcrübəsi göstərir ki, bu sahələrə diqqət edən Kanada, Almaniya, Avstraliya və s. ölkələr aqroturizmin inkişafı nəticəsində on milyardlarla dollar gəlir əldə edirlər. Düzgün reklam və marketinq işlərinin görülməsi, turizm fəaliyyətində düşüncələrinin formalaşması, turizm təhsilinə maraq görtərilməsi, əcnəbi turistlərin cəlbi üçün xarici dil biliyinin inkişaf etdirilməsi və beynəlxalq turist bazarına çıxış imkanları dəyərləndirilsə, ölkəmizdə də aqroturizmin inkişafı sahəsində müsbət və gəlirli nəticələr əldə etmək mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI:

1. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 29 yanvar 2019-cu il. №500

2. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında. Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı Bakı şəhəri, 22 iyul 2022-ci il №3378

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Əsas iqtisadi göstəricilər, qeyri-neft sektorunun inkişafı 2022;

4. Uğurlu Aqroturizm Müəssisələri üçün Bələdçi (A Guide to Successful Agritourism Enterprises); Müəllif: Təsərrüfat əsaslı Təhsil Şəbəkəsi, Shelburne təsərrüfatı, Vermont Extension Universiteti (The Farm-Based Education Network, Shelburne Farms, University of Vermont Extension);

5. Sznajder, M., & Scrimgeour, F. (2009). Agritourism. Wallingford: CABI.

6. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 06 dekabr 2016

7.

urizm Sənayesinin Təşkili dərs vəsaiti. Yusif

Hümbətov, Fazil Kərimov, Vüqar Qapaqov, Xəyyam Cavadzadə. Bakı-2021

**Арзу Наджаф оглы ГАСАНОВ, проф.**
**Маариф Ариф оглы ГУЛИЕВ**
Азербайджанский Технологический Университет

## СТРАТЕГИЯ РАЗВИТИЯ НЕНЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

**Резюме**

В статье рассматриваются теоретические основы стратегии развития ненефтяной отрасли, роль и значение индустрии туризма в развитии ненефтяной отрасли, перспективы развития агротуристического сектора в Азербайджане, местные возможности для агротуризма. Также объясняются причины, обуславливающие необходимость стратегии развития ненефтяной отрасли в экономике Азербайджана, стратегический взгляд на развитие индустрии туризма и влияние на социально-экономическое развитие населения в сфере агротуризма.

Одной из основных стратегических задач, стоящих перед Азербайджаном в современное время, является обеспечение развития индустрии туризма, являющейся одним из ведущих направлений ненефтяной промышленности, а также оценка, создание и развитие потенциальных возможностей сфере агротуризма.

**Ключевые слова:** ненефтяная промышленность, потенциал индустрии туризма, сектор агротуризма.

**Arzu Najaf oghlu HASANOV, prof.**
**Maarif Arif oghlu GULIYEV**
Azerbaijan Technology University

## DEVELOPMENT STRATEGY OF NON-OIL INDUSTRY IN AZERBAIJAN

**Summary**

The article focuses on the theoretical foundations of the development strategy of the non-oil industry, the role and importance of the tourism industry in the development of the non-oil industry, the development prospects of the agro-tourism sector in Azerbaijan, and local opportunities for agro-tourism. Also, the reasons necessitating the development strategy of the non-oil industry in the economy of Azerbaijan, the strategic view of the development of the tourism industry and the impact on the socio-economic development of the population in the field of agrotourism are explained.

One of the main strategic goals facing Azerbaijan in modern times is to ensure the development of the tourism industry, which is one of the leading divisions of the non-oil industry, as well as the evaluation, creation and development of the potential opportunities of the agrotourism field.

**Keywords:** non-oil industry, tourism industry potential, agrotourism sector

**Əkrəm Niyazi oğlu HƏSƏNZADƏ**
Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
Aqrar Tədqiqatlar Mərkəzinin Analitika Departamenti

# AQRAR SEKTORDA İNNOVASİYA ƏSASLI YAŞIL ENERJİNİN TƏTBİQİ PRESPEKTİVLƏRİ

**Xülasə**

Məqalədə müasir dövrdə bərpa olunan enerji baxımından ölkənin inkişafı və tərəqqisi üçün əsas amillər və daha çox həyat səviyyəsi və adambaşına düşən enerji istehlakı birbaşa asılılıq kontekstində yerlərdə yaşıl enerjinin çox hissəsi günəşdən alınması, günəş enerjisi, külək və digər yaşıl enerji mənbələrinin təhlili aparılmış və bu əsasda günəş enerjisindən istifadə edilməsi və karbohidratların, zülalların, yağların, sellüloza və liqnini saxlama prosesləri təhlili edilmişdir. Aqrar sektor sistemlərində enerji insan, heyvan, günəş, külək, biokütlə, kömür, gübrə, toxum, aqrokimyəvi maddələr, neft məhsulları, elektrik enerjisi və s. məsələlərin əsasən, mövcud enerjini birbaşa sistemə buraxan müvafiq mənbələr, birbaşa enerji mənbələri kimi təsnif edilərək, bərpa olunan enerjinin kənd təsərrüfatında rolu, külək, günəş və biokütlə bu enerjisinin yığıla bilməsi və fermerlərin uzunmüddətli gəlir mənbəyi kimi, təhlili aparılmışdır. Bu məqalədə, bərpa olunan enerjinin müvafiq ölkədə artan enerji və aqrar sektorda gəlir mənbəyinə çevrilməsinə necə kömək edə biləcəyinə dair bərpa olunan enerjidən istifadənin icmalı verilmişdir.

**Açar sözlər:** bərpa olunan enerji; scopus; bibliometrik; fotosintez, aqrokimyəvi maddələr

**JEL:**

## Giriş

Nəzərə alsaq ki, əkinçilik sistemlərində bərpa olunan enerjinin istifadəsi bir neçə fərqli amillərə əsaslanaraq proqrissiv məna verə bilər. Məsələn, əgər neft kimi qalıq yanacaqlar bərpa olunmursa, onda müvafiq ərazidə torpağı gübrələmək üçün alternativ yollar axtarmaq və tapmaq lazımdır. Lakin, unutmaq olmaz ki, kimyəvi maddələrdən asılı olmayan və zərərvericilərə qarşı mübarizə adətən bərpa olunan mənbələrdən istifadəni nəzərdə tutur. Məhz bu cür üsullar kənd təsərrüfatı sektorunda fermerlərin neftin bahalaşması qarşısında heç bir addım ata bilmirlər və onların bu məsələdə dözüm həssaslığını çox azdır.

## Bərpa olunan enerjinin əkinçilik sistemində istifadəsi

Artıq sirr deyil ki, bərpa olunan enerjiyə həmçinin bir sıra təsərrüfat işlərini yerinə yetirmək üçün enerji istehsalı daxildir və bura aid edilir:

- suvarma, heyvandarlıq və ya məişət istifadəsi üçün suyun istifadəsi;
- təsərrüfat binalarının işıqlandırılması;
- emal əməliyyatlarını daha güclü və səmərəli etmək və s.

Bərpa olunan enerjinin bu formalarına günəş enerjisi, külək və su enerjisi, bitkilərdən alınan yanacaq, dayanıqlı mənbələrdən alınan ağac, biokütlənin digər formaları (bitki materialı) və bioqaz (peyin və məhsul qalıqlarının fermentasiyası nəticəsində yaranan qaz) daxil edilə bilər [1. Səh. 19]. Əlbəttə burada günəş enerjisi mühüm əhəmiyyət kəsb edir və yaşıl enerjinin inkişafında çox vacib amil hesab edilir.

Bu baxımdan, günəş enerjisindən məişət, aqrar sektor və aqrar-sənaye fəaliyyəti üçün geniş istifadə demək olar ki, bu da sivil inkişaf baxımından bu gün geniş tətbiq olunur. Kommersiya əsaslı enerji mənbələrinin kəskin çatışmazlığı təhlükəsinin artması və ciddi ətraf mühitin çirklənməsi problemi bərpa olunan enerji mənbələrinin elmi şəkildə istifadəsinə marağı son dövrlər xeyli artırmışdır.

Günəşdən əldə edilən enerji tükənməz və ətraf mühitə ziyan vurmaz məhz, ona görə də, günəş enerjisi texnologiyalarının yaxın gələcəkdə müxtəlif istilik sistemlərinin tətbiqi və mərkəzləşdirilməmiş enerji istehsalı və paylama sistemləri vasitəsi ilə nəqli mühüm rol oynayır və elm aləmi üçün daha çox maraq doğurur [2. Səh. 63].

Yer ərazisinin tutduğu günəşin şüalarının gücü təxminən 1,8 x lOll MW-dır ki, bu da onu ən perspektivli və qeyri-ənənəvi enerji mənbələrindən birinə çevirir. Ölkəmizin əksər hissəsində günəş

enerjisi il boyu bol şəkildə mövcud olur və bütün ölkə üzrə qəbul edilən illik orta gündəlik günəş radiasiyası təxminən 1800 J/sm2/gün təşkil edir. Müxtəlif kənd təsərrüfatı məhsullarının açıq günəş şüaları altında qurudulması, qədim təcrübədir və müvafiq günəş enerjisindən suyun qızdırılması üçün, isidilmə, qurudulma və digər məqsədlər üçün istifadə edilir. Bərpa olunan enerjinin istehsalı kimi, istilik tətbiqləri üçün cihazlar hələ əsrin əvvəlindən öz tətbiqini tapmağa başlamışdır.

Ölkədə günəş sobalarının iki fərqli növünün tətbiqinə daha çox üstünlük verilməsi nəzərdə tutulur və bunlar, dolayı və birbaşa fokuslana bilən növlərin hazırlanması üzərində qurulur. [3. Səh. 29]. Nəzərə alsaq ki, günəş işığının qutuya daxil olduğu şəffaf pəncərəsi olan izolyasiya edilmiş qutudan ibarət dolayı tipli günəş sobaları qənaətbəxş şəkildə istifadə edilir onda, məişət və digər məqsədlər üçün və əsasən, kommersiya məqsədləri üçün istifadə edilə bilməsi çox mənfəətlidir.

Bu cür günəş sobaları hal-hazırda ölkəmizin əksəriyyət ərazilərində yerləşdirilmiş və Azərbaycan Hökuməti tərəfindən kommersiya məqsədli əsaslarla satılır. Aqrar sektorun müxtəlif məhsullarının açıq günəşdə qurudulması günəş enerjisinin ən geniş tətbiqidir. Qurutma sürətini artırmaq və məhsulun keyfiyyətini daha çox yaxşı saxlamaq məqsədi ilə müxtəlif mallar üçün təbii konveksiya və məcburi konveksiya tipli günəş quruducu sistemləri hazırda mövcuddur.

Məcburi konveksiyalı günəş quruducusu havanın hərəkəti elektrik üfleyicisi vasitəsi ilə həyata keçirilir, təbii konveksiya günəş quruducusu isə hava təbii istilik qradiyentinə görə məhsuldan keçir. Günəş fotovoltaik (SPV) texnologiyasında günəş hüceyrəsi adlanan cihaza düşən günəş radiasiyası ətraf mühitin çirklənməsi olmadan birbaşa elektrik enerjisinə çevrilir [4. Səh. 31]. Sonra, casus nasos sistemləri ətraf mühitə zərər vermədən içməli və suvarma üçün suyun qaldırılması üçün idealdır. Bu nasoslar quyularda, çənlərdə, sisternlərdə və ya çaylarda quraşdırıla bilər. DC səth nasosları aşağı başlıqlarda yüksək axın sürətləri üçün nəzərdə tutulur. DC üzən nasoslar geniş axın və müvafiq fövqəladə vacib vəziyyətləri üçün daha uyğundur.

**Aqrar sektorda hidro enerjinin səmərəli istifadə edilməsi**

Aqrar sektorunda fermerlər külək sənayesindəki artımdan faydalanmaq üçün unikal vəziyyətə malikdirlər və bu müvafiq bazardan istifadə etmək üçün, fermerlər külək istehsalçılarına torpaq icarəyə verməklə, öz təsərrüfatları üçün enerji əldə etmək üçün küləkdən istifadə edə və ya özləri külək enerjisi istehsalçısı ola bilərlər [5. Səh. 13]. Fermerlər külək enerjisindən istifadə etməklə öz enerji güclərini yarada bilərlər. Bu baxımdan 400 vattdan 40 kilovat və ya daha çox gücə malik kiçik külək generatorları bütün təsərrüfat ehtiyaclarını ödəyə bilər və ya digər xüsusi proqramlar üçün istifadə edilə bilər.

**Cədvəl-1**

**Dünyanın aparıcı dövlətlərinin külək enerjisindən istifadəsi**

| № | Ölkələr | Potensial, MVt |
|---|---|---|
| 1. | ABŞ | 1795 |
| 2. | Almaniya | 1568 |
| 3. | Hindistan | 821 |
| 4. | Danimarka | 786 |
| 5. | Niderland | 304 |
| 6. | İngiltərə | 265 |
| 7. | İspaniya | 217 |
| 8. | İsveç | 106 |
| 9. | İtaliya | 71 |
| 10. | ÇXR | 58 |

Məsələn, dünyada bir çox ərazilər var ki, orada fermerlər mal-qara üçün suyun əldə edilməsi üçün külək generatorlarından, hal-hazırda səmərəli istifadə edirlər. Elektrik istehsal edən külək generatorlarının köməyi ilə köhnə su nasoslu və fan qanadlı yel dəyirmanlarından daha səmərəli və etibarlı şəkildə istifadə olunur. Onlar həmçinin elektrik xətlərinin uzadılmasından daha ucuzdur və bazarda dizel generatorlarından daha rahat və ucuzdur.

Bu vasitələr kənd təsərrüfatı sektorunda fermerlərə külək turbinlərindən maksimum yararlanmağa imkan verir [6. Səh. 35]. Bir turbin o anda fermanın ehtiyacından daha çox güc istehsal etdikdə, əlavə güc elektrik sayğacını geri çevirərək başqalarının istifadə etməsi üçün elektrik sisteminə qoşula bilir. Turbin fermanın istifadə etdiyindən daha az istehsal etdikdə sayğac adətən olduğu kimi irəli fırlanır. Müvafiq ayın və ya ilin sonunda fermer xalis istehlakı və ya elektrik şirkəti xalis məhsulu ödəyir və əksər hallarda aqrar sektorunda çalışanlar xalis ölçmə qaydaları və qanunları əsasında öz ödənişlərini edirlər.

Su elektrik enerjisi əsasən təbii su axınından əldə edilir və enerji turbinin qanadlarını çevirən suyun düşməsi ilə əmələ gəlir. Turbin enerjini elektrik enerjisinə çevirən generatora qoşulur və sistemin istehsal edə biləcəyi elektrik enerjisinin miqdarı turbindən keçən suyun miqdarından (su axınının həcmi ilə bağlı olur) və suyun "düşdüyü" hündürlükdən asılıdır. Axın və hündürlük nə qədər çox olsa, bir o qədər çox elektrik enerjisi istehsal oluna bilər.

Ona görə hidroenergetika təmiz, məişət və bərpa olunan enerji mənbəyidir və o, ucuz elektrik enerjisi verir və heç bir çirklənmə yaratmır. Qalıq yanacaqlardan fərqli olaraq, hidroenergetika elektrik enerjisi istehsalı zamanı suyu məhv etmir və hidroenergetika artan enerji tələbatını ödəməklə yanaşı, qalıq yanacaqların elektrik enerjisi istehsalını əvəz edə biləcək yeganə bərpa olunan enerji mənbəyidir.

Hidroelektrik sistemlərinin müvafiq ölçüləri və tətbiqi baxımından müxtəlif ola bilər və mikro səviyyədə su elektrik stansiyaları əsasən, su elektrik sistemlərinin ən kiçik növləridir. Onlar 1 kVt ilə 1 MVt arasında elektrik enerjisinin gücünü yarada bilir və emal maşınları, kiçik təsərrüfatlar və icmalar kimi daha kiçik xidmətlərin təchizatı üçün ideal hesab edilir.

Müvafiq olaraq böyük su elektrik enerji sistemləri əsasən, böyük miqdarda elektrik enerjisi istehsal edə bilirlər [7. Səh. 12]. Bu sistemlər əsasən böyük icmaları və şəhərləri elektrik enerji ilə təmin etmək üçün istifadə edilə bilər və edilir.

Unutmaq olmaz ki, aqrar sektor qlobal səviyyədə sudan ən çox istifadə edilən sahədir. Dünyada istifadə olunan suyun 70%-ni kənd təsərrüfatı torpaqlarının suvarılması üçün istifadə edilir. Bir sıra inkişaf etməkdə olan ölkələrdə suvarma bütün suyun istifadəsinin 95%-nı təşkil edir və ərzaq istehsalı və ərzaq təhlükəsizliyi istiqamətində böyük əhəmiyyətə malikdir. Belə ölkələrin əksəriyyətinin gələcəkdə aqrar sektorun inkişafı strategiyaları əsasən suvarılan əkinçilik sahələrinin saxlanılması və daha təkmil hala gətirilməsi və daha da genişləndirilməsi imkanlarından asılıdır.

Digər tərəfdən, aqrar sektorun su ehtiyatlarına artan tələbatı müvafiq təzyiq yaradır və sudan digər istifadəçilərin sektorlarının rəqabəti ilə üzləşir və bu zaman ətraf mühit üçün təhlükə yaranır. Su aşağı və yuxarı axan ölkələr arasında gərginlik yaranır və bu sadəcə olaraq bir amil hesab edilir. Müvafiq olaraq ölkənin rayonlarının may ayında sudan istifadənin 70-90%-nı aqrar sektor sahələri üçün suvarma fəaliyyəti təşkil etdir və bu da suvarılan əkinçilik istiqamətində kəskin rəqabət yaradır.

**Cədvəl-2**

**Azərbaycanda bərpa olunan enerji mənbələrinin potensialı**

| Potensialın növünün sırası | Güc vahidi (MVt) |
|---|---|
| Günəşin enerjisi | >5000 |
| Küləyin enerjisi | >4500 |
| Bioenerji | >1500 |
| Geotermal enerji | >800 |
| Kiçik su elektrik stansiyalar | >350 |

Aqrar sektor üçün istifadə olunan su təbii və ya digər alternativ mənbələrdən gəlir ki, bu da təbii mənbələrə əsaslansaq, yağış və səthi sulara (göllər və çaylar) bölünür [8. Səh. 33]. Bu ehtiyatlardan davamlı şəkildə istifadə edilir və yağış suyu ehtiyatları ərazinin coğrafi və atmosfer şəraitindən asılıdır. Yerüstü şirin su məhdud ehtiyatdır və adətən ətraf mühitə əhəmiyyətli təsir göstərən amillərin bəndlərinin və su anbarlarının mütərəqqi metodlarla tikintisini tələb edir.

Ölkədə digər suvarma sistemlərinə daxil olan suların alternativ mənbələri məişət tullantı suları və drenaj sularının təkrar istifadəsidir. Bununla belə, suvarma üçün təkrar emal edilmiş suların istifadəsi əsasən, əhalinin sağlamlığına və ətraf mühitə bəzi mənfi təsirlər göstərir. Bu təkrar istifadə olunan suyun tətbiqindən, torpağın xüsusiyyətlərindən, iqlim şəraitindən və aqrotexniki təcrübədən asılı olan məsələdir. Ona görə də təkrar istifadə olunan suların idarə olunması bütün bu amillərin nəzərə alınmasını vacib məsələ kimi qəbul etmək lazımdır.

Suvarma üçün suyun təkrar istifadəsi bütün dünyada normal təcrübə hesab edilir. Məsələn Fransada böyük bir layihə var ki, burada gündə 10.000 m3-dən artıq üçüncü dərəcəli təmizlənmiş şəhər tullantı sulardan qarğıdalının suvarılması üçün istifadə olunur. İtaliyada 4000 ha-dan çox müxtəlif bitkilər təkrar emal edilmiş su ilə suvarılır. İspaniyada da, bir neçə oxşar layihələr mövcuddur.

Suvarma üçün istifadə olunan suyun keyfiyyəti əkinlərin məhsuldarlığı və kəmiyyətini artırmaq üçün lazımlı amildir və torpağın məhsuldarlığının saxlanılması və ətraf mühitin qorunması üçün vacibdir [9. Səh. 11]. Məsələn, torpağın fiziki və mexaniki xüsusiyyətləri, torpağın quruluşu (aqreqatların sabitliyi) və keçiriciliyi, suvarma zamanı mövcud olan mübadilə ionlarının növünə çox həssas olması məsələsini, nəzərdən qaçmaq olmaz.

Azərbaycan Respublikasında araşdırmalar göstərir ki, ölkənin meşə örtüyü hər il çox sürətlə tükənir və kənd yerlərində bu məsələ ilə bağlı vəziyyət xüsusən ağır sayılır. Meşələrin belə sürətlə qırılması narahatlıq doğurur. Kəsilmiş ağacın bir hissəsi yemək hazırlanması üçün yanacaq rolunu oynayır. Müasir texnologiyaların tətbiqi yerli və sənaye sektorlarında biokütlənin idarə edilməsi və utilizasiyası ilə bağlı müxtəlif problemləri azaldır.

**Nəticə**

Bərpa oluna bilməyən problemin yeganə həlli yolu bu gün az istifadə edilən ucuz və istifadəyə yararlı yaşıl enerji ehtiyatları ilə əvəz edilməsi üçün bərpa olunan enerji mənbələrini axtarıb tapmaqdır:

- ➢ Günəş enerjisi həqiqətən bərpa olunan enerjinin yeganə ən səmərəli mənbələrdən biridir və ən azı növbəti bir neçə milyard il ərzində bərpa oluna bilən enerji hesab edilir;
- ➢ Külək dəyirmanları, axan su, günəş kollektorları və fotovoltaik elementlərin hamısı bərpa olunan günəş enerjisi mənbələridir və onlardan yeni istifadə texnologiyalarının hazırlanması lazımdır;
- ➢ Ən çox yayılmış günəş enerjisinin kollektorlar vasitəsi ilə yaşıl enerji toplanması təmin edilməli lazımdır;
- ➢ Aqrar sektorun səmərəli gələcək fəaliyyəti üçün, bərpa olunan elektrik enerjisinin əsasən, alternativ enerji mənbəyi kimi baxmaq məntiqlidir və günün tələbi hesab edilə bilər;
- ➢ Aqrar sektor üçün əldə edilən yaşıl elektrik enerjisindən indiki istifadənin nə dərəcədə səmərəli əvəz edə biləcəyi barədə real vəsiyyəti təhlil edərək, hesablamalar aparmaq lazımdır;
- ➢ Ekspertlər konkret bu məsələdə miqdarlar və ya faizlər barədə razılığa gəlməli və aqrar sektorda yaşıl enerji əldə edənlərə dair ümumi məhdudiyyətlər arada qaldırılmalı;
- ➢ Yaşıl enerjini yaradanlar üçün, maliyyə vəsaitlərinə əlçatanlıq kifayət qədər sadə olmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. R.İ.Talışınski, N.M.Əliyev, L.H.Həsənova, R.L.Əlizadə - Bərpa olunan saf enerji mənbələri. Bakı. 2016. Səh. 39
2. S.Q.Əmirov, M.V.Abdulayeva – Külək və günəş enerjisindən istifadə ilə təbii ehtiyatlara qənaət. Bakı.2019. səh. 63
3. R.Əliyev – Alternativ enerji və Ekologiya. Bakı. 2013. Səh. 19
4. M.F.Cəlilov – Alternativ və reyenerativ enerji sistemləri. Bakı. 2016. Səh 31.
5. Gieleck, Mark i, F. Mayes, and L. Prete. “Incentives, Mandates, and Government Programs for Promoting Renewable Energy.” Available [Online] at http://www.eia.doe.gov/cneaf/solar.renewables/rea_issues/incent.html; accessed April, 2018. P. 13.
6. Smith, J. R., W. Richards, D. Acker, B. Flinchbaugh, R. Hahn; R. Heck, B. Horan, G. Keppy, A. Rider, D. Villwock, S. Wyant, and E. Shea. “25 by 25 Agriculture’s Role in Ensuring U.S. Energy Independence.” Available [Online] at http://www.bio.org/ind/25x25.pdf; accessed April, 2019. P. 35
7. ERS/USDA Briefing Room. “Farm and Commodity Policy: Basics of U.S. Agricultural Policy.” Available [Online]

8. Steve, J., A. Severn, B. Raum. "Renewable Portfolio Standard (RPS)." Available [Online] at http://www.awea.org/legislative/pdf/RPS%20factsheet%20Dec% 202007.pdf; accessed April, 2013. P. 33

9. U.S. Department of Energy. "States with Renewable Portfolio Standards." Available [Online] at http://www.eere.energy.gov/states/maps/renewable_portfolio_states.cfm; accessed April, 2019. P. 11.

**Акрам Ниязи оглу ГАСАНЗАДЕ**

## ПЕРСПЕКТИВЫ ПРИМЕНЕНИЯ ИННОВАЦИОННОЙ ЗЕЛЕНОЙ ЭНЕРГЕТИКИ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ

**Резюме**

В статье рассмотрены основные факторы развития и прогресса страны в сфере возобновляемой энергетики в современную эпоху, а также в условиях прямой зависимости уровня жизни и энергопотребления на душу населения, большая часть зеленой энергетики в мест, получаемых от солнца, солнечной энергии, ветра и других источников зеленой энергии, были проанализированы, и на этой основе были проанализированы процессы использования солнечной энергии и процессов хранения углеводов, белков, жиров, целлюлозы и лигнина. В системах сельскохозяйственного сектора энергия поступает от людей, животных, солнца, ветра, биомассы, угля, удобрений, семян, агрохимикатов, нефтепродуктов, электричества и т. д. Исходя из проблем, соответствующие источники, которые выделяют текущую энергию непосредственно в систему были классифицированы как прямые источники энергии, проанализирована роль возобновляемых источников энергии в сельском хозяйстве, возможность сбора энергии ветра, солнца и биомассы, а также как долгосрочный источник дохода для фермеров. В этой статье представлен обзор использования возобновляемых источников энергии и показано, как возобновляемые источники энергии могут способствовать увеличению энергии и доходов в сельскохозяйственном секторе в соответствующей стране.

**Ключевые слова:** возобновляемая энергия; Скопус; библиометрический; фотосинтез, агрохимикаты.

**Akram Niyazi oglu HASANZADE**

## INNOVATION-BASED GREEN ENERGY APPLICATION PROSPECTS IN THE AGRICULTURAL SECTOR

**Summary**

In the article, the main factors for the development and progress of the country in terms of renewable energy in the modern era, and in the context of the direct dependence of the standard of living and per capita energy consumption, most of the green energy in places is obtained from the sun, solar energy, wind and other green energy sources have been analyzed, and on this basis, the solar energy utilization and storage processes of carbohydrates, proteins, fats, cellulose and lignin were analyzed. In agricultural sector systems, energy comes from humans, animals, sun, wind, biomass, coal, fertilizers, seeds, agrochemicals, petroleum products, electricity, etc. Based on the issues, the relevant sources that release the current energy directly into the system were classified as direct energy sources, the role of renewable energy in agriculture, the ability to collect wind, solar and biomass energy and as a long-term source of income for farmers were analyzed. This article provides an overview of the use of renewable energy on how renewable energy can contribute to growing energy and income in the agricultural sector in the respective country.

**Keywords:** renewable energy; Scopus; bibliometric; photosynthesis, agrochemicals.

**Yusif Əbülfət oğlu HÜMBƏTOV, i.e.d, dos.**

**Xəyalə Akif qızı OSMANOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Nuranə Rafiq qızı QURBANOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: hümbetov-1964@mail.ru

# RESPUBLİKAMIZDA AQRAR BAZARLAR VƏ ƏRZAQ MALLARININ İXRACI MƏSƏLƏLƏRİ

**Xülasə**

Aqrar bazarlar kənd təsərrüfatında inteqrasiya münasibətlərinin inkişafının əsasını təşkil edir. Həmçinin aqrar sahənin maddi-texniki bazanın möhkəmləndirilməsinə, , istehsal olunan məhsulların emalı, saxlanılması, çeşidlənməsi və satışının elmi əsaslarla təşkilinə və bazar infrastrukturunun mütərəqqi formalarının tətbiqinin təmin edilməsinə xidmət edir.

Ölkəmizdə ərzaq təhlükəsizliyi ilə bağlı mövcud problemlərə yeni yanaşma və onun inkişaf perspektivlərinin araşdırılması zəruri məsələlərdən biridir. Ölkənin ərzaqla təminatının daxili imkanlar hesabına ödənilməsi, idxaldan asılılığın azaldılması və yerli ekoloji təmiz ərzaq məhsullarının ixrac mexanizminin təkmilləşdirilməsi bu gün aktual problemlərdən sayılır.

**Açar sözlər:** aqrar bazarr, satışın təşkili, bazar infrastrukturu, ərzaq təhlükəsizliyi, idxaldan asılılıq, ixracın genişləndirilməsi

**JEL: O13**

**Giriş**

Hər bir ölkənin iqtisadiyyatının mühüm tərkib hissələrindən biri aqrar bölmə və onun əsasını təşkil edən kənd təsərrüfatıdır. Aqrar bölmə ölkədə iqtisadi və sosial proseslərə təsir edir, əhalinin ərzaq məhsullarına və kənd təsərrüfatı xammallarından hazırlanan geniş xalq istehlakı mallarına, sənayenin bir sıra sahələrinin, xüsusilə də yüngül və yeyinti sənayesinin xammalla olan tələbatının ödənilməsində və deməli, cəmiyyətin sosial-iqtisadi həyatında çox böyük rol oynayır [2 s.129-132].

Bazar iqtisadi münasibətlərinə transformasiya şəraitində sosial-iqtisadi təkmilləşdirmə tədbirlərinin reallaşması regional amillərin düzgün qiymətləndirilməsini tələb edir. Bu proses əslində regional istehsal-satış prosesinin rolunun dəyişməsi ilə şərtlənir. Nəticədə regionlararası istehsal prosesi arasında mütənasibliyin təmin edilməsi və inkişaf perspektivlərinin müəyyən edilməsi zəruri məsələlərdən birinə çevrilir.

Regional inkişaf bilavasitə istehsal olunmuş məhsulların çeşidinin artırılması və satışının təşkili məsələlərinin tənzimlənməsinə şərait yaradır. Odur ki, aqrar sahə məhsullarının satışının təşkili və həyata keçirilməsi üçün vacib struktur olan aqrar bazarların inkişaf etdirilməsi hazırda vacib məsələlərdən biridir.

Hər bir regionun spesifik xüsusiyyətlərinə uyğun tələb və təklifin təsiri ilə formalaşan mübadilə sferasındakı münasibətlər, regional aqrar bazarların iqtisadi mahiyyətinə görə lokallaşdırılmış sosial-iqtisadi prosesləri özündə əks etdirir. Bu baxımdan inkişaf etmiş regional aqrar bazarlar tələbin səviyyəsinə, onun dəyişmə meylinə və inkişaf qanunauyğunluqlarının tənzimlənməsinə şərait yaradılmasına xidmət göstərməlidir. Aqrar bazarların səmərəli fəaliyyəti təklifdən asılı olaraq formalaşır və təklifin stimullaşdırılmasında əsas rol oynayır.

Aqrar sahədə rəqabətqabiliyyətli məhsul istehsalı hesabına regional bazarlarda rəqabət mühiti formalaşır. Aqrar bazar konyukturundan asılı olaraq istehsalçıların mövqeyi müəyyənləşir, tələb və təklif, həmçinin bu baxımdan regionlar arasında mütənasibliyi təmin etmək mümkün olur.

**Respublikamızda aqrar bazarlar**

Müasir qloballaşma şəraitində aqrar bazar iqtisadi proseslərin inkişaf meyllərini qiymətləndirməklə regional bazarların transformasiyası problemləri səmərəli şəkildə həll edilməlidir. Bu baxımdan tələb və təklifin tarazlığının mövcud vəziyyəti və inkişaf meylləri təhlil edilməli, aqrar bazarların inkişaf istiqamətləri araşdırılmalıdır.

Aqrar bazarın formalaşması hər bir ölkənin mövcud iqtisadi və siyasi quruluşunun xüsusiyyətindən asılı olmayaraq onların milli iqtisadi təhlükəsizliyinin vacib tərkib hissəsi sayılan etibarlı ərzaq təhlükəsizliyinin təmin edilməsinin, iqtisadi suverenliyinin, sosial dayanıqlılığının başlıca şərtidir.

Aqrar bazarın formalaşması cəmiyyət üzvlərinin kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatının ödənilməsinə və yerli istehsalının artırılmasına öz müsbət təsirini göstərə bilər. Aqrar bazarda istehsal olunan məhsulun həcmi artdıqca orada fəaliyyət göstərən mülkiyyətçilər öz fəaliyyətlərini genişləndirərək mənfəətlərini artırmağa çalışırlar. Bu baxımdan aqrar bazarın fəaliyyətinin dövlətin iqtisadi maraqlarına uyğunlaşdırılmasının başlıca prinsiplərinin müəyyən edilməsi vacibdir. Çünki, bu sahədə olan əsas problemlərdən biri aqrar bazarın səmərəli inkişaf istiqamətlərinin müəyyənləşdirilməsidir.

Aqrar bazarın formalaşması uzun müddətli prosesdir. Beynəlxalq təcrübə göstərir ki, bazar münasibətləri qurulmadığı təqdirdə hər hansı bir ekstremal şərait istər istehlakçını və istərsə də istehsalçını acınacaqlı vəziyyətə gətirmiş olar. Məhz, bu baxımdan aqrar bazarın tənzimlənməsi mexanizminin, daxili əmtəə istehsalçıların inkişaf səviyyəsinin və istifadə etdikləri texnologiyanın müasir dövrün tələblərinə cavab verməsi, əslində ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi maraqlarına xidmət edir.

Müasir dövrdə aqrar bazar məhsullarının istehsalı və satışı tələb və təklifə, rəqabətə, qiymətə, ticarətin yeni üsullarının tətbiqinə, aqromarketinq tədbirlərinin həyata keçirilməsinə əsaslanmalıdır. Dövlət bu istiqamətdə tənzimləyici rolunu həyata keçirməlidir. Yəni dövlət demokratik prinsiplər əsasında bazar münasibətlərinin qurulması və bazar subyektlərinin normal fəaliyyəti üçün hərtərəfli şərait yaratmalıdır.

Dövlət aqrar bazarı tənzimləməklə istehsalçıların inkişaf səviyyəsinin yüksəlməsinə, əhalinin gəlirlərinin səviyyəsinin yüksəlməsinə, ərzaq məhsullarının qiymətlərinin səviyyəsinin stabilləşməsinə və tədricən aşağı düşməsinə dəstək göstərir. Yəni konkret olaraq dövlət aqrar bazarı tənzimləməklə əslində ölkədə və bütövlükdə dünyada ərzaq çatışmazlığı probleminin aradan qaldırılmasına çalışır.

Ölkəmizdə hazırda ərzaq məhsulları istehsalı mövcud potensiala uyğun deyil. Bunun əsas səbəbi istehsalın təşkili üçün maliyyə çatışmazlığı, sahanin suvarma sisteminin və maddi-texniki bazanın zəifliyi, emal, qablaşdırma və saxlama müəssisələrinin az olması, su çatışmazlığı, qiymət və kredit siyasətində uyğunsuzluqlar, elmi yeniliklərin istehsala tətbiqinin zəif olması və s.-dir. Odur ki, aqrar sahədə məhsuldarlıq və rentabellik aşağı səviyyədədir.

Müstəqilliyin ilk illərində həyata keçirilən torpaq islahatı, təsərrüfatların, emal sənayesinin və xidmət sahələrinin özəlləşdirilməsi həyata keçirilsə də, hələ də aqrar sahədə öz həllini gözləyən problemlər mövcuddur.

**Cədvəl 1**

**Aqrar bazarın əsas iqtisadi göstəriciləri, mln. manatla**

| Göstəricilər | 2015 | 2016 |
|---|---|---|
| Satışın bütün növləri üzrə pərakəndə əmtəə dövriyyəsi | 25721,1 | 30 190,3 |
| O cümlədən: hüquqi şəxslər | 2823,3 | 3 299,0 |
| fiziki şəxslər | 14264,0 | 16 808,1 |
| Ondan:yarmarkalar və kənd təsərrüfatı məhsulları bazarı | 8633,8 | 10 083,2 |

Mənbə: Cədvəl www.stat.gov.az saytının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [109].

Ölkəmizdə aqrar bazarın mövcud vəziyyətinin təhlili göstərir ki, 2016-cı ildə satışın bütün növləri üzrə pərakəndə əmtəə dövriyyəsi 2015-ci ildəki müvafiq göstəricidən 4469,2 mln. manat çox olmuşdur. Satışın bütün növləri üzrə pərakəndə əmtəə dövriyyəsinin strukturunda fiziki şəxslər üzrə göstərici 2016-cı ildə 2015-ci illə müqayisədə

475,5 mln.manat artmışdır. Yarmarkalar və kənd təsərrüfatı məhsulları bazarında da satış dövriyyəsi 2015-ci illə müqayisədə 2016-cı ildə 1449,4 mln. manat artmışdır.

Rəqəmlərdən göründüyü kimi aqrar bazarların fəaliyyəti bu sahəyə dövlət tənzimlənməsi və dəstəyi hesabına ilbəil artan xətlə inkişaf edir. (cədvəl 1). Sonrakı dövrlərdə də bu artım öz tempini saxlamış və 2022-ci ilin yanvar-avqust aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 30874,5 milyon manatlıq, o cümlədən 17426,0 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 13448,5 milyon manatlıq qeyri-ərzaq malları satılmışdır. 2021-ci ilin yanvaravqust ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 2,8 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2,2 faiz, qeyri-ərzaq malları üzrə 3,6 faiz artmışdır.

2022-ci ilin yanvar-avqust aylarında qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların dəyəri əvvəlki ilin eyni dövrü ilə müqayisədə real ifadədə 2,8 faiz artaraq ümumi pərakəndə ticarət dövriyyəsinin 99,7 faizini təşkil etmişdir.

2021-ci ilin yanvar-avqust ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 3,1 faiz, fərdi sahibkarlar üzrə 1,0 faiz, bazar və yarmarkalarda isə 6,3 faiz artmışdır. O cümlədən, ərzaq məhsulları (51,6%), içkilər və tütün məmulatları (4,8%) toxuculuq məhsulları, geyim və ayaqqabılar (13,0%) elektrik malları və mebellər (5,0%) kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları (1,0%) əczaçılıq məhsulları və tibbi ləvazimatlar (2,3%) avtomobil benzini və dizel yanacağı (5,7%) digər qeyri-ərzaq malları (16,6%). . Pərakəndə ticarət şəbəkəsində əhalinin bir nəfəri orta hesabla ayda 383,8 manatlıq, o cümlədən 216,6 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 167,2 manatlıq qeyri-ərzaq malları almışdır.

Ümumi məhsulun ölkə üzrə artmasını ayrı-ayrı sahələrdə də müşahidə etmək olar. Aqrar sahədə həyata keçirilən tədbirlərin, qəbul olunan dövlət proqramlarının, kənd təsərrüfatı istehsalçılarına dövlət tərəfindən verilən subsidiyaların və digər yardımların nəticəsində bu sahənin də ümumi məhsulunda müəyyən artım qeydə alınmışdır.

**Ərzaq mallarının ixracı məsələləri**

Azərbaycanın xarici ticarətində - əsasən xammal və materiallar üstünlük təşkil edir. Ölkəmizdə xarici ticarətin genişləndirilməsində məqsəd xammal satışının rəqabət qabiliyyətli hazır məhsullarla əvəz edilməsi, istehsal sahələrini texniki cəhətdən yenidən qurmaq yolu ilə ixrac edilən məhsulların çeşidini və miqdarını artırmaq və xarici bazarda mövqelərini möhkəmləndirməkdir. İxracın artırılmasına istehsal olunan məhsulların keyfiyyətinin yüksəldilməsi və çəkilən məsrəflərin tənzimlənməsi yolu ilə dünya bazarında rəqabətə davam gətirəcək məhsullar istehsalı hesabına nail olmaq mümkündür.

Müasir şəraitdə istehsal olunan məhsulların istehlakçıya çatdırılması, satışının təşkili bütün istehsal sahələrinin ümdə vəzifəsidir. Bizə yaxşı məlumdur ki, bazar iqtisadiyyatı şəraitində “çevik istehsal sahələrinin” yaradılması iqtisadiyyatın “qızıl qanunu” olan “pul-əmtəə-pul” qanunu ilə nizamlanmalı, istehsal olunan məhsullar tez bir müddətdə realizə olunaraq əldə olunan vəsait təkrar istehsala qayıtmalıdır. Belə olan halda istehsal olunan mallar anbarlarda yığılıb qalmaz və istehsal sahələrinin səmərəli fəaliyyəti təmin olunar, istehsalçı istehsalın həcmini və başqa istehsal sahələrinin yaradılmasını uğurla həyata keçirə bilər.

Ölkəmizdə ixracın təşviqi fəaliyyətini xarici ticarət fəaliyyətinin dövlət tənzimləməsinin əsas istiqaməti kimi qeyd etmək lazımdır. Həmçinin, 2003-cü ildən ölkəmizdə İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan ixracın və investisiyaların Təşviqi Fondu (AZPROMO) fəaliyyət göstərir. Fondun əsas məqsədi qeyri-neft sektoruna xarici investisiyaların cəlbi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasıdır. Qeyd edək ki, AZPROMO öz fəaliyyəti dövründə investisiya təşviqi agentlikləri, ticarət və sənaye palataları ilə sıx əlaqələr qurmuş, dünyanın bir çox ölkəsindən yüzdən çox təşkilatla əməkdaşlıq memorandumları imzalamışdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2016-cı il 6 oktyabr tarixli 401 nömrəli qərarı ilə “Qeyri - neft ixrac təşviqi Qaydası”, təsdiq edilmişdir və hazırda uğurla həyata keçirilməkdədir. Azərbaycan Respublikasında qeyri - neft məhsullarının ixrac təşviqinin həyata keçirilməsi xüsusi əhəmiyyətə malikdir və ixracın həyata keçirilməsinə öz müsbət təsirini göstərir[3].

Aqrar sahənin inkişafı Azərbaycan Prezidentinin ölkə iqtisadiyyatının şaxələndirilməsi strateqiyasının başlıca istiqamətlərindən birini təşkil edib.

Belə ki, ölkə əhalisinin əksər hissəsinin aqrar sektorda çalışması baxımından bu sahənin inkişaf etdirilməsi həm də qeyri-neft sektorunun inkişafı, işsizliyin və yoxsulluğun azadılması, məşğulluğun təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb etməkdədir.

Ölkə əhalisinin əsas kənd təsərrüfatı məhsulları ilə təminatının statistikasına nəzər salsaq görərik ki, bir çöx sahə məhsullarına tələbat olduğuna baxmayaraq, əhalinin bəzi qida məhsulları ilə təminatı hələ də aşağı səviyyədədir.

Azərbaycanda əsas ərzaq məhsullarının illik istehsalı, adambaşına(kq-la)

**Cədvəl 2**

| İllər | Taxıl | Kartof | Tərəvəz | Ərzaqlıq bostan bitkiləri | Şəkər çuğunduru (sənaye emalı üçün) | Meyvə və giləmeyvə |
|---|---|---|---|---|---|---|
| 2010 | 218 | 107 | 133 | 49 | 28 | 82 |
| 2011 | 265 | 104 | 134 | 53 | 28 | 85 |
| 2012 | 298 | 106 | 133 | 47 | 19 | 88 |
| 2013 | 310 | 107 | 133 | 46 | 20 | 92 |
| 2014 | 247 | 87 | 126 | 47 | 18 | 90 |
| 2015 | 174 | 86 | 131 | 50 | 19 | 91 |
| 2016 | 188 | 92 | 129 | 47 | 32 | 90 |
| 2017 | 183 | 92 | 142 | 47 | 41 | 96 |
| 2018 | 205 | 90 | 152 | 40 | 28 | 101 |
| 2019 | 348 | 101 | 173 | 45 | 111 | 92 |

Mənbə: Azərbaycan Kənd Təsərrüfatı Dövlət Statistika Komitəsinin Bakı – 2020 materiallarından istifadə etməklə tərtib olunmuşdur.

Cədvəl 2.-dən göründüyü kimi, Respublikamızda illər üzrə bir çox kənd təsərrüfatı məhsulları (ərzaq məhsulları) istehsalı il ərzində adambaşına bəzi ərzaq məhsullarına görə normaya uyğun və ya bir qədər fərqlidir.

Respublikamızda istehsal olunan məhsulların ixrac coğrafiyasının genişləndirilməsi istiqamətində 2016-cı ildən etibarən yerli malların ənənəvi və xarici bazarlara çıxışını təmin etmək məqsədilə istehsal olunan ərzaq mallarının Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərən portalı yaradılmışdır. Portal istehsalçılar üçün "elektron kabinet" bölməsində informasiya təşkil olunmasını təmin edir (5).

2000-2018-ci illər ərzində KTƏ məhsulları üzrə ixracın cəmi ixracda və qeyri-neft ixracında pay göstəricisində artım müşahidə olunmuş və 2015-ci ildə bu pay 6.3%-ə çatmışdır. 2016- 2019-cu illər ərzində isə bu göstərici devalvasiyanın doğurduğu təsirlərlə 4.6%, KTƏ məhsullarının ixracının qeyri-neft məhsulları üzrə ixracındakı xüsusi çəkisi isə 50-51% civarında tərəddüd etmişdir. Ölkənin kənd təsərrüfatı və ərzaq məhsulları üzrə ixracında əsas yeri pomidor, pambıq (mahlıc, iplik və pambıq parçalar nəzərə alınmaqla), fındıq, xurma və gilas (albalı da daxil olmaqla) tutur. Ölkəmiz müəyyən mənada, əsasən bu kənd təsərrüfatı məhsullarının ixracı üzrə ixtisaslaşmışdır.

Azərbaycandan KTƏ məhsullarının ixracında əsas yeri xammal formasında ixrac olunan təzə tərəvəz və meyvə məhsulları təşkil edir. Buna baxmayaraq, emal olunmuş kənd təsərrüfatı məhsulları da müəyyən xüsusi çəkiyə malikdir. Məsələn, 2019-cu ildə ümumilikdə 158.5 mln. ABŞ dolları məbləğində pambıq ixrac olunmuşdur ki, bunun da, demək olar ki, hamısı emal olunmuş pambıq məhsulunun (mahlıc və iplik) payına düşmüşdür. Fındıq ixracının əksər hissəsi də qabığı təmizlənmiş fındığın (fındıq ləpəsi) payına düşür. Şəkər ixracı isə idxal olunmuş şəkər xammalından (şəkər qamışı) istehsal olunmuş şəkərin ixracından ibarətdir [5].

Qeyd edək ki, KTƏ məhsulları üzrə idxal dəyərinin yarıdan çoxu (54%-i) dənli bitkilərin, tütünün, heyvan və ya bitki mənşəli yağların, süd məhsulları və quş yumurtasının, habelə, şəkər və şəkərdən hazırlanan qənnadı məmulatlarının payına düşür. Hazırkı dövrdə KTƏ məhsullarının ixracında ən böyük pay (65.3%) Rusiya Federasiyasına məxsusdur. Bu bazarın milli ixrac məhsullarının əsas təyinat nöqtəsi olması aşağıdakılarla əlaqədardır:

- böyük istehlakçı kütləsi (əhali - 144 milyon nəfər, 2019-cu il);
- coğrafi yaxınlıq və inkişaf etmiş nəqliyyat sistemi;
- iki ölkə arasında formalaşmış sosial-iqtisadi münasibətlər;
- Avropa Birliyinin Rusiya Federasiyasına qarşı tətbiq etdiyi iqtisadi sanksiyalar.

2019-cu ildə Azərbaycandan Rusiya Federasiyasına ixrac olunan KTƏ məhsulları dəyərinin dörddə üçü (585.5 mln. ABŞ dolları) pomidor, xurma, fındıq, gilas (albalı) və almanın payına düşmüşdür. 2019-cu il üçün Avropa Birliyi ölkələrinə KTƏ üzrə toplam ixracın 93.5%-ni (61.6 mln. ABŞ dolları) fındıq ləpəsi təşkil edir [5]. )

Qeyd edək ki, 2016-2019-cu illər ərzində Azərbaycanda sahibkarlara 17,0 milyon manat ixrac təşviqi ödənmiş, bunun isə təxminən 9 milyon manatı 2019-cu ilin payına düşmüşdür. Ölkə Prezidenti 2016-cı ildə yerli qeyri-neft məhsullarının "Made in Azerbaijan" brendi altında xarici bazarlarda genişmiqyaslı təbliğini nəzərdə tutan fərman imzalamışdır. Bu fərman "Made in Azerbaijan" brendinin tanıdılması və ixracın stimullaşdırılması məqsədilə aşağıdakı mexanizm və ya dəstək tədbirlərini əhatə edir:

- Yeni bazarlara çıxış imkanlarının müəyyənləşdirilməsi, mövcud bazarlarda yerli məhsulların mövqeyinin möhkəmləndirilməsi, habelə bu bazarlara yeni məhsulların təqdim edilməsi məqsədi ilə təşkil olunan ixrac missiyaları 6 gün davam edən səfərlər formasında təşkil olunur, bu səfərlərdə maksimum 30 ixracatçı iştirak edə bilər və hər ixracatçı yalnız bir nümayəndə ilə təmsil olunur. Qeyd edilməlidir ki, səfərlə bağlı bütün xərclər dövlət büdcəsi hesabına ödənilir.
- Ölkədə istehsal olunmuş məhsullarla tanış olmaları və potensial alışları həyata keçirə bilmələri üçün xaricilərin ölkəyə dəvət edilməsi ilə alıcı missiyalarının təşkili.
- Qeyri-neft məhsullarının ixracı üçün mövcud və yeni ixrac bazarlarına çıxış imkanlarının tədqiq olunaraq genişləndirilməsi məqsədi ilə təşkil olunan bazar araşdırmaları. Qeyd edək ki, bir bazar araşdırmasına görə maksimal olaraq 30 min manat dövlət büdcəsi hesabına ödənilir.
- Yerli qeyri-neft məhsullarının "Made in Azerbaijan" brendi altında tanıdılması və təşviq edilməsi məqsədi ilə təşkil olunan beynəlxalq sərgi və yarmarkalarda vahid ölkə stendi ilə, həmçinin fərdi qaydada iştirak.
- Dövlət mülkiyyətində olan və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər vasitəsilə "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə yerli qeyri-neft məhsullarının vahid ad altında xarici ölkələrdə təqdim edilməsi və geniş miqyasda tanıdılması. Bu fəaliyyət hüquqi şəxslərin xarici ölkələrdə yerləşən nümayəndəlik və filialları vasitəsilə həyata keçirilir.
- Xarici ölkələrdə Azərbaycan mənşəli qeyri-neft məhsulları üçün beynəlxalq sertifikatın alınmasına dövlət büdcəsi hesabına dəstək məbləğinin ödənilməsi.
- Tədqiqat-inkişaf proqramlarının dəstəklənməsi ixracyönümlü məhsulların və ya istehsal texnologiyalarının yaradılması və inkişaf etdirilməsi, həmçinin məhsulun istehsal xərclərinin azaldılması və əlavə dəyərinin artırılması məqsədilə həyata keçirilir. Bunlardan başqa, xarici ölkələrdə fəaliyyət göstərən mağazalarda və "Duty Free"lərdə "Made in Azerbaijan" rəflərinin təşkili, yerli qeyri-neft məhsullarının vahid brend ilə dünyada tanıdılması və təşviq edilməsi məqsədi ilə xarici ölkələrin ictimai yerlərində və beynəlxalq KİV-də "Made in Azerbaijan" brendinin təbliği də həyata keçirilir.

Yuxarıda göstərilənlərlə yanaşı, bir çox xarici ölkələrdə ticarət evlərinin açılması da ixracın artırılması baxımından əhəmiyyətli tədbirlərdəndir. Hazırda Ukrayna, Birləşmiş Ərəb Əmirlikləri, Polşa, Belarus, Latviya, Çin, Qazaxıstan və Rusiyada ölkəmizdə istehsal olunan məhsulların satışını həyata keçirən ticarət evləri fəaliyyət göstərir.

Ölkəmizdə mövcud olan təbii iqlim şəraitindən səmərəli istifadə etməklə, müasir texnologiyaların tətbiq edilməsi yolu kənd təsərrüfatı inkişaf etdirilərsə, ölkəyə əsas ərzaq məhsullarının idxalının qarşısı alınar, kənd əhalisinin məşğulluğu və gəlirləri artar [6].

## Nəticə

Bazar iqtisadi münasibətlərinin formalaşdığı şəraitdə aqrar sahənin idarə edilməsi metodlarının dəyişilməsi, tələb olunan məhsulların istehsal edilməsi, iş və xidmətlərin yerinə yetirilməsi ilə yanaşı aqrar bazar siyasəti ilə istehlakçıların tələbatına cavab verən təkliflərə cavab verməsi hazırda obyektiv zərurətə çevrilmişdir.

Müasir dövrdə aqrar bazar məhsullarının istehsalı və satışı tələb və təklifə, rəqabətə, qiymətə, ticarətin yeni üsullarının tətbiqinə, aqromarketinq tədbirlərinin həyata keçirilməsinə əsaslanmalıdır. Dövlət bu istiqamətdə tənzimləyici rolunu həyata keçirməlidir. Yəni dövlət demokratik prinsiplər əsasında bazar münasibətlərinin qurulması və bazar subyektlərinin normal fəaliyyəti üçün hərtərəfli şərait yaratmalıdır.

Dövlət aqrar bazarı tənzimləməklə istehsalçıların inkişaf səviyyəsinin, , əhalinin gəlir səviyyəsinin yüksəlməsinə, ərzaq məhsullarının qiymətlərinin stabilləşməsinə və tədricən aşağı düşməsinə

dəstək göstərir. Yəni, konkret olaraq dövlət aqrar bazarı tənzimləməklə, əslində ölkədə və bütövlükdə dünyada ərzaq çatışmazlığı probleminin aradan qaldırılmasına çalışır.

Bu gün ölkə rəhbərliyinin qarşısında duran əsas məsələlərdən biri aqrar sahənin və onun tərkib hissəsi olan regional aqrar bazarların mövcud problemlərinin aradan qaldırılmasıdır. Bunlara aqrar sahədə iri təsərrüfatların sayının az olması, maddi-texniki təminatın yetərli səviyyədə olmaması, inhisarçılıq və korrupsiyaya meyillərin olması, regional aqrar bazarların inkişaf səviyyəsinin aşağı olması və bu qəbildən olan problemlər aiddir.

Hazırda respublikamızda davamlı iqtisadi inkişafı və sosial - iqtisadi sabitliyi təmin edə biləcək qədər zəngin təbii - iqtisadi, o cümlədən əmək ehtiyatları və zəruri istehsal - texniki potensial mövcuddur. Ölkədə normal aqrar bazarın formalaşdırılması baxımından daha yüksək özünütəminat səviyyəsinə nail olmaq mümkündür.

Azərbaycanın təbii iqlim şəraiti ekoloji təmiz ərzaq məhsulları istehsalı üçün potensial imkanlara malikdirr. Bu gün dünyada ekoloji təmiz məhsullara tələbat artır. Odur ki, ölkəmizdə olan mövcud potensialdan səmərəli istifadə etməklə ərzaq məhsullarının ixracını genişləndirmək mümkündür.

Dünyada baş verən ərzaq çatışmazlığına gəldikdə, ölkəmizin hazırda dünyada ekoloji təmiz qida məhsullarına artan tələbatının ödənilməsində imkanları genişdir və bu sahədə çevik tədbirlərin həyata keçirilməsi hesabına ekoloji təmiz ərzaq məhsulların istehsalının genişləndirilməsi zəruridir.

Dünyada ekoloji təmiz ərzaq məhsullarına böyük ehtiyac olması baxımından Respublikamızda ərzaq malları ixrac mexanizminin təkmilləşdirilməsi yolu ilə xarici ticarəti artırmaq və ölkəyə valyuta axınını təmin etmək vacib məsələlərdəndir.

Beynəlxalq bazarlarda ekoloji təmiz ərzaq məhsullarının xüsusi çəkisinin artması ölkəmizdə bu məhsulların ixracının artırılması üçün əlverişli şərait yaratmışdır. Hesab edirik ki, ölkəmizdə ərzaq məhsulları istehsalı sahəsində ciddi elmi təhlillər aparılmaqla yeni təkliflər işlənib hazırlanmalı, hazırlanmış nəzəri müddəalar əsasında ərzaq bazarına uyğun proqnoz tərtib edilməli, elmi-tədqiqatların nəticələri əsasında xüsusi proqram qəbul olunmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1 Azərbaycanın Statistik Göstəriciləri-2021. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Bakı: 2021.

2.Abbasov A.F. Ərzaq təhlükəsizliyi. Bakı, “Tərəqqi” MMC, 2007, 602 s.

3.Azərbaycan Respublikası Nazirlər Kabineti, 2016-cı il. Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi qaydası

4.Əmrahov V.T. Aqrar bazarda dövlətin struktur siyasətinin iqtisadi mexanizmi. Monoqrafiya. Gəncə 2011, 229 s.

5. www/stat.gov.az

6.http://president.az/articles

**Юсиф Абульфат оглы ГУМБАТОВ, д.э.н.**

**Хаяла Акиф кызы ОСМАНОВА**

**Нурана Рафик кызы ГУРБАНОВА**
Азербайджанский Технологический Университет
E-mail: hümbetov-1964@mail.ru

# СЕЛЬСКОХОЗЯЙСТВЕННЫЕ РЫНКИ И ВОПРОСЫ ЭКСПОРТА ПРОДОВОЛЬСТВИЯ В НАШЕЙ РЕСПУБЛИКЕ

## Резюме

Аграрные рынки являются основой развития интеграционных отношений в сельском хозяйстве. Он также служит укреплению материально-технической базы аграрной отрасли, организации на научной основе переработки, хранения, сортировки и реализации произведенной продукции, обеспечению применения передовых форм рыночной инфраструктуры.

Одним из необходимых вопросов является исследование нового подхода к актуальным проблемам продовольственной безопасности нашей страны и перспективам ее развития. Оплата продовольственного обеспечения страны за счет внутренних ресурсов, снижение зависимости от импорта и совершенствование механизма экспорта местных экологически чистых продуктов питания считаются актуальными проблемами на сегодняшний день.

**Ключевые çлова:** аграрный рынок, организация сбыта, рыночная инфраструктура, продовольственная безопасность, импортозависимость, экспортная экспансия.

**Yusif Abulfat oghlu HUMBATOV, d. e.s.**

**Khayala Akif gizi OSMANOVA**

**Nurana Rafig gizi QURBANOVA**
Azerbaijan Technology University
E-mail: humbetov-1964@mail.ru

## AGRICULTURAL MARKETS AND FOOD EXPORT ISSUES IN OUR REPUBLIC

### Summary

Agrarian markets are the basis for the development of integration relations in agriculture. It also serves to strengthen the material and technical base of the agrarian field, to organize the processing, storage, sorting and sale of manufactured products on a scientific basis and to ensure the application of advanced forms of market infrastructure.

Researching a new approach to the current problems related to food security in our country and its development prospects is one of the necessary issues. Payment of the country's food supply at the expense of internal resources, reduction of dependence on imports and improvement of the export mechanism of local ecologically clean food products are considered to be urgent problems today.

**Key words:** agrarian market, sales organization, market infrastructure, food security, import dependence, export expansion.

**Məhərrəm Cəlal oğlu HÜSEYNOV, i.e.d. professor**

**Sahil Seyfəddin oğlu ALLAHVERDIYEV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: sahilayev1@mail.ru

# EKOLOGİYA VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SİSTEMİNDƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

**Xülasə**

Ekoloji risklər baş vermə ehtimalını ölçmək çətin olan risk növlərindəndir. Hüquqi məsuliyyətə cəlb olunan ən mühüm ekoloji risklər kimyəvi məhsullar istehsal edən fabrik tullantıları və atom elektrik stansiyalarının vurduğu zərərlərdir. Bu cür risklər ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərir. Bu araşdırmada ətraf mühiti təhdid edən və insan sağlamlığı üçün ciddi təhlükələr yaradan ekoloji risk faktorları müzakirə edilir.

**Açar sözlər:** ekoloji risklər, riskin idarə edilməsi, iqtisadi risk təhlili, ətraf mühitin mühafizəsi, ətraf mühit riskləri, tullantı problemi, ekoloji öhdəliklər.

**JEL: O19**

**Giriş**

Bütün müəssisələr fəaliyyətlərinin çirklənmə və ya tullantılardan insan sağlamlığına və ətraf mühitə yarada biləcəyi riskləri idarə etməlidir.

Riskin strukturlaşdırılmış şəkildə idarə edilməsi müəssisələrə kömək edir. Havaya, quruya, suya və yeraltı sulara təsir edə biləcək riskləri, eləcə də səs-küyün vurduğu zərərləri daha yaxşı müəyyən etmək, qiymətləndirmək və nəzarət etmək asanlaşır [1, s.15].

İnsan sağlamlığına və ətraf mühitə zərərin qarşısının alınması, ətraf mühitlə bağlı öhdəliklərə əməl etmək lazımdır.

Ümumi ətraf mühit öhdəliyinə əsasən, sizin məsuliyyətiniz:

– risklərinizi anlayın və qiymətləndirin,
– mümkün qədər onları aradan qaldırın və ya azaldın.

Ətraf mühit riskinizi aradan qaldırmamaq və ya azaltmamaq təmizləmə xərcləri, itirilmiş iş vaxtı, hüquqi ödənişlər, cərimələr və cinayət ittihamları ilə üzləşəcəyiniz anlamına gələ bilər [1, s.23].

Riski necə idarə etmək olar?

Riskləri idarə etməyə yanaşmanız fəaliyyətinizin miqyasından və onların nə qədər mürəkkəb olduğundan asılı olacaq. Bu, həm də idarə etməli olduğunuz risk növlərindən asılıdır.

Bəzi biznes fəaliyyətlərində çirklənmə riski azdır. Bunların insan sağlamlığına və ətraf mühitə zərər vurma potensialı azdır. Məsələn, onlar normal zibil qutularına düşə bilən az miqdarda tullantı istehsal edə bilərlər.

Aşağı riskli fəaliyyətləri olan müəssisələrə aşağıdakılar daxildir:

– pərakəndə və rahat mağazalar
– ofislər
– kafelər
– apteklər.

Bu müəssisələr qanuna riayət etmək üçün sadəcə əsas addımlar atmalı ola bilər. Riski idarə etdiyinizi göstərmək üçün əsas addımlara aşağıdakılar daxildir:

– tullantıları çıxarın
– təmiz saxlayın
– zibil və kimyəvi maddələri fırtına suyu drenajlarından uzaq tutun.

Bəzi müəssisələr insan sağlamlığına və ətraf mühitə orta və yüksək riskli fəaliyyətlərlə məşğul olurlar. Onlar bu riskləri aradan qaldırmaq və ya azaltmaq üçün əlavə addımlar atmalıdırlar [2, s.48].

Orta və yüksək riskli fəaliyyətlərə aşağıdakılar daxildir:

– mayelərin idarə edilməsi və saxlanması
– kimyəvi maddələrin atılması
– tullantıların qəbulu, saxlanması və təmizlənməsi
– sənaye tullantılarının boşaldılması.

Torpağı, yeraltı suları, yerüstü suları və havanı çirkləndirmək riskindən qaçmaq üçün bu fəaliyyətləri düzgün idarə etməlisiniz. Orta və yüksək riskli fəaliyyətləri olan müəssisələr risklərin idarə edilməsi prosesini izləməlidirlər. Ekoloji riskin qiymətləndirilməsi kimyəvi maddələr, torpaqdan istifadə dəyişikliyi, xəstəlik və invaziv növlər kimi bir və ya bir neçə ekoloji stress faktoruna məruz qalma nəticəsində ətraf mühitin təsirinin nə dərəcədə mümkünlüyünü qiymətləndirmək prosesidir [3, s.5].

Hazırda bina seçərkən yer, təhlükəsizlik, prestij və qiymət əsas nəzərə alınan amillərdir. Ekologiya ilə maraqlanan şirkət üçün onun ekoloji göstəriciləri mühüm seçim meyarına çevrilir.

Ətraf mühitlə bağlı qanunvericilik xüsusilə çirklənmə ilə bağlı hər şey baxımından daha sərtləşir, daşınmaz əmlak sektorunun idarə olunması buna görə də təkcə ekoloji deyil, həm də sosial və iqtisadi, davamlı inkişafla bağlı aspektlər baxımından daha mürəkkəbdir. Buna görə də, bir çox əmlak menecerləri inteqrasiya olunmuş idarəetmə yanaşmasını müdafiə edərək davamlı inkişaf yoluna qədəm qoydular [4, s.8].

Daşınmaz əmlak şirkətləri binanın istismarında ekoloji aspektə getdikcə daha həssas olduqlarını nümayiş etdirirlər ki, bu da sakinlərin nəzərində çox vacib hala gəlir. Ekoloji risklərin idarə edilməsi insanları, ətraf mühiti və biznesin gəlirliliyini qoruyarkən biznesi yaxşı idarə etmək üçün yeni üsul təklif edir. Bu proses iqtisadi məsələlər baxımından dərin dəyişikliklərə gətirib çıxarır [4, s.12]..

Risk və qeyri-müəyyənliyin nəzərə alınması arasındakı fərqi bir daha təsdiqləməklə ekoloji risklərin idarə edilməsi çox vaxt elmi əminliyin olmaması ilə xarakterizə olunan ekoloji problemlərin təhlili üçün tam əsaslandırılır.

Profilaktik tədbirlərin həyata keçirilməsi böhranlara nəzarət etmək və əvvəlki vəziyyəti bərpa etməkdən əlavə, "inteqrasiya edilmiş risklərin idarə edilməsi"nin vacib hissəsidir. Ekoloji siyasətə uyğun olaraq, belə münasibət aşağıdakı məqsədlərə malikdir:

– ətraf mühitin qorunması üçün nəzərdə tutulmuş standartlara və qaydalara hörmət etmək;

– yerli sakinlər, icma və dövlət orqanları ilə etimad və hörmət münasibətləri yaratmaqla şirkət və onun ətraf mühiti arasında ahəngdar qarşılıqlı əlaqəni təmin etmək;

– öz imkanlarına uyğun olaraq, təbii mühitin və yaşayış mühitinin mühafizəsi ilə bağlı hər hansı müdaxiləçi ilə əməkdaşlıq edərək ekoloji problemlərin həllində iştirak etmək;

– tam şəffaf şəkildə ünsiyyət qurmaq, ətraf mühitlə bağlı problem haqqında daha yaxşı məlumatlandırmaq və maarifləndirmək;

– tələb olunan sağlamlıq və təhlükəsizlik standartlarına cavab verən iş şəraitinə zəmanət vermək [4, s.57].

Ekoloji riskin qiymətləndirilməsi üç mərhələdən ibarətdir:

1. Planlaşdırma - EPA risk menecerləri, risk qiymətləndiriciləri və digər maraqlı tərəflər arasında dialoqla ümumi yanaşmanı planlaşdırmaqla ekoloji riskin qiymətləndirilməsinə başlayır. Risklərin idarə edilməsi məqsəd və variantlarını müəyyən etmək, narahatlıq doğuran təbii ehtiyatları müəyyən etmək, qiymətləndirmənin əhatə dairəsi və mürəkkəbliyi barədə razılığa gəlmək [5].

2. Risk qiymətləndiriciləri hansı bitki və heyvanların risk altında olduğunu və ya ola biləcəyini və qorunmağa ehtiyacı olduğunu müəyyən etmək üçün məlumat toplayır. Planlaşdırma nəticələrinə əsasən, onlar müəyyən edirlər, zaman və məkan baxımından qiymətləndirmənin əhatə dairəsi, narahatlıq doğuran ətraf mühitin stresləri, qiymətləndiriləcək son nöqtələr (məsələn, balıqçılıq populyasiyasının davamlı mövcudluğu, göllərdə balıq növlərinin müxtəlifliyi, davamlı meşə yaşayış mühiti) və həmin son nöqtələrə görə riskləri qiymətləndirmək üçün hansı ölçülər, modellər və məlumat növü istifadə olunacaq [5].

3. Problemin tərtibi təhlil planı ilə yekunlaşır. Təhlil mərhələsinin iki komponenti məruz qalma və təsirlərin qiymətləndirilməsidir. Təsirə məruz qalmanın qiymətləndirilməsində risk qiymətləndiricisi hansı bitki və heyvanların hər bir ekoloji stressora məruz qaldığını və ya məruz qalma ehtimalını və nə dərəcədə olduğunu müəyyən edir.

Təsirlərin qiymətləndirilməsində risk qiymətləndiricisi məruz qalma səviyyəsi ilə bitkilər və heyvanlar üzərində mümkün mənfi təsirlər arasındakı əlaqəyə dair mövcud tədqiqatları nəzərdən keçirir. Onlar həmçinin mövcud zərərli ekoloji təsirlərin sübutlarını nəzərdən keçirə bilərlər [5].

Ekoloji risklərin idarə edilməsi prosesi modernləşmədən keçən cəmiyyətlər, əlbəttə ki, son əsrlər ərzində belə olmayan hər cür hadisələrə qarşı çox həssasdırlar, buna görə də, ekoloji riskin bir neçə növünü ayırd edirik. Onlar bir-birindən fərqlidirlər və yalnız ümumi ekoloji amil var. Ekoloji risklər şirkətin fəaliyyətinin, eləcə də, təbii və ya qeyri-təbii amilin ətraf mühitə, personala və əhaliyə mümkün təsirləri ilə əlaqələndirilir. Buradakı proses qeyri-müəyyənliyi azaltmağa, gələcəyi təhdid edə biləcəklərini müəyyənləşdirməyə və məhdudlaşdırmağa meyillidir. Amma natamam olaraq qalır.

Şirkətin ekoloji riskləri müəyyən edilməli və onlarla mübarizə aparılmalıdır. Bütün riskləri müəyyən etmək və onlarla mübarizə aparmaq iddiası çətin ola bilər, lakin mandatlı komanda mümkün qədər çox riskdən qaçmaq üçün bunu qismən etməlidir. .

Təbii risklər, təbii mühitin cəmiyyətlər üçün yaratdığı bütün riskləri təyin edir. Ümumiyyətlə, seysmik hadisələr, tufanlar və ya siklonlar, daşqınlar, yanğınlar kimi "təbii" fəlakətlərin hamısını təmsil edir [6].

Təbii risklərin təsvirləri cəmiyyətin ətraf mühitlə saxladığı əlaqəyə uyğun olaraq inkişaf edir, təhlükənin qiymətləndirilməsində, məqbul hədlərin müəyyən edilməsində və qabaqlayıcı tədbirlərin görülməsində böyük rol oynayır [6].

Təəssüf ki, bu riskləri proqnozlaşdırmaq və dəqiqliklə ölçmək çətindir. Təsirlərinə və yerləşməsinə görə təbii risklər bir neçə növə bölünür.

İqlim riskləri, məsələn, hidroloji, iqlim və ya litosfer mənşəli təhlükələrlə bu dinamika üçün əlverişli olan yer səthinin spesifik sektorlarına təsir göstərir [6].

Antropogen risklər - bu sahə əvvəlkinin analoqudur. Risklərin “təbii” və “antropogen” kateqoriyaları arasında müəyyən qədər süni şəkildə bölünməsi çoxlu mübahisələrə səbəb olmaqda davam edir. Bu parçalanma hər şeydən əvvəl təbiət fənləri ilə dialoqu asanlaşdırmaq üstünlüyünə malikdir. Ümumiyyətlə, antropogen risklər ekzogen, fiziki və ya əksər hallarda tənzimləyici standartlarla bağlı qiymətləndirilir [6].

İnsan fəaliyyəti ətraf mühitə təsadüfi təzyiq göstərir və bu təzyiq təbii sistemlər üçün ekoloji və ya fiziki cəhətdən məqbul hədləri və ya qaydalardan irəli gələn qanuni hədləri keçə bilər. Bu risklərin nəticələri də çoxsaylıdır və ümumiyyətlə, iki qrupa bölünür [7].

Birincisi, sığortanın əhatə etdiyi və uzun müddət təsirindən əziyyət çəkdiyi məlum olan sahələr var. Bunlar:

– nitratlarla çirklənmə riskləri,
– pestisidlərin istifadəsi,
– havanın çirklənməsi,
– insan mənşəli bioloji çirklənmə (sanitariya),
– torpağın çirklənməsi (tullantılar və çirkləndiricilər problemləri),
– texnoloji risklər,
– sənaye çirklənməsi qəzaları,
– nüvə enerjisi,
– neft dağılmaları,
– sənaye fəaliyyətinin istixana effektinə təsiri,
– səs-küy,
– vizual çirklənmə,
– nəqliyyat sistemlərinin təsiri,
– ekoloji təsirlər.

İkincisi, sığorta və ya digər maliyyə qurumlarının əhatə etmədiyi sahələr var. Həqiqətən də, dünyanın vicdanını oyatmaq üçün bir çox təşkilatların maarifləndirmə kampaniyaları davam edir. Söhbət aşağıdakılardan gedir:

– biomüxtəlifliyin itirilməsi;
– landşaft təsirləri;
– silahlı münaqişənin ətraf mühitə təsiri;
– biotexnologiyanın və yeni qidaların təsiri;
– kənd təsərrüfatının istixana effektinə təsiri.

Burada antropogen risklərin bəzi tərifləri verilmişdir. Orqanizmin növünə görə bizdə:

Zəhərli risklər: onlar zəhərli məhsulların buraxılması nəticəsində yaranır (məsələn, mayeləşdirilmiş və ya olmayan zəhərli qazlar olan boru kəmərinin, anbarın, reaktorun və s. partlaması və ya qopması nəticəsində). Təsirlər zəhərli qazın inhalyasiyası və ya məhsulların dəri və ya selikli qişalarla təması, həmçinin zəhərli məhsullarla suyun və ya torpağın çirklənməsi ilə əlaqələndirilə bilər [8].

Partlayış riskləri: bunlar xüsusilə mayeləşdirilmiş yanan qaz qurğuları və ya partlayıcı maddələrin və ya partlayıcı məhsulların istifadəsi və saxlanması ilə bağlı

risklərdir. Onların nəticələri birbaşa və ya dolayısı ilə şok dalğasının yayılması nəticəsində yaranan həddindən artıq təzyiq təsirləri, mayeləşdirilmiş və tez alışan yanan qazın tutumunun qırılması halında yanma ilə nəticələnən qısa və intensiv istilik effektləri, həmçinin proyeksiya ilə bağlı təsirlərdir [8].

İstilik riskləri: bunlar xüsusilə böyük tutumlu yanan mayelərin saxlanması ilə əlaqəli risklərdir. Əsas təsirlər yanıqlara səbəb olan termal təsirlərdir. Termal risklər və partlayış riskləri çox vaxt eyni vaxtda mövcuddur [8].

Coğrafi yer, məhsulun keyfiyyəti, təchizatçılar və s. ilə bağlı ola biləcək əməliyyat riskləri. Onlar şirkətin risklərin idarə edilməsi fəaliyyətində getdikcə daha çox iştirak edirlər [8].

Qeyd edək ki, bu sonuncu risklərə daha çox daşınmaz əmlak sektorunda rast gəlinir. Bu təhdidlər bir çox elm adamları və sosial qruplar arasında real düşüncə mənbəyidir ki, onlar bu gün əksər hallarda qlobal problemlərə qarşı davamlı inkişafın yalnız risklərin idarə edilməsi, ətraf mühitlə bağlı daimi məlumatlılıq yolu ilə əldə edilə biləcəyinə inanırlar.

Əsas risklər – təsirlərinin yüksək şiddətindən asılı olaraq, əhali üçün təhlükəli olan təbii və ya antropogen risklərdir və potensial olaraq çox şiddətli və təsiredici təhlükələrdən ibarətdir. Qeyd etmək lazımdır ki, digər tərəfdən, bu xüsusi halların baş vermə ehtimalı ən çox ehtimal olunandan son dərəcə nadir hallara qədər dəyişə bilər [8].

Əsas risk insan, iqtisadi və ətraf mühit problemlərinin təsir edə biləcəyi bir ərazidə baş verən potensial təhlükəli hadisədən qaynaqlanır. Əsas risk insana və onun birbaşa ətrafına, onun qurğularına təhlükədir, cazibəsi elədir ki, cəmiyyət fəlakətin hədsizliyi ilə tamamilə əzilir.

Появление социальных сетей произвело революцию в том, как компании работают и взаимодействуют со своими клиентами. Это изменение касается не только платформы, но и динамики коммуникации, взаимодействия с клиентами и развития бизнеса. Среди многих инструментов, которые есть в распоряжении бизнеса в социальных сетях, одним из наиболее важных является реклама. В этой статье исследуется роль рекламы в социальных сетях и то, как она служит основным фактором, определяющим развитие бизнеса.

**Ключевые слова:** реклама, социальные сети, развитие бизнеса, технология, эффективность

**Mehman Məzahir oğlu HÜSEYNOV, i.f.d., dos.**

**Sənan Rövşən oğlu MEHDIYEV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Səbinə Bəxtiyar qızı SADIQOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: sanan.mehdiyev@inbox.ru

# DEBİTOR VƏ KREDİTORLARLA HESABLAŞMALARIN UÇOTU VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalə müasir mühasibat uçotunda hesablaşma hesablarından istifadənin aktual məsələlərindən bəhs edir. Debitor və kreditor borclarının uçotunun yaranması və inkişafının tarixi və nəzəri aspektləri öyrənilir. Bu istiqamətdə mühasibat uçotunun təkmilləşdirilməsi istiqamətləri təklif edilir və əsaslandırılır.

Debitor və kreditor borclarının olması təşkilat üçün vacibdir. Debitor borclarının və cari aktivlərdəki payının kəskin artması təşkilatın alıcılara münasibətdə ehtiyatsız kredit siyasətini, satışların artması, bəzi alıcıların müflisləşməsini göstərə bilər. Debitor borclarının azalması, onun ödənilməsi müddətinin azalması səbəbindən baş verərsə, müsbət qiymətləndirilir. Məhsulların daşınmasının azalması səbəbindən debitor borcları azalırsa, bu, təşkilatın işgüzar fəallığının azaldığını göstərir.

**Açar sözlər:** mühasibat uçotu, debitor borcları, kreditor borcları, qanunvericilik, hesablaşmaların uçotu.

**JEL: P 43**

## Giriş

Deməli, debitor borclarının artımı heç də həmişə mənfi, azalma isə müsbət qiymətləndirilmir. Normal və gecikmiş borcları ayırd etmək lazımdır. Sonuncunun mövcudluğu maliyyə çətinlikləri yaradır, çünki təşkilatın fəaliyyətinə inventarların əldə edilməsi, əmək haqqının ödənilməsi və s. təhlili üçün vacibdir [2]. Debitor borclarının təhlili həmçinin qiymətlilərin çatışmazlığı və oğurlanması nəticəsində dəymiş maddi zərərin, o cümlədən məhkəmə yolu ilə bərpa edilməsi üçün qaldırılan iddiaların, habelə məhkəmə tərəfindən müəyyən edilmiş, lakin ödənilməmiş məbləğlərin ödənilməsi üçün hesablamaların necə aparıldığını göstərməlidir. Təhlil zamanı dəymiş ziyanın ödənilməsi üçün sənədlərin məhkəmə və istintaq orqanlarına vaxtında təqdim edilib-edilmədiyi üzə çıxır. Təhlil prosesində debitor borclarının formalaşmasının dinamikasını, tərkibini, səbəblərini və təsvirini öyrənmək, onun yığılması üçün qeyri-real və ya məhdudiyyət müddəti başa çatan məbləğlərin olub-olmadığını müəyyən etmək lazımdır [3]. Beləliklə, mühasibat uçotunun təkmilləşdirilməsi üçün bir istiqamət olaraq, debitor borclarının müntəzəm inventarının tətbiqini təklif etmək olar, bu iş sahəsi üçün təşkilatda daxili auditə kömək edəcək iş axını cədvəlinin tərtib edilməsini təklif etmək olar. Kreditor borclarının uçotunun təkmilləşdirilməsinə dair təkliflər:

– kreditor borclarının ödənilməsi üçün təxirə salınmış və hissə-hissə ödənişlər;

– qısamüddətli öhdəliklərin uzunmüddətli öhdəliklərə çevrilməsi;

– kredit şəklində kreditor borclarının yenidən rəsmiləşdirilməsi;

– qarşılıqlı ödəniş tələblərinin əvəzləşdirilməsi (qarşılıqlı əvəzləşdirmə) öz istehsalı və istehlakı üçün əmtəə, maddi sərvətlər və istehsal xidmətləri üzrə hesablaşmalar üçün;

Yuxarıda göstərilən tədbirlərə əlavə olaraq, 1C: "Müəssisə" 8.2 (1C-nin hazırkı versiyası: "Müəssisə" 8.1) mühasibat uçotunun avtomatlaşdırılması proqramının yeni, təkmilləşdirilmiş versiyasının istifadəsini də təklif etmək olar.

Debitor və kreditorlarla hesablaşmaya uyğun olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

1. Debitor və kreditorlarla hesablaşmaların nəzəri aspektlərini öyrənmək;

2. Tədqiq olunan müəssisənin təşkilati-iqtisadi xüsusiyyətlərini vermək;

3. Debitor və kreditorlarla hesablaşmaların uçotu ilə bağlı əməliyyatların əks etdirilməsi yollarını nəzərdən keçirmək və tədqiq olunan proseslərin təkmilləşdirilməsi yollarını təklif etmək.

Bu məsələləri öyrənərək belə bir nəticəyə gəlmək olar ki, təşkilatda müxtəlif debitor və kreditorlarla hesablaşmaların uçotunun metodologiyası və təşkili qanunvericiliyə uyğun olaraq, sahənin xüsusiyyətləri və əsas fəaliyyət növü nəzərə alınmaqla aparılmalıdır. Hər il qanunvericiliyə uyğun olaraq, təşkilat müxtəlif debitorlar və kreditorlarla hesablaşmalar haqqında məlumatları birbaşa və ya dolayısı ilə əks etdirə bilən zəruri maliyyə hesabat formalarını doldurur. Bununla belə, təşkilatın tədqiqi əsasında həm müsbət cəhətlər vurğulanmış, həm də tənqidi şərhlər verilmiş, onlara əsasən mühasibat xidmətinin təkmilləşdirilməsi üçün mümkün istiqamətlər təklif edilmişdir.

İstənilən müəssisənin hesablar sistemində hesablaşma hesabları xüsusi yer tutur. Hesablaşmalar mühüm rol oynayır, çünki onlar müəssisənin həyatının demək olar ki, bütün mərhələlərində meydana çıxır:

– nizamnamə kapitalına töhfələr üçün təsisçilərlə hesablaşmalar aparılır;

– borc vəsaitləri götürüldükdə - kreditorlarla hesablaşmalar;

– vəsaitləri, əmək obyektlərini əldə edərkən - təchizatçılarla hesablaşmalar;

– məhsul istehsalında - müəssisənin işçiləri ilə əmək haqqı hesablaşmaları;

– istehsal olunan məhsulların satışı zamanı - vergilərin ödənilməsi üçün həm alıcılar, həm də dövlət tərəfindən hesablaşmalar;

– mənfəətin bölüşdürülməsi mərhələsində - dividendlərin ödənilməsi üçün təsisçilərlə hesablaşmalar.

Qeyd edək ki, bu günə qədər gəlib çatmış hesab formasının meydana çıxması çox güman ki, hesablamaların nəzərə alınması ilə bağlıdır. Kreditin (bank sektorunun) inkişafı bir hesablaşma subyekti (şəxs) ilə bağlı bir daşıyıcıda debeti (borclu) və krediti (kreditoru) birləşdirən hesab formasının yaranmasına səbəb olmuşdur.

Təşkilat və müəssisələr özlərinin maliyyə-istehsalat fəaliyyətlərini düzgün qurmaq məqsədi ilə debitor və kreditor borclarının vaxtında müəyyən edilməsi və ödənilməsini təşkil etməlidir. Müəssisələrin və təşkilatların hər hansı bir başqa müəssisəyə olan borcları debitor borcları adlanır. Müəssisənin digər müəssisələrə olan borcları isə kreditor borcları adlanır. Bu və ya digər müəssisə və təşkilatlar arasında hesablaşmalar nağd pulla, aspektlə, xüsusi hesabların akkreditiv forması, limitləşdirilmiş çeklərlə və s. aparılır. Hesablaşmaların vaxtında ödənilməsi, bəzən əlaqədar müəssisə və təşkilatların hesabında pul vəsaitinin olmaması borcların yaranmasının əsas səbəblərindən biridir. Debitor və kreditor borcları bir ildən digər ilə keçirilmir. Borc vaxtında qaytarılmadıqda gecikdirilən hər gün üçün faiz alınır. Debitor və kreditor borclarını vaxtında qaytarılması müəssisələrin, təşkilatların öz gəlirlərindən düzgün və əlverişli istifadəsinə imkan yaradır.

Mühasibat uçotunun, həmçinin pul vəsaitləri və müxtəlif debitor və kreditorlarla hesablaşmaların uçotu yeni hesablar planında xeyli təkmilləşdirilməyə məruz qalmışdır. Yeni hesab planı bazar şəraitində material ehtiyatları pul vəsaitləri, qarşısında duran vəzifələr, debitor və kreditorlarla hesablaşmaların uçotunun qurulması əsasları, pul vəsaitlərinin səmərəli saxlanılması və s. haqqında tədbirlər nəzərə alınmaqdadır. Bununla yanaşı ixtisaslı mühasibat işçilərinin hazırlanması, bu sahəyə təcrübəli işçilərin cəlb edilməsi nəzərdə tutulmuşdur.

Pul vəsaiti və hesablaşmaların uçotu mühasibat uçotunda ən mürəkkəb sahələrdən biridir. Ona görə də, burada mühasibat hesablaşmalarından geniş istifadə edilməlidir. Debitor və kreditorlarla hesablaşmaların uçotunun təkmilləşdirilməsi üçün:

❖ Müəssisədə pul vəsaiti hesablaşmalarının uçotu vaxtında təşkil edilməli, sənədləşdirmə işinin səviyyəsinin yüksəldilməsi, bu sahədə baş mühasib və müəssisə direktorunun məsuliyyəti artırılmalıdır;

❖ Bazar münasibətləri şəraitində müəssisələr müstəqil olduqca, onların debitorlarla və kreditorlarla hesablaşmaları daha dəqiq qaydada aparılmalıdır;

❖ Debitor və kreditor borclarının idarə edilməsi gəlirlərin və xərclərin, müəssisə vəsaiti və onların mənbələrinin balanslaşdırılmasında həlledici rol oynayır. Buna görə də, müəssisənin maliyyə sabitliyini təmin etmək üçün debitor və

kreditor borclarının hərəkəti daima öyrənilir, onların artıb azalması nəzarət altında saxlanılır.

Azərbaycan Respublikasının dünya bazarına daxil olması mürəkkəb və qanunauyğun bir prosesdir. Müəssisələr arasında iqtisadi əlaqələrin müəyyənləşdiyi müasir şəraitdə bir çox hallarda partnyorların biri-birinə inamının olmaması etibarlı informasiyalara olan tələbatı kəskin surətdə artırır. Belə informasiyalar mülkiyyət formasından asılı olmayaraq təsərrüfat dövranının bütün iştirakçıları üçün istisnasız olaraq ciddi maraq doğurur.

Bundan başqa bazar münasibətlərinin nizama salınması nəticəsində çox böyük şirkətlər və holdinqlər meydana gəlir, onların fəaliyyət sferası genişlənir və bütövlükdə biznesin beynəlmiləlləşməsi bu proseslərin güclənməsinə şərait yaradır. Şirkətlərin, bankların və digər müəssisələrin rəhbərlərinin özlərinin vəzifələrinin yerinə yetirdikləri zaman müntəzəm surətdə gördükləri işlər haqqında maliyyə hesabatları tərtib etməlidirlər. Bu hesabatların etibarlı mütəxəssis - analitiklərin, müstəqil auditorların və yaxud auditor firmaların nümayəndələrinin köməyilə yoxlanılır.

Analitiklərin və auditorların xidmətlərinə daima artan tələbatı maliyyələşmə mənbələrinin potensial dairəsinin genişlənməsi ilə izah etmək olar. Qiymətli kağızların satın alınması və yaxud satılması, ssudaların verilməsi, kommersiya kreditinin genişlənməsi, borclar üzrə sazişlərin bağlanması və i.a. haqda qərarların qəbulu hər şeydən əvvəl maliyyə informasiyalarının etibarlılığına istinad edir. Bundan başqa, müəssisələrin əməliyyatları o qədər çoxsaylı və mürəkkəbdir ki, onlardan istifadə edənlər üçün zəruri informasiyaları müstəqil surətdə əldə etmək, əslində qeyri-mümkündür. Bu zaman istifadə edənlər tərəfindən qəbul olunan qərarların təsiri bəzən o qədər əhəmiyyətli olur ki, informasiyalar da bir o qədər dəqiq və tam olmalıdır. İnformasiyaların etibarlılığını isə müstəqil auditor təsdiq edə bilər.

Bazar iqtisadiyyatı şəraitində bazara doğru hərəkət, hər şeydən əvvəl iqtisadi sərbəstliyə gedən yoldur. Hazırda sahibkarların başı üzərində yalnız "**Qanun**" 4 yüksəlir. Direktiv planlar, əmrlər resursların məcburi bölgüsü və istehsalın istehlakçılara bağlanması artıq yoxa çıxmaqdadır. Dövlətin müəyyənləşdirdiyi qiymətlərin bir çoxu artıq bazar qiymətlərinə çevrilmişdir. Sahibkarlıq fəaliyyətinə, mülkiyyətin forma və növlərinin bir qisminə məhdudiyyətlər çox cüzidir. Vergi sistemi və dövlət sifarişləri vaxt ötdükcə təmiz iqtisadi əsaslara söykənəcək, yerdə qalanları isə istehsalçılar, istehlakçılar və ümumilikdə onların iradəsi əsasında həll olunacaq.

Eyni zamanda, iqtisadi sərbəstlik sahibkarın birinin mənafeyini nəzərə aldığı halda digərlərinin fəaliyyətinə maneçilik də törədə bilər. Əlbəttə, hər hansı bir subyektlə təsərrüfat-maliyyə əlaqələrinə girmək onların arasında çox ciddi hesablaşma və kredit formalarının yaranması ilə müşayiət olunur. Bundan başqa bazar münasibətləri inkişaf etdikcə rəqabət də güclənəcək. Belə bir şəraitdə işləmək üçün investisiyalara söykənmək lazım gəlir. Bu da özlüyündə çox ciddi hesablaşmalarla və öhdəliklərlə, xüsusən də müəyyən risklə bağlıdır. Sahibkarlıq şəraitində istehsalat-iqtisadi vəzifələr həll olunan zaman maliyyə nəticələrini yaxşılaşdırmaq üçün biznes mexanizminə əsaslanmaq ön plana çəkilməlidir.

Bizim Respublikamızda formalaşan bazar münasibətləri bir çox hallarda biznesin maliyyə nəticələrinə, müəssisə və firmaların özünü maliyyələşdirməsinə əsaslanır. Özünü maliyyələşdirmənin motivli əhəmiyyəti çox böyük xarici təcrübə ilə təsdiq olunur. Bunun üçün ilk növbədə işgüzar fəallıq, təmiz mənfəət, rentabellik, likvidlik ünsürləri və antiböhran fəallığı və s. kimi bloklar kifayət qədər güclü olmalıdır. Sadaladığımız bloklar və ünsürlər bir çox hallarda kapital qoyuluşlarının maliyyələşməsi prosesində hesablaşma və kredit əməliyyatları ilə əlaqədar məsələlərə son dərəcə ciddi yanaşmaq lazım gəlir.

**Mövzunun aktuallığı.** Çoxsaylı, yüksək tezlikli hesablaşma əməliyyatları ilə debitor və kreditorlar, debitor və kreditor borclarının artması, ödəmə vaxtı keçmiş borcların yaranması, sürətlə çoxalması bu borcların idarə edilməsində mövcud olan qüsur və çatışmazlıqlarla izah olunur.

Bazar münasibətləri şəraitində fəaliyyət göstərən bütün təsərrüfat subyektləri mülkiyyət formasından, tabeliyindən, istehsal istiqamətindən və digər əlamətlərdən asılı olmayaraq istehsal və maliyyə resurslarının formalaşması, istehsal, satış və tədarük proseslərinin icrasında çoxlu sayda təsisçilərlə, investorlarla, malalan, malsatan, iş və xidmətlər göstərən kənar müəssisə və təşkilatlarla, büdcə idarələri, büdcədən-kənar təşkilatlar, banklar, işçi heyəti, habelə ayrı-ayrı fiziki şəxslərlə hesablaşma münasibətlərində olur. Hesablaşma münasibətləri dövlət orqanları tərəfindən

tənzimlənməyən indiki bazar münasibətlərində yaranan debitor və kreditor borclarının idarə edilməsi müəssisə aktivlərinin effektli strukturunun təmin edilməsi, vəsaitin dövr sürətinin artırılması sahibkar fəaliyyətində maliyyə sabitliyinin yaradılması, sahibkar mülkiyyətinin qorunması, sahibkarlıq fəaliyyətində qeyri - məhsuldar xərclərin və itgilərin azaldılması, ödəmə qabiliyyətinin yaxşılaşdırılması, habelə sahibkarlıq fəaliyyətinin başlıca məqsədi olan reallaşmış mənfəətin çoxaldılması problemlərinin həllində böyük əhəmiyyət kəsb edir. Bazar iqtisadiyyatı yolunda uzun bir dövr ərzində inkişaf yolu keçmiş Qərb ölkələrinin , habelə bazar iqtisadiyyatına keçid dövründə fəaliyyətdə olan milli müəssisələrin təcrübəsi göstərir ki, əmtəə-pul münasibətləri genişləndikcə, təsərrüfat subyektəri arasında, bu subyektlərlə büdcə və bank idarələri arasında, təsərrüfat subyektləri ilə maliyyə bazarları, xüsusilə də onun ən mühüm növü olan pul bazarları (milli və beynəlxalq kapital bazarları) arasında əlaqələrin, həm də qarşılıqlı əlaqələrin miqyasları genişləndikcə və mürəkkəbləşdikcə hesablaşma münasibətlərində yaranan debitor və kreditor borcların vaxtında və dəqiq uçota alımasına, onların hərəkətinə uçot nəzarətinin daha da gücləndirilməsinə olan ehtiyac da artır. Debitor və kreditor borclarının hərəkətinə nəzarət idarəetmənin ümdə vəzifələrindən biridir. Azərbaycanda bazar iqtisadiyyatına keçid dövründə dövlət mülkiyyətinin özəlləşdirilməsi, yeni mülkiyyət formalarının yaranması, ölkə miqyasında tələm-tələsik həyata keçrilən islahatların yeni şəraitdə idarəetmənin tələblərinə tam cavab 4 verməməsi, sahibkarhq fəaliyyətinə, habelə bütün təsərrüfat subyektlərində həyata keçrilən hesablaşmalara və qarşılıqlı hesablaşmalara dövlət orqanları tərəfindən nəzarətin qənaətbəxş olmaması özəlləşdirmənin ilk dövrlərində ölkədə sərbəst maliyyə resurslarının çatışmazlığı, milli valyutanın dövriyyəyə buraxılması, yeni şəraitdə hesablaşma münasibətlərinin tənzimlənməsinə dair təlimat və qaydaların digər normativ sənədlərin olmaması ölkənin ərazisində fəaliyyət göstərən bütün dövlət və qeyri-dövlət müəssisələrində hesablaşmaların, xüsusilə də qarşılıqlı hesablaşmaların gərginləşməsinə, hesablaşına münasibətlərində yaranan debitor və kreditor borclarının, həm də ödəmə vaxtı keçmiş, ümidsiz borclarının sürətlə artmasına səbəb oldu. Debitor borclarının artması öz növbəsində qarşılıqlı hesablaşmalar və bank ssudaları üzrə borcların artmasına, bu borcların artması isə öz növbəsində ölkədə fəaliyyətdə olan müəssisə və təşkilatların bank ssudaları və qarşılıqlı hesablaşmalar üzrə vaxtı keçmiş borcların daha sürətlə çoxalmasma səbəb olmuşdur. AR DSK-nın verdiyi rəsmi məlumatlardan göründüyü kimi 2006-2013-cü illərdə ödəmə vaxtı keçmiş borclar: bank ssudaları üzrə 137,0 milyon manatdan 558,1 milyon manatadək , qarşılıqlı hesablaşmalar üzrə vaxtı keçmiş borclar isə daha çox 91,0 milyon manatadək, başqa sözlə desək 9,4 dəfə çox artmışdır. Bazar iqtisadiyyatı şəraitində mövcud qanunlara görə fəaliyyətdə olan hər bir müəssisə tədiyyə öhdəliklərinin yerinə yetirilməsi, yəni borcların vaxtında qaytarılması üçün tam məsuliyyət daşıyır. Lakin buna baxmayaraq ölkənin ərazisində fəaliyyət göstərən bütün təsərrüfat subyektlərində yaranan debitor və kreditor borcların, xüsusilə də ödəmə vaxtı keçmiş borcların azaldılması təsərrüfat subyektlərinin gəlirlərindən, mənfəətindən, əmlakından vergi alan və bu yolla da dövlət büdcəsinin gəlirlərini artıran dövlətin marağını təmin edən problemlərdən biridir. Buna görə də, AR-nın sabiq prezidenti ölkənin təsərrüfat subyektlərində mütəmadi olaraq artmaqda olan debitor və kreditor borclarının tənzimlənməsinə dair bir neçə fərman imzalamışdır. Müvafiq fərmanların tələblərinə istinad etməklə böyük məbləğlərdə ödəmə müddəti keçmiş qarşılıqlı borcların silinməsinə, bəzi əməli güzəştlərin edilməsinə baxmayaraq təsərrüfat subyektlərində ödəmə vaxtı keçmiş qarşılıqlı hesablaşmalarda yaranan borclar hələ də artmaqda davam edir. İndi ödəmə vaxtı keçmiş borclar təsərrüfat subyektlərinin cəmi mənfəətindən xeyli çoxdur. Deməli, onların ödənilməsi ehtimalı da çözlənilmir. AR Prezidentinin 24 sentyabr 1996-cı il tarixli «İqtisadiyyatda qarşılıqlı hesablaşmalarda yaranmış vəziyyətin aradan qaldırılması və maliyyə intizamının möhkəmləndirilməsi tədbirləri haqqında» fərmanda göstərilir ki, «Son illər ölkədə qarşılıqlı hesablaşmalarda yaranmış vəziyyət istehsalın həcminin aşağı düşməsinə, müəssisə və təşkilatların əksəriyyətinin maliyyə vəziyyətinin ağırlaşmasına və dövlət büdcəsinə daxil olan vəsaitlərin azalmasma səbəb olmuşdur». Son illərdə dövlət orqanları tərəfindən həyata keçirilən təsirli tədbirlərə, habelə təsərrüfat subyektlərinin əməli səylərinə baxmayaraq debitor borclarının (eyni

zamanda kreditor borclarının) ÜDM-lə müqayisədə üstün artım tempi davam etməkdədir. Yaxın gələcəkdo fəaliyyətdə olan müəssisə və təşkilatlarda məhsul (iş və xidmətlər) istehsalı və satışının miqyası artıqca, hesablaşmalarda yaranan borcların artması gözlənilir, başqa sözlə desək borclar, «bataqlığının» daha da dərinləşməsi gözlənilir. Debitor və kreditor borclarının artması, ödəmə vaxtı keçmiş borcların yaranması və daha sürətlə çoxalması bu borcların idarə edilməsində mövcud olan qüsur və çatışmazlıqları izah olunur..

**Tədqiqatın məqsədi**. Təşkilatın mənfəətinin təşkil edilməsi və onun sonrakı davamlı inkişafının təmin olunması.

Tədqiqatın başlıca məqsədi müasir bazar iqtisadiyyatına keçid dövründə ölkəmizdə fəaliyyətdə olan təsərrüfat subyektlərində debitor borclarının və tədiyyə öhdəliklərinin, habelə vaxtı keçmiş, ümidsiz borcların artmasınm səbəblərini öyrənmək, hesablaşmaların uçotu və təhlili praktikasında qüvvədə olan təlimat, qayda, əsasnamə, əmr və digər normativ sənədlərə tənqidi münasibətini bildirərək, habelə hesablaşmaların uçotu və təhlilinin müasir metodikalarının və digər normativ aktların beynəlxalq standartların tələblərinə uyğun təkmilləşdirilməsini təmin edən, həm də praktik əhəmiyyət kəsb edən , elmi cəhətdən əsaslandırılmış tövsiyyələr verməkdən ibarətdir.

**Tədqiqat obyekti.** Debitor və kreditor hesablaşmalar üçün uçot proseslərinin əhəmiyyəti dedikdə, hesablaşma əməliyyatlarının uçotunun xüsusiyyətləri, onların nəzəri, metodoloji və konseptual əsasları, uçotun təkmilləşdirilməsi və s. müxtəlif müəssisələrin məlumatlarından və şərti rəqəmlərdən istifadə edilmişdir.

**Tədqiqat metodu.** İşin metodu nəzəri bilikləri ümumiləşdirmək, debitor və kreditor hesablaşmalar üçün uçotun təkmilləşdirilməsi üçün tədbirlər kompleksini hazırlamaqdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi hesablaşma əməliyyatlarının uçotunda müşahidə olunan çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tövsiyyələrin hazırlanmasından ibarətdir. Daha konkret şəkildə aşağıdakı nəticələrə nail olunmuşdur:

- Respublikanın və xarici ölkələrin (xüsusən də MDB məkanına daxil olan) hesablaşma əməliyyatlarının uçota dair təcrübələrinin ümumiləşdirilməsi əsasında ümumi metodoloji prinsiplər hazırlamaq;
- Hesablaşmaların, kreditlərin və borcların müxtəlif növlərinin həm beynəlxalq praktikada, həm də ölkədə mövcud olan xüsusiyyətlərini araşdırmaq və iki sistem arasında fərqlərin maksimum aradan qaldırılması yollarını müəyyənləşdirmək;
- Hesablaşmaların əməliyyatlarının uçotunun təkmilləşdirilməsi haqda müəyyən tövsiyyələr hazırlamaq.

**Nəticə və təkliflər**

Debitor borclar müəssisə aktivlərinin, kreditor borclar isə müəssisənin kapital və öhdəliklərinin əsas hissəsini təşkil edir. Buna görə də, dövriyyə aktivlərinin və tədiyyə öhdəliklərinin idarə edilməsi ilə əlaqədar problemlərin həllində bu borcların uçotu və təhlili ilə əlaqədar problemlərin bazar iqtisadiyyatı şəraitində idarəetmənin tələblərinə uyğun tənzimlənməsi böyük xalq təsərrüfat əhəmiyyəti kəsb edən iqtisadi, siyasi və təşkilati məsələlərdən biridir.

Tədqiqat materiallarından göründüyü kimi ölkə iqtisadiyyatının bütün sahələrində fəaliyyətdə olan təsərrüfat subyektlərində, o cümlədən tədqiqat obyekti kimi seçdiyimiz səhmdar cəmiyyətində həm debitor borc məbləğləri və həm də kreditor borc məbləğləri, habelə bunlarla əlaqədar olaraq yaranan qarşılıqlı hesablaşmalarda yaranan ödəmə vaxtı keçmiş borclar ilbəil artmaqdadır və indi idarəolunmaz bir həddə çatmışdır.

Tədqiqat materiallarının təhlilindən göründüyü kimi borcların, o cümlədən ödəmə vaxtı keçmiş borcların yaranması və ilbəil artmasının müəssisə rəhbərlərinin, mühasiblərin, menecmentlərin, maliyyəçilərin, sahibkarların, təsisçilərin, investorların, habelə bu işdə marağı olan dövlət idarəetmə orqanlarının hesablaşma münasibətlərinə laqeyd münasibəti kimi qəbul etmək olmaz.

Tədqiqatın nəticələrindən məlum olur ki, debitor və kreditor borcların artmasının, vaxtı keçmiş borcların yaranmasının başlıca səbəbi bazar iqtisadiyyatına keçid dövründə (1995-2000-ci illər) tələm-tələsik hazırlanan qanunverici və normativ sənədlərdə olan boşluq, çatışmazlıq və nöqsanlarla əlaqədardır. Bunu AR Nazirlər Kabinetinin 2003-cü il 20 fevral tarixli, 29 saylı qərarı ilə təsdiq edilmiş «Beynəlxalq Mühasibat Uçotu Standartlarına keçmək məqsədi ilə Milli Mühasibat Uçotu Standartlarının 2003-2007-ci illərdə hazırlanması və təfbiqi üzrə PROQRAM» dan daha aydın görmək olar. Həmin proqramda

mühasibat uçotunun tənzimlənməsini təmin edən və normativ sənədlərlə yanaşı (ümumi xarakterli) «Büdcə ilə hesablaşmalar»ın uçotu, «Lizinq» əməliyyatlarının uçotu, «Təsisçilərlə hesablaşmalar»ın uçotu, «Əməyin ödənişi və sair əməliyyatlar üzrə işçi heyəti ilə hesablaşmalar»ın uçotu, «Təsərrüfatdaxili və törəmə (asılı) müəssisələrlə hesablaşmalar»ın uçotu, «Debitor və kreditorlarla hesablaşmalar»ın uçotu, «Kreditlərin, borcların və məqsədli malliyələşdirmələr»in uçotu üzrə yeni, beynəlxalq uçot standartlarına uyğun normativ sənədlərin hazırlanması idarəetmədə böyük səlahiyyətlərə malik olan AR Malliyə Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafisi Nazirliyi, AR Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Mərkəzi Bank və idarəetmə orqanlarına həvalə edilmişdir.

Tədqiqatın nəticələrinə istinad etmək və aşağıdakı təkliflərin irəli sürülməsini məsləhət bildik.

1. Debitor və kreditor borcların 70-80 %-ə qədərini, bəzən də daha çox hissəsini malların, məhsulların, iş və xidmətlərin satışı ilə əlaqədar yaranan borclardır. İqtisadi eləcə də digər ensiklopediyalardan, iqtisadi terminlər lüğətlərindən habelə qərb ölkələində nəşr olunmuş mühasibat uçotuna dair dərslik və monoqrafiyalardan, məhsul, iş və xidmətlər satışı əməliyyatlarının uçota alınması üçün nəzərdə tutulmuş beynəlxalq standartlardan göründüyü kimi dünya ölkələrində nağdsız hesablaşmalarda malalanlara, sifarişçilərə təhvil verilmiş, onların ünvanına yola salınmış malın, məhsulun, iş və xidmətlərin satış qiyməti ilə dəyəri malsatanlarla hesablaşma yaxud valyuta hesabına daxil olduqdan sonra onlar reallaşdırılmış sayılır və hesablaşma məbləğləri «Satış» hesabının kreditində və «Malalanlarla və sifarişçilərlə hesablaşmalar»ın ı kreditində əks etdirilir. Beynəlxalq praktikada qəbul edilmiş qaydadan fərqli olaraq vergi qanunvericiliyinə tabe edilmiş milli mühasibat uçotu sistemində hesab-faktura yazılan anı satış anı hesab edilir. Vergi qanunvericiliyində nəzərdə tutulur ki, malalanın ünvanına yola salınan, onlara təhvil verilən məhsul, iş və xidmətlərə aid hesab-faktura 5 gündən gec olmayaraq yazılmalıdır. Aksizli mallar satışında isə hesab-faktura yazılmadan aksizli malları müəssisənin ərazisindən çıxartmaq qadağandır. Beləliklə, malın, məhsulun (işin, xidmətin) qəbul edilib-edilməməsindən, hansı keyfiyyətdə və qiymətdə qəbul edilməsindən, yolda əskik gəlməsindən və i.a hesablaşma qiymətinə təsır göstərən digər əlamətlərdən asılı olmayaraq onların satış qiyməti, nəqliyyat xərcləri, ƏDV, aksiz vergisi məbləğində debitor borc, eyni zamanda ƏDV və aksiz vergisi məbləğində kreditor borc yaranır. Ayın sonunda «Satış» hesabı bağlanıldıqdan sonra isə mənfəətdən vergi və gəlirlərdən vergi üzrə büdcəyə ödəmələrə aid borclar da yaranır. Bütün vergilər pulla ödənilir. Pul daxil olmamışdan sadaladığımız vergilər hesablandığına və növbəti ayın 15-dək ödənməli olduğuna görə təsərrüfat subyektləri büdcəyə və büdcədənkənar fondlara borcları ödəyə bilmir , qüvvədə olan qanuna görə təsərrüfat subyetləri büdcəyə və büdcədənkənar fondlara borcları ödəmə müddətləri gecikdirildikcə, peniya və cərimələr hesablanır və nəhayət tədiyyə öhdəlikləri daha da artır.

Bizim fikrimizcə bu qəfildən olan borcların yaranmasının və artmasının qarşısını almaq üçün qanunvericilikdə hesab-fakturanın yazılması anının satış anı kimi qəbul edilməsi qaydasını ləğv etmək məqsədəuyğundur. Nağdsız hesablaşmalarda malın, məhsulun, işin, xidmətin dəyərini (ədv və aksiz vergisini də daxil etməklə) malsatanlar və sifarişçilər tərəfindən ödənildikdən sonra onlan reallaşdırılmış hesab etmək və satış hesabının kreditində qeydə almaq məqsədəuyğundur. Həm də, bu halda debitor və kreditor borclara mənfəətə, pul gəlirlərinə aid real göstəricilər alınır.

2. Debitor borclarının artmasının başlıca səbəblərindən biri də hüquq ədəbiyyatı tərəfindən 1999-cu ildə nəşr olunmuş Azərbaycan Respublikasının ın Mülki Məcəlləsində debitor borclarının iddia müddəti və iddialara baxılması qaydalarına aid maddələrin olmamasıdır. Həmişə istinad etdiyimiz Rusiya Federasiyasında mal , məhsul, iş və xidmətlər satışı ilə əlaqədar yaranan debitor borclar üzrə iddia müddəti müqavilədə nəzərdə tutulan ödəniş müddətindən 3 ay sonra , yəni dördüncü ayda iddia şikayəti yazmaq nəzərdə tutulur.

Bizim fikrimizcə ölkəmizin təsərrüfat subyektlərində debitor -kreditor borclannm 70-80 % -dən çoxunun mal, məhsul, iş və xidmətlər satışı (atışı) ilə əlaqədar olduğuna görə bu borclarla əlaqədar iddia müddətlərinin, habelə iddialara baxılması mexanizminin Mülki Məcəllədə dəqiq göstərilməsi və onların icra mexanizminin təyin edilməsi,

borcların azaldılması və vaxtı keçmiş borcların yaranmasının qarşısının alınması üçün zəruridir.

3. «Mühasibat uçotu haqqında» AR Qanunun 22.5 -ci maddəsində göstərilir ki, «İddia müddəti keçmiş debitor borcları, alınması (tutulması) mümkün olmayan digər ümidsiz borclar müəssisə rəhbərinin qərarı ilə təsərrüfat fəaliyyətinin nəticələrinə silinir». 20.6-cı maddəsində göstərilir ki, «İddia müddəti keçmiş kreditor və deponent borc məbləğləri Dövlət büdcəsinə köçürülür». Aydındır ki, müəssisədə vaxtı keçmiş debitor borclarının mənfəətin azalması hesabına silinməsi müəssisənin imicini aşağı salır, xüsusi dövriyyə vəsaitinin azalmasına səbəb olur. Ödəmə vaxtı keçdiyinə görə silinən kreditor borclarının büdcəyə köçürülməsi, başqa sözlə desək, AR Milli Bankı İdarə Heyətinin 21 may 1997-ci il tarixli qərarı ilə təsdiq edilmiş 8 saylı «Nağdsız hesablaşmaların aparılması qaydaları haqqında təlimat»a uyğun olaraq ödəyicinin hesabından mübahisəsiz silinməsi kreditor borclu müəssisənin də vəsaitinin azalmasına səbəb olur. Deməli, «Mühasibat uçotu haqqmda» AR-ın Qanununa görə mal, məhsul, iş və xidmətlər satışı üzrə qarşılıqlı hesablaşmalarda yaranan debitor və kreditor borclarının silinməsinə malsatan və nə də malalan üçün sərfəli olmur. Buna görə də, debitor və kreditor borclu təşkilatlann rəhbərləri ödəmə müddətlərinin uzadılmasma razılaşır və beləliklə də, borcların ödənilməsi müddətləri uzanır, müəyyən müddət keçdikdən sonra problemin həlli mümkünsüz olur. Son nəticədə ödəmə müddəti keçmiş ümidsiz borclar yaranır.

Bizim fikrimizcə borcların azaldılması problemini həll etmək üçün ilk növbədə inkişaf etmiş xarici ölkələrdə olduğu kimi bütün təsərrüfat subyektlərində ümidsiz bocların silinməsi üçün ehtiyat yaratmaq lazımdır. Bunun üçün AR Maliyyə Nazirliyi tərəfindən müvafiq təlimatın hazırlanması zəruridir.

4. Qüvvədə olan qanunda ödəmə vaxtı keçmiş və ümidsiz borcların müəssisənin sərəncamında qalan mənfəət hesabına silinməsi nəzərdə tutulur. Statistik hesabatlardan göründüyü kimi bu mümkünsüzdür. Çünki, 2014-ci ilin sonuna rəsmi məlumata görə qarşılıqlı hesablaşmalarda yaranan ödəmə vaxtı keçmiş borclar təsərrüfat subyektlərinin balans mənfəətinin 10-12 faizini təşkil edir. Müəssisələrin sərəncamında qalan xalis mənfəətdən daha da çoxdur (xalis mənfəət haqqında nə müəssisələrin hesabatlarında və nə də statistik hesabatlarda məlumat verilmədiyindən konkret rəqəm demək mümkün deyildir). Bizim fikrimizcə AR Maliyyə Nazirliyi ödəmə vaxtı keçmiş və ümidsiz borcların silinməsi mənbəyini və mexanizmini təyin etməlidir.

5. Debitor və kreditor borcların azaldılmasında böyük təcrübəsi olan xarici ölkələrdə nağdsız hesablaşmalarda veksellərdən, hesablaşma kartları və çeklərdən və i.a geniş miqyasda istifadə edilir. AR Maliyyə Nazirliyinin 20 oktyabr 2006-cı il tarixli , İ- 94 saylı əmri ilə təsdiq edilmiş və indi də qüvvədə olan «Müəssisələrin mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair təlimat» da veksellərlə hesablaşmaları uçota almaq üçün subhesab nəzərdə tutulmamışdır. Lakin AR Milli Bankı İdarə Heyətinin 21 may 1997-ci il tarixli qərarı ilə təsdiq edilmiş «Nağdsız hesablaşmaların aparılması qaydaları haqqında təlimat»da ödəmə tapşırıqları, çeklər və akkreditivlərlə nağdsız hesablaşmaların aparılması mexanizmi kifayət qədər şərh olunduğu halda veksellərlə hesablaşmalar barədə yazılmamışdır. Bizim fikrimizcə AR Milli Bankı veksellərlə hesablaşmaların aparılması və bu hesablaşmaların uçot registrlərində qeydə alınmasına dair xüsusi təlimat hazırlanmalıdır.

6. Debitor və kreditor borclarının tənzimlənməsində müəssisənin baş mühasibi həlledici rol oynayır. Bizim fikrimizcə baş mühasibin pul gəlirləri və xərclərinə dair təqvim planı olmalıdır. Pul gəlirlərinin çox hissəsi malalanlardan daxil olmalar, xərclərin çox hissəsi və tədiyyə öhdəliklərini təşkil etdiyini nəzərə alsaq təqvim planının yerinə yetirilməsinə operativ mühasibat nəzarətinin debitor və kreditor borclarının azaldılmasında nə qədər böyük rol oynadığını hiss etmək çətin deyildir.

7. Uzun bir dövr (keçmiş) ərzində AR təsərrüfat subyektləri tədiyyə öhdəliklərinin yerinə yetirilməsi üçün bank ssudalarından (kreditlərindən) geniş miqyasda istifadə etmişdir. Lakin son illərdə bank kreditlərindən istifadə yox dərəcəsindədir. Tədqiqat obyekti kimi seçdiyimiz «Azortunelmetrotikinti» səhmdar cəmiyyətində tədiyyə öhdəliklərinin, hətta mübahisəsiz qaydada onun hesablaşma hesabından silinəsi öhdəliklərin çoxalmasına baxmayaraq nə uzunmüddətli və nə də qısamüddətli bank kreditlərindən istifadə edilmir. Ölkənin digər təsərrüfat subyektlərində də tədiyyə öhdəliklərinin artmasına baxmayaraq bank kreditlərindən istifadə edilmir. Bunun başlıca

səbəbi kreditlərdən istifadəyə görə faiz dərəcələrinin yüksək olması, habelə vaxtında qaytarılmadıqda ağır iqtisadi sanksiyaların tətbiqidir. Buna görə də, təsərrüfat subyektləri bank böyük xərclərlə başa gələn kreditlərindən istifadə edib tədiyyə öhdəliklərini yerinə yetirməkdənsə iqtisadi sanksiyalar tətbiq edilməyən kreditor borcların qaytarılmamasına üstünlük verir. Bütün debitor və kreditor borclarının artması, ödəmə vaxtı keçmiş, ümidsiz borcların yaranmasına və mütəmadi olaraq artmasına səbəb olur. Bizim fikrimizcə müvafiq orqanlar bank kreditlərindən istifadə olunmasında həm təsərrüfat subyektlərinin və həm də bankların maddi maraqlarını təmin edən normativ sənədlər hazırlamalıdır.

8. Ölkənin ərazisində fəaliyyət göstərən bütün təsərrüfat subyektlərində əmək, material və maliyyə resurslarına qənaətə, itgilərin və qeyri məhsuldar xərclərin azaldılmasına yaxud onların qarşısının alınmasına görə maddi stimullaşdırma tətbiq edilir. Debitor borcların artması müəssisənin dövriyyə vəsaitinin dövriyyədən çıxması, qarşı tərəfdə mənfəətin formalaşmasında iştirakını göstərir. Debitor borcları ala bilmədikdə yüksək faiz dərəcələri ilə kredit və borclar almaq məcburiyyətində qalır, tədiyyə öhdəliklərini yerinə yetirmək mümkün olmur, pensiya, cərimə və dəbbələmə məbləğləri ödəməli olur. Deməli, debitor və kreditor borclarının artması müəssisələrdə qeyri -məhsuldar xərclərin və itgilərin artması ilə nəticələnir.

Bizim fikrimizcə debitor və kreditor borclarının azaldılmasına, bu borclarla əlaqədar qeyri-məhsuldar xərclərin və itgilərin qarşısının alınmasına görə mühasiblərin, maliyyə menecerlərinin maddi stimullaşdırılması qaydasının tətbiqi borclar, həm də ödəmə vaxtı keçmiş borclar probleminin həllində böyük rol oynayacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Телеш, Е.Ю. Управление дебиторской задолженностью/ Е.Ю. Телеш. – Минск: Издательство Гревцова, 2007. – 176с.
2. Пономаренко, П.Г. Бухгалтерский учѐт, анализ и аудит/ П.Г. Пономаренко. – Минск: Вышэйшая школа, 2007. – 527 стр.
3. Гуринович, Т.Е. Организация и порядок осуществления безналичных расчетов в Республике Беларусь/ Т.Е. Гуринович. – Минск: Амалфея, 2005. – 485 с.
4. S.M.Sıþbzıþliyųv – Mühasibat (maliyyıþ) hųsabatÕ. Dıþrs Yıþsaiti, 170 sıþh. 2003-cü il.
5. Öz, E. (2011). "Değersiz ve Vazgeçilen Alacak İlişkisi ve Muhasebesi" 06/11/2011 http://www.ertadenetim.com/2011/12/degersiz-ve-vazgecilen-alacak-ayirimi-vemuhasebesi/ (18/10/2018).
6. Özkan, Ö. (2007). "Vazgeçilen Alacaklar ve Bu Alacakların Muhasebeleştirilmesi", İSMMMO, Mali Çözüm Dergisi, Kasım – Aralık 203-212.
7. https://www.muhasibat.az/muxt%C9%99lif-debitor-v%C9%99-kreditorlarla-hesablasmalarin-ucotu/
8. https://dergipark.org.tr/tr/download/article-file/618377

**Мехман Мазахир оглы ГУСЕЙНОВ, д. ф. э., доцент**

**Санан Ровшан оглы МЕХТИЕВ**

**Сабина Бахтияр кызы САДЫГОВА**
Азербайджанский Технологический Университет
E-mail: sanan.mehdiyev@inbox.ru

## УЧЕТ СЧЕТОВ С ДОЛЖНИКАМИ И КРЕДИТОРАМИ И НАПРАВЛЕНИЯ ЕГО СОВЕРШЕНСТВОВАНИЯ

### Резюме

В статье рассматриваются актуальные вопросы использования расчетных счетов в современном бухгалтерском учете. Изучены историко-теоретические аспекты возникновения и развития дебиторской и кредиторской задолженности. В этом направлении предлагаются и обосновываются направления совершенствования бухгалтерского учета. . Дебиторская

задолженность – это активы компании, а кредиторская задолженность – это капитал компании и составляет основную часть его обязательств. Таким образом, оборотные средства и эти долги при решении проблем, связанных с управлением платежными обязательствами проблемы учета и анализа управления в условиях рыночной экономики экономика, регулирование которой имеет большое народнохозяйственное значение, это один из политических и организационных вопросов.

**Ключевые слова:** учет, дебиторская задолженность, кредиторская задолженность, законодательство, учет расчетов.

**Mehman Mazahir oglu HUSEYNOV, d.p.e., associate professor**

**Sanan Rovshan oglu MEHDIYEV**

**Sabina Bakhtiyar gizi SADYGOVA**
Azerbaijan University of Technology
E-mail: sanan.mehdiyev@inbox.ru

# ACCOUNTING OF ACCOUNTS WITH DEBTORS AND CREDITORS AND DIRECTIONS FOR ITS IMPROVEMENT

## Summary

The article discusses the actual issues of using settlement accounts in modern accounting. The historical and theoretical aspects of the creation and development of accounts receivable and payable are studied. In this direction, directions for improving accounting are proposed and justified. Receivables are the company's assets, and payables are the company's capital and constitutes the main part of its obligations. Therefore, current assets and these debts in solving problems related to the management of payment obligations problems related to accounting and analysis of management in the market economy the economy, the regulation of which is of great national economic importance, it is one of the political and organizational issues.

**Keywords:** accounting, receivables, payables, legislation, accounting of settlements.

**Mehriban Rövşən qızı HÜSEYNOVA, i.f.d.**

**Aysel Vaqif qızı SADIQOVA**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: huseynova.mehriban.89@gmail.com

# RESPUBLİKAMIZDA YEYİNTİ SƏNAYE SEKTORUNUN İNKİŞAFININ TƏMİN OLUNMASI

**Xülasə**

Bu gün respublikamızda yeyinti sənayesinin inkişaf etdirilməsi üçün xeyli işlər görülmüşdür. İstər bu sahəyə sərmayə qoymuş sahibkarlara, istərsə də dövlət səviyyəsində həyata keçirilən iri layihələrə dövlət tərəfindən xeyli güzəştlər edilmişdir. Sahənin maddi bazası yenilənmiş, yeni texnika və texnologiyaların ölkəyə gətirilərək istifadəsi üçün hər cür şərait yaradılmışdır. Bu sahədə əlverişli biznes mühitinin formalaşdırılmasına, bir çox məhsulların istehsalına dövlət strukturları və yaxud özəl sektorda fəaliyyət göstərən şirkətlər tərəfindən xeyli vəsait cəlb edilmişdir.

**Açar sözlər:** sahədə təşkilati - idarəetmə mexanizmi, sənaye potensialı, yeni iqtisadi siyasət, emal sənayesi.

**JEL: O13**

**Giriş**

Sənaye - təbiətdə olan mineral maddələrin və habelə kənd təsərrüfatı mallarının mexaniki, termiki və kimyəvi təsirlərlə texniki təyinatlı məhsulların istehsalı üçün fəaliyyət növüdür. Sənaye məhsuldar qüvvələrinin təkmilləşdirilməsi cəmiyyətin maddi və mədəni tələbatlarının təmin edilməsində həlledici rola malik maddi istehsal sahəsidir.

Müstəqilliyin ilk illərində bir çox sahələrdə olduğu kimi, sənaye sahəsində də böhran yaşanmışdır. Sovet iqtisadi sistemində mövcud olmuş iqtisadi əlaqələrin pozulması, sərhədlərin inkişaf etmiş ölkələrlə maneəsiz açılması rəqabətqabiliyyəti olmayan Azərbaycan sənaye sahələrinin daha da zəifləyərək sıradan çıxmasına səbəb olmuşdur. Aqrar sahədə əhatəli tədqiqat işləri aparan iqtisadçı alim professor İ.İbrahimov qeyd edir ki, “Azərbaycanda həyata keçirilən transformasiya yönümlü islahatların ilkin dövrlərində, iqtisadiyyata dövlət müdaxiləsi məhdudlaşdırılmışdır. İqtisadiyyatın dövlət tənzimlənməsi ilə bağlı həyata keçirilən tədbirlərin ardıcıl xarakter daşımaması, yeyinti sənayesi sahələrinin dövlətin bütövlükdə sosial - iqtisadi proseslərin idarə olunmasından kənarda qalması məhsul istehsalının kəskin azalmasına səbəb olmuşdur. Bu mülkiyyət mənsubiyyətindən asılı olmayaraq yeyinti məhsulları istehsalçılarının maliyyə fəaliyyətinin pisləşməsinə, ərzaq bazarında idxal kanallarının xüsusi çəkisinin genişlənməsinə, yerli qida istehsalçılarının daxili bazardan sıxışdırılmasına gətirib çıxarmışdır” [1, s.129].

Azərbaycan iqtisadiyyatında yaranmış böhran vəziyyətindən çıxmaq üçün Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar, iqtisadiyyatın liberallaşdırılması və bazar iqtisadiyyatının prinsiplərinə uyğun normativ - hüquqi bazanın yaradılması bütün sahələrdə olduğu kumi, sənayenin, o cümlədən yeyinti sənaye sahəsinin inkişafına da təkan vermişdir.

**Tədqiqatın məqsədi:** Araşdırmalar göstərir ki, respublikamızda dövlət əmlakının özəlləşdirilməsi zamanı ilk əvvəl yeyinti sənayesi sahələrinin özəlləşdirilməsi nəticəsində müxtəlif mülkiyyət formalı təsərrüfların yaradılması, bu sahədə korporativ idarəetmənin tətbiqi bu sahədə təşkilati - idarəetmə mexanizmlərinin təkmilləşdirilməsini zəruri etmişdir.

## MATERIALLAR VƏ MÜZAKIRƏLƏR

Ölkə iqtisadiyyatının kompleks inkişafının təmin olunması və səmərəliliyinin yüksəldilməsi üçün onun bütün sahələrinin əlaqəli və ahəngdar olmasına nail olunmalıdır. , Hər bir sahədə mövcud olan istehsal potensiallarından səmərəli səviyyədə istifadə edilməsi ölkədə ümumi iqtisadi artımın yüksəlməsinə töhfə verə bilər. Bu sahələrdən biri və aparıcı rola malik olan sənaye bu gün ölkəmizdə prioritet sahələrdən sayılır.

Hər bir ölkənin iqtisadi inkişafının təmin olunmasında əsas şərtlərdən biri də onun ərazisində mövcud olan təbii sərvətlərin son məhsulun istehsalına kimi ölkənin öz ərazisində emal edilməsi və hazır məhsulun faydalı ixrac olunmasını müəyyən etmək məsələlərinin düzgün həll olunması və bu sahə üzrə məqsədyönlü tədbirlərin həyata keçirilməsidir.

Təbii sərvətlərin son məhsuladək respublika ərazisində emal edilməsi, dünya bazarına xammal və yarımfabrikat şəklində çıxarılması deyil, hazır məhsul olaraq ixrac edilməsi respublikanın milli gəlirinin artırılmasına, qızıl və valyuta ehtiyatlarının formalaşmasına və gələcək nəsillər üçün qorunub saxlnmasına şərait yaradır. Eyni zamanda, əhalinin iqtisadi vəziyyətini yaxşılaşdırmaqla yanaşı, sənaye istehsalının genişləndirilməsində, ölkənin maliyyə vəziyyətinə müsbət təsir etməklə, yeni yaradılan iş yerləri hesabına əmək qabiliyyətli əhalinin ictimai istehsala cəlb olunmasını təmin etmiş olar.

İ.İbrahimov bu istiqamətdə apardığı tədqiqatında qeyd edir ki, "Yeyinti sahəsinin dayanıqlı inkişafının təmin edilməsi dünya təcrübəsinə əsaslanan, büdcə vəsaiti və investisiyalar hesabına həyata keçirilən səmərəli dövlət yardım proqramlarından bilavasitə asılıdır. Digər sahələrdə, məsələn kənd təsərrüfatında olduğu kimi yeyinti məhsulları istehsalçılarına da birbaşa büdcə yardımlarının, subsidiyaların, dotasiyaların və kompensasiyaların verilməsi, müəyyən xərclərin ödənilməsi məqsədilə qısamüddətli kredit resurslarının ayrılması, texnologiyaya və avadanlıqların lizinq yolu ilə əldə olunmasına yardım göstərilməsi sahənin inkişafının təmin edilməsində həlledici rol oynaya bilər" [1, s.131].

Araşdırmalarımız göstərir ki, qeyri-neft sektorunda xüsusi əhəmiyyət kəsb edən sənaye sahələrinin, o cümlədən yeyinti sənayesinin inkişaf etdirilməsi aqrar sahənin inkişafına və kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşmasına birbaşa təsir edir. Məhz bu baxımdan, bu sahələrin inkişafına dövlət dəstəyinin yeni mexanizmlərinin işlənib hazırlanmasına və tətbiqinə böyük ehtiyac vardır.

Sənayenin sahə quruluşuna ediləcək dəyişiklik prosesində mühüm sərvətlərimiz olan neft (mineral xammal), pambıq və üzüm (kənd təsərrüfatı xammalı) sənaye istehsalının əsas xammal - enerji resursu kimi çıxış edir. Respublikamızda sənayenin perspektiv inkişafı bir çox sahələrin inkişafından bilavasitə asılıdır.

1994-cü ildə Ümummilli Liderimiz Heydər Əliyevin uzaq görən siyasəti sayəsində "Əsrin müqaviləsi"nin imzalanması nəticəsində bu gün müasir tələblərə və dünya standartlarına cavab verən neft sektorunun inkişafına nail olunmuşdur. Keçən dövr ərzində neft sənayesindən əldə olunan gəlirlər hesabına ölkə iqtisadiyyatının bütün sahələrinə sərmayə qoyulmuş, sənayedəki tənəzzül qismən aradan qaldırılmışdır.

Azərbaycan Respublikası üzrə sənaye sahəsində müasir vəziyyətin araşdırılması bu gün öz aktuallığı ilə seçilir. Artıq Azərbaycan Respublikasında sənayenin bir çox istehsal sahələrində müasir texnologiyalara əsaslanan qabaqcıl müəssisələr formalaşdırılmışdır.

Naxçıvanda, Neftçalada avtomobil, Sumqayıtda və Mingəçevirdə sənaye parklarının yaradılması, paytaxt Bakı ətrafında günəş panelləri istehsalı müəssisələrinin təşkil olunması artıq iqtisadi artıma öz töhfəsini verməkdədir.

Artıq güclü müdafiə sənayesinin təşkili istiqamətində də mühüm layihələr reallaşdırılmış, qısa müddətdə bu sahədə 45-ə yaxın yeni istehsal sahəsi yaradılmış və onlar tərəfindən hərbi və mülki təyinatlı məhsulların da istehsalı təşkil olunmuşdur. Nəticədə onların istehsal həcmi son illərdə təqribən 2 dəfə artırılmışdır.

Ölkəmizdə aparılan iqtisadi islahatların hədəflərindən biri də məhz güclü sənaye potensialının yaradılmasıdır. Əgər buna nail olunarsa, gələcəkdə neft hasilatı azalacağı təqdirdə sənaye potensialı Azərbaycanın dayanıqlı inkişafını təmin etmək gücündə olacağı şübhəsizdir.

Son illərdə regionların sosial - iqtisadi inkişaf proqramlarının həyata keçirilməsi nəticəsində bölgələrdə 500-dən çox sənaye müəssisəsi yaradılmış, sənaye məhsullarının istehsalının həcmi 2,7 dəfə artmışdır. Respublikamızda sənaye əhəmiyyətli xammalların (qara, əlvan və nadir metal filizləri) zənginliyi metallurgiya sənayesi və bu sənaye ilə əlaqəli olan digər sahələrin inkişafına zəmin yaratmışdır.

Yaxın gələcəkdə ölkənin ikinci böyük sənaye mərkəzi sayılan Gəncə şəhərində metallurgiya kompleksinin tikintisi, bundan əlavə Gəncə - Daşkəsən və Qazax - Tovuz iqtisadi rayonunda əlvan və qiymətli metallar - qızıl, gümüş və mis hasilatı ilə məşğul olan müəssisələrin fəaliyyətlərinin genişlənməsi və yenilərinin işə salınması planlaşdırılır. Sənayenin inkişafının stimullaşdırılması tədbirləri çərçivəsində, texnoparkların inkişafını

stimullaşdırmaq üçün orada çalışan hüquqi və fiziki şəxslərin gəlir, mənfəət, ƏDV, əmlak və torpaq vergilərindən 7 illik vergi güzəştləri nəzərdə tutulur.

İqtisadiyyatımızın inkişafında özünə məxsus xüsusiyyətlərə malik Şüşə sənayesinin inkişaf etdirilməsi perspektivlərinin müyyənləşdirilməsi də vacib məsələlərdən biridir. Müasir dövrdə istehsal sahələrini, istehsal proseslərini, elmi və kosmik tədqiqatları, müdafiə sənayesini, səhiyyəni, mebel və digər mədəni - məişət əşyaları istehsalını şüşəsiz təsəvvür etmək çətindir.

Məhsulun artım xüsusiyyətlərinə görə, sənaye üçün aşağıdakı qanunauyğunluğu qeyd etmək olar: buraxılan məhsul nə qədər mürəkkəb və texnoloji prosesin sonuna - hazır məhsula yaxın olarsa, o qədər də müəssisələr dərindən ixtisaslaşmaqla böyük olar və onların arasında açıq tipli səhmdar cəmiyyətlərinin xüsusi çəkisi çoxalar. Əksinə məhsul nə qədər sadə və texnoloji prosesin əvvəlinə yaxın olarsa, o qədər də kiçik müəssisələrin xüsusi çəkisi çox olar və xərcləri çoxalmaqla istehsal etdiyi məhsulun rəqabətqabiliyyəti aşağı olar.

Respublikamızda son illərdə qeyri - neft sahəsinin inkişafı istiqamətində islahatlar həyata keçirilməklə iqtisadiyyatının şaxələndirilməsi, qeyri - neft iqtisadiyyatının inkişafı, əhalinin həyat tərzinin yüksəldilməsi istiqamətində mühüm tədbirlər görülməkdədir. Ölkə regionlarında sosial - iqtisadi inkişaf üzrə Dövlət Proqramlarının reallaşdırılmasının nəticəsi olaraq ölkədə makroiqtisadi indikatorların səviyyəsində davamlı irəliləyiş əldə edilmiş, sosial - iqtisadi inkişaf üzrə planlaşdırılan tədbirlərin həyata keçirilməsi vətəndaşların həyat səviyyəsinin daha da yüksəlməsini təmin etmişdir.

Aparılmış təhlillər göstərir ki, ölkəmizdə qida sənayesi, kimya və digər sənaye sahələrində istehsal üzrə iqtisadi artım müşahidə olunmuş, dünya iqtisadiyyatının böhranla qarşılaşdığı şəraitdə belə respublikamızın sənayesində inkişafa nail olunmuşdur. Ölkəmizdə qeyri - neft sektorunda innovasiyaların və müasir texnoloji avadanlıqların tətbiqi ilə rəqabət qabiliyyətli sənaye məhsullarının istehsalı bu gün aktual məsələlərdən biridir.

Hazırda sənayenin müntəzəm dinamika ilə inkişafını təmin etmək üçün münbit şərait yaratmaqla, sənaye müəssisələrini təşkil etməklə, cəmiyyətin məşğulluğunu artırmaq yönündə yüksək texnologiyalar parklarının yaradılması çox böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası üzrə son dövrlər sənaye sahələrinin fəaliyyəti üzrə ümumi iqtisadi göstəricilərdə ciddi dinamik dəyişikliklər qeydə alınmışdır. Təbii və enerji resursların istehsal sahələrinin inkisafı ölkədə elmi - texniki tərəqqini təmin etmir. Elmi - texniki tərəqqini təmin edən sahələr, əsasən emal sənayesi sahələri olduğundan elmi - texniki tərəqinin ən son nailiyyətlərinin tətbiqi zəruridir. Son illərdə ölkəmizdə neft sənayesindən başqa digər sahələrin inkişafı istiqamətində həyata keçirilən islahatlar bu sahədə ümumilikdə inkişafın təmin edilməsinə və sənayedə özəl müəssisələrin xususi çəkisinin artmasına öz müsbət təsirini göstərmişdir.

Azərbaycanda sənayeləşmə siyasətinin davamlı şəkildə həyata keçirilməsi ölkə iqtisadiyyatını yüksəltməklə xarici valyuta ehtiyatlarının yığımına təsir edir. Mövcud resursların digər istiqamətlər kimi qeyri - neft sənayesinin inkişafına da yönəlmə imkanları artır. Ölkəmizdə sənayenin inkişaf etdirilməsi üçün zəngin xammal və resurs potensialının mövcudluğu, sənaye sahələrinin imkanlarının səfərbər edilməsi bu sahələrin keyfiyyət və kəmiyyət baxımından davamlı inkişafına əsaslı şəkildə təsir göstərir.

Azərbaycanda sənayenin inkişafına təsir edən əsas faktor neft sektorudur. Lakin sənayenin neftdən kənar sahələrinin (maşınqayırma, metallurgiya, mal müəssisələri, kimya kompleksi, mədənçıxarma) müəssisələri qeyri - neft sənayesinin əhəmiyyətli dərəcədə inkişafına öz təsirini göstərir. Azərbaycanın qızıl istehsal edən dövlətə çevrilməsini də ölkənin iqtisadi həyatı üçün əlamətdar hadisə kimi dəyərləndirmək olar.

Ölkənin mədən çıxarma sənayesində qızıl, gümüş, əlvan metal, bentonit, duz və əhəng daşı istehsalı artmaqdadır. Artıq bu sahədə hazır və yarımfabrikat məhsul istehsalının təşkili üçün imkanlar genişlənir.

"Azərbaycan Respublikasında qeyri - neft sənaye sahələrinin 2014 - 2020-ci illər üçün prioritet inkişaf istiqamətlərinin müəyyən edilməsində əsas məqsəd respublikada elm tutumlu və dünya standartları səviyyəsində sənaye məhsullarının istehsal edilməsidir. Həmçinin sənayedə dövlət tənzimləməsi tədbirlərinin yüksəldilməsi, sənaye kompleksində dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi və əmək resurslarının səfərbər edilməsini həyata kecirməklə bu sektorun sürətli və yüksək inkişafına nail olmaqdır" [2, s.44-48].

Qeyri - neft sektorunun aparıcı sahələrindən

biri olan emal sənayesinin xüsusi çəkisi son illərdə xeyli artmışdır. Bu gün respublikamızda bu sahədə fəaliyyət göstərən sənaye müəssisələrinin müasir texnologiyalar əsasında yenidən qurulması, modernləşdirilməsi, yerli xammalla işləyən, yüksək keyfiyyətli məhsullar istehsal edən komplekslərin yaradılması uğurla həyata keçirilir. Emal sənayesinin əsas inkişaf prioritetləri rəqabətə davamlı əmtəələrin istehsalının genişləndirilməsi hesab edilir.

Sənaye siyasətinin regionlar üzrə müəyyənləşdirilməsinin əsas istiqamətlərinə nəzər salsaq görərik ki, Azərbaycan Respublikası Prezidentinin 26 fevral 2015-ci il tarixli 1077№ - li Sərəncamına əsasən Mingəçevir Sənaye Parkı yaradılmış və 2018-ci ilin fevralında fəaliyyətə başlamışdır. İlkin fəaliyyətini pambıq ipliyi istehsalı ilə başlayan Mingəçevir Tekstil müəssisəsində iki fabrik fəaliyyətə başalayaraq 750 nəfəri işlə təmin etmişdir. Mingəçevir sənaye parkının işə salınması ölkəmizin regionlarında sənayenin inkişafına təkan verməklə, xam pambığın istehsal proseslərini dəyər zənciri üzrə inkişafına imkan verməklə pambıq istehsalının ölkə üçün əhəmiyyətini artırmışdır. Qeyd edək ki, sənaye parkının tərkibində iplik, corab, tibbi kosmetika, ayaqqabı, tikiş, pambıq iplik fabrikləri yaradılaraq istismara verilməsi planlaşdırılmışdır.

Bundan başqa Mingəçevir sənaye parkı nəzdində yaradılacaq pambıq iplik fabrikdə öncə on min tona qədər, sonrakı illərdə isə iyirmi min tona yaxın pambıq iplik istehsalı nəzərdə tutulmuşdur. Burada hər il istehsal olunan on min tona qədər iplik məhsulları xarici dövlətlərə ixrac edilməklə, respublikamıza təxminən iyirmi beş miliyon ABŞ dollarından artıq xarici valyuta gətirilməsi təmin edilir.

Sənaye parkının tərkibində pambıq iplik istehsalından əlavə, ölkəmizə böyük ehtiyac olan akril iplik və yun iplik fabrikləri də tədricən istismara verilməsi nəzərdə tutulur. Məsələn, akril iplik fabrikinin ilk dövrlər istehsal potensialı 3 min tona qədər çatacaqdır. Qeyd olunan fabrik fəaliyyətə başladıqdan sonra ölkəmizə akril iplik üzrə idxal prosesi dayandırılacaqdır ki, bu da iqtisadi baxımdan müsbət hal hesab olunur.

İlkin olaraq yun iplik fabrikinin illik istehsal potensialının üç min tona çatacağı planlaşdırılır. İlk dəfə olaraq respublikamızda yun məhsullarının emalı Aran bölgəsində təşkil olunacaqdır. Ümumi olaraq iplik yunun Mingəçevir sənaye parkının Yun iplik fabrikində istehsalı planlaşdırılmışdır. Akril və yun iplik fabriklərində təxminən səkkiz yüzdən çox iş yerinin yaradılması nəzərdə tutulur. Mingəçevir sənaye parkı nəzdində inşa ediləcək corab məhsulları istehsal fabrikində ilk dövrlər ölkəmizin corab məhsullarına olan ehtiyacının əlli faizinin ödənilməsini təmin edəcəkdir. Bu məqsədlə, əvvəlcə istehsal prosesini həyata keçirmək üçün inkişaf etmiş Avropa dövlətlərindən 500 corab hörgü dəzgahı alınacaqdır. Sonrakı illərdə isə dəzgahların sayının 1000 ədədə çatdırılması hesabına il ərzində 70000 cüt corab istehsalı planlaşdırılır.

Mingəçevir parkının tərkibində fəaliyyətə başlayacaq ayaqqabı fabrikinin lik 1,5 milyon cüt dəri və xüsusi təyinatlı işçi ayaqqabıları istehsal edəcəyi planlaşdırılır. Nəticədə xarici dövlətlərdən asılılıq tamamilə aradan qaldırılacaqdlr. Ayaqqabı fabrikində istehsal prosesində ən yeni innovativ texnologiyalar tətbiq olunmaqla, dünyanın tanınmış şirkətlərinin avadanlıqları burada quraşdırılacaqdır. Fabrikdə üç yüz ixtisaslı yeni işçinin işləməsi ilk illər planlaşdırılır ki, bu da regionlar üzrə məşğulluğun təmin olunmasında mühüm rol oynayacaqdır.

Eyni zamanda, sənaye parkının tərkibində fəaliyyət göstərən mahlıc və iplik tullantıları təkrar emal edən, pambıq, tibb sarğı və s. istehsal edən iplik fabrikinin işləməsi nəzərdə tutulur.

Sənaye parkının strukturunda istehsal olunan xam parçanın boyanması məqsədilə, eyni zamanda parça boyama fabiriki istifadəyə veriləcəkdir. Fabrikdə hər il on milyon metrə qədər toxuma məhsullarının postsovet məkanı ölkələri və Avropa dövlətlərinə ixrac olunması planlaşdırılır.

Son illər ölkəmizdə Sumqayıt şəhərindən başqa, Bakı şəhərinin Balaxanı rayonunda məişət tullantıları emalı zavodunun nəzdində texnopark yaradılmışdır. Zənnimizcə, respublikamızda yeni texnoparklar birinci növbədə regionlarda sənayenin inkişaf perspektivlərini və böyük sənaye istehsal kompleksinin formalaşması imkanlarını nəzərə almaq məqsədəuyğun olardı.

Sənaye sahəsinin mühüm istiqamətlərindən biri də yeyinti sənaye sahələrinin inkişaf etdirilməsidir.

Yeyinti sənayesi aqrar - sənaye kompleksinin tərkib hissəsi olmaqla, ölkə əhalisinin qida məhsullarına olan tələbatının ödənilməsində xüsusi əhəmiyyət kəsb edir. Yeyinti sənayesində emal

olunmuş qida, içkilər, o cümlədən tütün məmulatları, yuyucu vasitələr və heyvan yemi ilə birlikdə hazır qida məhsullarının istehsalı həyata keçirilir. Yeyinti sənayesinin inkişaf etdirilməsi onun keyfiyyətli xammalla təmin edilməsindən və istehsal olunan məhsulların istehlakçılar tərəfindən rəğbətlə qarşılanaraq istifadəsinə üstünlük verməsindən asılıdır. Yeyinti sənayesi struktur olaraq bir neçə sahələrə bölünür: ət və ət məhsulları, süd və süd məhsulları, şirniyyat məhsulları, un və dənli bitkilər və qarışıq yem, balıq və balıq məhsulları. Bu sahələri də öz növbəsində daha çox istehsal sahəsi üzrə təsnifləşdirmək olar.

Yeyinti sənaye sahələrinə daxil olan müəssisələr ölkə əhalisinin qida məhsullarına olan tələbatının yerli və xarici xammal hesabına 90%-ə qədərini ödəyir. Yeyinti sənayesinin üzərinə əhalinin sağlam qida məhsulları ilə təmin etmək kimi böyük məsuliyyət düşməklə qida rasionunu vitaminlər, yağlar, zülallar, karbohidratlar və mikroelementlərlə daim təmin etməkdir. Göründüyü kimi, əhalinin sağlamlığı və aktiv fiziki fəaliyyəti, daha doğrusu həyatının özülü tamamilə bu ən mühüm sənaye sahəsinin normal fəaliyyət göstərməsindən asılıdır. Qeyd edə bilərik ki, yeyinti sənayesinin inkişafının təmin edilməsi həm ölkənin ərzaq təhlükəsizliyinin təminatında, həm də dövlətin təhlükəsizliyi üçün müstəsna ictimai-siyasi əhəmiyyət kəsb edir.

Yeyinti sənayesinin istehsal potensialının genişləndirilməsi üçün aşağıda verilənlərə xüsusi diqqət yetirilməsi məqsədəuyğundur:

- Qida məhsulları istehsalı üçün kənd təsərrüfatı məhsullarının tədarükü;
- Yeyinti sənayesinə verilən kənd təsərrüfatı məhsullarının keyfiyyəti;
- İnnovativ istehsalın həyata keçirilməsi üçün infrastrukturun olması;
- Sənaye müəssisələrini bütün növ enerji resursları ilə təmin etmək;
- Məhsulların daşınması, qəbulu və saxlanması üçün müvafiq infrastrukturun olması.

Araşdırmalarımız göstərir ki, yuxarıda müəyyən edilən amillərdən ən mühümü istehsal olunan məhsulların keyfiyyət göstəriciləridir və bu amil kənd təsərrüfatından xammal kimi qəbul edilən məhsulların da keyfiyətli olmasını şərtləndirir. Rus alimi Voblikova hələ 2002-ci ildə apardığı tədqiqatlarında qeyd edir ki, "Yeyinti sənayesi məhsullarının keyfiyyəti kənd təsərrüfatı məhsullarının keyfiyyətindən asılıdır. Kənd təsərrüfatı istehsalının təkmilləşdirilməsi sahəsində imkanlar və problemlər çoxdur. Kənd təsərrüfatı və ayrı-ayrı kommersiya strukturları tərəfindən satılan əsas xammalın (buğda və unun, əlavə materialların) keyfiyyəti istehsalçıları qane etmir" [3, s.8-20]. Aparılan tədqiqatlar göstərir ki, bu problem Azərbaycanda da mövcuddur. Müstəqillik illərindən ölkəmizdə əkilən buğda məhsulunun böyük bir hissəsinin tərkibində kleykavinanın tələb olunan normaya uyğun gəlməməsi səbəbindən əhalinin un və un məhsullarına olan tələbatının ödənilməsi üçün böyük həcmdə buğda idxal olunur.

İqtisadçı alim E.Quliyev də öz tədqiqatında qeyd etmişdir ki, "ölkədə istehsal olunan qida məhsullarının rəqabətqabiliyyətindən çox, bu məhsulların hazırlanması, son istehlakçılara təqdim olunması, qida məhsullarının mənşəyi ilə bağlı problemlər, uyğunluq sertifikatlarının olub – olmaması, müəyyən qida standartlarına uyğun gəlib – gəlməməsi məsələləri daha çox fərqlənirlər. Cəmiyyət haqlı olaraq bu suallara cavabların axtarışındadır, şübhəsiz, hər bir kəs yüksək keyfiyyətə malik və rəqabətqabiliyyətli qida məhsullarının istehlakında maraqlıdır" [4, s.238].

Göründüyü kimi yeyinti sənayesinin fəaliyyətinin genişlənməsinə birbaşa təsir edən amil onun istehsal etdiyi məhsulun keyfiyyətidir. Eyni zamanda, dünya bazarında baş verən proseslər baxımından ölkə əhalisinin geniş çeşiddə ərzaq və qida məhsullarına olan tələbatının ödənilməsi yüksək texnologiyalı yeyinti sənaye sahələrinin inkişafını şərtləndirir.

Hazırda respublikamızda yeyinti sənaye sahələrinin aşağıdakı istehsal istqiamətlərinə uyğun olaraq müəssisələri fəaliyyət göstərir:

- Ət və ət məhsulları istehsalı;
- Balıq və balıq məhsulları istehsalı;
- Süd və süd məhsulları istehsalı;
- Un və un məmulatları, dənli bitkilər (düyü, qarabaşaq və s.) istehsalı;
- Bitki yağları istehsalı;
- Qənnadı və şirniyyat istehsalı;
- Meyvə - tərəvəz şirələri və konservləri istehsalı;
- Çay istehsalı;
- İnsan qidası üçün yararlı duz istehsalı;
- Şirinləşdirilməmiş mineral və qazlı suların istehsalı.

Yeyinti sənaye sahəsinin ət və ət məhsulları istehsal müəssisələrində iri buynuzlu və xırda buynuzlu heyvanların (mal əti, qoyun və keçi əti, donuz əti və s.) əti, müxtəlif quşların əti, onlardan alınan kolbasa və sosisləri, hisə verilmiş ətləri əsasən daxili bazara yönəldilir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə xüsusi olaraq vurğulanır ki, həm əhalinin istehlakı üçün kolbasa məmulatları, həm də kolbasa sənayesi üçün ət xammalı ölkəyə böyük həcmlərdə idxal olunur. "Təzə ət (mal, toyuq və qoyun əti) Azərbaycanda ən çox istehsal edilən heyvandarlıq məhsulları olmaqla, dəyər ifadəsində həcminə görə ikinci yerdədir. Bununla belə, bu məhsul yerli bazarın tələbatını ödəmir və onun ixracı aşağı səviyyədədir. Ölkədən, əsasən, emal edilmiş və konservləşdirilmiş ət məhsulu ixrac edilir. Azərbaycanda fəaliyyət göstərən emal müəssisələrinin müasir texnologiyalara və yüksək əmək məhsuldarlığına malik olduğunu nəzərə alsaq, onların əhatə dairəsini genişləndirməklə və fəaliyyətini gücləndirməklə, tələb olunan ət məhsullarının istehsalını əhəmiyyətli dərəcədə artırmaq olar" [5, s.68].

Aparılan araşdırmalar göstərir ki, ölkə əhalisi öz istehlakında mental dəyər və sağlamlıq baxımından emal olunmuş ət məhsullarından daha çox təzə kəsilmiş ətə üstünlük verirlər ki, bu da öz növbəsində ət məhsulları istehsalı sahələrinin fəaliyyətinə təsir edir. Bu tendensiya süd məhsulları istehsalında da baş verir. Belə ki, şirinləşdirilmiş və şirinləşdirilməmiş mineral və qazlı suların istehsalının artması əhalinin xüsusən də gənclərin süd və süd məhsulları istehlakına təsir edir. Digər tərəfdən mətbəxlərdə bitki yağlarının istehlakının artması kərə yağından istifadə səviyyəsinə təsir etmişdir.

Aparılan tədqiqatlar göstərir ki, yeyinti sənaye sahələrinin və eləcə də digər istehsal sahələrinin inkişafı üçün nəzərdə tutulan strateji prioritetlər işlənməsə, bazar iqtisadiyyatının tələblərinə uyğun fəaliyyət mexanizmi formalaşmasa istənilən müəssisənin inkişafı və rəqabətqabiliyyətliliyi strategiyasında uğurlu nailiyyətlər olmayacaq. Ölkəmizdə fəaliyyət göstərən yeyinti sənaye sahələri əsasən daxili bazara istiqamətlənmiş və bu məhsullara olan tələbatın aşağı olması onların satış dövriyyəsinə mənfi təsir edir. Bu müəssisələrin ixracyönlü istehsalının aşağı olması səbəbindən onların inkişafını və yeniliklərin tətbiqini ləngidir. Nəticədə istehsal olunan məhsulların rəqabətqabiliyyəti getdikcə aşağı düşür. Statistik məlumatlara görə 2020-ci ildə ölkədə adam başına bütün növ ət və ət məhsulları istehlakı 40,8 kq, o cümlədən mal əti və ət məhsulları 16,3 kq, qoyun və keçi əti və ət məhsulları 8,9 kq, donuz əti və ət məhsulları 1,0 kq, quş əti və ət məhsulları 14,6 kq təşkil etmişdir. 2020-ci ildə əhali sayına (10119,1 min nəfər) uyğun olaraq 412,8 min ton ət və ət məhsulları istehlak olunmuşdur. 2020-ci ildə ölkədə kəsilmiş çəkidə ət istehsalı 346,0 min ton, o cümlədən mal əti 143,1 min ton, qoyun və keçi əti 87,0 min ton, donuz əti 0,5 min ton və quş əti isə 115.4 min ton təşkil etmişdir. Qeyd edək ki, 2020-ci ildə ölkədə 25,8 min ton kolbasa məmulatları istehsal olunmuşdur. İstehsal olunmuş kolbasa məmulatlarının tam istehlakını nəzərə alsaq, bu ümumi ət və ət məhsulları istehlakında 6,3% təşkil edir [6].

Tədqiqat zamanı, bəzi emal sənayesi məhsullarının ölkə əhalisi tərəfindən istehlakının aşağı olmasının bir neçə əsas səbəbi müəyyən edilmişdir:

- İstehsal olunan məhsulun keyfiyyətinə inamın aşağı olması;
- Məhsul üzərində istifadə olunan xammal haqqında məlumatların yetərincə olmaması;
- Bazara təklif olunan məhsulların qiymətinin yüksək olması;
- Alıcılıq qabiliyyətinin aşağı olması;
- Sanitar - gigiyenik tələblərə cavab verməyən sexlərdən bazara təklif olunan saxta məhsulların yüksək olması;
- Məhsulların daşınmasının sanitar-gigiyenik qaydalara cavab verməməsi.

Bütün bu qeyd edilənlər haqqında sosial şəbəkələrdə geniş informasiyaların mövcudluğu həmin məhsulların istehlakına birbaşa təsir edir.

Tədqiqat zamanı yeyinti sənayesi sahələrində ixtisaslaşmanın zəif olmasının məhsulların qiymətinə təsir etdiyi və onun rəqabət qabiliyyətini aşağı saldığı da müəyyən edilmişdir. "Sahədə dəqiq, səlis ixtisaslaşdırma müəssisə daxili ixtisaslaşdırmanı şərtləndirir və yüngülləşdirir, məhsulun kütləvi istehsalına müsbət təsir edir və keyfiyyətinin yüksəldilməsi şərtlərindən biridir. Müəssisə daxili ixtisaslaşdırma yeyinti sənayesinin bir çox sahələrində geniş yayılmışdır. Belə ki, məsələn konserv müəssisələri, meyvə - tərəvəz konservlərinin istehsalı üzrə öz tərkiblərində məhdud ixtisaslaşdırılmış sex və ya istehsalat sahələri

(xətlər) meyvə, tomat, qəlyanaltı konservləri, şirələrin hazırlanması və s. mailkdirlər" [7, s.123].

Qeyd edək ki, yeyinti sənaye müəssisələrinin ixtisaslaşması əmək resurslarından və peşəkar kadrlardan səmərəli istifadəyə imkan verməklə məhsulun maya dəyərinin aşağı düşməsinə şərait yaradır.

Burada məhsulun qablaşdırılması zamanı istifadə olunan taraların əsasən idxal olunduğu səbəbindən məhsulun qiymətinin yüksək olmasına birbaşa təsir edir. Yeyinti sənaye müəssisələrinin taralara olan tələbinin yerli istehsal sahələrinin yaradılması və istehsalının təmin edilməsi hesabına ödənilməsi məhsulların rəqabətqabiliyyətinin yüksəlməsinə təsir edər. Eyni zamanda, xaricə valyuta axınını azaltmaqla əhalinin işlə təmin edilməsində iqtisadi artıma müsbət təsir etmiş olar.

Yaxın perspektiv dövr ərzində Azərbaycan Respublikasının əsas sənaye şəhərlərində sənayenin inkişafı üzrə iqtisadi siyasətin aşağıdakı istiqamətlərdə təmin edilməsi məqsədəuyğun hesab olunur:

- regionlarda Gəncə, Sumqayıt, Mingəçevir, Daşkəsən və s. kimi sənaye şəhərləri üzrə müasir regional innovasiya proqramlarının tərtibi və həyata keçirilməsi;
- sənaye müəssisələrinin fəaliyyəti üzrə beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi;
- regional sənaye sahələri üzrə strateji baxımdan idxalı əvəz edən və ixrac məhsullarının genişlənməsini təmin edəcək sənaye müəssisələrinin təşkili;
- inkişaf etmiş sənaye şəhərləri üzrə sənaye sahələrinin bütövlükdə innovativ baxımdan inkişafı (bunun üçün iri şirkətlərdə müasir texnologiyaların tətbiqi, məhsulun keyfiyyətinin yüksəldilməsi, ixrac yönümlü məhsul istehsalının artırılması, kiçik və orta sahibkarlıq fəaliyyətinin daha da inkişaf etdirilməsi məqsədə uyğundur);
- regional sənaye şəhərləri üzrə sənaye müəssisələrinin davamlı inkişafını təmin etmək üçün peşəkar kadr təminatını müasirləşdirmək zəruridir;
- sənaye şəhərləri üzrə innovativ inkişafın, modernləşməsi və təkmilləşdirilməsi mütləqdir;
- müasir texniki - texnoloji işləmələrdən və elmi potensialdan istifadə imkanlarının artırılması və s.

Qeyd olunan istiqamətlərdə görülən işlərin davam etdirilməsi bütövlükdə milli iqtisadiyyatın, o cümlədən sənayenin səmərəli, innovasiya yönümlü inkişafına kömək etməlidir.

Azərbaycanın siyasi və iqtisadi suverenliyə nail olması bütün təsərrüfat sahələrinin, xüsusilə də, sənaye məhsulları istehsalının dünya iqtisadi sistemi ilə inteqrasiya prosesinə qoşulması üçün keyfiyyətcə yeni iqtisadi siyasətin həyata keçirilməsini zəruri edir.

Odur ki, Respublikanın milli və təbii sərvətlərindən elmi əsaslarla istifadə olunması problemlərinin daim diqqət mərkəzində saxlanılması, rəqabət bazarına uyğun inkişafının təmin edilməsi məqsədəuyğundur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. İbrahimov, İ.H. Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri, (Monoqrafiya) – Bakı: – "Kooperasiya" nəşriyyatı – 2022 – 240 s.

2. Abbasov, İ.M., Əliyev, T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, "Elm və Təhsil", Bakı – 2018, – 267 s.

3. Вобликова, Е.М. «Технология хранения зерна» Санкт – Петербург Издательство ЛАНЬ – 2003 – 437 с.

4. Quliyev, E.A. "Qida tətlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri" Monoqrafiya, "Kooperasiya" nəşriyyatı – Bakı – 2020 – 464 s.

5. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strareji Yol Xəritəsi 06 dekabr - 2016-cı il - 177 s.

6. www.azstat.org Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

7. Kərimov, S.Ə. Yeyinti sənayesi məhsullarının keyfiyyətinin yüksəldilməsi yolları, Elmi əhəmiyyətli monoqrafiya, "Xəzər Universiteti" nəşriyyatı – Bakı: – 2012, – 224 s.

**Мехрибан Ровшан кызы ГУСЕЙНОВА, к. э. н.**
**Айсель Вагиф кызы САДЫКОВА**
E-mail: huseynova.mehriban.89@gmail.com

## ОБЕСПЕЧЕНИЕ РАЗВИТИЯ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ В НАШЕЙ РЕСПУБЛИКЕ

**Резюме**

Сегодня для развития пищевой промышленности нашей республики проделано много работы. Хоть предприниматели, которые инвестировали в эту область или значительные уступки со стороны государства крупным проектам, было сделано реализуемым на государственном уровне. В этой сфере много средств привлечено государственными структурами или компаниями, работающими в частном секторе, для формирования благоприятной бизнес-среды и производства многих продуктов.

**Ключевые слова:** организационно-управленческий механизм, производственный потенциал, новая экономическая политика, перерабатывающая промышленность.

**Mehriban Rovshan gizi HUSEYNOVA, Ph.d.**
**Aysel Vaqif gizi SADIQOVA**
E-mail: huseynova.mehriban.89@gmail.com

## ENSURING THE DEVELOPMENT OF THE FOOD INDUSTRY SECTOR IN OUR REPUBLIC

**Summary**

Today, for the development of the food industry in our republic has been done a lot of work.Whether to entrepreneurs who have invested in this field or considerable concessions by the state to large projects implemented at the state level has been done. The material base of the field has been updated, with new techniques and technologies brought to the country and all conditions were created for its use. Convenient in this area the formation of the business environment, the state for the production of many products structures or by companies operating in the private sector funds have been raised.

**Key words:** organizational-management mechanism, production potential, new economic policy, processing industry.

**Şahin Nadir oğlu XURŞUDOV, i.f.d., dos.**

**Məftunə Turman qızı OSMANLI**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: maftuna.osmanli@gmail.com

# TURİZMDƏ REKLAM MARKETİNQİNİN YAXŞILAŞDIRILMASI YOLLARI

**Xülasə**

Marketinq strategiyası mahiyyət etibarı ilə bir insanın marketinq məqsədlərinə çatmaq üçün əhatəli plandır. Sadə dillə desək, bu, marketinq taktikanızın biznes məqsədlərinizə daim töhfə verdiyinə zəmanət verən bir plandır.Taktikalar isə hər gün etdiyiniz yüksək praktik marketinq fəaliyyətlərindən ibarətdir. Məsələn, sosial mediada yazılar yazmaq, blog yazıları yazmaq, e-poçt göndərmək və s. Bu fərq olduqca vacibdir. Bu yazıda biz tur və fəaliyyət təminatçıları üçün ən yaxşı turizm marketinq strategiyalarını əhatə edəcəyik. Məqalə əsasən turizm sənayesi üçün marketinq üzrə giriş mətni kimi hazırlanmışdır. Bu, hər bir sektorun müxtəlif marketinq üsullarından necə istifadə etdiyini nümayiş etdirmək və onlara öz marketinq effektivliyini artırmaq üçün yeni ideyalar təqdim etmək məqsədi daşıyır. Turizmi, turizm təchizatçısını,turizm məhsulunu müəyyən edən turizmin böyüməsini və turizm motivatorlarını əhatə edir; hökumətlər və turizm; tədqiqat; tələb generatorları; yaşayış və yemək xidmətləri təchizatçıları; nəqliyyat təchizatçıları; təyinat ərazisinin planlaşdırılması; təchizatçı vəziyyəti təhlili; marketinq strategiyası; paketlər və vasitəçilər; qiymət; təşviq; çap və yayım mediası reklamı.

**Açar sözlər:** İnkişaf, Marketinq, Planlaşdırma, Strategiyalar, Turizm

**JEL: L83**

## Giriş

Bu tədqiqatın nəticələri ədəbiyyatda verilmiş konseptual məsələlərin aydınlaşdırılmasına, beynəlxalq səyahət və turizm marketinqi intizamında strategiyalar haqqında nəzəri marketinq biliklərinin əlaqələndirilməsinə kömək edir.

Turizm marketinqi turizm sənayesinin müxtəlif komponentlərinin öz məhsul və xidmətlərini satmaq üçün istifadə etdikləri marketinq strategiyalarına aiddir. Müəssisələrə müştərilərə uçuşlar, tətillər, otel otaqları və ya təcrübələr satan otellər, hava yolları, avtomobil icarəsi şirkətləri, restoranlar, səyahət və ya tur agentlikləri daxildir. Turizm marketinq strategiyalarının əksəriyyətinə sosial media marketinqi, e-poçt marketinqi, reklam və onlayn vebsayt sövdələşmələri daxildir. Bu marketinq vacibdir, çünki hazırkı bazar minlərlə şirkətin rəqabət apardığını görür. Buna görə də, hər biri özlərini bazara çıxarmaq və diqqəti cəlb etmək üçün unikal yollar tapmağa çalışırlar. Yenilənmiş və aktual olmaq turizm sənayesi daxilində təşkilatlara turistlərə istədiklərini verməyə kömək edə bilər. Bu, müştəriləri maraqlandıran fərdiləşdirilmiş və hiper-müvafiq məzmun təqdim etmək üçün yeni üsullarla onlara çatmağa kömək edə bilər [1].

Turizm sektoru ziyarətçiləri cəlb etmək istəyən bir çox sahələr üçün mühüm sənayedir. Sektor daxilindəki müəssisələr müştəriləri öz rəqabətlərində qazanmaq üçün daim yeni və innovativ ideyalar yaradırlar. Turizm üçün effektiv marketinq strategiyası sizə rəqibləriniz üzərində üstünlük verə bilər. Bu yazıda turizm marketinqinin nə olduğunu və nə üçün vacib olduğunu bir tur agentliyində, oteldə, restoranda və ya turizm sənayesindəki başqa bir təşkilatda işləməyinizdən asılı olmayaraq iş yerinizdə tətbiq edə biləcəyiniz bir neçə effektiv strategiyanın siyahısı ilə izah edəcəyik[3].

Mövcud tendensiyalar XXI əsrdə qlobal xidmət sektorunda artımın olacağını göstərir. Dünyanın əsas xidmət sahələrindən biri olan turizm son onilliklərdə qlobal iqtisadiyyata əhəmiyyətli töhfə vermişdir (Law et al., 2011). Bu səbəbdən, bir çox hökumətlər bu sözdə “bacasız sənayenin” inkişafını aqressiv şəkildə təşviq edir. Eyni şey Azərbaycan üçün də keçərlidir. Turizm uzun müddətdir ki, kənd yerlərinin, xüsusən də ənənəvi aqrar fəaliyyətin tənəzzülünün təsirinə məruz qalan ərazilərin sosial-iqtisadi inkişafı və bərpası üçün potensial vasitə hesab olunurdu. Kənd yerləri həm də postmodern turistlərin həqiqilik axtarışına

cavab verən köhnə həyat tərzlərinin və mədəniyyətlərin anbarları hesab olunur. Belə ki, kənd turizminin təşviqi inkişaf etmiş ölkələrdə ümumi siyasətə çevrilib [7]. Müştərilərinizi Anlayın.

Etməli olduğunuz ilk şey ideal müştərilərinizi anlamaqdır. Onların demoqrafik məlumatlarını bilməlisiniz; eləcə də, onları bron etməyə nə sövq edir və necə bron etməyi üstün tuturlar. Bu suallara verdiyiniz cavablardan ən azı 3 müştəri şəxsi yarada bilərsiniz. Daha sonra şəxsiyyətlər ətrafında brendinq, veb-sayt və marketinq strategiyanızı inkişaf etdirə bilərsiniz.Unikal satış nöqtənizi və biznes olaraq sizi nəyə yönəltdiyini nəzərə alın. Müştərilərinizə daha şəxsi səviyyədə çatmaq üçün bunu cəlbedici bir şəkildə çatdırmalısınız.

2. Vebsaytınızı optimallaşdırın.

Veb saytınız bütün internet marketinq səyləriniz üçün əsasdır. Beləliklə, istifadəçi təcrübəsini yaxşılaşdırmaq və dönüşüm nisbətlərinizi artırmaq üçün onu tez-tez optimallaşdırmalısınız.

3. Mobil telefona diqqət yetirin.

Think with Google-a görə, ABŞ-da smartfon istifadəçilərinin 48 faizi mobil cihazlarında bütün səyahətlərini rahatlıqla araşdırır, planlaşdırır və bron edir. Mobil təcrübə daha yaxşı olmasa da, vebsayt təcrübəsi qədər yaxşı olmalıdır. İstifadəçilər mobil cihazlarında vebsaytınızın masaüstü versiyasında olduğu kimi eyni tapşırıqları rahatlıqla yerinə yetirə bilməlidirlər.

Mobil təcrübənin əhəmiyyətini vurğulamaq üçün eyni Think with Google araşdırması göstərdi ki, mobil istifadəçilərin 33 faizinin mobil təcrübəsi ləng olarsa, brend haqqında mənfi təsəvvür yaranır.

4. Canlı Video Marketinq

Video marketinq hazırda, xüsusilə turizm sektorundakı brendlər üçün kraldır. Səyahətçilər tez-tez səyahət etmək istədikləri yerlərin videolarını axtarırlar. Problem ondadır ki, onlar artıq sadəcə əvvəlcədən yazılmış videoları istəmirlər. Canlı yayımlanan videolar getdikcə populyarlaşır. Potensial müştəriləriniz yəqin ki, onlara baxmağı sevirlər (tədqiqatlar göstərir ki, insanların 82 faizi sosial media yazılarındansa, canlı videolara baxmağa üstünlük verir); video istehsal xərclərini azaltmaq və bir marka olaraq orijinallığınızı göstərmək üçün əldə edirsiniz.

6. Həmin e-poçtları göndərin

E-poçt siyahınız sahib olduğunuz yeganə (və ən qiymətli) marketinq aktividir. Digər marketinq strategiyalarından daha güclüdür: Həm sosial, həm də axtarışdan daha yaxşı çevirir. Beləliklə, aktiv e-poçt siyahınız yoxdursa, onu yaratmağa başlamalısınız. Vebsayt ziyarətçilərini daxili onlayn icmanıza dəvət etmək üçün vebsaytınızda ideal olaraq abunə formasına sahib olmalısınız. Oradan yenidən onlarla əlaqə saxlaya və onları ödəniş edən müştərilərə çevirə bilərsiniz. Burada tur və fəaliyyət təminatçıları üçün e-poçt marketinqinin incəlikləri var.

7. Onlayn rezervasiyaları qəbul edin.

Sion Market Research-ə görə, onlayn səyahət bron bazarı 2017-ci ildə 765 milyard ABŞ dolları dəyərində idi və 2026-cı ilə qədər 1,955 milyard ABŞ dolları qazanacağı gözlənilir. Bundan əlavə, bütün səyahət bronlarının (o cümlədən yaşayış, turlar və fəaliyyətlər, uçuşlar və s. daxil olmaqla) 57 faizindən çoxu onlayn olaraq hazırlanır.

Səyahətçilərin araşdırmaq, sövdələşmələri nəzərdən keçirmək və onlar üçün ən yaxşı səyahət təkliflərini seçmək üçün əllərində çoxlu onlayn resurs və alətlər var. Sizinkilərin onların sifariş etdikləri səyahət sövdələşmələrindən biri olmasını istəyirsinizsə, onlarla olduqları yerdə görüşməlisiniz: onlar səyahət təkliflərini onlayn sifariş edirlər, ona görə də,veb-saytınızda onlayn sifarişləri asanlaşdırmalısınız. Əsas problem, bu cür bazar seqmentləri üçün tələb təklif edilmədikcə, bir çox turizm bazarı seqmentləri hədəf alına bilməz. Nəticədə, müəyyən bazar seqmentindən əldə edilən gəlir tədricən daha çox bazar seqmentini hədəfləmək üçün turizmlə əlaqəli xidmətlərə yatırıla bilər [8].

Turizm məhsulunun inkişafı ilə əldə ediləcək əsas faydalar həm iqtisadi, həm də sosialdır. Uğur qazanmaq üçün inkişafın həyat dövrünü uzatmaq və ya istifadə etmək üçün diqqətlə planlaşdırılmalıdır. Tipik olaraq, məhsulun həyat dövrünü və ya ətraf mühiti çox az və ya heç nəzərə almadan turizmin inkişafı tələsik olduqda problemlər yarana bilər. Gələcəkdə məhsulun inkişafını davam etdirmək üçün həm dövlət, həm də özəl sektorlar arasında əməkdaşlıq olmalıdır. Tikinti sənayesi ilə turizm sektoru arasında güclü əlaqələr mövcuddur. Daha geniş tikinti inqilabı olmadan dayanıqlı turizm inkişafına nail olmaq mümkün deyil. İnfrastruktur turizm sənayesinin inkişafında çox mühüm rol oynadığından, hökumətlər turizm sektoruna yerli və xarici investisiyaların

artırılmasından daha çox narahat olmalıdırlar. Məsələn, Misirdə turizm obyektlərinə tam investisiya qoyuluşu üçün 10 il müddətinə vergi tətili mövcuddur. Dünyanın bir sıra istiqamətləri turizmdən məşğulluq yaratmaq və yerli infrastrukturu yaxşılaşdırmaq yolu kimi istifadə etməyə ümid edir. Dünyanın inkişaf etməkdə olan ölkələri turizmdən iqtisadi məhsuldarlığı artırmaq üçün istifadə etməklə xüsusilə məşhurdurlar. Üstünlükdə olan fikir ondan ibarətdir ki, təyinat yerinin infrastrukturunun qurulmasına daha çox pul xərclənərsə, yerli və regional bazarlardan turistlərin cəlb edilməsinə daha çox səy göstərilərsə, yaxşı iqtisadi imkanlar yaranar.

## BİZNES MÜHİT

Bütün növ turizm təşkilatları marketinq fəaliyyəti ilə məşğul olmalıdırlar. Planlaşdırma təşkilat üçün məqsədləri, resursları və mövcud imkanları müəyyən etmək üçün vacib bir prosesdir. Bundan əlavə, qısa və uzunmüddətli məqsədlərə çatmaq üçün planlaşdırma lazımdır. Qısa müddətdə bir şirkətin indi harada olduğunu və gələn həftə harada olacağını müəyyən etmək üçün planlaşdırma tələb olunur. Təşkilata daxil olacaq pullar asanlıqla proqnozlaşdırıla bilməz. Beləliklə, vəsaitlərin təşkilatın cari xərclərini ödəmək üçün adekvat olub-olmayacağını proqnozlaşdırmaq mümkün olmayacaq [5].

## STRATEGİYA ÇƏRÇİVƏLƏRİ

Turizmdə təşkilatlar tərəfindən qəbul edilmiş bir sıra strateji çərçivələr var ki, bunlar Cədvəl 1-də ümumiləşdirilmişdir.

Cədvəl. 1 Strateji çərçivə

| Strategiya | Məqsəd | Hədəf |
|---|---|---|
| Bazar lideri | Yeni məhsul təklifləri, xidmətlərin şaxələndirilməsi, yenilik, geniş paylama kanalları, bazara rəhbərlik, çeviklik və müdafiə | Bazarın genişlənməsinə və bazar payına diqqət yetirin |
| Bazar izləyicisi | Yaxşı resurs, rəqabətqabiliyyətli qiymətlər, xidmət keyfiyyəti, çeviklik və yenilikçi. | Bazar payı və güclü brend yaratmaq |
| Bazar rəqibi | Aşağı risk strategiyası, qiymət izləyicisi, qeyri-adekvat resurs bazası, tamamlayıcı təkliflər. | Bazar payını qoruyun, müəyyən dərəcədə fərqləndirməni, bazarı liderlərindən öyrənin |
| Niş marketoloq | Kiçik miqyaslı, mütəxəssis bazar təklifləri. | Seqmentləşdirilmiş bazar mütəxəssisi təklifi, niş marketinq |

**Məqsədlər strategiyası və taktikası**

Lumsdona (1997) görə, məqsədlər təşkilatın müəyyən bir müddət ərzində nail olmaq istədiyi daha konkret məqsədlərə və ya hədəflərə aiddir. Holloway və Robinson (1995) bildirirlər ki, hər hansı bir təşkilat tərəfindən axtarılan məqsədlərə aşağıdakılar daxildir:

- Müəyyən bir müddət ərzində satış artımının müəyyən səviyyəsinə nail olmaq.
- Razılaşdırılmış vaxt miqyasında təşkilatın gəlirliliyinin müəyyən faizlə artırılması.
- Verilən vaxt (yeni məhsul) və ya dövr ərzində (mövcud məhsul) bazarın müəyyən faiz payının əldə edilməsi.
- Məhsul çeşidini diversifikasiya etməklə biznes riskinin azaldılması.
- Şirkət tərəfindən istifadə edilən kapitalın gəlirliliyində ölçülmüş artımın əldə edilməsi [4].

Uğurlu marketinq strategiyaları qlobal biznes problemlərinin tanınmasını və başa düşülməsini, fərqli qabiliyyətlərin inkişafı və istifadəsini, üstün müştəri dəyərinin təmin edilməsini və rəqiblərin hərəkətlərinə dərhal cavab verməyi tələb edir. Marketinq strategiyası şirkətin güclü tərəflərindən (bacarıqlarından) maksimum yararlanmalı və onları müştəri dəyəri tələblərinə uyğunlaşdırmalıdır. Bundan əlavə, marketinq strategiyası istehlakçıların ehtiyac, istək və seçimlərindəki dəyişikliklərə cavab vermək, yeni bazar seqmentlərini müəyyən etmək və onları uğurla hədəfləmək üçün çevik olmalıdır. Daha sonra marketinq strategiyası yüksək biznes performansına və davamlı rəqabət üstünlüyünə gətirib çıxara bilər. Turizm firmaları malik olduqları resurslar və səriştələr kimi marketinq strategiyalarına təsir edən amilləri dərk etməlidirlər və ya strateji pəncərələrin açılması və bağlanması, rəqabətin xarakterini əldə etməlidirlər. Rəqabətli marketinq strategiyası həmçinin turizm firmasının rəqabət apardığı məhsul bazarı, tələb olunan investisiya səviyyəsi, funksional sahə strategiyaları (məhsul xətti, yerləşdirmə, qiymət, paylama, informasiya texnologiyaları, seqmentləşdirmə və qlobal strategiya), strateji aktivlər, səriştələr və sinergiyalar barədə qərarlar tələb edir, funksional sahə strategiyaları və resursların biznes bölmələri

arasında bölüşdürülməsi ilə uyğunlaşdırılır (Proctor, 2008). Rəqabət strategiyası "biznesin necə rəqabət aparacağı, məqsədləri nə olmalı və bu məqsədlərə çatmaq üçün hansı siyasətlərə ehtiyac duyulacağına dair geniş düsturun işlənib hazırlanmasına" aiddir. Rəqabət strategiyası firmanın səy göstərdiyi məqsədlərin və bu məqsədə çatmağa çalışdığı vasitələrin və ya siyasətlərin məcmusudur" (Proctor, 2008, s.13). Turizm firmasında strateji marketinqin həyata keçirilməsi üçün ümumi proses həyata keçirilir. Proses üç əsas mərhələdən ibarətdir: Planlaşdırma, İcra və Nəzarət. Hər bir mərhələyə bir neçə fəaliyyət və atılması lazım olan addımlar daxildir. Planlaşdırma mərhələsində turizm firmaları fəaliyyət göstərdikləri iqtisadi və bazar mühitini anlamaq, qiymətləndirmək üçün sənaye, bazar, rəqabət, biznes və müştəri təhlilləri kimi bir sıra təhlillər aparmalıdırlar ki, bu da onların imkanlarını müəyyənləşdirir, real və əldə edilə bilən məqsədlər qoyur [10].

İndiki vaxtda bazarlar getdikcə inteqrasiya olunur və buna görə də, qloballaşma vacib biznes strategiyası kimi qəbul edilir (Ghemawat, 2010). Bununla belə, qloballaşma təkcə böyük çoxmillətli bizneslərin deyil, bütün ölçülərdə olan firmaların tətbiq etdiyi bir strategiyadır (Knight & Cavusgil, 2009). Turizm sənayesi həm iri, həm də orta və ya kiçik ölçülü firmalardan ibarətdir və buna görə də, onların hamısında qlobal marketinq strategiyaları tətbiq oluna bilər. Seçilmiş diqqət mərkəzində marketinq strategiyasına əlavə olaraq, turizm firmaları öz yerliləşdirmə və ya qloballaşma dərəcələri barədə qərar verməlidirlər. Turizm əhatə dairəsinə görə qlobal bir sənayedir və buna görə də qloballaşma strategiyalarından istifadə etmək potensialına malikdir. Effektiv qlobal strategiyalar hazırlamaq üçün turizm firmaları turizm sənayesinə təsir edə biləcək və onun fərqli xüsusiyyətlərini müəyyən edə biləcək qloballaşma amillərini (məsələn, ümumi müştəri ehtiyacları, qlobal müştərilər, qlobal kanallar, İKT-dən istifadə və qlobal miqyas iqtisadiyyatları) sistemli şəkildə təhlil etməlidirlər (Lovelock & Yip, 1996). EPRG çərçivəsinə (etnosentrizm, polisentrizm, regiosentrizm və geosentrizm) əsaslanaraq, turizm firmalarının beynəlmiləlləşmə dərəcəsini seçərkən bir neçə variantın olması təklif edilir. Əgər onlar daxili diqqətə sahib olmaq qərarına gəlsələr, onda yuxarıda təsvir edilən bütün fəaliyyətlər daxili bazarda cəmlənməlidir. Əgər onlar əsas diqqət mərkəzində qalmağı, lakin xidmətlərini ixrac etməyi hədəfləyirlərsə (entnosentrik), onda onlar beynəlxalq strategiyanı uyğunlaşdırmalıdırlar. Bununla belə, əgər onlar digər ölkələrin bir və ya bir neçə xidmət firması ilə əməkdaşlıq edə bilirlərsə, onda bütün tərəfdaşlar öz marketinq qarışıqlarını xaricdəki əməliyyatlarına uyğunlaşdırmalıdırlar (polisentrik). Beynəlxalq yanaşma, ixracın sadə genişləndirilməsinə aiddir, bununla da marketinq miksi istehlakçılar və seqmentlər arasındakı fərqləri nəzərə almaq üçün sadəcə olaraq hansısa şəkildə uyğunlaşdırılır. Nəhayət, əgər turizm firması qlobal miqyasda fəaliyyət göstərmək istəyirsə, o zaman xidmətlərini genişləndirməklə dəyər yaratmalı və inkişaf etməkdə olan qlobal bazarlara xidmət göstərməyə diqqət etməlidir (geosentrik). Bu strategiya dünya üzrə bazarların oxşarlıq və fərqlərdən ibarət olduğunu və miqyaslı iqtisadiyyatlar əldə etmək üçün oxşarlıqlara əsaslanan qlobal strategiyanın işlənib hazırlanmasının mümkünlüyünü qəbul etməyi əhatə edir [14].

Beləliklə, dünyanın ən böyük sənaye sahələrindən biri olduğu üçün turizm sənayesi son dərəcə rəqabətlidir. Bu o deməkdir ki, sənaye daxilində fəaliyyət göstərən bizneslər rəqiblərdən fərqlənmək yollarını tapmalı, turistlər üçün ən yaxşı seçim kimi özlərini tanıtmalı və onları fərqli və ya üstün edən bəzi cəhətləri vurğulamalıdırlar. Marketinq buna nail olmaq üçün vacibdir və bir çox ən yaxşı turizm marketinqi məsləhətləri bizneslərə unikal satış nöqtəsi tapmağa və onu tanıtmağa kömək edir. Əlbəttə ki, marketoloqların müxtəlif marketinq miksləri yarada bilmələri və mesajlarını çatdırmaq üçün ən yaxşı üsullardan istifadə etmələri üçün ən son tendensiyaları izləmələri də çox vacibdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Briggs, S. (2001). Successful Tourism Marketing, Second edition. Kogan Page Limited, London.

2.Eccles, G. (1995). Marketing, Sustainable Development and International Tourism, International Journal of Contemporary Hospitality Management. Vol.7, No.7, pp.20-26

3.Holloway, J. and Robinson, C. (1995). Marketing Tourism, Third edition. Longma London.

4.Horner, S. and Swarbrooke, J. (1996), Marketing Tourism Hospitality and Leisure in

Europe, International Thomson Business Press, London.

5.Font, X. and Ahjem, T (1999). Searching for Balance in Tourism Development, International Journal of Contemporary Hospitality, pp.73-77

6.Kotler, P. (1994). Marketing Management, Analysis, Planning , Implementation,and Control. Eighth edition, Prentice – Hall, Inc, New Jersey.

7.Laws, E. (1991), Tourism Marketing Service and Quality Management

Perspectives. Stanley Thornes Ltd, England

8.Lumsdom, L. (1997). Tourism Marketing. International Thomson Business Press, UK

9.United Nations World Tourism Organization. (2011, December 20). Economic impact research(Tourism Towards 2030). Retrieved from http://www.wttc.org/research/economic-impact-research/

10.Proctor, T. (2008). Strategic marketing: An introduction (2nd ed.). London: Routledge.Riege, A. M., & Perry, C. (2000). National marketing strategies in international travel andtourism.

11.European Journal of Marketing,34(11/12), 1290–1304.Shoemaker, S., & Bowen, J. (2003). Loyalty: A strategic commitment. Cornell Hotel &Restaurant Administration Quarterly

12.Tsiotsou, R. (2010). Delineating the effect of market orientation on service performance: Acomponent-wise approach. The Service Industries Journal,30(3),

13.Tsiotsou, R., & Ratten, V. (2010). Future research directions in tourism marketing. MarketingIntelligence & Planning,28(4)

**Шахин Надир оглы ХУРШУДОВ, к. э. н., доц**
**Мафтуна Турман кызы ОСМАНЛЫ**
E-mail: maftuna.osmanli@gmail.com

## ПУТИ СОВЕРШЕНСТВОВАНИЯ РЕКЛАМНОГО МАРКЕТИНГА В ТУРИЗМЕ

**Резюме**

Поскольку это одна из крупнейших отраслей промышленности в мире, индустрия туризма чрезвычайно конкурентоспособна. Это означает, что предприятия, работающие в отрасли, должны найти способы выделиться среди конкурентов, продвигать себя как лучший вариант для туристов и выделять некоторые из вещей, которые отличают их или превосходят. Маркетинг имеет важное значение для достижения этой цели, и многие из лучших советов по маркетингу в сфере туризма сосредоточены на том, чтобы помочь предприятиям найти уникальную точку продажи и продвигать ее. Конечно, также крайне важно, чтобы маркетологи не отставали от последних тенденций, чтобы они могли создавать разнообразный маркетинговый комплекс и использовать лучшие методы для распространения своего сообщения.

**Ключевые слова:** развитие, маркетинг, планирование, стратегии, туризм.

**Sahin Nadir oghlu KHURSHUDOV, phd. assoc.**
**Maftuna Turman gizi OSMANLI**
E-mail: maftuna.osmanli@gmail.com

## WAYS TO IMPROVE ADVERTISING MARKETING IN TOURISM

**Summary**

As it is one of the world’s largest industries, the tourism industry is extremely competitive. This means that businesses operating within the industry need to find ways to stand out from rivals, promote themselves as being the best option for tourists, and highlight some of the things that make them different, or superior. Marketing is essential for achieving this and many of the best tourism marketing tips focus on helping businesses to find a unique selling point and promote it. Of course, it is also crucial that marketers keep up with the latest trends, so that they can create a diverse marketing mix and use the best methods for getting their message out.

**Keywords:** Development, Marketing, Planning, Strategies, Tourism

**Gülanə Vaqif qızı İSAYEVA**
Azərbaycan Universitetinin müəllimi

# MÜƏSSİSƏLƏRİN MALİYYƏ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN NƏZƏRİ ASPEKTLƏRİ

**Xülasə**

Müəssisələrin fəaliyyəti zamanı istehsal, satış və kapitalın fasiləsiz olaraq dövr etməsi prosesi baş verir.Bunun nəticəsində isə onların maliyyə vəsaitlərinin həcmində əhəmiyyətli dəyişikliklər yaranır. Ona görə də müəssisənin özünəməıxsus maliyyə siyasəti hazırlanmalıdır. Maliyyə vəziyyətinin təhlili üzəırində qurulan bu siyasətin məqsədi müəssisənin maliyyəsinin idarə edilməsi üçün elə bir sistem qurmaqdır ki, o, gələcəkdə qarşıya çıxa biləcək taktiki və stareji vəzifələri yerinə yetirə bilsin.

Təqdim olunan məqalədə maliyyə vəziyyətinin təhlilinin aparılmasına nəzzəri yanaşmalar və onun təkmilləşdirilməsi istiqamətləri barədə araşdırmalar öz əksiuni tapmışdır.

**Açar sözlər**: müəssisə, maliyyə, təhlil, idarəetmə,nəzarət, hesabat, gəlir.

**JEL: F40**

**Giriş**

Hazırkı dövrdə müəssisələrin rəhbərliyi qarşısında duran əsas vəzifələrindən biri daxili və xarici mühitdə baş verən dəyişikliklərin müəssisələrə ola biləcək mənfi təsirlərinə nəzarət etməkdir. Belə nəzarət mexanizminin əsasən müəssisə maliyyəsinin düzgün təşkili üzərində qurulur. Bu Müəssisənin maliyyə vəziyyətinin idarə edilməsi sistemi kimi maliyyə mexanizminin əsas hədəfi məhsul buraxılışından əldə olunan gəlirlərin artırılmasıdır.Müəssisə maliyyəsinin qiymətləndirilməsində və iqtisadi qərarların qəbulunda maliyyə hesabatları xüsusi rol oynayırlar.

Müəssisələr maliyyə vəziyyətininin qiymətləndirilməsində istifadə olunan xüsusi maliyyə alətləri və maliyyə metodları vardır. Maliyyə alətləri müəssisənin təsərrüfat və kommersiya fəaliyyətinə təsir göstərə bilən bu elə bir toplanmış maliyyə göstəriciləridir. Maliyyə metodları isə maliyyə tənzimlənməsi, maliyyə proqnozlaşdırılması və maliyyə nəzarəti mexanizmini əhatə edir.

**Müəssisələrin maliyyə vəziyyətinin qiymətləndirilməsinə nəzəri baxışlar.**Müəssisənin maliyyə vəziyyətinin düzgün və obyektiv qiymətləndirilməsi onun idarə heyətindən əlavə həmin müəssisə ilə birbaşa qarşılıqlı biznes əlaqələrində olan təşkilatlar üçün də əhəmiyyətlidir. Ona görə ki, maliyyə vəziyyəti eyni zamanda müəssisənin kommersiya fəaliyyətinə də təsir göstərir. Əgər müəssisənin maliyyə vəziyyəti qənaətbəxş deyilsə, onda onun daxili və xarici münasibətləri zamanı hesablaşmaların vaxtında aparılması imkanları tədricən məhdudlaşır və son nəticədə müflis olmasına gətirib çıxarır.

Müəssisənin maliyyə vəziyyətinin bir qayda olaraq, üç səviyyəsi fərqləndirilir:

1. Sabit maliyyə vəziyyəti – bazar rəqabəti şəraitində müəssisə və təşkilatın ödəmə qabiliyyətini saxlamaq imkanıdır;
2. Qeyri-sabit maliyyə vəziyyəti – müəssisənin öz öhdəliklərini vaxtı- vaxtında yerinə yetirməməsi və gecikdirməsidir;
3. Böhranlı maliyyə vəziyyəti – müəssisə və təşkilatın öhdəliklərini yerinə yetirə bilməməsidir. Bu cür hallarda müəssisə iflasa uğramış hesab olunur[3,s.74].

Müasir şəraitdə dövlət təminatının olub-olmasından asılı olmayaraq, hətta yüksək inkişaf pilləsinə çatmış müəssisələrdə də maliyyələşdirmə mənbələrinin artırılmasına müəyyən dərəcədə ehtiyac hiss olunur. Müəssisə maliyyələşdirmə mənbələrini bazar vəziyyətini araşdırmaqla, əldə olunan məlumatları obyektiv təhlili əsasında müəyyən edə bilər. Belə natiocəyə gəlmək olar ki, maliyyə vəziyyəti müəssisənin rəhbərliyindən əlavə xarici investorların da maraq dairəsindədir.

Beləliklə, müəssisənin maliyyə vəziyyətinin təhlili ilə yalnız onun rəhbərliyi deyil, həmçinin təsisçilər, investorlar, banklar, dövlət orqanları xüsusilə vergi orqanı və s. məşğul olurlar. Bubaxımdan müəssisənin maliyyə vəziyyətinin təhlili iki yerə ayrılır: daxil və xarici. Daxili təhlil müəssisədə idarəetmə qərarlarını verən şəxslər tərəfindən mühasibat uçot registrlərində olan məlumatlarla faktiki məlumatların müqayisəsi

nəticəsində əldə olunan informasiyaya əsasən aparılır. Xarici təhlil isə müəssisənin fəaliyyətində marağı olan investorlar,təsisçilər, malgöndərənlər, banklar, vergi xidməti orqanları tərəfindən mətbuatda açıq şəkildə göstərilən informasiyalar əsasında aparılır. Müəssisənin investisiya fəaliyyəti onun maliyyə vəziyyətindən, ardıcıl olaraq, müəssisənin maliyyə vəziyyəti isə öz növbəsində istehsal-satış fəaliyyətindən asılıdır. Beləki, məhsul istehsalı və satışı pul vəsaitinin daxil olmasında başlıca mənbə rolunu oynayır. Əgər qarşıya qoyulan hədəflər yerinə yetirilməzsə, onda vəsait daxilolmaları azalır, nəticədə müəssisənin maliyyə sabitliyi pozulur və müflisləşmə başlayır.

Müasir dövrdə müflisləşmə yalnız müəssisə və təşkilatların deyil, həmçinin dövlət strukturlarının fəaliyyətinin bir hissəsidir.Məlum olduğu kimi, hazırda iqtisadiyyatın müztəlif sahələrində çoxlu sayda yeni müəssisələr yaransa da, onlardan yalnız rəqabətə rəqabətə tab gətirə bilənlər qalır, digərləri isə bazarı tərk etmək məcburiyyətində qalırlar.

Müəssisələr yarandığı vaxtdan etibarən bir- biriləri ilə qarşılıqlı fəaliyyətdə olurlar. Bu əlaqənin ayrılmaz tərkib hissəsələrindən biri də öz üzərlərinə götürdükləri müqavilə öhdəliklərinin icra olunmasıdır.İstənilən öhdəliyin yerinə yetirilməsi isə maliyyə, vaxt və səmərəli idarəçilik tələb etməklə yanaşı məsuliyyət və risklə də bağlıdır.

Bütün qeyd edilənlər müəssiosənin maliyyə vəziyyətinə təsir göstərən amillərin aşkar olunmasını və onların təsir dərəcələrinin qiymətləndirilməsini tələb edir.Düşünürük ki, yalnız belə çoxşaxəli təhlillər əsasında aparılan strategiya davamlı şəkildə uğurla nəticələnə bilər.

**Müəssisənin maliyyə vəziyyətinin statistik təhlili nəticələrinin qiymətləndirilməsi.**Müəssisənin maliyyə vəziyyətini təhlil etmək üçün ümumi metodologiyaya uyğun olaraq, yaxın 3-5 ilin retrospektiv məlumatlarını təhlil etmək lazımdır. Belə təhllilər maliyyə vəziyyətinin sabitliyi səviyyəsini üzə çıxarmaqla yanaşı, müəssisə rəhbərliyinə vaxtında uyğun tədbirlərin görülməsi üçün zəmin yaradır. Hər bir müəssisə özünün bazar mövqeyini dəqiqləşdirməlidir.Əks halda onun bazar fəaliyyəti uğurlu və uzunmüddətli olmaya bilər.

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına göstərilə hərtərəfli dəstək nəticəsində yaradılan müəssisələrin sayı demək olar ki, hər il artır. Onların hamısının fəaliyyəti gözlənilən kimi olurmu? Bu suala Azıərbaycanda Kənd təsərrüfatı müəssisələrini əsas iiqtisadi göstəricilərinin təhlilinə nəzər yetirməklə cavab vermək olar.

**Cədvəl 1.**

**Kənd təsərrüfatı müəssisələrini əsas iiqtisadi göstəriciləri, min manat**

| Göstəricilər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2021/ 2017, dəfə |
|---|---|---|---|---|---|---|
| Mənfəət | 83720 | 116506 | 120622 | 132835 | 201836 | 2,4 |
| Zərər | 20906 | 19587 | 27926 | 28820 | 30638 | 1,5 |
| Ümumi mənfəət | 62814 | 96918 | 92696 | 104016 | 171197 | 2,7 |
| Satışdan əldə edilən gəlir | 504031 | 558807 | 622035 | 637351 | 794863 | 1,6 |
| Bitkiçilikdə mənfəət,(zərər(-) | 32235 | 56577 | 68795 | 69321 | 127159 | 3,9 |
| Heyvandarlıqda mənfəət,(zərər(-) | 24355 | 19048 | 10481 | 27180 | 32557 | 1,4 |
| Kənd təsərrüfatının ümumi məhsulu, faktiki satış qiymətləri ilə | 383157 | 384958 | 615203 | 814426 | 988366 | 2,6 |

**Mənbə:** https://www.stat.gov.az/source/agriculture/

Cədvəl məlumatlarından görünür ki, təhlil obyekti kimi seçilən bütün göstəricilər dinamik olaraq, artməşdır.Eyni zamanda 2017-2021-ci illər aralığında artım dinamikası 1.4-3,9 dəfə arasında dəyişmişdir.Əslində kifayət qədər mükəmməl bir vəziyyətdir. Lakin araşdırılan müəssisələrin fərdi göstəricilərinə istiqamətlənən təhlil bir qədər fərqli və demək olar ki, daha real vəziyyəti ortaya qoyur.

**Cədvəl 2**

**Kənd təsərrüfatında zərərlə işləyən müəssisə və təşkilatların zərəri**

| Göstəricilər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2021/ 2017, faizlə |
|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, ədəd | 1608 | 1641 | 1471 | 1024 | 1035 | 64,4 |
| o cümlədən | | | | | | |
| Mənfəətlə işləyənlərin sayı. ədəd | 1512 | 1560 | 1376 | 880 | 880 | 55,3 |
| Zərərlə işləyənlərin sayi, ədəd | 96 | 81 | 95 | 61 | 70 | 72,9 |

**Mənbə:** https://www.stat.gov.az/source/agriculture/

Cədvəldən görünür ki, 2017-ci illə müqayisədə ölkəmizdə kənd təsərrüfatında fəaliyyət göstərən müəssisələrin sayı 35,6 faiz azalmışdır. Müşahidə olunan real vəziyyət ölkəmizdə xidmət müəssisələrinin yaradılması meyllərinin daha güclü olmasını göstərir.bunu da kənd təsərrüfatında istehsal tsiklinin uzunluğu və risklərin yüksək olması ilə əlaqələndirmək olar.Təhlilə qayıdaraq, qeyd etmək olar ki, zərərlə işləyən müəssisələrin sayı 2017-ci ildə 5,9 faiz,2018-ci ildə 4,8 faiz təşkil etdiyi halda 2021-ci ildə 6.7 faizə qədər yüksəlmişdir.2019-2020-ci illərdə dünya iaqtisadiyyatını iflic edən Covid-19 pandemiyasının bütün müəssisələrin maliyy-təsərrüfat fəaliyyətinə istisnasız mənfi təsirini nəzərə almaqla, həmin dövrü aparılan təhlildən sərfnəzər etməyi məqsədəuyğun hesab etdik.

Hər iki cədvəl məlumatlarının təhlilinə olan yanaşmalar göstərdi ki. maliyyə vəziyyəti ümumiləşdirilmiş şəkildə deyil, müəssisə və hətta onun struktur bölmələri üzrə fərdi aparılmalı, real vəziyyət üzə çıxarılmaqla lazımı tədbirlər kompleksi işlənilməlidir.

Bildiyimiz kimi, Azərbaycan dünyada kifayət qədər zəngin təbii qaz və neft sərvətləri ilə tanınan ölkələrdən biridir. Neft və təbii qaz resursları ilə zəngin olan digər ölkələr kimi,Azərbaycan iqtisadiyyatının inkişafı əhəmiyyətli dərəcədə təbii sərvətlərdən çox asılıdır.Beləki, neft və təbii qaz Azərbaycanın Ümumi Daxili Məhsulunun 45, maliyyə gəlirlərinin 70 və ticarət dövriyyəsinin təxminən 90 faizini təşkil edir.

Neft qiymətlərinin kəskin artdığı dövrdə (Oil Boom) bütün neft ölkələrində olduğu kimi, Azərbaycanda da, təcili olaraq, daxili iqtisadiyyatın gücləndirilməsi zərurəti yaradır. Beləliklə, son 15 ildə baş verən beynəlxalq böhran Azərbaycanda neftin qiymətinin kəskin artması iqtisadiyyatın güclənməsini və ÜDM-un sabitliyini təmin etdi(social watch, 2017). Böhran zamanı neft və qaz təssərrüfatının mövqeyinin ciddi şəkildə zəifləməsindən sonra Azərbaycanın milli iqtisadiyyatı miqyasında bir çox yeni dəyişikliklər edilməsi zərurəti yarandı ki, bunlardan ən başlıcası isə qeyri-neft iqtisadiyyatının inkişafı strategiyasının seçilməsi idi.

Mövcud iqtisadi şəraitdə təşkilati-hüquqi formasından asılı olmayaraq, hər bir təsərrüfat subyekti yəni müəssisə dayanıqlı, davamlı və sabit fəaliyyət göstərə bilməsi üçün lazımi miqdarda maliyyə resursları ilə təmin olunmalıdır. Fəaliyyət göstərən hər bir müəssisənin maliyyə resursları əsasən işlərin görülməsindən, xidmətlərin göstərilməsindən və məhsul satışından əldə edilən mənfəətdən, əsas vəsaitlərin amortizasiyası ayırmalarından və kənardan cəlb olunan vəsaitlərdən ibarətdir.

Məlum olduğu kimi,müəssisənin formalaşdırılması zamanı onun təşkilinin əsas halqası kimi nizamnamə kapitalı çıxış edir.Ona görə də nizamnamə kapitalı müəssinin fəaliyyətinin təşkili üçün açar rolunu oynayır.

İnvestisiya fəaliyyətindən daxilolmalar özünü digər aktivlərin, eləcə də qiymətli kağızların satışından daxil olan pul vəsaitləri kimi təcəssüm etdirir. Maliyyə fəaliyyətindən daxilolmalar özünü müəssisənin sahibləri arasında səhm və istiqrazların satılması, dəyişdirilməsi nəticəsində yaranan pul vəsaitləri kimi özünü büruzə verir.

Müəssisənin maliyyə vəziyyətinin təkmilləşdirilməsi əsasını düzgün qurulmuş biznes plan təşkil edir Biznes planın əsas vəzifəsi müəssisənin iş prinsiplərini müəyyən etməkdir. Buna misal olaraq, gələcəkdə əldə edəcəyi gəlirlərin hansı istiqamətlərdə istifadə ediləcəyi biznes planın "Maliyyə və digər ehtiyyatlar" hissəsində göstərilərək əvvəldən müəyyən edilir. Buna əlavə olaraq, müəssisənin biznes planını daha səmərəli etmək üçün yerli və beynəlxalq iqtisadiyyatda baş verən dəyişikliklər nəzərə alınmaqla ona lazımi düzəlişlər etmək lazımdır[1,s.127].

Qarşıya qoyulan məqsədlərə effektiv şəkildə nail olunması hər bir müəssisə üçün vacib məqamlardan biridir. Müəssisənin maliyyə fəaliyyətinin və maliyyə vəziyyətinin təhlili və proqnozlaşdırılması istiqamətlərindən biri də qarşıya qoyulan

məqsədlərə çatmaq üçün sərf olunacaq məsrəflərin müəyyən olunmasıdır. Son olaraq maliyyə sturkturu və maliyyə hesabatları düzgün təşkil edildikdən sonra müəssisə gələcək dövrlərlə bağlı praqnozlaşdırmalar apararaq əldə edə biləcəyi gəlirlər və yarana biləcək xərclər haqqında əvvəlcədən tədbirlər görməyə çalışmalıdır.Bu tədbirləri görmək üçün müəssisə öz resurslarından səmərəli şəkildə istifadə etməlidir. Buna misal olaraq yeni ediləcək investisiyaları gətirmək olar. Hər hansı bir müəssisəyə investisiya etməzdən əvvəl həmin müəssisənin maliyyə hesabatlarını nəzərdən keçirməklə, ediləcək investisiya qoyuluşlarınlın səmərəliliyi göstəriciləri üzrə proqnozlar edilməlidir.

Ümumiyyətlə, müəssisələrdə maliyyə işinin və təhlilinin təkmilləşdirilməsinin əsas istiqamətlərinə aşağıdakıları aid etmək olar:

- müəssisənin maliyyə siyasətinin hazırlanması və həyata keçirilməsi;
- təsərrüfat fəaliyyətinin fasiləsiz təhlili və nəzarət mexanizminin qurulması;
- xərclərin optimallaşdırılmasının təşkili;
- mənfəətin optimal bölüşdürülməsinin təşkili;
- divident siyasətinin dövrün tələblərinə uyğun qurulması;
- elmi-texniki tərəqqinin istehsalata tətbiqinin genişləndirilməsi.

**Nəticə**

Aparılan araşdırmalardan belə qənaətə gəlmək olar ki, müəssisənin maliyyə vəziyyətinin qiymətləndirilməsi və balansının strukturunun müəyyən edilməsi üçün onun maliyyə vəziyyətinin hərtərəfli və dərin təhlilinin aparılması mütləqdir. Belə təhlildən əldə olunmuş nəticələr müəssisədə idarəetmə qərarlarının qəbulunda, müəssisənin rəqabətli fəaliyyətinin təşkilində və vəsaitlərin səmərəli yerləşdirilməsində əhəmiyyətli dərəcədə rol oyna bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Ataşov B.X., Novruzov N.N., İbrahimov E.Ə. Müəssisələrin maliyyəsi, dərslik, Bakı, 2009, 356s.
2. İsmaylov N.M, Zeynalov T.Ş., Mahmudov İ.M. İqtisadi təhlil, dərslik, Bakı 2010, 427s.
3. Müslümov S.Y., Kazımov R.N. Maliyyə təhlili, Bakı 2011, 312s.
4. Liferenko Q.S.Müəssisənin maliyyə təhlili (azərbaycan dilinə tərcümə), Bakı İqtisad Universiteti nəşriyyatı, Bakı 2010
5. Vəliyev D., Rəhimov D., "Beynəlxalq Maliyyə", dərslik, Bakı 2010.
6. www.maliyye.gov.az
7. www.lotos.com.az

**Гюлана Вагиф кызы ИСАЕВА**
Университет Азербайджан, преподаватель

## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ОЦЕНКИ ФИНАНСОВОГО СОСТОЯНИЯ ПРЕДПРИЯТИЙ

В ходе деятельности предприятий происходит непрерывное обращение процесса производства, сбыта и капитала, в результате чего происходят существенные изменения в объеме их финансовых ресурсов. Поэтому необходимо подготовить собственную финансовую политику компании. Целью этой политики, основанной на анализе финансового положения, является построение такой системы управления финансами компании, которая сможет выполнять тактические и стратегические задачи, которые могут возникнуть в будущем.

В представленной статье отражены теоретические подходы к анализу финансового положения и направления его улучшения.

**Ключевые слова:** предприятие, финансы, анализ, управление, контроль, отчетность, доходы.

**Gulana Vagif ISAYEVA**
Teacher of Azerbaijan University

# THEORETICAL ASPECTS OF ASSESSING THE FINANCIAL CONDITION OF ENTERPRISES

**Summary**

During the activity of enterprises, the process of production, sales and capital is continuousl circulating. As a result of this, significant changes in the volume of their financial resources occur. Therefore, the company's own financial policy should be prepared. The purpose of this policy, which is based on the analysis of the financial situation, is to build such a system for managing the company's finances that it can fulfill the tactical and strategic tasks that may arise in the future.

In the presented article, the theoretical approaches to the analysis of the financial situation and the directions of its improvement are reflected.

**Keywords:** enterprise, finance, analysis, management, control, reporting, income.

**Fərman Alisgəndər oğlu İSGƏNDƏROV, i.f.d., dos.**
E-mail: ferman.isgenderov@bk.ru

**Ramin Ramis oğlu MUSTAFAYEV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Nihad Rafiq oğlu HÜSEYNZADƏ**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

# ŞƏRQİ ZƏNGƏZUR REGİONUNDA TURİZMİN İNKİŞAF POTENSİALLARI VƏ ONLARDAN SƏMƏRƏLİ İSTİFADƏ YOLLARI

**Xülasə**

Turizm iqtisadiyyatın tərkib hissələrindən biri olmaqla ölkənin ÜDM-nin artımına təsir edən sahələrdən hesab edilir. Eyni zamanda, onun dövlətin sosial problemlərinin həllində böyük rolu vardır. Xüsusilə, işsizliyin aradan qaldırılmasına təsir edən xüsusi fəaliyyət növü hesab edilir. Regionların infrastruktur sahələrinin inkişaf etdirilməsinə, əhalinin mədəni səviyyəsinin yüksəlməsinə səbəb olur. İnsanların iş qüvvəsinin bərpasına şərait yaranır.

Məqalədə turizm potensialının mahiyyəti açılır, onların təsnifatı və məqsədi müəyyən olunur. Şərqi Zəngəzur rayonunun turizm potensialı əhatəli olaraq öyrənilir və onların istifadəyə cəlb edilməsi istiqamətləri müəyyənləşdirilir.

**Açar sözlər:** Turizm, Zəngəzur, iqtisadi rayon, potensial, inkişaf, iqtisadi səmərə, rekreasiya, sağlamlıq, tələbat, infrastruktur.

**JEL: L83**

**Giriş**

Müasir dövrdə turizm sahəsi iqtisadiyyatın davamlı inkişaf edən sahələrindən hesab edilir. Eyni zamanda, turizm ölkə iqtisadiyyatının qeyri-neft sahələri tərkibində əsas sahələrdən biridir. Təsadüfi deyildir ki, son illərdə Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı xüsusi qanun, inkişaf proqramı, strateji yol xəritəsi, qəbul edilmişdir. Turizmin inkişafı ölkənin bir sıra sosial-iqtisadi problemlərinin həll edilməsində böyük əhəmiyyət kəsb edir. Xüsusilə regionlarda məşğulluq problemini yaxşılaşdırır, regionların tarazlı inkişafının təmin edilməsinə öz töhvəsini verir, xidmət sahələrinin inkişafına səbəb olur. Regionların tarixi-mədəni və arxeoloji varlıqlarının qorunmasına əhalinin marağını artırır.

Turizmin inkişafı regionların təbii ehtiyatlarının dövriyyəyə cəlb edilməsini sürətləndirir.

**Tədqiqatın obyekti:** Yeni formalaşdırılmış Şərqi Zəngəzur iqtisadi rayonun turizmin inkişafı üzrə potensial imkanlarıdır.

**Tədqiqatın məqsədi:** Elmi-tədqiqat işinin məqsədi Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonunda turizmin inkişafının perspektivli potensial imkanlarını tədqiq etmək və onlardan səmərəli istifadə yollarını əsaslandırmaqdan ibarətdir..

**Tədqiqatın metodları:** Tədqiqatın metodoloji əsasını turizmin inkişafı ilə bağlı olan Qanunlar, Proqramlar, strateji yol xəritələri, statistik məlumatlar, həmçinin bu sahə istiqamətində yerli və xarici aparıcı alimlərin apardıqları tədqiqatlar təşkil edir.

Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişafının iqtisadiyyatın prioritet istiqamətinə çevrilməsi dövlətin iqtisadi strategiyasının əsasını təşkil edir. Turizm qeyri-neft sahələrinin tərkibində gəlir gətirən mühüm istiqamətlərdən biri hesab edilir. Turizmin ölkənin iqtisadi inkişafındakı rolu nəzərə alınaraq Azərbaycan Dövləti tərəfindən "Turizm haqqında" qanun, "2002-2005", "2007-2016"–cı illər üçün turizmin inkişafına dair "Dövlər Proqram"ları qəbul edilib, 2016-cı ildə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair strateji yol xəritəsi" qəbul edilmişdir. Proqramların əsas məqsədi "Ölkənin turizm po-

tensialından səmərəli istifadə etməklə Azərbaycan Respublikasında turizmin inkişafına nail olmaq" qəbul edilmişdir.

Şərqi Zəngəzur Azərbaycan Respublikasının turizmi inkişaf etdirmək üzrə diqqəti cəlb edən iqtisadi rayonlarından biridir.

İqtisadi rayon Respublikasının 5 inzibati rayonunu əhatə etməklə ölkənin cənubi-qərb hissəsində yerləşir və Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarını əhatə edir. İqtisadi rayonun ümumi ərazisi 7,47 min $kv^2$ olub ölkə ərazisinin 8,6%-ni təşkil edir.

Son 30 il müddətində iqtisadi rayonun Ermənistanın təcavüzündə olub talan edilməsindən azad olunması nəticəsində Şərqi Zəngəzur iqtisadi rayonunda da Turizmin inkişafı üçün geniş imkanlar açılmışdır.

İqtisadi rayonun təbii-iqlim şəraitinin genişliyi və faydalı qazıntılarla olduqca zəngin olması bütövlükdə iqtisadiyyatın çox sahələrinin, o cümlədən turizmin davamlı inkişafını təmin etmək iqtidarındadır.

Turizmin inkişafının potensial imkanlarını araşdırmaq üçün ilk növbədə onun nəzəri mahiyyətinə diqqət yetirməyə ehtiyac vardır. Çünki turizm sahəsi olduqca geniş əhatəli tərkiblərin məcmusundan ibarətdir.

Turizm potensialı əsas iki istiqaməti əhatə edir. Birincisi turizm istehlak potensialı. Bu istiqamət özündə turizm məhsulundan istifadə edənləri nəzərdə tutur. Bütövlükdə Azərbaycan Respublikasının, o cümlədən Şərqi Zəngəzur iqtisadi rayonunun yerləşdiyi ərazinin beynəlxalq ipək yolunun üzərində olması həm Azərbaycanın digər iqtisadi rayonlarından bura turist kimi gələnlərin, həm də qonşu dövlətlərdən (Turkiyə, Gürcüstan, Rusiya, orta Asiya) gələnlərin olması ehtimalını artırır. Potensialın digər istiqaməti turizm sənayesinin təşkili imkanlarını yaradan istiqamətdir və çox geniş tərkibə malikdir. Onların arasında müəyyən qarşılıqlı əlaqələr mövcuddur. Deməli, turizm potensialları müəyyən sistem yaradır və onu sistem formasında öyrənmək olar.

Turizmin fəaliyyət potensialı ilkin olaraq sosial infrastrukturların olmasını (yol, nəqliyyat, otellər və s.) tələb edir. İntellekt səviyyəsi yüksək olan ehtiyyatlar - Azərbaycanın təhsil müəssisələrində turizm sahəsi istiqamətində mütəxəssislərin hazırlanması imkanları genişdir. Təşkilati ehtiyatlar-Respublikamızda Turizm Agentlərinin yaranması, Mədəniyyət və Turizm Nazirliyinin olması Şərqi Zəngəzur regionunda da turizmin təşkili istiqamətində əsaslı işlər görməyə şərait yaradır. Tarixi, mədəni potensial həm Respublikamızda, həm də tədqiqat regionumuzda sayca çox olmuşdur. Lakin, erməni təcavüzü nəticəsində onların bəziləri dağılmışdır. Onların bərpası istiqamətində müəyyən işlər həyata keçirilir.

Təbii ehtiyatların potensialı geniş olsa da, tərkib etibarı ilə meşəlik massivləri, , termik və mineral sular, çəmənliklər təşkil etsə də, müharibə dövründə onlara böyük zərər vurulmuşdur və bərpa edilməsi imkanları vardır.

İnformasiya potensialı müasir dövrün tələblərinə cavab verən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə şərtləndiyinə görə daim istifadə etdirilməsi Şərqi Zəngəzur iqtisadi rayonu üzrə də inkişaf etdirilməsi gözləniləndir.

İqtisadi potensialın, bilavasitə turizm sənayesinin inkişafının maliyyələşməsi ilə bağlı olması Şərqi Zəngəzur iqtisadi rayonunun turizm sənayesinin maliyyə vəsaitlərilə təmin olunması məqsədilə həyata keçirilir.

Turizmin istehsal ehtiyatları, əsasən qidalanma və suvenir məhsullar üçün nəzərdə tutulur. Onlara kapital, torpaq, əmək daxil edilir.

Turizmin ekoloji potensialı ehtiyatların çirklənməsi ilə əlaqəli olan məsələləri əhatə edir. Şərqi Zəngəzur iqtisadi rayonu, əsasən dağlıq ərazilərlə əhatə olunduğuna görə burada təmiz ekoloji mühit üstünlük təşkil edir.

Qeyd edilən potensial inkişaf ehtiyatlarının hər birinin müəyyən xüsusiyyətləri vardır və ayrıca sistem təşkil etdiyinə görə kəmiyyət və keyfiyyət göstəricilərinə malikdir. Bu xüsusiyyəti nəzərə almaqla turizmin inkişaf potensialının insanların idarəetmə obyektinə çevrilməsi qeyd edilir.

İqtisadi rayonun ərazisinin uzun müddət işğalda saxlanması dövründə 87 tarixi abidə dağıdılmışdır ki, bu göstəricini də turizmin inkişafı üçün zərərli hesab etmək olar. Belə cinayət aktının olmasına baxmayaq Şərqi Zəngəzur iqtisadi rayonu turizmin inkişafı üçün zəruri olan müxtəlif ehtiyatlarla zəngin olan ərazilərdən biri hesab edilir.

Mövcud potensial resursların son illərdə məqsədyönlü və səmərəli istifadə edilməsi regionun fasiləsiz iqtisadi inkişafında mühüm rola malik ola bilər.

Turizm potensialı öz istifadə mənbəyi olaraq- təbii iqlim, tarixi arxieloji, dini, sosial mədəni, mənəvi-irsi nümunələrini özündə birləşdirir. Eyni zamanda, funksional xüsusiyyətlərə görə turizm resursları müxtəlif istiqamətlərdə özünü təzahür etdirir. Belə ki, sağlamlıq-müalicə, dərketmə, idman, istirahət məqsədilə istifadə edilən turizm potensialı mövcuddur.

Şərqi Zəngəzur regionunun ərazisinin əksər hissəsinin dağlıq ərazi olması özünə xas olan qədim şəhər və kənd yerlərinin olması etnoqrafiya və qədimliklə maraqlanan turistlər üçün arzuolunandır. Burada milli həyat tərzləri, ənənələr, xalq sənətkarlığı (xalçaçılıq, mis məmulatlarının hazırlanması, taxta və daş oyma, dəri emalı) kimi fəaliyyət növləri turistlər üçün maraq yaradan istiqamətdir.

Zəngəzur iqtisadi rayonu 30 illik təcavüzdən son dövrlərdə azad edilmiş regionlardan biridir. Bu regionda müxtəlif infrastruktur sahələrin inkişaf etdirilməsi ilə yanaşı turizm sahəsinin köməkçi infrastruktur sahələrinin inkişaf etdirilməsi də zəruri sayılır. Bu məqsədlə Zəngəzur iqtisadi rayonunda turizmlə məşğul olmaq istəyən sahibkarlara güzəştli kreditlərin verilməsi, turizmə xidmət edən müəssisələrin formalaşdırılmasında həm texniki cəhətdən Dövlət dəstəyinin olması məqsədəuyğun hesab edilir. Müasir dövrün turizmlə bağlı ən ciddi problemlərindən olaraq mehmanxana və qidalanma xidmətlərində boşluqların olması nəzərə çarpır. Əsasən, belə vəziyyət turistlərə xidmət göstərən işçilərin davranış, geyim, müraciət, xidmət qaydalarını bilməməsindən yaranır. Bunun üçün turizm sahəsində yüksək biliyə və təcrübəyə malik olan şəxslər tərəfindən xüsusi kursların, seminarların, kitabçaların təşkil edilməsi əhəmiyyətli ola bilər.

İqtisadi rayonda turizm üçün beynəlxalq və yerli maraqlar yarada biləcək memarlıq və arxeoloji tarixi abidələr olmuşdur. Belə abidələrə Kəlbəcər rayonunda Gəncəbasar monastrını (VIII əsr), Tərtər çayının sahilindəki Xudavənd monastrını (VIII əsr), Xudafərin Körpüsünü, Kəlbəcərin Çıldıran, Qarnakar, Qocaqot, Həsənriz kəndlərində alban məbədlərini, ilk və orta tunc dövrünə aid yaşayış yerlərini, sığınacaqlar, qalalar, türbələr, kurqanlar, zərdabələr və s. misal göstərmək olar [2].

Müasir dövrün tələblərinə cavab verən infrastruktur obyektlərinin tikilməsi, regionun təbii-iqlim şəraitinin müxtəlifliyi, regionun xüsusiyyətlərinə uyğun milli mətbəxin genişliyi və müxtəlifliyi, müalicə əhəmiyyətli mineral suların olması, meşə zolaqlarının genişliyi turizmin inkişafı əsas mənbə hesab oluna bilər.

Qeyd edilən ehtiyat mənbələri əsasında Şərqi Zəngəzur iqtisadi rayonunda ekskursiya, rekreasiya, sağlamlıq, işgüzar, etnik və nostajlı, kənd, qış, eko, dağ turizmlərini inkişaf etdirmək mümkündür.

Hər bir sahənin öz funksiyalarını yerinə yetirməsi üçün müvafiq resursları olur. Bu resurslar sahənin xarakterinə uyğun olaraq formalaşır. O cümlədən turizm sferasının da formalaşmasını və inkişafını təmin edən resursları vardır. Turizmin ehtiyatlar potensialı turizmin inkişafı üçün maddi-texniki şərait yaradır. Turizm ehtiyatlarının qruplaşdırılmış tərkibini maddi-texniki baza, insan-əmək resursları, maliyyə resursları, təbii-coğrafi resurslar, informasiya-kommunikasiya resursları və s. kimi müəyyənləşdirmək olar.

Hazırda Zəngəzur iqtisadi rayonunun yenidən qurlması, infrastruktur sahələrin müasir tələblər səviyyəsində yenidən qurulması bölgənin turizm potensialından daha səmərəli istifadə edilməsinə geniş şərait yaradacaqdır. Şübhəsizdir ki, Şərqi Zəngəzur bölgəsində aparılan bərpa-quruculuq işləri ilə yanaşı turizm sahəsinin inkişafı da cəlb edən məsələlərdən hesab edilir. Çünki, turizm üçün istifadə ediləcək bəzi resursların da bərpasına ehtiyac duyulur. Göygöl-Kəlbəcər-Laçın yolunun çəkilməsi Zəngəzur regionunun, xüsusilə də Kəlbəcər rayonunun turizm mərkəzlərinin inkişafını daha da sürətləndirəcək.

18 fevral 2022-ci ildə Qarabağ və Şərqi Zəngəzura 3 günlük səfər etmiş xarici tanınmış səyyahların mətbuat konfransında səyyah Nikola Koratella bildirib ki, xüsusən Kəlbəcərin çox gözəl-təbiəti var: Yenidənqurma işlərindən sonra Qarabağ və Şərqi Zəngəzur daha da gözəlləşəcək. Kəlbəcərdə turizmin inkişafı üçün böyük potensial var. Bu yerlər dünyadakı turistlər üçün yeni bir məkan olacaq [3]. Göründüyü kimi tanınmış səyyahlar da Zəngəzur iqtisadi rayonunun ərazilərini geniş turizm məkanı

kimi qiymətləndirirlər. Regionda müxtəlif infrastrukturların yaradılması "Ağıllı kənd" layihəsinin həyata keçirilməsinə şərait yaradır ki, bu da "kənd turizminin" inkişafına müsbət təsir göstərə bilər.

Turizm ehtiyatlarından səmərəli istifadə edilməsinin əsas istiqamətlərindən biri də turistlərin turizm zonalarına cəlb edilməsidir. Bunun üçün vacib şərtlərdən biri turizm xidmətinin keyfiyyətinin yüksəldilməsidir. Bu istiqamət turizm kompleksinin bütün tərəflərini əhatə etməlidir. Azərbaycanda yataq yerləri, qidanlanma keyfiyyəti, nəqliyyat xidməti xarici dövrlərdə olan səviyyədən geri qalır, həm də bahadır [3].

Regionda turizmi inkişaf etdirmək məqsədilə mövcud olan ehtiyatlardan səmərəli istifadə etmək üçün bir sıra məsələlərin yerinə yetirilməsinə ehtiyac duyulur. İlk növbədə bazar münasibətlərinin tələbləri nəzərə alınaraq iqtisadi rayon üzrə turizm marketinqinin həyata keçirilməsi zəruri hesab edilir. Yəni turistlərin tələbatının öyrənilməsi, kadrlara olan tələbatın müəyyən edilməsi və ödənilməsi, turist seqmentinin düzgün seçilməsi, marketinq istiqamətində kommunikasiya sisteminin müəyyən edilməsi kimi məsələlərin dərindən öyrənilməsi əsas tələblərdən biri hesab olunur.

Turizm üçün kadr hazırlanması müasir dövrün problemlərindəndir. Turzmin inkişafı üzrə (xüsusilə kənd turizmi barədə) yerli əhalinin maarifləndirilməsinə böyük ehtiyac hiss olunur.

Turizm sahəsinin inkişafı istiqamətində həyata keçiriləcək xidmət növlərinin keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması mühüm şərtdir.

İqtisadi rayonda turizmin inkişaf etdirilməsi məqsədilə kiçik və orta sahibkarlara, həmçinin kənd turizmi üçün kənd sakinlərinə güzəştli kredit dəstəyi bu sahənin inkişafı üçün faydalı ola bilər.

Regionlarda turizmin inkişaf etdirilməsi bir sıra sosial-iqtisadi problemlərin nizamlanmasına yardımcı ola bilər. İlk növbədə regionun Ümumi Daxili məhsulunun yüksəlməsinə təsiri nəticəsində region əhalisinin maddi durumu yaxşılaşar.

Əhali üçün sosial problem olan işsizliyin aradan qaldırılması yaşayış yerlərinin infrastruktur sahələrinin inkişafına səbəb olar. Eyni zamanda, vətəndaşların mədəni inkişaf səviyyəsinin yüksəlməsinə təsir edər.

Bölgə müəssisələrinin fəaliyyətinin inkişafına səbəb ola bilər. Turizm ehtiyatlarından səmərəli istifadə səviyyəsi, əsasən onlardan turistlərin tələbatlarına uyğun istifadə edilməsi ilə şərtlənir. Bu ehtiyatların nəzarətə götürülməsi və qorunması müasir dövrün sahibkarlarının vəzifələrindən biri hesab olunur. Turizm sahəsində xidmətin kompleks əlaqələndirilməsi turistlərin rahatlığı üçün əsas məsələlərdən hesab olunur və sahibkarların diqqət yetirəcəyi istiqamətdir.

Şərqi Zəngəzur iqtisadi rayonunda turizmin inkişaf etdirilməsinin ölkənin təhlükəsizliyinin qorunmasına müəyyən səviyyədə təsiri ola bilər.

Bölgələrdə turizmin inkişafını təmin etmək və mövcud potensialdan istifadənin səmərəliliyini yüksəltməyin əsas yolu marketinq xidmətindən istifadədir.

İstənilən fəaliyyət sahəsində, o cümlədən turizm sahəsində də, məhsula tələbat və potensial ehtiyatlar öyrənilmədən nəzərdə tutulan biznesdən lazımi mənfəətin alınması müvəqqəti xarakter daşıyır.

Apardığımız araşdırmalar göstərir ki, əksər biznes sahələrində marketinq xidmətindən ya tamamilə istifadə olunmur, ya da formal xarakter daşıyır. Belə vəziyyətin olmasının bir sıra səbəbləri vardır:

İlk növbədə hesab edirik ki, cəmiyyət arasında marketinq yalnız ticarət kimi anlaşılır. Şübhəsizdir ki, marketinq ticarətdən çox geniş anlayışdır. Marketinq bazar münasibətlərini öyrənib fəaliyyətin ona uyğunlaşdırılması prosesidir. Yəni istehlakçıların tələbatını öyrənib, onu münasib qiymətlə qarşılamaqdır.

Turizmin regional inkişafı prosesində marketinq xidmətindən istifadə edilməsi mütləq vəzifədir. Çünki Respublikamızın regionlarının hamısında turizm üçün lazım olan inkişaf amilləri eyni deyildir. Belə vəziyyətdə turistlərin tələbatlarının öyrənilməsi və ödənilməsinin nəzərə alınması aktual olaraq qarşıda durur. Bu istiqamətdə əvvəlcədən marketinq tədqiqatının aparılması ilə bir sıra sualların cavablarını aydınlaşdırmaq olar. Yəni, Şərqi Zəngəzur regionunda turizmin hansı növünün inkişaf etdirilməsi üçün müvafiq resurslar mövcuddur. Ona görə də, bölgədə turizmin inkişaf istiqamətlərini düzgün seçməklə yanaşı turizm məhsullarına

tələbin müəyyən edilməsi istiqamətində marketinq hesablamalarının aparılması düzgün hesab edilir.

Turizm inkişafının müasir problemlərindən biri də marketinqin kommunikasiya sistemindən səmərəli istifadə edilməsi hesab olunur. Bu istiqamətdə apardığımız tədqiqatlardan məlum olur ki, bütövlükdə Respublika üzrə turizmin inkişafı ilə bağlı aparılan reklamların təsiri hələ lazımi səviyyəyə yüksəlməmişdir. Reklamın təsiredici növlərindən istifadə istehlakçı qruplarında turizmə qarşı maraq yarada bilmir. Şərqi Zəngəzur bölməsində turizmin inkişafını təmin etmək üçün satışın stimullaşdırıcı metodlarından, xüsusilə qiymət güzəştləri, müəyyən hədiyyələrin verilməsi və s. yüksək fayda verə bilər.

İctimaiyyətlə əlaqələrin genişləndirilməsi istiqamətində yerli əhalinin maarifləndirilməsi turizmin inkişafı üçün təkan verə bilər.

Digər tərəfdən bu sahəni mənimsəmiş yüksək biliyə malik mütəxəssislərin çatışmazlığıdır. Turizm sahəsi kompleks sahə olduğu üçün bu sahə istiqamətində xüsusi mütəxəssislərin hazırlanması faydalı hesab oluna bilər. Marketinq fəaliyyətinin tətbiqinə mənfi təsir göstərən amillərdən biri də Respublikamızın əksər sahələrində monopoliyanın hökmranlığıdır. Nəticəsi məhsulların məcburi satışını yaratmaqdır, rəqabətə imkan verməməkdir, keyfiyyətin yüksəldilməsinə marağın olmamasıdır.

Marketinqin tətbiqi istiqamətində elmi əsaslandırılmış normativlərin və normaların çatışmazlığıdır. Marketinqin kommunikasiya xidmətinin tətbiq edilməsi nəticəsində məhsul və xidmətlərin tanınması və onlara marağın artması meyli yüksəlir. Zəngəzur iqtisadi rayonunda turizm fəaliyyətinin yenidən bərpa olunması nəzərə alınmaqla marketinq xidmətindən istifadə mövcud olan turizm potensialından səmərəli istifadəni təmin edə bilər.

Azərbaycanın Qarabağ Şərqi Zəngəzur iqtisadi rayonların təcavüzdən azad edilməsi bu bölgələrdə qış turizminin inkişafı üçün də geniş imkanlar yaratmışdır. Xüsusi olaraq qeyd edirik ki, Azərbaycanda qış turizminin yaradılması və inkişaf etdirilməsi istiqamətində böyük təcrübə mövcuddur. Belə ki, Respublikamızda ilk dəfə yaradılan dağ-xizək kurortu olan "Şahdağ" qış-yay Turizm kompleksi yaradılmış və onun tərkibində beynəlxalq standartlara cavab verən mehmanxanaların tikilməsi, həmçinin Qəbələ yüksək səviyyəli infrastruktura malik olan "Tufan" dağ-xizək, yay-qış istirahət kompleksinin yaradılması bu ərazilərə cəlb olunan turistlərin sayını dəfələrlə yüksəltmişdir. Şahdağda qışda havanın temperaturu -20$^0$ C, yayda isə +20$^0$ C isti olur. Belə bir şərait ölkəmizin Zəngəzur bölgəsi üçün də xasdır. Xüsusilə, Kəlbəcər və Laçın inzibati rayonları qış turizminin inkişafı üçün də olduqca əlverişli şəraitə malik ərazilərdir. Şübhəsizdir ki, qış turizmi anlamında yer alan istiqamət xizəklə gəzməkdir. Digər sahələri də inkişaf etdirmək imkanları mövcuddur. Bu imkanlar Laçın, Qubadlı və Kəlbəcər rayonlarında daha genişdir. Bu fəaliyyət istiqamətinin həyata keçirilməsində Fizuli və Şuşa rayonlarında yaradılmış təyyarə limanlarının əhəmiyyəti böyük olsa da qış-turizmi üçün yaradılacaq infrastruktur sahələrin beynəlxalq səviyyə tələblərinə uyğunlaşdırılması, göstəriləcək xidmətlərin səviyyələrinin yüksəldilməsi vacib şərtlərdən hesab edilir. Dünya Turizm Təşkilatının statistik məlumatlarına görə il ərzində istirahət etmək istəyənlərin ≈ 35%- i, istirahət üçün məhz qış aylarını seçirlər. Qeyd edə bilərik ki, qış turizmi təkcə xizəklə gəzinti deyil, həm də qış idman növlərini də əhatə edir ki, burada müxtəlif yarışların təşkilatçısı olmaq imkanı yaranır. Bunun üçün qış idman növləri üzrə idmançıların yetişdirilməsi və onların beynəlxalq yarışlarda iştirakını təmin etmək, eyni zamanda qış idman kompleksləri barəsində beynəlxalq idman təşkilatlarının məlumatlandırılması və marketinq işlərinin həyata keçirilməsi mühüm tələblərdən hesab olunur. Qış idman təşkilatlarının üzvü olmaqla regionun qış turizminin təbliğinə diqqətin artırılması iqtisadi cəhətdən faydalı ola bilər. Apardığımız müşahidələr göstərir ki, qış turizmi gəlirliyinə və perspektivliyinə görə fəqlənən, eyni zamanda, turistlərin marağını daha çox cəlb edən sahədir. Eyni zamanda, qış turizmi növlərindən istifadə zamanı turistlərin xərcləri nisbətən yüksək olur.

**Nəticə**

Araşdırmalara əsaslanaraq müəyyən edilmişdir ki, Şərqi Zəngəzur iqtisadi rayonu geniş əhatəli və növlü turizm potensialına malik olan və diqqəti cəlb edən təbii mineral və termal sularla, fauna və flora ehtiyatları ilə zəngindir. Regionun yerləşdiyi ərazi turistlərin cəlb edilməsi

imkanlarını artırır. Bu potensiallardan səmərəli istifadəni təmin etmək məqsədilə kadr problemlərinin səfərbər edilməsi və turizmin inkişafı üçün marketinq tədqiqatlarının aparılması mühüm şərtlərdən hesab edilir.

**Elmi yeniliklər:** Tədqiqatın elmi yeniliyi regionun turizm potensialının tərkib istiqamətlərinin müəyyən edilməsi və onlardan səmərəli istifadə etmək üçün inkişaf etdiriləcək turizm növlərinin əsaslandırılmasıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair dövlət proqramı. Bakı, 2002-ci il 354 səh.
2. H.Soltanova "Azərbaycan Respublikasında Turizm və onun inkişafı" Bakı 2015 səh. 475
3. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 2016. 98.5 s. AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmişdir.
4. Turizm və Rekreasiya XXI əsrdə problemlər və perspektivlər. 2019-cu il 292 s.
5. Azərbaycanda sağlamlıq turizmi-cari vəziyyət və inkişaf perspektivləri 2022. s.184
6. Azərbaycan turizm sənayesinin inkişafı üşün zəhgin ehtiyatlara əlverişli iqtisadi coğrafi mövqeyə malikdir. https://www.yeniazerbaycan.com> Dövlət Turizm Agentliyi tərəfindən elan edilmiş müsabiqəyə təqdim edilib.
7. hhttps:// https://ikisahil.az>post> 287 Qarabağ və Şərqi Zəngəzurun çox böyük turizm potensialı var.

**Фарман Алисгандер оглы ИСКАНДЕРОВ, к. э. н., доцент**
E-mail: ferman.isgenderov@bk.ru

**Рамин Рамис оглы МУСТАФАЕВ**

**Нихад Рафик оглы ГУСЕЙНЗАДЕ**

## ПОТЕНЦИАЛ РАЗВИТИЯ ТУРИЗМА В ВОСТОЧНО-ЗАНГАЗУРСКОЙ ОБЛАСТИ И ПУТИ ИХ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ

### Резюме

Туризм, являясь одной из составных частей экономики, считается одной из сфер, влияющих на рост ВВП страны. В то же время ему принадлежит большая роль в решении социальных задач государства. В частности, считается особым видом деятельности, влияющим на ликвидацию безработицы. Это ведет к развитию инфраструктурных районов регионов и повышает культурный уровень населения. Создаются условия для восстановления трудовых ресурсов людей.

В статье раскрывается сущность туристского потенциала, определяется их классификация и назначение. Всесторонне изучен туристический потенциал Восточного Зангезурского района и определены направления его использования.

**Ключевые слова:** туризм, Зангезур, экономический район, потенциал, развитие, экономическая эффективность, рекреация, здоровье, спрос, инфраструктура.

**Farman Alisgander oghlu ISKANDEROV, Ph.D., Associate Professor**

**Ramin Ramis oghlu MUSTAFAYEV**

**Nihad Rafiq oghlu HUSEYNZADE**
E-mail: ferman.isgenderov@bk.ru

# THE DEVELOPMENT POTENTIAL OF TOURISM IN THE EASTERN ZANGAZUR REGION AND WAYS OF EFFECTIVE USE OF THEM

**Summary**

Tourism, being one of the constituent parts of the economy, is considered one of the areas that influence the growth of the country's GDP. At the same time, it has a great role in solving the social problems of the state. In particular, it is considered a special type of activity that affects the elimination of unemployment. It leads to the development of infrastructural areas of the regions and raises the cultural level of the population. Conditions are created to restore people's labor force.

The article reveals the essence of tourism potential, defines their classification and purpose. The tourism potential of Eastern Zangezur region is comprehensively studied and directions for their utilization are determined.

**Keywords:** Tourism, Zangezur, economic region, potential, development, economic efficiency, recreation, health, demand, infrastructure.

**Fərman Alisgəndər oğlu İSGƏNDƏROV, i.f.d., dos.**
E-mail: ferman.isgenderov@bk.ru

**Ramin Ramis oğlu MUSTAFAYEV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Nihad Rafiq oğlu HÜSEYNZADƏ**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

# ŞƏRQİ ZƏNGƏZUR REGİONUNDA TURİZMİN İNKİŞAF POTENSİALLARI VƏ ONLARDAN SƏMƏRƏLİ İSTİFADƏ YOLLARI

**Xülasə**

Turizm iqtisadiyyatın tərkib hissələrindən biri olmaqla ölkənin ÜDM-nin artımına təsir edən sahələrdən hesab edilir. Eyni zamanda, onun dövlətin sosial problemlərinin həllində böyük rolu vardır. Xüsusilə, işsizliyin aradan qaldırılmasına təsir edən xüsusi fəaliyyət növü hesab edilir. Regionların infrastruktur sahələrinin inkişaf etdirilməsinə, əhalinin mədəni səviyyəsinin yüksəlməsinə səbəb olur. İnsanların iş qüvvəsinin bərpasına şərait yaranır.

Məqalədə turizm potensialının mahiyyəti açılır, onların təsnifatı və məqsədi müəyyən olunur. Şərqi Zəngəzur rayonunun turizm potensialı əhatəli olaraq öyrənilir və onların istifadəyə cəlb edilməsi istiqamətləri müəyyənləşdirilir.

**Açar sözlər:** Turizm, Zəngəzur, iqtisadi rayon, potensial, inkişaf, iqtisadi səmərə, rekreasiya, sağlamlıq, tələbat, infrastruktur.

**JEL: L83**

**Giriş**

Müasir dövrdə turizm sahəsi iqtisadiyyatın davamlı inkişaf edən sahələrindən hesab edilir. Eyni zamanda, turizm ölkə iqtisadiyyatının qeyri-neft sahələri tərkibində əsas sahələrdən biridir. Təsadüfi deyildir ki, son illərdə Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı xüsusi qanun, inkişaf proqramı, strateji yol xəritəsi, qəbul edilmişdir. Turizmin inkişafı ölkənin bir sıra sosial-iqtisadi problemlərinin həll edilməsində böyük əhəmiyyət kəsb edir. Xüsusilə regionlarda məşğulluq problemini yaxşılaşdırır, regionların tarazlı inkişafının təmin edilməsinə öz töhvəsini verir, xidmət sahələrinin inkişafına səbəb olur. Regionların tarixi-mədəni və arxeoloji varlıqlarının qorunmasına əhalinin marağını artırır.

Turizmin inkişafı regionların təbii ehtiyatlarının dövriyyəyə cəlb edilməsini sürətləndirir.

**Tədqiqatın obyekti:** Yeni formalaşdırılmış Şərqi Zəngəzur iqtisadi rayonun turizmin inkişafı üzrə potensial imkanlarıdır.

**Tədqiqatın məqsədi:** Elmi-tədqiqat işinin məqsədi Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonunda turizmin inkişafının perspektivli potensial imkanlarını tədqiq etmək və onlardan səmərəli istifadə yollarını əsaslandırmaqdan ibarətdir..

**Tədqiqatın metodları:** Tədqiqatın metodoloji əsasını turizmin inkişafı ilə bağlı olan Qanunlar, Proqramlar, strateji yol xəritələri, statistik məlumatlar, həmçinin bu sahə istiqamətində yerli və xarici aparıcı alimlərin apardıqları tədqiqatlar təşkil edir.

Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişafının iqtisadiyyatın prioritet istiqamətinə çevrilməsi dövlətin iqtisadi strategiyasının əsasını təşkil edir. Turizm qeyri-neft sahələrinin tərkibində gəlir gətirən mühüm istiqamətlərdən biri hesab edilir. Turizmin ölkənin iqtisadi inkişafındakı rolu nəzərə alınaraq Azərbaycan Dövləti tərəfindən “Turizm haqqında” qanun, “2002-2005”, “2007-2016”–cı illər üçün turizmin inkişafına dair “Dövlər Proqram”ları qəbul edilib, 2016-cı ildə “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair strateji yol xəritəsi” qəbul edilmişdir. Proqramların əsas məqsədi “Ölkənin turizm po-

tensialından səmərəli istifadə etməklə Azərbaycan Respublikasında turizmin inkişafına nail olmaq" qəbul edilmişdir.

Şərqi Zəngəzur Azərbaycan Respublikasının turizmi inkişaf etdirmək üzrə diqqəti cəlb edən iqtisadi rayonlarından biridir.

İqtisadi rayon Respublikasının 5 inzibati rayonunu əhatə etməklə ölkənin cənubi-qərb hissəsində yerləşir və Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarını əhatə edir. İqtisadi rayonun ümumi ərazisi 7,47 min $kv^2$ olub ölkə ərazisinin 8,6%-ni təşkil edir.

Son 30 il müddətində iqtisadi rayonun Ermənistanın təcavüzündə olub talan edilməsindən azad olunması nəticəsində Şərqi Zəngəzur iqtisadi rayonunda da Turizmin inkişafı üçün geniş imkanlar açılmışdır.

İqtisadi rayonun təbii-iqlim şəraitinin genişliyi və faydalı qazıntılarla olduqca zəngin olması bütövlükdə iqtisadiyyatın çox sahələrinin, o cümlədən turizmin davamlı inkişafını təmin etmək iqtidarındadır.

Turizmin inkişafının potensial imkanlarını araşdırmaq üçün ilk növbədə onun nəzəri mahiyyətinə diqqət yetirməyə ehtiyac vardır. Çünki turizm sahəsi olduqca geniş əhatəli tərkiblərin məcmusundan ibarətdir.

Turizm potensialı əsas iki istiqaməti əhatə edir. Birincisi turizm istehlak potensialı. Bu istiqamət özündə turizm məhsulundan istifadə edənləri nəzərdə tutur. Bütövlükdə Azərbaycan Respublikasının, o cümlədən Şərqi Zəngəzur iqtisadi rayonunun yerləşdiyi ərazinin beynəlxalq ipək yolunun üzərində olması həm Azərbaycanın digər iqtisadi rayonlarından bura turist kimi gələnlərin, həm də qonşu dövlətlərdən (Turkiyə, Gürcüstan, Rusiya, orta Asiya) gələnlərin olması ehtimalını artırır. Potensialın digər istiqaməti turizm sənayesinin təşkili imkanlarını yaradan istiqamətdir və çox geniş tərkibə malikdir. Onların arasında müəyyən qarşılıqlı əlaqələr mövcuddur. Deməli, turizm potensialları müəyyən sistem yaradır və onu sistem formasında öyrənmək olar.

Turizmin fəaliyyət potensialı ilkin olaraq sosial infrastrukturların olmasını (yol, nəqliyyat, otellər və s.) tələb edir. İntellekt səviyyəsi yüksək olan ehtiyyatlar - Azərbaycanın təhsil müəssisələrində turizm sahəsi istiqamətində mütəxəssislərin hazırlanması imkanları genişdir. Təşkilati ehtiyatlar-Respublikamızda Turizm Agentlərinin yaranması, Mədəniyyət və Turizm Nazirliyinin olması Şərqi Zəngəzur regionunda da turizmin təşkili istiqamətində əsaslı işlər görməyə şərait yaradır. Tarixi, mədəni potensial həm Respublikamızda, həm də tədqiqat regionumuzda sayca çox olmuşdur. Lakin, ermənı təcavüzü nəticəsində onların bəziləri dağılmışdır. Onların bərpası istiqamətində müəyyən işlər həyata keçirilir.

Təbii ehtiyatların potensialı geniş olsa da, tərkib etibarı ilə meşəlik massivləri, , termik və mineral sular, çəmənliklər təşkil etsə də, müharibə dövründə onlara böyük zərər vurulmuşdur və bərpa edilməsi imkanları vardır.

İnformasiya potensialı müasir dövrün tələblərinə cavab verən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə şərtləndiyinə görə daim istifadə etdirilməsi Şərqi Zəngəzur iqtisadi rayonu üzrə də inkişaf etdirilməsi gözləniləndir.

İqtisadi potensialın, bilavasitə turizm sənayesinin inkişafının maliyyələşməsi ilə bağlı olması Şərqi Zəngəzur iqtisadi rayonunun turizm sənayesinin maliyyə vəsaitlərilə təmin olunması məqsədilə həyata keçirilir.

Turizmin istehsal ehtiyatları, əsasən qidalanma və suvenir məhsullar üçün nəzərdə tutulur. Onlara kapital, torpaq, əmək daxil edilir.

Turizmin ekoloji potensialı ehtiyatların çirklənməsi ilə əlaqəli olan məsələləri əhatə edir. Şərqi Zəngəzur iqtisadi rayonu, əsasən dağlıq ərazilərlə əhatə olunduğuna görə burada təmiz ekoloji mühit üstünlük təşkil edir.

Qeyd edilən potensial inkişaf ehtiyatlarının hər birinin müəyyən xüsusiyyətləri vardır və ayrıca sistem təşkil etdiyinə görə kəmiyyət və keyfiyyət göstəricilərinə malikdir. Bu xüsusiyyəti nəzərə almaqla turizmin inkişaf potensialının insanların idarəetmə obyektinə çevrilməsi qeyd edilir.

İqtisadi rayonun ərazisinin uzun müddət işğalda saxlanması dövründə 87 tarixi abidə dağıdılmışdır ki, bu göstəricini də turizmin inkişafı üçün zərərli hesab etmək olar. Belə cinayət aktının olmasına baxmayaq Şərqi Zəngəzur iqtisadi rayonu turizmin inkişafı üçün zəruri olan müxtəlif ehtiyatlarla zəngin olan ərazilərdən biri hesab edilir.

Mövcud potensial resursların son illərdə məqsədyönlü və səmərəli istifadə edilməsi regionun fasiləsiz iqtisadi inkişafında mühüm rola malik ola bilər.

Turizm potensialı öz istifadə mənbəyi olaraq- təbii iqlim, tarixi arxieloji, dini, sosial mədəni, mənəvi-irsi nümunələrini özündə birləşdirir. Eyni zamanda, funksional xüsusiyyətlərə görə turizm resursları müxtəlif istiqamətlərdə özünü təzahür etdirir. Belə ki, sağlamlıq-müalicə, dərketmə, idman, istirahət məqsədilə istifadə edilən turizm potensialı mövcuddur.

Şərqi Zəngəzur regionunun ərazisinin əksər hissəsinin dağlıq ərazi olması özünə xas olan qədim şəhər və kənd yerlərinin olması etnoqrafiya və qədimliklə maraqlanan turistlər üçün arzuolunandır. Burada milli həyat tərzləri, ənənələr, xalq sənətkarlığı (xalçaçılıq, mis məmulatlarının hazırlanması, taxta və daş oyma, dəri emalı) kimi fəaliyyət növləri turistlər üçün maraq yaradan istiqamətdir.

Zəngəzur iqtisadi rayonu 30 illik təcavüzdən son dövrlərdə azad edilmiş regionlardan biridir. Bu regionda müxtəlif infrastruktur sahələrin inkişaf etdirilməsi ilə yanaşı turizm sahəsinin köməkçi infrastruktur sahələrinin inkişaf etdirilməsi də zəruri sayılır. Bu məqsədlə Zəngəzur iqtisadi rayonunda turizmlə məşğul olmaq istəyən sahibkarlara güzəştli kreditlərin verilməsi, turizmə xidmət edən müəssisələrin formalaşdırılmasında həm texniki cəhətdən Dövlət dəstəyinin olması məqsədəuyğun hesab edilir. Müasir dövrün turizmlə bağlı ən ciddi problemlərindən olaraq mehmanxana və qidalanma xidmətlərində boşluqların olması nəzərə çarpır. Əsasən, belə vəziyyət turistlərə xidmət göstərən işçilərin davranış, geyim, müraciət, xidmət qaydalarını bilməməsindən yaranır. Bunun üçün turizm sahəsində yüksək biliyə və təcrübəyə malik olan şəxslər tərəfindən xüsusi kursların, seminarların, kitabçaların təşkil edilməsi əhəmiyyətli ola bilər.

İqtisadi rayonda turizm üçün beynəlxalq və yerli maraqlar yarada biləcək memarlıq və arxeoloji tarixi abidələr olmuşdur. Belə abidələrə Kəlbəcər rayonunda Gəncəbasar monastrını (VIII əsr), Tərtər çayının sahilindəki Xudavənd monastrını (VIII əsr), Xudafərin Körpüsünü, Kəlbəcərin Çıldıran, Qarnakar, Qocaqot, Həsənriz kəndlərində alban məbədlərini, ilk və orta tunc dövrünə aid yaşayış yerlərini, sığınacaqlar, qalalar, türbələr, kurqanlar, zərdabələr və s. misal göstərmək olar [2].

Müasir dövrün tələblərinə cavab verən infrastruktur obyektlərinin tikilməsi, regionun təbii-iqlim şəraitinin müxtəlifliyi, regionun xüsusiyyətlərinə uyğun milli mətbəxin genişliyi və müxtəlifliyi, müalicə əhəmiyyətli mineral suların olması, meşə zolaqlarının genişliyi turizmin inkişafı əsas mənbə hesab oluna bilər.

Qeyd edilən ehtiyat mənbələri əsasında Şərqi Zəngəzur iqtisadi rayonunda ekskursiya, rekreasiya, sağlamlıq, işgüzar, etnik və nostajlı, kənd, qış, eko, dağ turizmlərini inkişaf etdirmək mümkündür.

Hər bir sahənin öz funksiyalarını yerinə yetirməsi üçün müvafiq resursları olur. Bu resurslar sahənin xarakterinə uyğun olaraq formalaşır. O cümlədən turizm sferasının da formalaşmasını və inkişafını təmin edən resursları vardır. Turizmin ehtiyatlar potensialı turizmin inkişafı üçün maddi-texniki şərait yaradır. Turizm ehtiyatlarının qruplaşdırılmış tərkibini maddi-texniki baza, insan-əmək resursları, maliyyə resursları, təbii-coğrafi resurslar, informasiya-kommunikasiya resursları və s. kimi müəyyənləşdirmək olar.

Hazırda Zəngəzur iqtisadi rayonunun yenidən qurlması, infrastruktur sahələrin müasir tələblər səviyyəsində yenidən qurulması bölgənin turizm potensialından daha səmərəli istifadə edilməsinə geniş şərait yaradacaqdır. Şübhəsizdir ki, Şərqi Zəngəzur bölgəsində aparılan bərpa-quruculuq işləri ilə yanaşı turizm sahəsinin inkişafı da cəlb edən məsələlərdən hesab edilir. Çünki, turizm üçün istifadə ediləcək bəzi resursların da bərpasına ehtiyac duyulur. Göygöl-Kəlbəcər-Laçın yolunun çəkilməsi Zəngəzur regionunun, xüsusilə də Kəlbəcər rayonunun turizm mərkəzlərinin inkişafını daha da sürətləndirəcək.

18 fevral 2022-ci ildə Qarabağ və Şərqi Zəngəzura 3 günlük səfər etmiş xarici tanınmış səyyahların mətbuat konfransında səyyah Nikola Koratella bildirib ki, xüsusən Kəlbəcərin çox gözəl-təbiəti var: Yenidənqurma işlərindən sonra Qarabağ və Şərqi Zəngəzur daha da gözəlləşəcək. Kəlbəcərdə turizmin inkişafı üçün böyük potensial var. Bu yerlər dünyadakı turistlər üçün yeni bir məkan olacaq [3]. Göründüyü kimi tanınmış səyyahlar da Zəngəzur iqtisadi rayonunun ərazilərini geniş turizm məkanı

kimi qiymətləndirirlər. Regionda müxtəlif infrastrukturların yaradılması "Ağıllı kənd" layihəsinin həyata keçirilməsinə şərait yaradır ki, bu da "kənd turizminin" inkişafına müsbət təsir göstərə bilər.

Turizm ehtiyatlarından səmərəli istifadə edilməsinin əsas istiqamətlərindən biri də turistlərin turizm zonalarına cəlb edilməsidir. Bunun üçün vacib şərtlərdən biri turizm xidmətinin keyfiyyətinin yüksəldilməsidir. Bu istiqamət turizm kompleksinin bütün tərəflərini əhatə etməlidir. Azərbaycanda yataq yerləri, qidanlanma keyfiyyəti, nəqliyyat xidməti xarici dövrlərdə olan səviyyədən geri qalır, həm də bahadır [3].

Regionda turizmi inkişaf etdirmək məqsədilə mövcud olan ehtiyatlardan səmərəli istifadə etmək üçün bir sıra məsələlərin yerinə yetirilməsinə ehtiyac duyulur. İlk növbədə bazar münasibətlərinin tələbləri nəzərə alınaraq iqtisadi rayon üzrə turizm marketinqinin həyata keçirilməsi zəruri hesab edilir. Yəni turistlərin tələbatının öyrənilməsi, kadrlara olan tələbatın müəyyən edilməsi və ödənilməsi, turist seqmentinin düzgün seçilməsi, marketinq istiqamətində kommunikasiya sisteminin müəyyən edilməsi kimi məsələlərin dərindən öyrənilməsi əsas tələblərdən biri hesab olunur.

Turizm üçün kadr hazırlanması müasir dövrün problemlərindəndir. Turzmin inkişafı üzrə (xüsusilə kənd turizmi barədə) yerli əhalinin maarifləndirilməsinə böyük ehtiyac hiss olunur.

Turizm sahəsinin inkişafı istiqamətində həyata keçiriləcək xidmət növlərinin keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması mühüm şərtdir.

İqtisadi rayonda turizmin inkişaf etdirilməsi məqsədilə kiçik və orta sahibkarlara, həmçinin kənd turizmi üçün kənd sakinlərinə güzəştli kredit dəstəyi bu sahənin inkişafı üçün faydalı ola bilər.

Regionlarda turizmin inkişaf etdirilməsi bir sıra sosial-iqtisadi problemlərin nizamlanmasına yardımcı ola bilər. İlk növbədə regionun Ümumi Daxili məhsulunun yüksəlməsinə təsiri nəticəsində region əhalisinin maddi durumu yaxşılaşar.

Əhali üçün sosial problem olan işsizliyin aradan qaldırılması yaşayış yerlərinin infrastruktur sahələrinin inkişafına səbəb olar. Eyni zamanda, vətəndaşların mədəni inkişaf səviyyəsinin yüksəlməsinə təsir edər.

Bölgə müəssisələrinin fəaliyyətinin inkişafına səbəb ola bilər. Turizm ehtiyatlarından səmərəli istifadə səviyyəsi, əsasən onlardan turistlərin tələbatlarına uyğun istifadə edilməsi ilə şərtlənir. Bu ehtiyatların nəzarətə götürülməsi və qorunması müasir dövrün sahibkarlarının vəzifələrindən biri hesab olunur. Turizm sahəsində xidmətin kompleks əlaqələndirilməsi turistlərin rahatlığı üçün əsas məsələlərdən hesab olunur və sahibkarların diqqət yetirəcəyi istiqamətdir.

Şərqi Zəngəzur iqtisadi rayonunda turizmin inkişaf etdirilməsinin ölkənin təhlükəsizliyinin qorunmasına müəyyən səviyyədə təsiri ola bilər.

Bölgələrdə turizmin inkişafını təmin etmək və mövcud potensialdan istifadənin səmərəliliyini yüksəltməyin əsas yolu marketinq xidmətindən istifadədir.

İstənilən fəaliyyət sahəsində, o cümlədən turizm sahəsində də, məhsula tələbat və potensial ehtiyatlar öyrənilmədən nəzərdə tutulan biznesdən lazımi mənfəətin alınması müvəqqəti xarakter daşıyır.

Apardığımız araşdırmalar göstərir ki, əksər biznes sahələrində marketinq xidmətindən ya tamamilə istifadə olunmur, ya da formal xarakter daşıyır. Belə vəziyyətin olmasının bir sıra səbəbləri vardır:

İlk növbədə hesab edirik ki, cəmiyyət arasında marketinq yalnız ticarət kimi anlaşılır. Şübhəsizdir ki, marketinq ticarətdən çox geniş anlayışdır. Marketinq bazar münasibətlərini öyrənib fəaliyyətin ona uyğunlaşdırılması prosesidir. Yəni istehlakçıların tələbatını öyrənib, onu münasib qiymətlə qarşılamaqdır.

Turizmin regional inkişafı prosesində marketinq xidmətindən istifadə edilməsi mütləq vəzifədir. Çünki Respublikamızın regionlarının hamısında turizm üçün lazım olan inkişaf amilləri eyni deyildir. Belə vəziyyətdə turistlərin tələbatlarının öyrənilməsi və ödənilməsinin nəzərə alınması aktual olaraq qarşıda durur. Bu istiqamətdə əvvəlcədən marketinq tədqiqatının aparılması ilə bir sıra sualların cavablarını aydınlaşdırmaq olar. Yəni, Şərqi Zəngəzur regionunda turizmin hansı növünün inkişaf etdirilməsi üçün müvafiq resurslar mövcuddur. Ona görə də, bölgədə turizmin inkişaf istiqamətlərini düzgün seçməklə yanaşı turizm məhsullarına

tələbin müəyyən edilməsi istiqamətində marketinq hesablamalarının aparılması düzgün hesab edilir.

Turizm inkişafının müasir problemlərindən biri də marketinqin kommunikasiya sistemindən səmərəli istifadə edilməsi hesab olunur. Bu istiqamətdə apardığımız tədqiqatlardan məlum olur ki, bütövlükdə Respublika üzrə turizmin inkişafı ilə bağlı aparılan reklamların təsiri hələ lazımi səviyyəyə yüksəlməmişdir. Reklamın təsiredici növlərindən istifadə istehlakçı qruplarında turizmə qarşı maraq yarada bilmir. Şərqi Zəngəzur bölməsində turizmin inkişafını təmin etmək üçün satışın stimullaşdırıcı metodlarından, xüsusilə qiymət güzəştləri, müəyyən hədiyyələrin verilməsi və s. yüksək fayda verə bilər.

İctimaiyyətlə əlaqələrin genişləndirilməsi istiqamətində yerli əhalinin maarifləndirilməsi turizmin inkişafı üçün təkan verə bilər.

Digər tərəfdən bu sahəni mənimsəmiş yüksək biliyə malik mütəxəssislərin çatışmazlığıdır. Turizm sahəsi kompleks sahə olduğu üçün bu sahə istiqamətində xüsusi mütəxəssislərin hazırlanması faydalı hesab oluna bilər. Marketinq fəaliyyətinin tətbiqinə mənfi təsir göstərən amillərdən biri də Respublikamızın əksər sahələrində monopoliyanın hökmranlığıdır. Nəticəsi məhsulların məcburi satışını yaratmaqdır, rəqabətə imkan verməməkdir, keyfiyyətin yüksəldilməsinə marağın olmamasıdır.

Marketinqin tətbiqi istiqamətində elmi əsaslandırılmış normativlərin və normaların çatışmazlığıdır. Marketinqin kommunikasiya xidmətinin tətbiq edilməsi nəticəsində məhsul və xidmətlərin tanınması və onlara marağın artması meyli yüksəlir. Zəngəzur iqtisadi rayonunda turizm fəaliyyətinin yenidən bərpa olunması nəzərə alınmaqla marketinq xidmətindən istifadə mövcud olan turizm potensialından səmərəli istifadəni təmin edə bilər.

Azərbaycanın Qarabağ Şərqi Zəngəzur iqtisadi rayonların təcavüzdən azad edilməsi bu bölgələrdə qış turizminin inkişafı üçün də geniş imkanlar yaratmışdır. Xüsusi olaraq qeyd edirik ki, Azərbaycanda qış turizminin yaradılması və inkişaf etdirilməsi istiqamətində böyük təcrübə mövcuddur. Belə ki, Respublikamızda ilk dəfə yaradılan dağ-xizək kurortu olan "Şahdağ" qış-yay Turizm kompleksi yaradılmış və onun tərkibində beynəlxalq standartlara cavab verən mehmanxanaların tikilməsi, həmçinin Qəbələ yüksək səviyyəli infrastruktura malik olan "Tufan" dağ-xizək, yay-qış istirahət kompleksinin yaradılması bu ərazilərə cəlb olunan turistlərin sayını dəfələrlə yüksəltmişdir. Şahdağda qışda havanın temperaturu -20$^0$ C, yayda isə +20$^0$ C isti olur. Belə bir şərait ölkəmizin Zəngəzur bölgəsi üçün də xasdır. Xüsusilə, Kəlbəcər və Laçın inzibati rayonları qış turizminin inkişafı üçün də olduqca əlverişli şəraitə malik ərazilərdir. Şübhəsizdir ki, qış turizmi anlamında yer alan istiqamət xizəklə gəzməkdir. Digər sahələri də inkişaf etdirmək imkanları mövcuddur. Bu imkanlar Laçın, Qubadlı və Kəlbəcər rayonlarında daha genişdir. Bu fəaliyyət istiqamətinin həyata keçirilməsində Fizuli və Şuşa rayonlarında yaradılmış təyyarə limanlarının əhəmiyyəti böyük olsa da qış-turizmi üçün yaradılacaq infrastruktur sahələrin beynəlxalq səviyyə tələblərinə uyğunlaşdırılması, göstəriləcək xidmətlərin səviyyələrinin yüksəldilməsi vacib şərtlərdən hesab edilir. Dünya Turizm Təşkilatının statistik məlumatlarına görə il ərzində istirahət etmək istəyənlərin ≈ 35%- i, istirahət üçün məhz qış aylarını seçirlər. Qeyd edə bilərik ki, qış turizmi təkcə xizəklə gəzinti deyil, həm də qış idman növlərini də əhatə edir ki, burada müxtəlif yarışların təşkilatçısı olmaq imkanı yaranır. Bunun üçün qış idman növləri üzrə idmançıların yetişdirilməsi və onların beynəlxalq yarışlarda iştirakını təmin etmək, eyni zamanda qış idman kompleksləri barəsində beynəlxalq idman təşkilatlarının məlumatlandırılması və marketinq işlərinin həyata keçirilməsi mühüm tələblərdən hesab olunur. Qış idman təşkilatlarının üzvü olmaqla regionun qış turizminin təbliğinə diqqətin artırılması iqtisadi cəhətdən faydalı ola bilər. Apardığımız müşahidələr göstərir ki, qış turizmi gəlirliyinə və perspektivliyinə görə fəqlənən, eyni zamanda, turistlərin marağını daha çox cəlb edən sahədir. Eyni zamanda, qış turizmi növlərindən istifadə zamanı turistlərin xərcləri nisbətən yüksək olur.

**Nəticə**

Araşdırmalara əsaslanaraq müəyyən edilmişdir ki, Şərqi Zəngəzur iqtisadi rayonu geniş əhatəli və növlü turizm potensialına malik olan və diqqəti cəlb edən təbii mineral və termal sularla, fauna və flora ehtiyatları ilə zəngindir. Regionun yerləşdiyi ərazi turistlərin cəlb edilməsi

imkanlarını artırır. Bu potensiallardan səmərəli istifadəni təmin etmək məqsədilə kadr problemlərinin səfərbər edilməsi və turizmin inkişafı üçün marketinq tədqiqatlarının aparılması mühüm şərtlərdən hesab edilir.

**Elmi yeniliklər:** Tədqiqatın elmi yeniliyi regionun turizm potensialının tərkib istiqamətlərinin müəyyən edilməsi və onlardan səmərəli istifadə etmək üçün inkişaf etdiriləcək turizm növlərinin əsaslandırılmasıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair dövlət proqramı. Bakı, 2002-ci il 354 səh.
2. H.Soltanova "Azərbaycan Respublikasında Turizm və onun inkişafı" Bakı 2015 səh. 475
3. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 2016. 98.5 s. AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmişdir.
4. Turizm və Rekreasiya XXI əsrdə problemlər və perspektivlər. 2019-cu il 292 s.
5. Azərbaycanda sağlamlıq turizmi-cari vəziyyət və inkişaf perspektivləri 2022. s.184
6. Azərbaycan turizm sənayesinin inkişafı üşün zəhgin ehtiyatlara əlverişli iqtisadi coğrafi mövqeyə malikdir. https://www.yeniazerbaycan.com> Dövlət Turizm Agentliyi tərəfindən elan edilmiş müsabiqəyə təqdim edilib.
7. hhtps:// https://ikisahil.az>post> 287 Qarabağ və Şərqi Zəngəzurun çox böyük turizm potensialı var.

**Фарман Алисгандер оглы ИСКАНДЕРОВ, к. э. н., доцент**
E-mail: ferman.isgenderov@bk.ru

**Рамин Рамис оглы МУСТАФАЕВ**

**Нихад Рафик оглы ГУСЕЙНЗАДЕ**

## ПОТЕНЦИАЛ РАЗВИТИЯ ТУРИЗМА В ВОСТОЧНО-ЗАНГАЗУРСКОЙ ОБЛАСТИ И ПУТИ ИХ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ

### Резюме

Туризм, являясь одной из составных частей экономики, считается одной из сфер, влияющих на рост ВВП страны. В то же время ему принадлежит большая роль в решении социальных задач государства. В частности, считается особым видом деятельности, влияющим на ликвидацию безработицы. Это ведет к развитию инфраструктурных районов регионов и повышает культурный уровень населения. Создаются условия для восстановления трудовых ресурсов людей.

В статье раскрывается сущность туристского потенциала, определяется их классификация и назначение. Всесторонне изучен туристический потенциал Восточного Зангезурского района и определены направления его использования.

**Ключевые слова:** туризм, Зангезур, экономический район, потенциал, развитие, экономическая эффективность, рекреация, здоровье, спрос, инфраструктура.

**Farman Alisgander oghlu ISKANDEROV, Ph.D., Associate Professor**

**Ramin Ramis oghlu MUSTAFAYEV**

**Nihad Rafiq oghlu HUSEYNZADE**
E-mail: ferman.isgenderov@bk.ru

# THE DEVELOPMENT POTENTIAL OF TOURISM IN THE EASTERN ZANGAZUR REGION AND WAYS OF EFFECTIVE USE OF THEM

**Summary**

Tourism, being one of the constituent parts of the economy, is considered one of the areas that influence the growth of the country's GDP. At the same time, it has a great role in solving the social problems of the state. In particular, it is considered a special type of activity that affects the elimination of unemployment. It leads to the development of infrastructural areas of the regions and raises the cultural level of the population. Conditions are created to restore people's labor force.

The article reveals the essence of tourism potential, defines their classification and purpose. The tourism potential of Eastern Zangezur region is comprehensively studied and directions for their utilization are determined.

**Keywords:** Tourism, Zangezur, economic region, potential, development, economic efficiency, recreation, health, demand, infrastructure.

**Fazil Camil oğlu KƏRİMOV, i.f.d. dos.**
**Ayşə Seydi qızı ƏHMƏDOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: a.ahmedova@uteca.edu.az

# GƏNCƏ-DAŞKƏSƏN ƏRAZİSİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TURİZMİN ROLU

**Xülasə**

Turizmin inkişafı müasir dünya iqtisadiyyatına verdiyi mühüm töhfələrə və müsbət sosial-iqtisadi nəticələrinə görə yüksək qiymətləndirilir. İqtisadi və sosial potensiala malik ölkələrin struktur siyasətində həlledici element kimi nəzərdən keçirilir və bazar tipli iqtisadiyyatlarda prioritet sektor hesab olunur. Turizmin hazırkı vəziyyəti ümumi daxili məhsulun artımında və sosial məsələlərin həllində roluna görə qiymətləndirilir. Mütəşəkkil və planlı sənaye kimi turizmin təsirini qiymətləndirmək üçün onun inkişafının elmi qiymətləndirilməsinin aparılması vacibdir.

Turizmin müxtəlif aspektlərinin tədqiqi, planlaşdırılması və təşkilində istifadə olunan metodologiya və modellərin nəzəri və praktiki əhəmiyyətinə lazımi diqqət yetirilməklə, turizmin sosial-iqtisadi nəticələrinin yüksəldilməsi çox faydalı olardı.

**Açar sözlər:** turizm, sosial-iqtisadi potensial, region, inkişaf, biznes turizmi, investisiya.

**JEL: L81**

## Giriş

Ölkəmizdə sosial-iqtisadi potensialın 50%-dən çoxu regionların payına düşür, eyni zamanda əmək qabiliyyətli əhalinin 47%-i həm kənd təsərrüfatı, həm də aqrar sahə ilə məşğul olur. Bu nüansları nəzərə alaraq regionlarda kənd turizminin inkişafını təmin etmək mühüm məsələlərdəndir. Qeyd etmək lazımdır ki, bir çox kəndlərdə təbii resurslar və iqlim şəraiti ilə yanaşı tarixi abidələrin mövcudluğu bu kəndlərə xüsusi diqqətin ayrılması əhəmiyyətini artırır. Gəncə-Daşkəsən iqtisadi rayonunda kənd turizminin inkişaf etdirilməsi, təbiətinin qiymətləndirilməsi, əhalinin işlə təmin olunmasını gerçəkləşdirmək və artırmaq üçün bir sıra dövlət proqramları təsdiq və icra edilməkdədir. İcra edilən bir sıra tədbirlər öz növbəsində kənd əhalisi üçün əlavə gəlir mənbəyi olmaqla yanaşı, sosial və iqtisadi problemlərin həllində özünəməxsus yer tutacaqdır. Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ucqar kəndlər üçün olduqca mühümdür. Gələcək dövrlərdə görülən tədbirlərin nəticəsi kənd mədəniyyətinin qorunmasına, sosial-iqtisadi bir faktor olaraq gənclərin işsizlik ucbatından kəndlərdən axınının qarşısının alınacağı proqnozlaşdırılır. Bütün bunların gerçəkləşdirilməsi üçün bir çox tədbirlər həyata keçirilməlidir. İlk və ən böyük əngəl kənd yerlərində turizm infrastrukturunun olmamasıdır. Hər şeydən əvvəl həmin ərazilərdə yeni və müasir tələblərə cavab verən infrastrukturlar qurulmalı,ələlxüsus əhali maarifləndirilməli, kənd əhalisinin öz əl işlərini və kəndə məxsus bir çox məhsulları sata biləcəkləri yerlər tikilməli, nəqliyyat infrastrukturunun səviyyəsi yüksəldilməlidir. Əhali arasından turizm sahəsinə marağı olanlara xarici dil kursları təşkil edilməklə yerli mütəxəssislər yetişdirilməlidir.

Ölkə Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2020-ci il iyunun 24-də Gəncə şəhərinə 16-cı səfəri zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə bağlı dövlətimizin başçısının verdiyi göstərişlər, imzaladığı sərəncamlar şəhərin hərtərəfli inkişafına təsir göstərib, , 2003-cü ilə nisbətdə 2019-cu ildə Gəncədə məhsul buraxılışı 4,3 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 2,8 dəfə, əsas kapitala yönəldilmiş vəsait 60 dəfə, o cümlədən tikinti-quraşdırma işləri 63,1 dəfə artıb. 2003-cü ildən 2020-ci ilin birinci rübü ərzində Gəncədə 60 587, növbəti il ödənişli əsaslarla 2075, pandemiya ilə əlaqədar üç min müvəqqəti iş yeri açılıb.

Dördüncü regional inkişaf proqramı çərçivəsində icra olunan növbəti layihə əsasında Gəncə lokomotiv deposu 2022-ci il yanvarın 30-

da istismara verildi. Bu yeni depoda dəyişən cərəyanla işləyən elektrovozların texniki xidməti və təmiri işləri həyata keçirilir. Gəncə deposu Azərbaycan Hökuməti ilə Fransa İnkişaf Agentliyinin birgə maliyyəsi hesabına inşa edilərək dövlət başçımız tərəfindən işə salınıb. Yeni depoda ABŞ, Almaniya, İngiltərə, Hollandiya, İtaliya, Türkiyə, Koreya Respublikası, Çin, Rusiya və bir sıra digər ölkələrin istehsalı olan müasir avadanlıq və cihazlarla təchiz olunmaqla sifariş edilmiş bütün dəyişən cərəyanlı lokomotivlərə fasiləsiz olaraq texniki xidmət göstərmək qabiliyyətində olan əsas təmir zonasında eyni vaxtda 6 lokomotivə xidmət etməyə imkan verən ikimərtəbəli platforma mövcuddur. Qeyd edilməlidir ki, depo ərazisində 75 nəfərin işlə təmin olunması nəzərdə tutulmaqla, enerjiyə olan tələbatın bir hissəsini qarşılamaq üçün 350 ədəd günəş paneli quraşdırılıb. Deponun istisması ilə istər enerji resurslarına qənaətə, istər xərclərin azalmasına, istərsə də təmir və texniki xidmətin optimallaşdırılmasına, istismarın etibarlılığının artırılmasına və fasiləsiz daşımaların təmin olunmasına imkan yaradılması proqnozlaşdırılır.

2021-ci ildə “Daşkəsən şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi başa çatıb. Qeyd edək ki, Daşkəsən şəhərinin mərkəzləşdirilmiş içməli su təchizatı sistemi 1950-1960-cı illərdə yaradıldığından sakinlərin yalnız 43 faizinə xidmət göstərirdi, mövcud su və kanalizasiya xətləri şəhəri tam əhatə etmirdi və istismara yararsız duruma düşmüşdü. Şəhər əhalisi içməli suyu qrafiklə alırdı, sakinlərin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Azərbaycan Hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən bu layihə isə 2035- ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Daşkəsəndə 12 min nəfərin içməli və tullantı su xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Əhalini , həmçinin ətraf kəndləri keyfiyyətli içməli su ilə təmin etmək üçün Qarainək bulaqları və Gurbulaq su mənbəyində 5 suqəbuledici qurğu inşa edilərək mənbədən şəhərə 20 kilometrdən çox uzunluğu olan magistral su kəməri çəkilib, eyni zamanda, 2030 ünvana birləşmə verilərək sayğaclar quraşdırılıb. Hazırda yeni yaradılmış su təchizatı sistemi ilə şəhərin 10 mindən artıq sakini fasiləsiz içməli su ilə təmin edilməkdədir. Məhz, layihə çərçivəsində Daşkəsən şəhərində 11,5 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi də qurulmaqla, rayonun Alunitdağ qəsəbəsinə də içməli suyun verilməsi təmin edilib və Sukanal Sahəsi üçün müasir tipli inzibati bina tikilib [1].

2015-ci ildə Azərbaycanda turizm təsərrüfatı ÜDM-in 2,7%-ni təşkil etmişdir. Bu göstərici 2019-cu ildə isə 2,4% olmuşdur. 2011-ci ilin “Turizm ili” elan olunması ölkədə turizmin inkişafını sürətləndirsə də, dünyanı əhatə edən pandemiya bu sahənin inkişafını ləngitmişdir. 2011-ci ildə ölkənin turizm təsərrüfatına 1407,8 mln. manat investisiya qoyulmuşdur ki, bunun da nəticəsində turizm sektoru sürətlə inkişaf etməyə başladı. Qısa zaman ərzində yeni mehmanxanalar inşa edilmiş, ölkəyə gələn turistlərin sayı isə 2 dəfə artmışdır [2].

Ölkənin ümumi təsərrüfat sisteminə nəzər salsaq görərik ki, turizm iqtisadiyyatdakı payına görə yalnız informasiya və rabitə (1,8%) sektorundan üstündür [3].

Aparılan tədqiqat nəticəsində bölgələrdən Gəncə şəhərində mədəni və biznes turizmi, Naftalanda müalicə və sağlamlıq, Daşkəsən rayonunun cənub hissəsində alpinizm, Şəmkirçay ətrafında piyada yürüşlərin təşkili, Ağstafa rayonunda balıqçılıq, ovçuluq və quşların müşahidəsi, Gədəbəy rayonunda müalicə-sağlamlıq turizmi, alpinizm, mədəni və etnoqrafik turizm, Goranboy rayonunda rekreasiya turizmi, Göygöl rayonunda ekoturizm, kənd turizmi və etnoqrafik turizm, Qazax rayonunda rekreasiya, hadisə və kempinq, Samux rayonunda balıqçılıq, rekreasiya turizmi, Şəmkir rayonunda balıqçılıq, arxeoloji turizm, Tovuz rayonunda isə alpinizm, kənd turizminin inkişafı üçün geniş imkanların mövcud olduğu qəbul edilmişdir.

Turizm insanların müxtəlif yerləri ziyarət etməsi və otel, yemək və fəaliyyət kimi müxtəlif sahələrə pul xərcləməsidir. Bu, yeni iş yerləri yaratmaq və ərazini daha da inkişaf etdirməklə yerli iqtisadiyyata kömək edir. Turizmi həyata keçirməyin müxtəlif yolları var və bu, yerin coğrafi ərazisi və tarixi kimi faktorlardan asılıdır. Turizm xidmətləri göstərən şirkətlər insanlara istədiklərini verməyə çalışırlar və qiymətlər insanların ödəməyə hazır olduqlarına əsaslanır.

Pulun işləməsi və insanların müxtəlif yerlərdə necə davranması da turizmə təsir göstərir. Turistlərlə işləyən müəssisələr onlara istədiklərini verməyə çalışırlar və bunu etmə

tərzi turizmin nə qədər olduğuna təsir edir. Turizmin nə qədər yaxşı getdiyini, onu neçə nəfərin aldığına və nə qədər baha başa gəldiyinə baxaraq deyə bilərik.

Turizmin sosial-iqtisadi mənası çoxşahəli və kompleks göstəricilərlə ifadə olunur. Turizm insanların əylənmək, yeni vərdiş və maraqlar öyrənmək üçün müxtəlif yerlərə səyahət etməsidir. Bu, yerli əraziyə pul gətirməyə və orada yaşayan insanların vəziyyətini yaxşılaşdırmağa kömək edə bilər. Bu, həm də insanlara öz bizneslərini qurmaq imkanı verir. Turizm getdikcə populyarlaşır və biznes üçün vacib olur. Bu, yeni iş yerləri yarada və ərazini yaxşılaşdırmağa kömək edə bilər. Məqsəd hər bir sahəni təkmilləşdirmək üçün mövcud resurslardan istifadə etməkdir.

Müxtəlif yerlərdə turizm onun harada olmasından və necə planlaşdırıldığından asılıdır. Hər bir regionun iqtisadiyyatına təbii ehtiyatlar, texnologiya, əhali və yerləşmə təsir göstərir. Hər bir regionun yaxşı inkişaf etməsi üçün onun resurslarının dəyərləndirilməsi, yeni iş yerlərinin açılması, iqtisadi sahələrin qurulması vacibdir. Hər bir regionun iqtisadiyyatı ölkə iqtisadiyyatının bir hissəsidir və ölkə iqtisadiyyatının təsiri altındadır. İqtisadiyyatı inkişaf etdirmək üçün müxtəlif bölgələr birlikdə çalışır. Hər bölgənin öz maraqları olduğu halda, ölkə iqtisadiyyatı hamıya yönəlib. Ölkənin məqsədi hər kəsin yaxşı yaşaması üçün lazım olan hər bir ehtiyaca sahib olmasını təmin etməkdir.

Ölkə iqtisadiyyatını müxtəlif regionların iqtisadiyyatları təşkil edir. Ölkə iqtisadiyyatının böyüməsi və dəyişməsi hər bir regionun iqtisadi cəhətdən nə qədər yaxşı çıxış edə biləcəyinə təsir göstərir. Regionlar bir böyük iqtisadiyyat yaratmaq üçün birlikdə çalışır, lakin onlar həm də öz ehtiyaclarına diqqət yetirirlər. Ölkə pul və resursları bir mərkəzdən istifadə etməklə hər kəsin lazım olan tələbatlara sahib olmasına əmin olmağa çalışır.

Azərbaycanda turizm problemi var, çünki insanlar hər il yalnız qısa müddətə ziyarət edə bilirlər. Ölkəmiz müxtəlif iqlim şəraitinə malik olsa da, bu problemə görə il boyu turizmlə məşğul ola bilmirik. Turistlərin daha uzun müddət ziyarət edə bilməsi üçün hər şeyi yaxşılaşdırmalıyıq. Hal-hazırda, turizm şirkətləri yalnız bir neçə ay işləyir, bu da işləri daha bahalı edir. Biz bütün il boyu turistlər üçün şərait yaratmalıyıq ki, qiymətlər daha münasib olsun. Düşünürük ki, hökumət və sahibkarlar turistlərin vəziyyətini yaxşılaşdırmaq üçün birlikdə çalışmalıdırlar. Qış turizmini yaxşılaşdırmaqdan başlamalıyıq.

İnsanlar turizmlə bağlı problemləri öyrənirlər və bu, artıq təkcə pul və iqtisadiyyatla bağlı deyil. Turizm həm də mədəniyyət və siyasət üçün vacibdir. Bəzi insanlar turizmi müxtəlif mədəniyyətləri öyrənmək və dünyanı daha yaxşı bir yerə çevirmək üçün bir yol kimi görürlər. Bu, getdikcə populyarlaşır və bir çox ölkələr pul qazanmaq üçün ondan istifadə edirlər. İnsanlar turizmin təhlükəsiz və hamı üçün faydalı olduğundan əmin olmağa çalışırlar.

Biz indi turizmin insanlara müxtəlif mədəniyyətlər haqqında məlumat əldə etməyə necə kömək etməsi  və dünyanı daha təhlükəsiz yerə çevirməsi haqqında daha çox bilirik. Turizm insanların müxtəlif ölkələrə səyahət etməsi və orada pul xərcləməsidir. Bu, bir çox ölkələrin iqtisadiyyatına kömək edir.

Ölkəmizin iqtisadiyyatını  hamı üçün daha yaxşı necə işlədəcəyimizi müəyyən  etməliyik. Bu, hadisələrin necə dəyişdiyini öyrənmək və bundan sonra nə olacağını proqnozlaşdırmaqdan ibarətdir. Ölkəmizin iqtisadiyyatını elə bir sistemə dəyişmək istəyirik ki, insanlar daha asan əşyalar alıb sata bilsinlər. Ölkəmizdə turizmin necə işləməsi ilə bağlı da qaydalarımız var ki, hamıya fayda gətirsin və iqtisadiyyatımızın inkişafına kömək etsin. Buraya əyləncəli səyahətlər təşkil etmək və turistlərin yaxşı təcrübələr yaşamasını təmin etmək kimi tədbirlər də daxildir. Bütün bunlar ölkəmizi daha da yaxşılaşdırmaq üçün vacibdir.

Turizmdən bəhs edən Azərbaycanda Qanun hökumətin Azərbaycana gələn insanların yaxşı vaxt keçirməsinə və turizm sənayesinin qaydalara əməl etməsinə necə əmin olmaq istədiyini izah edir. Bu, həm də insanların ziyarət etmək istədikləri yerlərə qayğı göstərilməsinə və turizmdə çalışan insanların ədalətli maaş almasına kömək edir. İnsanlar Azərbaycana gələndə yeni yerlər görə bilir, səfərlərə çıxır, əylənirlər. Bu, iş yerlərinin açılmasına və iqtisadiyyatın inkişafına kömək edir.

Turizmin iqtisadiyyatı və tənzimlənməsi müxtəlif amillərdən, o cümlədən tarixi xüsusiyyətlərdən, turizmin konsepsiyasından və potensialından, ölkənin coğrafi mövqeyindən və

resurslarından asılıdır. Turizmin inkişafına təcrübə və əlverişli şərait təsir edir və iqtisadi potensialı cəlb etməklə daha da gücləndirilə bilər. Turizmin tədqiqi onun sosial-iqtisadi mahiyyətini və ölkənin resursları və şəraiti ilə formalaşan əsas istiqamətlərini ehtiva edir. Turizm çoxfunksiyalı sahə kimi istehlakçıların və regionların ehtiyaclarına xidmət edir və onun beynəlxalq əhəmiyyəti inteqrasiya, əməkdaşlıq və istehsaldan ibarətdir. Turizmin idarə edilməsi onun çoxfunksiyalılığının nəzərə alınmasını və iqtisadi səmərəliliyə əsaslanan məqsədlərin prioritetləşdirilməsini nəzərdə tutur.

Turizmin iqtisadi amil kimi əhəmiyyəti müxtəlif meyarlardan və tarixi xüsusiyyətlərdən asılıdır. Turizm anlayışı, onun potensialı və ölkənin yerləşdiyi yer turizm sənayesini formalaşdırır. Təbii şərait və iqtisadi vəziyyət kimi amillər bu sənayenin inkişafına kömək edir. Potensial və iqtisadi resursları cəlb etməklə turizm sənayesi istehlakçıların ehtiyaclarına uyğun formalaşdırıla bilər. Turizmin tədqiqinə onun sosial-iqtisadi mahiyyəti və əsas istiqamətləri daxildir. Turizmin tarixi ölkələrin və ərazilərin resursları ilə formalaşır. Turizm sənayesi çoxfunksiyalıdır və turistlərin ehtiyaclarını ödəmək üçün xidmətlər göstərir. Turizmin beynəlxalq əhəmiyyəti onun inteqrasiyasında və əməkdaşlığındadır. Turizmin istehsal və xidmət funksiyaları onu mürəkkəb idarəetmə obyektinə çevirir. Onun uğurunun meyarları məqsədlərə və iqtisadi səmərəliliyə əsaslanan iyerarxik struktur təşkil edir.

Azərbaycan iqtisadi inkişafda böyük uğurlar qazanıb, hazırda dünyanın aparıcı ölkəsi hesab olunur. Azərbaycanın neft sənayesinin əldə etdiyi gəlirlər ölkəmizdə pul kütləsini xeyli artırıb. Neft gəlirlərindən səmərəli istifadə etməklə Azərbaycanın gələcəkdə qüdrətli dövlətə çevrilməsi potensialını tanımaqla yanaşı, qeyri-neft sektorunun inkişafına da diqqət yetirmək vacibdir. Bu, xüsusilə dünya miqyasında getdikcə əhəmiyyət kəsb edən İnformasiya Texnologiyaları, eləcə də, Rabitə və Turizm sənayesində əhəmiyyətli problemlər və imkanlar təqdim edir. Bəzi ölkələr hətta turizmin həm qeyri-neft sektorunun , həm də bütövlükdə ÜDM-in aparıcı payına çevrildiyini görmüşlər.

Azərbaycan öz neft ehtiyatlarından əldə etdiyi gəlirlər hesabına nəzərə çarpacaq dərəcədə iqtisadi inkişafa nail olub. Lakin bu artımı saxlamaq üçün diqqəti qeyri-neft sektorunun inkişafına yönəltmək vacibdir. İnformasiya Texnologiyaları, Rabitə və Turizm sənayesi qlobal iqtisadiyyatda getdikcə daha çox əhəmiyyət kəsb edir və Azərbaycan bu sahələrə sərmayə qoymağı düşünməlidir. Neft sənayesi bizim iqtisadi uğurumuzda həlledici rol oynasa da, biz uzunmüddətli davamlılıq üçün iqtisadiyyatımızın şaxələndirilməsinin zəruriliyini dərk edirik.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərdi ki, turizm iqtisadiyyata böyük fayda verə bilər. Dövlət büdcəsinə gəlirlərin yaradılmasında və ticarətin tarazlaşdırılmasında mühüm rol oynayır. Bundan əlavə, turizm işsizlik kimi problemləri həll etməyə və ümumi iqtisadi artımı stimullaşdırmağa kömək edə bilər. Ölkəmizdə iş imkanlarının təmin edilməsinin vacibliyini nəzərə alsaq, turizm sənayesi bu baxımdan həlledici rol oynaya bilər. Məsələn, kiçik turizm müəssisələri 8-10 nəfərə qədər, orta və iri müəssisələr isə yüzlərlə işçini işlə təmin edə bilər. Qeyd etmək yerinə düşər ki, artıq ölkəmizdə çoxlu sayda insan istirahət komplekslərində, mehmanxanalarda işlə təmin olunur.

İqtisadi sektorların inkişafı və davamlılığında investisiyalar həlledici rol oynayır. Turizm sənayesi göstərdi ki, ona investisiya yatırmaq tez bir zamanda müsbət nəticələr verə və ölkənin ümumi sosial-iqtisadi inkişafına töhfə verə bilər. İnfrastruktur kimi digər sektorlar da turizmin inkişafına mühüm təsir göstərir. İnvestisiya idarəçiliyinin müvəffəqiyyəti əlverişli mühitdən və səmərəli idarəetmədən asılıdır. Proqnozlaşdırılan və düzgün həyata keçirilən investisiya layihələri beynəlxalq standartlara cavab verən turizm obyektlərinin artmasına və ölkəyə daha çox turist cəlb edilməsinə səbəb ola bilər.

İqtisadi sahələrin davamlı inkişafında investisiyalar həlledici rol oynayır. İnkişaf etməkdə olan ölkələr göstərdilər ki, turizmə investisiya qoyuluşları tez nəticə verir və sənayenin inkişafı davamlı inkişafı təmin edir. Turizm digər iqtisadi və sosial sektorlarla əlaqəli olduğundan, bu sənayeyə qoyulan investisiyalar ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərə bilər. Yol infrastrukturunun yaxşılaşdırılması ölkəmizin turizm sənayesi üçün artıq öz müsbət nəticələrini verib. İnvestisiyaların müvəffəqiyyəti əlverişli investisiya mühitindən, səmərəli idarəetmədən,

qanunvericilik və ümumi idarəetmə bacarığından asılıdır. Proqnozlaşdırılan və düzgün həyata keçirilən investisiyalar beynəlxalq standartlara cavab verən turizm obyektlərinin artmasına və son nəticədə ölkəmizə daha çox turist gəlməsinə səbəb olacaq.

Turizmin sosial-iqtisadi əhəmiyyəti mürəkkəb və müxtəlifdir, çünki o, gəlir əldə etmək, yerli resurslardan istifadə etmək və cəmiyyətin xeyrinə infrastrukturu gücləndirmək məqsədi daşıyır. Həmçinin sahibkarlığı təşviq edir və getdikcə biznes və korporativ idarəetmə üçün diqqət mərkəzində olan sahəyə çevrilir. Turizmin sosial aspekti iş yerlərinin yaradılması, ev təsərrüfatlarının inkişafı və kənd yerlərində sosial-iqtisadi inkişafı əhatə edir. Resursların səmərəli idarə edilməsinə və məşğulluğun artmasına nail olmaq üçün iqtisadi və sosial inkişaf məsələləri turizm təşkilatının məqsədlərinə uyğun olmalıdır. Turizm fəaliyyətinin və regionun resurs potensialı əhalinin rifahının yaxşılaşdırılmasında həlledici əhəmiyyətə malikdir.

Turizm sənayesi ölkə iqtisadiyyatının və sosial inkişafının həlledici tərkib hissəsidir. Hazırda onu daha çox bazar yönümlü edən dəyişikliklərə məruz qalır. Tədqiqatçılar və ekspertlər turizmi təkmilləşdirmək və gələcək artımını proqnozlaşdırmaq üçün müxtəlif yanaşma və strategiyaları öyrənirlər. Əhalinin ehtiyaclarını ödəmək və ölkənin ixrac potensialını artırmaq üçün beynəlxalq turizm əlaqələri inkişaf etdirilir. Turizmin idarə edilməsi və təşkili iqtisadi inteqrasiya və inkişaf üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Həyat tərzi və yaşayış şəraiti dəyişdikcə turizm potensial inkişafın vacib mənbəyinə çevrilir. Bu kontekstdə turizm sektoru sosial məsələlərin həllində və iqtisadi artımın təşviqində mühüm rol oynaya bilər.

Turizmi səmərəli idarə etmək üçün diqqəti özəlləşdirmə və sahibkarlığın gələcək inkişafı strategiyalarına yönəltmək lazımdır. Bu, resursların, eləcə də daha yüksək məqsədlərə nail olmaq üçün lazım olan texnologiya və mexanizmlərin diqqətlə nəzərdən keçirilməsini tələb edir. Bir çox ölkələr turizm sənayesini əsas iqtisadi sektor kimi inkişaf etdirirlər. Turizm fəaliyyətini onun sosial-iqtisadi mahiyyətini, sosial rolunu və beynəlxalq təsirini nəzərə alaraq təhlil etmək üçün konseptual yanaşma lazımdır. Turizmə sahibkarlıq obyekti kimi baxaraq, elmi-metodoloji baxımdan fərqliliklərini nəzərə almaqla, onun dövlət tənzimləmələri vasitəsilə təşkili və qorunması vacibdir.

Sosial prioritetlərə gəlincə, turizmin inkişafı əmək resurslarının və ərzaq bazarının genişləndirilməsində həlledici amildir. Turizm sahəsinin idarə edilməsi və təşkili, funksional və yerli təsərrüfat fəaliyyətləri konkret məqsədləri rəhbər tutur. Turizmin inkişafına yanaşma iqtisadi artıma, sosial tərəqqiyə, resurslardan və potensialdan səmərəli istifadəyə yönəlib. Turizmin inkişafının nəzəri əsasları onun ümumi səmərəliliyi və kommersiya maraqları əsasında qiymətləndirilir. Turizmin əsas mürəkkəbliyi onun resurslara, insan faktorlarına və son məhsulun strukturuna görə təşkil edilən fəaliyyətindədir.

Turizmin maddi bünövrəsi onun çoxalma prosesinə cəlb edilməsi, eləcə də bir sahə kimi idarəetmə və təşkili mexanizmləri ilə formalaşır. Turizmin əsas xüsusiyyətlərini qiymətləndirmək üçün müxtəlif məktəblərin müxtəlif perspektivlərindən istifadə etmək olar.

Turizmin öyrənilməsinə və proqnozlaş_dırılmasına onun iqtisadi, mənəvi və sosial-iqtisadi əhəmiyyəti təsir göstərir. Turizmin və onun iştirakçılarının unikal xüsusiyyətləri tədqiqat yanaşmasını formalaşdırır. Turizm insan tələbi, iqtisadiyyat və hökumət siyasəti ilə idarə olunduğu üçün onun inkişafında insan elementini nəzərə almaq vacibdir. Müasir dünyada ölkənin geoiqtisadi vəziyyəti, coğrafiyası və resursları onun turizm sənayesinə və iqtisadiyyatdakı roluna təsir göstərir. Coğrafiyanın bir qolu kimi baxıldıqda, turizm insanların müxtəlif ölkələr və marşrutlar üzrə hərəkəti kimi görülə bilər.

## ƏDƏBIYYAT SİYAHISI:

1. 2019-2023 regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramı
2. Azərbaycanda turizm. T.Budaqov, Bakı: DSK 2021, 26 s.
3. Azərbaycanın Milli Hesabları. T.Budaqov. – Bakı: ARDSK, – 2020. – 8 s.
4. Abbasova F. Xarici investisiyalar va Azərbaycan iqtisadiyyatı "igtisadiyyat və Audit" No 1, Baki, 27 dekabr 2003.
5. Agakorimov M.M. "Otel", Bakı: "R.N. Novruz-94*, 2008. 329 s.
6. AR DSK. Müstəqil Azərbaycan, 2011. Bakı, 2011.640 s.

7. Azərbaycan Respublikası Gənclər, İdman va Turizm Nazirliyi, Turizm sahəsində normativ-hiquqi sənədlər. Bakı, 2003. 55 s.

8. Azərbaycan Respublikası. Konstitusiyası, Bakı, "Azamasr", 1995

**Ф. ДЖ. КАРИМОВ, д. ф. э., доцент**
**А.С.АХМЕДОВА**
Азербайджанский Технологический Университет
E-mail: a.ahmedova@uteca.edu.az

## РОЛЬ ТУРИЗМА В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ ГЯНДЖА-ДАШКАСАНСКОГО РАЙОНА

**Резюме**

Развитие туризма высоко ценится за его важный вклад в современную мировую экономику и положительные социально-экономические результаты. Он рассматривается как решающий элемент структурной политики стран с экономическим и социальным потенциалом и считается приоритетным сектором в экономике рыночного типа. Современное состояние туризма оценивается по его роли в росте валового внутреннего продукта и решении социальных вопросов. Для оценки влияния туризма как организованной и плановой отрасли важно провести научную оценку его развития.

Было бы очень полезно улучшить социально-экономические результаты туризма, уделяя должное внимание теоретической и практической значимости методологий и моделей, используемых при исследовании, планировании и организации различных аспектов туризма.

**Ключевые слова:** туризм, социально-экономический потенциал, регион, развитие, деловой туризм, инвестиции.

**F.C. KARİMOV, d.p.e., associate professor**
**A.S. AHMADOVA**
Azerbaijan Technology University
E-mail: a.ahmedova@uteca.edu.az

## THE ROLE OF TOURISM IN THE SOCIO-ECONOMIC DEVELOPMENT OF GANJA-DASHKASAN DISTRICT

**Summary**

The development of tourism is highly valued for its important contributions to the modern world economy and its positive socio-economic results. It is considered as a decisive element in the structural policy of countries with economic and social potential and is considered a priority sector in market-type economies. The current state of tourism is evaluated according to its role in the growth of the gross domestic product and the solution of social issues. To assess the impact of tourism as an organized and planned industry, it is important to carry out a scientific assessment of its development.

It would be very beneficial to improve the socio-economic results of tourism by paying due attention to the theoretical and practical significance of the methodologies and models used in researching, planning and organizing various aspects of tourism.

**Keywords:** tourism, socio-economic potential, region, development, business tourism, investment.

**Fazil Cəmil oğlu KƏRIMOV, i.f.d., dos.**

**Jalə Etibar qızı NƏZƏRLI**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Fərid Arzu oğlu SƏFƏRLI**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: fazilkerimov54@mail.ru

# AZƏRBAYCAN RESPUBLİKASINDA AZAD İQTİSADİ ZONALARIN FORMALAŞMASI VƏ İNKİŞAFIN SOSİAL-İQTİSADİ ASPEKTLƏRİ

**Xülasə**

İnformasiya texnologiyalarının cəmiyyətin bütün təbəqələri tərəfindən inkişafı və geniş tətbiqi dünya inkişafının qlobal tendensiyasıdır. İnformasiya texnologiyalarından istifadə vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, onun dünya iqtisadi sisteminə inteqrasiya imkanlarının genişləndirilməsi üçün həlledici əhəmiyyətə malikdir.

Tədqiqat işi XXI əsrdə aktual mövzulardan olan – "Rəqəmsal xüsusi iqtisadi zonalar və onların inkişaf perspektivləri" mövzusuna həsr edilmişdir. Dünya iqtisadiyyatının informasiyalaşdırılması qlobal telekommunikasiya şəbəkələrinin yaradılması, internetin inkişafı, yeni texnologiyaların, proqram təminatının və yüksək texnologiyalı avadanlığın hazırlanması, dünya İT xidmətləri bazarının inkişafı qloballaşmanın xarakterini və onun inkişaf tempini müəyyən etmişdir.

**Açar sözlər:** iqtisadi zona, texnopark, biznez, aqropark.

**JEL:O18**

## Giriş

Müasir şəraitdə respublika regionlarının inkişafı mürəkkəb iqtisadi vəziyyətlə xarakterizə edilir. Dərin sistemli krizis milli iqtisadiyyatın demək olar ki, bütün sahələrinə toxunmuş və təxirəsalınmaz həlli tələb edilən çoxlu problemlər toplanmışdır. Ölkə iqtisadiyyatının bu durumdan çıxarılması üçün regional inkişafın ən səmərəli yollarının işlənməsi və onların reallaşdırılması mexanizminin müəyyən edilməsi zərurudir. Bu problemin həllinin təşviqinə qadir amillərdən biri bizim baxışlarımıza görə azad iqtisadi zonaların (AİZ) yaradılması olub, milli iqtisadiyyatın liberallaşdırılması şəraitində bazara transformasiyasının vacib sürətlənməsi vasitəsi kimi çıxış edə bilər.

Dünya mütəxəssislərinin qiymətləndirmələri üzrə xüsusi təşkilati – hüquqi rejimli iqtisadi zonaların yaradılması, öz məhsulunu səmərəli ixrac etməyə qadir, istehsalat potensialı və xidmət dairəsinin formalaşmasına və inkişafına yönəlmiş, ayrı – ayrı ərazi və regionların qüvvədə olan və perspektiv inkişaf istiqamətidir. Azad iqtisadi zonalar (yaxud XİZ) özünün yüksək iqtisadi, sosial və siyasi səmərəliliyini bir çox dünya regionlarında göstərmişdir.

Azərbaycanda onların təşkili prosesi bazar sistemlərinin qurulması dövrünə təsadüf etməklə, regionların inkişafının sürətləndirilməsi məqsədi daşıyır. Respublikamızda azad iqtisadi zonaların müvəffəqiyyətli inkişafı üçün bütün şərait mövcuddur. Belə ki, respublikamızın tarixi "ipək yolu" – nun keçdiyi ərazi olması və bu istiqamətdə nəqliyyat infrastrukturunun yüksək inkişafı tranzit ölkə kimi regionun əhəmiyyətini ortaya qoymuşdur. Bizim baxışlarımıza görə digər azad iqtisadi zona növləri ilə bir sırada vacib regional inkişaf mərkəzi kimi azad biznes zonaları (ABZ) da çıxış edə bilər. ABZ-nin şəkildəyişmələrindən biri ərazi – istehsalat zonası (ƏİZ) yaxud sənaye məhəlləsi olub, respublikanın bəzi müəssisələrində təşkili təklif edilir. Onların əlverişli fərqi ondan ibarətdir ki, burada yeni texnologiyanın təşkili praktiki olaraq əsaslı məsrəflər tələb etmir, belə ki, burada mövcud sahə, avadanlıq və inkişaf etmiş infrastruktur istifadə edilir və deməli, əhəmiyyətli şəkildə investisiya tələbi azaldılmış olur [1].

Azərbaycanda azad iqtisadi zonaların yaradılması və onların fəaliyyəti üzrə xarici təcrübə lazımi qaydada ümumiləşdirilmiş, respublikanın regionlarının iqtisadi inkişafının sürətlənməsində roluna dair ciddi tövsiyyələr mövcud deyildir. Bu istiqamətdə milli təcrübə isə kifayət qədər toplanmamışdır. Azad iqtisadi zonaların yaradılması və fəaliyyətinin bütün tərəflərini kompleks əhatə edən, elmi işlənmiş konsepsiya mövcud deyildir. Regional inkişafda onların rolu və yeri müəyyən edilməmişdir. Praktiki olaraq, nəticələr üzrə AİZ-in fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati problemləri ilə bağlı tövsiyyələrin işlənməsinə imkan verən elmi – tədqiqatlar mövcud deyildir. Bütün bu vəziyyət isə dissertasiya mövzusunun aktuallığını müəyyən edir.

Azad iqtisadi zona (AİZ), xüsusi iqtisadi zona (XİZ) forması olub, müəyyən ərazidə təşkilati – hüquqi rejimli formadır. Çox vaxt AİZ – lər ixrac – idxallı preferensiyalarla əlaqədar olan xarici ticarət zonalarına və həmçinin ixrac istehsalat zonalarına aid edilir.

Azərbaycan Respublikasında Ələtdəki Yeni Bakı Limanında onun ərazisinin 100...115 hektarında AİZ yaradılması geniş vüsət almışdır. Limanın ümumu sahəsi 400 hektardır. Ayrılmış sahənin kifayət etmədiyi halda onun artırılması nəzərdə tutulur. Burada əsas məqsəd ölkənin tranzit ölkə kimi imicinin formalaşması ilə yanaşı ixrac–idxalın geniş təşəkkül tapmasının stimullaşdırılmasıdır. Burada həmçinin respublikanın sənayecə kompakt ərazilərində ixrac istehsalat zonalarının (texnopolislərin) yaradılması istiqamətində işlər aktiv fazadır.

Respublikamızda yetərli işlənmiş normativ hüquqi bazanın, konseptual təminatın və reallaşdırılma mexanizminin olmaması, AİZ-in baçlıca iqtisadi vəzifəsinin - biznes fəaliyyətinin stimullaşdırılmasının reallaşdırılmamasına səbəb olmuşdur. Bunun əsas səbəbini bir sıra problemlərlə əlaqələndirmək olar. Bunlardan birincisi qanunvericilik bazasının mövcud olmaması, digəri AİZ – rin yaradılmasının məqsədinin aydın formula edilməməsi və bir çox iddiaçıların daha böyük ərazini özlərinin hüquqi səlahiyyətləri çərçivəsinə almaları ilə izah edilir. Bununla belə, xarici təcrübədən məlumdur ki, məsələn 1 km2 ixrac – istehsalat zonasının normal abadlaşdırılması üçün 40...45 mln. gömrük – ticarət zonaları üçün isə təxminən 10...15 mln. ABŞ dolları həcmində yatırım tələb edilir.

AİZ-in işinin nəticə verimliliyi əhəmiyyətli dərəcədə bazar institutlarının yetişkənlik dərəcəsindən, hər şeydən öncə mülkiyyət formasına münasibətdən asılıdır. Səmərəli olması üçün AİZ istehsalatı dünya bazarının dəyişən konyukturasına çevik reaksiya göstərməlidir və belə çevikliyin şərti, müxtəlif xüsusi mülkiyyət formaları əsasında iqtisadi subyektlərin təsərrüfat müstəqilliyi hesab edilir. Eyni zamanda, AİZ icra strukturu ilə sıx kontakt zəruridir, çünki bu əsasda zonada idarəetmə qərarı, xüsusən xarici investor – portnyorlarla həlledici və hüquqi əsaslı olur. Bəzi iqtisadçıların qənaətinə görə buna yalnız, mülkiyyətin səhmdar formasının xüsusi çəkisi əhəmiyyətli olduqda nail olmaq olar ki, bu da ərazidəki aparıcı müəssisələr arasında ən azı 40% olmalıdır.

Onu qeyd etmək lazımdır ki, republikamızda xüsusi vergi, gömrük və s. güzəştlərə malik zonaların yaradılması istiqamətində işlər sürətlə davam etdirilir. Belə ki, Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində tikilən Yeni Bakı Dəniz Limanının ərazisində qurulan ATZ-i, Sumqayıt sənaye parkını, 2015 – ci ildə təməli qoyulan Mingəçevir Sənaye Parkını və s. buna misal göstərmək olar. Qeyd olunan zonaların iqtisadi səmərəliliyinin təmin edilməsi üçün ölkədə yenidən qurulan nəqliyyat infrastruktunun fəaliyyət göstərməsi (Şərq – Qərb, Şimal – Cənub dəhlizi üzrə), ixracyönümlü müəssisələrin (texnoparklar və aqroparklar) istehsal etdiyi əmtəələrin asanlıqla dünya bazarına çıxarılmasında onların çatıdırlmasının həm zaman və həm də maliyyə nöqteyi – nəzərindən səmərəliliyi investorları cəlb edilməlidir.

Eyni zamanda, yaradılacaq AİZ – rin miqyası, fəaliyyət prinsipi və onların nəticə verimli işlərinin mütləq şərtlərinə baxılmalıdır. Xarici təcrübə göstərir ki, AİZ – rin yaradılması ilkin işlər olmadan klassik anlayışda özlərinin iqtisadi mahiyyətini itirir. Güzəşt mexanizminin işə buraxılması üçün müəyyən start şəraitinə malik olmaq lazımdır (hazırlanmış ərazi, infrastruktur, istehsalat meydançası və s.). Dünya təcrübəsi göstərir ki, bunun üçün kifayət qədər vəsait konkret icraçılara dərhal ayrılmalıdır. Burada zona altında torpaq sahəsinin ayrılmasında, bu torpağın potensial mülkiyyətçi və icarəçilər arasında paylanması mexanizmi haqqında məsələ həll edilməlidir.

Zonanın idarəedilməsi məsələsi kifayət qədər vacibdir. Bu sadə və eyni zamanda, məsuliyyətli struktur olmaqla, zonal fəaliyyətdə cəlbedici təşkilati şəraiti təmin etməklə, yerində və qısa müddətdə bir çox təşkilati problemləri (qeydiyyat, viza, gömrük və s.) həll etməlidir [3].

Burada əsas tələb, AİZ – in fəaliyyətinin normativ – hüquqi təminatının, məxsusi olaraq zonal rejimin bütün tərəflərinin reqlamentlərinə malik olmaqla, əvvəllcədən hazırlanmasıdır. Bunlardan ən vacib olanı nizamlayıcı zona vergi tutmaları, lisensiziyalaşdırma, bank fəaliyyəti, girov hüququ , konsepsiyaların təqdim edilməsi, hüquqi və sosial qaydada məsələlər hesab edilir. Funksiyaların hüdudlandırılması, dövlət orqanları və zonanın idarəetmə orqanları arasında qarşılıqlı münasibətlər və qarşılıqlı hesablaşmalar haqqında müqavilələrin sahiblənmə qaydasını, mülkiyyətə sahib olmanı, qiymət əmələ gətirməni, vergi tutmanı, lisenziyalaşdırmanı, güzəşətlərin təqdim edilməsini və s. müəyyən edir.

Bununla əlaqədar olaraq zonanın maliyyə bloku haqqında məsələ ortaya çıxır ki, bunun əsasında özünün fəaliyyət prosesində büdcəsinin formalaşmasına, büdcə və kredit vəsaitlərindən istifadəyə nəzarətdə və müxtəlif səviyyəli büdcələrə qarşılıqlı münasibətin təminatında zonanın mərkəzi bankı əsas rol almalıdır. Bundan başqa, xüsusi təşkilati – hüquqi rejimin müvəffəqiyyətləri işinin zəruri şərti, zonanın inkişafı məsələsinin həlli üçün yetərli həcmdə manat və valyuta investisiyalarının cəlb edilməsinə zəmanət verən xüsusi girov – sığortalı investisiya fondunun yaradılmasıdır. Maliyyə hesablaşma blokunun işi üçün AİZ – də səlahiyyətli zona bankının yaradılması zəruridir. Qeyd olunduğu kimi AİZ – rin maliyyə mexanizminin zəruri elementi girovlu – sığorta fondlarının olmasıdır. Girovlu – sığorta fondlarının qurulmasına rəğmən xarici investisiyaların geri qaytarılmasına zəmanətin yaradılması (yaxud dövlət zəmanətli) zonada sivilizasiyalı sosial – iqtisadi münasibətlərin qurulması proseslərində katalizator rolunu oynaya bilər. Odur ki, AİZ – rin nəticəverimli fəlaliyyətinin zəruri şərti, birinci fəsildə qeyd olunduğu kimi işlənmiş proqramın (dövlət proqramının) olması və proqram – məqsədli yanaşmadan istifadədir.

Sərmayənin qorunmasına zəmanətin olmaması ilə güzəştlərdən istifadə edilməsi, burada güzəştlər qısa müddətli dövrdə çevik gəlir əldə edilməsinin təmin edilməsində istifadəyə gətirmişdir. Buna isə ticarət – vasitəçilik sferasında və spekulyativ əməliyyatlarda nail olmaq olar. Bundan başqa, istehlak idxalı üzrə ixtisaslaşmada alınmış sərmayənin xaricə axması baş verir. Əlavə olaraq, hesaba alınmayan pul kütləsi yaranır ki, bu da güzəştlərin köməyi ilə qeyri – formal kapitalın artırılması üçün istifadə edilir.

Milli valyutanın azaldılmış kursu AİZ – də idxal əməliyyatları ölkənin digər qalan ərazilərinə nisbətən daha əlverişli edir. Ona görə də, zona təsərrüfatının inkişafı rüsumsuz idxalın genişləndirilməsinə yönəlmişdir. Bu isə yerli istehsalçının əzilməsinə gətirir. Nəticədə ərazinin iqtisadiyyatında yeni deformasiyalara səbəb olmaqla, istehsalatda durğunluğa gətirmişdir.

AİZ təcrübəsi bir daha göstərir ki, regional iqtisadiyyat üçün tormozlayıcı amil nəqliyyat – xidmət şəbəkəsinin inkişaf etməsi hesab olunur. Ona görə də, AİZ – rin təşkilində mövcud və yaradılan infrastruktura böyük diqqət ayrılması zəruridir. AİZ iqtisadi siyasətinin işlənməsində ən başlıca yer onlarda istehsal edilən məhsulun rəqabətqabiliyyətliliyinə verilməlidir. Elektrik enerjisinin, xammal və materialın qiymətlərinin daimi artması şəraitində və nəqliyyat daşınmalarına sərflərin artmasında istehsal edilən məhsulun maya dəyərinin yüksəlməsi labüddür. Onun bahalanması, xüsusən əgər əsas xammalın əsas hissəsi, komplektləşdirici məmulatlar və enerji digər regionlardan daxil olursa, məhsulun rəqabətqabiliyyətliliyi azala bilər. Deməli, həm digər regionların iqtisadiyyatından və həm də bütövlükdə milli iqtisadiyyatın vəziyyətindən sıx asılılıq mövcuddur.

Beləliklə, indiki zamanda regionların inkişafı probleminin həlli və ayrı – ayrı regionların durğunluq və yaxud iqtisadi tənəzzül vəziyyətindən dünya təcrübəsində kifayət qədər səmərəli azad iqtisadi zonaların köməyi ilə çıxarılması perspektivli olmaqla, respublikanın nəqliyyat infrastrukturu, enerji təminatı, xammal-material resursları, coğrafi mövqeyi və s. buna tam imkan verir. Burada Respublikanın müvafiq regionları üzrə yerli resurslar uçota alınmaqla ixracın stimullaşdırılması üçün mərhələlərlə azad iqtisadi zonaların (texnoparkların, sənaye məhəllələrinin, aqroparkların və s.) yaradılması böyük perspektivlər vəd edir. Həmçinin respublikanın iqtisadi inkişaf prioritetlərinə uyğun olaraq, Strateji Yol Xəritəsi və regionların inkişafı üzrə Dövlət Proqramının müddəalarına uyğun olaraq

qısa zaman kəsiyində ölkə iqtisadiyyatına və o cümlədən, regional iqtisadiyyatın inkişafına müsbət effekti saxlamanın ən optimal həlli yolu AİZ – rin yaradılması hesab edilməlidir[2].

Regionların inkişafı çərçivəsində azad iqtisadi zonaların şəkildəyişməsi olan, texniki – tətbiq zonaları daha böyük əhəmiyyət kəsb edir və təcrübədə texnoloji parklar, texnopolislər, sənaye parkları, sənaye məhəllələri, elm və innovasiya mərkəzləri formasında yaradılır. Onların yaradılması lokal ərazilərin iqtisadi inkişafının təminatı və reallaşdırılması şəraitinə keyfiyyətcə yeni yanaşmanı müəyyən edir [4].

Texniki – tətbiqi zonaların şəkildəyişməsi kimi, texnopark və texnopolislərin yaradılması və fəaliyyətinin analizi üzərində dayanmaq zəruridir. Onların dünyada sayı minlərlə hesablanır. Onlar innovasiya fəaliyyətini həyata keçirən strukturlara malik regionlarda (Sumqayıt, Mingəçevir): yüksək texnologiyalı müəssisələr, elmi – tədqiqat müəssisələri və s.kimi yaradılır. Başqa sözlə, onların yaradılmasında artıq mövcud olan elm, təhsil və sənaye potensialına əsaslanırlar.

İndiki zamanda regionlarda texnopolis və texnoparkların yerləşdirilməsi üçün ən böyük əhəmiyyətə malik olan amillər müəyyən edilmşdir

- regionun elmi – texniki potensialının profilinin elmi – texniki proqresin müasir istiqamətinə uyğunluğu və onun təhsil potensialı ilə uzlaşması;
- yüksək infrastruktur səviyyəsi;

Azərbaycanda fundamental və tətbiqi tədqiqatlar sahəsində əhəmiyyətli nailiyyətlərin əldə edilməsi ilə şərtləndirilir. Ona görə də, texnoparklar müxtəlif rəqabətqabiliyyətli məhsul buraxan yüksək texnoloji istehsalatın formalaşdırılmasına qadir olmalıdır.

Texnoparkların yaradılması nümunələri respublikanın regionlarında artıq mövcuddur (Sumqayıt, Pirallahı, Mingəçevir). Onlar müxtəlif təşkilati – hüquqi formalarda mövcud olub, aşağıdakı kimi qruplaşdırıla bilər: qeyri – kommersiya təşkilatları, aksioner (səhmdar) cəmiyyət, dövlət müəssisələri, elmi – tədqiqat təşkilatlarının struktur bölmələri. Texnoparkların miqdarının sürətlə artması müəyyən dərəcədə onların qeydiyyatının mürəkkəb olmayan proseduru və zəngin elmi – texniki və texnoloji potensialının olması ilə izah edilir.

Regionlar üzrə texnoparkların yerləşmə coğrafiyası onların elmi – tədqiqat fəaliyyəti mərkəzləri tərəfindən cəzb edilməsidir. Belə ki, parkların əsas hissəsinin Abşeron iqtisadi rayonunda və Bakı şəhərində yerləşdirilməsi planlaşdırılmışdır. Məsələn, Sumqayıtda italyan şirkətlərinin iştirakı ilə "Sumqayıt beynəlxalq texnoparkı" BM yaradılmaqdadır. Regional inkişaf sistemində texnoparklar xüsusi yer tutur. Azad iqtisadi zonaların bu formasının spesifik xüsusiyyəti onların innovasiyalı fəaliyyəti əsasında kiçik və orta biznesin qurulması və inkişafı prosesində əsasən mühərrik kimi onların rolunu müəyyən edir. Eyni zamanda, texnoparkların fəaliyyət göstərməsi regional inkişafın bütün blokları ilə - iqtisadi, sosial, ekoloji və müəyyən dərəcədə bilavasitə resurslarla əlaqədardır.

Texnoloji parkların funksiya və təyinatı belə müxətlif tərəfli təsəvvür olunmaqla, onların aparıcı regional mərkəz kimi, regionun yaxın illərdə iqtisadiyyatının innovasiyalı inkişaf modelinə yönəlmiş olmaqla qurulması hədəflənir. Gətirilən hər bir istiqamət uyğun sahədə müəyyən regional və dövlət vəzifəsi kimi təsəvvür edilir: iqtisadiyyatın kiçik elmi tutumlu sektorunun qurulması; ixrac potensialının inkişafı və möhkəmləndirilməsi, deməli regionun iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi; regionun investisiya cəlbediciliyinin yüksəldilməsi; müəyyən sosial məsələnin həlli; və s. Ekoloji və resurs probleminin həllində texnoloji parklar vacib rol oynaya bilər.

Bununla belə, əksər texnoparklar AİZ – lə müqayisədə hər hansı bir əhəmiyyətli üstünlük əldə etmir və onların iş rejimləri digər təşkilatlarla eyni olmaqla səmərəsi AİZ - ə nəzərən daha yüksək olur. Özünün istehsalını texnoparklarda yerləşdirən müəssisələr müəyyən üstünlüyə malik olur. Müəssisələrin texnoloji parklara daxil olmasına cəhd göstərmələrinin əsas səbəbi, belə parkların hər birini xarakterizə edən, çox saylı amillərin sinergik ( yunancadan birgə təsir edən effekt) effekti olub, bunlar sayəsində yüksək texnologiyalı və elmi tutumlu istehsalatın gələcək inkişafı stimullaşdırılır.

Bütövlükdə, texnoparklara dəstək predmeti ola biləcək əsas istiqamətləri aşağıdakı kimi açmaq olar: texnoparkların binalarının və texnoparkların biznes inkubatorlarının rekonstruksiyası; texnoparkların və yeni başlayan xırda müəssisələrin menecerləri komandasının hazırlanması; xırda yeni başlayan firmalara maliyyə dəstəyi; ayrı –

ayrı perspektiv (strateji) texnoloji parklara selektiv maliyyə dəstəyi [5].

Bununla belə, texnoloji parklara regionların əsas inkişafı mexanizmi kimi baxmaq olmaz, belə ki, bu ona səbəb ola bilər ki, burada regional siyasətdə digər vacib mexanizmlər müvafiq dəstək qazana bilməz. Ona görə də, texnoparklara regional inkişafın digər struktur bəndləri ilə qarşılıqlı əlaqədə baxmaq lazımdır və onların yaradılmasında isə regionun sənaye siyasətinin ərazicə inkişafının ümumi konsepsiyaları uçota alnmalıdır. Texnoloji parklar bu inkişafı sürətləndirməli və regionun bütün həyati təminatı sistemini ağır durumdan çıxarlmalıdır.

Beləliklə, böyüyən Azərbaycan iqtisadiyyatı şəraitində ən məqbul AİZ formalarından biri texnoparklar olub, əhəmiyyətli ilkin yatırım və geniş güzəştlərin təqdim edilməsini tələb etməməklə istehsalatın elmi-texnoloji işləmələrin mənimsənilməsinin sürtətlənməsi əsasında ərazinin sürətli inkişafı üçün yaxşı start meydançası olmağa qadirdir; rəqabətqabiliyyətli yeni texniki materialların yaradılması və onların yerli və xarici elmi tutumlu məhsul bazarında müvəffəqiyyətlə reallallaşdırılması; elm və istehsalatın elmi, təsərrüfat və iqtisadi əlaqələrinin möhkəmlənməsi. Texnoparklar menecement verişlərinə yiyələnmək, işçilərin və mütəxəssislərin ixtisaslarının artırılması, yeni şəraitdə işləməyə qadir kadrların hazırlanması üçün poliqon ola bilər.

Müasir şəraitdə AİZ – rin milli iqtisadiyyata tətbiqi texnologiyası inkişaf etmiş bazar sisteminə məxsus təşkilati – hüquqi şərtlər əsasında aparıla bilməz, bunun əsas səbəbi ölkə iqtisadiyyatının ümumi vəziyyəti və dövlət dəstəyi bazasının resursunun ixtisarı ilə bağlıdır. Ona görə də, AİZ – rə yeni şərt və tələblər uyğun normativ bazaya bağlı olmaqla, bütün ieararxik səviyyələrdə dövlət hakimiyyət orqanlarının təşkilati işləri ilə təsdiq edilməlidir.

İndiki zamanda bütövlükdə regionların ərazicə inkişafının hüquqi bazası və xüsusən də azad iqtisadi zonalar bu inkişafın formalarından biri olub, təşkilati işin özü kimi səpələnmiş (pərakəndə) və qaydasızdır. Bununla belə, onu da dərk etmək lazımdır ki, hüquqi müstəvinin formalaşdırılması iqtisadiyyatın dövlət tənzimlənməsinin tərkib hissəsidir.

Dünya təcrübəsi göstərir ki, azad iqtisadi zonaların dövlət tənzimlənməsinin müəyyən konseptual tələblərə uyğun qurulması zəruri olmaqla, dövlətin təşkilati işinin müvəffəqiyyətliliyini təmin edir. Buna ilk növbədə bütün tərəflərin maraqlarının uçotu aiddir: dövlətin; regionların; azad təşkilati – hüquqi rejimin yaradıldığı ərazi; baxılan ərazidə yaşayan və fəaliyyət göstərən subyektlər. Kifayət qədər vacib əhəmiyyətə ərazicə inkişafa yönəlmiş olan strateji məqsəd, AİZ – rin yaradılmasında prioritetlərin seçimi və onlarda AİZ – rin fəaliyyət mexanizminə yönəlmək malikdir. Dövlətin təsiri sistemli və qaydaya salınmış xarakterə malik olmaqla, dəqiq işlənməli və əvvəlki tələblərin həyata keçirilməsinin mümkünlüyünü təmin edən mexanizm və prosedurlar qanuniləşdirilməlidir.

Zonanın yaradılmasında ərazicə inkişafa dövlət müdaxiləsində "qaçınılmazlıq" prinsipinə əsaslanmaq lazımdır və bu zaman region (ərazi, bölgə) problemli regional vəziyyəti həll etmək üçün kifayət qədər hüquq yaxud resursa malik olmur. AİZ – rin yaradılması və fəaliyyəti prosesinin dövlət tənzimlənməsinin zəruriliyinin əsaslandırılmasında belə yanaşmadan istifadə edilməsi, zəruri resursların məhdud ərazidə toplanmasının təminatına imkan verir. Ancaq, bu prinsip regionların öz imkan və resurslarına münasibətdə tam informasiya açıqlığını tələb edir. Bu iki prinsipial şərt, müsbət naticə alınmasında vacib əhəmiyyətə malikdir.

Azad iqtisadi zonaların yaradılmasında respublikanın bölgələri və yaxud bələdiyyə orqanları təşəbbüslərlə çıxış etməli və buna uyğun olaraq AİZ – rə aid olan bütün dövlət tapşırıqlarının yerinə yetirilməsində iştirak etməlidirlər. Ədəbiyyatlarda "dövlət tənzimləyir – regionlar fəaliyyət göstərir" sxeminin ideal olduğu qeyd olunur. Eyni zamanda, dövlətin regionların ərazicə inkişaf etdirilməsində ümumi marağının olduğu vəziyyətlərdə hakim təşəbbüslə çıxış etməsi və onun bu və ya digər regionda reallaşdırılmasını təmin etdiyi, regional quruluşların isə öz növbəsində dövlətin təşəbbüsünün reallaşdırılmasında razılığı və iştirakının isə mütləq olduğu hallar da istisina edilmir.

Xüsusi rejim hüdudlarında kritik vəziyyətlərin həlli üzrə konkret fəaliyyəti regionların özü işləməklə həyata keçirməlidir. Bunlara bütün məxsusi inkişaf mənbələrinin aktivləşdirilməsini, resurlara qənaət rejimlərinin daxil edilməsini, dövlət resurlarından və xarici investisiyalardan zəmanətli olaraq ciddi məqsədli istifadə edilməsini

aid etmək olar. Burada dövlət özünün regional dəstəyini, ərazicə inkişaf subyektlərinin icrası üçün məcburi olan müəyyən şəraitlərdəki müxtəlif təzahürlərində təqdim etməsi halı qanunauyğun təsəvvür edilir.

Baxdığımız məqsədlərin sistemləşdirilməsi prosesi, bizim təsəvvürlərimizə görə xüsusi (azad) iqtisadi zonaların yaradılmasında proqram - məqsədli yanaşmanın təşkili üçün zəruridir. Onun əsas xüsusiyyəti, regional inkişafda proqram – məqsədli yanaşma müxtəlif idarətmə bəndlərinin iştirakını təşkil etmək və qüvvələrini birləşməkdən ibarətdir. Proqram – məqsədli yanaşma konsepsiyası nisbətən uzun müddətdə tətbiq edilməklə, faydalılığını və dəyişən vəziyyətə adaptasiya olunduğunu sübut etdi.

Təklif edilən konsepsiyasının mahiyyəti ondan ibarətdir ki, burada tənzimləyici struktur milli səviyyədə regionun ərazicə inkişafı çərçivəsində regional şərtlər uçota alınmaqla bir neçə ilə AİZ proqramı işləyir. Təsdiq edildikdən sonra iştirak edən təşkilatlar arasında onların maliyyə imkanlarını birləşdirən müqaviləyə çevrilir.

Bu təşkilatlar bütün iştirakaçılar üçün aydın şəkildə, AİZ – rin ərazicə inkişafının məqsədini, həmçinin AİZ – in bütün subyektlərinin səlahiyyət və vəzifələrinin aydın işarə olunmaqla, koordinasiyalı təsir etdiyi dövrün zaman çərçivəsini işləyir. Sistemin hesabatını təmin edən izləmə, qiymətləndirmə və maliyyə nəzarəti ilə əlaqədar vəzifələr müəyyən edilir.

Bizim üçün sərhəd bölgələrinin inkişafı, hasilat sənayesinin və nəqliyyat arteriyasının dirçəldilməsi, insanların dəyişən əmək bazarına məqsədilə onların hazırlanması və məşğulluğun artırılması kimi “yerli təşəbbüslər” tipli proqram daha böyük maraq doğurur. AİZ – rin yaradılmasında proqram – məqsədli yanaşmadan istifadə alqoritmini aşağıdakı kimi təsəvvür etmək olar. Regional vəziyyətin qiymətləndirilməsi və xüsusi təşkilati – hüquqi rejimin daxil edilməsinin zəruri olduğu ərazi müəyyən edildikdən sonra iştirakçı tərəflər müəyyən əraziyə uyğun proqram sənədləri işləyirlər. Azad zonanın yaradılması məqsədi müəyyən edilir, AİZ – rin tənzimləmə siyasəti işlənir və bunun köməyi ilə proqramın qüvvədə olduğu müddətdə qoyulan məqsədə nail olmaq mümkün olur. Proqram sənədlərinin hazırlanması regional yaxud respublika səviyyəsində baş verir, belə ki, proqramın müddəalarında sonradan yaranan praktiki detallar olmur, halbuki, yerində, zonanın yaradıldığı rayonda bu detallar işlənir. Regional səviyyədə AİZ – rin yaradılması siyasətinin prioritetləri və onların xüsusi istiqaməti şərh edilir, strategiya üzrə sənədlərinin həcmi və məzumunu təyin edilir [7].

AİZ proqramının razılaşdırılması prosesi problemli obyekt yaxud ərazi vahidinin ərazicə inkişafı haqqında razılıq müqaviləsi kimi təsəvvür edilməlidir. O, bu ərazinin səlahiyyətli orqanları, prorqamın həyata keçirilməsinə həlledici məsuliyyət həvalə edilən və ölkədə ərazicə inkişafın tənzimlənməsinə məsuliyyət daşıyan, dövlət səviyyəsində təşkilati orqan arasında bağlanır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əliyev Şəfa Tiflis oğlu.“Xüsusi iqtisadi zonalarda vergilərin mühüm aspektləri” http://vergijurnali.az/upload/File/6-2014.pdf

2. İsmayılov F.N. “Azərbaycanda azad ticarət zonası tipli xüsusi iqtisadi zona yaradılmasının perpektivləri”. ADİU. Magistrantların XVII Respublika Elmi Konfransının Materialları. II hissə. Sumqayıt, 2017, səh. 431 – 433.

3. İsmayılov F.N. “Azərbayacn İqtisadi inkişafında azad ticarət zonasının rolu”. ADAU – nun Elmi Əsərləri. 2017, № 4, səh.173 – 178.

4. Rasim Abutalıbov - “Xüsusi iqtisadi zonaların sosial-iqtisadi inkişafa təsiri”

5. P.Həsənov. “Azad iqtisadi zonalar”. Bakı,2005.

6.Ə.Əlirzayev, M.Əliyev. “İqtisadiyyatın dövlət tənzimlənməsinin normativ əsasları və metodologiyası”. Bakı, 2001

7. A.H.Tağıyev, Q.O.Kərimov. “Azad iqtisadi zonalar”. Bakı -1996.

**Фазил Джамил оглы КАРИМОВ, д.э.н., доц.**
**Джале Ехтибар кызы НАЗАРЛИ**
**Фарид Арзу оглу САФАРЛИ**
Азербайджанский Технологический Университет
E-mail: fazilkerimov54@mail.ru

# ФОРМИРОВАНИЕ СВОБОДНЫХ ЭКОНОМИЧЕСКИХ ЗОН И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Резюме**

Развитие и широкое применение информационных технологий всеми слоями общества является глобальной тенденцией мирового развития. Использование информационных технологий имеет решающее значение для повышения уровня жизни граждан, повышения конкурентоспособности национальной экономики, расширения ее возможностей по интеграции в мирохозяйственную систему.

Исследовательская работа посвящена теме «Цифровые особые экономические зоны и перспективы их развития», которая является одной из актуальных проблем 21 века. Информатизация мировой экономики – создание глобальных телекоммуникационных сетей, развитие сети Интернет, развитие новых технологий, программного обеспечения и высокотехнологичного оборудования, развитие мирового рынка ИТ-услуг определили характер глобализации и ее темпы. разработка.

**Ключевые слова:** экономическая зона, технопарк, бизнес, агропарк.

**Fazil Jamil oghlu Karimov d.p.e. associate professor**
**Jala Etibar gizi Nazarli**
**Farid Arzu oghlu Safarli**
Azerbaijan Technological University
E-mail: fazilkerimov54@mail.ru

# FORMATION OF FREE ECONOMIC ZONES AND SOCIAL-ECONOMIC ASPECTS OF DEVELOPMENT IN THE REPUBLIC OF AZERBAIJAN

**Summary**

The development and wide application of information technologies by all layers of society is a global trend of world development. The use of information technologies is of decisive importance for raising the standard of living of citizens, increasing the competitiveness of the national economy, and expanding its opportunities for integration into the world economic system.

The research work is dedicated to the topic of "Digital special economic zones and their development prospects", which is one of the topical issues of the 21st century. Informatization of the world economy - the creation of global telecommunication networks, the development of the Internet, the development of new technologies, software and high-tech equipment, the development of the world IT services market have determined the nature of globalization and its pace of development.

**Keywords:** economic zone, technopark, business, agricultural park.

**Minurə Hacı qızı KƏRIMOVA, i.f.d., b.m.**

**Səbinə Bəxtiyar qızı SADIQOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Oqtay İmran oğlu BAYRAMOV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

# MÜASİR ŞƏRAİTDƏ MALİYYƏ RİSKLƏRİNİN NEYTRALLAŞDIRILMASI VƏ İDARƏ OLUNMASI MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

İstənilən müəssisə və təşkilatın maliyyə fəaliyyətinin nəticələrinə ola biləcək təsiri çox müxtəlif növ risklərlə əlaqədardır. Müəssisə və təşkilatın maliyyə sahəsi ilə eyni zamanda olan xüsusi bir hissı maliyyə riskləri adlanır. Maliyyə riskləri müəssisə və təşkilatın ümumi portfelində olduqca böyük, əhəmiyyətli rol oynayır.

Maliyyə sferasının genişləndirilməsi, maliyyə risklərinin, ölkəmiz üçün ən yeni maliyyə texnologiyalarının yaradılması və digər əlamətlərə təsir səviyyəsi, yalnız hansısa təşkilatın fəaliyyətinin nəticələrinə deyil, ümumi şəkildə bazarın iqtisadi vəziyyətinə, konyukturasına təsir edir.

**Açar sözlər:** maliyyə, risk, biznes, kredit, sığorta, faktorinq, resurs.

**JEL: F21**

**Giriş**

Biznes fəaliyyətinin reallaşması mərhələsində müəssisənin ola biləcək risklərin aşkarlanmasından, onların yaranmas səbəblərini öyrəndikdən, baş verə biləcək potensial itkiləriin təhlilindən sonra firma qarşısında eyni risklərin aşağı salınması proqramının işlənib hazırlanması vəzifəsi dayanır. Yəni menecer risklərin neytrallaşdırılması ilə bağlı ən əlverişli metodların seçilməsi üzrə qərar verməlidir.

Müəssisə təsərrüfat fəaliyyətinin təşkili prosesində maliyyə əməliyyatlarının, digər yüksək riskli fəaliyyət növlərinin reallaşmasından imtina edə bilər, yəni riskdən yayına bilər. Bu yaranan risklərin neytrallaşdırılmasının sadə, radikal metodu hesab edilir. Risklə əlaqədar potensial itkilərdən tamamilə uzaqlaşmağa imkan yaradır, lakin riskli fəaliyyətlə bağlı mənfəətin əldə edilməsinə şərait yaratmır. Digər tərəfdən, bəzi hallarda riskdən yayınma mümkün deyildir. Ona görə ki, bir risk növündən yayınmaq,digər riskin yaranmasına gətirib çıxara bilər. Bu səbəbdən də, biznes fəaliyyətində yaranan yüksək dərəcəli risklərin neytrallaşdırılmasında bu üsuldan istifadə etmək məqsədəuyğun sayılır.

Maliyyə riskinin neytrallaşdırılmasında riskdən yayınma metodundan istifadə edilməsi aşağıdakı şərtlər daxilində səmərəlidir:

- risk növündən imtina edilməsi daha yüksək, eyni dərəcəli başqa risklərin ortaya çıxmasına səbəb olmur;
- riskin dərəcəsi, sahibkarlıq fəaliyyətin ola biləcək gəlirlilik səviyyəsindən olduqca yüksəkdir;
- firma maliyyə riskləri ilə bağlı olan itkilərini vəsaitləri hesabına ödəmək iqtidarında olmur, çünki bu itkilər olduqca böyükdür.

**Mövzunun aktuallığı.** Maliyyə riskləri müəssisənin həm maliyyə institutları, banklar və. s ilə münasibət zamanı yaranır, həm də müəssisənin perspektiv inkişafının da bir çox aspektlərinə təsirsiz ötüşmür. Maliyyə riskləri çoxşaxəliliyi ilə səciyyələnir, eyni zamanda strateji idarəetmə qərarlarının qəbulu və reallaşdırılması məqsədilə qruplaşdırılır. Bu disertasiya işində maliyyə risklərinin növləri, onların strateji idarə edilməsi prinsipləri ətraflı şəkildə təhlil edilmişdir. Müəssisənin risklərinin idarə edilməsi, maliyyə menecmentinin ən spesifik sferasıdır. O, müəssisənin maliyyə fəaliyyətinin məqsədlərinə yiyələnməyi təmin etmək nöqteyi nəzərindən strateji maliyyə menecmenti sistemində önəmli rol oynayır. Müəssisənin maliyyə təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətlərindən biri maliyyə risklərinin mənfi nəticələrinin neytrallaşdırılmasıdır. Neytrallaşma fərqli maliyyə mexanizmlərinin dəstəyi

ilə reallaşdırılaraq xarici və daxili mexanizmlərə bölünür.

**Təqdqiqatın məqsədi:** Müəssisənin maliyyə dayanıqlığının nəzər aspektlərinin, konseptual bazasının tədqiqi ilə müəssisələrin maliyyə risklərindən maksimum şəkildə sığortalanması məqsədi ilə risklərin yaranması amillərinin aşkarlanması, onun təsirinin ən aşağıya endirilməsi və proqnozlaşdırılması üçün uyğun metodikanın işlənməsi, maliyyə dayanıqlılığın təhlili, likvidliyin və maliyyə nəticələrinin təhlili, ümumilikdə müəssisənin maliyyə gücünün müəyyən olunması və qiymətləndirilməsi, maliyyə potensialının inkşafında önəmli rol oynayan borclanmanın inkişaf formalarının tədqiqi və böhranın səviyyəsinin səciyyələndirilməsinin aparılmasıdır.

**Tədqiqat obyekti:** Maliyyə resurslarının idarə edilməsi əhatə edir

**Tədqiqat metodları:** Tədqiqatın metodoloji əsaslarını problemlərlə əlaqədar fərmanlar, sərəncamlar, qanunvericilik və icra orqanlarının qərarları, normativ sənədləri, Azərbaycanın yaxın və problemlərinə həsr edilmiş olan əsərləri, mövcud mətbuatın materialları təşkil edir.

**Materiallar və müzakirələr**

Firma heç də hər zaman bütün növ risklərdən yayına bilməz. Onların böyük bir qismini "öz üzərinə götürür", yəni düşünülmüş şəkildə riskə gedir, edilən risklər zamanı formalaşan zərərlərin əvəzi ödənilməz itkilərə gətirib çıxarmayana qədər bizneslə məşğul olur. Bəzi risklərin özündə müəyyən mənfəət potensialı olduğundan, başqa bir qrup risklər isə qaçılmaz olduğu üçün məqbul sayılırlar[1].

Riski üzərinə götürməkdə ən əsas məqsəd ola biləcək itkilərin əvəzini ödəməkdən ötrü zəruri resurs mənbələrini axtarıb tapmaqdır. Belə olan halda itkilər sahibkarlıq riskinin, ümumiyyətlə itkilərin reallaşmasından sonra yerdə qalan istənilən resurslar vasitəsi ilə ödənilir. Əgər firmada olan resurslar kifayət etmirsə, onda bu, biznes fəaliyyətinin azalmasına səbəb ola bilər.

Sahibkarlıq subyektlərində itkilərin ödənilməsi üçün qalmış olan resursları 2 qrupa bölmək olar:

- biznesin daxilində olan resurslar;
- kredit resursları.

İtki baş verən zaman bütün mülkiyyət növlərinin eyni anda zədələnməsi halı çox az olur.

Buna görə də daxili resurslara aşağıdakıları aid etmək olar:

- müəssisəənin olan bina, tikililərin fiziki formada zədələnməsi zamanı zərər görməyən kassadakı nağd şəkildəki pul;
- zədələnmiş mülkiyyətin digər hissəsinin dəyəri;
- istehsal, maliyyə fəaliyyətinin mümkün davam etdirilməsindən yaranan gəlir;
- qiymətli kağızlardan, gəlirli investisiyalardan daxil olmuş faiz gəlirləri, dividend.
- biznes sahibləri vasitəsi ilə biznesi dəstəkləmək üçün sərmayə edilən vəsaitlər;
-hesabat dövründə qazanılmış mənfəətin bölüşdürülməmiş qalığı, mənfəətin bölüşdürülməsinə qədər zəruri yarandıqda müxtəlif maliyyə risklərinin mənfi nəticələrinin ləğvinə yönəldilə bilən maliyyə resursları ehtiyatı formasında nəzərdən keçirilə bilər;
- qanunvericilik tələblərinə, eyni zamanda sahibkarlıq firması qaydalarına uyğun olaraq hesabat zamanı əldə edilən mənfəətdən beş faizdən az olmayan hissəsi istiqamətləndirilir.

Kredit resursları. Əgər müəssisə sahibkarlıq risklərinin təsiri nəticəsində ortaya çıxan bütün itkiləri daxili resurslarla ödəmək iqtidarında olmazssa, o zaman onlardan bir hissəni kredit resurslarından yararlanmaqla ödəmək olar[2].

Lakin belə olan zaman, kredit resurslarının əldə edilməsi şansı olduqca məhdudlaşır. Məhdudiyyətlərin ən əsası isə müəssisənin növbəti gələcək mənfəətlilik dərəcəsini sual altında olmuş olmasıdır. Kredit resurslarının yararlanmaq imkanı çox zaman itkilər baş verdiyi halda biznesin qalıq dəyərindən asılı olur. Məhs elə bunun üçündür ki, firma hələ itkilər baş verməzdən əvvəl kredit təşkilatını inandırmaq məqsədi ilə itkilərdən qorunmaq üzrə biznes plana sahib olmalıdır. Risklərin reallaşmasından sonra kredit vəsaitlərinin cəlb edilməsi üzrə başqa bir məhdudiyyət kreditin qiymətidir. Ona görə ki, kredit resurslarından istifadə firmanın maliyyə vəziyyətini aşağı sala bilər.

Risklərin idarə olunmasında maliyyə risklərinin ötürülməsinin istiqamətləri aşağıdakı kimi təsnifləşdirilmişdir.

1. Faktorinq müqaviləsinin bağlanması vasitəsilə risklərin yönləndirilməsi. Bu zaman ötürülmənin aspekti formasında müəssisənin kredit riski çıxış edir. Bu risklərin böyük hissəsi kommersiya bankına, eləcə də ixtisaslaşmış fakto-

rinq şirkətlərinə ötürülür. Bu da kredit risklərinin aşağı maliyyə nəticələrini olduqca neytrallaşdırmağa imkan verir.

2. Zaminlik müqaviləsinin bağlanması formasında risklərin ötürülməsi. Müqavilədə qeyd edildiyi kimi zamin duran şəxs, üçüncü şəxslərin kreditoru qarşısında öhdəliklərini qismən və ya tam formada yerinə yetirməsinə cavabdehlik daşıyır. Borclu tərəfindən zəmanətlə təmin edilmiş öhdəliklərin yerinə yetirilməməsi, eyni zamanda layiqincə yerinə yetirilməməsi anında borclu və zamin kreditor qarşısında ümumi məsuliyyət daşıyırlar. Müəssisə zəmanətlə borc kapitalını cəlb edilməsi üçün istifadə edir. Bu zaman zamin qarşısında zəmanət müqaviləsinin mütəq yerinə yetirilməsinə görə məsuliyyət daşıyır. Kreditor firma kreditin geri qaytarılmaması riskini, bununla bağlı bütün itkiləri zaminə ötürür.

3. Risklərin xammal, eyni zamanda material təchizatçılarına ötürülməsi. Bu halda ötürülmə predmeti formasında hər şeydən əvvəl, əmlakın göndərilməsi prosesində, yükləmə və boşaltma işlərinin aparılması zamanı onun müəyyən qisminin, hamısının xarab olması, itirilməsi üzrə risklər çıxış edir. Lakin qiymət azalması, məhsulların bazar qiymətlərinin aşağı düşməsilə əlaqədar itkiləri, yüklərin çatdırılmasındakı gecikmələrlə bağlı olsa da firma tərəfindən tam formada geri ödənilir.

4. Birja müqavilələrinin bağlanması yolu ilə risklərin ötürülməsi. Risklərin ötürülməsinin bu metodu hecerləşdirmə vasitəsilə həyata keçirilir və sonra risklərin neytrallaşdırılmasının müstəqil metodu kimi yoxlamadan keçiriləcəkdir.

Sığorta şirkətlərinin seçilməsinin önəmli meyarları kimi heçdə hər zaman “iri sığorta təşkilatı” statusu onun etibarlı olması mənasına gəlmir. Əgər müəssisə böyük dövriyyəyə və potensiala malikdirsə, o zaman o aşağı büdcəyə malik sığorta şirkəti ilə müqayisədə maliyyə istiqamətindən daha da dayanıqlıdır.

Risklərin azaldılması, neytrallaşdırılması metodlarından biri də, ümumi işdə maraqlı olan digər iştirakçılarla birləşərək risklərin bölüşdürülməsidir. Müəssisə ümumi problemlərin həllinə digər müəssisələri eləcə də fiziki şəxsləri cəlb edərək öz risk səviyyələrini azaltmaq imkanına malikdir. Bunun üçün səhmdar cəmiyyətlər, maliyyə sənaye qrupları təsis edilə bilər. Müəssisələr səhmlər ala, müxtəlif konsorsium, səhm mübadiləsi apara, konsernlərə və assosiasiya qoşula bilərlər[5].

Risklərin neytrallaşdırılmasının ən önəmli üsulu kimi diversifikasiyanı misal göstərmək olar.. Risklərin diversifikasiyanın ən əsas formaları aşağıdakılardır:

- Müəssisənin biznes fəaliyyətinin diversifikasiyası.
- Portfel qiymətli kağızların diversifikasiyası.
- Real investisiyalaşdırma proqramının diversifikasiyası.
- Kredit portfelinin diversifikasiyası.
- Material xammal dəstləşdirici məmulatların malgöndərənlərinin diversifikasiyası.
- Məhsul alıcılarının diversifikasiyası.
- Firmanın valyuta səbətinin diversifikasiyası.

Bütün sadalanan diversifikasiya metodları risklərin minimuma endirilməsinə gətirib çıxarır. Risklərin minimal, maksimal həcmi hər zaman itirilmiş pul vəsaitlərinin və əmlakın həcmi vasitəsi ilə təyin edilir. Lakin burada mənəvi itkiləri və sarsıntıları da nəzərə almaq lazımdır. Risklər siyasətində itirilmiş vəsaitlərin, dağıdılmış əmlakın yerinin doldurulması informasiyası da aydınlaşdırılmalı, əvvəlcədən belə bir mənbə ehtiyatı nəzərə alınmalıdır [6].

Problemlərin xarakteri və məzmunu və hər bir firma və təşkilatlarda fərqli olur. Bir müəssisədə iflasa uğrama, plan tapşırıqlarının mənfi ilə yerinə yetirilməsi, digərində satış, kadr məsələsilə əlaqədar ola bilər. Bu səbəbdən ilk olaraq problemin mümkün səbəbləri situasiyaları öyrənilməli və vaxtında həll edilməlidir. Bunlar görülməzsə daha yeni problemlər yarana bilər. Bunun üçün problemlərdən qaynaqlanan vəzifələr dərindən təhlil edilməlidir.

Vəzifələrin təhlili zamanı aşağıdakı məsələlərə diqqət yetirmək lazımdır:

- Sistemin idarə edilməyənb ilkin formalarının parametrinin nəzərdən keçirilməsi.
- Ayrı-ayrı problemlərin, vəzifələrin həlli üçün qərarların qəbulu imkanlarını təyin etmək.
- Sistemin planlaşdırılan vəziyyətinin təyin edilməsi.
- Əlverişli qərarların qəbul edilməsi, çıxış yolunun tapılması üçün meyarların təyini.
- Resursların məhdudluğunu, real situasiyanı nəzərə almaq şərti ilə vəziyyətdən çıxış yollarının hazırlanması.

Vəzifələr və problemlər idarəetmə obyektinin istənilən vəziyyəti ilə müqayisədə yaranır. Bu

səbəbdən də problemin yaranması, vəzifələrin irəli sürülməsi, vəzifə və problemlərin məzmununun təyin edilməsi, idarəçilik qərarlarının qəbulu üçün başlıca şərtlərdən hesab edilir. Lakin elə problemlər də vardır ki, onu heç də hər zaman həll etmək mümkün deyil..

Risklərin operativ və qabaqcadan təhlilinin başlıca əlaməti onların nəticələrinin qiymətləndirilməsidir. Müxtəlif istehsal təyinatlı təsərrüfat subyektlərində fəaliyyət növləri ilə fərqlənən çoxlu miqdarda əsas risklərdən istifadə edildiyi üçün, onların nəticələrinin qiymətləndirilməsində də fərqli üsullardan istifadə edilir.

Deməli, risklərin nəticələrinin qabaqcadan, həm də sonradan təhlili zamanı çoxlu sayda tədqiqat metodlarından istifadə edilir. Bu metodları bilmədən, hansı riskin hansı üsullarla qiymətləndirilməsinin, dəqiq nəticələrin əldə edilməsinin mümkünlüyünü təyin etmək çox çətin olar. Bazar iqtisadiyyatı şəraitində bir sıra maliyyə əməliyyatları kifayət qədər əhəmiyyətli risklərlə sıx bağlıdır. Onlar əməliyyata başlamazdan əvvəl və əməliyyatın icrası müddətində risk dərəcəsinin qiymətləndirilməsini və onun həcminin müəyyən edilməsini tələb edir.

Riskin dərəcəsi itki hadisəsinin başlaması, ola biləcək zərərin baş verməsi miqdarına dair ehtimaldır. Sahibkarın riski qoyulan investisyadan gözlənilən minimum və maksimum gəlirin miqdarını subyektiv ehtimalı ilə xarakterizə edir. Bu hesablamada maksimum və minimum gəlirlər arasında əlaqə çox olduqca riskin dərəcəsi də bir o qədər yüksək olur[7].

**Nəticə**

Bazar münasibətləri şəraitində müəssisə və təşkilatlar risk etmədən mənfəət əldə edə bilmir. Riskə getmək, onları idarə etmək, risk hadisəsinin yaxınlaşmasını az da olsa proqnozlaşdırmaq, risk dərəcəsini aşağı salmağa şərait yaradan tədbirlər görmək demək olarki imkansızdır.

Risk anlayışı müəssisənin, biznes fəaliyyətinin tərkib hissəsidir desək heç də yanılmarıq. Biznes fəaliyyətində qeyri-müəyyənliyin dərəcəsi olduqca böyükdür ki, bu risklərin köməyi ilə pul ifadəsinə təsir olunur. Müəssisə rəhbəri qərar qəbul edərkən çox zaman biznes layihələrinin gerçəkləşməsinə sərf olunan xərclər və gözlənilən mənfəətin məbləği barədə tam dolğun dəqiq informasiyalara malik olmur. Bu səbəbdən də sahibkar biznes fəaliyyətində fərqli növ risklərin yaranma səbəblərini araşdırmalı, onların təsir dərəcəsini qiymətləndirməlidir.

İnvestisiyalaşdırma obyekti seçilən zaman risk səviyyəsinin diqqətə alınması olduqca önəm daşıyır. Risk dərəcəsini biznes planın, eyni zamanda sığortalamanın köməyi ilə, eyni layihə daxilində iştirak edən təşkilatlarla, xedjirləşmə, fyuçers, risklərin bölüşdürülməsi, opitson və diversifikasiyalar hesabına aşağı salamaq mümkündür.

, maliyyə risklərinin idarə olunması müəssisənin nə qədər yeni və ya uzun zamandır fəaliyyət göstərməsindən asılı olmayaraq istənilən müəssisə və təşkilat üçün vacib diqqət yetirilməli olduğu bir məsələdir. Bu müəssisənin öz fəaliyyətinin mənfi və müsbət tərəflərini müəyyənləşdirmək, eyni zamanda onların aradan qaldırılması üçün zəruri tədbirlər görmək istənilən müəssisənin mənfəət əldə etməsi üçün ən vacib məsələdir.

**Tədqiqatın elmi yeniliyi:**

- Maliyyə riskləri, onların yaranması səbəblərinin araşdırılması;
- Maliyyə risklərinin təsnifatının müəyyən edilməsi;
- Risklərin idarə edilməsi sisteminin strukturunun muasir təhlili;
- Risk menecmentinin təşkili, mərhələləri, idarəetmə məsələləri həllinin üsul və istiqamətlərinin təyin edilməsi;

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Müəssisələrin maliyyə riskləri, onların idarə edilməsi üsulları maliyyə ilə birgə əlaqələri iqtisad elmi tərəfindən müxtəlif səviyyələrdə tədqiq olunmuşdur. Beləliklə, mövcud elmi, tədqiqat işlərinin təhlili bir daha onu göstərir ki, maliyyə riskləri və onların idarə edilməsi tələb olunan problem kimi aktuallığını itirməmiş, hər zaman həllini gözləyən bir problemlərdəndir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycanın statistik göstəriciləri. 2016.
2. Kazımlı X. Quliyev İ. "İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi". Dərs vəsaiti. Bakı, 2011.
3. Abbasov A. B. "Biznesin təşkili və idarə edilməsi" Dərs vəsaiti. . Bakı. 2010.
4. Məmmədov M. H. Şahbazov K. A. Həsənov H. S. "Menecment" Bakı. 2007.
5. Atakişiyev M. C. "Maliyyə menecmenti" Bakı. 2013.
6. Abbasov İ. M. Sadıqov R. F. "Menecment"

Bakı. 2013.
7. Məmmədov S. A. "İdarəetmənin əsasları"
Bakı. 2009.

**Минура Хаджи кызы КАРИМОВА, д. ф. э. ст. пр.**

**Сабина Бахтияр кызы САДЫГОВА**

**Октай Имран оглы БАЙРАМОВ**
Азербайджанский Технологический Университет

## СОВЕРШЕНСТВОВАНИЕ УПРАВЛЕНИЯ ФИНАНСОВЫМИ РИСКАМИ В БАНКОВСКОМ СЕКТОРЕ

**Резюме**

Под финансовым риском предприятия понимается вероятность возникновения неблагоприятных финансовых последствий в форме потери дохода и капитала в ситуации неопределенности условий осуществления его финансовой деятельности.

Финансовые риски предприятия характеризуются большим многообразием и в целях осуществления эффективного управления ими классифицируются по следующим основным признакам:

По видам. Этот классификационный признак финансовых рисков является основным параметром их дифференциации в процессе управления.

Характеристика конкретного вида риска одновременно дает представление о генерирующем его факторе, что позволяет "привязать" оценку степени вероятности возникновения и размера возможных финансовых потерь по данному виду риска к динамике соответствующего фактора.

**Ключевые слова:** финансы, риск, бизнес, кредит, страхование, факторинг, ресурс.

**Minura Haji gizi KARIMOVA, d.p.e.,senior lecturer**

**Sabina Bakhtiyar gizi SADIGOVA**

**Oqtay İmran oghlu BAYRAMOV**
Azerbaijan Technological University

## IMPROVING FINANCIAL RISK MANAGEMENT IN THE BANKING SECTOR

**Summary**

Under the financial risk of the enterprise is the probability of adverse financial consequences in the form of loss of income and capital under uncertainty conditions for the exercise of its financial activities.

Financial risks the company of a great variety and to implement effective management classified into the following main features:

By species. This classification feature of financial risks is the main parameter of differentiation in the governance process. Characteristics of the particular type of risk at the same time gives an idea of its generating factor that allows you to "anchor" the assessment of the likelihood and size of potential financial losses for this type of risk to the dynamics of the relevant factors.

**Key words:** finance, risk, business, credit, insurance, factoring, resource.

**İradə Cəmil qızı KƏRİMOVA, b.m.**

**Vüqar Amil oğlu FƏRZƏLİYEV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: i.kerimova@mail.ru

# AZƏRBAYCAN RESPUBLİKASINDA TƏTBİQ EDİLƏN VERGİ SİYASƏTİNİN SAHİBKARLIQ FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASINA TƏSİRİ

**Xülasə**

Azərbaycan Respublikası müstəqillik, azadlıq qazandıqdansonra bazar münasibətlərinin qurulması və ölkədə sahibkarlıq səviyyəsinin yüksəldilməsi üçün mühitin təmin edilməsi ilə bağlı vergilərə olan fikir tamamilə yeniləndi. Azad iqtisadiyyat vəziyyətində vergi siyasəti iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin ən başlıca və sivil alətlərindən birinə çevrildi. Daxili bazarın beynəlxalq bazara daxil olmasının düzgün təşkili xarici siyasətin prioritetlərindən biridir. Azərbaycan dövləti hazırda bir çox dünya dövlətləri ilə iqtisadi münasibətlər qurur.

**Açar sözlər:** vergi, iqtisadi səmərə, investisiya prosesi, sahibkarlıq fəaliyyəti

**JEL: G02**

**Giriş**

Sivilizasiyalı bazar iqtisadiyyatının formalaşmasının ən başlıca struktur komponentlərindən biri sahibkarlıq fəaliyyətidir. Sahibkarlıq fəaliyyəti fiziki və hüquqi şəxslərin mənfəət əldə etməsi məqsədilə qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmət göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Zəngin məzmuna, müxtəlif növlərə və formalara malik olan sahibkarlıq fəaliyyəti iqtisadi və sosial tərəqqinin əsas şərtidir, sahibkarlar isə cəmiyyətin ən təşəbbüskar, çevik, elmi-texniki yenilikləri daha tez mənimsəyən və istehsalata tətbiq edən sosial təbəqəsidir.

Bazar iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi olan sahibkarlıq həmişə çalışır ki, mövcud iqtisadi resurslardan qənaətlə, səmərəli istifadə edərək dünya standartlarına uyğun rəqabət qabiliyyətli məhsul istehsalını artırsın, rəqabət bazarında öz təklifi ilə çıxış edə bilsin və nəticədə yüksək mənfəət götürsün. Deməli, milli iqtisadiyyatı formalaşdırmaq və inkişaf etdirmək üçün saglam sahibkarlıq mühitinin yaradılması, insanların sahibkarlıq ruhunda tərbiyə olunması və sahibkarlıq fəaliyyətinin öncül inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi zəruridir.

Müasir dövrdə sahibkarlığın inkişafında əsas məsələlərdən biri onun maliyyələşdirilməsidir. Maliyyə bazasının təşkil edilməsinin ən sadə və etibarlı variantı sahibkarlıq mülikyyətçisinin öz vəsaitlərini və cəlb edilmiş vəsaitləri bu və ya digər formada yeni müəssisələrə yönəltməsidir. Azərbaycan iqtisadiyyatında bu məsələ ilə bağlı problem ondadır ki, yeni fəaliyyətə başlayan sahibkarlar kifayət qədər maliyyə vəsaitlərinə malik olmurlar. Dünya praktikasında bu problem müxtəlif yollarla həll olunur. İqtisadi nəticə isə eynidir. Kifayət dərəcədə maliyyə resurslarına malik olan dövlət, bank, investisiya fondları və s. böyük risk hesabına olsa da, yeni fəaliyyətə başlayan sahibkarlara yardımçı olmalıdırlar. Bu məsələlərin həllində ayrı-ayrı sərmayəçilər üçün maraqlı amil yüksək dərəcədə mənfəət əldə etmək, dövlət strukturları üçün isə məşğulluq probleminin həll olunması və belə layihələrin sosial səmərəsidir. Ölkəmizdə sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafının maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi nəzdində Sahibkarlığa Kömək Milli Fondu yaradılmışdır.

**Tədqiqatın aktuallığı.** Azərbaycan Respublikasında sağlam milli iqtisadiyatın formalaşması və sahibkarlıq fəaliyyətinin inkişafı yüksək dərəcədə vergi siyasətinin elmi və praktiki tərəfindən əsaslandırılmış qaydada təkmilləşdirilməsi və tədbiqindən çox asılıdır. Bununla yanaşı, transformasiya olunan iqtisadiyyatda həmin prosesi ləngidən amillər fəaliyyət göstərir ki, o da sahibkarlıq fəaliyyətinə yönəldilən kre-

dit resurslarının həcminin və bu sferanın cəlbedicilik mühitinin səmərəliyinin azaldılmasında işsizliyin sayının artırılmasına və digər problemlərə gətirib çıxardır. Nəticədə, həm bazar iqtisadiyyatının formalaşdırılmasının vasitələrindən, həm də onun sabitləşdirilməsinin iqtisadi artımı təmin edən amillərdən biri kimi sahibkarlıq fəaliyyəti özünün potensial imkanlarını reallaşdıra bilmir. Milli iqtisadiyyatın tənzimlənməsi vasitələri makro iqtisadi sabitliyin təmin edilməsində, iqtisadiyyatın və onun ayrı-ayrı sektorlarının, eləcə də, bazar infrostrukturunun inkişafinda mühüm rol oynayır. Sahibkarlıq fəaliyyətinin inkişafi ənənəvi və alternativ maliyyə vasitələrindən istifadə etməklə yeni iş yerlərinin yaradilması, büdcə vəsaitlərinin bu məqsədlə istifadə edilməsinin qarşısının alınması , büdcə vəsaitlərinin artırılmasi və səmərəli istifadə edilməsinə şərait yaradır. Bazar münasibətlərinə keçid hələ kivergi siyasəti tərəfindən ölkə sahibkarlıq fəaliyyəti prosesinin fəallaşdırılmasına, investisiya fəaliyyətinin canlandırılmasına və s. zəmin yaratmamışdır. Deməli, ölkədə bazar iqtisadiyyatının normal fəaliyyət göstərməsi üçün onun əsasını təşkil edən bütün əhəmiyyətli ünsürlərinin, xüsusilə sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafı zəruridir. Son illər həyata keçirilən iqtisadi islahatlar Azərbaycan Respublikasında sahibkarlığın inkişafina təkan vermiş, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında və iqtisadiyyatının inkişafında sahibkarlığın rolunu artırmışdır. Lakin, bununla yanaşi, ölkədə keyfiyyətli məhsul bolluğunun yaradılmasında rəqabətə davamlı istehsal sahələrinin inkişafında və əhalinin məşqulluğunun təmin olunmasında sahibkarlıq hələ də həlledici amilə çevrilməmişdir.

İqtisadi inkişafın müasir səviyyəsinə uyğun respublikada sahibkarlığın inkişafına dövlət himayəsinin səmərəliliyinin müəyyən edilməsi, sahibkarlıq fəaliyyətinin hüquqi bazasının təkmilləşdirilməsi, ölkədə işgüzar fəaliyyəti həvəsləndirmək məqsədilə vergi siyasətinin təkmilləşdirilməsi ilə bağlı bir sıra problemlərin mövcudluğu tədqiqat mövzusunun seçilməsinə əsas vermişdir. Bu problemlərin tədqiq edilib öyrənilməsi, ölkədə sahibkarlıq fəaliyyətinin inkişafına uygun vergi siyasətinin metodoloji müddəalarının və praktiki prosedurlarının işlənib hazırlanmasına imkan yaratmışdır.

**Problemin öyrənilmə səviyyəsi.** Sahibkarlıq fəaliyyətinin inkişafı prosesində ona təsir göstərən amillərin qiymətləndirilməsi ilə dünyanın bir sıra iqtisadçı alimləri, o cümlədən A.Smit, Y.Şumpeter, L.Mizes, F.Xayekin, R.Kantinyon, İ.Sey, F.Nayt, A.Tyünen, K.Marks, C.M.Keyns, M.Fredman, D.A.Bağırov, M.X.Həsənlı, Y.A.Kəlbiyev, A.Q.Musayev, M.M.Sadıqov, S.A.Belousov, N.E.Zayats və başqaları məşğul olmuşdurlar. Beləliklə, bu sahədə mövcud olan elmi tədqiqat işlərinin təhlili göstərir ki, xarici ölkələrin və respublikamızın alimlərinin tədqiqatlarında sahibkarlıq fəaliyyətinin inkişafında vergi siyasətinin rolu kompleks şəklində öyrənilsə də, iqtisadi münasibətlər inkişaf etdikcə, bu fəaliyyətin inkişafının yeni-yeni istiqamətlərinin öyrənilməsi öz elmi aktuallığını itirmir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Magistr işinin əsas məqsədi bazar münasibətləri şəraitində Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin müasir vəziyyətinin araşdırılması və bu fəaliyyətin səmərəliliyinin artırılması məqsədi ilə vergi siyasətinin təkmilləşdirilməsi üçün elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələri işləyib hazırlamaqdan ibarətdir. Qoyulmuş məqsədə uyğun olaraq aşağıdakı vəzifələrin həll edilməsi zəruri hesab edilmişdir.

- sahibkarlığın iqtisadi aktivliyin formalaşmasında rolunu, onun yaranma tarixini, iqtisadi mahiyyətini, formalarını, sahibkarlığın inkişaf prinsiplərini açıqlamaq;
- Azərbaycan Respublikasında kiçik sahibkarlığın dövlət tərəfindən tənzimlənməsi problemlərini xronoloji ardıcıllıqla araşdırmaq;
- Sahibkarlığın inkişafi ilə bağlı vergi orqanlarının qarşısında duran vəzifələri araşdırmaq, bu sahədə görülən tədbirləri təhlil etmək;
- Kiçik biznesin inkişafinda vergilərin rolu, onların sahibkarlıq fəaliyyətinə təsirini müəyyən etmək;
- Sahibkarlığın inkişafinda vergitutmanın təkmilləşdirilməsi sahəsində görülən tədbirləri açıqlamaq və bu sahədə müəyyən təkliflər vermək;
- Sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasi mexanizmini müəyyən etmək.

**Tətqiqatın predmeti və obyekti.** Tətqiqatın predmeti kimi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin formalaşması, inkişafı və təkmilləşdirilməsi, obyekti isə vergi sistemi və

onun sahibkarlıq fəaliyyətinin inkişafına təsiridir.

**Tətqiqatın informasiya bazasını**-Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin illik hesabatları, İqtisadi İnkişaf, Maliyyə və Vergilər Nazirliyinin materialları, Milli Məclisin büdcə, vergi siyasəti, sahibkarlıq sahəsində qanunvericilik materialları, internet şəbəkəsində mövzuya uyğun mövcud informasiyalar təşkil edir.

**Tətqiqat işinin elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- bazar münasibətləri şəraitində sahıbkarlıq fəaliyyətinin formalaşması, inkişafı və maliyyələşməsinin yeni nəzəri metodoloji aspektlərdən öyrənilib aşkara çıxarılması.
- sahibkarlıq fəaliyyətinin təşkili prinsipləri tətqiq edilib öyrənilmiş və onun maliyyə sisteminin səmərəliliyinin artırılmasında rolu əsaslandırılmışdır.
- iqtisadi inkişafın hazırkı mərhələsinə uyğun vergi siyasətinin elmi-nəzəri konsepsiyası işlənib hazırlanmışdır.
- sahibkarlıq fəaliyyətinin inkişafında vergi siyasətinin rolu açıqlanmış və gələcək fəaliyyət istiqaməti müəyyən olunmuşdur.
- sahibkarlıq fəaliyyətinin inkişafında vergi strategiyasının konseptual istiqamətləri hazırlanmış və stimullaşdırılması üzrə tövsiyyələr verilmişdir.

İşin praktiki əhəmiyyəti. Tətqiqatın nəticələrinin tətbiqi, sahibkarlıq fəaliyyətinin inkişafına, onun səmərəliliyinin artırılmasına, yeni iş yerlərinin açılmasına təsir göstərməklə yanaşı həm də tədris prosesində istifadə oluna bilər.

Sahibkarlıq fəaliyyətinin subyektlərinin 4 funksiyası var:

1. Sahibkar iqtisadi fəaliyyəti üçün zəruri olan bütün resusları bir yerə toplayır. Bunlara təbii, investisiya və əmək resuslarını aid etmək olar.
2. Sahibkar iqtisadi fəaliyyətin ən asas məsələləri üzrə qərarlar qəbul edir . (Dövlət Sahibkar Muzdlu işçi Tərəfdaş Alıcılar).
3. Sahibkar yenilikçidir.
4. Sahibkar öz vəsaiti, iş vaxtı və iqtisadi mühitdəki nüfuzu ilə risk edir.

Sahibkarlıq fəaliyyətilə bağlı məsələlərdən biri də sahibkarlıq fəaliyyətinin obyektidir. Ən ümumi mənada sahibkarlığın obyekti kimi əmtəələr istehsalı, onların satışı və ya müxtəlif növ xidmətlər göstərilməsi formasında həyata keçirilən iqtisadi fəaliyyət başa düşülür. Yəni, sahibkarlıq fəaliyyəti əmtəələr və xidmətlərlə bağlıdır. Əmtəələr fiziki, maddi əşyalardır, xidmətlər isə görünməzdir, maddi deyildir. Xidmətlə bağlı sahibkarlıq fəaliyyəti daha geniş vüsət almışdır. Bu sahibkarlıq fəaliyyətinə bank, sığorta, nəqliyyat, turizm, reklam və s. xidmətlər aiddir. Əmtəələrin satışı ilə əlaqədar xidmətlər də vardır. Əmtəəni istehlakçılara çatdırmaq, quraşdırmaq, satışından sonra qulluq etmək və digər xidmətlər buna misal ola bilər. Yuxarıda deyilənləri ümumiləşdirsək, sahibkarlıq fəaliyyətinin obyekti kimi əmtəə (xidmət) istehsalı, satiş və müxtəlif növ xidmətlər göstərilməlidir.

Sahibkarlıq fəaliyyətinin məzmunundan danışdıqda, sahibkarlıq fəaliyyətinin mühitini də qeyd etmək lazımdır. Sahibkarlıq mühiti özündə iqtisadi sərbəstlik dərəcəsini, sahibkarlar ordusunun mövcudluğunu, iqtisadi əlaqələrin bazar tipləri çoxluğunu, sahibkarlıq kapitalının formalaşmasının və zəruri ehtiyatların istifadəsinin mümkünüyünü birləşdirən ictimai-iqtisadi şəraitdir. Bu mühit 2 qrupa ayrılır: sahibkarlıq fəaliyyətinin xarici və daxili mühiti.

Sahibkarlıq xarici mühitinə aşağıdakılar aid edilir: iqtisadi, siyasi, hüquqi, sosial-mədəni, texnoloji, coğrafi və infrastruktur amilləri. Müəssisənin xarici mühitinə aşağıdakıları aid edirlər: işçilərin peşəkarlıq səviyyəsi, firmanın alıcılar arasında nüfuzu, həmkarlar ittifaqı, rəqiblər, dünya bazarının vəziyyəti, ETT-nin nailiyyətləri və s.

Bu amillər haqda qısa məlumat verək. İqtisadi mühitə ilk növbədə əhalinin alıcılıq qabiliyyətini aid etmək olar. Çünki, o, sahibkarın məqsədinə nail olmaq, yəni mənfəət əldə etmək vasitəsidir. Sahibkarlığın inkişafı üçün siyasi mühit iqtisadi mühit qədər önəmlidir. Hökumətin iqtisadi siyasəti, siyasi məqsəd və vəzifələri, iqtisadiyyatı idarəetmə üsulları sahibkarlığın inkişafını stimullaşdıra vələngidə bilər. Sahibkarlıq fəaliyyəti üçün siyasi sabitlik xüsusi əhəmiyyət kəsb edir. Sahibkar gələcəyin qeyri-müəyyənliyini sevmir. Çünki, o, öz əmlakı ilə risk edir. Sahibkarlıq fəaliyyətinin hüquqi təminatı mühüm əhəmiyyət kəsb edir. Sahibkarlıq fəaliyyəti yalnız qanunvericiliyə əsaslanmaqla və qanunvericiliklə müdafiə olunmaqla inkişaf edə bilər. Hər bir ölkədə qanunvericilik aktları

ilə sahibkarlıq fəaliyyəti üçün hüquqi mühit yaradılmalıdır. Sosial-mədəni mühitə ictimai şüur, əxlaqi və dini normalar, əhalinin təhsil səviyyəsi, yaş-cins tərkibi, adət-ənənə və s. aid edilə bilər. Bunlar insanların həyat tərzini, zövqünü, dünyagörüşünü, işə münasibətini formalaşdırır, onların müxtəlif növ əmtəələrə və xidmətlərə, əmək haqqı səviyyəsinə, əmək şəraitinə tələbatını müəyyən edir. Sahibkarlıq fəaliyyəti həmişə müəyyən texnika və texnologiyadan istifadəyə əsaslanır. Cəmiyyətdə elmin, texnikanın və texnologiyanın inkişaf səviyyəsi ənənəvi sahələrdə sahibkarlıq fəaliyyətinə əlverişli təsir etməklə yanaşı yeni sahibkarlıq fəaliyyəti sahələri yaradır. Yalnız yeni, qabaqcıl texnologiya sahibkara rəqabət mübarizəsində qalib gəlmək imkanı verir. Sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi ərazinin coğrafi mövqeyi, təbii-iqlim şəraiti, təbii sərvətləri, avtomobil, su, hava, dəmir yol şəbəkəsi və s. coğrafi mühiti təşkil edir. Bu mühit sahibkarlığın bu və ya digər sahələrinin üstün inkişafına şərait yaradır, sahibkarlar tərəfindən ölkəyə investisiyaların yönəldilməsinin mühüm amilini təşkil edir. İnfrastruktur ünsürləri də sahibkarlıq mühitində mühüm yer tutur. Bu mühit sahibkarların sahibkarlıq fəaliyyətinin səmərəliliyinə kömək edən müxtəlif təşkilatlar şəbəkəsindən ibarətdir. İnfrastruktur ünsürlərinə sahibkarlıq fəaliyyəti ilə bu və ya digər dərəcədə əlaqədar olmasına baxmayaraq, aşağıdakıları aid etmək olar: maliyyə xidməti göstərən banklar; əmtəələrin bölüşdürülməsi üzrə xidmət göstərən pərakəndə və topdan satış obyektləri; hüquq, mühasibat uçotu, auditor xidmətlərini göstərən firma və idarələr; bazarların öyrənilməsi üzrə marketinq strukturları; reklam; nəqliyyat agentlikləri; sığorta şirkətləri; rabitə və informasiya strukturları; lizinq şirkətləri və s.

Müəssisənin daxili mühiti sahibkarın bilavasitə təsirinə məruz qala bilən amillərdən ibarətdir. Yəni bu amillər sahibkar tərəfindən idarə oluna bilər. Sahibkarlıq fəaliyyətinin daxili mühitinin əsas amilləri aşağıdakılardan ibarətdir:

-Sahibkarlıq məqsədi;

-Məqsədinə nail olmaq üçün seçiləcək texnologiya;

-Seçilmiş texnologiyaya uyğun təşkilatı struktur;

-Struktur bölmələrinin vəzifələri;

-Qoyulan vəzifələrin icraçıları (işçiləri) Sahibkarın məqsədi onun fəaliyyət göstərdiyi xarici və daxili mühitin elementlərinin təsiri ilə formalaşır.

Göründüyü kimi, sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatında önəmli yer tutur. Sahibkarlıq fəaliyyəti olmadan bazar iqtisadiyyatını təsəvvür etmək mümkün deyil. Sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsidir. Hər bir ölkə öz iqtisadiyyatını inkişaf etdirmək üçün ilk növbədə sahibkarlıq fəaliyyətini inkişaf etdirməli, dövlət ölkədə sahibkarlıq fəaliyyətinin inkişafı üçün stimul yaratmalıdır. Dünya təcrübəsində olduğu kimi Azərbaycanda da sahibkarlıq fəaliyyətinin inkişafı özəl sektorda oynadığı rol baxımından maraqlıdır.

**Nəticə**

Aparılan araşdırmalardan belə bir nəticəyə gəlmək olar ki, sahibkarlıq fəaliyyətinin inkişafı və bunun üçün onun inkişafında ən mühüm problemlərdən biri olan sahibkarlığın maliyyələşdirilməsi probleminin həlli hər bir ölkə üçün, o cümlədən, Azərbaycan üçün önəmli əhəmiyyət kəsb edir. Sahibkarlığın inkişafında özəl sektor olduğu qədər, dövlət də maraqlı olmalıdır. Ən azından işsizliyin aradan qaldırılması baxımından dövlət sahibkarlıq, xüsusilə kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafı üçün normal iqtisadi mühitin yaradılmasına borcludur.

Sahibkarlıq subyektləri ilk fəaliyyət dövrlərində yetərincə maliyyə vəsaitinə malik olmadıqlarından onların maliyyələşdirilməsinin - dövlət borcları, investisiya proqramları, bank kreditləri şəklində həyata keçirilməsi məqsədəuyğundur. Belə bir nəticəyə gəlmək olar ki, sahibkarlıq subyektlərinin maliyyələşdirilməsinin ən fəal iştirakçılarından biri dövlətdir. Azərbaycan Respublikasının Prezidentinin 1997-ci il 24 iyun tarixli 610 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı" tətbiq edilməyə başlamışdır. Bu proqramda qeyd edildiyi kimi Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi və rayonlarda sahibkarlığın inkişafı mərkəzləri yaradılmışdır. Məhz, bu qurumlar ölkədə sahibkarlığın maliyyələşdirilməsində xüsusi rol oynayırlar. Həmçinin Azərbaycanda sahibkarlıq mühitinin formalaşması üçün vacib olan "Sahibkarlıq fəaliyyəti

haqqında", "Müəssisələr haqqında", "Səhmdar cəmiyyətləri haqqında", "Haqsız rəqabət haqqında", "Əmək birjası haqqında", "Lizinq kompaniyaları haqqında" və s. qanunlar, eləcə də, bazar iqtisadiyyatının hüquqi mexanizminin qurulmasını təmin edən digər qanunlar qəbul olunmuşdur. Bütün görülən işləri və respublikada sahibkarlığın bugünkü inkişafını nəzərə alaraq, gələcəkdə sahibkarlıq fəaliyyətinin iqtisadiyyatın əsas sahəsinə çevriləcəyinə inanmaq olar.

Azərbaycan Respublikasında sahibkarlığın inkişafının maliyyə təminatında olan problemləri aradan qaldırmaq üçün maliyyələşdirmədə tətbiq olunan metodlar və üsullar təkmilləşdirilməlidir. Bu baxımdan ölkəmizin dünyanın inkişaf etmiş ölkələrinin bu sahədəki təcrübəsindən, həmin ölkələrin sahibkarlığın maliyyələşdirilməsində tətbiq etdikləri metodlardan istifadə etməsi zəruridir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. A.F.Musayev. Vergi siyasətinin iqtisadi problemləri. Bakı «Elm» 2004
2. A.F.Musayev, Y.A.Kəlbiyev, Z.H.Rzayev. Vergilər və vergitutma. Bakı, 2000
3. A.F.Musayev, Y.A.Kəlbiyev, A.A.Hüseynov. Azərbaycan Respublikasının Vergi Xidməti: İslahatlar və Nəticələr. Bakı, 2002
4. Ə.Ə.Ələkbərov “Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu” elmi əsəri. Bakı,2005
5. F.Ə.Məmmədov, A.F.Musayev, M.M.Sadıqov, Y.A.Kəlbiyev, Z.H.Rzayev “Vergilər və Vergitutma” Bakı, 2010
6. KəlbiyevY.A.“Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri”(Monoqrafiya). Bakı, “Elm”, 2005, 468 s.

**Ирада Джамил кызы КЕРИМОВА, ст. пр.**

**Вугар Амил оглы ФАРЗАЛИЕВ**
Азербайджанский Технологический Университет

# ВЛИЯНИЕ НАЛОГОВОЙ ПОЛИТИКИ, ПРИМЕНЯЕМОЙ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ, НА СТИМУЛИРОВАНИЕ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ

**Резюме**

После обретения Азербайджанской Республикой независимости и свободы идея налогов, связанных с созданием рыночных отношений и обеспечением условий для повышения уровня предпринимательства в стране, была полностью обновлена. В условиях свободной экономики налоговая политика стала одним из важнейших и цивилизованных инструментов государственного регулирования экономики. Правильная организация выхода внутреннего рынка на международный рынок является одним из приоритетов внешней политики. Азербайджанское государство в настоящее время устанавливает экономические отношения со многими странами мира.

**Ключевые слова:** налог, экономическая эффективность, инвестиционный процесс, предпринимательская деятельность.

**Irada Jamil gizi KERIMOVA, Senior Lecturer**

**Vugar Amil oglu FARZALIYEV**
Azerbaijan Technological University

## THE IMPACT OF THE TAX POLICY APPLIED IN THE REPUBLIC OF AZERBAIJAN ON THE PROMOTION OF ENTREPRENEURIAL ACTIVITY

### Summary

After the Republic of Azerbaijan gained independence and freedom, the idea of taxes related to the creation of market relations and the provision of conditions for increasing the level of entrepreneurship in the country was completely updated. In a free economy, tax policy has become one of the most important and civilized instruments of state regulation of the economy. Proper organization of the entry of the domestic market into the international market is one of the priorities of foreign policy. The Azerbaijani state is currently establishing economic relations with many countries of the world.

**Keywords:** tax, economic efficiency, investment process, entrepreneurial activity.

**Xəlil İlqar oğlu QULUZADE**
Odlar Yurdu Universitetinin doktorantı

# ƏMƏK BAZARINA ŞOK TƏSİRLƏR: TƏLƏBƏ ŞOK TƏSİRLƏRİN VƏ TƏKLİFƏ ŞOK TƏSİRLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ METODLARI

**Xulasə**

Məqalədə, şok təsirlər və ya fluktuasiyalar, həmçinin əmək bazarında tələb və təklif funksiyalarının müxtəlif istiqamətlərdə dəyişməsi nəzəri olaraq təhlil edilib. Müəllif belə nəticəyə gəlib ki, əməyin tələb funksiyasından fərqli olaraq, təklif funksiyası, digər şərtlərin dəyişmədiyi hallarda, əmək haqqının artması ilə artır. Bu iki funksiyanın kəsişməsi əmək bazarında məşğulların tarazlıq sayını və əmək haqqının tarazlıq səviyyəsini ifadə edir

**Açar sözlər:** əmək bazarı, tələb funksiyası, təklif funksiyası, qiymət, tarazlıq.

**JEL: L15**

***Şok təsirlər və ya fluktuasiyalar nədir?***

Hər bir ölkənin iqtisadiyyatı davamlı olaraq həm daxili təsirlərə, həm də xarici təsirlərə məruz qalır. Əmtəə istehsalı, onun mübadiləsi, bölüşdürülməsi və istehlakı aşıq sistemlərdir. Bu sistemin hər bir elementi və bu elementlər arasındakı əlaqələr müxtəlif xarakterli təsirlərə məruz qalırlar. Məhz belə təsirlər istehsal prosesinin bütün tsikllərinin inkişafını təmin edir. Müəssisə bir məhsulun istehsalından digər məhsul istehsalına keçir, yaxud istehsal edilən əmtəənin qiymətində artıb-azalma baş verir. Ətraf mühitdə baş verən dəyişikliklər nəticəsində həm istehsalçı, həm də istehlakçı davranışları dəyişir.Bütün bu proseslərdəki dəyişikliklər bəzi hallarda elə yavaş sürətlə baş verir ki, həm məcmu iqtisadiyyatda, həm də hər hansı sektorda intensiv dəyişikliklərə gətirib çıxarmır. Lakin bəzi hallarda qısa müddətdə ciddi dəyişikliklərin baş verməsi iqtisadi tsikllərin fəaliyyətində radikal dəyişikliklər yaradır. Məsələn, pandemiyaların, müharibələrin, hər hansı təbiət fəalkətlərin baş verməsi istehsal prosesinə, əmtəə, xidmət, əmək bazarlarına, həmçinin maliyyə bazarlarına ciddi təsir göstərə bilər. Belə dəyişmələr iqtisadiyyatda şok effektləri yaradır.

İqtisadi ədəbiyyatda “iqtisadiyyata şok təsirlər” deyəndə fundamental makroiqtisadi göstəricilərdə və ya onlar arasındakı əlaqələrdə baş verən elə dəyişikliklər nəzərdə tutulur ki, onlar makroiqtisadi nəticələrə, həmçinin iqtisadi fəaliyyətin göstəricilərinə, məsələn, işsizliyə, istehlaka və inflyasiyaya ciddi təsir edir. Qeyd etdiyimiz kimi, iqtisadiyyatda oxşar təsirlər və dəyişikliklər həmişə baş verir, lakin şok təsirlərin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, onları qabaqcadan proqnozlaşdırmaq mümkün deyil. Real Biznes Tsikl nəzəriyyəsinə əsasən iqtisadiyyata şok təsirlər iqtisadi böhranların əsas səbəblərindəndir. Əksər iqtisadçılar iqtisadiyyata şok təsirləri iqtisadiyyatın özünə xas olmayan və xarici amillərlə şərtlənən fenomen hesab edirlər. Lakin iqtisadi şoklar böhranın əsas səbəbi olduqları kimi, həm də iqtisadiyyatın intensiv inkişafının əsas səbəbidirlər. Belə ki, texnoloji şokların qısamüddətli dövrdə iqtisadi inkişafdakı fluktuasiyaların mühüm amili olması, lakin pul-kredit sisteminin belə fluktuasiyalara səbəb olmaması hipotezi də Real Biznes Tsikli nəzəriyyəsinə məxsusdur.

Baxmayaraq ki, iqtisadiyyata şok təsirlərlə bağlı ədəbiyyatda birmənalı fikir yoxdur, lakin iqtisadi şoklara aid dörd əsas xüsusiyyət əksər tədqiqatçılar tərəfindən qəbul edilir. Birincisi, şok hadisəsi qısamüddətdə baş verən hadisədəir. Belə dəyişikliklər uzummüddətdə baş versəydi iqtisadiyyat ona bu və ya digər dərəcədə hazırlaşa bilərdi. İkincisi, şok hadisə mikrosəviyyədə baş verən dəyişiklik hesab olunmur. Belə ki, hər hansı bir müəssisənin iqtisadi fəaliyyətinə təsir göstərən hadisəyə iqtisadi şok tərifi vermək olmaz. Şok hadisəsi iqtisadiyyata adətən makrosəviyyədə təsir edir və iqtisadiyyatın əksər sahələrində öz təsirini buraxır. Lakin makroiqtisadiyyatın hər hansı göstəricilərinə təsir edən kəskin dəyişmələr də şok hesab edilə bilər. Məsələn, ölkə iqtisadiyyatının maliyyə sektorunda kəskin dəyişikliklər yaradan hadisəni də maliyyə şoku kimi qiymətləndirmək olar. İqtisadi şoklara xas olan digər fərqləndirici xüsusiyyət onun gözlənilmədən baş verməsidir. Elə buna görə də onun makroiqtisadi təsirlərini

əvvəlcədən hesablamaq və qarşısını almaq mümkün deyil. Əks halda onun qarşısını almaq və ya onun mənfi təsirlərinin yumşaldılması istiqamətində zəruri tədbirlər görmək mümkün olardı. İqtisadi şokları xarakterizə edən digər mühüm cəhət onun xarici amillərlə əlaqədar olmasıdır. Əksər hallarda iqtisadiyyata şok təsirlər təbiət hadisələri, müharibələr, pandemiyalar, sanksiyalar, siyasi çevrilişlər və sair iqtisadi sistemə daxil olmayan digər amillər nəticəsində yaranır. Hətta hər hansı makroiqtisadi fəaliyyət sahəsində baş verən şoklar da iqtisadi inkişafın daxili amilləri ilə deyil, xarici amillərlə şərtlənir. Məsələn, neft qiymətləri şokları və sair.

İqtisadiyyata şok təsirlər yuxarıda qeyd etdiyimiz xüsusiyyətlərlə digər iqtisadi dəyişikliklərdən fərqləndirməklə yanaşı, bir-birindən tələb həcminə, yoxsa təklif həcminə təsiri istiqaməti ilə iki qrupa ayırmaq olar. Şokun yaranmasına səbəb olan ekzogen amil makroiqtisadi göstəricinin daxil olduğu bazarda tələb və ya təklif əyrisini sağa və ya sola sürüşdürür. Məsələn, müharibələr və ya pandemiyalar turizmə tələbi azalda, gündəlik tələbat mallarına olan tələbi artıra bilər. Minimum əmək haqqı səviyyəsinin artırılması əmək bazarında təklifi artıra, lakin tələbi azalda bilər. Neft qiymətlərinin artması ilə bağlı şoklar neft hasilatını artıra, neft istehlakçılarının tələbini azalda bilər və sair. Hər bir ölkənin iqtisadi fəaliyyət tarixində şoxlu sayda şoklarla qarşılaşma faktları olur. Digər tərəfdən, elə şoklar olur ki, onlar bir ölkənin iqtisadiyyatına xas olmur və daha qlobal xarakter daşıyır. Məsələn, Rusiya-Ukrayna müharibəsi əsasən bu ölkələrin iqtisadiyyatları üçün şok təsiri yaradır. Lakin Ukraynadan Şərqi Avropa ölkələrinə milyonlarla insanın emiqrasiyası həmin ölkələrdə əmək bazarı üçün şok effekti yarada bilər. Rusiya üçün tətbiq edilən iqtisadi sanksiyalar əsasən bu ölkənin iqtisadiyyatına yönəlsə də Rusiya ilə iqtisadi əlaqələri olan ölkələr üçün də şok effekti yarada bilər.

"İqtisadiyyata şok təsir", "iqtisadi şoklar" və "iqtisadi fluktuasiyalar" anlayışlarını bir-birindən fərqləndirmək lazımdır. İqtisadiyyata şok təsirlər iqtisadiyyata təsir edən xarici təsirlərdir. İqtisadi fluktuasiyalar isə belə şoklar nəticəsində iqtisadi fəaliyyətdə baş verən dəyişikliklərdir. Mankiv [1] iddia edir ki, "*Bütövlükdə iqtisadiyyatdakı fluktuasiyalar məcmu təklif və ya məcmu tələbdəki dəyişikliklərdən irəli gəlir. İqtisadçılar bu əyriləri hərəkət etdirən ekzogen hadisələri iqtisadi şok adlandırırlar. Məcmu tələb əyrisini sürüşdürən şoka tələb şoku, məcmu təklif əyrisini dəyişən şoka isə təklif şoku deyilir. Bu şoklar istehsal və məşğulluğu təbii səviyyələrindən kənarlaşdıraraq iqtisadiyyatın müvazinətini pozur. Məcmu təklif və məcmu tələb modelinin məqsədlərindən biri şokların iqtisadi fluktuasiyalara necə səbəb olduğunu göstərməkdir*". Hər bir ölkə hökuməti iqtisadi siyasət vasitəsilə iqtisadiyyata mənfi təsir göstərən şokların təsirlərini azaltmaq üçün müxtəlif səviyyədə stabilləşdirici siyasət həyata keçirirlər. "İqtisadi şoklar" isə iqtisadiyyatda baş verən hadisələrin iqtisadi sistemin hər hansı aspektitə və ya iqtisadi sistemdən kənardakı digər sistemlərə, məsələn ictimai şüura, ayrı-ayrı insanların ictimai davranışına, siyasi proseslərə və sair edilə kəskin təsirlərdir. Nəzərə almaq lazımdır ki, iqtisadi şokların özləri də iqtisadiyyata təsir edən kənar şoklar tərəfindən yaradılır. Hər iki növ istiqamətli şokların təsirləri iqtisadi ədəbiyyatda geniş tədqiq edilib.

İqtisadi ədəbiyyatda müxtəlif makroiqtisadi göstəricilərin hər hansı səbəbdən şok dəyişmələrinin digər iqtisadi fəaliyyət sahələrində yaratdığı şok təsirlərin nəticələri və onlara reaksiya problemləri də geniş tədqiq edilib. Məsələn, Rapach [2] tərəfindən aparılan tədqiqatda pul kütləsi, pula olan tələb, real xərclər və təklif şoklarının real istehsal həcminin qısamüddətli fluktuasiyasında rolu qiymətləndirilib. Məqalədə bu şokların real istehsal həcminə təsirləri SVAR modeli (struktur vektor avtoreqresiya) vasitəsilə analiz edilib. SVAR modelində uzunmüddətli dövr üçün məhdudiyyətlər bu şokların müəyyən edilməsinə imkan verir. Alınan nəticələr göstərir ki, xərclərin və təklifin şokları real istehsal həcminin qısamüddətli fluktuasiyasında mühüm rol oynayır. Lakin monetar şokların təsirləri zəifdir.

Horvath [3] öz tədqiqatında idia edilir ki, iqtisadiyyatda məcmu fluktuasiyalar müstəqil iqtisadi sahələrdə baş verən şokların nəticəsində baş verir. Tədqiqatda tətbiq etdiyi modeldə nəzərdə tutulur ki, sektorlararası ticarət və əlaqə bu sektorlardakı şokların sinxronlaşmasını təmin edir. Van Aarle və Kappler [4] tərəfndən aparılan tədqiqatda Avropa Birliyi ölkələrində iqtisadi əhval-ruhiyyə göstəricisinin şoklarının makroiqtisadi fəaliyyətə təsiri qiymətləndirilir. Alınan nəticələrə əsasən əhval-ruhiyyə göstəricisinin şokları avrozonaya daxil olan ölkələrdə istehsala, pərakəndə satışa, və

işsizlik səviyyəsinə təsir göstərir. Həmçinin iqtisadi şəraitin və iqtisadi şokların da iqtisadi əhval-ruhiyyəyə təsiri hiss ediləcək dərəcədədir.

Rasaki və Malikane [5] tərəfindən yerinə yetirilən tədqiqatda 10 Afrika ölkəsində makroiqtisadi şokların iqtisadi fəaliyyətdə fluktuasiyaların yaranmasındakı rolu analiz edilib. Tədqiqat zamanı 12 göstəricinin daxil edildiyi DSGE (dynamic stochastic general equlibiruim) modelindən istifadə edilib. Analizin nəticəsi göstərir ki, Afrikanın bu ölkələrində həm daxili, həm də xarici şoklar istehsal fluktuasiyalarına əhəmiyyətli dərəcədə təsir göstərir. Xarici şoklar arasında bu ölkələrin iqtisadiyyatına ciddi təsir edən əsas şoklar xarici borclanma, faiz dərəcəsi və əmtəə qiymətləridir. Pulun təklifi və məhsuldarlıq daxili şok kimi bu ölkələrdə istehsal fluktuasiyalarına təsir edir.

- ***Əmək bazarında şok təsirlər və fluktuasiyalar nədir?***

Daxili və xarici şokların iqtisadi fəaliyyətdə flutuasiyalar yaratmasının əsas kanalları məcmu tələb və təklifə, həmçinin digər makroiqtisadi göstəricilərə təsirlə həyata keçirilir. Belə kanallardan biri də şokların əmək bazarına təsirləri ilə bağlıdır. Əmək bazarına təsirlər ya əməyə olan təklif həcmində, ya da tələb həcmində fluktuasiyalar yaradır. Əmək bazarındakı belə dəyişmələr isə öz növbəsində əməyin qiymətini müəyyən edərək, ev təsərrüfatlarının gəlirlərində, miqrasiyada, yoxsulluq səviyyəsində, rifah səviyyəsində və sair göstəricilərdə fluktuasiyalar yaradan şok təsiri yaradır.

Müxtəlif şokların əmək bazarına təsirləri, həmçinin əmək bazarında yaranan şokların digər sahələrə təsiri problemləri müxtəlif tədqiqatçılar tərəfindən analiz edilmişdir. Drautzburg və digərləri [6] öz tədqiqatlarında sosial və siyasi risklərin əmək bazarında işçilərin işəgötürənlə olan danışıqlarında mövqeyinə necə təsir etməsini qiymətləndiriblər. Bu əslində sosial və siyasi risklərin əmək bazarında təklif həcminə təsirini xarakterizə edir. Tədqiqatda Bayesian VAR modelindən istifadə edilərək şokların məhsul istehsalına və işsizliyə təsirləri öyrənilib. Şokların paylanmasından istifadə edilərək, tədqiqatda neoklassik artım modeli bir qədər genişləndirilib. Bu zaman işçilərin iş axtarışında sövdələşmə imkanları neoklassik modelə ekzogen amil kimi daxil edilir. Alınan nəticələrə əsasən əmək qabiliyyətli insanların iş axtarışında sövdələşmə gücündə sosial və siyasi şokların təsiri 28%-dən az deyil və sövdələşmə gücü 2.4% rifah dəyərinə malikdir.

Bachmann və Felder [7] tərəfindən aparılan tədqiqatda Avropa İttifaqı ölkələri obyekt olaraq seçilmişdir. Bu ölkələrdə 21-ci əsrin ilk onilliyində biznes tsiklinin əmək bazarına təsirləri tədqiq edilib. Zhao və digərləri [8] tərəfindən aparılmış tədqiqatda informasiya şoklarının əmək bazarında təklif həcminə təsirləri, Borys və digərləri [9] texnologiya və əmək bazarında tələb həcminin şoklarına işsizliyin reaksiyasını öz tədqiqatlarında qiymətləndiriblər.

- ***Əmək bazarında şok təsirlərin özünü biruzə verməsi yolları hansılardır***

Əmək bazarı ölkə daxilində baş verən müxtəlif hadisələrə, o cümlədən minimum əmək haqqının dəyişməsinə, ölkədaxili siyasi və hərbi konfliktlərə, miqrasiyaya və sair hadisələrə çox həssasdır. Xarici təsirlər də ölkənin əmək bazarına müəyyən təsirlər göstərə bilər. Məsələn, ölkənin xarici ticarət əməliyyatlarında üstünlük təşkil edən digər ölkələrdə baş verən hər hansı hadisələr ölkədaxili əmək bazarında öz təsirlərini buraxır. Təəssüf ki, sadaladığımız bu hadisələr Azərbaycanın əmək bazarının tarixi inkişafında dəfələrlə rast gəlinib. Məsələn, keçən əsrin axırlarında keçmiş sovet planlı iqtisadiyyatının dağılması və yeni iqtisadi münasibətlərin formalaşmadığı zamanlarda çoxlu sayda müəssisələrin bağlanması və minlərlə insanın işsiz qalmasına səbəb oldu. Yaxud Azərbaycanın 20% ərazisinin Ermənistan hərbi qüvvələri tərfindən işğal edilməsi nəticəsində bir milyon insanın qaçqın və məcmuri köşkün həyatı yaşaması əmək bazarında ciddi dəyiuşikliklərə səbəb oldu. 2010-ci ildə COVİD-19 pandemiyasının baş verməsi nəticəsində dünyanın əksər ölkəsində “evdəqal” rejimi əmək bazarını iflic vəziyyətinə saldı.

Çoxlu sayda belə misalları müxtəlif ölkələrin timsalında gətirmək olar. Hər bir ölkədə əmək bazarı ilə bağlı baş verən dəyişikliklərin özünəməxsusluğuna baxmayaraq, bu dəyişiklikləri müəyyən mənada iki qrupa ayırmaq olar. Birinci qrup əməyin təklifinin dəyişməsi ilə bağlıdır. Belə ki, əmək bazarında bu və ya digər ixtisas üzrə öz əməyini satan işçilərin sayının artması və ya azalması baş verə bilər. Belə dəyişikliklər daim baş verir. Lakin bəzi hallarda belə dəyişmələrin həcmi kiçik, bəzi hallarda isə böyük olur. Əməyin təklifinin kəskin olaraq artması və ya azalması “təklif

şoku” kimi qiymətləndirilə bilər. Bu zaman əməyin təklif əyrisi sağa (təklifin artması) və ya sola (təklifin azalması) baş verir. Əməyə olan tələb dəyişmədiyi halda, təklif əyrisinin sağa və ya sola sürüşməsi əməyin qiymətini artıra (sola sürüşmə zamanı) və ya azalda (sağa sürüşmə zamanı) bilər.

Lee və digərləri tərəfindən aparılan tədqiqatda COVİD-19 pandemiyası nəticəsində itirilən iş yerlərinin müəyyən hissəsinin yaxın zamanlarda bərpa oluna bilməyəcəyi əsaslandırılır və qeyd edilir ki, əmək bazarındakı şok təsirlər uzunmüddətli olacaq. Pandemiyadan sonra yüksək işsizlik və yoxsulluq səviyyəsi, həmçinin gəlirlərdəki qeyri-bərabərlik hələ müəyyən müddət davam edəcək.

Anderton və digərləri tərəfindən yerinə yetirilən tədqiqatda iddia edilir ki, COVİD-19 pandemiyası ilə əlaqədar olaraq, Avropa Birliyinə daxil olan dövlətlərin kompensasiya siyasəti iş yerlərinin saxlanılmasına müəyyən qədər kömək edərək pandemiyanın əmək bazarına mənfi təsirlərini azalda bildi. Tədqiqatda iddia edilir ki, pandemiya nəticəsində yaranan böhran işçi qüvvəsinin paylanmasına zərurət yaradacaq. Böhranın davametmə müddətindən asılı olaraq, işçi qüvvəsinin paylanması da davam edəcək. Pandemiya iqtisadiyyatın rəqəmsallaşmasını xeyli sürətləndirdi. Bu, işçilərin rəqəmsallaşma ilə bağlı bilik və bacarıqlarının da artırılmasına stimul verdi.

Yuxarıda nəzərdən keçirdiyimiz tədqiqatlarda və çoxlu sayda oxşar tədqiqatlarda əmək bazarında həm təklif, həm də tələb həcmindəki şokların yaranmasının müxtəlif səbəbləri var. Bizim tədqiqatda əmək bazarındakı şok dəyişikliklər işğaldan azad olan ərazilərdə geniş həcmdə tikintilərin həyata keçirilməsi ilə baş verə bilər. Digər tərəfdən, həmin ərazilərə vaxtı ilə bu ərazilərdən köçkün düşmüş əhalinin yenidən qayıtması son illərdə onların məskunlaşdığı ərazilərdə, xüsusilə Bakıda əmək bazarına ciddi təsir göstərəcək. Birinci halda tələb şoku, ikinci halda isə təklif şoku yaşana bilər.

- ***Əmək bazarında tələb şokunun təsirləri və onların qiymətləndirilməsi metodları***

Əmək bazarına təsir edə bilən şoklar müxtəlifdir. Yuxarıda qeyd etdiyimiz kimi, xarici şoklara əmək bazarı çox həssasdır. Müharibələr, pandemiyalar, təbii fəlakətlər və sair şoklar iş yerlərinin müvəqqəti olaraq bağlanmasına və ya yeni iş yerlərinin yaranmasına səbəb ola bilər. Məsələn, COVİD-19 zamanı çoxlu sayda iş yerlərinin, xüsusilə xidmət sektorunda bağlanmasına baxmayaraq, İKT sahəsində yüksək ixtisaslı işçilərə tələb kəskin artdı. Yaxud evlərə sifarişlə yemək çatdıran kuryer vəzifələrinə tələb həcmi artdı. Həkim ixtisaslı kadrlar arasında koronovirusla mübarizə aparmaq üçün yeni infeksionist həkimlərin hazırlanması üçün zəruri tədbirlər görüldü. Əmək bazarına şokların təsiri nəticəsində tələb və təklif əyrisinin tarazlığı pozulur və belə tarazlığın təbii mövqeyi ətrafında qısamüddətli dövrdə fluktuasiyalar baş verir. Uzunmüddətli dövr üçün tarazlıq yenidən formalaşır. Belə fluktuasiyaların təsirlərini azaltmaq məqsədilə hökumət stabilləşdirici siyasət həyata keçirir. Məsələn, COVİD-19 pandemiyası zamanı işçilərə tələbin azalması nəticəsində əhalinin mühüm hissəsinin işsiz qalması ev təsərrüfatlarında maddi problemlər yarada bilərdi. Ona görə də hökumət müvəqqəti olaraq, “evdə qal” kampaniyasına qoşulan işçilərə kompensasiya ödəməli oldu.

Əmək bazarında tələb əyrisi şokun mahiyyətindən asılı olaraq, ya sağa, ya da sola sürüşmüş olur. Tutaq ki, hər hansı “t” zamanında əmək bazarında tarazlıq təmin edilib (qrafik 1). Burada “E” tarazlıq nöqtəsidir və əmək bazarında məcmu tarazlıq qiyməti “P”-dir. Fərz edək ki, şok hadisəsinin baş verdiyi qısamüddətli dövrdə əmək bazarında təklif həcmi dəyişmir. Lakin bu zaman tələb həcmi sağa doğru sürüşür. Yəni tələb həcmi çoxalır (qrafik 2).

Belə hadisə bizim tədqiqatımızın mahiyyətinə daha uyğundur. Yəni hökumət işğaldan azad olan ərazilərdə geniş tikinti işlərinin həyata keçirilməsinə start verib. Ölkədə əmək bazarında təklif həcmi dəyişməyib, lakin tikintiyə cəlb edilən şirkətlərin yeni işçi qüvvəsinə tələbi çoxalıb. Bu zaman qısa müddətli dövrdə digər ölkələrdən işçi qüvvəsinin gətirilməsi hələ mümkün deyil, ona görə də təklif həcminin qısa müddətli dövrdə sabit qalacağını fərz edəcəyik. Lakin tələb əyrisinin sağa sürüşməsi əmək bazarındakı təbii tarazlığı pozmuş olur ($AD_1$-dən $AD_2$-yə keçid baş verir). Bu zaman əməyin daha ucuz olması səbəbindən digər sektorlardan tikinti sektoruna axın baş verə bilər. Lakin sonrakı mərhələdə tələbin yüksək olması səbəbindən qısamüddətli dövrdəki “B” nöqtəsindəki tarazlıqdan $AD_2$-üzrə “C” nöqtəsindəki tarazlığa keçid baş verir. “C” tarazlığı uzunmüddətli dövr üçün tarazlıqdır və bu zaman əmək bazarında tələb-təklif tarazlığı $P_2$ qiymətində baş verir. Beləliklə, əmək bazarına şok

təsirlər nəticəsində tələbin sağa sürüşməsi əməyin qiymətinin dəyişməsi ilə baş verir. Əgər şok tələbin azalmasına səbəb olsayda, onda əmək bazarında qiymətlərin azalması baş verərdi.




**Qrafik 1. Əmək bazarında tələb və təklifin tarazlığı**




**Qrafik 2. Əmək bazarında tələb əyrisinin şok nəticəsində sola sürüşməsi**

Qeyd edək ki, əmək bazarına şok təsirlərin pozitiv və ya neqativ hesab edilməsi mövcud vəziyyətlə qiymətləndirilməlidir. Əlbəttə, əmək bazarında qiymətlərin artması nöqteyi-nəzərindən tələb həcmini sağa srüşdürən istənilən şokun təsiri pozitiv hesab edilə bilər. Lakin biznesin inkişafı nöqteyi-nəzərindən bu həm də neqativ hesab edilə bilər. Çünki əmək bazarında qiymətlərin artması həm istehsal məhsullarının, həm də xidmətin qiymətini artırmaqla ölkədə inflyasiyanın sürətlənməsinə səbəb ola bilər. Ona görə də əmək bazarının hər hansı aspektinə pozitiv təsir etməsindən asılı olmayaraq, tələb şokunun yaratdığı fluktuasiyaların zəifləməsi istiqamətində müəyyən stabilləşdirici tədbirlərin həyata keçirilməsi zəruridir.

- ***Əmək bazarında təklif şoku və onun qiymətləndirilməsi metodları***

Əmək bazarında da məcmu iqtisadiyyatda olduğu kimi təklif həcminə şokların təsiri mümkündür. Belə şoklar həm pozitiv, həm də neqativ ola bilər. Təklif həcminə olan şokların təsiri də tələb həcminə olan şokların təsiri kimi neqativ və ya pozitiv ola bilər. Lakin həm məcmu iqtisadiyyatda, həm də onun hər hansı sektorunda qiymətlərə təsir etmək baxımından təklif həcminə olan şoklar diqqəti cəlb edir. Elə buna görə də iqtisadi nəzəriyyədə təklif həcminə olan şokları daha çox qiymət səviyyəsinə təsir kimi xarakterizə edirlər. Təklif həcminə olan pozitiv şoklar zamanı, təklif həcminin sabit olduğu halda, təklif əyrisi sağa doğru hərəkət edərək qiymətlərin azalmasına səbəb olur. Neqativ şok zamanı isə əks proses baş verir. Lakin əmək bazarında bir-birinə zidd iki subyektin, yəni həm muzdlu işçinin, həm də biznesin maraqları toqquşduğundan əməyin qiymətinn azalması muzdlu işçinin sosial rifahına mənfi təsir edir. Qiymətlərin qalxması isə biznes mühitinin əlverişliliyini azaldır. Buna görə də şokların hansı halda pozitiv, hansı halda neqativ xarakterli olması bir qədər mübahisəli mövzudur.




**Qrafik 3. Təklif həcminə neqativ şokların təsiri**




**Qrafik 4. Təklif həcminə pozitiv şokların təsiri**

Qeyd edək ki, əmək bazarına hər hansı səbəbdən yaranan şokların təsirindən qısamüddətli dövrdə tələb əyrisinin sola sürüşməsi tələb-təklif tarazlığını $E_1$ nöqtəsindən $E_2$ nöqtəsinə keçirir

(qrafik 3). Əmək bazarında tələbin dəyişmədiyi halda yeni tarazlıq səviyyəsində qiymətlərin qalxması müşahidə edilir. Bizim tədqiqatımızın timsalında bu, işğaldan azad olunmuş ərazilərdə geniş tikinti fəaliyyətinin başlaması zamanı Bakı və digər regionlarda əməyin təklifinin qısamüddətli dövrdə azalması deməkdir. Bu zaman həmin ərazilərdə əməyin qiymətinin qalxması baş verə bilər.

Əmək bazarına pozitiv təsir edən şoklar mahiyyətcə müxtəlif ola bilər. Məsələn, minimum əmək haqq səviyyəsinin artması əməyin təklifini artıra bilər. MƏH səviyyəsinin artması nəticəsində özüməşğulluq sahəsindən əmək bazarına üz tutan əmək qabiliyyətli işçilərin sayı arta bilər. Bu halda təklif əyrisi sağa doğru yerini dəyişir və əmək bazarında tələb həcminin dəyişmədiyi halda qiymət səviyyəsi aşağı düşür (4). Bu halda tarazlıq nöqtəsi $E_1$-nöqtəsindən $E_2$- nöqtəsinə yerini dəyişir.

Beləliklə, qeyd edə bilərin ki, məcmu iqtisadiyyata və onun ayrı-ayrı sektorlarına təsir edən şoklar mahiyyətcə müxtəlif olsalar da onların təsirinin ümumi qanunauyğunluğu mövcuddur. Belə ki, belə şoklar makroiqtisadi göstəricilərə təsir edərək müxtəlif dərəcəli fluktuasiyalar yaradır. Belə fluktuasiyalar da daha mikrosəviyyədə olan iqtisadi göstəricilər üçün şok təsiri yarada bilərlər. Şoklar həm makrosəviyyədə, həm də mikrosəviyyədə tələb və təklif arasındakı tarazlığı qısamüddətli dövrdə pozurlar. İqtisadi siyasətin digər problemlərin həlli ilə yanaşı, həm də belə şokların təsirini azaltmaq kimi mühüm əhəmiyyətli vəzifələri var.

## ƏDƏBİYYƏT SİYƏHISI:

1. G.Mankiw, (2013) Macroeconomics. Eighth edition. Worth Publishers 41 Madison Avenue New York, NY 10010 www.worthpublishers.com. Pp.294
2. Rapach, D. E. (1998). Macro Shocks and Fluctuations. Journal of Economics and Business, 50(1), 23–38. doi:10.1016/s0148-6195(97)00051-9
3. Horvath, M. (2000). Sectoral shocks and aggregate fluctuations. Journal of Monetary Economics, 45(1), 69–106. doi:10.1016/s0304-3932(99)00044-6
4. Van Aarle, B., & Kappler, M. (2012). Economic sentiment shocks and fluctuations in economic activity in the euro area and the USA. Intereconomics, 47(1), 44–51. doi:10.1007/s10272-012-0405-z
5. Rasaki, M. G., & Malikane, C. (2015). Macroeconomic shocks and fluctuations in African economies. Economic Systems, 39(4), 675–696. doi:10.1016/j.ecosys.2015.02.002
6. Drautzburg, T., Fernández-Villaverde, J., & Guerrón-Quintana, P. (2021). Bargaining shocks and aggregate fluctuations. Journal of Economic Dynamics and Control, 127, 104121. doi:10.1016/j.jedc.2021.104121
7. Bachmann, R., Felder, R. Labour market transitions, shocks and institutions in turbulent times: a cross-country analysis. Empirica 48, 329–352 (2021). https://doi.org/10.1007/s10663-019-09469-y
8. Zhao, N., Shi, Y., Sun, Y., & Miao, J. (2020). Aggregate labor market fluctuations under news shocks. Economic Modelling. doi:10.1016/j.econmod.2019.12.018
9. Borys, P., Doligalski, P., & Kopiec, P. (2021). The quantitative importance of technology and demand shocks for unemployment fluctuations in a shopping economy. Economic Modelling, 101, 105527. doi:10.1016/j.econmod.2021.105527

**Cahangir Bəhmən oğlu MƏMMƏDZADƏ**
Azərbaycan Universiteti, dokturant

# TULLANTILARIN İDARƏ EDİLMƏSİ SAHƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN ƏSASLARI

**Xülasə**

Tullantıların idarə olunması iqtisadi, sosial və ekoloji baxımdan əhəmiyyət kəsb edən məsələlərdən biridir. Bu prosesin yüksək texnologiyadan istidafə və fasiləsizlik prinsipi əsasında qurulması günün tələbi hesab olunur. Onu da nəzərə almaq lazımdır ki, tullantıların idarə olunması təkmil hüquqi bazaya normativ sənədlərə və təlimatlara əsasən reallaşdırılır.

Təqdim olunan elmi məqalədə tullantıların idarə olunması sahəsində qabaqcıl dünya ölkələrinin təcrübəsi və ondan milli iqtisadiyyatda istifadə imkanları nəzərdən keçirilmişdir.

**Açar söz** : tullantı, emal, səmərə, kapital, gəlir, xammal, strategiya

**JEL: M12**

**Giriş**

"Tullantısız ekomühit" formalaşdırmaq hazırda bütün dünya dövlətləri qarşısında duran başlıca ekoloji problemlərdən birinə çevrilmişdir. Bu istiqamətdə bərk məişət tullantılarının toplanması, emalı və zərərsizləşdirilməsi daha problemli məsələlərdən biridir. Şəhər aqlomerasiyalarının inkişafı ilə urbanizasiyanın yaratdığı mənfi ekoloji tendensiyanın aradan qaldırılması, idarəetmə aparatının həll edilməsi müəyyən çətinliklərlə müşayət olunan əsas vəzifəsi kimi xarakterizə edilməyə başlanılmışdır. Ekoloji təsir dərəcəsinə görə problemin əsas mahiyyəti urbanizasiyalı regionlarda formalaşan bərk məişət tullantılarının hazırda toplanması və utilizasiyasında "yandırılma – basdırılma " kimi səmərəsiz tendensiyaya üstünlük verilməsidir .

Cəmiyyətin inkişaf tarixi boyunca xammal istifadəsində olan " hasilat – emal – istehlak – tullantı" zənciri getdikcə sanitar gigyenik, sanitar ekoloji, enerji və təbii ehtiyatlara qənaət, o cümlədən basdırılma üçün torpaq qıtlığı prinsipləri baxımından öz əhəmiyyətini itirməklə, səmərəli həll variantı kimi qəbul olunmur. Formalaşan tullantıların "yandırılma-basdırılma" texnologiyası ilə zərərsizləşdirilməsi , cəmiyyətin hazırkı inkişaf mərhələsində problemin həllində xərclərin artmasına gətirib cıxarmış, enerji və təbii xammalın izafi sərfinə səbəb olmuşdur. Əsas cəhət isə, bu həll yolu ekoloji problem kimi ətraf mühitin çirklənməsinin qarşısının alınmasına imkan verməmiş, sadəcə çirklənmənin daha zərərli təzahürlərinin formalaşmasına səbəb olmuş , tullantılar isə ətraf mühit üçün yeni təhlükəli keyfiyyətlər kəsb etmişdir .

**Tullantıların idarəedilməsi mexanizminin əsasları**. Ekoloji vəziyyətin köklü yaxşılaşdırılması üçün tullantıların idarə olunması üzrə təkmil idarəetmə mexanizminin işlənib hazırlanması və ən müasir texnologiyaların prosesə cəlb edilməsi həyati zəruriyyət kimi meydana çıxmağa başlamışdır. Hazırda bu istiqamətdə geniş diskusiyalar davam edir. BMT daha çox torpaq sahəsini " zəbt " etməklə, onların təsirindən şəhərlərdə sanitar – gigyenik şərait dözülməz xarakter almış , yaşayış mühitində isə zərərli inqridientlərin miqdarı dəfələrlə artaraq yol verilən həddləri ötmüşdür. Yaranmış vəziyyətdən çıxış yolunu müəyyənləşdirmək üçün mütəxəssislər BMT utilizasiyasının həll variantlarını nəzərdən keçirir. Aparılan təhlillər göstərir ki, həll variantları içərisində tullantı yandırma zavodlarının (TYZ ) tikintisinə daha çox üstünlük verilir, onlar daha səmərəli çıxış yolu kimi təqdim olunur. Variantın ekoloji üstünlüklərini və çatışmazlığlarını müəyyənləşdirmək məqsədi ilə onun hərtərəfli təhlil olunması zəruriyyəti meydana çıxır. Dünya təcrübəsinin təhlili göstərir ki, bərk məişət tullantılarının tam yandırılması utilizasiya metodu baxımından ekoloji cəhətdən məqsədəuyğun sayılmır . İkinci bir tərəfdən utilizasiya metodu kimi o, həddindən artıq baha başa gəlir və iqtisadi cəhətdən səmərəsiz variant kimi qiymətləndirilir.Burada səmərəsizlik həm bərk məişət tullantılarının

yandırılması üçün nəzərdə tutulan zavod tikintisinin baha başa gəlməsi, həm də onun istisimarı vaxtı ekoloji baxımdan bütün sanitar tələblərin gözlənilmə mümkünsüzlüyü ilə izah olunmalıdır . Belə bir illüziya yaranır ki, aşağı kalorili yanacaqlarla işləyən TYZ qısa zaman müddəti ərzində kapital xərclərini ödəməyə və tullantı problemlərinin həlli imkanlarına malikdir. Əslində isə istisimar vaxtı bu müəssisələr təmamilə əks tendensiya ilə üzləşmişdir.

Üçuncü bir tərəfdən, bərk məişət tullantılarının yandırılması enerji, resurs qənaəti baxımından müasir ekoloji tendensiyadan kənarda qalır və səmərəli həll yolu kimi qiymətləndirilmir. Axırıncı son 10 il ərzində Avropa regionu dövlətlərində TYZ-nın tikintisinin aparılmaması və köhnə zavodların isə çoxunun AİB tullantı tələblərinə cavab verməməsi səbəbindən bağlanması doğrudan da ekoloji baxımdan variantın səmərəsiz olduğunu sübut edir . Bir əsas fakta diqqət yetirmək lazımdır ki, İnkişaf Etmiş Dövlətlərin çoxunda bərk məişət tullantılarının tam yandırılmasına deyil, onun ancaq emaldan sonra qalan hissəsinin yandırılmasına üstünlük verilir. Belə ki, hazırda ABŞ-da bərk məişət tullantılarının 16% -i, Kanadada 9%-i, AFR-də 35%, Fransada 42%-i, İtaliyada 18%-i, Böyük Britaniyada isə ancaq 7%- i yandırılır [7]. Son dövrlərdə bu göstəricilərdə getdikcə azalma meyillərinin güclənməsi müşahidə olunur. Dünya dövlətləri içərisində Yaponiya istisinalıq təşkil edir. Dövlətin yerləşdiyi Sakit Okean adalarında hazırda irili xırdalı 1900 TYZ fəaliyyət göstərir ki, onlar da təkcə yüksək texniki təminatı ilə digər dövlətlərdəki zavodlardan fərqlənir. Bu zavodlarda Yaponiya ərazisində formalaşan tullantıların ¾ hissəsindən çoxu yandırılmaqla utilizasiya olunur. Ancaq Yaponiya təcrübəsi bizim respublika üçün qəbul edilən sayıla bilməz. Ümumi sahəsi 372,2 min kv. km olan 4 böyük və 4 mindən çox xırda adada yerləşən bu dövlətdə torpaq qıtlığı və hava axınlarının illik gedişinin yaratdığı metroloji şərait problemin həllinə yanaşma variantını qəbul etməyə imkan verdiyi halda Azərbaycan Respublikasında bunların hər ikisi ekoloji baxımdan problemə fərqli yanaşmanı tələb edir. Arid iqlim şəraitində və ərazinin sahəcə Yaponiyadan 4,3 dəfə kiçik ölçüləri problemin həll variantlarının daha dərin araşdırılmasını və sonradan yekun nəticə çıxarmağı əsas vəzifə kimi qarşıya qoyur. Belə ki, nə ərazi ölçüləri, nə də hava axınlarının illik gedişi Yaponiya variantını qəbul etməyə imkan vermir.

AİB- in atmosfer hövzəsinə atılan tullantı limitləri sərtləşdikcə TYZ-nın tikintisinin dayandırılması və fəaliyyətdə olanlarının bağlanması artıq tendensiya xarekteri almışdır . Xüsusən Qeyri Hökümət Təşkilatlarının (QHT) məsələyə müdaxiləsi daha da güclənmişdir. ABŞ və Kanada AİB tendensiyasını davam etdirərək 1990-cı illərdən öz dövlət ərazilərində daha sərt tullantı limitlərinin tədbiqinə dair qanunvericilik aktları qəbul etmiş, nəticədə TYZ-nın tikintisi bərk məişət tullantılarının utilizasiya variantı kimi artıq öz əhəmiyyətini itirməyə başlamışdır. Təkcə son illərdə tullantı limitlərinin sərtləşdirilməsi nəticəsi olaraq ABŞ və Kanada da 100-dən çox, Hollandiyada isə mövcud olan zavodların 1/3 hissəsinin bağlanmasına səbəb olmuşdur. Bununla yanaşı onların 1960-1980-cı illərdən fəaliyyətdə qalan hissəsində köklü yenidənqurma işlərinə başlanılmışdır. Avropa dövlətlərinin bu zavodların yenidən qurulmasına maliyyə sərfi milyard ABŞ dolları səviyyəsini artıq çoxdan keçmişdir. TYZ-nın yaradılmasında "pioner" ölkə sayılan Böyük Britaniyada isə 1996-cı ilin axırlarından bütün bu zavodların bağlanmasına qərar verilmişdir. Hazırda Böyük Britaniyanın 244 min kv. km–dən çox olan ərazisində yüksək dərəcədə yenidənqurma işləri aparılmış iki TYZ və yanacaq balansında briketləşdirilmiş tullantı yanacağının cüzi faiz təşkil etdiyi bir neçə istilik elektirik stansiyası fəaliyyət göstərir [5,s.83]. TYZ-nın tikintisi və layihələndirilməsi ilə məşğul olan şirkətlərin işinə tələbat azalmış, tullantı yandırılmasının iqtisadi cəhətdən baha başa gəlməsi son nəticə kimi təsdiq olunmuşdur. Sahənin inkişafı üçün maliyyə proqnozlarının əlverişsiz olması bu variantın həll yolu kimi istifadə olunacağı ehtimalını tamamilə aradan qaldırmışdır .

Bu variantın ekoloji cəhətdən həll yolu olmadığını iqtisadi təhlillər də sübut edir. Belə ki, TYZ-da yanma prosesləri nəticəsində formalaşan dioksinlərin miqdarının artması, bu zavodları əsas dioksin ixracatçısına çevirmiş , çirkab axınları , duda (qrum ) və digər qaz tullantıları isə tullantı vahidinə düşən maliyyə məsariflərinin güclü şəkildə artmasına şərait yaratmışdır.AİB-nin sərt limitləri şəraitində isə bu zavodlar öz funksional əhəmiyyətini itirmişdir. Güclü

maliyyə böhranı keçirən TYZ-nın tikintisi və layihələndirilməsi ilə məşqul olan xarici şirkətlər artıq öz baxışlarını zəif inkişaf etmiş üçüncü dünya dövlətlərinə, o cümlədən keçmiş İttifaq dövlətlərinə doğru çevirmiş və layihələri üçün yeni bazarlar axtarmağa başlamışdır. Təcüblü də olsa bəzi MDB dövlətləri artıq bu tipli zavodların tikintisini perspektiv inkişaf planlarına daxil etmişdir. Yaxın perspektivdə bu dövlətlərdə 100- dən çox layihənin reallaşdırılması ilə əlaqədar artıq müqavilələr bağlanması da fakt olaraq qalır.

Bərk məişət tullantılarının utilizasiya strategiyasında önəm verilən variantlardan biri də onların poliqonlarda basdırılmasıdır. Variantın texniki–iqtisadi əsaslandırılması üçün əsas argument, onun “daha yaxşı “texnologiyalar meydana çıxana qədər saxlanılmasının sərfəli olmasının üzərində cəmləşdirilməsidir. Belə ki, bu ideyanın reallaşdırılması üçün bir qrup tədqiqatçı belə təhlilə üstünlük verirlər ki, bərk məişət tullantılarının bir tonunun poliqonlarda basdırılması, yandırılmaya nisbətən orta hesabla iki dəfə, hətta sərt iqlim şəraitində beş dəfə ucuz başa gəlir. Bu iqtisadi hesablamalar illüziya yaratsa da ekoloji baxımdan poliqonlarda basdırılma səmərəli variant kimi qəbul olunmur [1,s.251].

Mövcud vəziyyətin təhlili göstərir ki, hazırda iri şəhər aqlomerasiyalarında sanitar – gigyenik baxımından bərk məişət tullantıları ilə əlaqədar bir sıra problemlər formalaşmış və ekoloji vəziyyət daha kritik xarakter almağa başlamışdır. Çoxsaylı zibilliklər, normalara cavab verməyən basdırılma poliqonları minlərlə hektar sahəni sadəcə olaraq, şəhər aqlomerasiyalarından zəbt edərək antisanitar mənbəə çevirmiş, daha doqrusu şəhər ətrafı zibilliklərin yaşayiş areallarına doqru irəliləməsi tendensiyası sürətlənmişdir . Səhralaşma ilə eyni tendensiyaya və sürətə malik olan bu proses, sanitar – gigyenik göstəricilərinə görə “təbii fəlakət “xarekteri kəsb etməyə başlamışdır. Xüsusən “qeyri-qanuni zibil xanalar”in, “qeyri-qanuni poliqon”ların sayının artması, problemə yanaşma tərzində daha köklü tədbirlərin həyata keçirilmə zəruriyyətini birinci dərəcəli vəzifə kimi kəskinləşdirmişdir.

**Tullantıların idarə edilməsi üzrə aparılan təhlil və araşdırmaların ümumi nəticələri.** İnkişaf etmiş dövlətlər üzrə aparılan statistik təhlillər göstərir ki , bərk məişət tullantılarının minimum 15%-i, maksimum isə 50 % -dən çoxu emal olunur. Emalın xüsusi çəkisi bu dövlətlərdə ildən ilə artır. Böyük Britaniya, Almaniya, Skandinaviya və digər dövlətlərdə hüquqi tənzimlənmə aktlarının,eyni zamanda dövlətin maliyyə dəstəyi ilə tullantıların təkrar emalına böyük önəm verilir. Bu zaman siyasətin aparıcı istiqaməti: tullantıların formalaşan həcminin azaldılmasına, yandırılma yolu ilə utilizasiyasının qadağan edilməsinə və təkrar emala üstünlük verilməsi variantları ətrafında formalaşdırılır. Emal siyasətinə üstünlük verilməklə, Almaniyada 1996-cı ildən fəaliyyətdə olan 6874 tullantı basdırılma poliqonunun 2008 –ci ildə demək olar ki, 80% -nin ləğv edilməsinə nail olunmuşdur. Hazırda bu ölkədə kağız–karton qablaşdırıcılarının (taralarının) 93 % -i, mətbuat-qəzet materialları üçün istifadə olunan xammalın isə 75 %- i kağız tullantılarının təkrar emalından əldə edilir. Yandırma və basdırılmadan fərqli olaraq, tullantının emalına üstünlük verilməsi artıq nisbətən zəif inkişaf etmiş dövlətləri də cəlb etməyə başlamışdır. Yeni Sənaye Dövlətləri qrupuna daxil edilən Braziliya Federasiyasının hazırda Kuritiba şəhərində bərk məişət tullantılarının 65 faizindən çoxu emal olunur. Selektivsiz, eyni zamanda emalsız yandırılma və poliqonlarda basdırılmanın çatışmazlıqları haqqında çoxlu faktlar gətirmək olar. Lakin faktların təhlili ilə yanaşı, əksər tədqiqatçılar tərəfindən bütün bunların fonunda konkret həll istiqamətləri təklif olunmursa, onda yaranan problemlərin köklü həllinə imkan vermir. Ona görə yaxın perspektiv üçün daha səmərəli həll variantlarının üzərində dayanılması bir sıra ekoloji problemlərin birdəfəlik aradan qaldırılmasına kömək edərdi ki, bu da BMT- nın risaykling sistemidir.

Bərk məişət tullantılarının utilizasiyasının hazırda dörd əsas variantından: basdırılma, yandırılma, risaykling və kompostlaşdırmadan geniş istifadə olunur. Bioqazlar alınması üçün istifadə olunan qıcqırdılmanı da kompostlaşdırmanın tərkib hissəsi kimi qəbul etmək olar. Bunların içərisində ekoloji təhlükəsiz emal parametrlərinə və iqtisadi səmərəlliyinə görə risaykling əsas yer tutur.

Risaykliنq: bərk məişət tullantılarının istehlak dəyərinə malik olan hissəsinin əmtəlik məhsula çevrilməsi üçün sellektiv yığım və emal sisteminin yaradılması mexanizmidir. Bu, bəşəriyyətin inkişafının yeni dövrü üçün həmin tullantıları utilizasiya strategiyasında əsas önəm verilən ekoloji variant kimi qiymətləndirilən idarəolunma sistemidir [3,s.70] .

Hazırda bir sıra dünya dövlətlərində anayrob komposlaşdırmanın da xüsusi çəkisi artmağa başlamışdır.Özünün ekoloji, iqtisadi göstəriciləri ilə basdırılma və yandırılmadan fərqlənən bu variant emal tsiklinə daxil edilir, onun bir qolu kimi nəzərdən keçirilir. Risayklinq isə prinsipial iqtisadi və ekoloji təhlükəsiz göstəriciləri ilə fərqlənən təmamilə yeni sistemdir.

Risayklinq texnoloji zənciri: bərk məişət tullantılarının təkrar emal üçün yararlı selektiv yığımdan başlayır. Sonrakı proses xammal tipindən asılı olaraq, belə tullantıların sortlaşdırılmasıdır. Bərk məişət tullantılarınıln digər texnoloji zəncir hissəsinə daxil olan tullantılar emala, kompostlaşdırmaya və çox cüzi hissəsi yandırılmaya yönəldilir. Bu utilizasiya baxımından emalın tam tsikilli kompleks prosesidir[2,s.179]. Emal mexanizmi tam qurularsa, burada yandırılma və basdırılmaya çox cüzi təxminən 25-30% həcmində tullantı qalığı qalır. Onları da birketləşdirilmiş az kalorili yanacağa və aktiv kömür istehsalına yönəltməklə tam neytrallaşdırmaq mümkündür. Bəzi tullantılardan isə dəmiri xaric etməklə, onları ekoloji tələblərə cavab verən tikinti blokları istehsalına yöhəltmək mümkündür. Bir sıra tullantıların risayklinqi çox mürəkkəb proses kimi xarakterizə olunur. Bura istifadə olunmuş qurğuşun batereyaları, məişət texhikası və radioelektronika tullantılarını aid etmək olar. Bunun üçün tsikl mərhələsi kimi demontajı (hissələrə ayrılmanı ) texnoloji zəncirə əlavə etmək mümkündür. Kompazisiyalı tullantılar üçün də qeyd olunan stadiya istehlak dəyərinə malik olan təkrar xammalın əldə olunması baxımından ən əhəmiyyətli variant hesab edilir. Avtomobil şinlərinin, laylı plastik materialların risayklinq emalının artıq pilot layihələri həyata keçirilməkdədir.

Risayklingin texniki sərhəddi, bərk məişət tullantılarının qarışığında hər bir tullantı növü üçün müvafiq selektiv növlərə ayırma, emal və eyni zamanda tullantının zəhərlilik xüsusiyyətindən asılı olaraq emalın qeyri-mümkünlük amillərinin nəzərə alınması ilə müəyyənləşdirilir.Texniki sərhəddin ikinci cəhəti risayklinq texnologiyası nəticəsində əldə olunan məhsulların keyfiyyəti ilə də xarakterizə oluna bilər.Belə ki, tullantı kağız qırıntılarından əldə olunmuş mətbəə xammalının rəng və davamlılıq keyfiyyətləri, kondisiyalı sellülozadan alınan məhsulun keyfiyyətlərindən geri qala bilər ki, bu da istehlakçının tələbatına öz təsirini göstərməyə bilməz. Müasir konsepsiyanın əsas mahiyyəti ondan ibarətdir ki, tullantı emal zavodu kiçik müəssisələr şəkilində, hətta dövlətin maliyyə dəstəyi olmadan öz inkişafını tapır. Onların hamısı gəlirlər və iqtisadi maraq prinsiplərindən formalaşır. Hazırda Qərbi Avropada çox saylı bu tipli xüsusi sahibkar müəssisələri “Yaşıl biznes”sferasında fəaliyyət göstərir və onların arasında munisipal sifarişlərinin yerinə yetirilməsi sahəsində güclü rəqabət gedir. Bu tipli sahibkar müəssisələri munisipal sektorun ayrı-ayrı tullantılarının emaıl üzrə artıq ixtisaslaşmışdır. Hazırda Almaniyada risayklinq əsasında 98-dən çox azad sahibkar müəssisəsi fəaliyyət göstərir. Kiçik müəssisələrlə yanaşı risaykliqdə iri şirkətlər də iştirak edir, hansı kı, onların tullantıları ətraf mühüt üçün daha güclü təhlükə yaradır.

Qeyd olunmalıdır ki, dünyanın ən güclü şirkətləri hesab olnnan ATT, Coca-Cola, Dow Chemical, Graham Packaqinq, Mobil, Britsh Petroleum, Plysu Containers, BASF, BMW, Bayer, Henkel Siemens və s. artıq risayklinq yolu ilə tullantıların emalına üstünlük verir. Risayklinq texnologiyalarının geniş tətbiqinə “çirkləndirici” ilə emal edən şirkəti daha yaxından birləşdirən məqsədli dotatsiyalar və fəaliyyətin lissenziyalaşdırılması güclü stimul yaradır. Risayklinq texnologiyalarından istifadə olunmaqla texniki həllini tapmış bir sıra problemlərlə əlaqədar hazırda praktiki təcrübə formalaşmışdır. Belə ki, şüşə, plastiki materiallar, kağız, karton tullantılarının risayklinq texnologiyaları əsasında emalının xarici təcrübə variantları göstərir ki, onların hər bir dövlət şəraitində tətbiqi mümkündür və o, işsizlik problemini həll etməklə ətraf mühiti kütləvi tullantılardan azad edir, eyni zamanda güclu gəlir gətirən sahədir. İqtisadi və ekoloji baxımdan bu sistem tullantıların yandırılması, basdırılmasından qat-qat səmərəli hesab olunur. Hətta bu sistemlə müqayisədə tullantıların brekitləşdirilməsi də

baha başa gəldiyindən səmərəsiz variant kimi qiymətləndirilir.

Bərk məişət tullantıları içərisində şüşə tullantılarının emalı iqtisadi cəhətdən daha səmərəli hesab olunur. Bura əsasən şərab şüşə taraları, xarici şüşə qablar, pəncərə şüşə qırıntıları və s. daxil edilir. Emal prosesində bunların yenidən şüşə taralara və ya şüşə listlərinə çevrilməsi heç də zəruri deyil. Daha səmərəli emal variantları – şüşə üzlüklü tikinti materialları istehsal texnologiyası artıq geniş tətbiq olunur. Pəncərə şüşə qırıntılarını isə şüşə liflərə, kəsici materiallara, şüşə bloklara, elektrik izolyatorlarına, gecə küçə, stol üstü lampaların üzlüklərinə çevirmək mümkündür. Almaniyada bu məqsədlə artıq bütün şüşə tullantılarının rəglərinə görə toplanması prosesi həyata keçirilir. Bu məqsədlə küçələrdə rəglərinə görə fərqlənən kontenirlər yerləşdirilir. Nəticədə növlərə görə bölgüyə istehlakçıların kütləvi cəlb edilməsi sonradan əl əməyinə çəkilən xərclərin əhəmiyyətli dərəcədə azalmasına imkan verir. Həmçinin şüşə qırıntılarının emalı prosesi enerji xərclərinin 30-40 % azalmsı ilə nəticələnir.

İstifadə olunmuş plastik materialların da əmtəəlik qranulata çevrilməsinin və ondan plastmas turbaların, müxtəlif tipli taraların və xalq təlabat mallarının istehsalinda istifadəsinin yeni texniki həll variatları da artıq işlənmişdir.Plastik tullantılardan həmçinin yüksək texnologiyalı məhsullar maşın detalları və kimyəvi liflər istehsalında istifadə oluna bilər.İstifadə olunmuş plastik tullantıların məişət kimyası məhsulları taralarına , yeşiklərə , altlıqlara ,konteynerlərə və mebellər istehsalında istifadəsi mümkün variant kimi qiymətləndirilir.

**Nəticə**

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasında bərk məişət tullantılarının utilizasiyası ilə əlaqədar hərtərəfli güclü iqtisadi nəticələri ilə seçilən risaykling strategiyasının tətbiqinə qərar verilməli və həyata keçirilmə mexanizmi yaradılmalıdır. Artıq ətraf mühiti daha çox təsirə məruz qoyan xərc mexanizmindən əl çəkib yeni iqtisadi risaykling mexanizminə üstünlük verilməlidir. Bir sözlə, daha çox səbəblər üzərində işləmək gəlir gətirir, nəyinki ətraf mühitə zərər vuran nəticələrin aradan qaldırılmasına vaxt sərf etmək.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Williams Paul T. Waste treatment and disposal. // John Wiley & Sons, Ltd., 2nd edition , 2005, 380 pp.
2. Hickman Jr. H. L. Principles of integrated solid waste management / American Academy of Environmental Engineers // U.S. Department of Energy Office of Scientific and Technical Information, 2009, 659 pp.
3. Ландеховская М.П., Сидоренко С.Н. Подходы к организации раздельного сбора отходов у населения. Вестник Российского университета дружбы народов. Серия: Экология и безопасность жизнедеятельности, 2019, №3, с.69-71
4. Canterbury J. L. & Hui G. Rate Structure Design: Setting Rates for a Pay-asyou-throw Program. US Environmental Protection Agency, Solid Waste and Emergency Response, 1999, p.34
5. Detzel A., Griegrich J., Kruger M., Mohler S., Ostermayer A. Okobilanz fur PET-Einwegsysteme unter Berucksichtigung der Sekundarprodukte. Endbericht. IFEU GmbH, Heidelberg, 2004, 162pp.
6. Indicators of Sustainable Development: Guidelines and Methodologies Third Edition. October 2007. United Nations, 2007. p 99.
7. Minisipal Waste/Eurostar News Release, 2010, 3p
8. The Little Green Data Book 2006. Word Bank, Washington DC, 2006 p 256
9. https://www.tamizshahar.az/az
10. https://eco.gov.az/
11. https://www.worldbank.org/en/home

**Джахангир Бахман оглы МАМЕДЗАДЕ**
Университет Азербайджан, докторант

## ОСНОВЫ МЕЖДУНАРОДНОЙ ПРАКТИКИ В СФЕРЕ ОБРАЩЕНИЯ С ОТХОДАМИ

### Резюме

Управление отходами является одним из вопросов экономического, социального и экологического значения. Построение этого процесса на основе использования высоких технологий и принципа преемственности считается потребностью дня. Также следует учитывать, что обращение с отходами осуществляется на основе развитой законодательной базы, нормативных документов и инструкций.

В представленной научной статье рассмотрен опыт передовых стран в сфере обращения с отходами и возможности его использования в народном хозяйстве.

**Ключевые слова**: отходы, переработка, эффективность, капитал, доход, сырье, стратегия.

**Jahangir Bahman oglu MAMMADZADE**
Azerbaijan University, doctoral student

## BASICS OF INTERNATIONAL PRACTICE IN THE FIELD OF WASTE MANAGEMENT

### Summary

Waste management is one of the issues of economic, social and environmental importance. Establishing this process on the basis of the use of high technology and the principle of continuity is considered the need of the day. It should also be taken into account that waste management is implemented based on the advanced legal framework, normative documents and guidelines.

In the presented scientific article, the experience of advanced countries in the field of waste management and the possibilities of its use in the national economy were reviewed.

**Key words**: waste, processing, efficiency, capital, income, raw materials, strategy

**Qurban Rauf oğlu MİRZƏYEV**
Azərbaycan Dövlət Aqrqr Universitetinin dissertantı

# LİZİNQ ƏMƏLİYYATLARININ UÇOTU VƏ AUDİTİ ÜZRƏ STANDARTLARIN TƏLƏBLƏRİNƏ UYĞUN AVTOMATLAŞDIRILMANIN ƏSAS İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə əsasən ölkədə lizinq əməliyyatlarının uçotu və auditi üzrə avtomatlaşmanın və proqram təminatlarının istifadəsi, faydalılığı və problemləri diqqətə çatdırılmışdır. Belə ki, artıq uçotun təşkili məsələlərində müasir qaydaların tələbləri, yeni çağrışlar və informasiya axınında əsasən, faydalı, mötəbər, etibarlı, qərəzsiz keyfiyyətlərə malik məlumatların toplanması öhdəliyi yaranır. Mühasibat uçotunun müasir fəlsəfəsi kimi düzgün qərarların qəbulunda göstərilən bu və digər keyfiyyət göstəriciləri olmadan hər hansı faydadan danışmaq olmaz. Ona görə də, məlumat bazasının keyfiyyətli informasiya ilə təmininin əsas istiqamətlərindən biri də, bu məlumatların düzgün toplanması, suni intelekt alətlərindən istifadə və məlumatların müasir standartların tələbləri əsasında yoxlanmasından keçir. Məqalədə bu istiqamətlər detallı və müasir təhlillərə əsaslanaraq göstərilmiş və bir sıra lizinq əməliyyatı subyektlərinə konkret təkliflər verilmişdir.

**Açar sözlər:** lizinq, uçot, auditin təşkili, MHBS, proqram təminatı, avtomatlaşma.

**JEL: J00**

## Giriş

Müasir iqtisadi mühitin tələblərindən biri maliyyə resuslarına çıxışın sadələşdirilməsi və bütün maddi nemətlər yaradan şəxslərə əlçatanlığıdır. Bu maliyyələşmə üsulu Azərbaycanda da geniş istifadə edilir və əsasən dövlət və ya digər mənbələrdə subsidiya şəklində aparılır. Lizinq fəaliyyəti elə münasibətlər toplusuna çevrilir ki, burada mövcud olan şərtlər sonda faydanın formalaşmasına və ya necə formalaşmasına şəffaf və ağlabatan təsəvvür yaradır. Həmçinin, şəxsi kapitalını kənara çıxarmadan istehsal alətlərini icarə münasibətinə daxil olmaqla sonradan özününküləşdirmək imkanı tanıyan fəaliyyət, əlbəttə, bütün dünyada tanındığı kimi ölkəmizdə də bir çox fəaliyyət istiqamətlərində istifadə edilir. Bu fəaliyyət istiqaməti istər lizinqverənə, istərsə də lizinqalana öhdəlik yaradır ki, təsərrüfat subyekti mühasibat uçotu aparsın. Qanunda mühasibat uçotunun məcburiliyi haqqında göstərilir ki, *"bütün mühasibat uçotu subyektlərində mühasibat uçotunun bu Qanunla müəyyən edilmiş müvafiq mühasibat uçotu standartlarına və uçot qaydalarına uyğun aparılması məcburidir"* [1]. Belə ki, ölkəmizdə mövcüd olan (sonradan qüvvəsini itirmiş) "Lizinq fəaliyyəti haqqında" Qanun bu sahədə hüquqi bazanın formalaşmasına, tərəflərin və aidiyyatı şəxslərin hüquq və vəzifələrini, əqdlərin formalaşmasını, nəzarətin təşkilini, fors-major hallarını və digər tərəfləri təmzimləsə də, mühasibatlıq və audit mövqelərinə toxunmur [2]. Bu sahə konkret olaraq mühasibat uçotunun və audit işinin təşkili üzrə müasir standartların təsir dairəsinə verilir. Əlbəttə, lizinq münasibətlərinin formalaşmasına Mərkəzi Bank, Vergi Xidməti və digər icra orqanları təsir edir, lakin, uçot və audit xidmətləri təsərrüfat nöqteyi-nəzərindən vacib məsələdir.

Apardığımız araşdırmalarımıza əsasən lizinqin uçot xüsusiyyətlərinin və yoxlama-nəzarət tədbirlərinin müasir üsullara uyğunluğunu elə bu sahə üzrə tanınmış maliyyə mütəxəssislərindən, auditorlardan, ənənəvi mühasibatlıq sahəsində fəaliyyəti olan şəxslərdən, iqtisadçı alimlərin fikirlərindən, bir sözlə həm empirik, həm də dialektik metodlardan istifadə edilmişdir. Hesab edirik ki, ölkəmizdə lizinq əməliyyatlarının uçotunun vacibliyini aşağıdakı şəkillə təsvir etmək olar.

Göründüyü kimi lizinq əməliyyatlarının uçotunun konseptual əsaslarda göstərilmiş keyfiyyət göstəricilərinə əsasən təşkil edilməsi böyük əhəmiyyət kəsb edir. Araşdırmalarımızdan da məlum olduğu kimi düzgün toplanmış məlumatlar ancaq müasir texnologiyalara əsaslanmış uçot qaydalarından asılıdır ki, bu da müasir audit işinin qurulmasında müstəsnalıq təşkil edir.

### Lizinq uçotunun avtomatlaşdırılması və proqram təminatlarının əhəmiyyəti

Son zamanlar uçot məlumatlarının çoxluğu və uçota qoyulan tələblər demək olar ki, bütün uçot

istifadəçilərini məcbur edir ki, avtomatlaşdırılmış uçot formalarından, daha doğrusu mühasibatlıq üzrə proqram təminatlarından istifadə etsin. Dolayısı ilə məlumatın emalı, risklərin azaldılması, işçilər üzrə birbaşa izafi əməyin azalması və dolayısı ilə xərclərin minimuma salınması, digər xərclərin (kağız, nəqliyyat, audit və s.) azalması ilə mənfəət normasının artırılmasına nail olunması deməkdir. Lakin lizinq əməliyyatlarının uçotunun avtomatlaşdırılması sadə proses olmayıb bir sıra məsələlərin həllindən keçir. Lizinq uçotunun avtomatlaşdırılması əsasən aşağıdakı mərhələlərdən təşkil edilir:

1. ***Lizinq əməliyyatları üzrə münasib mühasibat proqramın seçilməsi mərhələsi:*** Bu mərhələdə müəssisələr əsasən lizinq əməliyyatlarının mühasibat uçotu tələblərini yerinə yetirə biləcək və MHBS uyğun mühasibat proqramını seçməlidirlər. Seçimdə əsasən lizinq alan və lizinq verən tərəflərə uyğunlaşdırılmış proqram təminatları seçilməlidir. Məsələn, lizinq alan tərəf əməliyyatı adi öhdəlik alan tərəf kimi aparsa da, lizinq verən tərəf mütləq verilmiş borcun "təqvim cədvəllər", ödənişlərin daxil edilməsi və müştərilərin fərdi uçotu, lizinq portfelinin bölgüsü və sair uçot məlumatlarının qeyd edilməsini yerinə yetirə biləcək şəkildə olmalıdır.

Lizinq əməliyyatlarının uçotunun vaciblik göstəriciləri. *şəkil 1.*

| | |
|---|---|
| ***Beynəlxalq standartlara uyğungəlmə***: ölkədə lizinq əməliyyatlarının uçotu BMHS əsasında təşkil edilməlidir. Lizinqalan və lizinqverən öz uçotunda və maliyyə hesabatlarında Konseptual Əsasların tələblərinə sadiqlik nümayiş etdirməlidirlər. | ***Maddi ehtiyatlardan effektiv istifadə***: Uçotda investisiya ehtiyacları daha çox olan sahələrə yönəldilməsini təmin etmək üçün düzgün məlumatların topanmasını təmin etmək. Uçot resursların optimal bölüşdürülməsini, likvidlik riskinin yumşaldılmasını və pul ehtiyaclarının düzgün istiqamətləndirilməsini təmin etməlidir. |
| ***Mənfəət yönümlü və aktivlərin müsbət artım tempi:*** Təsərrüfat subyektlərində lizinq yolu ilə aktivlərin müsbət artım tempi həmçinin özü ilə maliyyə nəticələrinin artmasına , səmərəlilik göstəricilərində, iqtisadiyyatın digər sahələrində innovasiyaların və rəqabətədavamlılığın artırılmasını da şərtləndirir. | ***Maliyyə mənbələrinə əlçatanlıq***: Düzgün maliyyə hesabatları, MHBS görə uçotun qurulması BAS əsaslı audit işinin təşkili təşkilata kredit və ya borc alınmasında etibarliliq indiqatoru rolunu oynayacaq. Bu isə maliyyə loyallığını artırmaqla istənilən yerli və xarıcı nvestorlardan, maliyyə institutlarından vəsaitlərin cəlb edilməsində müstəsna şərait yaradacaqdır. |
| ***Risklərin idarə edilməsi***: Ədalətlilik prinsipinə əsaslanan uçot risklərin idarə edilməsinə və qiymətləndirilməsinə əsas verir. Belə ki, tərəflər cari öhdəlik və aktivlərini düzgün uçota almaqla və avadanlıqlara görə öhdəliyin xarici valyutada ödənilməsinə zaminlik verməklə bir sıra riskə məruz dəyər formalaşdıra bilər. Bu kimi riskləri ancaq uçotun və nəzarətin standartlar əsasında təşkili zamanı yumşaltmalara nail olunması mümkündür. Lizinqdə bir çox hallarda (əsasən lizinqverən tərəf) kredit portfelinə əsasən kredit riskini də nəzarətdə saxlamalıdır. | ***Əhəmiyyətli qərarların qəbulu və şəffaflıq:*** Düzgün uçot məlumatları əhəmiyyətli qərarların əsası olduğundan subyektlər çalışır ki, mahiyyətin formadan üstünlüyünə fikir versinlər. Düzgün qərarlar isə özlüyündə həm pul vəsaitinə qənaət həm də faydanın artırılmasına zəmanətdir. Şəffaf təqdim etməyə əsasən lizinqə götürülmüş aktivlərin və öhdəliklərin standartın tələbinə görə tanınmasını, açıqlanmasını, qiymətləndirilməsini və ölçülməsini təmin etməklə əlaqəli tərəflərə etibarlı məlumatlar təqdim edir.<br><br>***Qaydalara Əməletmə***: Yerli qanun və qaydalara uyğunluğun qiymətləndirilməsi gələcəkdə gözləniləbilən öhdəliklərdən xilas olmağa və güzəştlərdən faydalanmağa şərait yaradacaqdır.Bu sahədə audit işinin də düzgün təşkili əsas faydalardan hesab edilir. |

*Cədvəl müəllif tərəfindən hazırlanıb*

2. ***Məlumat bazasının yaradılması, informasiyanın bazaya daxil edilməsi və müxtəlf inteqrasiyalar imkanı***: Mühasibat proqramını əsasən fəaliyyət istiqamətinə, işin həcminə, yerli qanunvericiliyin və MHBS-in tələblərinə müvafiq

olaraq quraşdırılması lazımdır. Bundan sonra müvafiq informasiyalar sistemin tələbləri əsasında daxil edilməlidir. Müasir proqram təminatlarında əsasən aşağıdakı modullarla təmin olunma mükəlləfiyyəti yaranır: a) mühasibat uçotu modulu; b) müəssisə resurslarının planlaşdırılması (ERP) modulu; c) müştəri münasibətlərinin idarə edilməsi (CRM) modulu, d) inzibati hissə modulu və s. ) köməkçi altsistem modulları.

3. ***Lizinqin tanınması və təqdim edilməsi***: Müasir proqram təminatı lizinq əməliyyatlarının uçotunu MHBS əsasında (BMHS 16) ya ənənəvi mühasibat üsullarının bəzi aspeklərinə toxunmaqla, ya da konkret olaraq yerli qanunvercilik bazası əsasında formalaşmış uçot/audit sistemlərindən istifadə edir. İstənilən halda balansda təqdim edilmə və tanınma (aktivlərinin və öhdəliklərin) avtomatlaşdırılmalıdır. Buraya əsas hissə və faizləri avtomatlaşdırılmış şablon cədvəllər daxil olmalı, nəticə kimi isə lizinq ödənişləri avtomatik hesablanaraq müvafiq müxabirləşmələr verilməlidir.

4. ***Avtomatlaşdırılmış hesablamalar:*** Bu hesablamalara əsasən TTA üzrə köhnəlmələrin uçotu, hesablanmış faiz xərcləri, icarə müddətinin yenilənməsi, balans hesabatının və digər maliyyə hesabatlarının hazırlanması, əməliyyatlar üzrə bütün müxabirləşmələrin verilməsi və sair məsələlər daxildir. Əsas hissələrin avtomatlaşdırılması sistemə subyektiv yanaşılmanı və müvafiq risklərin yaranmasını minimuma endirir.

5. ***Hesabatlar və açıqlamalar***: Mühasibat uçotu üzrə proqram təminatı lizinq əməliyyatlarını tam, dolğun və fasiləsiz olaraq bildiyimiz bütün maliyyə hesabatlarında: balans hesabatında, mənfəət və zərər hesabatında, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatda əks etdirməli və MHBS əsasında açıqlamalıdır. Bura həmçinin qeydlərdə yazılacaq lizinq haqqında ətraflı məlumat daxil edilməli və standartlara uyğun olan açıqlama tələbləri sadələşməlidir.

6. ***Lizinqin idarə edilməsi və proseslərin yoxlanması:*** Düzgün seçilmiş proqram təminatı lizinqin izlənməsini, çatışmazlıqları və müqavilənin tam olaraq nəzarətini təmin edir. Bura müvafiq xatırlamalar, qeydlər, sənəd dövriyyəsinin idarə edilməsi və digər xəbərdarlıqlar daxildir. Nəzərdə saxlamaq lazımdır ki, standartlarda və qanunvericilikdə edilən dəyişikliklər mütləq proqramda da yenilənməlidir. Bu sistemin yoxlanması, verilən komandaların düzgün işlənməsi və ümimi sistemin səmərəli idarə edilməsində vacib məsələdir.

7. ***Sistemin auditi və məlumat bazasının təhlükəsizliyi***: Avtomatlaşdırılmış uçot digər modul audit prosesini asanlaşdırır. Burada sistem auditi proqram tərəfindən özünü yoxlama və yenidən yoxlama xarakterlidir. Əsas yoxlama istiqamətləri bunlardır: MHBS üzrə, BAS üzrə, məlumat və sistem təhlükəsizliyi üzrə və nəticələrin rasional yoxlanması üzrə.

Yuxarıda qeyd edilənlərdən də görürük ki, lizinq uçotunun avtomatlaşdırılması digər fəaliyyət sahələrində olduğu kimi müəssisələrdə səmərəliliyi artırır, riskləri minimuma salır, dəqiqliyə və hesabatların vaxtında təqdim olunmasına imkan verir. Beləliklə də, ehtiyatlardan səmərəli istifadə edərək, qərarların qəbulunda daha obyektiv yanaşmanı təmin edir.

Müasir dövrdə inkişaf etmiş ölkələr üzrə müxtəlif tələblərə cavab verən bir sıra lizinq uçotu üzrə proqram təminatları mövcuddur. Bunlarla aşağıdakı cədvəl vasitəsi ilə tanış olmaq olar:

Cədvəldən də göründüyü kimi, proqram təminatlarının seçimi təşkilatınızın xüsusi ehtiyaclarına və tələblərinə əsaslanmalı, əsasən icarə portfelinizin həcmi, konsalidasiya proseslərinə görə tələblər, digər sistemlərə inteqrasiya imkanları nəzərə alınmalıdır. 2022-ci ilin məlumatlarına əsasən, Azərbaycanda geniş şəkildə tanınan xüsusi lizinq proqram təminatı yoxdur. Bu uçot əsasən 1C və ya AzMuhasib vasitəsi ilə proqramın tərkibində yaradılmış TTA bölməsində aparılır. Hesab edirik ki, gələcəkdə lizinq portfelinin artması və lizinq imkanlarından (növlərindən) tam istifadə etməklə daha inkişaf etmiş ölkələnin xüsusi təyinatlı proqram təminatlarından istifadə ediləcəkdir.

***Lizinq mühasibat uçotu üçün mühasibat proqramının auditi necə aparılmalıdır.***

Hər bir uçot işinin düzgün qurulması və qiymətləndirilməsi onun dolğun və müasir standartlara uyğun auditindən keçir. Bu baxımdan təşkilat öz uçotunun auditinə tam etibar etməsi üçün həm də auditin bir hissəsi hesab edilən sistem (proqram təminatı) auditinin yoxlanmasını da aparmalıdır. Mühasibat uçotu proqramını audit edərkən "auditor əsasən proqramın tərkib hissəsi olan modulların düzgün işləməsini, proqrama icazəli daxil olmanı (programm key), əməliyyatların standartlara və yerli qanunvericiliyə uyğun təşkilini və sair məsələlərin həllini yoxlamalıdır" [5].

**Cədvəl 2**

**Lizinq uçotunun aparılmasında istifadə edilən proqram təminatları**

| *s/s* | *Proqramın adı* | *Qısa xüsusiyyətləri* |
|---|---|---|
| *1* | LeaseQuery | LeaseQuery təşkilatlara IFRS 16 icarə uçotu standartlarına uyğunlaşmaqda kömək edən hərtərəfli icarə mühasibat proqramıdır. O, icarə təsnifatı, icarə dəyişiklikləri, icarə öhdəliklərinin və aktivlərinin hesablanması, icarə amortizasiyası və maliyyə hesabatı üçün funksiyalar təklif edir. |
| *2* | CoStar İcarə Mühasibatlığı | CoStar İcarə Mühasibatlığı da LeaseQuery kimi BMHS 16-ya uyğun olaraq icarə uçotunun aparılmasına hər tərəfli kömək edir. Lakin əsas fərq bu proqramın bulud əsaslı proqram olmasıdır. Bu isə məlumat bazasının geniş imkanları və məlumatın digər ərazidə saxlanması deməkdir. Burada əsasən icarənin təsnifatı, icarə ödənişi hesablamaları, icarə müddətinin idarə edilməsi və maliyyə hesabatları ilə əlaqəli modullar mövcuddur. |
| *3* | ProLease | ProLease proqramı icarəyə verən və icarə portfellərinə malik olan təşkilatlara bu portfelləri idarə etməyə və hesablarda əks etdirən mühasibat proqramıdır. Bu proqram əsasən icarə tərəflərinin, onların icarə mühasibat hesablamalarının, icarə münasibətlərində iştirak edən daşınmaz əmlak portfelinin idarə edilməsi və hesabatı üçün funksional modullar təklif edir. |
| *4* | Vizual İcarə | Vizual İcarə ən şox ABŞ-da ASC 842, BMHS 16 və GASB 87-yə uyğunlaşdırılmış maliyyə/idarəetmə proqram təminatıdır. Bu proqram icarə təsnifatı, avtomatlaşdırılmış uçot jurnalı, icarə ödənişləri və icarə üzrə maliyyə/idarəetmə hazırlayır. Bu proqramın əsas fərqli tərəfi 87 saylı Dövlət Mühasibat Uçotu Standartlar Şurasının İcarə adlı (Statement No. 87 of the Governmental Accounting Standards Board “Leases”) təlimatının tələblərini yernə yetirməsidir. Hesab edirik ki, bu tələblər MHBS tələblərindən çox da fərqli olmadığına görə yerli təsərrüfat subyektlərində də keçərli ola bilər. |
| *5* | LeaseAccelerator | LeaseAccelerator təsərrüfat subyektlərinə IFRS 16 uyğun gələn icarə uçotu proqramı olub, icarənin təsnifləşməsini, amortizasiyası və ödəniş hesablamalarını qüsursuz uçota alır. Proqram tərəfindən hazırlanan maliyyə hesabatları isə əsasən standartların tələblərinə tam cavab verməsi ilə digər proqramlardan seçilir. Məsələn, yenilənmiş modullarda izahlı qeydlərin daha detallı təqdimatı demək olar ki, bu proqram təminatı ilə daha etibarlı hesab edilir. |
| *6* | LeaseCrunch | LeaseCrunch adlı proqram təminatı əsasən KOS subyektləri üçün daha cəzbedicidir. Bu proqram vasitəsi ilə əsasən kiçik həcmli uçot əməliyyatlarının aparılmasına görə lazım olan bütün uçot qaydaları təşkil edilmişdir. Proqramda jurnallar, lazımi reystrlər, sənəd çapı, hesabatlar və sair məsələlər öz həllini tapmışdır. |
| *7* | AzMühasib | AzMühasib yerli proqram təminatı olub əsasən lizinq əməliyyatlarının sənədləşmə və uçotu, həmçinin lizinqlə alınmış uzunmüddətli aktivlərin sintetik və analitik uçotunu aparır. Əməliyyatların hesabatlarda tam avtomatlaşdırılmış elektron rejimdə yerinə yetirilməsi imkanları gələcəkdə xərcləri azaltmaqla yanaşı riskləri də əhəmiyyətli şəkildə minumuna salmaqla mənfəət marjasının artırılmasına təkan vermiş olur. |
| *8* | 1C | Demək olar ki, ölkədə bir çox lizinq əməliyyatlarının uçotu əsasən bu proqramla aparılır. 1C 8.3-də lizinqin uçotu proqramda mərhələlərlə aparılır: a) lizinq razılaşması əminliyini təmin edən müqavilə hazırlanır; b) müqavilələr fərqləndirilir: *icarəçinin balansında olan icarə obyekti və ya icarəyə verənin balansında olan icarə obyekti.* Proqram “icarəyə verənin balansında” göstərilərsə, o zaman alınmış TTA 001 saylı “İcarəyə götürülmüş əsas vəsaitlər” adlı hesab üzrə balansdankənar hesabda qeyd olunur. Əgər “icarə alanın balansında” göstərilərsə, onda 08 saylı “Dövriyyədənkənar aktivlərə investisiyalar” hesabı üzrə uçot aparılır. Etiraf etməliyik ki, bu hesablar əsasən milli uçot xarakterinə uyğun olmadığından yenidən düzəlişlərə məruz qalmaqdadır. Lakin hesab edirik ki, mahiyyət etibarı ilə kommersiya təşkilatları üçün hesablar planının uyğunlaşdırlmış hesablarından istifadə mümkündür. |

Cədvəl müəllif tərəfindən hazırlanmışdır.

**Şəkil 2.**

***Proqram auditinin mərhələləri***




*Şəkil müəllif tərəfindən hazırlanmışdır.*

Mühasibat proqramının auditi ilə bağlı əsasən mərhələlər aparılmalıdır (Şəkil 2)

Aparılan araşdırmalardan da görünür ki, auditorlar təkcə icarə uçotunun xüsusiyyətlərini bilməklə yanaşı, həm də uçotun avtomatlaşdırılmış sistemlərdə bu uçotun aparılması qaydalarını, proqram təminatlarının hazırlandığı sistemlər barəsində məlumatları, modulların birbirinə olan təsirliliyi, sistem xətaları və riskləri, hesablamanın imkanları üzrə limitləri (riyazi hesablamalara görə hansı hədlərdə səhvlər yarana bilər), uzaqdan idarəedilmə və "çarpaz yoxlamaların" sistem tərəfindən aparılması imkanları və digər informasiyalar barəsində müfəssəl məlumatları olmalıdır. Digər məsələ lizinq proqramlarının yoxlanmasında düzgün yoxlama alqoritminin hazırlanması məsələdir. Hesab edirik ki, lizinq proqramları üçün "audit alqoritmi aşağıdakı şəkildə hazırlana bilər:

a) Bu sahə üzrə qanunvericilik bazasını, təlimatları və standartları başa düşməlisiz;

b) Əsaslanmış hesablama məntiqinə əsasən ilkin və yekun hesablamaların aparılmasına nail olunmalıdır;

c) Məlumatların daxil edilməsində insan faktorunun araşdırılması üçün alətlərin yaradılması və giriş informasıyanın sənədlər əsasında yenidən yoxlanması;

d) Uyğunsuzluq və ya səhvlərin tapılmasından sonra bu səhvlərin idarə edilməsi mexanizmləri üçün köməkçi modullar hazırlanmalıdır;

e) Üzləşdirmələr aparın ki, sintetik hesablar analitik hesablarla, ilkin sənədlər icmal sənədlərlə, baş kitabla sınaq balansı arasında fərqləri müəyyən edə biləsiniz.

f) Təhlillərin aparılmasında imkanları yoxlayın. Burada əsasən sistemin "oynaqlığını" (flexible) və daha çox istifadəçilərə rahatlığını yoxlayın;

g) Audit prosesinin rəsmiləşdirilməsi əsasən gələcəkdə yenidən yoxlama zamanı etibarlı sistemin yaradılmasına köməklik edir. Bu baxımdan, audit prosesinin sənədləşməsindən sonra hər hansı uyğunsuzluq və səhvlər də daxil olmaqla, nəticələri ümumiləşdirən hesabatlar yaradılmalıdır. Bu sonunda təkmilləşdirmələrə uyğunlaşmaq üçün yaradılmış alqoritmləri mütəmadi olaraq yenilənməsinə və yenidən təkmilləşdirilməsinə stimul verəcəkdir;

h) Son mərhələ kimi yenidən yoxlama və təsdiqetmədir. Burada bir sıra yoxlanılmış ssenarilər üzrə alqoritmlərin effektivliyini və düzgünlüyünü yoxlamaqla etibarlı nəticələrin əldə edilməsinə nail olun" [6].

Göründüyü kimi, proqramların yoxlama alqoritmi ilə təşkilatların xüsusi ehtiyaclarını, tətbiq olunan təlimatlar, qanunlar və standartlarına olan adekvatlığını təmin edir və lizinq sahəsində fəaliyyət göstərən mühasiblər, proqramistlər və auditorlar üçün son dərəcə vacib əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" Qanunu. 29 iyun 2004-cü il tarixli 716-IIQ saylı.

2. Azərbaycan Respublikasının "Lizinq xidməti haqqında" Qanunu. 29 noyabr 1994-cü il tarixli 930 saylı.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının "30"yanvar2017-ci il tarixli Q-01 №li Qərarı ilə təsdiq edilmişdir "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Əsasən Mühasibat Uçotunun Aparılması Qaydaları"

4. "Auditin planlaşdırılması" standartı. Auditor Palatanın rəhbərliyi ilə. İnternet resus: *https://e-qanun.az/framework/11177*

5. Ə.S.Salahov "Mühasibat uçotunun kompüterləşməsi" Bakı-2008. Kooperasiya nəşriyyatı, 236 səh.

6. P.E.Muxtarova və başqaları "Audit" dərslik. Bakı-2019. Mütərcim, 588 səhifə

**Гурбан Рауф оглы МИРЗАЕВ**
Диссертант АГАУ, Азербайджан

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ АВТОМАТИЗАЦИИ В СООТВЕТСТВИИ С ТРЕБОВАНИЯМИ СТАНДАРТОВ ПО УЧЕТУ И АУДИТУ ЛИЗИНГОВЫХ ОПЕРАЦИЙ

**Резюме**

Статья посвящена использованию, полезности и проблемам автоматизации и программного обеспечения для учета и аудита лизинговых операций в стране. Таким образом, обязанность собирать информацию с полезными, авторитетными, достоверными и беспристрастными качествами возникает исходя из требований современных правил, новых ассоциаций и информационных потоков в вопросах организации бухгалтерского учета. Без этих и других показателей качества, проявленных при принятии правильных решений, таких как современная философия бухгалтерского учета, нельзя говорить ни о какой пользе. Поэтому одним из основных направлений обеспечения базы качественной информацией является правильный сбор этих данных, использование средств искусственного интеллекта, проверка данных на основе требований современных стандартов. В статье на основе подробного и современного анализа обозначены эти направления и даны конкретные предложения по ряду субъектов лизинговой сделки.

**Ключевые слова:** лизинг, бухгалтерский учет, организация аудита,МСФО, программное обеспечение, автоматизация.

**Gurban Rauf MIRZAYEV**
Dissertant of ASAU, Azerbaijan

## THE MAIN DIRECTIONS OF AUTOMATION ACCORDING TO THE REQUIREMENTS OF THE STANDARDS ON ACCOUNTING AND AUDITING OF LEASING OPERATIONS

**Summary**

The article focuses on the use, usefulness and problems of automation and software for accounting and auditing of leasing operations in the country. Thus, the obligation to collect information with useful, authoritative, reliable, and impartial qualities arises based on the requirements of modern regulations, new associations and information flow in the matters of accounting organization. Without these and other quality indicators shown in making the right decisions, such as the modern philosophy of accounting, we cannot speak of any benefit. Therefore, one of the main directions of providing the database with quality information is the correct collection of this data, the use of artificial intelligence tools, and the verification of data based on the requirements of modern standards. In the article, these directions are indicated based on detailed and modern analyzes and specific proposals are given to a number of leasing transaction subjects.

**Keywords:** leasing, accounting, organization of audit, IFRS, software, automation

**Pərvin Elman qızı MUXTAROVA, i.f.d., dos.**

**Rəşad Təşəkkül oğlu MƏMMƏDLI**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: resadmemmedli2000@bk.ru

# HEYVANDARLIQDA MƏSRƏFLƏRİN VƏ MƏHSUL ÇIXIMININ UÇOTUNUN TƏŞKİLİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Xülasə**

Məqalənin tədqiqatı heyvandarlıqda əsasən məsrəflərin daha çox hara istifadə olunması, heyvanların yemlənmə prosesi, onların ətlik, südlük və yaxud damazlıq növlərindən təsərrüfatın müxtəlif sahələrində istifadə edərək insanların öz qida rasionunu təmin etməsindən bəhs edir. Məqalədən aydın olur ki, heyvandarlıqda məsrəflərin çox hissəsi heyvanların yemlənməsi prosesinin təşkil edilməsinə, heyvanların saxlanması üçün saxlanma yerlərinin hazırlanmasına, heyvanların yemlənməsi üçün otlaq sahələrinin təşkilinə, ilin sərt keçən qış aylarında heyvanların yemlənməsi üçün alınan ot tayalarına xeyli məsrəflərin çəkilməsindən bəhs edir.

Tədqiqat zamanı heyvandarlığın inkişaf prosesləri, onların inkişaf qanunauyğunluğu məsələsinə toxunulmuşdur. Həmçinin heyvanların qoyunçuluq maldarlıq, quşçuluq, atçılıq və s. növlərinə də toxunulmuşdur. Heyvanların südlük növlərindən keyfiyyətli və yağlı süd almaq üçün heyvanların yemlənməsi prosesi zamanı süddə yağlılığı artıran xüsusi yem növlərindən istifadə edilməlidir. Bununla yanaşı heyvanların xüsusi yemləmə prosesindən asılı olmayaraq onların xüsusi südlük, ətlik, damazlıq növlərinə ayrılan heyvan sortları da vardır. Heyvanların xüsusi cins tərkibi heyvanların ətlik, südlük və damazlıq növlərində xüsusi yer tutur.

**Açar sözlər:** heyvandarlığın inkişafı prosesi, heyvanların ətlik, südlük və damazlıq növləri, heyvanların yemlənmə xüsusiyyətləri.

**Tədqiqatın məqsədi:** Heyvandarlıqda istifadə olunan məsrəflər və heyvanların yemlənməsi prosesində məhsul çıxımının öyrənilməsi.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Tədqiqatın əhəmiyyəti heyvandarlığın inkişaf sahələri, heyvandarlığın kənd təsərrüfatındakı əhəmiyyəti, heyvandarlığa çəkilən məsrəflər və məhsul çıxımından bəhs edir.

**Tədqiqat obyekti:** Heyvandarlıq və kənd təsərrüfatı.

JEL:O13

## Giriş

Heyvandarlığın inkişaf etdirilməsi üçün heyvanların yemləndirilməsi məsələsi xüsusi əhəmiyyətə malikdir. Belə ki, heyvanlardan müxtəlif növ qida tələbatını ödəmək üçün onların ətlik, südlük, damazlıq üçün nəzərdə tutulan növlərindən istifadə edilir.

Dünyada və eləcə də respublikamızda heyvandarlığın inkişaf qanunauyğunluğu onun ixtisaslaşdırılması, təmərküzləşdirilməsi və inteqrasiyasından asılıdır.

Heyvandarlıqda məhsulların maya dəyərinin hesablanmasının təhlili il ərzində heyvandarlıq sahələrindən alınan məhsullar plan maya dəyəri ilə, yaxud istifadəsi mümkün olan qiymətlə satış qiyməti ilə qiymətləndirilərək mədaxil edilir. İlin axırında heyvandarlıq məhsullarının plan maya dəyəri faktiki maya dəyərinə çatdırılır. Uçotun jurnal-order formasında heyvandarlıqda məsrəflər və məhsul çıxımının sintetik uçotu 10-KT nömrəli jurnal-orderdə aparılır. Heyvandarlıqda məsrəflər və məhsul çıxışının analitik çıxışı isə heyvandarlıq üzrə bölmənin şəxsi hesabında (istehsalat hesabatı) həyata keçirilir. İcmal sənədin məlumatlarına əsasən 10-KT nömrəli jurnal-orderdə muxabirləşən hesablar üzrə yazılış aparılır.

Heyvandarlıq sahəsində əsas, əlaqədar və əlavə məhsullar alınır. Əsas məhsula daxildir: süd, yun, yumurta, bala, çəki artımı, diri çəki və s. Bununla belə, eyni zamanda əksər sahələrdə bir neçə əlaqədar məhsul növləri alınır. Məsələn, südlük maldarlıqda-süd və bala, qoyunçuluqda-yun, bala

və çəki artımı əlaqədar məhsullar adlanır. Bundan başqa heyvandarlıqda əlavə məhsullar da vardır. Heyvandarlıqda əlavə məhsullara daxildir. Əsas məhsulların maya dəyəri hesablandıqda istehsalat maliyyə planında qəbul olunmuş möhkəm qiymətlə əlavə məhsulun maya dəyəri müvafiq heyvandarlıq sahəsinə çəkilən xərclərdən çıxılır.

Son illər respublikamızda hər bir nəfərə süd istehsalı 300-350 kq, bütün növlər üzrə ət istehsalı 50-55 kq, yumurta 150-190 ədəd olmuşdur.

Qoyunçuluq sahəsi xüsusilə Azərbaycan Respublikasında sürətlə inkişaf etməyə başlamışdır. Belə ki, sovetlər dövründə respublikada bütün kateqoriya təsərrüfatlar daxil olmaqla 4,5 mln. baş qoyun və keçi yetişdirildiyi halda, hazırda bu rəqəm 8 mln-u ötüb keçmişdir.

Respublikamızda qaramal və qoyunçuluq sahəsi ilə yanaşı heyvandarlığın başqa sahələrinin də inkişaf etdirilməsi günün ən aktual məsələsidir. Respublikamızda əhalinin ənənəvi qida məhsulu sayılan qoyun əti istehsalının artırılmasına fikir verilməklə yanaşı, südlük və ətlik qaramal sahəsinə də ciddi fikir verilməlidir.

Məlum olduğu kimi, hazırda yer kürəsinin bütün ölkələrində ərzaq qıtlığı hiss olunmaqdadır. Bu təhlükənin aradan qaldırılması, bütün növ heyvandarlığın inkişafı üçün respublikamız bütün real və potensial imkanlara malikdir. Bunun üçün dağ və dağətəyi rayonlarda ətlik qaramalın inkişaf etdirilməsinə ciddi fikir verilməlidir.

Südlük maldarlığın inkişaf etdirilməsində məqsəd mövcud südlük istiqamətli cinslərin məhsuldarlığının yüksəldilməsi və onların genetik potensialının artırılmasıdır. Bundan ötrü həm Dövlət damazlıq kənd təsərrüfatı istehsalı müəssisələrində və həm də özəl damazlıq təsərrüfatlarında süd istehsalı üzrə ixtisaslaşdırılmış bölgələrdə mövcud qaramal cinslərinin yaxşılaşdırılması məqsədilə holştin-friz və qara-ala cinslərinin təmizlikdə yetişdirilməsi təşkil edilir.

Təsərrüfatda hansı yemdən hansı inəyə nə qədər vermək, düzgün yem payı tərtib etmək və fəsillər üzrə yemə olan tələbatı müəyyən etmək üçün hər inəkdən sutkada, ayda və laktasiya ərzində nə qədər süd sağıldığı müəyyən edilməlidir. İnəklərin yemləndirilməsində ən səmərəli yemləmə geniş sağımdır ki, sahibkarlar bu mühüm məsələyə daha çox diqqət göstərməlidirlər.

Südlük-maldarlıq fermalarında damazlıq işləri təcili olaraq qaydaya salınmalıdır. İnəklərin fərdi süd məhsuldarlığının, südün yağlılığının, mayalandırma və doğumun, cavanların diri çəki artımının dəqiq uçotu aparılmalıdır. İnəklərin bədən quruluşuna, yelin formasına, maşınla sağıma yararlılıq xüsusiyyətinə, cavanların böyümə və inkişafına görə qiymətləndirilməsi və bu göstəricilərə əsasən seçmə aparılması, inəklərin və düyələrin süni yolla mayalandırılıması işləri təşkil edilməlidir.

Azərbaycanda süd istehsalının əsasən aşağıdakı amillər hesabına artırılmasını məqsədəuyğun hesab edirik:

- Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, mövcud heyvanların genetik keyfiyyətlərinin təkmilləşdirilməsi
- Damazlıq dövlət kənd təsərrüfatı istehsalı müəssisələrində və özəl damazlıq təsərrüfatlarında yüksək məhsuldar damazlıq heyvanların yetişdirilərək heyvandarlıqla məşğul olan hüquqi və fiziki şəxslərə satılmasının təşkili
- Lizinq yolu ilə güzəştli şərtlərlə ölkəmizə yüksək məhsuldar damazlıq heyvanların gətirilərək kənd təsərrüfatı məhsulları istehsalçılarına satılması
- İnəklərin və düyələrin süni mayalandırılmasının təşkili
-Sahibkarların öz vəsaitləri hesabına yüksək məhsuldar damazlıq heyvanların alınaraq gətirilməsinin təşkili

Kənd təsərrüfatı heyvanlarının məshuldarlığının yüksəldilməsinin əsasını norma ilə düzgün yemləndirmə təşkil edir. Heyvanlar elə yemləndirilirlər ki, onların orqanizminin bütün növ qidalı maddələrə olan tələbi ödənilsin. Yem norması şərti olaraq 2 yerə bölünür: 1) saxlayıcı və 2) məhsuldar yem norması. Norma ilə yemləndirmə dedikdə, gün ərzində heyvanların həyat fəaliyyətini, sağlamlığını, . normal doğub - törəməsini müvafiq miqdarda məhsul alınmasını təmin edəcək qida maddələrinin miqdarı başa düşülür.

Saxlayıcı yem norması dedikdə, orqanizmin məhsul əmələ gətirmədən yalnız diri çəkisini saxlaması başa düşülür.

Məhsuldar yem norması isə nəzərdə tutulan məhsulun əmələ gəlməsi üçün veriləcək yemdir. .

Saxlayıcı yem inəyin diri çəkisindən asılı olaraq verilir. Yəni, inəyin hər 100 kq diri çəkisinin saxlanmasma 1.0 - 1.1 yem vahidi, hər bir yem vahidinə 60-72q həzm olunan protein verilməlidir.

Təsərrüfat təsnifatına əsasən, qəbul etdikləri qidalı maddələri qaramalın bir qismi əsasən süd

məhsuluna, bir qismi ət məhsuluna və bir qrup heyvanlar isə həm süd və həm də ət məhsuluna çevirirlər. Bu xassə müxtəlif cins heyvanların anatomiki və fizioloji xüsusiyyətləri ilə əlaqədar olaraq onların orqanizmində gedən maddələr mübadiləsi ilə əlaqədardır. Belə ki, onlarda qəbul etdikləri yemi südə çevirmə xüsusiyyəti var və maddələr mübadiləsi intensiv gedir. Ətlik tip heyvanlarda isə maddələr mübadiləsi nisbətən az intensiv gedir. Bu təsnifata əsasən qaramal onlardan alınan əsas məhsulların miqdar və keyfiyyətinə görə aşağıdakı qruplara bölünür:

1) Südlük məhsuldarlıq istiqaməti. Bura əsasən Holland, Holmoqor, Qara- ala, Yaroslav, qırmızı səhra, Tağıl, Ayrşir, Çerzey, Hernzey və s. cinslər daxildir.

2) Südlük – ətlik və ətlik-südlük. Bu qrupa həm də ikili, qarışıq məhsuldarlığa malik cinslər də deyilir. Bu, əsasən Simmental, Şvis, Kostroma, Lebedin, Alatau, Kavkaz qonuru, Qonur karpat, Bestujev və s. cinslər daxildir.

3) Ətlik məhsuldarlıq istiqamətli – buraya Şorthorn, Hereford, Kazax ağbaş, Kalmık, Aberdin Anqus, Şarole və s. cinslər daxildir.

Məhsuldar yem inəyin verdiyi süd məhsuluna görə təyin edilir: 3.8-4.0% yağlılıqda 1 kq südün əmələ gəlməsi üçün 0.5 yem vahidinə 120 q həzm olunan protein verilməlidir.

Norma ilə yemləndirmə dedikdə heyvandan onun normal həyat fəaliyyəti və məhsul istehsalı üçün müəyyən miqdar qidalı maddə və yemin enerjisi başa düşülür. Hazırda yem norması mübadilə enerjisi həzm olunan protein, kalsium, fosfor və proteinlə xarakterizə olunur. Bu zaman heyvanın növü, fizioloji vəziyyəti, yaşı və məhsuldarlığı nəzərə alınır. Bununla yanaşı heyvanın qidalı maddələrə olan tələbatı cəmləşdirilmiş şəkildə göstərilir. Yem norması vaxtaşırı yenilənir. Hazırda yem normasında 20 göstərici nəzərə alınır.

Yem norması əsasında yem payı tərtib edilir. Yemdəki qidalı maddələrdən heyvanların istifadəsi yem rasionundakı yemlərdən asılıdır. Norma əsasında tələb olunan qidalı maddələrlə orqanizmin tələbatını ödəmək üçün müxtəlif yemlər yığcamına yem rasionu deyilir. Düzgün tərtib edilmiş yem rasionu aşağıdakı tələbləri ödəməlidir:

1.Tərtib olunmuş yemlərin yığımı heyvanın təbiətinə uyğun olmalıdır.

2.Yemlər həzm prosesinə müsbət təsir etməlidir.

3.Müxtəlif assortimentdə olmalıdır.

4.Təsərrüfatda tərtib olunmuş yem planına uyğun olmalıdır.

Yem rasionunun strukturu onda olan qaba, şirəli və qüvvəli yemlərin qidalılığının ümumi miqdarı faizlə təyin edilir. Yem rasionunda olan bu və ya digər yemlərin nisbətindən asılı olaraq heyvanın yemləmə tipi müəyyən edilir. Yüksək miqdar silos tədarük edən təsərrüfatda qış dövründə yem rasiounununun tərkibi 50-55% şirəli yemlərdən 25-30% qaba yemlərdən ibarət olmaqla hər 1 kq südə 100- 200 q qüvvəli yem əlavə edilir. Oturaq dövrdə qaba yemin nisbəti 50%, şirəli yem 40%, qüvvəli yem 10% təşkil edir. Yem payı tərtib edildikdə onun iqtisadi cəhətdən təsərrüfatda əlverişli olması nəzərə alnmalıdır. Şirəli yemlərdən xüsusən silos, senaj ilə yemləmə faydalıdır.

Yem payında qüvvəli yemin miqdarı 1 kq sağılan süd hesabına müəyyənləşdirilir. Belə ki, gündəlik sağımı 10 kq olan inəyə hər 1 kq süd hesabına 100 q, 10-15 kq 100-150q, 20-25 kq 250-300q və 25 kqdan çox olduqda 300-350q qüvvəli yem verilməlidir. Süd məhsuldarlığı artdıqca hər kq süd istehsalına sərf edilən yem vahidi azalır.

Gündəlik sağım 6,10,20,30 litr. Yem vahidi 1.3 0.96 0.74 0.70. Qabaqcıl qoyunçuluk təsərüfatlarında siğorta kimi illik yemin 10%-i qədər müxtəlif yem tədarük edilməlidir. Bununla yanaşı ətlik-yunluq qoyunçuluqda hər qoyuna 4 sen quru ot, 5 sen silos, 1.5 sen çuğundur və 40-50 kq qüvvəli yem tədarük edilir. Əmizdirən donuz üçün yem norması çoşqanın sayına, diri çəkisinə və yaşına görə tutulmaqla hər çoşqaya 0.4-0.5 yem vahidi əlavə edilir. Quşlara yem norması onların növünə, məhsuldarlığına görə tərtib edilir.

Yemlərin çox hissəsi təsərrüfatda istehsal olunmalıdır. Yemlərin keyfiyyəti standart tələblərə uyğun olmalıdır. Yem payi heyvanın çəkisinə, məhsuldarlığına, fizioloji vəziyyətinə və növünə münasib tərtib olunmalıdır. Yem əlavələri kimi təbii mineral maddələrdən - xörək duzu, təbaşir, ağac kömürü və bəzi təbii birləşmələrdən istifadə edilə bilər.

Orqanizmdə gedən maddələr və enerji mübadiləsi, orqan və toxumaların vəzifələri, sümüyün, ətın, dərinin və yunun əmələ qəlməsi bilavəsitə heyvanların yemləndirilməsi ilə əlaqədardır. Bütün göstərilən vəzifələrin yerinə yetirilməsi üçün heyvanı onun ehtiyacını ödəyə bilən səviyyədə qida maddələri ilə təmin etmək lazımdır. Buna heyvanları norma ilə yemləməklə nail olmaq olar.

Norma heyvanların qida maddələrinə olan ehtiyacını müəyyənləşdirir. Norma üzrə yemləndirmədə heyvanların həyat fəaliyyətinin saxlanması, məhsuldarlıq keyfiyyəti və törəyib balavermə qabiliyyəti nəzərə alınmaqla qida maddələrinə olan tələbatı ödənilir.

Yem payı. Yem normasına uyğun olaraq heyvanların qida maddələrinə olan tələbatını ödəmək üçün gün ərzində verilən yemlərin miqdarına yem payı deyilir. Yem payına daxil edilmiş yemlər heyvanların növünə və yaş xüsusiyyətlərinə uyğun seçilməli, tərkibcə müxtəlif olmalıdır. Yem payı 3 hissədən ibarətdir: saxlayıcı; məhsuldar; reproduktiv.

Saxlayıcı yem payı - heyvanın həyat fəaliyyətinin saxlanması üçün ona verilən yemlərin miqdarına deyilir.

Məhsuldar yem - cavan heyvanlara boy və inkişafına, inəklərdə südün əmələ gəlməsinə, kökəldilən heyvanlarda çəki artımına sərf edilən maddələrə məhsuldar yem payı deyilir.

Reproduktiv yem - dişilərdə balanın, erkəklərdə isə toxumun əmələ gəlməsi üçün verilən yem payına deyilir.

İri buynuzlu qaramalın yemləndirilməsi.

Yem payı tutularkən aşağıdakılara əməl edilməlidir:

İnəklərə tələb edilən miqdarda yem vahidi, həzm olunan zülal, mineral maddələr və karotin verilməlidir.

Yem payı elə tutulmalıdır ki, inəklərin hər 100 kq diri çəkisinə 3-4 kq quru maddə düşsün.

Yem payının tərkibi müxtəlif olmalıdır, onun tərkibində 2-3 növ şirəli yemlər, 3-4 növ qüvvəli yemlər, qaba yemlər, vitaminlər və təbii mineral yemlər daxil edilməlidir. İnəklərə şirəli yem bütün il boyu verilməlidir. Yaz dövrundə silos və yaşıl ot, qış dövründə silos və kökümeyvəlilər olmalıdır.

Qüvvəli yemlərin miqdarı l kq südün miqdarına görə hesablanmalıdır. Gündəlik südü 10 kq olan inəklərə südün hər kiloqramına görə gün ərzində 200 qr- a qədər, 10-15 kq süd verən inəklərə isə 200-250 qr qüvvəli yem yedizdirilməlidir.

Sağılan inəklərin yem norması hər 100 kq canlı kütləyə görə l yem vahidi və l kq südə görə 0,5 yem vahidi planlaşdırılır.

Yay dövrü qaramalın otlaqda yemləndirilməsi böyük iqtisadi səmərə verir. Otlaqda qaramalın yemləndirilməsi o zaman səmərə verir ki, otlaqda otlar çox olsun. Otlaqda yemləndirmənin əhəmiyyəti ondadır ki, bu zaman heyvan uzun müddət açıq havada gəzir. Gəzərkən heyvanın iştahı artır, ayaqları möhkəmlənir, günəş şüası bədənə düşərək «D» vitamininin əmələ gəlməsini sürətləndirir, heyvan daha sağlam olur. 400-500 kq diri çəkisi olan inək sutkalıq süd sağımından asılı olaraq aşağıdakı miqdarda yaşıl otlaq otu yeyir:

8 kq süd verən – 40-45 kq yaşıl ot
10-12 kq süd verən – 45-55 kq yaşıl ot
14-16 kq süd verən – 55-65 kq yaşıl ot
18-20 kq süd verən – 60-70 kq yaşıl ot

Südünü qurutmuş inəyə yaşıl yem 8 kq-a qədər süd verən inəyin yemi qədər hesablanır. Otlaq otunun qidalılıq dəyəri çox yüksəkdir.

Otlaq şəraitinə heyvanlar birdən-birə yox, tədricən keçirilməlidir. Otlaqdan səmərəli istifadə olunması üçün heyvanlar küz üsulu ilə otarılır. Bu zaman heyvanlar 1 həftə müəyyən sahədə otarılır, sonra heyvanlar başqa sahəyə buraxılır və otarılan sahədə bu müddətə otlar bitir. Otlağa əvvəlcə yaşlı heyvanlar, sonra isə cavan heyvanlar buraxılmalıdır ki, sahədən səmərəli istifadə olunsun. Hər 2-3 saatdan bir heyvanlara istirahət verilir ki, heyvan yaxşı gövşəsin və yem mütəmadi olaraq həzm olunsun. Heyvanlar otlağa buraxılmazdan əvvəl otlaq sahəsi diqqətlə yoxlanılır ki, sahədə zərərli və zəhərli bitkilər olmasın. Sağmal inəklər sahədə olan vəhşi soğan, sarımsaq və yovşan yedikdə onların südü standartdan kənar sayılır ki, bu zaman süddə xarakterik qoxu olur, süd acı dadmaqla tez xarab olur.

**Qoyunların yemləndirilməsi xüsusiyyətləri.**

Qeyd edildiyi kimi qoyunçuluq respublikamızda heyvandarlığın ən qədim sahəsi olub, yerli əhali tərəfindən çox böyük həvəslə yetişdirilir. Qoyunlardan alınan məhsullar özünün çoxnövlüyünə görə və istifadəlik xüsusiyyətinə görə bütün növ heyvandarlıq məhsullarından ciddi surətdə fərqlənir. Qoyunlardan zərif, yarımzərif, yarımqaba yun, xəz, gönlük, xəzlik və kürklük dəri, süd, yüksək dietik xassəyə malik olan qoyun əti, qurudulmuş qursaq (pendirçilikdə istifadə edilir), qoyunların bağırsaqlarından cərrahiyyədə müvəffəqiyyətlə istifadə edilən sap və s. məhsulları alınır. Belə çox növlü məhsul istehsal edən heyvanların yemləndirilməsi də çox diqqət tələb edir.

Qaramaldan fərqli olaraq qoyunların sifəti, çənəsi və dodaqlarının quruluşu imkan verir ki, onlar otlaq otunu 3-4 sm dibdən qırıb yesin. Bir sıra qoyun cinsləri başqa növ heyvanların çıxa

bilmədiyi hündür, sıldırım dağ və dərələrə çıxaraq buradakı çox qidalı otlarla qidalana bilir. Bununla yanaşı qoyunlar qaba yemləri, xüsusilə də samanı çox pis yeyir və pis həzm edirlər. Bundan başqa, qoyunlar başqa növ heyvanlara nisbətən qış otlaqlarında pis yemlənərsə, daha tez tələf olurlar. Qoyunlar iri buynuzlu qaramala nisbətən otlaq otunda olan yüksək konsentrasiyalı duzlar və nitratların olmasına dözümlüdürlər. Qoyunların nitritlərlə zəhərlənməsinə demək olar ki, rast gəlinmir.

Qoyunların məhsulları içərisində yun məhsulu əsas yer tutur. Odur ki, onların yemləndirilməsinə daha ciddi fikir verilməlidir. Məlumdur ki, , qış dövründə qoyunların yaxşı yemləndirilməsi onların yun məhsuldarlığını 12-18%, yunun uzunluğunu isə 16-25% artırır. Tam dəyərli yemləndirmə əsasən quzuların yun məhsuldarlığına müsbət təsir göstərir. Quzuların 5 ay bəsləmə şəraitində yununun uzunluğu 3-5 sm, yun qırxımı isə 1,0-1,5 kq çoxalır. Keyfiyyətsiz yemləmə və ya yem çatışmadıqda yunda «aclıq nazik»liyi adlanan qüsur əmələ gəlir ki, bu dövrdə bitən yun həmin nahiyyədə çox nazilir və emal zamanı oradan da qırılaraq, yunun uzunluğu azalır. Nəticədə yunun dəyəri 20-30% aşağı düşür.

**Quşların yemləndirilmə xüsusiyyətləri.**

Azərbaycan Respublikasında heyvandarlığın əsas sahələrindən biri də quşçuluqdur. Quşçuluq sahəsi əhalini çox qiymətli və dietik xassəyə malik quş əti və yumurta ilə təmin edir. Quşların tam dəyərli və balanslaşdırılmış yemlərlə təmin edilməsi isə onlardan yüksək keyfiyyətli məhsul əldə etməyə imkan verir. Kifayət qədər və bioloji, tam dəyərli yemlərlə yumurtalıq istiqamətli toyuqların yemləndirilməsi nəticəsində qabaqcıl təsərrüfatlarda hər bir baş toyuqdan 250-280 ədəd yumurta alınır ki, hər 1000 ədəd yumurtaya 1,5-1,7 sentner yem vahidi sərf olunur.

Yaxşı göstəricilərə malik broyler fabriklərində tam dəyərli yemlərdən istifadə olunmaqla, 1 kq canlı kütlə artımına 1,9-2,4 kq qarışıq yem sərf edilməklə onların standart canlı kütlə artımı 70-dən 49-56 günə qədər azaldılmış olur. Tam dəyərli balanslaşdırılmış yemləndirmədə quşlardan bol və keyfiyyətli məhsul almaq olur.

Quşlar yüksək enerji üzrə böyümə xüsusiyyətinə malikdir. Birinci 50 günlük yaşda ətlik cücələr və ördək balaları yumurtadan çıxma yaşına görə 40 dəfə, qazlar isə 35 dəfə artırlar. Özlərinin həzm aparatı və funksiyasına görə də quşlar özünə məxsus xüsusiyyətlərə malikdirlər. Ağız boşluğunda dişləri olmur, yem dimdiklə tutulur. Ördək və qazların dimdiklərinin qıraqlarında eninə dəri lövhələri vardır ki, bunlar otun qırılmasına kömək edir və duru yemlərdən bərk yemləri seçə bilirlər. Ağız boşluğunda yem, yem borusuna düşür.

Quşlarda yemin həzmi başqa kənd təsərrüfatı heyvanlarından tez baş verir. Cücələrdə yem həzm kanalından 4-5 saata, yaşlı quşda isə 7-8 saata keçir.

Quşlar, donuzlar və kövşəyən heyvanlara nisbətən sellilozanı pis həzm edirlər. Toyuqlarda sellilozanın həzmolunma əmsalı müxtəlif yemlərdə çıfırdan 20-25%-ə qədərdir. Yemdən AEM-ri 3%-ə qədər sellilozaya malik olanlardan 80- 90%, lakin yüksək selliloza tərkibli (25-30%-li) isə yalnız 25-34%-ni həzm edirlər. Qazlar dənlərdə olan sellilozanın yalnız 10-20%-ni həzm edirlər. Yaşıl cavan bitkilərin yarpaqlarındakı sellilozanı isə yaxşı həzm edirlər. Odur ki, yumurtalıq toyuqların və cücələrin yem rasyonunda sellilozanın tutduğu həcm 4-6%, hinduşqa (hind toyuğu) və qazlarda 6-10% təşkil etməlidir. Onu da qeyd etmək lazımdır ki, rasyonda sellilozanın olmaması yemin həzmini pozur, məhsuldarlığı aşağı salır və hətta ölümə səbəb olur.

Yemdəki qidalı maddələrin həzmi və onların rolu başqa növ heyvanlarda olduğu kimidir. Quşların yemində qidalı maddələri balanslaşdırmaq və çatışmayan maddələri əlavə etmək üçün yem dəyirmanlarında quşlar üçün xüsusi qarışıq yem istehsal olunur. Bu yemə daş, qum, şüşə qırıqları qatılır ki, əzələvi mədədə onlar yemin xırdalanmasına kömək edir.

**Atların yemləndirilmə xüsusiyyətləri.**

Məlum olduğu kimi, atlardan əsasən iş üçün istifadə edilir. Odur ki, onların yemləndirilməsi gördükləri işə görə aparılır. Görülən işin sayəsində atların əzələləri çox işlədiyindən burada maddələr mübadiləsi yüksəlir, orqanizmdə olan qidalı maddələrin parçalanması da intensivləşir. Odur ki, atlar işləyərkən onlara qidalı maddələrin yemlə verilməsi də nizamlanmalıdır.

Atlar işləyərkən və ya minilərkən yəhər altında iki iş yerinə yetirir: mexaniki yerdəyişmə, yəni yükü daşıma və əlavə olaraq ikinci işi – öz bədənini üfüqi istiqamətdə hərəkət etdirir. Yəni atın mexaniki hərəkətinə işin 25-30%-i sərf olunur. Mexaniki işin faydalılığı kiloqrammo-metrlə ölçülərək, atın dartma qüvvəsindən asılıdır ki, bu da dinamometrlə ölçülür. Dartma qüvvəsi də öz

növbəsində atın canlı kütləsindən, əzələ və əsəb sisteminin inkişafından asılıdır.

Yemlə enerjinin daxil olmasını və işin görülməsinə sərf olunmasını ölçmək üçün mexaniki istilik ekvivalentindən istifadə edilir: 1 kkal=425 kq/m iş.

İşləyən atlar üçün əsas enerji mənbəyi asan mənimsənilən sulu karbonlarla zəngin yemlərdir. Yemin tərkibində və eləcə də rasyonda nişasta və şəkər çatışmadıqda atlar ağır fiziki iş görərkən onların orqanizmi bədəndəki ehtiyat mənbələrindən istifadə edir və əvvəlcə qlikogen yanır, sonra ehtiyat yağ və nəhayət, əgər bu kifayət etmirsə, onda enerji balansını saxlamaq üçün əzələlərdəki zülallar parçalanır.

Kifayət qədər enerjili yemlərlə yemləndirilməyən atlar tez arıqlayır və öz iş qabiliyyətini itirirlər.

Adətən atlarda dörd əsas fiziki yüklənmə (iş) variantı mövcuddur: istirahət, yüngül iş, orta və ağır iş.

**Nəticə**

Aparılan tədqiqat nəticəsində heyvandarlığın hansı sahələrini inkişaf etdirdikdə nisbətən artan gəlir əldə edilməsi, heyvandarlığın inkişafı ilə əlaqədar olaraq qoyulan xərclər, heyvandarlığın müxtəlif növləri üçün inkişaf xüsusiyyətləri öyrənilir.

Heyvandarlığa qoyulan məsrəflər və məhsul çıxımında həmin qoyulan məsrəflərin zərər etməməsi üçün heyvandarlığın gəlir gətirən xüsusi südlük, ətlik və damazlıq növləri saxlanmalıdır.

Heyvanların südlük növlərinin saxlanması üçün heyvanlara süd artırıcı xüsusi yemlərdən verilməlidir, bu da özlüyündə heyvandarlıqla məşğul olan şəxslərdə həm məhsul ilə əlaqədar olaraq, həm də yemlərin alınmasına çəkilən xərcləri xeyli artırır.

Ətlik növ heyvanların saxlanmasına xüsusi nəzarət etmək lazımdır. Həmin ətlik heyvanların saxlanma şəraiti üçün hazırlanmış xüsusi tövlə olmalı və ətlik heyvanın kökəldilməsinə xüsusi nəzarət etmək lazımdır. Burada da tərkibində çəki artıran yemlərdən və otlardan istifadə edildikdə ətlik heyvanların çəkisi artmağa başlayacaqdır.

Damazlıq heyvanların inkişaf etdirilməsi üçün xüsusi damazlıq və xüsusi sort heyvanların saxlanması həmin heyvanlardan götürülən balalar, onları saxlayan şəxslər tərəfindən diqqətli şəkildə yemlənib saxlandığı zaman, həmin damazlıq heyvanların həm südlük, həm də ətlik növlərinin inkişaf etdirilməsi artacaqdır.

Heyvandarlığa çəkilən məsrəflər və heyvanların yemlənməsi üçün məhsullar onlara çəkilən xərcləri artırsa da, əhalinin qida rasionunun ödənilməsində heyvanların ətlik, südlük növlərinin əhəmiyyəti böyükdür.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Q.Q.Abdullayev və M.İ.Əliyev. Heyandarlığın əsasları (Ali və orta ixtisas məktəb tələbələri üçün dərslik) – Bakı-2012. adau.edu.az

2.agro.gov.az-Heyandarlıq

3. M.S Hüseynova, Əhmədova T. M. Heyvandarlıqda məhsul çıxışının uçotu və maya dəyərinin hesablanması.

**Парвин Эльман кызы МУХТАРОВА д. ф. э., доцент**

**Рашад Ташаккул оглы МАМЕДЛИ**
Азербайджанский Технологический Университет
E-mail: resadmemmedli2000@bk.ru

## ОРГАНИЗАЦИЯ УЧЕТА ЗАТРАТ И ВЫХОДА ПРОДУКЦИИ В ЖИВОТНОВОДСТВЕ И ЕЕ СОВЕРШЕНСТВОВАНИЕ

**Резюме**

Исследование статьи посвящено тому, где больше всего используются затраты в животноводстве, процессу создания животных, тому факту, что животные, используемые для мясных, молочных или племенных пород в хозяйственных сферах, не обеспечивают пищевой рацион для людей. Из статьи видно, что большая часть затрат в животноводстве связана с обеспечением процесса кормления животных, подготовкой мест хранения для кормления

животных, организацией пастбищ для кормления животных, привлечением значительных сумм затрат. в тюках сена для кормления животных в суровые зимние месяцы года.

В ходе исследования были затронуты риски развития животноводства, вопрос законности развития животноводства. А также овцеводство, птицеводство, коневодство и др. ни тронул. Использование в процессе кормления животных специальных видов кормов, повышающих жирность молока, для решения молочных проблем и получения жирного молока. При этом есть особые виды животных, зависящие от особого процесса кормления животных, а есть особые виды животных, обособленные от разведения и разведения.

**Ключевые слова:** Процесс развития животноводства, мясные, молочные и племенные породы животных, особенности кормления животных.

**Parvin Elman gizi MUKHTAROVA d.p.e., associate professor**

**Rashad Tashakkul oglu MAMMADLI**
Azerbaijan Technology University
E-mail: resadmemmedli2000@bk.ru

## ORGANIZATION OF ACCOUNTING OF COSTS AND YIELD IN ANIMAL HUSBANDRY AND ITS IMPROVEMENT

### Summary

The research of the article deals with where the costs are mostly used in animal husbandry, the process of creating animals, the fact that animals used for meat, dairy or breeding species in economic fields do not provide food ration for people. It is clear from the article that most of the expenses in animal husbandry are related to the maintenance of animal feeding process, the preparation of storage places for animal feeding, the organization of grazing areas for animal feeding, and the involvement of significant amounts of costs in hay bales for animal feeding during the harsh winter months of the year.

During the study, the risk of animal husbandry development, the issue of legality of animal husbandry development were touched upon. Also, sheep farming, poultry farming, horse breeding, etc. nor touched. Using special types of feed that increase the fat content of milk during the process of feeding animals to solve dairy problems and obtain fatty milk. At the same time, there are special types of animals that depend on the special feeding process of animals, and there are special types of animals that are separated from breeding and breeding.

**Keywords :** The process of animal husbandry development, meat, dairy and breeding species of animals, feeding characteristics of animals.

**Nicat Adil oğlu NƏRIMANOV i.f.d. dos.**
**Nəcəf İsaq oğlu SULTANOV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Ülviyyə Nəriman qızı SƏMƏDOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

# ÖLKƏDƏ MİLLİ İNNOVASİYA SİSTEMİNİN İNKİŞAF ETDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Dünya ölkələrinin təcrübəsinə əsasən ölkədə iqtisadiyyatın inkişafı, iqtisadi təhlükəsizliyi üçün müstəqil texnologiyaya əsaslanan iqtisadiyyatın formalaşması vacibdir. Ölkədə bu cür texnologiyaya əsaslanan iqtisadiyyatın qurulması dünya bazarında ölkənin iştirakına şərait yaratmış olur. Təssərüfat subyektlərinin azad rəqabət şəraitinə adaptasiyası və innovasiyanın tətbiqi arasında müəyyən bir əlaqə mövcuddur. Belə ki, ETT-nin nailiyyətlərinin, yeniliklərin istehsala tətbiqinə, məhsulun həyat müddətinin artırılmasına əsaslanan innovasiya prosesləri nəticədə, yüksək keyfiyyətli və rəqabətqabiliyyətli məhsulların istehsalını labüd edir ki, bu da sonda həmin məhsula tələbin artmasına səbəb olar. Odur ki, innovasiya proseslərinin inkişafı, ilk növbədə, müəssisənin idarəedilməsinin təkmilləşdirilməsindən aslıdır. Lakin, innovasiya proseslərinin inkişafı daha çox investisiya qoyuluşları hesabına həyata keçirilir ki, bu isə ilk növbədə müəssisə rəhbərinin innovasiya proseslərinə yanaşmasından, eyni zamanda, dövlətin bu sahəyə dəstəyindən asılıdır.

**Açar sözlər:** milli innovasiya sistemi, rəqabət, maliyyə təminatı, iqtisadi artım, innovasiya sahibkarlığı

**JEL: O15**

**Giriş**

Milli innovasiya sistemi bir-birilə qarşılıqlı əlaqəli şəkildə fəaliyyət göstərən strukturların məcmusudur. Bu strukturlar özündə kəşfləri, ixtiraları, yeni texnologiyaların əsasını qoyan və kommersiya məqsədilə elmi tədqiqatın nəticələrini reallaşdıran strukturları, eyni zamanda innovasiya proseslərini tənzimləyən strukturları təşkil edir. Belə ki, Milli innovasiya sistemi bir vahid olaraq öz daxilində aşağıdakı beş tərkib hissədən ibarətdir: :

1) Kreativ yəni, biliyi formalaşdıran;
2) Texnologiyaların əsasını qoyan;
3) Maliyyə təminatı;
4) İstehsal;
5) Kadr hazırlığını yerinə yetirən struktur elementi.

Hər bir ölkənin iqtisadi inkişafının əsasında innovasiyayönümlü iqtisadiyyat dayanır. İnnovasiya sistemi innovasiya fəaliyyətinin nəticələrinin əldə edilməsi və sonda onun praktikada istifadə edilməsinin optimal variantlarından yararlanaraq ölkə iqtisadiyyatının dinamik inkişafına səbəb olur. SSRİ-nin dağılması ilə ölkənin müstəqillik əldə etdiyi illərdə yeni iqtisadi sistemin işlənib hazırlanmasına ehtiyac duyuldu. Bu dövrdə əsas məqsəd ölkə iqtisadyyatının dünya iqtisadiyyatına inteqrasiya etməsinin təmin edilməsi idi ki, lakin bu yolda müəyyən problemlər meydana gəlmişdir. Bu zaman dövlət iqtisadi inkişafa nail olmağın innovasiya yolu ilə mümkün olmasının tərəfdarı idi. Məsələn, iqtisadi artımın yüksək olduğu ölkədə bu göstəriciyə xammal hesabına deyil, ETT-nin nailiyyətlərindən istifadə ilə, texnologiyaların təkmilləşdirilməsi ilə nail olunmuşdur. Başqa sözlə, əməyə və kapitala sərf olunan vəsaiti azaldaraq, onu innovasiyanın tətbiqinə yönəltməyi üstun tutmaqla iqtisadi artımı mümkün etdilər. Bununla da, düzgün innovasiya sisteminin formalaşması sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi yolunda qarşıya çıxan problemlərin aradan qaldırılmasından və innovasiya fəaliyyətinin məqsədyönlü şəkildə idarəolunmasından asılıdır.

**Mövzunun aktuallığı:** Bazar münasibətləri şəraitində rəqabətədavamlı məhsulların istehsalı ilk növbədə, müəssisədə yeniliyin tətbiqi nəticəsində məsrəflərə qənaət etməklə yüksək mənfəətə nail olmaqla əldə olunur. Beləliklə,

istənilən şahikam müəssisəyə innovasiyanın cəlbində maraqlı olur. Sahibkarlığın innovasiya forması 2 istiqamətdə özünü büruzə verir: texnoloji və məhsul innovasiyası. Texnoloji innovasiya zamanı yeniliyi müəssisəyə tətbiq edərək mövcud məhsulun daha da təkmilləşdirilməsini nəzərdə tutur. Bu cür sahibkarlıq maddi texniki bazanın inkişaf etdirilməsinə əsaslanır. Məhsul innovasiyası istehlakçıların tələblərinin dəyişməsi ilə yeni məhsul istehsalını özündə təşkil edir. Bir sözlə, innovasiya sahibkarlığı dedikdə mütərəqqi texnika və müasir texnoloji üsullarla yüksək keyfiyyətli məhsulların hazırlanmasını həyata keçirən təsərrüfat subyektləri nəzərdə tutulur. Dünya ölkələrinin gəldiyi qənaətə əsasən, dünya iqtisaiyyatında rəqabət aparan ölkələrdən səmərəli innovasiya sisteminə malik olan, eyni zamanda, mütərəqqi məhsul istehsalını həyata keçirməyə imkan verən infrastruktur sahələrin inkişafına nail olan subyektlər qalib gəlirlər. Ölkəmizdə innovasiyaya əsaslanan sahibkarlığın inkişaf etdirilməsi iqtisadiyyatın diversifikasiyalaşmasının əsas amili kimi nəzərdə tutulur. Innovativ yenilikləri ərsəyə gətirən adətən, iri firmalar olur. Buna səbəb isə bu sahənin böyük maliyyə vəsaiti tələb etməsidir.

**Tələb etməsidir.aşma** İnnovasiya sahibkarlığının bir iqtisadi problem kimi nəzəri-metodoloji təhlili əsasında ona dövlət dəstəyi və bu dəstəyin hüquqi təminatının mövcud vəziyyətinin öyrənilməsi, bu dəstəyin genişləndirilməsi imkanlarının araşdırılması, daha səmərəli formaların elmi cəhətdən əsaslandırılaraq müxtəlif təklif və tövsiyələrin hazırlanması, qanunverici bazanın təkmilləşdirilməsi, bu sahədə dünya təcrübəsinin öyrənilib yerli şəraitə uyğunlaşdırılaraq tətbiq edilməsindən ibarətdir.

**Tlərin hazırlanma** Azərbaycanda innovasiya sahibkarlığını qanunvericilik bazası və onun təkminləşdirilməsi imkanlarının araşdırılması istiqamətləri təşkil edir.

**Tqanunvericilik baz** Məqalədə analiz, sistemli təhlil və tədqiqat metodlarından istifadə olunmuşdur.

**Materiallar və müzakirələr**

İnnovasiya sistemi yalnız elmi texniki nailiyyətlərin işlənib hazırlanmasından və onun istehsala tətbiqində iştirak edən subyektlərdən deyil, həmçinin, bu subyektlər arasındakı əlaqələrin toplusundan ibarətdir. İnnovasiya sisteminə dövlət tərəfindən nəzarətin olunması hər bir ölkə üçün vacib məqam hesab olunur, çünki, innovasiya prosesləri risklə əlaqədardır. Beləliklə, innovasiyalı iqtisadiyyatın formalaşması, ilk növbədə, milli innovasiya sisteminin qurulmasından və onun fəaliyyət göstərməsindən asılıdır. Belə ki, milli innovasiya sistemi ölkə hüdudları çərçivəsində elmi tədqiqatların nəticələrini , texnologiya üsullarını , yeni biliklərin istehsalı və istehsala tətbiqini , onun idarə edilməsi ilə bağlı prosesləri özündə təşkil edir. Dövlətin bu sahədə tənzimləmə mexanizminin tətbiqi, ilk növbədə, müəssisənin azad rəqabət şəraitinə uyğunlaşdırılmasının müəyyən risklə əlaqədar olmasından irəli gəlir. Bu mexanizm normativ hüquqi aktlara və təşkilati- iqtisadi tədbirlərin həyata keçirilməsinə əsaslanır [1].

Bu tədbir aşağıdakılardan ibarətdir:

- əlverişli investisiya mühitinin yaradılması- bu onunla əlaqədardır ki, özəl sektorda fəaliyyət göstərən müəssisələrdə struktur baxımdan dəyişiklik edilməsi yəni, yeni texnika və texnologiyanın müəssisələrə cəlb edilməsi;
- yenidən təşkili üçün maliyyə vəsaiti sərfinin artırılması baxımından maliyyə bazarının təkmilləşdirilməsi;
- əlverişli elmi texniki mühitin formalaşması- kadr hazırlığının inkişafı, onların texnikanın tələblərinə uyğun şəkildə yenidən hazırlığı.

İnnovasiya infrastrukturu innovasiya sisteminin əsas təkib hissəsi hesab olunur. İnnovasiya infrastrukturu bir-birilə qarşılıqlı münasibətdə və qarşılıqlı təsirdə olan təşkilatlar sistemidir ki, texnologiyanın tətbiqindən başlamış elmi araşdırmaların aparılmasına qədərki bütün mərhələlərin həyata keçirilməsini təmin edir. İnnovasiya strukturunun yaradılmasında məqsəd innovasiya fəaliyyətinin səmərəli həyata keçirilməsini nəzərdə tutan təsərrüfat subyektlərinin məcmusunu formalaşdırmaqdır.

İnnovasiya infrastrukturunun formalaşmasının əsas vəzifələri kimi iqtisadiyyatda struktur cəhətdən müsbət dəyişikliklərin əldə olunması, xüsusilə, məhsulun nomenklaturasının dəyişdirilməsi ilə istehsalın inkişafına nail olmaq; dünya bazarında ölkənin rəqabətqabiliyyətli məhsullarla çıxış etməyi; elmi-texniki potensialın keyfiyyətinin gücləndirilməsi özünü göstərir. İnnovasiya infrasturukturunun əsas hissəsini innovasiya mərkəzləri təşkil edir.

Ölkəmizdə innovasiya mərkəzlərinin üç modelini fərqləndirmək olar [2]:

1) texnoparklar;
2) regional innovasiya mərkəzləri;
3) yüksək texnologiyaya malik ərazilər.

Ölkədə texnoparkların formalaşmasının əsasını elmi-texniki potensialın istehsala cəlb olunması, başqa sözlə, təhsil, elmi tədqiqat mərkəzləri ilə istehsal müəssisələrinin birgə əməkdaşlığı nəticəsində bu sahənin inkişaf etdirilməsi əhatə edir.

Regional innovasiya mərkəzlərinin yaradılması isə regionlarda texnika və texnologiyanın istehsala tətbiqini daha da stimullaşdırmağa, yəni innovasiya proseslərinin regionlarda inkişaf etdirilməsinə xidmət etməkdir.Yüksək texnologiyaya malik ərazilərin formalaşmasında məqsəd təsərrüfat fəaliyyəti iştirakçılarının xarici firmalarla əlaqəli şəkildə istehlak xarakterli innovasiya məhsullarının istehsalını reallaşdırmasından irəli gəlir.

İnnovasiya fəaliyyəti yönündə məlumatın əldə olunması üzrə informasiya- analitik mərkəzinin yaradılması vacib amildir. Həmin mərkəzin yaradılmasında əsas məqsəd innovasiya sferasında fəaliyyət göstərən subyektlərə innovasiyaya dair məlumat aşılamaq, eyni zamanda həmin məlumatların təhlilini aparıb çatdırmaq, həmçinin, innovasiyaya dair materialları kütləvi informasiya vasitələrində dərc olunması ilə cəmiyyətdə innovasiyanın inkişafına dair ideyaları təqdim etməkdir. Mərkəz öz fəaliyyətini yerinə yetirmək üçün müvafiq avadanlıqlarla, kompüterlərlə, bundan başqa, informasiyanın əldə olunması və emalı vasitələri ilə təchiz olunmalı və müvafiq qlobal internet şəbəkəsinə bağlı olmalıdır.

İnnovasiya layihələrinin səmərəliliyinin müəyyən olunması üzrə keyfiyyətin artırılması istiqamətində üç səviyyəli ekspertiza sisteminin formalaşdırılması məqsədəuyğundur [3]:

1) dövlət ekspertizası;
2) müstəqil ekspertiza;
3)innovasiya infrastrukturunun subyektləri nəznində innovasiya layihələrinin ekspertizası.

Elmi məhsulların bazarda çevik surətdə irəliləməsi istiqamətində innovasiya birjalarının yaradılması vacib ünsürdür. Onların əsas məqsədi qlobal kompüter internet şəbəkəsində vebsayt yaratmaqla ticarətin təşkilinə təkan verməkdir.

İnnovasiyanın inkişafının yüksəldilməsi üçün birjaya elmi-texniki məhsulun həm alıcısı, həm də satıcısı qismində xarici sahibkarları yönəltmək lazımdır. Vebsaytlar informasiya sistemlərinin müasir tələblərinə cavab verməklə yanaşı, eləcə də elektron ticarət əməliyyatlarının, birjanın bütün funksiyalarının həyata keçirilməsinin təminatçısı olmalıdır.

Deyilənləri ümumiləşdirsək, innovasiya sahibkarlığının infrastruktur bölmələrini aşağıdakı kimi nəzərdən keçirə bilərik:

1) İnformasiya, məsləhət xarakterli qurumlar-biznes məktəbləri, elm-tədris mərkəzləri, konsaltinq firmalar, analitik informasiya mərkəzləri;

2) İnnovasiya fəaliyyətinin reallaşmasına kompleks yardım edən sahələr- biznes inkubatorları, texnoparklar, biznes mərkəzləri;

3) İnnovasiya fəaliyyətinə maliyyə yardımı göstərən qurumlar- banklar, lizinq şirkətləri, investisiya şirkətləri, sahibkarlığa yardım fondları, ,vençur firmalar;

4) İctimai təşkilatlar- sahibkarlar ittifaqı, həmkarlar ittifaqı.

Biznes məktəbləri-bu qurumlar bir növ maarifləndirici rol oynayaraq müəssisə rəhbərlərini və eyni zamanda, müəssisənin işçi heyətini , işsiz əhalini , öz biznesinə başlamağa cəhd edən şəxslərin hazırlığını təmin edir. Eyni funksiyanı reallaşdıran lakin, fərqli adı daşıyan digər qurumlar da vardır ki, biznes məktəbləri ilə eyni mahiyyət təşkil edir. Biznes məktəbləri adətən, qısamüddətli dövrü əhatə edən seminarlar şəklində ali məktəblərdə, texnikumlarda və bir sıra tədris mərkəzlərində keçirilir. Sahibkarlara, xüsusilə də, kiçik və orta sahibkarlara kömək agentliyi kiçik firmaların qeydiyyata alınmasına köməklik göstərirlər. Bundan başqa, həmin müəssisələrə investisiyaların cəlb olunması istiqamətində maarifləndirici rol oynayırlar.

Elm-istehsalat mərkəzləri - bu mərkəzlər dövrün müasir standartlara uyğun kadrların hazırlığını və yenidən hazırlığını həyata keçirir. Uzunmüddətli dövrü əhatə edən tədris proqramlarının öyrənilməsinə əsaslanırlar [5].

Texnoloji mərkəzlər - bu mərkəzlər texnoparklarla eyni mahiyyət kəsb edir, lakin bir fərq ondan ibarətdir ki, bu mərkəzlər nəinki, kiçik firmalrın, eyni zamanda, korporasiyaların innovasiya fəaliyyətini reallaşdırmaq üçün şərait yaradırlar.

Texnoloji parklar - adətən, institutların, ali məktəblərin elmi yaradıcılıq fəaliyyətindən yararlanaraq fəaliyyət göstərən qurumlardır. Ali təhsil ocaqlarının elmi-tədqiqat nəticələrinin, həmçinin, onlar tərəfindən yaradılan texnologiyaların kommersiyalaşdırılmasını nəzərdə tutur.

Milli İnnovasiya Sisteminin təkmilləşdirilməsinə şərait yaradan bir sıra amillər mövcuddur. Milli İnnovasiya Sisteminin formalaşmasının başlıca şərti intellektual məhsul bazarının yaradılması ilə bağlıdır. Bu bazar insanın zehni əməyinin nəticəsinin, yeni texnoloji üsulların kommersiya məqsədilə satılmasına xidmət edir. İnnovasiya sisteminin inkişafını nəzərdə tutan digər amil isə insanların yaradıcı fəaliyyətinin nəticələrinin düzgün qiymətləndirilməsinə xidmət edən mexanizmin formalaşdırılmasıdır. Həmçinin, müəssisədə innovasiya fəaliyyətinin müvafiq innovasiya proqramlarına və innovasiya layihələrinə uyğun olaraq həyata keçirilməsi də vacib amil hesab olunur. Sahibkarlıq fəaliyyəti üzrə məşğul olan şəxsləri zəruri informasiya ilə təmin etməklə kapital sahiblərinin innovasiya layihələrinə yönəldilməsinə nail olmaq və həmin şəxslərə konsaltinq xidmətləri göstərmək də bu istiqamətdə həlledici amil hesab olunur. Bundan başqa, sənaye sahələri ilə elmi təşkilatlar arasında əlaqənin genişləndirilməsi və s. kimi xüsusiyyətlər innovasiya sisteminin inkişafının zəruri şərtləri hesab olunur [6].

**Nəticə**

Bazar münasibətlərinin inkişaf etdiyi dövrdə ETT-nin nailiyyətlərini müəssisəyə cəlb edərək istehsal xərclərinə qənaət etmək innovasiya sahibkarlığının əsas xüsusiyyətidir. Dünya öləkələrinin təcrübəsinə əsasən, insan potensialı inkişafının mütərəqqi texnikanın tələbinə uyğunlaşdırılması innovasiya sahibkarlığının və məşğulluğunun əsasını təşkil edir. Həmçinin, elmi-tədqiqat işlərinin nəticələrini istehsal sahələrinə tətbiq etməklə təhsil müəssisələri və sənaye müəssisələri arasında birgə əlaqələrin qurulması innovasiya sahibkarlığının formalaşması istiqamətində atılan vacib addımlardandır. İnnovasiya sahibkarlığının özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, bu sahədə mövcud olan iştirakçılar ikili xarakter daşıyaraq innovasiya məhsullarının istehsalı bazarında həm ETT məhsullarının istehsalçısı qismində, həm də istehlakçıları qismində çıxış edir. İnnovativ fəaliyyət göstərən subyektlər arasında baş verən rəqabət sonda istehsalın texniki səviyyəsinin və yerinə yetirilən xidmətlərin keyfiyyətinin artması ilə, iqtisadi səmərəliliyinin yüksəlməsi ilə nəticələnir.

Ölkədə innovasiya sahibkarlığına mane olan amillər içərisində ən başlıcaları maliyyə mexanizminin aşağı səviyyədə olması (vençur kapitalın), qanunvericilik bazasının zəif olması, həmçinin, elmi təşkilatlarla sənaye müəssisələri arasında əlaqələrin qənaətbəxş olmaması da ölkədə MİS-in zəif inkişafına səbəb olur. Dünya ölkələrinin təcrübəsində elmi tədqiqat işləri daha çox özəl müəssisələr tərəfindən maliyyələşdirildiyi halda, ölkəmizdə bu sahə özəl müəssisənin diqqətindən kənarda qalır.

XXI əsrin əvvəlləri innovasiyalı iqtisadiyyatla özünü büruzə verdi və bu iqtisadiyyat da məşğulluğun yeni tipi ilə, yeni təşkilatların, yeni iqtisadi əlaqələrin mövcudluğu ilə xarakterizə olundu. Bu baxımdan istehsalda aşağıdakı meyllər yaranmış olur:

İlk növbədə, ənənəvi istehsal amillərinin yerini yeni istehsal amillərinin (zehni və informasiya resursları, elmi biliklər) tutmasına şahid oluruq. İkincisi, ölkə iqtisadiyyatının əsas məqsədini artıq maksimum mənfəət əldə etmək deyil, insanın təhsil və mədəniyyət səviyyəsinin yüksəldilməsi, insan sağlamlığının yaxşılaşdırılması və nəticədə, insan potensialının inkişaf etdirilməsi təşkil edir. Üçüncüsü, əmək bazarında iştirak edən işçinin yalnız biliyi deyil, həmçinin, onun yeni biliyi, məlumatı çevik şəkildə əldəetmə bacarığı, düşünmə qabiliyyəti və iqtisadiyyatın tələblərinə uyğunlaşma dərəcəsi kimi amillər mühüm rol oynayır. İKT sektorunun inkişafı öz növbəsində bilik iqtisadiyyatının formalaşmasına gətirib çıxarır. Dünya təcrübəsinə əsasən, kommunikasiya və texnologiya sahəsinin inkişafı investisiyadan daha çox ilk növbədə, ideyaların ərsəyə gəlməsindən asılıdır. Yəni, az maliyyə vəsaiti ilə müəyyən ideyalara əsaslanaraq kiçik sahibkarlıq fəaliyyətindən iri korporasiyalara qədər yüksəlmək mümkündür. Bu baxımdan dünyanın bir sıra ölkələrində dövlət daim startapların yaradılmasında maraqlı olur.

Bütün bunların nəticəsi olaraq, ölkədə innovasiya fəaliyyətini inkişaf etdirmək üçün aşağıdakılara nail olmaq vacibdir:

1) İnnovasiya məhsulları bazarını yaratmaqla yaradıcı məhsulların kommersiyalaşdırılmasına şərait yaratmaq;

2) Bazarda fəaliyyət göstərən subyektlərə informasiya xidmətləri göstərməklə kapital sahiblərini innovasiya layihələrinə yönəltmək;

3) Kiçik sahibkarlığı (startup) inkişaf etdirmək üçün vençur kapitalını formalaşdırmaq;

4) Ölkədə "İnnovasiya fəaliyyəti haqqında" qanun qəbul etməklə bu sahədə qanunvericilik bazasını formalaşdırmaq;

5) Elmi-tədqiqat təşkilatları ilə sənaye müəssisələri arasında əlaqəni genişləndirərək tədqiqat nəticələrini istehsala yönəltmək;

6) İnnovasiyaya əsaslanan məşğulluğu formalaşdırmaq, yəni işçi qüvvəsini yeni struktur dəyişikliklərə uyğunlaşdırmaq üçün müvafiq ixtisasartırma təlim və kurslarının təşkilini həyata keçirmək;

7) İKT sektorunu inkişaf etdirməklə, müəssisənin idarəetmə səmərəliliyinin artırılmasına nail olmaq.

**Tədqiqatın elmi yeniliyi:** İnnovasiya sahibkarlığının inkişafında dövlət dəstəyinin hüquqi təminatı məsələsi kompleks araşdırılmış və bu hüquqi təminatının təkminləşdirilməsi ilə bağlı müəyyən təkliflərin irəli sürülməsi ilə şərtlənmişdir. .

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Əsas müddəalar, nəticələlər və irəli sürülən təkliflər müəssisənin idarə edilməsi siyasətində, o cümlədən innovasiya sisteminin həyata keçirilməsi zamanı risklərin tarazlaşdırılması və optimallaşdırılması ilə bağlı istifadə oluna bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Atakişiyev M.C .”İnnovasiya menecmenti”. Bakı, Təfəkkür, 2004, 135 s.
2. İsgəndərov R.K. Mehbalıyev S. S. “Əmək bazarı və əhalinin sosial müdafiəsi”.
Bakı, Elm, 2002, 544 s.
3. Qasımov F. H. Nəcəfov Z.M. “İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri”. Bakı, Elm, 2009, 416 s.
4. Meybullayev M.X. “İqtisadi təlimlər tarixi”. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, 2011, 538 s.
5. Musayev A.F. “İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması”. Bakı, Azərbaycan Universiteti, 2014, 84 s.
6. Musayeva F.Q. “Qeyri-dövlət sektorunda məşğulluğun səmərəliliyinin sosial- iqtisadi problemləri”. Bakı, Avropa, 2010, 235 s.

**Ниджат Адиль оглы НАРИМАНОВ, д. ф. э., доцент**
**Наджаф Исаг оглы СУЛТАНОВ**
**Ульвия Нариман кызы Самадова**
Азербайджанский Технологический Университет

## ПУТИ РАЗВИТИЯ НАЦИОНАЛЬНОЙ ИННОВАЦИОННОЙ СИСТЕМЫ В СТРАНЕ

**Резюме**

В статье рассмотрено опыт стран мира, формирование экономики на основе самостоятельных технологий имеет важное значение для развития экономики страны и экономической безопасности. Создание в стране такой технологичной экономики создает условия для участия страны в мировом рынке. Существует определенная связь между адаптацией хозяйствующих субъектов к условиям свободной конкуренции и применением инноваций. Таким образом, инновационные процессы, основанные на достижениях ЕТТ, внедрение инноваций в производство, увеличение срока службы продукции, в конечном итоге приводят к выпуску качественной и конкурентоспособной продукции, что в конечном итоге приводит к увеличению спроса на эту продукцию. . Поэтому развитие инновационных процессов зависит, прежде всего, от совершенствования управления предприятием. Однако развитие инновационных процессов осуществляется в большей степени за счет инвестиций, что в первую очередь зависит от подхода руководителя предприятия к инновационным процессам, и в то же время государственной поддержки в этой сфере.

**Ключевые слова:** национальная инновационная система, конкуренция, финансовая обеспечение, экономический рост, инновационное предпринимательство

**Nijat Adil oghlu NARIMANOV, d.p.e., associate professor**
**Najaf Isag oghlu SULTANOV**
**Ulviyya Nariman gizi SAMADOVA**
Azerbaijan Technological University

## WAYS TO DEVELOP THE NATIONAL INNOVATION SYSTEM IN THE COUNTRY

**Summary**

The article considers the experience of the countries of the world, the formation of an economy based on independent technologies is important for the development of the country's economy and economic security. The creation of such a technological economy in the country creates conditions for the country's participation in the world market. There is a certain connection between the adaptation of economic entities to the conditions of free competition and the application of innovations. Thus, innovative processes based on the achievements of ETT, the introduction of innovations into production, an increase in the service life of products, ultimately lead to the release of high-quality and competitive products, which ultimately leads to an increase in demand for these products. . Therefore, the development of innovative processes depends, first of all, on the improvement of enterprise management. However, the development of innovative processes is carried out to a greater extent through investments, which primarily depends on the approach of the head of the enterprise to innovative processes, and at the same time state support in this area.

**Keywords:** national innovation system, competition, financial support, economic growth, innovative entrepreneurship

**Nicat Adil oğlu NƏRİMANOV, i.f.d. dos.**

**Minurə Hacı qızı KƏRIMOVA, i.f.d., b.m.**

**Aytac Aqşin qızı HÜSEYNOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mina34mk@mail.ru

# AZƏRBAYCANDA MMUS- NIN TƏTBİQİNİN QANUNVERİCİLİK BAZASININ TƏKMİLLLƏŞDİRİLMƏSİ

**Xülasə**

Maliyyə nəzarətinin müxtəlif növləri arasında audit nəzarəti əsas yer tutur. Ona görə ki, audit dövlətin maliyyə-iqtisadi siyasətinin müvəffəqiyyətli bir şəkildə yürüdülməsi və maliyyə dəyişməzliyinin bərqərar olunması üçün imkan yaratmaqla, qanunçuluğa əməl olunmasınna, mülkiyyətin mühafizəsinə, maliyyə vəsaitlərindən doğru, əlverişli və qənaətli bir şəkildə istifadə edilməsinə xidmət göstərir, büdcə və maliyyə intizamının fərqli pozuntularını müəyyən etməyə kömək edir, qeyri-qanuni olaraq xərclənmiş vəsaitləri müəyyən etməyə və onların bərpasına şərait yaradır.

**Açar sözlər:** maliyyə, mühasibat uçotu, audit, vergi, büdcə, iqtisadi xərclər

**JEL: F43**

**Giriş**

Mühasibat (maliyyə) hesabatının tərtib olunması uçot prosesinin sonuncu və əhəmiyyətli mərhələsidir. Mühasibat (maliyyə) hesabatında müəssisənin istehsalat-təsərrüfat və maliyyə fəaliyyətinin nəticələri haqqında ümumi informasiyalar qeyd olunur. Maliyyə hesabatlarının məlumatlarından müəssisənin ayrı-ayrı bölmələrində təsərrüfat fəaliyyətini qiymətləndirmək, onun müsbət tərəflərini və çatışmazlıqlarını müəyyən etmək, plandan kənara çıxmaların səbəblərini aşkar etmək, bütövlükdə müəssisənin işinin əlverişliliyini təhlil etmək və başqa bir çox məqsədlər üçün istifadə olunur. Bu məqsədlə istifadə olunan məlumatın düzgünlüyü xüsusi əhəmiyyət daşıyır.

Dünya ölkələrində mühasibat uçotu və mühasibat hesabatının tərəqqisi təcrübəsindən məlum olur ki, hesabatın təyinatı üzrə xarakteristikasını təyin edən qəbul olunmuş prinsiplər və bu prinsiplərə verilən tələblər vardır. Müasir dövrdə dünyanın bir çox ölkələri, eyni zamanda, AR da həmin əsas tələbləri qəbul etmişdir. Belə ki, ölkəmizdə mühasibat uçotu və hesabatın beynəlxalq təcrübədə qəbul olunmuş qayda-qanunlarla uzlaşdırılması yönündə bəzi normativ-hüquqi sənədlər - "Mühasibat uçotu mövzusunda AR-nın Qanunu" (2004), "Mühasibat uçotu haqqında Qanunun tətbiqi haqqında" AR dövlət başçısının fərmanı (7 fevral 2005-ci il), Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qəbul etdiyi "2005- 2008-ci illərdə MMUS- nın tətbiqi üzrə Proqram" qəbul edilmiş və həmin Proqram çərçivəsində kommersiya təşkilatları üçün 37, büdcə təşkilatları üçün 24 və qeyri-hökumət təşkilatları üçün 1 MMUS (Milli Mühasibat Uçotu Standartları) hazırlanmış və onların praktiki tətbiqinə başlanılmışdır.

Hal-hazırda auditin metodologiyasının təkmilləşdirilməsi və inkişafı təşkilatın maliyyə-iqtisadi vəziyyəti haqqında cəmiyyətin tələbinin tam ödənilməməsi və maliyyə (mühasibat uçotu və vergi) auditinə istiqamətləndirilməsi ilə bağlıdır. Eyni zamanda, iqtisadi auditin inkişafının zəruriliyi və auditin istifadəçilərinin – səhmdarların, mülkiyyətçilərin. investorların, kreditorların maraqlarına tam adaptasiyası obyektiv xarakter daşıyır. **Mövzunun aktuallığı.** Məsələlərin belə qoyuluşu və həll metodları üzrə həmin istiqamətlər analitik problemlərin tərkib elementləri olmaqla auditin məqsədlərinin yüksək səviyyədə təmin olunmasının zəruriliyini ön plana çəkmişdir.

**Tüksək səviyyədə təm** Mühasibat uçotu nöqteyi-nəzərindən hesabatın dürüstlüyünün təsdiq edilməsi ilə yanaşı, eyni zamanda onun iqtisadi məzmun mövqeyindən qiymətləndirilməsi,

təşkilatın fəaliyyətinin fasiləsizliyinin mümkünlüyünün qiymətləndirilməsi, eləcə də təşkilatın rəhbərliyinin işinin səmərəliliyinin qiymətləndirilməsi auditin məqsədini təşkil edir.

**Tədqiqat obyekti:** Azərbaycanda MMUS- nın tətbiqinin qanunvericilik bazasının təkmilləşdirilməsi.

**Tədqiqat metodları:** Tədqiqat prosesində statistik, sintez və müqayisəli təhlil metodlarından geniş istifadə edilmişdir.

**Materiallar və müzakirələr**

Müasir dövrdə AR-da mühasibat uçotunun 4 səviyyəli normativ-hüquqi protokoluna əsaslanan metodoloji və eyni zamanda, hüquqi tənzimlənməsi sisteminin inkişaf etdirilməsi üzrə yorulmadan iş görülür.

1- ci səviyyə-AR-da mühasibat uçotunun metodoloji və hüquqi standartlarla təşkil edilməsini dövlət başçısnın qanun, fərman, o cümlədən qərarları təyin edir. Ölkənin başqa qanunlarında əhatə olunan standartlar, mühasibat uçotu və hesabatına dair mövzular, ölkənin «Mühasibat uçotu haqda» nizamnaməsinə uyğun olmalıdır.

2- ci səviyyə- mühasibat uçotu üzrə dövlət tərəfindən təyin olunan icraedici orqanların təsdiqlədiyi əsasnamələri özündə birləşdirir. Müasir dövrdə mühasibat uçotu üzrə vacib uçot standartları tərtib edilmişdir.

3- cü səviyyə–tərtib olunan metodiki göstərişlərdən, təkliflərdən, təlimatlardan və onların məzmununu özündə birləşdirən analoji sənədlərdən təşkil edilmişdir. Bu səviyyəyə aid aktlar 1-ci və 2-ci səviyyəyə aid sənədləri tərəqqi etdirməklə nazirliklər və başqa orqanlar tərəfindən tərtib olunur və təsdiq edilir. Bu səviyyəyə hər hansı bir qurumun maliyyə-təsərrüfat fəaliyyətinin mühasibat uçotunun mövcud hesablar planı və planların tətbiq edilməsinə dair təlimat aid olunur.

4- cü səviyyə – müxtəlif əmlak, öhdəlik və təsərrüfat proseslərinin mühasibat uçotunun təşkil edilməsini təşkil edir. Bu səviyyədə hər hansı bir təşkilatda onun başçısının qəbul olunmuş uçot siyasəti çərçivəsində təsdiqlədiyi istifadə üçün qeyd edilən iş sənədləri aid olunur.

Normativ bazanın inkişaf etdirilməsi AR-nın bazar iqtisadiyyatı mühitinin fəaliyyət göstərməsi mərhələsində qəbul olunmuş mühasibat uçotunun doqquz konsepsiyası ilə bağlıdır. Bu konsepsiyalarda AR-da uzun müddətə qəbul olunmuş mühasibat uçotu sisteminin qurulmasına məxsus olan yanaşmalar tətbiq edilməlidir. Həmin konsepsiyalar aşağıdakı bölmələrdən ibarətdir: (“Mühasibat uçotu haqqında” AR-nın Qanununda dəyişikliklər edilməsi haqda AR-nın Qanunu, 01 iyun 2018-ci il )

1. Planlı iqtisadiyyat mühitində mühasibat uçotu konsepsiyası əmlakın ictimai xarakterinə müvafiq yaradılırdı. Bu cür mühitdə dövlət maliyyə nəzarəti iqtisadi subyektlərin təsərrüfat hərəkəti nümunəsində düşünülən kənarlaşmaların təyin olunmasını həll edirdi. Mühasibat uçotunun təzə konsepsiyası və onun əsasında təşkil edilən qayda-qanunlar, mühasibat uçotunun yaradılma və həyata keçirilmə normaları həmçinin müəyyən istifadəçilər üçün maliyyə məlumatlarının etibarlı və konkret olması üzərində nəzarətin təşkili üçün uyğun bir şərait yaratmalıdır.

2. Ümumi qayda. Konsepsiya, AR-da mühasibat uçotunun bütün fəaliyyət növləri üzrə təsərrüfat yerləri və müxtəlif quruluşlu təşkilatlarda yaradılmasının özəyini təşkil edir. O, aşağıdakı əsas tələbləri ödəməlidir:

- mühasibat uçotunun təşkil edilməsi və həyata keçirilməsinə dair bütün yanaşmalar haqda məlumatlarla maraqlı olan peşəkarları təmin etmək;
- mühasibat uçotu üzrə müasir normativ protokolların və qüvvədə olanların mərhələlərlə hazırlanmasının əsasını təşkil etmək;
- hələ normativ protokollarla tənzimlənməyən məsələlər üzrə uyğun bir qərarın verilməsi üçün istiqamətverici baza rolunu oynamaq;
- mühasibat hesabatında qeyd edilən informasiyaların dərk edilməsində mühasibat məlumatlarına tələbi olan tərəflərə yardım göstərmək. Həmin konsepsiyanın mövqeyini tətbiq etmək üçün mühasibat uçotunun məqsədlərinə əks olmayan müxtəlif sadələşdirilmiş formaların xırda müəssisə subyektlərinə də tətbiq etmək olar.

3. Mühasibat uçotunun məqsədi. Mühasibat uçotunun təşkil edilməsi sistemi müəyyən istifadəçilər üçün məlumatlarla formalaşır. Xarici istifadəçilərin məlumata olan münasibətinə əsasən mühasibat uçotunun əsas məqsədi təşkilatın maliyyə durumu, fəaliyyətin maliyyədən alınan nəticələri və maliyyə vəziyyətində edilən dəyişikliklər haqda uyğun qərar vermək məqsədilə onda geniş marağı olan istifadəçi şəxslər üçün məlumatlar əldə etməkdən ibarətdir. Daxili

istifadəçilərin məlumata olan münasibətinə əsasən mühasibat uçotunun mühüm vəzifəsi idarəetmə qərarı vermək üçün təşkilat rəhbərinə faydalı məlumat təqdim etməkdir. Bu vaxt əldə edilən məlumatın təkcə daxildə istifadə edilməsini bilmək mütləqdir.

4. Mühasibat uçotunun təşkil edilməsinin əsasları.

Mühasibat uçotunun təşkil edilməsi zamanı konsepsiyanın tətbiqi üçün aşağıdakıların olması güman olunur.

- təşkilatın əmlak əlamətləri;
- təşkilatın fəaliyyətinin qeyri-aktivliyi;
- uçot siyasətinin ardıcıl tətbiq olunması;
- təsərrüfat fəaliyyəti situasiyalarının qeyri-müəyyənliyi.

Sözügedən təsərrüfat fəaliyyəti situasiyalarının hansı dövrdə yaranmasından asılı olmayaraq məxsus olduğu hesabat dövrünə aid edilməlidir.

5. Mühasibat uçotunda yaranan məlumatların məzmunu. İstifadəçilərin ümumi tələbatını qarşılamaq məqsədilə mühasibat uçotunda maliyyə durumu, maliyyənin fəaliyyətinin nəticəsi və bu zaman yaranan yeniliklər haqqında məlumatlar meydana gəlir. Təşkilatın maliyyə vəziyyəti onun fərmanında olan aktivlərin, məsuliyyətlərin və kapitalların strukturu ilə təyin olunur. Təşkilatın fəaliyyətinin maliyyə nəticələri haqqında məlumatlar gələcək dövrlərdə pul axınının effektli şəkildə istifadə edilməsi qaydasının proqnozlaşdırılmasında edilən dəyişikliklərin təhlil edilməsi üçün vacibir. Təşkilatın maliyyə vəziyyətinin başqası ilə əvəz edilməsi haqqında məlumat, hesabat dövründə onun investisiya, maliyyə və cari fəaliyyətini tədqiq etməyə zəmin yaradır. Maliyyə vəziyyəti haqqında məlumat, mühasibat balansı, maliyyə nəticəsi haqqında hesabat və başqa hesabatlar vasitəsilə yaranır.

6. Mühasibat uçotunda yaranan məlumata olan tələbat. Mühasibat uçotunda yaranan məlumatlar:

- istifadəçilər üçün faydalı, başqa sözlə desək, münasib, etibarlı və müqayisəli olmağı;
- eynitərəflilikdə müstəqil olmağı;
- qeyri-müəyyənlik mühitində yerlərdəki mühakimə və təhlil etmədə ehtiyatlı davranmağı;
- aktiv və gəlirlərin artıq, məsuliyyətlərin və xərclərin isə çox olmasını təmin etməlidir.

7. Xarici istifadəçilərdən ötrü mühasibat uçotunda yaranan məlumatların tərkibi. Xarici ölkə istifadəçiləri üçün maliyyə durumu və maliyyədən alınan nəticələr barəsində mühasibat uçotunda yaranan komponentlər: aktivlər, məsuliyyətlər, gəlirlər, xərclər, kapitallar sayılır. Aktivlər, təşkilatın təsərrüfat fəaliyyətində cərəyan edən hadisələr üzərində nəzarət etməsi nəticəsində gələcək dövrlərdə iqtisadi qazanc verən təsərrüfat vəsaitləri sayılır.

Aktivlər gələcək dövrlərdə aşağıdakı hallarda iqtisadi gəlir verə bilər:

- satış üçün olan mal, iş, xidmət istehsalı zamanı müəyyən aktivlərlə birlikdə istifadə edilən;
- öhdəliyin ödənilməsində istifadə edilən;
- təşkilatın mülkiyyət sahibləri arasında paylaşdırılan.

Məsuliyyətlərə proyektlərin təsərrüfat fəaliyyətində həyata keçirilməsi üçün təşkilatın borclarının və alınmış aktivlərə əsasən hesablaşmaların edilməsi aid olunur. Öhdəliyin ödənilməsi hər hansı bir öhdəliyin bir başqası ilə əvəz edilməsi, öhdəliyin kapitala çevrilməsi, kreditorun tələbinin rədd edilməsi kimi baş verir. Təşkilatın maliyyə vəziyyəti təyin olunan zaman kapitalın məbləği aktiv və məsuliyyətlərin arasındakı fərq kimi hesablanır.

Xərclər, hesabat zamanı iqtisadi gəlirin, kapitalın azalmasına gətirib çıxaran, işçilərin əməyinin ödənilməsinə, amortizasiya ayırmalarına və itkilərə görə meydana gələn məsuliyyətlər sayılır. Təşkilatın fəaliyyətinin maliyyə nəticəsinin təyin olunması zamanı hesabat dövründə qazanılan mənfəət gəlir və xərc arasındakı balans kimi hesablanır.

8. Aktivlərin, məsuliyyətlərin, əldə edilən gəlirlərin və sərf edilən vəsaitlərin tanınma meyarları. Aktivlər, məsuliyyətlər, gəlirlər və xərclər, başqa sözlə obyektlər mühasibat balansına, maliyyə nəticələri haqqında tərtib edilən hesabata daxil olarkən öz həqiqi tələbatına uyğun olmalıdır. Aktivlər, təşkilatda iqtisadi qazanc gətirilən və onun dəyəri ölçülə bilən situasiyalarda mühasibat balansına qəbul olunur və tanınır. Məsuliyyətlər, təşkilata iqtisadi qazanc verən təsərrüfat vəsaitlərinin və onların mötəbər səviyyədə hesablanmasının uyğun tələblərinin ödənilməsi mühitində mühasibat balansına qəbul olunur və tanınır.

Gəlirlər, gələcək dövrlərdə uyğun aktivlərlə əlaqədar iqtisadi qazancın gəlməsi, yaxud məsuliyyətlərin mötəbər səviyyədə ölçülə bilməsi hallarında maliyə nəticələri və onun istifadə edilməsi haqqında hesabata qəbul olunur və təsdiq

edilir. Sərf edilmiş xərclər, aktivlər hesabına gələcək iqtisadi qazancın nisbətən azalmasına, öhdəliyin çoxalmasına imkan verən və təsdiq edilən hallarda qəbul olunur, maliyyə nəticələri və onun istifadəsi haqqında tərtib edilən hesabatda təsdiq edilir.

9. Aktivlərin, məsuliyyətlərin, gəlirlərin və xərclərin təhlil edilməsi həqiqi dəyərlə icra olunur. Məlumatların mühasibat uçotunda əhəmiyyətini təmin etmək üçün həmin obyektlərin təhlil edilməsi aşağıdakı kimi həyata keçirilə bilər:

a) cari dəyərlə, başqa sözlə desək müəyyən obyektin dəyişdirilməsi vacib olan hallarda mühasibat hesabatı hazırlanan tarixə ödənilən pul vəsaiti dəyəri üzrə;

b) cari bazar qiymətilə, başqa sözlə desək, obyektin satılması sayəsində, onun ləğv olunma müddəti daxil olan zaman əldə edilə bilən pul vəsaiti dəyəri üzrə.

"Mühasibat uçotu haqqında" AR-nın qanununa edilmiş sonuncu dəyişikliklərə əsasən uçotun təşkili və aparılması artıq "MMUS- " ilə deyil, MHBS-na (IFRS), Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün MHBS-na (IFRS SME) və İctimai Sektor üçün MUBS-na (IPSAS) əsasən yerinə yetiriləcəkdir.

Aid olduğu kateqoriyadan asılı olaraq hüquqi şəxslər üçün mühasibat uçotunun aparılması üzrə tələblər aşağıdakı kimi müəyyən edilir:( Uçot sahəsində yeni reallıqlar, yeni tələblər Bakı , 2018)

- Publik hüquqi şəxslər, ictimai əhəmiyyətli qurumlar üçün - yalnız IFRS
- İri və Orta Sahibkarlıq Subyektləri üçün – öz seçimlərindən asılı olaraq IFRS və ya IFRS SME.
- Kiçik və Mikro sahibkarlıq subyektləri – AR Maliyyə Nazirliyi tərəfindən təsdiq edilən xırda sahibkarlıq subyektlərində uçotun həyata keçirilməsi qaydaları yaxud öz seçimlərindən asılı olaraq IFRS və ya IFRS SME.
- Qeyri-kommersiya təşkilatları – IPSAS prinsipləri əsasında Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən təsdiq edilən uçot qaydaları əsasında.

Qanunvericiliyə edilən sonuncu dəyişikliklər həmçinin bu sahədə Azərbaycan Respublikası Vergilər Nazirliyinə verilən səlahiyyət ilə də yadda qalmışdır. Belə ki, büdcə təşkilatları və maliyyə institutları istisna olmaqla digər bütün kommersiya təşkilatlarında yuxarıda qeyd olunan tələblərə əməl edilməsinə nəzarət aparılan vergi yoxlamaları çərçivəsində Vergilər Nazirliyi tərəfindən həyata keçirilməkdir.

Belə ki, IFRS və IPSAS artıq Azərbaycan dilinə rəsmi tərcümə olunmuş və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində dərc edilmişdir. IFRS SME-nin 30 iyun 2019-cu ilə qədər dərc edilməsi gözlənilir.

Mühasibat uçotu haqqında qanuna əsasən mühasibat uçotu subyektləri tərəfindən Azərbaycan Respublikasının Vergi Məcəlləsi əsasında vergi orqanlarına təqdim edilən vergi hesabatları onların yuxarıda qeyd olunan qaydada hazırlanmalı olan maliyyə hesabatlarını əvəz etmir.

Vergi Məcəlləsinin 67-ci maddəsinə əsasən vergi ödəyicisi mühasibat uçotunu müəyyən edilmiş qaydada aparmadıqda vergi orqanları vergi öhdəliklərini əlaqəli məlumatlar əsasında hesablamaq hüququna malikdir.

**Nəticə**

Maliyyə hesabatı və eyni zamanda, uçotu sistemi ölkə daxilində baş verən sosial- iqtisadi tərəqqi ilə bağlıdır. Onun müasir bazar əlaqələrinin, biznesin səviyyəsinə əsasən dəyişdirilməsi və inkişaf etdirilməsi obyektiv zərurətə çevrilmişdir. AR-nın dünyanın iqtisadi inteqrasiyasına daxil olması, dövlətin bəzi iri kommersiya qurumları və müəssisələrinin xarici əmtəə və fond bazarlarına çıxışı, o cümlədən xarici ölkələrdən investisiya hərəkətinin intensivləşməsi də həmin sistemin vaxtaşırı tərəqqi etdirilməsini və dünya praktikası ilə uzlaşdırılmasını vacib edən faktorlardır.

Tədqiqatlardan məlum olur ki, ölkə daxilində bazar iqtisadiyyatına keçid dövrünün hələ başlanğıcında yaradılan uçot-hesabat sistemi nəzəri-metodoloji, pratiki nöqteyi-nəzərindən dünya miqyasında uçotun, əsasən də maliyyə hesabatının harmonizasiyası tələblərinə müvafiq gəlmirdi. Bu sistem, öz növbəsində dinamik olan bazar iqtisadiyyatında cərəyan edən hadisələr, proseslər, faktlar və təzə obyektlər haqda adekvat məlumat yaratmaq metodologiyası və üsullarına sahib deyildi.

Beynəlxalq praktika və edilən araşdırmalar təsdiq edir ki, istifadəçilər tərəfindən əsaslandırılmış iqtisadi qərarların verilməsi əsasında maliyə hesabatında yaradılan məlumat durur. Bu səbəbdən də, uçot sistemi, onun axırıncı mərhələsi

olan maliyyə hesabatı, vaxtaşırı dəyişən biznes şəraitində sürətli və üstün qərarların verilməsi üçün olduqca faydalı məlumat yaratmaq metodologiyası və metodikasına sahib olmalıdır.

İnstitutsional vahidlər miqyasında cərəyan edən təsərrüfat hadisələri və faktları haqda informasiyaların qeydə alınması, əldə olunması, istifadə edilməsi və istifadəçilər üçün gərəkli məlumat halına salınması üsulları birdəfəlik olmayıb, hər zaman konkretləşdirilməli və inkişaf etdirilməlidir. Bu nöqteyi-nəzərdən, maliyyə hesabatının Dövlətlərarası Standartları və onların əsasında tərtib edilmiş MMUS müəssisələrin fəaliyyət şəraitinin sosial, ekoloji, iqtisadi, normativ hüquqi istiqamətlərdə dəyişliməsinə əsasən bir daha yoxlanılmalıdır.

Tədqiqatlardan məlum olur ki, keyfiyyətli məlumat yaratmaq üçün verilmiş uçot və hesabat sistemini mükəmməl konsepsiya və prinsiplər əsasında təşkil etmək, onları həqiqi praktikanın tələbləri ilə uzlaşdırmaq lazımdır. İlk növbədə maliyyə hesabatının məzmunu, onun statusu, təyinatı məsələləri nəzəri, metodoloji və praktiki istiqamətlərdə lap çox tədqiqat obyekti olmalıdır. Ona görə ki, maliyyə hesabatının bu məsələlərini doğru izah etmədən, onun nəzəri-metodoloji və praktiki əsaslarını və qaydalarını da konkret təyin etmək qeyri-mümkündür. Tədqiqatlar bunu deməyə əsas verir ki, uçot və hesabat üzrə kitablarda, o cümlədən dövlətlərarası və ölkədaxili standartlarda maliyyə hesabatı geniş şəkildə şərh edilməmişdir.

**Tədqiqatın elmi yeniliyi:** Maliyyə hesabatı məlumatın bir çox fərqli məqsədlərlə istifadə olunmaq üçün təqdim edilməsi forması, məlumat isə özündə müəyyən sosial, iqtisadi, psixoloji, etik qarşılıqlı əlaqələri kəmiyyət halında ifadə edən məzmundur. Maliyyə hesabatı iqtisadi qərarlar vermək üçün müəssisənin əmlak və maliyyə vəziyyətini, fəaliyyətinin nəticələrini müşayiət etmək və qiymətləndirmək üçün mühasibat uçotunun informasiyaları üzrə formalaşdırılaraq istifadəçilərə özəl informasiyanın bir sıra formalarda göstərilməsi metodu kimi qəbul olunmalıdır.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Maliyyə hesabatının əsas məqsədinin məlumat yaratmaq olduğu nəzərə alınarsa, bu zaman hesabat ilə məlumat arasındakı əlaqəni forma ilə məzmunun qarşılıqlı əlaqəsi kimi dəyərləndirmək mümkündür.

## ƏDƏBIYYAT SIYAHISI:

1. Adil Kərimov(2014). "Mühasibat uçotu, vergilər" Bakı. Elm,145 s
2. Abbasov i.m., Məmmədov i.a., Cabbarov a.s.(2017) "Mühasibat uçotu (sahələr üzrə)" - dərslik. Baki, 424 s.
3. Əli Sadiqov (2012) "Mühasibat uçotu", Bakı; Çıraq, 211 s.
4. Əbdülhəsənov Tural Tofiq (2016).Kənd təsərrüfatının investisiya cəlbediciliyinin artırılması istiqamətləri , Bakı. Elm s.278

**Ниджат Адиль оглы НАРИМАНОВ, д. ф. э., доцент**
**Минура Гаджи кызы КЕРИМОВА д. ф. э., стар.препод.**
**Айтадж Акшин кызы ГУСЕЙНОВА**
Азербайджанский Технологический Университет

# СОВЕРШЕНСТВОВАНИЕ ЗАКОНОДАТЕЛЬНОЙ БАЗЫ ДЛЯ ПРИМЕНЕНИЯ НАЦИОНАЛЬНЫХ СТАНДАРТОВ БУХГАЛТЕРСКОГО УЧЕТА В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

Среди различных видов финансового контроля главное место занимает аудиторский контроль. В связи с тем, что, создавая возможность для успешной реализации финансово-экономической политики государства и установления финансовой устойчивости, аудит служит соблюдению законности, защите собственности, правильному, удобному и экономичному использование финансовых средств, а также различные нарушения бюджетно-финансовой дисциплины, способствует выявлению, создает условия для выявления незаконно потраченных средств и их взыскания.

**Ключевые слова:** финансы, бухгалтерский учет, аудит, налог, бюджет, экономические затраты

**Nijat Adil oghlu NARIMANOV d.p.e., associate professor**
**Minura Haji gizi KERIMOVA ph.d., Senior Lecturer**
**Aytaj Akshin gizi HUSEYNOVA**
Azerbaijan Technological University

# IMPROVING THE LEGAL FRAMEWORK FOR THE APPLICATION OF NATIONAL ACCOUNTING STANDARDS IN AZERBAIJAN

**Summary**

Among the various types of financial control, the main place is occupied by audit control. Due to the fact that, by creating an opportunity for the successful implementation of the financial and economic policy of the state and the establishment of financial stability, the audit serves to comply with the law, protect property, correct, convenient and economical use of financial resources, as well as various violations of budgetary and financial discipline, helps to identify , creates conditions for the identification of illegally spent funds and their recovery.

**Key words:** finance, accounting, audit, tax, budget, economic costs

**Çinarə Nizami qızı NƏSİBOVA**
Azərbaycan Dövlət Aqrar Universitetinin dissertantı
E-mail: xalsa_nesibova@mail.ru

# AQRAR SAHƏDƏ İXRAC POTENSİALININ FORMALAŞMASI MEXANİZMİ VƏ ONU ŞƏRTLƏNDİRƏN AMİLLƏR

**Xülasə**

Ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsindəki müasir meyillər, dünya iqtisadiyyatının qloballaşma şərtlərini nəzərə alaraq aqrar sektorun ixrac potensialının müəyyənləşdirilməsinə xüsusi yanaşma tələb edir. Hazırda aqrar sahə kənd təsərrüfatı məhsullarını yalnız ölkə daxilində tələb olunan istehlak səviyyəsini təmin edəcək miqdarda istehsal etmək deyil, həm də xarici bazarlara çıxarmaq iqtidarındadır. Bu baxımdan aqrar sektorun ixrac potensialı çoxamilli bir model olub kənd təsərrüfatının spesifik amillərini, ixrac mexanizmini təşkil edən xarici iqtisadi fəaliyyətin təşkili amillərini və onun həyata keçirilməsi vasitələrini əhatə edir.

**Tədqiqatin məqsədi** - aqrar sahədə ixrac potensialının formalaşması mexanizmini araşdırmaq və ona təsir edən amilləri müəyyən etməklə ixrac potensialının yüksəldilməsi perspektivləri barədə təkliflər hazırlamaqdan ibarətdir.

**Tədqiqatin metodu** – tədqiqat prosesində qruplaşdırma və təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatin nəticələri** - əldə edilmiş nəticələr ixrac potensialının yüksəldilməsi perspektivlərini müəyyən etməyə imkan verir.

**Açar sözlər:** ixrac potensialı, resurs, amil, keyfiyyət, səmərə.

**JEL: Q19**

## Giriş

Mövcud iqtisadi şəraitdə kənd təsərrüfatının rolu artmaqdadır. Bu istiqamətdə kənd təsərrüfatı potensialının qiymətləndirilməsinin aktuallığı həm ölkənin ərzaq təhlükəsizliyini təmin etmək qabiliyyəti, həm də ixrac potensialını müəyyənləşdirmək baxımından özünü əhəmiyyətli şəkildə göstərir. Qeyd edilənlər öz növbəsində ixrac potensialını yüksəltməklə idxalın əvəzlənməsi siyasətinin formalaşdırılmasına, o cümlədən kənd təsərrüfatı xammalı və ərzaq məhsulları istehsalının artırılmasına, yeni kənd təsərrüfatı müəssisələrinin yaradılmasına əlverişli şərait yaradır. Kənd təsərrüfatında fəaliyyət göstərən strukturların ixrac fəaliyyəti xarici bazarlara çıxışı təmin etməklə, beynəlxalq keyfiyyət standartlarına uyğun kənd təsərrüfatı məhsullarının istehsalına, xərcləri minimuma endirməklə ixrac yönümlü istehsalı artırmağa və rəqabət qabiliyyətini yüksəltməyə yönəldilir.

Müasir iqtisadi yanaşmalarda "idxalın əvəzlənməsi" konsepsiyası "ixrac potensialı" konsepsiyasına keçidlə özünü göstərir. Belə ki, kənd təsərrüfatı sektorunun sosial-iqtisadi inkişafı məsələləri kənd təsərrüfatı müəssisələrinin xarici bazarlara yönəldilməsinin zəruriliyini şərtləndirir. Ona görə də, fundamental araşdırmalarda ən vacib istiqamətlərdən biri olaraq aqrar sahənin təşkilati və iqtisadi mexanizminin dünya iqtisadiyyatındakı qloballaşma və inteqrasiya proseslərinə uyğunlaşdırılması müəyyənləşdirilir. Qloballaşma şəraitində ixrac potensialının öyrənilməsi kənd təsərrüfatı sektorunun daxili bazarın tələbatının ödənilməsindəki və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsindəki rolu ilə birbaşa əlaqəlidir. Bu baxımdan, ölkənin idxalın əvəzlənməsi və ərzaq təhlükəsizliyi problemləri ixrac potensialı ilə əlaqəli məsələlərin öyrənilməsinə xüsusi diqqət yetirilməsini tələb edir.

## Aqrar sahədə ixrac siyasəti, ixrac potensialına təsir edən amillər

Aqrar sahənin resurs potensialı xarici iqtisadi siyasətin formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Çünki, ölkənin dünya ərzaq bazarındakı mövqeyi məhsulların keyfiyyəti və rəqabət qabiliyyəti, ixrac potensialı, daxili ərzaq bazarını qorumaq imkanları və s. ilə ölçülür. Ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında mövcud tendensiyalar kənd təsərrüfatı sektorunun ixrac potensialını, kənd təsərrüfatı xammalı və ərzaq məhsullarını tələb olunan istehlak səviyyəsini təmin edəcək

miqdarda istehsal etmək qabiliyyətini və ya bacarığını əsas olaraq götürməyi tələb edir. Bununla yanaşı, dünya iqtisadiyyatının qloballaşması şəraitində aqrar sahənin ixrac potensialı xarici bazarlara rəqabətə davamlı məhsul çıxarmaq, eyni zamanda kənd təsərrüfatı müəssisəsinin xarici bazarlara çıxması üçün daha təsirli bir mexanizm formalaşdırmaq qabiliyyətini xarakterizə edir [4, s. 29].

Araşdırmalar göstərir ki, aqrar sahənin ixrac potensialı müxtəlif amillərin təsiri ilə formalaşır. Onları şərti olaraq üç istiqamətdə birləşdirmək olar:

- əsas istehsal amilləri - torpaq, əmək, kapital, sahibkarlıq qabiliyyəti və informasiya təminatı;
- kənd təsərrüfatı istehsalına birbaşa təsir göstərən və yalnız ona xas olan spesifik amillər - kənd təsərrüfatı istehsalının təbii-iqlim xüsusiyyətləri, aqrar sahəyə dövlət dəstəyi, kənd təsərrüfatının daxili istehlak səviyyəsi, ərzaq təhlükəsizliyi siyasəti;
- kənd təsərrüfatı müəssisələrinin xarici bazarlara çıxışının təşkili, kənd təsərrüfatı xammalı və yerli ərzaq məhsullarının xarici bazarlarda tanıdılması ilə əlaqəli vasitələr.

Qeyd edilənlər göstərir ki, aqrar sektorun ixrac potensialının və bütövlükdə xarici iqtisadi fəaliyyətinin formalaşması amilləri çoxşaxəliliyi ilə fərqlənir. Bu, onu deməyə əsas verir ki, kənd təsərrüfatı yalnız iqtisadiyyatın ixrac potensialının ayrılmaz elementi deyil, həm də ixracın həyata keçirilməsi üçün bir vasitə rolu oynamaqla ixrac mexanizmini şərtləndirir.

İdxalın əvəzlənməsi siyasətinin müasir şərtləri daxilində aqrar sfera müəssisələrinin ixrac potensialının reallaşdırılması prosesi özünəməxsusluğu ilə fərqlənir. Çünki kənd təsərrüfatı məhsulları üçün strukturlaşdırılmış və effektiv ixrac mexanizminin yaradılması mürəkkəbliyi ilə özünü göstərir [2, s.37].

Aqrar sahənin ixrac potensialını reallaşdırmaq üçün mövcud vasitələr içərisində (xarici bazarların təhlili, xarici bazarlarda məhsulların təqdimatı, beynəlxalq patentləşdirmə, beynəlxalq sertifikatlaşdırma, ixraca logistik dəstəyin göstərilməsi) ixracatçılara və müxtəlif sahələrdə fəaliyyət göstərən müəssisələrin xarici bazarlara çıxışına dövlət tərəfindən dəstək göstərmək xüsusi yer tutur. İxracat fəaliyyətinin əsasını təşkil edən xarici iqtisadi fəaliyyətin potensial iştirakçıları üçün ən böyük çətinliklər də məhz bu məsələlərlə bağlıdır.

İxrac potensialını həyata keçirmək üçün digər vasitə beynəlxalq sərgi və yarmarkalarda iştirak etməkdir. Kənd təsərrüfatı sektorunun ixrac potensialını inkişaf etdirmək üçün bu cür vasitələrin formalaşmasında kənd təsərrüfatı məhsullarının ixracatçıları üçün konsaltinq dəstəyi mərkəzləri, kənd təsərrüfatı məhsullarının ixracı sahəsində strateji inkişaf proqramları, ixrac kooperativlərinə dəstək mexanizmi, kənd təsərrüfatı məhsullarının ixracının təhlili mərkəzləri də mühüm əhəmiyyəti ilə seçilir. Təsadüfi deyil ki, ölkəmizdə məhz bu tip məsələləri özündə əks etdirən və "qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, rəqabət qabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması, bu sahədə əlverişli şəraitin daha da genişləndirilməsi məqsədi ilə" [1] müvafiq qanunvericilik sənədi qəbul edilmişdir.

Beləliklə, aqrar sektorunun ixrac potensialı istehsal amillərini əhatə edən çoxamilli bir model olub kənd təsərrüfatının spesifik amillərini, ixrac mexanizmini təşkil edən xarici iqtisadi fəaliyyətin təşkili amillərini və onun həyata keçirilməsi vasitələrini əhatə edir.

Araşdırmalar göstərir ki, ixrac potensialının yaxşılaşdırılması hər bir dövlətin iqtisadi inkişaf səviyyəsinə təsir etməklə ixrac-idxal axınının həcmi və quruluşunu da formalaşdırır. Məlumdur ki, bir ölkənin məhsul və xidmətlərinin dünya ixracatında iştirak payı nə qədər yüksək olarsa və ixracın strukturunda yüksək rəqabət qabiliyyətli məhsulları üstünlük təşkil edərsə, həmin ölkənin iqtisadiyyatı bir o qədər effektiv hesab edilir. Ölkənin ixrac potensialı məhsullarını beynəlxalq bazarlarda təklif edən hər bir müəssisənin potensialından ibarətdir. Deməli, ixrac potensialının formalaşmasına təsir edən amillərin araşdırılması son dərəcə vacibdir.

Aqrar sahənin ixrac potensialının dəyəri kənd təsərrüfatı məhsullarının beynəlxalq bazarda rəqabət qabiliyyətlərini xarakterizə edir. Qeyd etmək lazımdır ki, ixracat potensialının inkişafı yalnız müəyyən bir məhsul növünün satış həcminin artımına söykənmir, eyni zamanda, yaxın gələcəkdə digər ölkələrin bazarlarına çıxma imkanı ilə də bağlı olur. Bu baxımdan xarici iqtisadi fəaliyyətdə ixrac potensialının inkişaf etdirilməsi problemləri daim əhəmiyyətliliyi ilə özünü göstərir.

Aqrar sahənin ixrac potensialı məhsulların xarici bazarda rəqabət qabiliyyətlilik səviyyəsi kimi də xarakterizə edilir. Lakin bu anlayış xarici

ticarət fəaliyyətinin təşkili və idarə edilməsinin xüsusiyyətlərinə ciddi şəkildə təsir etmir. Bunları nəzərə almaqla, kənd təsərrüfatı müəssisələrinin ixrac potensialına daxili və xarici mühitin təsiri altında formalaşan məhsulların xarici bazarlarda satışı üçün obyektiv mövcud imkan və mənbələrin məcmusu kimi baxmaq olar.

Aqrar ixrac potensialı konsepsiyası resurs və imkanların (real mənbələr və potensial imkanlar) olmasına və real nəticəyə (məhsulların beynəlxalq bazarda satışı) əsaslanır [5, s. 36]. Bu, onu göstərir ki, aqrar sahədə ixrac potensialının formalaşması iqtisadiyyatın digər sahələrindəki müəssisələrlə müqayisədə bir sıra xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər, ilk növbədə, müəssisələrin xarici bazara təqdim etdiyi xüsusi məhsul növləri ilə əlaqələndirilir.

Kənd təsərrüfatı müəssisələri tərəfindən istehsal olunan məhsulların ixracını digər sahələrin məhsullarından aşağıdakı xarakterik xüsusiyyətlər fərqləndirə bilər: məhsulların istehsal dövrü, istehsal və texniki proseslərin intensivliyi və s.

Aqrar sahədə ixrac potensialının formalaşmasına və inkişafına təsir göstərən bütün amillər toplusu xarici və daxili amillərə bölünür. Daxili amillər kənd təsərrüfatı müəssisələrinin əsas resursları tərəfindən təmin olunan obyektiv imkanlardır. Daxili mühitin əsas amillərini aşağıdakı şəkildə fərqləndirmək olar:

- maddi və texniki imkanlar - innovativ texnologiyaların mövcudluğu, mövcud resursların həcmi və keyfiyyəti;
- insan resursları – işçi qüvvəsi və mütəxəssislərin peşəkarlığı;
- istehsalın təşkili formaları;
-intellektual potensial - intellektual kapitalın təkrar istehsalı üçün mexanizmin olması.

Araşdırmalar göstərir ki, məhsullarının tərkibini və quruluşunu müəyyənləşdirən müəssisələr ilk növbədə texnoloji problemləri həll edir. Texnoloji vasitələr müəssisələrin istehsal proseslərindəki dəyişikliklərə təsir edən ən vacib daxili amildir. Qabaqcıl texnologiyaların mövcudluğu ilə səciyyələnən yüksək texnoloji müəssisələrdə, iqtisadi inkişaf üçün böyük imkanlar yaranır. Əksinə, innovativ texnologiyalardan istifadə imkanından məhrum olan istehsal, bir qayda olaraq, iqtisadi cəhətdən əlverişsiz vəziyyətlə üzləşirlər [3, s.61]. Müəssisələrin müasir texniki bazasının olmaması, onların məhsulun keyfiyyətini bazar tələblərinə cavab verməyəcək bir məhsulla təmin edəcəyi qənaətinə gəlməyə əsas verir. Nəticədə müəssisələrin rəqabət qabiliyyəti azalır və bu da öz növbəsində iqtisadi sabitliyin azalmasına və sabitləşmə proseslərinin çətinləşməsinə səbəb olur.

Aqrar sahədə ixrac potensialının formalaşmasına təsir göstərən xarici amillər istehlakçılar üçün daha cəlbedici məhsul istehsal etməyə və beynəlxalq bazarlara çıxarmağa imkan verən sosial-iqtisadi və təşkilati münasibətlər sistemi kimi xarakterizə olunur. Beynəlxalq bazarlara çıxarkən müəssisənin xarici mühitinin amilləri bir-biri ilə qarşılıqlı əlaqənin mürəkkəbliyi və qeyri-müəyyənliyi ilə xarakterizə olunur. Xarici amillər daim hərəkətlidir, yüksək dərəcədə bir qeyri-müəyyənlik var, xarici mühit haqqında məlumatlar həmişə dəqiq və obyektiv olmaya bilər. Xarici bazarlara çıxan müəssisə xarici mühitdəki dəyişikliklərə aydın və operativ cavab verməlidir. Xarici mühit daxili mühitin amillərindəki dəyişikliklərdən asılı deyil, daxili mühit isə xarici mühit dəyişkənlərinin təsiri altında fəal şəkildə formalaşır.

Xarici amillərə aşağıdakılar aid edilir:

1. Dövlət səviyyəsində mövcud olan amillər - iqtisadi (vergi, maliyyə, kredit, investisiya siyasəti) və inzibati (qanunvericilik aktlarının, inkişaf strategiyaları və konsepsiyalarının, dövlət standartlaşdırma və sertifikatlaşdırma sisteminin, istehsalçıların maraqlarının müdafiəsinin formalaşdırılması, inkişafı və təkmilləşdirilməsi).
2. Beynəlxalq səviyyəli amillər – kənd təsərrüfatı məhsulları bazarının vəziyyəti və tutumu; rəqiblərin mövcudluğu və rəqabət gücü; ölkələrin rəqabət qabiliyyəti və məhsullara olan ehtiyacı.
3. Regional amillər – aqrar istehsalla məşğul olan regionların infrastrukturunun inkişaf səviyyəsi (regional əmək bazarının və xammal bazasının vəziyyəti), yüksək texnoloji sahələrin inkişafı üçün regional proqramların mövcudluğu.
4. Yerli amillər - istehsal müəssisələrinin ortaq icraçı və təchizatçıdan asılılığı, zəruri vəsait və komponentlərin tədarükünün vaxtında və tam olması, iqtisadi və əməkdaşlıq əlaqələrinin mövcudluğu.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, ixrac potensialına təsir edən müxtəlif amillər fərqli şəkildə təsnifləşdirilə bilər. Bu baxımdan ixrac potensialına birbaşa və dolayı təsir edən amilləri də fərqləndirmək olar. Müəssisələrin fəaliyyətinə dərhal təsir göstərən amillər birbaşa təsir mühiti ilə

əlaqədardır. Dolayı amillər müəssisələrin fəaliyyətinə birbaşa təsir göstərmir, lakin idarəetmə qərarlarında nəzərə alınır. Dolayı təsir amilləri xarakterinə görə birbaşa təsir amillərindən daha mürəkkəbdir.

Birbaşa təsir amillərinə daxildir: rəqiblərin və istehlakçıların təsiri, hüquqi dəstək, inflyasiya, informasiya dəstəyi və s. Dolayı təsir amilləri kimi aşağıdakıları qeyd etmək olar: siyasi sabitlik, iqtisadi vəziyyət, elmi və texniki tərəqqi, dünya bazarının vəziyyəti, sosial-mədəni amillər və s.

Təsiretmə müddətinə görə amilləri şərti olaraq daimi (inflyasiya, rəqabət və s.) və müvəqqəti (maliyyə və iqtisadi böhranlar) amillərə bölmək olar.

Aqrar sahədə ixrac potensialının inkişaf etdirilməsinə təsir edən əsas amillərdən biri də qlobal iqtisadi tarazlığın təmin olunmasıdır. Bu baxımdan müəssisələrin ixrac potensialının formalaşmasına təsir göstərən bəzi xarici amilləri daha ətraflı nəzərdən keçirmək tələb olunur. İlk növbədə qeyd etmək lazımdır ki, ixrac potensialı həm texnoloji, həm də institusional və hüquqi amillərin təsirinə məruz qalır. Xüsusi avadanlıq, texnologiya və işçi qüvvəsinə əhəmiyyətli vəsait qoyulması bazara çıxmaq imkanlarını gücləndirir. Təşkilati və hüquqi amillər məhsulların istehsalı üçün lazımi lisenziyaların alınması, dövlət satınalma strukturlarının etimadının qazanılması ilə əlaqələndirilir.

Aqrar ixrac potensialının formalaşmasında mühüm amillərdən biri də beynəlxalq əmək bölgüsünün xüsusiyyətləri, eləcə də iqtisadiyyatın bu mühüm sferasının istehsal və texniki xüsusiyyətləri, makroiqtisadi əlaqələrin səviyyəsidir. Həmçinin aqrar sahə yalnız milli, xarici müəssisə və təşkilatlarla deyil, həm də onunla əlaqəli fəaliyyət göstərən bir çox digər sahələrlə inkişaf etmiş əməkdaşlığa ehtiyac ilə xarakterizə olunur.

**Nəticə**

Göstərilənlər, iqtisadi inkişafda aqrar ixrac potensialının rolunu və yerini metodoloji olaraq kompleks şəkildə nəzərdən keçirmək ehtiyacının aktual olduğu qənaətinə gəlməyə əsas verir. Ona görə də, ixrac potensialının inkişaf etdirilməsində keyfiyyət dəyişikliklərinin əsaslandırılmasına və strateji cəhətdən təsdiqlənmiş bir yanaşmanın təmin edilməsinə ehtiyac var. Bu baxımdan ixrac potensialına təsir edən amillər nəzərə alınmaqla aşağıdakı məsələlərin həllinə xüsusi diqqət yetirilməsi vacibdir:

- kənd təsərrüfatı məhsullarının daxili və xarici bazar seqmentləri üzrə tələb və təklif tarazlığının təmin edilməsi;
- kənd təsərrüfatı müəssisələrinin rəqabətə davamlığının artırılması;
- innovativ texnologiyalardan istifadənin genişləndirilməsi hesabına məhsulların keyfiyyətinin yüksəlməsi;
- kənd təsərrüfatı və ərzaq məhsullarının dünya bazarına çıxışının genişləndirilməsi;
- daxili və xarici kapitalın kənd təsərrüfatına axınının mümkün səviyyədə artırılması;
- istehsalın, ixracın səmərəliliyinin və rəqabət qabiliyyətliliyinin artması və s.

**İşin elmi yeniliyi** - ixrac potensialına təsir edən amillər nəzərə alınmaqla ixrac potensialının inkişaf etdirilməsində keyfiyyət dəyişikliklərinin əsaslandırılması, kənd təsərrüfatı müəssisələrinin rəqabətə davamlığının artırılması, ixracın səmərəliliyinin və rəqabət qabiliyyətliliyinin yüksəldilməsi perspektivlərinin müəyyən edilməsi tədqiqatın elmi yeniliyini təşkil edir.

**Tətbiqi əhəmiyyəti** – ixracın genişləndirilməsi və şaxələndirilməsi üzrə prioritetlərin müəyyən edilməsi praktiki cəhətdən mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın iqtisadi səmərəsini** kənd təsərrüfatı və ərzaq məhsullarının dünya bazarına çıxışının genişləndirilməsi hesabına ixrac yönümlü istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi tədbirləri təşkil edir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. “Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 18 yanvar 2016-cı il.
2. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Monoqrafiya. Bakı-2017. 536 s.
3. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya. Bakı 2016. 655 s.
4. Карпова О.И. Продвижение сельскохозяйственной продукции на внутреннем и внешних рынках // Образование, наука и производство. 2016. № 4 (17). С. 28-30.
5. Холодов П.П. Теоретические аспекты оценки ресурсоемкости и ресурсного потенциала в сельском хозяйстве. - Кемерово: Кузбассвузиздат, 2010. 61 с.

**Чинара Низами гызы НАСИБОВА, диссертант**
Азербайджанский Государственный Аграрный Университет

# МЕХАНИЗМ ФОРМИРОВАНИЯ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА В АГРОПРОМЫШЛЕННОМ КОМПЛЕКСЕ, ФАКТОРЫ, ЕГО ОПРЕДЕЛЯЮЩИЕ

**Резюме**

Современные тенденции в укреплении продовольственной безопасности страны требуют особого подхода к определению экспортного потенциала аграрного сектора в условиях глобализации мировой экономики. В настоящее время аграрный сектор может не только производить сельскохозяйственную продукцию в количествах, которые будут соответствовать уровню потребления в стране, но и экспортировать ее на внешние рынки. С этой точки зрения экспортный потенциал аграрного сектора представляет собой многофакторную модель, охватывающую специфические факторы сельского хозяйства, факторы организации внешнеэкономической деятельности, организующие экспортный механизм и средства его реализации.

**Цель исследования** - целью исследования является исследование механизма формирования экспортного потенциала в агропромышленном комплексе и подготовка предложений о перспективах увеличения экспортного потенциала путем определения факторов, влияющих на него.

**Метод исследования** – в процессе исследования использовались методы группировки и анализа.

**Результаты исследования** – полученные результаты позволяют определить перспективы увеличения экспортного потенциала.

**Ключевые слова:** экспортный потенциал, ресурс, фактор, качество, эффективность.

**Chinara Nizami NASIBOVA, dissertation**
Azerbaijan State Agrarian University

# THE MECHANISM OF FORMATION OF EXPORT POTENTIAL IN THE AGRICULTURAL SECTOR, THE FACTORS DETERMINING IT

**Summary**

Modern trends in strengthening the country's food security require a special approach to determining the export potential of the agricultural sector in the context of the globalization of the world economy. Currently, the agricultural sector can not only produce agricultural products in quantities that will correspond to the level of consumption in the country, but also export them to foreign markets. From this point of view, the export potential of the agricultural sector is a multifactor model that covers specific factors of agriculture, factors of organizing foreign economic activity, organizing the export mechanism and means of its implementation.

**The purpose of the research** - the purpose of the research is to investigate the mechanism of the formation of export potential in the agricultural sector and to prepare proposals on the prospects of increasing the export potential by determining the factors affecting it.

**Research method** - grouping and analysis methods were used in the research process.

**Results of the research** - the obtained results allow to determine the prospects for increasing the export potential.

**Key words:** export potential, resource, factor, quality, efficiency.

**Günel Mustafa qızı SƏFƏROVA**
Odlar Yurdu Universitetinin doktorantı

# LIZINQ XIDMƏTLƏRI BAZARININ INKIŞAFINDA RƏQABƏT VƏ QIYMƏT AMILLƏRI

**Xulasə**

Xidmət sektorunda qiymətəmələgəlmə metodoloji baxımdan mürəkkəb məsələlərdən biridir. Ona görə ki, xidmətlərin göstərilməsi prosesində sərf olunan xərclərin və məsrəflərin kəmiyyəti və strukturu xarakteri tam fərqlidir. İştirakçı tərəflərin say çoxluğu ilə aparlan lizinq əməliyyatlarında bu proses daha çətinləşir. Burada optimal və "ədalətli" qiymətlər ölkədə lizinq xidmətləri bazarının və maliyyə investisiya sektorunun inkişafı meyllərinin meyllərinin, tərəflərin maraq və mənafelərinin, uçotu ilə qiymətlərin müəyyən edilməlidir.

Təqdim edilən məqalədə əsas metodoloji yanaşmaların bazasında lizinq xidmətlərinə qiymətlərin əmələ gəlməsi metodları araşdırılmış və müvafiq təkliflər verilmişdir.

**Açar sözlər:** lizinq, qiymət, keyfiyyət, xidmət, maliyyə, icarə, rentabellik, strategiya.

**JEL: M12**

**Giriş**

Lizinq bazarı digər xidmət bazarları kimi bir sıra daxili və xarici amillərin təsiri altında fəaliyyət göstərir.Bu amillər içərisində bazarın mühüm elementləri olan rəqabət və qiymət xüsusi yer tutur.Onların bir-birinə qarşılıqlı təsir göstərdiyi kimi, bazarın ümumi vəziyyətini və strukturunu da müəyyən edirlər. Ona görə də lizinq xidmətlərinə bazar tələblərindən aılı olaraq, qiymətlərin müəyyən edilməsi metodunun düzgün seçilməsi ön plana çəkilir. Bundan sonra isə rəqabət səviyyəsini müəyyən edən və ona təsir göstərən amillər aşkar olunmalıdır. Hər bir amilin təsir istiqamətlərinin və dərəcəsinin müəyyən edilməsi də fəaliyyətin uğurlarını müəyyənləşdirən amillərdən hesab edilir.

**Lizinq xidmətlərinə qiymətəmələgəlmənin metodologiyası**

Lizinq xidmətinin qiymətinin müəyyən edilməsi hər hansı lizinq əməliyyatının aparılmasında, onun bütün iştirakçıları arasında qarşılıqlı faydalı münasibətlərin qurulmasında mühüm və mürəkkəb mərhələlərdən biridir. Lizinq biznesinin nəzəriyyə və təcrübəsi, yerli və xarici lizinqin inkişafı səviyyəsinin və meyllərinin təhlili investisiya lizinq fəaliyyəti sahəsində göstərilən xidmətlərin qiymətlərinin müəyyən edilməsi üsullarının müxtəlifliyinə dəlalət edir.

Lizinq xidmətlərinə qiymətqoyma üzrə mövcud təcrübənin ümumiləşdirilməsi və istifadə olunan qiymətqoyma üsullarının sistemləşdirilməsi aşağıdakıları müəyyən etmək imkanı verir:

- ✓ ən mühüm xüsusiyyətləri və fərqləri;
- ✓ nəzərə alınan amillərin sadəliyi və mürəkkəbliyi;
- ✓ müəyyən elementləü üzrə qarşılıqlı əlaqə və asılılıq;
- ✓ razılığa gələn tərəflərin maraqlarının əlaqələndirilməsi;
- ✓ lizinq əməliyyatının mürəkkəbliyi.

Göstərilənlərin nəzərə alınması nəticəsində çox incə alət olan lizinq qiymətindən istifadə etməklə sahibkarlıq subyektlərinin investisiyalaşdırılması və lizinq fəaliyyətinin idarə edilməsi üçün praktiki tövsiyələr hazırlamaq mümkün olur.Lizinq qiymət sistemi özündə bir sıra əsas aspektləri- marketinq, analitika; layihələşdirmə, idarəetmə və mühasibatlıq, vergitutma; sövdələşmənin strukturlaşdırılması, o cümlədən maliyyələşdirmə, strateji idarəetmə və s. özündə cəmləşdirir,

Qiymətləndirmə lizinq şirkətinin bazara daxil olunan müxtəlif lizinq məhsulları haqqında hərtərəfli biliyə malik olmağı nəzərdə tutur. Müəyyən ümumiliyə baxmayaraq, istehlakçılara (lizinq alanlara) təklif olunan məhsulların özünəməxsus xüsusiyyətləri vardır və müxtəlif təyinedici amillərdən asılı olaraq əhəmiyyətli dərəcədə dəyişə bilər. Xüsusilə:

- lizinqin növləri üzrə — maliyyə, əməliyyat, geri qaytarıla bilən, ayrıca, "paketdə lizinq", sublizinq və s.;
- əməliyyatın aparılması üçün xüsusi xüsusiyyətləri olan obyektlərin - minik və yük avtomobillərinin, klassik daşınmaz əmlakın, dəmir yolu vaqonlarının, hava nəqliyyatının, rabitə və telekommunikasiya vasitələrinin və s. lizinqi üzrə;
- əməliyyatların miqyasına görə - iri, orta, kiçik;
- tərəfdaşlarla - təchizatçılar, kreditorlar, sığortaçılar, zaminlər, icarəçilər ilə qarşılıqlı əlaqələrə görə;
- maliyyələşdirmə əməliyyatlarının mənbələri və istiqamətləri üzrə.

Nəzərdən keçirilən məsələlər kontekstində lizinq şirkətinin ixtisaslaşma və ya universallaşma səviyyəsinə xüsusi diqqət yetirilməlidir.

Lizinq xidmətlərinə qiymətqoyma metodunun seçimi bilavasitə lizinq şirkətinin ümumi biznes strategiyasından, xüsusiyyətlərindən və məqsədlərindən asılıdır. Biznes strategiyası tədarükçülərə (satıcılara), icarəyə götürülmüş əmlaka, icarəyə götürənlərə, tətbiq olunan lizinq məhsullarına və biznes texnologiyalarına, regional üstünlüklərə və icarəyə verənlərin səmərəli işinə təsir edən digər amillərə münasibətdə şirkətin mövqeyidir.

Lizinq biznesinin aparılmasının nəzəriyyəsi və praktikasına, eləcə də maliyyə-investisiya fəaliyyəti sahəsində xidmətlərin göstərilməsi prinsiplərinə əsaslanaraq, lizinq xidmətlərinə qiymətqoymanın, aşağıdakı əsas üsullarını fərqləndirmək olar:

- Verilmiş rentabellik səviyyəsinə əsaslanan qiymətqoyma (xərc metodu – "xərc + mənfəət");
- Lizinq şirkətinin resurslara qənaət siyasətinin həyata keçirilməsinə əsaslanan qiymətqoyma;
- Lizinq məhsulunun dəyərinə əsaslanan qiymətqoyma;
- Hədəf qiymətlərinin təyini;
- Xidmət qabiliyyətinə (icarə xidmətinin gücünə) əsaslanan qiymətlərin müəyyən edilməsi.

Qiymətqoyma metodunun seçilməsi həm də korporativ maraqlardan və bazarda rəqabət dərəcəsindən asılıdır. Rəqabət məsələləri üzrə tanınmış ekspert Robin Kuper rəqabətin üç əsas aspektinə xüsusi diqqət yetirir: *qiymət, keyfiyyət, funksionallıq*. Bu komponentlərin lizinq biznesində rəqabətlə birbaşa əlaqəsinin olması olduqca ağlabatandır.Rəqabətin olması bazarın inkişafının sübutlarından biridir.

Qiymət və keyfiyyət getdikcə standartlaşdığından, hər il lizinq xidmətinin funksionallığı ətrafında rəqabət getdikcə daha da kəskinləşir. Bu vəziyyəti çevik rəqabət kimi xarakterizə etmək olar.Sadə bir nəticə çıxara bilərik: bütövlükdə strateji uğur, lizinq xidmətləri bazarında öz işlərini sakit və təmkinlə görən, öhdəliklərini vaxtında və tam yerinə yetirən şirkətlərə gəlir. Eyni zamanda, iqtisadi prinsip olaraq, yadda saxlamaq lazımdır ki, lizinq şirkətinin rəqabət üstünlüklərinin rəqabət aparan icarəçilərə xərclər baxımından onu tutmağa imkan vermədiyi hallar istisna olmaqla, rəqabət həmişə gəlirliliyin azalmasına səbəb olur.

İcarəyə verənlər də daxil olmaqla, biznes subyektləri üçün heç də həmişə daha böyük bazar payının zəbt edilməsi özlüyündə məqsəd deyil. Əsasən sahibləri üçün maksimum dəyər yaratmağa yönəlmiş şirkət aşağıdakı şərtləri yerinə yetirməlidir:

- gəlirli fəaliyyət;
- pul vəsaitlərinin arzuolunan hərəkəti;
- qoyulmuş kapitalın yüksək gəlirliliyi;
- yalnız mühasibat mənfəəti deyil, yüksək iqtisadi mənfəətin əldə olunması.

Harvard Universitetinin professoru Maykl Porter bu amilləri rəqabət üstünlüyü adlandırarkən, qiymətlər üzrə konsaltinq üzrə mütəxəssis Con Deyli haqlı olaraq səmərəli qiymətqoymanın rəqabət üstünlüyünün əsasını təşkil etməsi ideyasını müdafiə edir. Reallıqda, kiçik şirkətlərin kiçik bazar nişində cəmləşərək orada dominant mövqe tutaraq sağ qalması, bəzən isə uğur qazanması nümunələri var. Eyni zamanda, diqqətçəkən məqama və xüsusi məhsula çevrilən əhəmiyyətsiz görünən detal bəzən uzunmüddətli rəqabət üstünlüyünü təmin edə bilər.

Əksər lizinq şirkətlərinin menecerləri bazarda və ya müəyyən bazar seqmentində rəqabətlə əlaqəli müxtəlif vəziyyətlərdə davranışları üzərində düşünməyə meyllidirlər. Beləki, əgər lizinq dəyərinin əmlakın ilkin dəyəri ilə müqayisədə artımı böyükdürsə və bu, kreditlərin baha olması ilə əlaqədardırsa, o zaman bu lizinq şirkətinin kifayət qədər təhlükəsizliyi və ya kredit tarixçəsinin olmaması səbəbindən yüksək

faiz dərəcələrinə hazır olan müştərilərlə iş ortaqlığının fəallaşması məqsədəuyğundur. İstənilən təsərrüfat subyekti, o cümlədən lizinq şirkəti biznesdə və hər şeydən əvvəl qiymət üstünlüyünə görə mükəmməlliyə nail olmağa çalışa bilər. Bununla belə, rəqiblər haqqında məlumat verilən lizinq xidmətlərinin qiymətləri haqqında məlumatlarla məhdudlaşmamalıdır. Rəqabətli mübarizə üçün lizinq şirkətləri tərəfindən müəyyən edilmiş informasiya bazasının (məhsulların növləri, müqavilə şərtləri, avans ödənişləri və s.haqqında) olması vacibdir.

Lizinqlə bağlı beynəlxalq konfranslarda lizinq şirkətlərindən lizinq xidmətlərinin göstərilməsi üçün "fabriklərin" yaradılmasının məqsədəuyğunluğu barədə fikirlər səsləndirilməklə, onların pərakəndə satışından lizinqverənin mənfəətinin maksimumlaşdırılmasına diqqət yetirilməsi tövsiyə olunur. Bu ideyanı həyata keçirmək imkanı məhduddur, çünki lizinq biznesi təkcə pərakəndə deyil, hətta o qədər də güclü deyil. Hal-hazırda, lizinq müqaviləsi daha çox "ədədlə istehsal"dan ibarət olur və çox vaxt eksklüzivdir. Lizinq kombinatorikadır və təsadüfi deyil ki, bütün dünyada bunu təxəyyülü olan insanlar edir. Adi istehsaldan fərqli olaraq, lizinq sənayesi mərkəzində lizinqverənlər olan kontragentlər arasında daha mürəkkəb və çoxşaxəli münasibətlər vardır [6,s.135].

**Lizinq xidmətlərinin davamlı inkişafı istiqamətləri**

Lizinq xidmətinin qiyməti lizinq şirkətinin taktika və strategiyasının ümumiləşdirilmiş ifadəsidir. Həqiqətən də lizinq şirkətinin qiymət qərarları bəzi hallarda konkret əqdin bağlanması maraqları əsasında qəbul edilə bilər. Amma bu, bir qayda olaraq, öz mənfəətini maksimumlaşdırmaq və ya əksinə, icarəçiyə əhəmiyyətli endirim etmək niyyətindən irəli gələn taktiki qərardır.Lizinq xidmətlərinin qiymətlərinin müəyyən edilməsi həm istehlakçıların, həm də rəqiblərin reaksiyasını nəzərə almaqla uzunmüddətli perspektivə və uzunmüddətli nəticələrə yönəlmiş strateji fəaliyyətdir.

Xərc üsulundan istifadə əsasında qiymətlər təyin edilərkən istehsalın standart rentabellik göstəricisi nəzərə alınmaqla mənfəətin əlavə olunduğu məsrəflər müəyyən edilir. Eyni zamanda, marjalar fərdi təcrübəyə, sənaye xüsusiyyətlərinə və ənənələrinə və ya qiymət mütəxəssisinin empirik mülahizələrinə əsaslana bilər. Lizinq biznesinin tarixi ilə maraqlananlar bilir ki, İkinci Dünya Müharibəsi illərində dövlətlərarası lizinq münasibətləri mexanizmindən səmərəli istifadə olunurdu. Böyük Britaniya, SSRİ, Çin və digər ölkələrlə uzunmüddətli icarə əsasında bir sıra malların, o cümlədən hərbi və mülki texnikanın tədarükünə dair müqavilələr kifayət qədər uğurla icra olunurdu. ABŞ hökuməti ilizinqverən kimi tədarükçülərlə münasibətlərində sabit gəlirliliyə malik müqavilələrdən ("xərc +" müqavilələri) fəal şəkildə istifadə edirdi.Bu müqavilələrə əsasən, tədarükçüləri maraqlandırmaq üçün ən çox alqı-satqı qiymətini formalaşdırarkən istehsal məsrəfləri ilə bağlı rentabellik səviyyəsini müəyyən etməyə icazə verilirdi. Müharibənin ekstremal şəraitində icarəçi ölkələr, təchizatçılar və lizinqverənlər arasında müəyyən edilmiş qiymətlərlə razılaşmaq məcburiyyətində qaldılar.

"Xərc+mənfəət" metodunun tətbiqi zamanı daxili qiymətqoyma praktikasından fəal şəkildə istifadə olunur. Çox vaxt, hesabat ayının sonunda müəyyən bir sifariş üçün "xərclər axtarılır" ki, istehsalın yüksək gəlirliliyinə görə məhsulun qiyməti aşağıya doğru dəyişdirilməsin və buç qiymətə mütənasib olaraq yaradılmış əmək haqqı fondu azalmasın. Fakt budur ki, bəzi icarəyəverənlər potensial müştərilərinə ən cəlbedici şərtlərə malik olduqlarını bildirirlər.Məsələn, xidmətlərin dəyəri kredit faizindən illik 5% çoxdur. Aydındır ki, bu kredit dərəcəsi məqbul ola bilər. Bu yanaşma üçün müəyyən dəstək o dövrdə mövcud olan vergitutma mexanizminə əsaslanırdı. Məsələ burasındadır ki, lizinq şirkətinin lizinq əməliyyatını maliyyələşdirmək üçün bankdan götürdüyü kredit üzrə faizlər, ümumi prosedurdan fərqli olaraq, maya dəyərinə hesablanırdı. Avadanlıqların alınması üçün şərti kreditləşmədə borcalan kredit üzrə faizləri vergitutmadan sonra qalan mənfəətdən ödəməli idi. Nəticədə, kredit faizi nə qədər yüksək olarsa, satınalma üçün verilən kreditlə müqayisədə lizinqin effektivliyi bir o qədər yüksəkdir.Təbii ki, səriştəli şəxs daha bahalı kreditlər axtarmır? amma fakt olduğu kimi qalır: mövcud vergitutma mexanizmi qiymətlərin "xərclər+mənfəət" üsulu əsasında qurulmasını stimullaşdırır[5,s.251].

Belə nəticəyə gəlmək olar ki, əksər hallarda lizinq xidmətlərinə uyğun qiymətqoyma metodunun seçilməsində məqsəd bağlanılan lizinq müqavilələrinin dəyərinin artmasına birbaşa mütənasib olaraq, lizinqverənin mənfəətini maksimuma çatdırmaqdır.Qiymətlərlərin müəyyən edilməsində "xərclər +" metodu gənc mütəxəssislər üçün əlverişlidir, çünki o, sadədir və tətbiqi asandır. Eyni zamanda, aktiv qiymətəmələgəlmədə bu metodun tətbiq dairəsi kəskin şəkildə məhdudlaşır. Məsələ burasındadır ki, "xərc + mənfəət" metodu biznes üçün vacib olan məsələni, yəni icarəçinin ona göstərilən xidmətin dəyərini necə qəbul etdiyini nəzərə almır.

Lizinq bazarının davamlı inkişafı üçün lisenziyalaşdırma sistemi və minimum kapital tələbləri olmalıdır. Bu zaman, yəni lisenziya verilərkən lizinq fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektinin nizamnamə kapitalını, maliyyə resurslarını nəzərə almaq və təhlil etmək lazımdır. lizinq və digər maliyyə alətlərinin genişləndirilməsi xüsusilə istehsal və iqtisadi sahələrin inkişafı üçün böyük əhəmiyyət kəsb edir.Mütəxəssislərin rəyinə görə, lizinq bazarındakı problemlərin həlli həmişə hansısa qanunun qəbulundan asılı deyil. Beləki, bu proses əsasən vergi inzibatçılığı ilə bağlı məsələlərin həllindən sonra formalaşmalı, real məqamlar nəzərə alınmıalıdır. Xarici təcrübəyə görə, əgər sahibkarlıq subyekti lizinq yolu ilə avadanlıq idxalına görə ödənilmiş ƏDV-ni müəyyən müddət ərzində qaytara bilmirsə, onda həmin vəsait büdcədən ona qaytarıla bilər. Ölkəmizdə qanunla müvafiq ƏDV məbləği 45 gün ərzində qaytarılmalıdır, lakin belə bir mexanizm yoxdur. Daha dəqiq desək, reallıq ondan ibarətdir ki, onu geri qaytarmaq mümkün deyil. Bu problemlərin həlli qanunvericiliyin təkmilləşdirilməsi ilə paralel şəkildə müəyyən konseptual addımların atılmasından ibarətdir.

Beləliklə, lizinq fəaliyyətinin dövlət tənzimlənməsi bazarda mövcud reallıqlar və problemlər nəzərə alınmaqla həyata keçirilməlidir. Bu baxımdan göstərilə bilər ki, ölkəmizdə 2011-2012-ci illərdə lizinq portfelinin həcmi 600-700 milyon ABŞ dolları olsa da, hazırda Azərbaycanda lizinq bazarının mövcudluğuna baxmayaraq, portfelin həcmi 50 milyon manat həddindədir. Yeri gəlmişkən, qeyd etmək olar ki, xarici təcrübədə lizinq bazarında iki hesablama metodu tətbiq olunur.. Onlardan birincisinə əsasən, ölkədə lizinq bazarının həcmi əsas kapitala qoyulan investisiya qoyuluşlarının ümumi həcminin 10 faizini, digərinə görə isə ÜDM-in 1-2 faizini təşkil etməlidir. Bu nöqteyi-nəzərdən hazırda Azərbaycanda lizinq bazarında aparılan əməliyyatların dəyəri 1,7-2,5 milyard manat olmalıdır.Düşünürük ki, sadalanan bir sıra vacib məsələlər həll olunmadan ölkənin lizinq xidmətləri bazarında əhəmiyyətli irəliləyiçlərə nail olunması çətindir.

**Nəticə**

Ölkədə lizinq bazarı investisiya və əmlak bazarları ilə qarşılıqlı əlaqədə inkişaf edir. Maliyyələşdirmə mənbələrinin məhdudluğu onların hər birinə mənfi təsir göstərir.Bu vəziyyət lizinq bazarında iştirakçıların sayı və bazar gücü ilə yanaşı rəqabət səviyyəsini də müəyyən edir. Son nəticədə qeyrii-təkmil rəqabət mühiti qiymətlərin tərəddüd edən yüksək səviyyəsini formalaşdırır. Beləliklə, lizinq bazarında tələb yaradanların-lizinqalanların sayı azalmış olur. Bu da ölkədə lizinq bazarının, daha dəqiq desək, müasir maşın və avadanlıqlar bazarının inkişafını ləngidir.Onu da nəzərə almaq lazımdır ki, lizinq xidmətlərinin dəyəri kreditlərə görə faizlərlə birbaşa bağlıdır.Ona görə də lizinq bazarında əlverişli rəqabət mühiti yaratmaq, real bazar qiymətlərinin formalaşmasını təmin etmək üçün ilk növbədə lizinq portfelini formalaşdırmaq, kredit faizlərinin və vergi inzibatçılığının tənzinlənməsini həyata keçirmək lazımdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Bakı 2003
2. Banklar haqqında normativ aktlar toplusu, Bakı 2009
3. M.M.Bağırov. Banklar və bank əməliyyatları, Bakı 2003, 512s
4. Z.F.Məmmədov. Bank fəaliyyətinin əsasları, Bakı 2013, 480s.
5. В.Д.Газман Ценообразование лизинга, Литрес, Москва 2017, 468с
6. Международная практика лизинга. Учебное пособие/ под.ред. М.И.Лещенко. М., 2016, 387с

**Гюнель Мустафа кызы САФАРОВА**
Докторант Университета Одлар Юрду

# ФАКТОРЫ КАЧЕСТВА И КОНКУРЕНЦИЯ В РАЗВИТИИ РЫНКА ЛИЗИНГОВЫХ УСЛУГ

**Резюме**

Ценообразование в сфере услуг является одним из методологически сложных вопросов. Потому что сумма и структура затрат и расходов, затрачиваемых в процессе оказания услуг, совершенно разные. Этот процесс усложняется при лизинговых операциях с большим количеством участников. Здесь оптимальные и «справедливые» цены должны определяться с учетом тенденций развития рынка лизинговых услуг и финансово-инвестиционного сектора в стране, интересов и интересов. сторон.

В представленной статье рассматриваются методы ценообразования лизинговых услуг на основе основных методологических подходов и даются соответствующие предложения.

**Ключевые слова**: лизинг, цена, качество, услуга, финансы, аренда, доходность, стратегия.

**Gunel Mustafa SAFAROVA**
Doctoral student of Odlar Yurdu University

# COMPETITION AND PRICE FACTORS IN THE DEVELOPMENT OF THE LEASING SERVICES MARKET

**Summary**

Pricing in the service sector is one of the methodologically complex issues. Because the amount and structure of costs and expenses spent in the process of providing services are completely different. This process becomes more difficult in leasing operations with a large number of participating parties. Optimal and "fair" prices should be determined by taking into account the development trends of the leasing services market and the financial investment sector in the country, the interests and interests of the parties.

The presented article examines the methods of pricing leasing services based on the main methodological approaches and gives relevant suggestions.

**Keywords:** leasing, price, quality, service, finance, rent, profitability, strategy.

**Rafayıl Şükür oğlu ŞÜKÜROV, i.f.d., dos**

**Ülkər Mehman qızı POLADLI**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E- mil: Upoladli94@mail.ru

# BİZNESİN İNKİŞAFINDA DÖVLƏTİN İNVESTİSİYA SİYASƏTİ

**Xülasə**

Dövlət investisiya siyasəti biznesin genişlənməsi üçün əlverişli mühit yaratmaqla müəssisələrin inkişafında həlledici rol oynaya bilər. Hökumət buna bir neçə yolla nail ola bilər. Onun müəssisələrin inkişafını dəstəkləməsinin əsas yollarından biri vergi güzəştləri, qrantlar və subsidiyalar kimi maliyyə stimulları verməkdir. Bu stimullar bizneslərə maliyyə maneələrini dəf etməyə kömək edə bilər və onları böyümə imkanlarına investisiya etmək üçün lazımi kapitalla təmin edə bilər. Hökumətlər istehlakçıları və işçiləri qoruyarkən innovasiyaları və sahibkarlığı təşviq edən tənzimləyici baza yarada bilər. Bura əqli mülkiyyət hüquqlarını, biznesin aparılmasının asanlığını və ədalətli rəqabəti dəstəkləyən qanun və qaydaların yaradılması daxil ola bilər. Hökumətlər biznes fəaliyyətlərini dəstəkləyən infrastruktur layihələrinə sərmayə qoya bilər. Buraya əlaqəni yaxşılaşdıran, malların və xidmətlərin hərəkətini asanlaşdıran və biznesin böyüməsini dəstəkləyən nəqliyyat şəbəkələrinin, enerji şəbəkələrinin və kommunikasiya sistemlərinin qurulması daxil ola bilər. Hökumətlər fərdlərə müasir iqtisadiyyatda uğur qazanmaq üçün lazım olan bacarıqları əldə etməyə kömək edən təhsil və təlim proqramlarına sərmayə qoya bilər. İşçi qüvvəsinin adekvat şəkildə hazırlanmasını təmin etməklə hökumət bizneslərin böyüməsinə və qlobal bazarda rəqabət aparmasına kömək edə bilər. Bütövlükdə, dövlət investisiya siyasəti biznesin inkişafı və böyüməsi üçün əlverişli mühit yaratmağa kömək edə bilər. Hökumətlər maliyyə stimullarını təmin etməklə, tənzimləyici baza yaratmaqla, infrastruktura sərmayə qoymaqla və işçi qüvvəsinin inkişafına dəstək verməklə müəssisələrin inkişafına töhfə verə və öz ölkələrində iqtisadi artımı təşviq edə bilərlər.

**Tədqiqatın məqsədi:** Biznesin inkişaf edilməsində dövlətin investisiya siyasətinin öyrənilməsi. .

**Tədqiqat obyekti:** Dövlət investisiya siyasəti.

**Açar sözlər:** biznes, investisiya, investisiya siyasəti, innovasiya, maliyyə

**JEL: H15**

## Giriş

Müəssisələr investisiya, maliyyə və mənfəəti optimallaşdırmağı hədəfləyən qurumlardır. Onlar biznesin dəyərini artırmaq üçün investisiya qoyurlar və bu investisiyaları ən az xərclə maliyyələşdirmək istəyirlər. Bu kontekstdə müəssisələrin maliyyə idarəçiliyində qeyri-səmərəli bazarlar və informasiya sürtüşmələri nəticəsində yaranan investisiyalar və maliyyələşdirmə arasında əlaqəni empirik şəkildə müəyyən etmək vacibdir. Xüsusilə sərmayələrin daha baha başa gəldiyi və uzunmüddətli perspektivə yönəldiyi istehsal sektorunda investisiyaların maliyyələşdirilməsi resurslarının daha effektiv idarə olunması məcburi xarakter alır. Nəticə etibarı ilə, bu gün investisiya üçün tələb olunan qıt maliyyə resurslarının daha diqqətlə idarə edilməsi və investisiyaların maliyyələşdirilməsi ilə bağlı qərarların daha diqqətlə qəbul edilməsi lazımdır.

## Biznesin inkişafında dövlətin rolu

Biznesin inkişafında dövlətin rolu ölkənin siyasi və iqtisadi sistemindən asılı olaraq dəyişə bilər. Bununla belə, ümumiyyətlə, dövlət biznesin inkişafı üçün əlverişli mühitin yaradılmasında mühüm rol oynaya bilər. Dövlətin biznesin inkişafını dəstəkləməsinin əsas yollarından biri nəqliyyat şəbəkələri, enerji şəbəkələri və kommunikasiya sistemləri kimi infrastrukturun təmin edilməsidir. Bu əsas infrastruktur elementləri müəssisələrin fəaliyyət göstərməsi və genişlənməsi üçün vacibdir. Dövlət həmçinin istehlakçıları və işçiləri qoruyarkən innovasiyaları və sahibkarlığı təşviq edən tənzimləyici baza yaratmaqla biznesin inkişafına kömək edə bilər. Bura əqli mülkiyyət

hüquqlarını, biznesin aparılmasının asanlığını və ədalətli rəqabəti dəstəkləyən qanun və qaydaların yaradılması daxil ola bilər [3]. Bundan əlavə, dövlət subsidiyalar, vergi güzəştləri və investisiya təşviqləri vasitəsilə biznesə maliyyə dəstəyi verə bilər. Bu, kapitala məhdud çıxışı olan startaplar və kiçik bizneslər üçün xüsusilə vacib ola bilər. Nəhayət, dövlət fərdlərə müasir iqtisadiyyatda uğur qazanmaq üçün lazım olan bacarıqları əldə etməyə kömək edən təhsil və təlim proqramlarına sərmayə qoymaqla işçi qüvvəsinin inkişafında rol oynaya bilər. İşçi qüvvəsinin lazımi səviyyədə hazırlanmasını təmin etməklə dövlət biznesin böyüməsinə və qlobal bazarda rəqabət aparmasına kömək edə bilər. Bütövlükdə, dövlət biznesin inkişafı üçün lazım olan infrastrukturu, tənzimləyici bazanı, maliyyə dəstəyini və işçi qüvvəsinin inkişafı proqramlarını təmin etməklə biznesin inkişafında mühüm rol oynaya bilər.

**Biznesin inkişaf etməsində dövlətin investisiya siyasəti**

Biznesin inkişafına dövlət investisiya siyasəti hökumətlərin biznesin böyüməsini və inkişafını dəstəkləmək üçün ictimai resurslardan istifadə etməsinin müxtəlif yolları aiddir. Bura konkret sənaye və ya şirkətlərə birbaşa investisiyalar, vergi güzəştləri və subsidiyalar kimi maliyyə stimulları, biznes fəaliyyətini dəstəkləyən infrastruktur və digər ictimai malların təmin edilməsi daxil ola bilər. Dövlət investisiya siyasətinin əsas istiqamətlərindən biri investisiya üçün prioritet sahələrin müəyyən edilməsidir [1]. Hökumətlər texnologiya və innovasiya, bərpa olunan enerji və ya səhiyyə kimi yüksək inkişaf potensialına malik olacağı gözlənilən sənayelərə diqqət yetirməyi seçə bilər. Onlar həmçinin iş yerləri quran, ixracat yaradan və ya konkret regionların və ya icmaların inkişafına töhfə verən biznesləri dəstəkləməyə çalışa bilərlər. Dövlət investisiya siyasətinin digər mühüm elementi sahibkarlıq subyektlərinin maliyyə stimullaşdırmasıdır. Bu təşviqlərə vergi kreditləri, qrantlar, kreditlər və bizneslərə kapital çatışmazlığı, bazarlara çıxış və ya ixtisaslı işçiləri cəlb etməkdə çətinlik kimi böyümə maneələrini aradan qaldırmağa kömək edə biləcək digər maliyyə dəstəyi daxil ola bilər. Bundan əlavə, hökumətlər biznes fəaliyyətlərini dəstəkləyə biləcək nəqliyyat şəbəkələri, kommunikasiya sistemləri və enerji şəbəkələri kimi infrastruktur layihələrinə sərmayə qoya bilər. Bu ictimai malları təmin etməklə hökumətlər biznesin fəaliyyəti üçün daha əlverişli mühit yarada, mal və xidmətlərin sərhədlər daxilində və sərhədlər arasında hərəkətini asanlaşdıra bilər. Bütövlükdə, biznesin inkişafına dövlət investisiya siyasəti prioritet sektorlara və regionlara xüsusi diqqət yetirməklə biznesin böyüməsi və inkişafı üçün dəstəkləyici mühitin yaradılması məqsədi daşıyır [5]. Hökumətlər maliyyə stimulları, infrastruktur və digər ictimai sərvətlər təqdim etməklə bizneslərə çətinliklərin öhdəsindən gəlməyə və imkanlardan yararlanmağa kömək edə bilər və bununla da öz ölkələrinin ümumi iqtisadi artımına və inkişafına töhfə verə bilər.

**Azərbaycanda biznesin inkişaf etməsində dövlətin investisiya siyasəti**

Azərbaycan ölkədə biznesin inkişafını dəstəkləmək üçün bir sıra investisiya siyasəti həyata keçirib. Hökumətin ümumi iqtisadi inkişaf strategiyası iqtisadiyyatın neft-qaz sektorundan kənarda şaxələndirilməsinə, özəl sektorun inkişafı və investisiyalar üçün daha əlverişli mühitin yaradılmasına diqqət yetirir. Hökumətin həyata keçirdiyi əsas siyasətlərdən biri Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) yaradılmasıdır. AİŞ ölkədə kənd təsərrüfatı, turizm və infrastruktur kimi qeyri-neft sahələrinin inkişafına dəstək verməyə çalışan dövlət investisiya fondudur. AİŞ ölkənin iqtisadi inkişafı üçün strateji hesab edilən bizneslərə maliyyə və digər dəstək formaları təqdim edir. Hökumət, həmçinin prioritet sektorlara investisiyaları təşviq etmək üçün vergi və gömrük güzəştləri tətbiq etmişdir [10]. Məsələn, kənd təsərrüfatına və qida emalına, yüksək texnologiyalı sənayelərə və turizmə sərmayə qoyan şirkətlər azaldılmış korporativ vergi dərəcəsi, gömrük rüsumlarından azadolmalar və digər maliyyə dəstəyi formalarından faydalana bilər. Bundan əlavə, hökumət biznes fəaliyyətinin dəstəklənməsi üçün vacib olan infrastruktur layihələrinə sərmayə qoyub. Məsələn, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi Azərbaycan, Türkiyə və Avropa arasında əlaqəni yaxşılaşdırdı, ticarət və investisiyalar üçün yeni imkanlar yaratdı. Nəhayət, hökumət ölkədə kiçik və orta sahibkarlığa (KOB) dəstək siyasəti həyata keçirmişdir. Bunlara KOS-lara kreditlər və

qrantlar verən Sahibkarlığa Kömək Milli Fondunun, , innovasiya və sahibkarlığın dəstəklənməsi üçün biznes inkubatorların və texnoparkların yaradılması daxildir. Bütövlükdə, Azərbaycan hökuməti ölkədə biznesin inkişafını dəstəkləmək üçün iqtisadiyyatın şaxələndirilməsinə və özəl sektorun inkişafı və investisiya üçün daha əlverişli mühitin yaradılmasına diqqət yetirməklə bir sıra investisiya siyasəti həyata keçirmişdir.

**Dövlət investisiya siyasətində və biznesin inkişafında gələcək trendlər**

Dövlət investisiya siyasətində və biznesin inkişafında gələcək spesifik tendensiyaları proqnozlaşdırmaq çətin olsa da, qlobal miqyasda bu sahələrin istiqamətinə təsir edə biləcək bir neçə ümumi tendensiya yaranmışdır. Gələcəkdə bir neçə potensial tendensiya var:

Ətraf mühitlə bağlı narahatlıqlar artmaqda davam etdikcə, davamlı və yaşıl investisiyalara diqqət artır. Hökumətlər çox güman ki, təmiz enerjini təşviq edən, karbon emissiyalarını azaldan və ekoloji cəhətdən təmiz təcrübələri təşviq edən siyasətlərə üstünlük verəcəklər. Davamlı inkişaf məqsədlərinə uyğun gələn və ətraf mühitin mühafizəsinə sadiqlik nümayiş etdirən müəssisələr əlverişli investisiya siyasətlərindən və təşviqlərindən faydalana bilər. Davamlı və yaşıl sərmayələr ekoloji dayanıqlığa, iqlim dəyişikliyinin azaldılmasına və aşağı karbon və resursdan səmərəli iqtisadiyyata keçidə üstünlük verən investisiya fəaliyyətlərinə aiddir [9]. Bu investisiyalar maliyyə gəlirləri ilə yanaşı, müsbət ekoloji və sosial təsirlər yaratmaq məqsədi daşıyır. Davamlı və yaşıl investisiyalar haqqında bəzi əsas məqamlar bunlardır:

- Bərpa Olunan Enerji - Günəş, külək, hidro və geotermal enerji kimi bərpa olunan enerjiyə investisiyalar davamlı və yaşıl sərmayələrin mühüm tərkib hissəsidir. Hökumətlər və özəl investorlar qalıq yanacaqlardan asılılığı azaltmaq, karbon emissiyalarını azaltmaq və təmiz enerji istehsalına kömək etmək üçün bərpa olunan enerji layihələrinin inkişafı və genişləndirilməsini getdikcə daha çox dəstəkləyirlər.
- Enerji Effektivliyi - Enerji səmərəliliyinə investisiyalar binalarda, sənayelərdə və nəqliyyatda enerji istehlakının səmərəliliyinin artırılmasına yönəldilir. Buraya binaların enerjiyə qənaət edən texnologiyalarla yenidən qurulması, enerjiyə qənaət edən cihazların təşviqi və enerji idarəetmə sistemlərinin tətbiqi kimi təşəbbüslər daxildir. Enerji səmərəliliyinə investisiyalar enerji tələbinin azaldılmasına, istixana qazı emissiyalarının azalmasına və xərclərə qənaətə nail olunmasına kömək edir.
- Davamlı İnfrastruktur - Davamlı infrastruktur sərmayələri ətraf mühitə təsirləri minimuma endirən, təbii resursları qoruyan və iqlim dəyişikliyinə davamlılığı artıran infrastruktur layihələrinin inkişaf etdirilməsini nəzərdə tutur. Buraya yaşıl binalara, dayanıqlı nəqliyyat sistemlərinə (elektrikli nəqliyyat vasitələri və ictimai nəqliyyat kimi), su və çirkab suların idarə edilməsinə və tullantıların idarə edilməsi infrastrukturuna investisiyalar daxildir.
- Yaşıl İstiqrazlar və Davamlı Maliyyə - Yaşıl istiqrazlar davamlı və yaşıl layihələr üçün kapital artırmaq məqsədilə xüsusi olaraq buraxılmış maliyyə alətləridir. Onlar investorlara maliyyə gəliri əldə etməklə yanaşı, ekoloji cəhətdən faydalı layihələri dəstəkləmək imkanları yaradır. Davamlı maliyyə həmçinin maliyyə nəticələri ilə yanaşı ekoloji və sosial amilləri də nəzərə alan təsir sərmayələri, ətraf mühit, sosial və idarəetmə (ESG) investisiyaları və məsuliyyətli investisiyalar kimi digər maliyyə mexanizmlərini də əhatə edir [8].
- İqlim Dəyişikliyinin Təsirinin Azaldılması və Uyğunlaşma - İqlim dəyişikliyinin azaldılmasına investisiyalar istixana qazları emissiyalarının azaldılmasına və aşağı karbonlu iqtisadiyyata keçidə yönəldilmişdir. Buraya bərpa olunan enerji, karbon tutma və saxlama, davamlı kənd təsərrüfatı və meşələrin mühafizəsinə investisiyalar daxildir. İqlim dəyişikliyinə uyğunlaşma sərmayələri iqlim dəyişikliyinə davamlı infrastruktur, fəlakət riskinin azaldılması və su ehtiyatlarının idarə edilməsinə investisiyalar kimi iqlim dəyişikliyinin təsirlərinə davamlılıq yaratmaq məqsədi daşıyır.
- Sosial Məsuliyyətli İnvestisiya - Davamlı və yaşıl investisiyalar çox vaxt ətraf mühit amilləri ilə yanaşı sosial mülahizələri də özündə birləşdirir. Sosial məsuliyyətli sərmayələr sosial inklüzivliyin təşviqi, ədalətli əmək təcrübələrinin dəstəklənməsi, insan

hüquqlarına hörmət və icma inkişafının təşviqi kimi müsbət sosial təsirləri olan şirkətləri və layihələri dəstəkləmək məqsədi daşıyır.

Texnologiyanın və rəqəmsallaşmanın sürətli inkişafı bütün dünyada sənayeləri yenidən formalaşdırır. Hökumətlər iqtisadi artımı və rəqabət qabiliyyətini artırmaq üçün rəqəmsal transformasiya və innovasiyaların təşviqinin vacibliyini getdikcə daha çox dərk edirlər. İnvestisiya siyasətləri biznesləri süni intellekt, blokçeyn, əşyaların interneti və məlumat analitikası kimi inkişaf etməkdə olan texnologiyaları və rəqəmsal sahibkarlığı mənimsəməyə təşviq edə bilər. Rəqəmsal transformasiya və innovasiya müasir biznes mənzərəsində iqtisadi artımın və rəqabət qabiliyyətinin əsas hərəkətverici qüvvəsidir. Onlar müxtəlif sektorlar və sənayelər arasında rəqəmsal texnologiyaların və innovativ həllərin inteqrasiyasını və qəbulunu əhatə edir. Rəqəmsal transformasiya və innovasiya ilə bağlı bəzi əsas məqamlar bunlardır [5]:

- Texnoloji irəliləyişlər - Süni intellekt, maşın öyrənməsi, böyük verilənlərin analitikası, bulud hesablamaları, Əşyaların İnterneti (IoT) və blokçeyn kimi texnologiyada sürətli irəliləyişlər rəqəmsal transformasiya və innovasiyaya təkan verir. Bu texnologiyalar müəssisələrə əməliyyatları sadələşdirməyə, məhsuldarlığı artırmağa, müştəri təcrübələrini təkmilləşdirməyə, yeni məhsul və xidmətlər inkişaf etdirməyə imkan verir.
- Proseslərin optimallaşdırılması - Rəqəmsal transformasiya rəqəmsal texnologiyaların tətbiqi ilə iş proseslərini yenidən düşünmək və optimallaşdırmaqdan ibarətdir. Buraya əməliyyat səmərəliliyini artırmaq, xərcləri azaltmaq və ümumi biznes fəaliyyətini yaxşılaşdırmaq üçün əl ilə proseslərin avtomatlaşdırılması, rəqəmsal iş axınlarının həyata keçirilməsi və məlumat analitikasından istifadə daxildir.
- Məlumata əsaslanan qərarların qəbulu - Rəqəmsal transformasiya məlumatları strateji aktiv kimi istifadə edir. Məlumatların toplanması, təhlili və vizuallaşdırılması vasitəsilə müəssisələr müştəri davranışı, bazar tendensiyaları və əməliyyat performansı haqqında dəyərli fikirlər əldə edirlər. Məlumata əsaslanan qərar qəbulu bizneslərə əsaslandırılmış qərarlar qəbul etməyə, strategiyaları optimallaşdırmağa və yeni biznes imkanlarını müəyyən etməyə imkan verir.
- Çevik Əməliyyatlar - Rəqəmsal transformasiya biznes əməliyyatlarında çevikliyi təşviq edir. O, müəssisələrə dəyişən bazar şəraitinə tez uyğunlaşmağa, müştərilərin ehtiyaclarına cavab verməyə və yeni ideyalarla təcrübə keçirməyə imkan verir. Agile və DevOps kimi çevik metodologiyalar məhsulun daha sürətli inkişaf dövrlərinə və təkrarlanan təkmilləşdirmələrə şərait yaradır.
- Əməkdaşlıq Ekosistemləri - Rəqəmsal transformasiya ekosistemlər daxilində əməkdaşlığı və tərəfdaşlığı təşviq edir. Müəssisələr bir-birini tamamlayan imkanlardan istifadə etmək, yeni texnologiyalara çıxış əldə etmək və kollektiv innovasiyaya təkan vermək üçün getdikcə daha çox əməkdaşlıq, strateji ittifaqlar və açıq innovasiya təşəbbüsləri ilə məşğul olurlar. Startaplar, tədqiqat institutları və sənaye şəbəkələri ilə əməkdaşlıq innovasiya mədəniyyətini inkişaf etdirir və rəqəmsal transformasiya səylərini dəstəkləyir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Abbasov A.B. “Biznesin təşkili və idarə edilməsi”, Bakı, “İqtisad Universitetinin nəşriyyatı”, 2011, 464 səh.
2. Aktepe E. “Genel İşletme”, İstanbul, “Nobel Yain Dağıtım”, 2014, 397 s.
3. Balçik B. “İşletme Yönetimi”, Konya, “Nobel Yayınları”, 2015, 451 s.
4. Daniel W.B., Barbara C. “International Marketing”, Boston, “SAGE Publications Ltd”, 2018, 671 p.
5. Johnson M. “State Investment Strategies”, London”, “Oxford University Press”, 2021, 400 p.
6. Karalar R. “Genel İşletme”, İstanbul, “Anadolu Üniversitesi Yayınları”, 2017, 364 s.
7. Kochel T. “İşletme Yönetimi”, İstanbul, “Beta Yayınları”, 2014, 427 s.
8. Livingston A. “Social Policy in Developing Countries”, London, “Routledge and Kegan Paul”, 32017, 64 p.
9. Luhmann N.“Refah Devleti'nin Siyaset Teorisi”,İstanbul,“Bakış Yayınları”,2017, 279 s.
10. Sancak E. “Azerbaycan Ekonomisi”, Bakü, “Kafkas Üniversitesi Yayını”, 2019, 332 s.

**Рафаил Шукур оглы ШУКУРОВ, к. э. н., доцент**

**Улькер Мехман кызы ПОЛАДЛИ**
Азербайджанский Технологический Университет
E- mil: Upoladli94@mail.ru

# ГОСУДАРСТВЕННАЯ ИНВЕСТИЦИОННАЯ ПОЛИТИКА В РАЗВИТИЕ БИЗНЕСА

**Резюме**

Государственная инвестиционная политика может сыграть решающую роль в развитии предприятий, создав благоприятную среду для развития и расширения бизнеса. Правительство может добиться этого несколькими способами. Одним из основных способов поддержки развития бизнеса со стороны правительства является предоставление финансовых стимулов, таких как налоговые льготы, гранты и субсидии. Эти стимулы могут помочь предприятиям преодолеть финансовые препятствия и предоставить им необходимый капитал для инвестирования в возможности роста. Правительства могут создать нормативно-правовую базу, которая поощряет инновации и предпринимательство, защищая при этом потребителей и работников. Это может включать создание законов и нормативных актов, поддерживающих права интеллектуальной собственности, упрощение ведения бизнеса и честную конкуренцию. Правительства могут инвестировать в инфраструктурные проекты, поддерживающие деловую активность. Это может включать строительство транспортных сетей, энергетических сетей и систем связи, которые улучшают связь, облегчают перемещение товаров и услуг и поддерживают рост бизнеса. Правительства могут инвестировать в программы образования и обучения, которые помогают людям приобретать навыки, необходимые им для достижения успеха в современной экономике. Обеспечивая адекватную подготовку рабочей силы, правительство может помочь предприятиям расти и конкурировать на мировом рынке. В целом государственная инвестиционная политика может помочь создать благоприятную среду для развития и роста бизнеса. Правительства могут способствовать развитию бизнеса и способствовать экономическому росту в своих странах, предоставляя финансовые стимулы, создавая нормативно-правовую базу, инвестируя в инфраструктуру и поддерживая развитие рабочей силы.

**Цель исследования:** Заключается в изучении инвестиционной политики государства в сфере развития бизнеса.

**Объект исследования:** Государственная инвестиционная политика.

**Ключевые слова:** бизнес, инвестиции, инвестиционная политика, инновации, финансы.

**Rafail Shukur oglu SHUKUROV, Ph.D., Associate Professor**

**Ulker Mehman gizi POLADLI**
Azerbaijan Technology University
E- mil: Upoladli94@mail.ru

# STATE INVESTMENT POLICY IN BUSINESS DEVELOPMENT

**Summary**

Public investment policy can play a decisive role in the development of enterprises by creating a favorable environment for business development and expansion. The government can achieve this in several ways. One of the main ways the government supports business development is by providing financial incentives such as tax breaks, grants and subsidies. These incentives can help businesses overcome financial hurdles and provide them with the necessary capital to invest in growth

opportunities. Governments can create a regulatory framework that encourages innovation and entrepreneurship while protecting consumers and workers. This may include creating laws and regulations that support intellectual property rights, ease of doing business, and fair competition. Governments can invest in infrastructure projects that support business activities. This can include building transport networks, energy networks and communication systems that improve connectivity, facilitate the movement of goods and services and support business growth. Governments can invest in education and training programs that help individuals acquire the skills they need to succeed in today's economy. By ensuring that the workforce is adequately trained, government can help businesses grow and compete in the global marketplace. Overall, public investment policy can help create a favorable environment for business development and growth. Governments can contribute to business development and promote economic growth in their countries by providing financial incentives, creating a regulatory framework, investing in infrastructure and supporting workforce development.

**The purpose of the research**: To study the investment policy of the state in business development.

**Research object:** State investment policy

**Keywords:** business, investment, investment policy, innovation, finance.

**Kahraman Muhammad PİRİYEV**
Institute of Economics of Azerbaijan National Academy of Sciences,
Doctoral student

# THE CORONAVİRUS (COVID-19) PANDEMİC: ECONOMİC İMPLİCATİONS AND CHALLENGES

**Summary**

The COVID-19 pandemic is an unstoppable worldwide epidemic. As of mid-September 2021, there have been more than 44 million confirmed cases of COVID-19. World Bank estimates show the deepest global recession since World War II, with millions out of work. Quarantines and other extreme restrictions cannot be sustained in the long term in the hope that there will be an effective vaccine or treatment for COVID-19. Rather, these restrictions give countries time to reduce disease incidence and take robust but sustainable measures to prevent and control transmission. When and how a country eases restrictions are common challenges facing governments around the world as they try to balance various health, social and economic challenges.

**Keywords:** COVID-19, World Bank, economy

## Giriş

2020 has been a truly exceptional year in human history. The coronavirus disease (COVID-19) pandemic has so far killed more than 3 million people, had a devastating impact on the global economy, and fundamentally changed all areas of human life.

Prior to the COVID-19 pandemic, progress had been made toward goals in critical areas such as reducing poverty, improving maternal and child health, expanding access to electricity, and achieving gender equality. However, with the advent of the pandemic, problems and setbacks began in all areas around the world.

In many parts of the world, the pandemic is still ongoing, undermining decades of development efforts, and has already had a significant impact on several sectors [2].

The economic downturn caused by the pandemic has done little to slow the climate crisis. Preliminary data for 2020 show that the concentration of major greenhouse gases in the atmosphere has increased and the average global temperature is about 1.2°C above pre-industrial levels, dangerously close to the 1.5°C limit set by the Paris Agreement. In addition, the world has fallen short of its 2020 targets to end biodiversity loss, and between 2015 and 2020, forest cover has declined by 10 million hectares per year [McKibbin & Fernando, 2021].

The COVID-19 crisis has affected some of the delivery tools needed to promote sustainable change. Global foreign direct investment flow decreased by 40 percent compared to 2019. The value of global merchandise trade was projected to decrease by 5.6 percent in 2021 compared to 2020. The multiple financial consequences of the pandemic are leading to debt crises in many countries and territories. While net official development assistance (ODA) rose to $161 billion in 2020, it was not enough to respond to the pandemic and meet the long-established target of 0.7 percent of gross national income. [3].

Local communities have shown incredible resilience, governments have taken decisive action, social safety nets have expanded rapidly, digital transformation has accelerated and unprecedented partnerships have been forged to develop life-saving vaccines and treatments in record time. Quarantine measures were devoted to the prevention of the pandemic to the maximum extent, and although these measures prevented the pandemic, they froze the education system, collapsed the economy, and caused millions of people to become unemployed.

The sharp decline in activity dealt a crushing blow to the global labor market. A few countries (especially in Europe) have been able to limit its impact through effective short-term employment programs. However, according to the International Labor Organization, the global decline in working hours in the first quarter of 2020 compared to the fourth quarter of 2019 was equivalent to the loss of 130 million full-time

jobs. The decline in the second quarter of 2020 was equivalent to more than 300 million full-time jobs [1].

The damage to the labor market was particularly severe in the case of low-skilled workers who could not work from home. The International Labor Organization estimates that the crisis has affected about 80 percent of the estimated 2 billion informal workers worldwide.

The simultaneous nature of the recession exacerbates the disruptions in the domestic economies of countries around the world. Trade fell by about 3.5 percent (year-on-year) in the first quarter due to weak demand, a sharp drop in cross-border tourism and supply disruptions due to business closures (in some cases exacerbated by trade restrictions).

Around the world, self-isolation regimes were most intensively and widely used in the period from about mid-March to mid-May. For example, movement data from mobile phone signal monitoring shows that economic activity in retail, leisure, transit and workplaces in most countries remains weak, although it appears to be returning to baseline levels in some areas.

During most recessions, consumers spend their savings or rely on social safety nets and family support to offset spending, and consumption fluctuates relatively less than investment (Yıldırım S., 2020: p.1331-1351). But this time, the consumption and production of services has decreased significantly. This feature reflects a unique combination of factors: voluntary social distancing, the self-isolation required to slow transmission and the inability of health systems to cope with the rapidly growing disease burden, a sharp decline in incomes and weakening consumer confidence. Companies have also scaled back their investments amid lower demand, supply disruptions and uncertainty about future earnings. Thus,

Inflation in advanced economies decreased by about 1.3 percentage points from the end of 2019 to 0.4 percent (annualized) in April 2020, while in emerging market economies it decreased by 1.2 percentage points to 4.2 percent. Downward pressure on prices due to reduced aggregate demand, combined with the impact of so far low fuel prices, appears to more than offset any upward trend in costs due to supply cuts (1).

According to the European Commission's (EC) summer economic forecast, despite measures taken at both the EU and national level, the EU economy is in deep recession in 2020 due to the coronavirus pandemic [2].

According to the published summer forecast, Eurozone GDP contracted by 8.7% in 2020 and is forecast to grow by 6.1% in 2021. EU GDP as a whole fell by 8.3% in 2020 and is projected to grow by 5.8% in 2021. Thus, the forecast notes that the decline in 2021 is projected to be more significant than the expected 7.7% for the Eurozone and 7.4% for the EU as a whole. Economic growth in 2021 will also be slightly less stable than forecast in the spring [4].

The pandemic has reduced activity in global and national economies and limited investment opportunities. The implementation of social isolation measures to minimize the impact of the coronavirus on citizens' health naturally also affects the economy of Azerbaijan. In 2020, the nominal income of the population of Azerbaijan decreased by 1.8% compared to the previous year (3).

Tourism has become one of the sectors most affected by the new coronavirus pandemic in the world. Due to the closure of borders and suspension of flights, 4 times less foreigners and stateless persons arrived in Azerbaijan in 2020 than in 2019. In 2020, the turnover of mutual tourism services decreased by 4.3 times, a deficit was created as a result of the import exceeding the export of tourism services. The crisis caused serious economic losses not only to the tourism sector but also to other related industries.

Since the second quarter of 2020, a sharp decrease in the turnover of tourism services has been observed. Thus, if tourism services were exported in the amount of 457 million US dollars in the second quarter of 2019, they were worth 5 million US dollars in the second quarter of 2020, this decrease compared to 2019 continued in the third and fourth quarters of 2020 [4].

The economic and social upheaval caused by the pandemic has had a devastating effect on the situation in most countries of the world. Tens of millions of people are at risk of extreme poverty, and the number of undernourished people currently listed at around 690 million could rise to 132 million by the end of this year.

Millions of private companies and industries are threatened with closure. About half of the world's 3.3 billion employed workers are at risk of losing their livelihoods. Without financial assistance during the quarantine, many are in danger of not being able to support themselves and their families. For many, the lack of stable income has led to malnutrition and hunger.

The pandemic has affected the entire global food system and exposed its shortcomings. Border closures and trade restrictions have prevented farmers from accessing global markets [2].

Urgent and targeted measures to save lives and protect livelihoods must include expanding social protection through health coverage for socially vulnerable and low-wage workers, including migrants. Particular attention should be paid to the situation of women working in low-wage jobs [3].

During the outbreak of the pandemic, the negative impact of COVID-19 was especially felt by vulnerable countries that are already experiencing humanitarian crises or emergencies. In such countries, it is extremely important to deliver aid to the most needy sections of the population as soon as possible.

A number of factors suggest that the governments of the region will face serious obstacles and fiscal pressures to find a way out of the current crisis and support the recovery of the private sector. Perhaps most pressing is the risk of a new outbreak. In August 2021, the public health situation remained unstable not only in the region, but globally. Vaccination has been slow, and the risk of new strains like Delta spreading faster and infecting more people than the original strain of the coronavirus does not rule out the possibility of new outbreaks. This means that

**Table 1.**

**Comparison of the retail trade turnover of Azerbaijan in 2015-2020 (including the pandemic period) with other countries Retail trade turnover in international comparison**

billion national currency units

| Countries | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Azerbaijan, manat | 25.7 | 30.2 | 35.3 | 37.1 | 39.4 | 40.2 |
| Armenia, drama | 1 346.0 | 1 281.0 | 1 377.0 | 1 452.0 | 1 596.0 | 1 330.0 |
| Belarus, Belarusian ruble | 347 240.0 | 36.9* | 40.2* | 45.2* | 49.6* | 53.1* |
| Kazakhstan, tenge | 6 556.0 | 7 974.0 | 8 893.0 | 10 046.0 | 11 328.0 | 11 572.0 |
| Kyrgyzstan, Kyrgyz som | 293.8 | 307.2 | 336.9 | 364.1 | 385.3 | 340.2 |
| Moldova, ley | 42.4 | 48.5 | 52.9 | 41.1 | 55.2 | 61.7 |
| Russia, ruble | 27 527.0 | 28317.0 | 29 813.0 | 31 579.0 | 33 624.0 | 33 555.0 |
| Tajikistan, somoni | 14.4 | 16.2 | 18.4 | 20.5 | 24.5 | 26.6 |
| Uzbekistan, sum of Uzbekistan | 71 184.0 | 88 072.0 | 105 768.0 | 133 195.0 | 161 173.0 | 189 625.0 |
| Ukraine, hryvnia | 1 031.7 | 1 175.3 | 815.3 | 930.6 | 1 094.0 | 1 210.8 |

*) Taking into account the denomination of the Belarusian ruble in 2016

**Source:** https://www.stat.gov.az/menu/2/quality/az/lecture/trd_07.xls, 01.01.2021

The policy measures implemented by Azerbaijan to first prevent the spread of COVID-19 and then to mitigate its social and economic impacts were similar to those of OECD countries, with the scale of interventions reflecting the government's fiscal capacity. Azerbaijan imposed severe restrictions on foreign travel starting in the first quarter of 2020, and most of these restrictions remained in effect until the summer of 2021.

**The result**

Adopting and successfully implementing a comprehensive Action Plan to achieve sustainable development, including reducing the negative impact of the pandemic on the country's economy and employment. As a result of the

measures taken, the economy shrank by only 2.8 percent in 7 months.

2. Despite the impact of COVID-19 on the country's economy, the economic growth rate (0.2%) has increased due to the economic reforms implemented in the past years and the created potential;

3. The support program ($1.47 billion – estimated at 3.1% of GDP) is not only an anti-crisis measure, but also a program of economic expansion, credit expansion and aggregate demand stimulation. This comprehensive package of support adopted by the government serves the goals of sustainable development, including the preservation of social balance and economic development in the post-pandemic period.

## Literature

1. Etermad H. Managing uncertain consequences of a global crisis: SMEs encountering adversities, losses, and new opportunities // Journal of International Entrepreneurship, 2020, vol. 18, pp. 125-144.

IACO. Effects of Novel Coronavirus (COVID-19) on Civil Aviation: Economic Impact Analysis. URL:https://www.icao.int/sustainability/ Documents/COVID-19/ICAO_Coronavirus_ Econ_ Impact.pdf

IATA. Air Passenger Market Analysis. URL:https://www.iata.org/en/iata-repository/publications/economic-reports/air-passenger-monthly-analysis---december-2020/

IATA. Economic Performance of the Airline Industry. URL:https://www.iata.org/en/iata-repository/publications/economic-reports/airline-industry -economic-performance---november-2020---report/

2. MacKenze A. Dealing With Disaster. Asian Business, 1994. 2. Fink S. Decision Making in Crisis: The Piper Alpha Disaster. In: Managing Crisis: Threats, Dilemmas, Opportunities. Charles C. Thomas Publisher, 2002. McKibbin & Fernando. The global macroeconomic impacts of COVID-19. Seven scenarios. 2021

OECD. Tourism Policy Responses. 2021. URL:https://read.oecd-ilibrary.org/view/?ref=124_124984-7uf8nm95se&title=Covid19_Tourism_Policy_Responses

**Qəhrəman Məhəmməd PİRİYEV**
Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu,
Doktorant

## KORONAVİRUS (COVID-19) PANDEMİYASİ: İQTİSADİ MƏZMUNU VƏ YARATDIĞI PROBLEMLƏR

**Xülasə**

COVID-19 pandemiyası dünya üzrə qarşısıalınmaz bir epidemiyadır. 2021-ci il sentyabrın ortalarına qədər 44 milyondan çox təsdiqlənmiş COVID-19 hadisəsi baş vermişdir. Dünya Bankının hesablamaları İkinci Dünya Müharibəsindən bəri ən dərin qlobal tənəzzülü göstərir və milyonlarla insan işsizdir. COVID-19 üçün effektiv peyvəndin və ya müalicənin olacağı ümidi ilə karantinlər və digər həddindən artıq məhdudiyyətlər uzunmüddətli perspektivdə davam etdirilə bilməz. Əksinə, bu məhdudiyyətlər ölkələrə xəstəlik hallarını azaltmaq və ötürülmənin qarşısını almaq və nəzarət etmək üçün möhkəm, lakin davamlı tədbirlər görmək üçün vaxt verir. Bir ölkənin məhdudiyyətləri nə vaxt və necə yüngülləşdirməsi bütün dünyada müxtəlif sağlamlıq, sosial və iqtisadi problemləri tarazlaşdırmağa çalışan hökumətlərin üzləşdiyi ümumi problemlərdir.

**Açar sözlər:** COVID-19, Dünya Bankı, iqtisadiyyat

**Кахраман Мухаммад ПИРИЕВ**

Институт Экономики Национальной Академии Наук Азербайджана,
Докторант

# ПАНДЕМИЯ КОРОНАВИРУСА (COVID-19): ЭКОНОМИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ И ВЫЗОВЫ

**Резюме**

Пандемия COVID-19 представляет собой неудержимую мировую эпидемию. По состоянию на середину сентября 2021 года зарегистрировано более 44 миллионов подтвержденных случаев COVID-19. По оценкам Всемирного банка, это самая глубокая глобальная рецессия со времен Второй мировой войны, когда миллионы людей остались без работы. Карантин и другие крайние ограничения не могут поддерживаться в долгосрочной перспективе в надежде, что появится эффективная вакцина или лечение от COVID-19. Скорее, эти ограничения дают странам время снизить заболеваемость и принять надежные, но устойчивые меры по предотвращению и контролю передачи инфекции. Когда и как страна ослабляет ограничения, это общие проблемы, с которыми сталкиваются правительства во всем мире, пытаясь сбалансировать различные проблемы здравоохранения, социальные и экономические проблемы.

**Ключевые слова:** *COVID-19, Всемирный банк, экономика.*

**Məmməd Hacıyov oğlu URKAYEV, i.f.d., dosent**

**Minurə Hacı qızı KƏRİMOVA i.f.d., b.m.**

**Elnur Ələddin oğlu HƏSƏNOV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: mina34mk@mail.ru

# STRATEJİ MARKETİNQİN EMAL SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ TƏTBİQİ

**Xülasə**

Məqalədə emal sənaye müəssisələrinin yeni, yüksək keyfiyyətli idarəetmə səviyyəsinə keçidi ilə bağlı strateji dəyişikliklərin idarə edilməsi sisteminin tətbiqi təklif edilir. Strateji dəyişikliklərin həyata keçirilməsinin idarə edilməsi sisteminin məcmusu yüksək iqtisadi və strateji səmərəlilik prinsiplərini özündə ehtiva etməlidir. Qeyd edək ki, Strateji Yol Xəritələrinin hazırlanması prosesi strateji idarəetmə şərtlərinə adekvat şəkildə həyata keçirilib. Belə ki, prezidentin sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin əsas istiqamətləri" 3 dövrü əhatə edir. Bu konsepsiyada 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyası, 2025-ci ilədək olan dövr üçün strateji baxış və növbəti dövr üçün isə prioritet istiqamətlər nəzərdən keçirilir. Mövcud iqtisadi və idarəetmə ədəbiyyatı, əsasən, strateji dəyişikliklərin həyata keçirilməsinin idarə edilməsi problemlərinin həllini sadələşdirmə nöqteyi-nəzərindən keçirir, yəni müəssisələrdə mövcud problemlərin aradan qaldırılması üçün ardıcıl mərhələlər və addımlar tələb olunur. Fikrimizcə, strateji dəyişikliklərin həyata keçirilməsinin idarə edilməsinə bu cür yanaşma heç də həmişə effektiv olmur, çünki bu halda köhnə problemlərin növbəti idarəetmə səviyyəsinə ötürülməsi prosesi gedir və onun həyata keçirilməsində bir sıra çətinliklər yaradır. Buna görə də, bu mürəkkəb problemi həll etmək üçün strateji dəyişikliklərin həyata keçirilməsinin idarə edilməsinə sistemli yanaşma lazımdır.

**Açar sözlər:** emal sənayesi, strateji marketinq, logistika, səmərəlilik.

## Giriş

Əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş uzun müddət ərzində düşünülmüş iqtisadi siyasət ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün möhkəm zəmin yaratmışdır. Nəticədə geniş sahibkarlıq təbəqəsi formalaşmış, ölkənin sosial-iqtisadi inkişafında özəl sektorun rolu daha da artmış, dünya təsərrüfat sisteminə inteqrasiya sahəsində mühüm uğurlar əldə edilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında ölkə iqtisadiyyatının inkişafının əsas istiqaməti çoxsaylı problemlərin, o cümlədən emal sənayesi müəssisələrində strateji dəyişikliklərin idarə olunmasının müasir problemlərinin həllinə strateji yanaşma müəyyən edilmişdir. Bu yanaşma ona əsaslanır ki, bazarda istehlak malları bolluğunun yaradılması, çox cəhətdən, emal sənayesi müəssisələrinin müvəffəqiyyətli fəaliyyətindən asılıdır. Məhz emaledici sənaye müəssisələrinin məhsulu istənilən ölkənin həm daxili, həm də xarici bazarında aktivləşməyə imkan yaradır. Emal sənayesi müəssisələrinin səmərəli işi respublikada qeyri-neft sektorunun inkişafının rəhnidir. Bununla əlaqədar, iqtisadiyyatın mövcud vəziyyətinin hərtərəfli təhlili, ölkədə həyata keçirilən iqtisadi siyasətin və iqtisadi islahatların sabitliyinin təmin edilməsi üçün iqtisadi inkişafın yeni strategiyasının hazırlanması məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 16 mart 2016-cı il tarixli 1897 nömrəli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin əsas istiqamətləri" təsdiq edilmiş və bu istiqamətlərə uyğun inkişaf planlarının işlənib hazırlanmasını təmin etmək üçün müvafiq işçi qrup yaradılmışdır. Son illər dünyada neftin qiyməti qalxır. Ölkəmizdə ÜDM-in həcmi ildən-ilə artır. Ölkədə manatın məzənnəsi də möhkəmlənir. İs-

tehsal sənayesi də inkişaf edir. Bu məsələlər araşdırılan problemin aktuallığını göstərir. Beləliklə, emal sənayesi müəssisələrində idarəetmənin əsas elementi kimi strateji dəyişikliklərin idarə olunmasını təkmilləşdirməyə obyektiv ehtiyac yaranır. Strateji dəyişikliklərin idarə edilməsi sistemi, xarici amillərin təsiri altında müəssisənin yenidən strukturlaşdırılması prosesi kimi, strateji idarəetmənin ən mühüm tərkib hissəsidir. Strateji dəyişikliklərin idarəetmə sisteminin tədqiqatının baza əsasını təşkil edən strateji menecment problemi son illərdə alimlərin diqqət mərkəzindədir. Xarici ölkələrdə fəaliyyət göstərən alimlərdən İ.Ansoff, A.Andreyçikov, Q.Boloşin, S.Boquslovskaya, V.Barinov, O.Volodina, R.Qrant, Y.Qolubkov, M.Dudin, A.Zubkova, Y.İsayeva, S.Krımova, A.Kulıkova, N.Lozik, Q.Latfullin, V.Malyuk, P.Maslennikov, R.Mumladze, V.Popov, B.Royzberq, D.Heyzer və başqaları müəssisələr səviyyəsində strateji dəyişikliklərin idarə olunmasına həsr edilmiş tədqiqatlara sanballı töhfələr veriblər. Azərbaycan alimlərindən R.R.Abutalıbov, G.Z.Yüzbaşıyeva, B.X.Ataşov, İ.Q.Əliev, H.H.Aslanov, T.H.Hüseynov, A.D.Hüseynova, X.M.Hüseynova, H.K.Həsənov, S.K.İbrahimov, Ə.Ş.İmanov, E.N.Kərimov, İ.M.Mahmudova, A.M.Məhərrəmov və başqalarının bütövlükdə strateji idarəetmənin ümumi problemlərinə, o cümlədən 5 və müəssisələrdə strateji dəyişikliklərin idarə olunması məsələlərinə həsr edilmiş əsərlərini göstərmək olar. Göründüyü kimi, həm xarici, həm də yerli alimlərin tədqiqatlarında strateji dəyişikliklərin idarə olunması sisteminin araşdırılmasına kifayət qədər diqqət ayrılmışdır. Buna baxmayaraq, strateji dəyişikliklərin idarə olunması ilə bağlı bir çox məsələlər hələ öz həllini gözləyir. Respublika iqtisadiyyatının qeyri-neft sektorunun inkişafının baza əsasını təşkil edən emal sənayesi müəssisələri səviyyəsində konkret tədqiqatların olmamasını da məhz belə məsələlər sırasına aid etmək olar, çünki müəssisələrdə strateji dəyişikliklərin idarə olunmasının səmərəliliyinin artırılması məsələləri az öyrənilmişdir, bu sferada proqnoz qiymətləndirmələri üzrə araşdırmalar praktik olaraq yox dərəcəsindədir.

**Materiallar və müzakirələr**

Qeyd edək ki, Strateji Yol Xəritələrinin hazırlanması prosesi strateji idarəetmə şərtlərinə adekvat şəkildə həyata keçirilib. Belə ki, prezidentin sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin əsas istiqamətləri" 3 dövrü əhatə edir. Bu konsepsiyada 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyası, 2025-ci ilədək olan dövr üçün strateji baxış və növbəti dövr üçün isə prioritet istiqamətlər nəzərdən keçirilir. Mövcud iqtisadi və idarəetmə ədəbiyyatı, əsasən, strateji dəyişikliklərin həyata keçirilməsinin idarə edilməsi problemlərinin həllini sadələşdirmə nöqteyi-nəzərindən nəzərdən keçirir, yəni müəssisələrdə mövcud problemlərin aradan qaldırılması üçün ardıcıl mərhələlər və addımlar tələb olunur.

Fikrimizcə, strateji dəyişikliklərin həyata keçirilməsinin idarə edilməsinə bu cür yanaşma heç də həmişə effektiv olmur, çünki bu halda köhnə problemlərin növbəti idarəetmə səviyyəsinə ötürülməsi prosesi gedir və onun həyata keçirilməsində bir sıra çətinliklər yaradır. Buna görə də, bu mürəkkəb problemi həll etmək üçün strateji dəyişikliklərin həyata keçirilməsinin idarə edilməsinə sistemli yanaşma lazımdır. Strateji dəyişikliklərin həyata keçirilməsinin idarə edilməsinə sistemli yanaşmanın xüsusiyyətləri hansılardır? Bu suala strateji dəyişikliklərin həyata keçirilməsinin idarə edilməsində ardıcıllıq elementlərinə istinad edən ukraynalı alim İ.İ.Pavlenko çox orijinal şəkildə cavab verir:

- strateji dəyişikliklərin həyata keçirilməsi üçün idarəetmə sistemi sənaye müəssisəsinin xarakterik xüsusiyyətlərini, onların spesifik xüsusiyyətlərini əhatə edə bilməlidir;
– sənaye müəssisələrində strateji dəyişikliklərin həyata keçirilməsinin idarəetmə sistemi daha yüksək strateji səviyyəyə keçərkən onların həlli üçün ən qlobal problemləri özündə cəmləşdirməyi bacarmalıdır;
– strateji dəyişikliklərin həyata keçirilməsi üçün idarəetmə prosesi sənaye müəssisəsinin inkişafına yönəldilməlidir;
– strateji dəyişikliklərin həyata keçirilməsi üçün idarəetmə sistemi sənaye müəssisəsinin ətraf mühitə münasibətdə universallıq və çeviklik nöqteyi-nəzərindən qurulmalıdır;
– strateji dəyişikliklərin həyata keçirilməsi üçün idarəetmə sisteminin məcmusuna bir tərəfdən yüksək iqtisadi və strateji səmərəlilik, digər tərəfdən isə yüksək dərəcədə özünüinkişaf prosesi prinsipləri daxil edilməlidir. Hal-hazırda iqtisadi ədəbiyyatda müəssisələrdə strateji dəyişikliklərin idarə edilməsi sisteminin öyrənilməsi üçün çoxlu sayda metod və üsullara rast gəlmək olar.

Onlardan ən ümumiləşdirilmişlərinə aşağıdakı üsullar daxildir:

– situasiya təhlili (müəssisənin makroiqtisadi mühiti, qarşıdurma və rəqabət təhlili, konkret marketinq təhlili, inteqral təhlil);

– planlaşdırma məqsədlərinin təhlili (müəssisənin missiyası və onun inkişafı, hədəf bazarın seçilməsi və seqmentləşdirmə, müəssisənin əldə edilmiş istiqamətləri və onların hədəf trayektoriyası, fəaliyyət dairəsi və onların məqsədləri);

– strateji əməliyyatlar planının təhlili (strateji biznes bölmələrinin seçilməsi); strateji artımın və rəqabət strategiyasının təhlili (strateji əməliyyatların həlli üçün marketinq üsulları toplusu, alternativ strateji variantların müəyyən edilməsi və onların seçilməsi, risklərin idarə edilməsi və kommersiya riskinin qiymətləndirilməsi);

– perspektivlər və proqnozlaşdırıcı qiymətləndirmə (müəssisənin xarici mühitinin inkişaf tendensiyaları, bazar parametrlərinin inkişaf meyilləri, müəssisənin daxili mühitinin inkişaf tendensiyaları).

Müəssisələrdə strateji dəyişikliklərin idarə edilməsi sisteminin öyrənilməsi üçün yuxarıda göstərilən üsullar ilk növbədə sənaye müəssisələrinin fəaliyyətində səmərəliliyin artırılmasına yönəlmişdir. Xüsusilə, strateji dəyişikliklər mövqeyindən A.M.Bozhko tərəfindən təşkilati dəyişikliklərin təsirini müəyyən etmək üçün metodologiyanın təklif olunan təsnifatı, o cümlədən aşağıdakı sahələr çox orijinaldır:

– marketinq effekti: istehlakçı tələbatının ödənilməsinin müasir üsullarının formalaşdırılması, bazar mühitində müəssisələrin mövqelərinin möhkəmləndirilməsi və onların rəqabət qabiliyyətinin gücləndirilməsi;

– elmi-nəzəri effekt: müasir informasiya və texnoloji həllərin inkişafı;

– idarəetmə və təşkilati effekt: müasir təşkilati idarəetmə strukturlarının inkişafı, yeni təşkilati proseslər;

– sosial-psixoloji təsir: kadrların təşkilati davranışının təkmilləşdirilməsi, idarəetmənin yeni sosial-psixoloji metodlarından istifadə;

– iqtisadi effekt: müəssisələrdə strateji dəyişikliklərin idarə edilməsinin ümumi sistemində təşkilati dəyişikliklər prosesində kəmiyyət maliyyə nəticəsinin üstünlüyü;

– informasiya və kommunikasiya effekti: yeni və müasir İKT-nin tətbiqi zamanı müəssisənin səmərəliliyinin artırılması.

Strateji dəyişikliklərin idarə edilməsi sisteminin təşkilati dəyişikliklər baxımından effektivliyinə gəldikdə, onlar aşağıdakı əsas tələblərə cavab verməlidirlər:

– sistemli qiymətləndirmə: ayrı-ayrı iqtisadi fəaliyyət göstəriciləri kompleksində müxtəlif növ səmərəliliyin qiymətləndirilməsi, onların əlaqəsi və qarşılıqlı asılılığı;

– xarici və daxili mühitin sistemləşdirilməsi: həm daxili, həm də xarici səmərəliliyə nail olmağa yönəlmiş strateji və təşkilati dəyişikliklər üçün marketinq təhlilindən istifadə;

– inteqrasiyanın qiymətləndirilməsi: idarəetmənin iyerarxik səviyyələrinin (strateji və əməliyyat) optimal müəssisə idarəetmə sisteminə uyğunluğuna nail olmaq;

– fəaliyyət göstəricilərinin əhəmiyyəti: əməliyyat və strateji fəaliyyət göstəricilərinin tam şəffaflığı

– qiymətləndirmənin sürəti: müəssisələrdə strateji dəyişiklikləri idarə etmək üçün ümumi sistemdə təşkilati dəyişikliklər aparılarkən göstəricilərin qiymətləndirilməsinin səmərəliliyi və vaxtında olması. Beləliklə, belə nəticəyə gəlmək olar ki, müəssisələrdə strateji dəyişikliklərin idarə edilməsinin ümumi sistemində təşkilati dəyişikliklərin effektivliyinin qiymətləndirilməsi kompleks şəkildə tətbiq edilməli və sistemli xarakter daşımalı olan çoxşaxəli və çoxölçülü göstəriciləri əhatə edir:

– müəssisələrdə strateji dəyişikliklərin idarəetmə sistemində strateji təhlilin alət və yanaşmalarının tətbiqi mərhələli şəkildə aparılmalıdır:

- sistem haqqında məlumatlılıq;

– daxili sistemin diaqnostikası;

– ətraf mühit sisteminin diaqnostikası;

– müəyyən əmsalların tərtibi və onların sonrakı paylanması yolu ilə mərhələli metodoloji yanaşma həyata keçirilir.

Bu əmsallara;

– idarəetmə sisteminin strateji məqsədlərə nail olmaq qabiliyyətini xarakterizə edən əmsal;

– taktiki məqsədlərə nail olmaq qabiliyyətini xarakterizə edən əmsal;

- prosesin başlanğıcına hazırlıq sürətini xarakterizə edən əmsal;

– idarəetmə qərarının ötürülməsinin səmərəliliyini xarakterizə edən əmsal;

- idarəetmə qərarının qəbul edilməsi sürətini xarakterizə edən əmsal;

– idarəetmə innovasiyalarının səmərəliliyinə səbəb olan əmsal;

Müəssisələrdə strateji dəyişikliklərin idarə edilməsinin effektivliyinin daha dərindən öyrənilməsi üçün strateji idarəetmənin effektivliyinin qiymətləndirilməsinə bir sıra xarici yanaşmalar fərqləndirilir. Burada, əsasən, iki istiqaməti ayırd etmək olar: Yapon və Amerika. Strateji idarəetmənin perspektivli sistemlərindən biri Yapon sistemidir ki, onun əsas mənası uzunmüddətli planlaşdırmanın işlənib hazırlanmasıdır. Əsas məqsədlərlə əməliyyat və ya performans məqsədləri arasında fərq qoyulur. Eyni zamanda, müasir Yapon müəssisələrində əsas şirkətin filialları ilə əlaqəsi mühüm əlaqədir. Nəzarət olunan müəssisələrin fəaliyyətinin xarakterindən asılı olaraq törəmə və filialların strategiyası müəyyən edilir. Amerika müəssisələrinə gəlincə, onlar adətən iki növ planlaşdırmadan istifadə edirlər: strateji və əməliyyat planlaşdırma. Strateji planlaşdırma ekonometrik proqnoz üsulu ilə bazar konyukturasının iqtisadi diaqnostikası əsasında idarəetmənin işçi qrupu tərəfindən həyata keçirilir, diqqətini uzunmüddətli hədəflərə yönəldir. Ümumiyyətlə, strategiyanın hazırlanması ilə məşğul olan menecerlərin şirkətin fəaliyyətinə şəxsi, subyektiv baxışı var. Araşdırmalar göstərir ki, biznes menecerlərinin şəxsi motivləri, biznes fəlsəfəsi, rəqabət mühitində qalib gəlmək bacarığı, risklərə münasibət kimi amillər strategiyanın seçiminə daha çox təsir edir. Bununla belə, Yaponiya və Amerika şirkətlərinin menecerləri düzgün strategiya seçməkdə, qəbul edilə biləcək ən ümumi qərarlara diqqət yetirməkdə və bu strategiyanın uğuru üçün uzunmüddətli rəqabət qabiliyyətinə malik olmaqda israrlıdırlar.

## Nəticə

Nəticədə aşağıdakı fikirləri ifadə etmək olar:

– Müəssisələrin inkişafında strateji idarəetmənin tətbiqi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi mühüm rol oynayır. Artıq qeyd edildiyi kimi, bu sahədə strateji biznesin idarə edilməsi konsepsiyasının hazırlanmasında ABŞ və Yaponiya təcrübəsi mühüm rol oynayır;

– ABŞ firmaları cari hədəflər qoyaraq öz strateji məqsədlərinə çatırlarsa, Yapon firmaları strateji hədəflər qoyaraq bir sıra taktiki addımlar atır;

– Amerika şirkətlərinin əsas üstünlüyü cari mənfəət və səhmlərin dəyəri, Yaponiya şirkətlərində isə insan resurslarının strateji inkişafı;

– ABŞ şirkətlərində strateji məqsədlərə çatmaq üçün yeni işçilərin istifadə etdiyi yeniliklərdən və şəxsi karyeralardan istifadə olunur, Yaponiya şirkətlərində isə əksinə, strateji məqsədlərə ümumi komandanın köməyi ilə nail olunur və strateji ideyalar komandaya aiddir;

– ABŞ və Yaponiya təcrübəsinə əsaslanaraq demək olar ki, biznesin strateji idarəçiliyi güclü komandaya, dinamik insan resurslarına və korporativ ruha, rəqabətədavamlı istehsal ideyasına, optimal idarəetmə sisteminə, təşkilati idarəetmə sxeminə əsaslanır.

Qərb tipli strateji müəssisə idarəetməsi aşağıdakı amilləri əhatə edir:

- aydın əsaslandırılmış strategiyanın işlənib hazırlanması;

– müəssisənin bütün personalının strateji idarəetmə prosesinə cəlb edilməsi, müəssisədə baş verən dəyişikliklərə işçilərin stimullaşdırılması dərəcəsinin artırılması;

– müəssisənin həm maddi, həm də mənəvi dəyişmə qabiliyyəti;

– strateji idarəetmənin hər bir mərhələsinə effektiv nəzarət, təhlil və diaqnostika sistemi;

– müəssisənin strateji inkişafının nəticələri barədə işçilərin vaxtında məlumatlandırılması, bu da həvəsləndirmələrin daha da artmasına və nəticədə qarşıya qoyulan məqsədlərə nail olmaq ehtimalına üstünlük verir;

– idarəetmə fəaliyyətinin rəqabətli standartlaşdırılması;

Proqnozlaşdırma aparatının təbii hadisələr nəticəsində yaranan verilənlərlə işlədiyini başa düşmək proqnozlaşdırma prosesində aşağıdakı beş mərhələnin müəyyən edilməsinə gətirib çıxarır: məlumatların toplanması, məlumatların qruplaşdırılması, modelin formalaşdırılması və onun qiymətləndirilməsi, trend modelinin seçilməsi, yekun qiymətləndirmə. Fikrimizcə, strateji dəyişikliklərin idarə edilməsi sisteminin planlaşdırılması prosesi onların effektivliyi məsələlərinə əsaslanmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Международная научная конференция // Межкультурные коммуникации. 28 мая 2012. - Тбилиси, 2012. - с.6.

2. Финансовая политика Азербайджана на современном этапе // Intercultural Communicati-

ons (Межкультурные Коммуникации): международное научное издание. – Тбилиси, 2012, №19. - s.158-165.

3. Multikulturalizm və sənaye mədəniyyəti // "Heydər Əliyev ideyaları müasir Azərbaycanın uğurlu inkişaf siyasətinin təməlidir"29 mövzusunda elmi-praktiki konfransının materiallarının toplusu. –Баку, 2016. – s.51-58.

4. Повышение эффективности на уровне предприятий //Azərbaycan Dövlət İqtisad İnstitutu : Elmi- nəzəri jurnal. – Баку, 2016. - Bur.7. - s.19-23.

5. Определение стратегической цели предприятий//Azərbaycan aqrar elmi : Elmi-nəzəri jurnal. – Баку. - 2018, № 1. -s.3-5.

6. Organizational matters of enterprises in new conditions // Proceedings of XXXXXIII Internationalscientific conference―Modern views in science‖. Morrisville, Lulu Press. - New York,2019. – p.34-38.

7. Концептуальные основы определения стратегии управления предприятий в современный период // Інвестиції: практика та досвід: научно-практический журнал. - Киев. – 2020, № 1. - s.79-85.

**Мамед Гаджиев оглы УРКАЕВ, д. ф. э., доцент**

**Минура Гаджи кызы КАРИМОВА, д. ф. э., ст. преп.**

**Эльнур Аладдин оглы ГАСАНОВ**
Азербайджанский Технологический Университет
E-mail: mina34mk@mail.ru

# ПРИМЕНЕНИЕ СТРАТЕГИЧЕСКОГО МАРКЕТИНГА В ПРОИЗВОДСТВЕННЫХ УЧРЕЖДЕНИЯХ

**Резюме**

В статье предлагается внедрение системы управления стратегическими изменениями, связанной с переходом производственных предприятий на новый, качественный уровень управления. Совокупность системы управления реализацией стратегических изменений должна включать в себя принципы высокой экономической и стратегической эффективности. Следует отметить, что процесс подготовки Стратегических дорожных карт осуществлялся в соответствии с условиями стратегического управления. Так, «Основные направления Стратегической дорожной карты по национальной экономике и основным отраслям экономики», утвержденные указом президента, охватывают 3 периода. В данной концепции рассмотрены стратегия экономического развития на 2016-2020 годы, стратегическое видение на период до 2025 года и приоритетные направления на следующий период. Существующая экономическая и управленческая литература в основном рассматривает решение проблем управления стратегическими изменениями с точки зрения упрощения, то есть требуются последовательные этапы и шаги для преодоления существующих проблем на предприятиях. На наш взгляд, такой подход к управлению реализацией стратегических изменений не всегда эффективен, поскольку в этом случае происходит процесс передачи старых проблем на следующий уровень управления и создает ряд трудностей в его реализации. Поэтому для решения этой сложной задачи необходим системный подход к управлению реализацией стратегических изменений:

**Ключевые слова:** перерабатывающая промышленность, стратегический маркетинг, логистика, эффективность.

**Mammad Hajiyov oglu URKAYEV, Associate Professor**

**Minura Haji gizi KARIMOVA, ph.d., head teacher**

**Elnur Aladdin HASANOV**
Azerbaijan University of Technology
E-mail: mina34mk@mail.ru

## APPLICATION OF STRATEGIC MARKETING IN MANUFACTURING INSTITUTIONS

**Summary**

The article proposes the implementation of a strategic change management system related to the transition of manufacturing enterprises to a new, high-quality management level. The totality of the management system for the implementation of strategic changes should include the principles of high economic and strategic efficiency. It should be noted that the process of preparation of Strategic Road Maps was carried out in accordance with the conditions of strategic management. Thus, "The main directions of the Strategic Roadmap for the national economy and the main sectors of the economy" approved by the presidential decree covers 3 periods. In this concept, the economic development strategy for 2016-2020, the strategic vision for the period up to 2025, and the priority directions for the next period are considered. The existing economic and management literature mainly takes the solution of strategic change management problems from a simplification point of view, that is, sequential stages and steps are required to overcome existing problems in enterprises. In our opinion, this approach to the management of the implementation of strategic changes is not always effective, because in this case the process of transferring old problems to the next level of management takes place and creates a number of difficulties in its implementation. Therefore, a systematic approach to managing the implementation of strategic changes is needed to solve this complex problem:

**Keywords**: processing industry, strategic marketing, logistics, efficiency.

**Sevda Adıgözəl qızı VƏLIYEVA**
Azərbaycan Memarlıq və İnşaat Universitetinin Dosenti, i.f.d.

# AQRAR SEKKTORUN MALİYYƏ DAYANIQLILIĞININ YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə kənd təsərrüfatı istehsalının spesifik xüsusiyyətləri, ilk növbədə, onun azgəlirli olması, risklərə səmərəli şəkildə reaksiya göstərə bilməməsi, sığorta imkanlarının zəif olması və digər amillər nəzərə alınmaqla, aqrar istehsalın maliyyələşdirilməsi, dövlət tərəfindən subsidiyaların verilməsi o cümlədən sığorta sisteminin etibarlı şəkildə qurulması, bütövlükdə maliyyə təminatının gücləndirilməsi vasitələri və yolları araşdırılır. Araşdırmaların nəticəsi olaraq, müasir şəraitdə aqrar sahədə qiymət, struktur və maliyyə deformasiyalarının aradan qaldırılması yolları və maliyyə dayanıqlığının gücləndirilməsi mexanizmləri göstərilir.

**Açar sözlər:** kənd təsərrüfatı, maliyyə dayanıqlılığı, maliyyə təminatı, istehsalının maliyyələşdirilməsi, sığorta qurumları, risklərin sığortalanması, maliyyə yardımları, maliyyə nəticələri, subsidiyalar, vergi siyasəti

**JEL: O13**

## Giriş

Dünyanın inkişaf etmiş müxtəlif ölkələrində çoxsaylı iqtisadi və maliyyə vasitələri hesabına kənd təsərrüfatı davamlı və sabit olaraq dəstəklənir. Bundan əlavə, resursların yenidən bölgüsü hesabına kənd təsərrüfatının dövlət tərəfindən dəstəklənməsi prosesi də reallaşdırılır. İqtisadiyyatın inhisarlaşmış sektorları kənd təsərrüfatına iqtisadi təzyiqlər həyata keçirirlər ki, bu da əmtəə istehsalçılarının iqtisadi müstəqilliyinin məhdudlaşmasına və onların gəlirlərinin azalmasına gətirib çıxarır. Kənd təsərrüfatı və ərzaq məhsullarının iri həcmdə idxalına dözümlülük nümayiş etdirməyən sahə, son nəticədə, maliyyə ekspansiyalarına yenilmək vəziyyətində qalır, ölkənin ərzaq təhlükəsizliyinə və bütövlükdə dövlətin ərzaq müstəqilliyinə təhdidlər doğurur.

İnkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, bazar iqtisadiyyatının dövlət tənzimlənməsi müxtəlif istiqamətlərdə məhz yerli ərzaq bazarında sabitliyin qorunub saxlanılmasına və inkişafına yönəldilməli, eyni zamanda kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan sahələrdə dağıdıcı təzahürlərin aradan qaldırılmasına istiqamətlənməlidir. Təbii ki, bütün bunlar kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin aktivləşdirilməsinə və kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasına da istiqamətlənir.

Müasir iqtisadi vəziyyətdə aqrar sektorda fəaliyyət göstərən kənd təsərrüfatı əmtəə istehsalçıları üzləşdikləri daxili problemləri özlərinin daxili imkanları çərçivəsində həll edə bilmirlər. Kənd təsərrüfatı məhsullarının istehsalı prosesi və eləcə də, istehsal nəticəsində əldə edilmiş məhsulların bazarını dövlətin müdaxiləsi olmadan, səmərəli şəkildə həyata keçirmək və cəmiyyətin xüsusilə aztəminatlı təbəqələrinin həmin bazara daxilolma imkanlarının əlyetərli şəkildə həyata keçirilməsi mümkün deyildir. Bu prosesin mürəkkəbliyini nəzərə alaraq, dövlətin bu prosesə aktiv müdaxilə etməsi vacib şərtlərdəndir.[2] Qloballaşma şəraitində milli resurslardan istifadə etməklə kənd təsərrüfatının iqtisadi gücünün artırılmasına istiqamətlənmiş tədbirlər həyata keçirilməlidir, bu da sahədə istehsal edilən məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi ilə müşayiət olunmalıdır.

Hazırkı şəraitdə müxtəlif obyektiv səbəblər üzündən, nəinki postsovet respublikalarında, eləcə də dünyanın əksər inkişaf etmiş ölkələrində kənd təsərrüfatı istehsalının maliyyələşdirilməsi prosesi fermer təsərrüfatlarının xüsusi vəsaitləri hesabına müvəffəqiyyətlə reallaşdırıla bilmir. Bu əslində, kənd təsərrüfatı istehsalının spesifik xüsusiyyətlərindən, davamlı olaraq dəyişən bazar konyunkturundan bilavasitə asılı olur. Kənd təsərrüfatı istehsalının spesifik xüsusiyyətləri, ilk növbədə, onun azgəlirli olması, risklərə səmərəli şəkildə reaksiya

göstərə bilməməsi, sığorta imkanlarının zəif olması, eləcə də iqlim dəyişikliklərinin əlverişli təsirə malik olması və digər amillər istehsalının maliyyələşdirilməsi prosesinin fermerlərin gücü hesabına həyata keçirilməsini məhdudlaşdırır.

Kənd təsərrüfatının risklərə çevik şəkildə uyğunlaşmaması və gəlirlərin səviyyəsinin sənaye sektoru ilə müqayisədə əhəmiyyətli dərəcədə az olması, bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin sənaye sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri ilə müqayisədə daha az mənfəət əldə etmələrinə gətirib çıxarır. Hətta iqlim dəyişikliklərinin təsirinin və risklərin təsirini belə nəzərə almasaq, kənd təsərrüfatında səmərəli şəkildə fəaliyyət göstərən fermer təsərrüfatı daxili imkanlar hesabına istehsalın modernləşdirilməsini həyata keçirmək iqtidarında olmur.[4] Kənd təsərrüfatı məhsullarının qiymətləri ilə istifadə edilən sənaye avadanlıqlarının qiymətləri arasında tərs mütənasiblik mövcuddur. Kənd təsərrüfatı əmtəə istehsalçıları istehsal etdikləri məhsulların dəyərini, hətta xərclər belə çıxılmadan bazarda reallaşdırılan sənaye məhsullarına sərf etsələr belə, onları əldə etmək imkanına malik deyillər.

Maddi-texniki resurslar bazarında istifadə edilən maşın və avadanlıqların qiymətləri kənd təsərrüfatında istehsal edilən məhsulların dəyəri ilə müqayisədə çox yüksəkdir. Belə bir şəraitdə kənd təsərrüfatında fəaliyyət göstərən təsərrüfat subyektləri daxili imkanlar hesabına istehsalı intensivləşdirmək və modernləşdirmək gücündə olmurlar və bu da son nəticədə, onların rəqabətədavamlı məhsul istehsal etmək imkanlarını məhdudlaşdırır. Aqrar sahənin inkişafında maliyyə-kredit münasibətlərinin təkmilləşdirilməsinə istiqamətlənmiş çağırışlar rəqabətədavamlı məhsul istehsalının həyata keçirilməsi zərurətindən doğur. Kənd təsərrüfatında istehsal edilən məhsulun dəyəri ilə resursların dəyəri arasındakı qiymət disparitetinin mövcud olması, son nəticədə, kənd təsərrüfatı əmtəə istehsalçılarının xüsusi dövriyyə vəsaitləri ilə təmin olunması imkanlarını məhdudlaşdırır və bu da, nəinki geniş təkrar istehsal prosesini, eləcə də, sadə istehsal prosesinin reallaşma imkanlarını heçə endirir.

Hal-hazırda kənd təsərrüfatı əmtəə istehsalçılarının zərər çəkdikləri amillərdən biri də, mövcud suvarılmayan torpaqlardan istifadə kifayət qədər səmərəsiz xarakter daşımasıdır. Bu isə məhsuldarlığın səviyyəsinin aşağı düşməsinə və həmin sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin daha aşağı həcmdə gəlir əldə etməsinə gətirib çıxarır.[3] Odur ki, kənd təsərrüfatında infrastruktur sisteminin yenidən qurulması, eləcə də torpaqların münbitləşməsinə və suvarmaya olan ehtiyacların ödənilməsinə istiqamətlənmiş tədbirlər reallaşdırılmalı, kənd təsərrüfatının meliorasiyası və suvarma sistemi yenidən qurulmalıdır.

Mövcud vəziyyətin mürəkkəb xarakter daşımasını şərtləndirən amillərdən biri də, kənd təsərrüfatında sığorta sisteminin etibarlı şəkildə qurulmaması ilə bağlıdır. Bu prosesin obyektiv cəhəti yenə də, kənd təsərrüfatında risklərin səviyyəsinin yüksək olması ilə bağlıdır. Kənd təsərrüfatında risklərin səviyyəsi sənaye və ticarət sektoru ilə və iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha yüksəkdir ki, bu da, sığorta qurumlarının bu sahəni sığortalaması ilə bağlı tədbirləri həyata keçirməyə maraqlı olmamalarına gətirib çıxarır. Odur ki, kommersiya əsasları ilə və rəqabət şəraitində bazar iqtisadiyyatının maliyyə infrastrukturunu təşkil edən sığorta qurumları əslində kənd təsərrüfatına o halda sığortalama üçün stimullu ola bilər ki, onların fəaliyyəti dövlət tərəfindən yenidən sığortalansın.

Kənd təsərrüfatında istər maliyyə təminatının yenidən qurulması, istərsə də kreditləşmə prosesinin mövcud reallıqlara uyğun şəkildə həyata keçirilməsi və ən başlıcası risklərin səmərəli şəkildə sığortalanması məqsədilə zəruri-normativ aktlar qəbul edilməli və onun icra mexanizmi təmin edilməlidir.

Hazırkı şəraitdə aqrar sahənin maliyyə dayanıqlığını və eləcə də bank fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün mövcud normativ-hüquqi baza yetərli deyildir. Bu isə onunla bağlıdır ki, ölkə tam mənası ilə bazar iqtisadiyyatına keçdiyindən, həmin sahə üçün azad rəqabət və kommersiya yönümlü sahələrin inkişafı daha məqsədəuyğun hesab edilir. Bundan əlavə, azad rəqabət şəraitində təsərrüfat subyektləri səmərəli şəkildə fəaliyyət göstərmək imkanlarına malikdirlər. Mövcud qanunlar tam mənası ilə bazar iqtisadiyyatının subyektlərinin fəaliyyətini stimullaşdırmır. Odur ki, kənd təsərrüfatının maraqlarını nəzərdə tutan hüquqi-normativ baza demək olar ki, xeyli çatışmazlıqlara malikdir. Kənd təsərrüfatında dayanıqlı inkişafı tənzimləyən mövcud qanunvericilik aktlarında isə

əslində prinsipial boşluqlar mövcuddur və təbii ki, həmin boşluqlar, son nəticədə, aqrar əmtəə istehsalçılarının maraqlarının çevik müdafiəsinə gətirib çıxarmır.[5] Bundan əlavə qanunvericilikdə nəzərdə tutulmuş hüquqlarının qorunması və eləcə də onların icra mexanizmi demək olar ki, tam işlənib hazırlanmamışdır. Bu isə qanunvericilikdə olan boşluqların sayının artmasına gətirib çıxarmaqla, kənd təsərrüfatı istehsalçılarının iqtisadi maraqlarının qorunmamasına səbəb olur.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında risklərin səmərəli sığortalanması istiqamətində zəruri tədbirlər həyata keçirilir və eləcə də, kommersiya bankları tərəfindən verilən kreditlərin faiz dərəcələrinin bu və ya digər hissəsi dövlət tərəfindən subsidiyalaşdırılır və bütün bunlar isə risklərin çevik şəkildə idarə edilməsinə gətirib çıxarmaqla, kənd təsərrüfatının kreditləşdirilməsinin kifayət qədər sadələşmiş prosedurlarla aparılmasına səbəb olur. Məhz belə bir şəraitdə, kənd təsərrüfatı əmtəə istehsalçıları dayanıqlı inkişafa uyğun fəaliyyət göstərməklə, daxili bazarı yerli məhsullarla nəinki təmin edir və eləcə də, xarici bazarlara rəqabətədavamlı məhsullar çıxarırlar və nəticədə, ixracın şaxələnməsinə, kənd təsərrüfatı məhsullarının ixracının həcminin artırılması hesabına, dövlət büdcəsinə vəsait daxil olmasına səbəb olurlar. [6]

Kənd təsərrüfatı əmtəə istehsalçılarına dövlət tərəfindən verilən dəstək, ərzaq bazarında idxal kanallarının xüsusi çəkisinin aşağı düşməsinə, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə və yerli istehsalçıların gəlirlərinin artırılmasına gətirib çıxara bilir. Bu problemin səmərəli şəkildə həlli, əslində, regionlarda sosial-iqtisadi inkişafın sürətləndirilməsinə və kənd əhalisinin yaşayış şəraitinin yaxşılaşdırılmasına gətirib çıxara bilər. Kənd təsərrüfatının maliyyə təminatının yaxşılaşdırılması, həm də qiymət, struktur və maliyyə deformasiyalarının aradan qaldırılmasına gətirib çıxarmaqla, bazarda qiymət tərəddüdlərinin qarşısının alınmasına istiqamətlənir.

Xərclərin kompensasiya edilməsi, mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatı əmtəə istehsalçılarının pul gəlirlərinin artırılmasına və həm də istehlakçıların bu prosesdən daha çox sosial səmərə əldə etmələrinə gətirib çıxarır. İstehlakçıların sosial səmərə əldə etməsi daha çox aztəminatlı əhali kateqoriyalarının ərzaq bazarından daha əlverişli şərtlərlə istifadə etmələrinə imkan yaradır. Beləliklə, xərclərin kompensasiya edilməsindən istehsalçıların əldə etdikləri gəlir qədər istehlakçılar da sosial səmərə əldə edir.

Məhsul istehsalına dotasiyaların verilməsi də kənd təsərrüfatına maliyyə yardımlarının göstərilməsinin mühüm şərtlərindən biri hesab edilir. Məhsul istehsalına dotasiyaların verilməsi ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində prioritet sahələrdən məhsul istehsalının genişləndirilməsinə, ərzaq bazarının bu və ya digər daha çox perspektivli, ehtiyac duyulan məhsullar üzrə doldurulmasına etibarlı şərait formalaşdırır.

Kənd təsərrüfatında “Kooperasiya haqqında” Qanunun qəbul edilməsi və kooperasiyaya daxil olan əmtəə istehsalçılarının iqtisadi cəhətdən stimullaşdırılması hesabına iri əmtəəlik təsərrüfatların yaradılması bu sahədə müqayisəli üstünlüklərin reallaşdırılmasında da mühüm şərtlərdən biridir. Kənd təsərrüfatında kooperasiya münasibətlərinin qurulması, iri əmtəəlik təsərrüfatların formalaşdırılması ilə bağlı maliyyə yardımları göstərilir və bu maliyyə yardımları iri təsərrüfatların üstünlüklərindən yararlanmağa gətirib çıxarır. İri təsərrüfatlar xırda təsərrüfatlar ilə müqayisədə daha çox səmərə verir. Bu, kənd təsərrüfatında həm maddi-texniki resurslardan səmərəli istifadə etməyə, eyni zamanda, aqrotexniki tədbirlərin optimal zaman kəsiyində yerinə yetirilməsinə və ən başlıcası, növbəli əkin sistemindən istifadə etməyə səbəb ola bilir ki, məhz həmin təsərrüfatlarda, istehsalın intensivləşdirilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi daha tez və yüksək iqtisadi nəticələr verə bilir.

Müasir dünya təcrübəsində kənd təsərrüfatı məhsullarının topdansatış infrastrukturunda birjalar mühüm yer tuturlar. Birja kənd təsərrüfatı məhsullarının alqı-satqısının müasir tələblərə uyğun şəkildə təşkil edilməsində mühüm vasitə kimi çıxış edir. Birja institutunun fəaliyyəti ticarətin şəffaflığının təmin edilməsi, mnəhsulların real bazar qiymətlərinin formalaşdırılması, vasitəçilərin sayının minimuma endirilməsi, möhtəkirlik amillərinə yol verilməməyi hesabına qiymətlərin endirilməsi, əmtəə bazarlarının konyukturasının təhlili, informasiya təminatının

yaxşılaşdırılması baxımından, xüsusi əhəmiyyət kəsb edir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında aqrar sektorda birja bazar infrastrukturunun elementi kimi hələ formalaşmamışdır. Bazar iqtisadiyyatına keçid dövrünün əvvəllərində bu məsələ ilə bağlı müzakirələr aparılmasına və kənd təsərrüfatının islahatı və inkişaf etdirilməsi üzrə dövlət tərəfindən qəbul edilən bir sıra strateji sənədlərdə öz əksini tapmasına baxmayaraq, reallıqda həmin dövrdə bu sahədə bir irəliləyiş olmamışdır. Bununla yanaşı, kənd təsərrüfatı məhsullarının birja ticarətinin tətbiqinin məqsədəuyğunluğu fikri öz aktuallığını itirməmişdir. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda əmtəə birjalarının fəaliyyətinin səmərəliliyinin artırılmasının, birja fəaliyyətinin genişləndirilməsinin dəstəklənməsi nəzərdə tutulmuşdur.[2]

Hazırda aqrar sahənin ən ciddi problemlərindən biri də, qiymət məsələsidir. Məlum olduğu kimi, bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar respublikada qiymətlər sərbəstləşdirilmişdir. Indi ölkədə əsasən azad bazar və müqavilə qiymətləri fəaliyyət göstərir. Bu qiymətlər, bazarda tələblə təklifin və rəqabət mexanizminin təsiri altında formalaşır.

Araşdırmalar göstərir ki, aqrar bazarın maliyyə baxımından geniş imkanlara malik olması onun subyektlərinin istehsalat təsərrüfat fəaliyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Aqrar bazar strukturunda kənd təsərrüfatı müəssisələri nəzərəçarpacaq xüsusi çəkiyə malikdir. Məhz bu baxımdan da, kənd təsərrüfatı istehsalının maliyyə nəticələrinin gəlirlə yekunlaşması aqrar bazarda daxili maliyyə resurslarının genişlənməsində aparıcı rol oynayır.

Qeyd etmək lazımdır ki, aqrar bazar seqmentlərində maliyyə-büdcə münasibətlərinin səmərəli formalaşması kənd təsərrüfatı məhsullarının iqtisadi səmərəliliyinin yekun göstəricisindən, başqa sözlə, kənd təsərrüfatı məhsulları satışının rentabellik səviyyəsindən birbaşa asılıdır. Aqrar bazar seqmentlərində məhsul satışının zərərlə yekunlaşması bu qurumun səmərəli fəaliyyət göstərmək imknalarını məhdudlaşdırır.

Araşdırmalar göstərir ki, hal-hazıradək milli iqtisadiyyatda, o cümlədən aqrar sektorda qiymətlərin subsidiya vasitəsi ilə tənzimlənməsi nəzərdə tutulmayıb. Belə ki, yüksək kondisiyalı toxum istehsal etmək üçün dövlət toxumçuluq müəssisələrinə subsidiya verə bilər. Halbu ki, inkişaf etmiş xarici ölkələrdə fermerlərin xərclərində dövlət subsidiyasının xüsusi çəkisi 50-70% təşkil edir. Yaxşı olardı ki, respublikamızda da ən zəruri ərzaq və xammal məhsullarının istehsalına çəkilən xərclərin 20-30 faizi “Neft fondu”nda yığılan vəsait hesabına ödənilsin. Bu tədbir kənd təsərrüfatı məhsullarının qiymətlərinin səviyyəsinin stabilləşməsinə və istehsalçıların gəlirlərinin artmasına zəmin yaradar.

Avropa Birliyi ölkələrində son illər fermerlərin xərclərində dövlət subsidiyasının xüsusi çəkisi 49%, Finlandiyada 71%, Norveçdə 77%, Isveçdə 59% və Yaponiyada 66% təşkil edir. Bir hektar torpaq sahəsi hesabı ilə kənd təsərrüfatının inkişafına ABŞ-da 69, Kanadada 83, Avropa Birliyi ölkələrində 943 və Isveçdə 4214 ABŞ dolları dövlət subsidiyası verilmişdir.[7] Yaponiya və Cənubi Koreya hökümətləri kənd təsərrüfatının inkişafına ayrılan subsidiyanı heç vaxt azaltmamış və ləğv etməmişdir.

Beynəlxalq ekspertlərin qiymətləndirmələrinə görə, hər il ABŞ-da istehsal olunmuş kənd təsərrüfatı məhsullarının dəyərinin 20%-i, Kanadada 25%-i, Isveçrədə 50%-i, Finlandiyada 65%-i, Norveçdə 75 %-i və Yaponiyada 80 %-i həcmində kənd təsərrüfatının inkişafına subsidiya verilir.[6]

ABŞ-da orta hesabla hər il 55 mlrd. dollar büdcədən kənd təsərrüfatının subsidiyalaşdırılmasına vəsait xərclənmişdir. Bu məbləğ ABŞ-n bütün federal büdcə xərclərinin 4,5%-ı və ölkənin kənd təsərrüfatı məhsullarının dəyərinin 27 %-nə bərabərdir. ABŞ-da əkin yerinin hər bir hektarı hesabı ilə kənd təsərrüfatının inkişafına hər il 410 dollar dövlət subsidiyası verilir.

Aqrar sahədə maliyyə dayanıqlığının formalaşdırılması üçün aşağıdakı mənbə və elementlərə xüsusi diqqət yetirilməsi vacibdir:

- kənd təsərrüfatında istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi və təsərrüfat-maliyyə fəaliyyətinin rentabelli başa çatdırılması, kənd təsərrüfatında əldə edilən ümumi gəlirin və mənfəətin həcminin artırılması;
- aqrar sahəyə büdcə subsidiyalarının həcminin artırılması və kompensasiyaların verilməsi;

Bu mənbə, kənd təsərrüfatında zərərlə işləyən təsərrüfat subyektlərinə kompensasiya edilməsini və onların maliyyə müflisləşməsinin qarşısının alınmasında əhəmiyyətli rol oynayır və inkişaf etmiş ölkələrin təcrübəsində bir qayda olaraq, ir miqyaslı maliyyə proqramları və investisiya proqramları şəklində həyata keçirilir. Bu tip investisiya proqramları ilk növbədə, kənd təsərrüfatında prioritet sahələrin inkişafına, o cümlədən torpaqların meliorasiyasının və irriqasiyasının həyata keçirilməsinə, şoranlaşmanın qarşısının alınmasına, kənd təsərrüfatı əmtəə istehsalçılarının elit toxum sortları və məhsuldar heyvan cinsləri ilə təmin olunmasını nəzərdə tutur.

- kənd təsərrüfatına xarici investisiyaların cəlb edilməsi;

Kənd təsərrüfatı əmtəə istehsalçılarının kapital resurslarına olan ehtiyaclarının ödnəliməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” sərəncamına müvafiq olaraqtaxıl istehsalçılarına hər hektar əkilən torpaq sahəsinə görə 80 manat məbləğində subsidiya ödənilməsi təmin edilmişdir.[1] Bu proses 2007-ci ildən hal-hazıradək davam etdirilməkdədir. Ümumilikdə götürdükdə, dövlət tərəfindən həyata keçirilən zəruri tədbirlər və proqramlar, son nəticədə, kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə təsərrüfat fəaliyyətinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayır. Eyni zamanda, son illər kənd təsərrüfatına ayrılan vəsaitlərin səviyyəsinin artması, bütövlükdə, milli iqtisadiyyata yatırılan investisiyaların strukturunda aqrar sahənin xüsusi çəkisinin nisbətən yüksəlməsinə gətirib çıxarmışdır. Belə ki, 2000-2010-cu illərdə kənd təsərrüfatının məcmu investisiyaların strukturunda xüsusi çəkisi 1% hədlərində dəyişirdisə, hal-hazırda bu göstərici 3%-ə qədər yüksəlmişdir.[2] Lakin nəzərə almaq lazımdır ki, bu da sahədə uğurlu geniş təkrar istehsal prosesinin reallaşdırılması üçün kifayət deyidir.

Təcrübə göstərir ki, kənd təsərrüfatında iqtisadi artımın təmin edilməsi üçün əlverişli şərait yaradılmasına istiqamətlənmiş stabilləşdirmə və inkişaf proqramlarının məqsədli maliyyələşmə proqramlarının həyata keçirilməsi bütövlükdə sahənin bazar konyukturundan asılılığının aradan qaldırılmasına əlverişli şərait yaradır. Bu proses postsovet respublikalarında və Şərqi Avropa ölkələrində də uğurla həyata keçirilir. Belə ki, 2000-ci ildən etibarən Rusiya Federasiyasında federal büdcədən və digər mənbələrdən ayrılan vəsaitlərə əsaslanan müxtəlif regional proqramlar işlənib hazırlanır ki, bu proqramlar da son nəticədə ölkənin aqrar ərzaq bazarlarının tənzimlənməsində əhəmiyyətli rol oynayır.[6] Kənd təsərrüfatı əmtəə istehsalçılarına ödənilən kompensasiyaların, eləcə də buğda və çəltik səpininə görə ödənilən subsidiyaların həcminin artması taxıl əkini altında olan sahələrin və taxıl istehsalının əhəmiyyəli dərəcədə artırılmasına imkan vermişdir.

Dövlət kənd təsərrüfatı məhsulları istehsalçılarını yardımlar, subsidiyalar kimi birbaşa vasitələrdən əlavə, dolayı təsirlər vasitəsi ilə də stimullaşdırır ki, belə təsirlərə, ilk növbədə, vergi güzəştləri aid edilir. 2001-ci il 27 noyabrda qəbul olunmuş “Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştləri verilməsi haqqında” Qanunun qüvvədə olma müddəti 2008-ci il 25 noyabr tarixli qanunla 01 yanvar 2014-cü ilə qədər, 2013-cü il 22 noyabr tarixli qanunla isə daha 5 il müddətinə uzadılmışdır. Bu qanunlara əsasən kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan fiziki şəxslər əlavə dəyər vergisi və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisi, hüquqi şəxslər isə bunlardan əlavə, hüquqi şəxslərdən mənfəət vergisi və sadələşdirilmiş sistem üzrə vergi ödəməkdən azad olunurlar.

Aqrar-sənaye kompleksinin iqtisadi səmərəliliyinə təsir göstərən digər vergilər - əlavə dəyər vergisi (ƏDV) və mənfəətdən vergidir. Emal zavodlarının fəaliyyəti üçün məhdudlaşdırıcı amilə çevrilmiş ƏDV və mənfəətdən vergi yükü azaldılmalıdır. İlkin emal sənayesində satışın həcmi hazırda ən aşağı səviyyədə olduğundan və zavodların əksəriyyəti tam gücü ilə işləmədiyindən, bu sahədən dövlət büdcəsinə real vəsait cəlb etmək qeyri-mümkündür. Digər tərəfdən, müəssisələr müəyyən miqdarda satış həyata keçirdikdə də əməliyyatları bank sistemindən kənarda, yəni nəğd yolla aparmağı və vergidən yayınmağı üstün tuturlar.

İlkin emal sənayesinə münasibətdə vergi siyasətinin əsas məqsədi nə yolla olursa-olsun büdcəyə vəsait cəlb etmək deyil, satış dövriyyəsinin və real mənfəətin artırılmasına nail ol-

maqdan ibarətdir. Başqa sözlə, dövlət emal sənayesinə nəzərən, gəlirlərin bölgüsü funksiyasından daha çox, resursların sahələrarası paylanması və stimullaşdırma funksiyasını yerinə yetirməlidir. Dünya təcrübəsindən məlum olduğu kimi, bu məqsədlə reqressiv vergilərin tətbiqi ən səmərəli üsuldur. ƏDV və aksizlər proporsional vergilərdir, yəni vergi tutma obyektinin həcmindən asılı olmayaraq, vergi dərəcəsi sabit qalır. Reqressiv vergilərin tətbiqində isə vergitutma obyektinin həcmi artdıqca, vergi dərəcəsi azalır. Bu halda, daha az vergi ödəmək imkanı istehsalçını satış dövriyyəsini və mənfəətin mütləq kəmiyyətini artırmağa stimullaşdırır. Bunu nəzərə alaraq, üzüm emalı və şərabçılıq sənayesi müəssisələrində reqressiv dərəcələrlə hesablanan ƏDV və mənfəətdən verginin tətbiqi təklif olunur.

Aksiz ödənişləri sahəsində ayrı-ayrı məhsullar üzrə bazar strukturu ilkin və təkrar emal sahəlri arasında itisadi münasibətlər nəzərə alınmaqla, çevik vergi siyasəti yürüdülməlidir. Başqa sözlə, vergi yükü daha rentabelli məhsulların və sahələrarası münəsibətlərdə öz şərtlərini diktə etmək imkanına malik olan müəssisələrin üzərinə yönəldilməlidir. Burada isə başlıca məqsəd - ilkin emal müəssisələrinin mənafelərinin qorunması olmalıdır.

İqtisadiyyatın strateji əhəmiyyətli sahəsi kimi kənd təsərrüfatının inkişaf proqramlarına müvafiq olaraq həyata keçirilən tədbirlər bir qayda olaraq dövlət büdcəsindən maliyyələşdirilir. Ümumiyyətlə, dövlət büdcəsindən ödənilən yardımlar əsasən yanacaq-enerji daşıyıcılarının qiymətlərinin artımının kompensasiya edilməsinə və eləcə də mineral gübrələrin güzəştli qiymətlərlə əldə edilməsinə əlverişli şərait yaratmışdır. Bununla belə, kənd təsərrüfatında geniş təkrar istehsal prosesinin uğurla həyata keçirilməsi, bütövlükdə sahənin dinamik inkişafının təmin edilməsinə yönəldilmiş tədbirlərin icrası maliyyə təminatında problemlərin aradan qaldırılmasını tələb edir. Bu xüsusilə mövsümi situasiyalarda kənd təsərrüfatı məhsullarının yığımında itkilərin yaranmasına, eləcə də aqrotexniki tədbirlərin optimal zaman kəsiyində yerinə yetirilməməsi səbəbindən ,məhsuldarlığın azalmasına və digər problemlərin yaranmasına səbəb olur. Məhz bu qəbildən olan destruktiv tendensiyalar, kənd təsərrüfatında ekstensiv faktorların təsir gücünün yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərir.[4] Ümumiyyətlə, kənd təsərrüfatının inkişaf etdirilməsi onların maliyyə resurslarına çıxış imkanlarının artırılmasını tələb edir..

**Nəticə**

Kənd təsərrüfatı istehsalının spesifik xüsusiyyətləri, ilk növbədə, onun azgəlirli olması, risklərə səmərəli şəkildə reaksiya göstərə bilməməsi, sığorta imkanlarının zəif olması, eləcə də iqlim dəyişikliklərinin əlverişli təsirə malik olması və digər amillər istehsalının maliyyələşdirilməsi prosesinin fermerlərin gücü hesabına həyata keçirilməsini məhdudlaşdırır.

Kənd təsərrüfatında risklərin səviyyəsi sənaye və ticarət sektoru ilə və iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha yüksəkdir ki, bu da, sığorta qurumlarının bu sahəni sığortalaması ilə bağlı tədbirləri həyata keçirməyə maraqlı olmamalarına gətirib çıxarır. Kənd təsərrüfatı əmtəə istehsalçılarına dövlət tərəfindən verilən dəstək, ərzaq bazarında idxal kanallarının xüsusi çəkisinin aşağı düşməsinə, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə və yerli istehsalçıların gəlirlərinin artırılmasına gətirib çıxara bilir. Kənd təsərrüfatının maliyyə təminatının yaxşılaşdırılması, həm də qiymət, struktur və maliyyə deformasiyalarının aradan qaldırılmasına gətirib çıxarmaqla, bazarda qiymət tərəddüdlərinin qarşısının alınmasına istiqamətlənir.

Məhsul istehsalına dotasiyaların verilməsi ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində prioritet sahələrdən məhsul istehsalının genişləndirilməsinə, ərzaq bazarının bu və ya digər daha çox perspektivli, ehtiyac duyulan məhsullar üzrə doldurulmasına etibarlı şərait formalaşdırır. Aqrar bazar strukturunda kənd təsərrüfatı müəssisələri nəzərəçarpacaq xüsusi çəkiyə malikdir. Məhz bu baxımdan da, kənd təsərrüfatı istehsalının maliyyə nəticələrinin gəlirlə yekunlaşması aqrar bazarda daxili maliyyə resurslarının genişlənməsində aparıcı rol oynayır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. “Kənd təsərrfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 23.01.2007.

2. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”təsdiq

edilməsi haqqında https://e-qanun.az/framework/15320

3. Alıyev İ.H., Məmmədova Ş.Ə. Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri. Bakı, Elm, 2007, 227s.

4. Sadiqov M.M. Maliyyə potensialı: formalaşma və aqrar sahənin prioritetliyi. Bakı, Aqrar Universiteti, 2009, 294 səh.

5. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004, s.53

6. Talıbova R.H. Kənd təsərrüfatında maliyyə münasibətlərinin təkmilləşdirilməsi istiqamətləri "Müstəqil Azərbaycan Respublikası üçüncü minilliyin birinci yüzilliyində" mövzusunda elmi – praktiki konfransın tezisləri (26 may 2001 – ci il) Bakı 2001

7. Финансовое обслуживание аграрного сектора в Нидерландах. - Экономика сельского хозяйства России, 1995, № 1. с. 31-32.

8. Шайкин В.В., Ахметов Р.Г. Развитие сельской местности. Теория и практика. Москва, 2001. Ingilis dilində, s.93.

**Севда Адыгозал гызы ВАЛИЕВА, д.ф.э, доцент**

## НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ ФИНАНСОВОЙ УСТОЙЧИВОСТИ АГРАРНОГО СЕКТОРА

**Резюме**

В статье исследуются средства и пути укрепления общей финансовой обеспеченности аграрного сектора, с учетом специфических особенностей сельскохозяйственного производства, в первую очередь, его низкой рентабельности, неспособности эффективно реагировать на риски, слабых страховых возможностей и других факторов, финансирования сельскохозяйственного производства, предоставления государством субсидий, включая создание надежной страховой системы. Как результат исследования показаны пути устранения ценовых, структурных и финансовых деформаций в агропромышленном комплексе в современных условиях и механизмы укрепления финансовой устойчивости сельскохозяйственного производства.

**Ключевые слова**: сельское хозяйство, финансовая устойчивость, финансовое обеспечение, финансирование производства, страховые организации, страхование рисков, финансовая помощь, финансовые результаты, субсидии, налоговая политика.

**Sevda Adiqozal VALİEVA**
Doctor of Philosophy, Associate Professor

## Directions for increasing the financial stability of the agricultural sector

**Summary**

The article explores the means and ways to strengthen the overall financial security of the agricultural sector, taking into account the specific features of agricultural production, primarily its low profitability, inability to effectively respond to risks, weak insurance opportunities and other factors, financing agricultural production, providing state subsidies, including creation of a reliable insurance system. As a result of the study, ways to eliminate price, structural and financial deformations in the agro-industrial complex in modern conditions and mechanisms for strengthening the financial sustainability of agricultural production are shown.

**Key words:** agriculture, financial stability, financial security, production financing, insurance organizations, risk insurance, financial assistance, financial results, subsidies, tax policy.

**Ceyhun Amin oğlu VƏLİYEV, i.f.d.**
**Elşad Elşən oğlu ƏMİROV**
Bakı Mühəndislik Universitetinin magistrantı
E-mail: eemirov@std.beu.edu.az

# AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ İSTEHSALINDA REGİONLARIN ROLU

**Xülasə**

Davamlı inkişaf prinsiplərinin konsepsiyası və həyata keçirilməsi ilə əlaqədar olaraq milli iqtisadiyyatın inkişafı çərçivəsində aqrar sektorun mövqeyi və rolu ilə bağlı köklü dəyişikliklər baş verir. Kənd təsərrüfatına regionların tərkib hissəsi kimi baxış əsas prinsiplərin qəbulu ilə bağlı özünü təsdiq etməyə başlayır. Regionları xarakterizə edən göstəricilərin müəyyən edilməsi və buna əsasən müəyyən edilən problemlərin aradan qaldırılması, onların əsasında ayrı-ayrı regionların rifahını müəyyən etmək mümkün olur**.** Son illərin statistik məlumatları əsasında regionda əkin sahələri, ümumi yığım və bitkilərin məhsuldarlığı qeyd edilmiş, müqayisəli təhlil metodundan istifadə olunmuşdur.

**Açar sözlər:** aqrar sektor, kənd təsərrüfatı, struktur siyasəti, regionlar, statistik təhlili.

**JEL: O12**

**Giriş**

İqtisadiyyatın əsas sahələrindən sayılan kənd təsərrüfatı Azərbaycanın sosial-iqtisadi inkişafına təkan verə biləcək ən əhəmiyyətli sahələrdən biridir. Mövcud on bir iqlim qurşağından doqquzuna sahib olan Azərbaycan həm iqlim şəraiti, həm də torpaqlarının münbitliyi baxımından kənd təsərrüfatı üçün əlverişli ölkə hesab olunur. Azərbaycanın geniş torpaq sahələri və müxtəlif iqlimə sahib olan regionları müxtəlif çeşidli və keyfiyyətli məhsul istehsalı üçün geniş imkanlar yaradır [1, s.15].

Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi hər zaman olduğu kimi bu gün də aqrar sahənin qarşısında duran mühüm məsələlərdən biridir. Əhalinin lazımi səviyyədə ərzaq məhsulları ilə təmin olunması aqrar sahənin yüksək inkişaf səviyyəsindən, bu sahədəki idarəçiliyin düzgün təşkilindən asılıdır. Özündə bir çox strateji məqamları birləşdirən aqrar sahədə sosial-iqtisadi cəhətdən idarəetmənin səmərəli təşkil olunması mühüm əhəmiyyət kəsb edən məsələdir [2, s.3]. Kənd təsərrüfatı dünya iqtisadiyyatının bir qolu kimi insan həyatında mühüm rol oynayır. Onun əsas məqsədi əhalinin ərzaq məhsullarına, sənayenin isə xammala olan tələbatını ödəməkdir.

**Təhlil**

Son illər ölkəmizdə taxıl istehsalı sürətlə inkişaf edir. Hər il müxtəlif regionlarda ümumi taxıl məhsuldarlığında artım var. Azərbaycanın buğda tələbatı təxminən **3,1 milyon tondur. Ölkəmizdə istehsal olunan buğdanın illik həcmi təxminən 1,9 milyon ton, idxal isə 1,3 milyon tona yaxındır [3].**

Azərbaycanın ərzaq **buğdası ilə özünü təminetmə səviyyəsi orta hesabla 59.5% təşkil edir, başqa sözlə, tələbatın təxminən 40-45 faizi idxal hesabına ödənir.** Azərbaycanın buğda idxal etdiyi əsas ölkələr isə Rusiya, Qazaxıstan və Ukraynadır [3].

Bununla belə, ölkəmizin bütün ərazi və rayonlarında şəkər çuğundurunun istehsalı ötən ilə nəzərən azalmaqdadır. Artıq dördüncü ildir ki, regionlarda dənli bitkilərin istehsalında artım müşahidə olunur [3].

Kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlıqda mal-qaranın baş sayı və heyvandarlıq məhsullarının istehsalı dinamik olaraq artmışdır. Son illərdə sürünün cins tərkibinin yaxşılaşdırılması yönündə görülmüş müəyyən işlər mal-qaranın baş sayının və heyvandarlıq məhsullarının artmasına öz müsbət təsirini göstərmişdir. 2018-ci ildə ölkə üzrə 2673.9 min baş iri buynuzlu mal-qara, o cümlədən 1285.8 min baş inək və camış, 8454.3 min baş qoyun və keçi mövcud olmuşdur. 2017-ci illə müqayisədə iribuynuzlu mal-qaranın sayı 25,5 min baş (0.5%), o cümlədən, inək və ca-

mışların sayı 13.2 min baş (2.5 %), qoyun və keçilərin sayı isə 160.5 min baş (1.9 %) artmışdır. 2000-2017-ci ildə ölkədə əsas heyvandarlıq məhsullarının istehsalını cədvəldə görə bilərik.

**Cədvəl 1.**

**Kənd təsərrüfatı istehsalı və məhsuldarlığı**

| | 2017 | 2018 | 2019 | 2020 | 221 |
|---|---|---|---|---|---|
| **Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi, ha** | | | | | |
| Dənlilər və dənli paxlalı bitkilər | 36211 | 36858 | 37765 | 38071 | 35553 |
| o cümlədən payızlıq və yazlıq buğda | 24836 | 27325 | 28459 | 28778 | 26314 |
| Pambıq | 2050 | 2100 | 800 | 670 | 500 |
| Şəkər çuğunduru | 469 | 431 | 554 | 260 | 290 |
| Dən üçün günəbaxan | 32 | 39 | 20 | 22 | 23 |
| Kartof | 145 | 150 | 151 | 152 | 153 |
| Tərəvəz | 384 | 441 | 453 | 460 | 465 |
| Bostan bitkiləri | 257 | 260 | 265 | 270 | 271 |
| Bağlar və giləmeyvəlilər | 565 | 594 | 679 | 681 | 687 |
| Üzüm bağları | 140 | 140 | 161 | 161 | 161 |
| **Kənd təsərrüfatı bitkilərinin istehsalı, ton** | | | | | |
| Dənlilər və dənli paxlalı bitkilər | 103794 | 109494 | 118088 | 122013 | 119379 |
| o cümlədən payızlıq və yazlıq buğda | 73053 | 82938 | 90251 | 92379 | 90303 |
| Şəkər çuğunduru | 19153 | 14809 | 17134 | 12664 | 8834 |
| Dən üçün günəbaxan | 83 | 101 | 52 | 58 | 61 |
| Kartof | 1769 | 1833 | 1872 | 1900 | 1912 |
| Tərəvəz | 4025 | 3998 | 4011 | 4148 | 4269 |
| Bostan məhsulları | 2827 | 2985 | 3169 | 3235 | 3305 |
| Meyvə və giləmeyvəlilər | 1195 | 1329 | 1421 | 1483 | 1539 |
| Üzüm | 1552 | 916 | 960 | 985 | 1070 |
| **Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı, sentner/ha** | | | | | |
| Taxıl | 28,7 | 29,7 | 31,2 | 32,0 | 33,6 |
| o cümlədən buğda | 29,4 | 30,4 | 31,7 | 32,1 | 34,3 |
| Şəkər çuğunduru | 429 | 371 | 339 | 531 | 343 |
| Dən üçün günəbaxan | 25,9 | 26,0 | 26,0 | 26,5 | 26,5 |
| Kartof | 122 | 123 | 124 | 125 | 125 |
| Tərəvəz | 97 | 86 | 88 | 87 | 90 |
| Bostan məhsulları | 110 | 115 | 120 | 120 | 122 |
| Meyvə | 43,1 | 40,1 | 45,1 | 47,1 | 37,0 |
| Üzüm | 129,2 | 76,2 | 68,8 | 68,5 | 72,0 |
| **Heyvanların, quşların və arı ailələrinin sayı:** | | | | | |
| İribuynuzlu mal-qaranın sayı, baş | 35305 | 36418 | 36956 | 37096 | 38356 |
| İnək və camışların sayı, baş | 16028 | 16030 | 16120 | 16228 | 16227 |
| Qoyun və keçilər, baş | 137334 | 138545 | 138912 | 139576 | 145772 |
| Quşlar, baş | 398000 | 375863 | 385613 | 390459 | 399954 |
| Arı ailələri, vahid | 1172 | 2059 | 2074 | 2382 | 2490 |
| **Heyvandarlıq məhsullarının istehsalı:** | | | | | |
| Ət (kəsilmiş çəkidə), ton | 1525 | 1557 | 1615 | 1616 | 1621 |
| Süd, ton | 24560 | 27916 | 28135 | 28293 | 28599 |
| Yumurta, min ədəd | 6825 | 14560 | 15155 | 15175 | 16185 |
| Yun (fiziki çəkidə), ton | 195 | 251 | 250 | 255 | 285 |

Mənbə: Azərbaycan Respublikası Statistika Komitəsi

2021-ci ilin yanvar-iyun aylarında Naxçıvanda 64259 hektar sahədə əkinçilik aparılmışdır. Bu da kənd təsərrüfatına yararlı torpaqların 38%-ni təşkil edir. 33466 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 32567 hektarı payızlıq, 899 hektarı isə yazlıq taxıldır. Taxıl zəmilərinin 21378 hektarında buğda, 12088 hektarında isə arpa əkilmişdir. 2020-ci illə müqayisədə taxıl əkini sahəsi 745 hektar artmışdır. (Naxçıvan M/R, Dövlət Statistika komitəsi, 2022) Bu aylar ərzində qarğıdalı əkin sahəsi 1348 hektar, kartof əkini sahələri isə 3481 hektar olmuşdur. 2020-ci illə müqayisədə kartof əkinləri 11 hektar artmışdır. 2021-ci ildə Naxçıvanda tütünçülüyün inkişafı üçün əhəmiyyətli addımlar atılmışdır [3].

Kəngərli və Culfa rayonlarının iqlim şəraiti burada tütünün inkişafı üçün əlverişlidir. Ümumilikdə 74 hektar sahədə tütün əkilmişdir. Otlaqlar heyvandarlığın inkişafı üçün əhəmiyyətli amildir. Yay mövsümündə yay otlaqları, qış mövsümündə isə qış otlaqları kimi istifadə edilir. Yay otlaqları, əsasən dağlıq ərazilərdə, qış otlaqları isə düzənlik ərazilərdə yerləşir. Regionda istifadə edilən otlaqların sahəsi 107 min 768 hektardır. Bu da kənd təsərrüfatına yararlı torpaqların 66%-i deməkdir. Maldarlıq sahəsində də əhəmiyyətli irəliləyişlər baş vermişdir. 2021-ci ilin ilk 6 ayında maldarlıq sahəsində qaramalın sayı 130970 baş olmuşdur ki, bu da 2020-ci ilin göstəricilərinə görə 1,6% artmışdır. 2021-ci ilin iyulunda qoyun və keçilərin sayı 832114 baş olmuşdur. Bu da 2020-ci ilin tarixinə aid olan statistik göstəricilərlə müqayisədə 1,9% artmışdır. 2021-ci ilin ilk 6 ayı 13978 ton ət istehsal olunmuşdur ki, bu da 2020-ci ilin ilk 6 ayı ilə müqayisədə 6,9% çoxdur. Buna müvafiq olaraq 2021-ci ilin 1-ci rübündə 51907 ton süd istehsal olunmuşdur ki, bu da 2021-ci illə müqayisədə 1,5% çoxdur [3].

Bölgələrin iqtisadi-sosial aspektlərdən və ümumi şərtlər nöqteyi-nəzərindən səciyyələndirilməsinə xidmət edən göstəricilərin seçilməsi üçün verilən cədvəl regionların səviyyəsinin qiymətləndirilməsi, habelə onların mümkün inkişaf potensialının araşdırılması üçün statik göstəricilərdir [6].

Kənd təsərrüfatının regionlar üzrə təhlili göstərir ki, bitkiçilik sahəsinə nisbətən son dövrlərdə heyvandarlıq sahəsində artım daha sürətlə gedir. Bunun səbəbləri sırasında Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə heyvandarlıq sahəsinə daha çox güzəştli kreditlərin verilməsini və "Aqrolizinq ASC"-nin xətti ilə heyvanların lizinqə verilməsinin genişləndirilməsini göstərmək olar [5].

**Cədvəl 2**

**Kənd təsərrüfatı məhsulları istehsalının əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə, fiziki həcm indeksi**

| | 2020 | | | 2021 | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | Bitkiçilik | Heyvan darlıq | Cəmi | Bitkiçilik | Heyvandarlıq |
| Azərbaycan Respublikası | 102,0 | 100,8 | 103,1 | 103,4 | 104,0 | 102,8 |
| Bakı şəhəri | 102,1 | 97,4 | 111,7 | 112,2 | 129,5 | 72,4 |
| Naxçıvan Muxtar Respublikası | 104,6 | 105,9 | 102,1 | 105,3 | 106,3 | 103,5 |
| Naxçıvan şəhəri | 104,1 | 105,5 | 101,8 | 103,1 | 104,0 | 101,6 |
| Babək rayonu | 104,9 | 106,1 | 101,9 | 106,9 | 105,8 | 109,6 |
| Culfa rayonu | 103,2 | 104,1 | 101,8 | 104,7 | 106,6 | 101,2 |
| Kəngərli rayonu | 104,6 | 106,2 | 101,9 | 104,7 | 106,6 | 101,2 |
| Ordubad rayonu | 105,2 | 107,6 | 102,3 | 103,5 | 104,5 | 102,2 |
| Sədərək rayonu | 104,5 | 105,2 | 101,4 | 104,3 | 105,0 | 101,5 |
| Şahbuz rayonu | 104.3 | 106,4 | 101,9 | 104,2 | 104.9 | 103,3 |
| Şərur rayonu | 104,9 | 106,1 | 102,6 | 106,0 | 107,7 | 102,7 |
| Abşeron-Xızı iqtisadi rayonu | 118,5 | 133,5 | 113,4 | 89,8 | 100,3 | 86,9 |
| Sumqayıt şəhəri | 265,5 | 120,8 | 315,1 | 91,7 | 105,5 | 91,3 |
| Abşeron rayonu | 119,1 | 137,6 | 103,3 | 107,1 | 100,6 | 115,6 |
| Xızı rayonu | 109,7 | 85,7 | 111,1 | 65,1 | 92,1 | 63,9 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 95,5 | 87,1 | 103,6 | 107,9 | 113,7 | 103,4 |
| Ağsu rayonu | 100,8 | 99,0 | 102,8 | 103,7 | 104,7 | 102,7 |
| İsmayıllı rayonu | 100,4 | 100,3 | 100,5 | 100,3 | 99,8 | 100,8 |
| Qobustan rayonu | 91,2 | 72,7 | 101,9 | 114,4 | 143,7 | 102,8 |
| Şamaxı rayonu | 86,9 | 61,9 | 110,1 | 119,3 | 142,3 | 107,8 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 99,5 | 103,8 | 96,7 | 99,2 | 96,1 | 101,9 |
| Gəncə şəhəri | 89,8 | 82,7 | 110,2 | 92,1 | 80,8 | 115,7 |
| Naftalan şəhəri | 117,5 | 86,9 | 129,4 | 122,2 | 77,6 | 133,3 |
| Daşkəsən rayonu | 98,8 | 95,6 | 99,7 | 98,8 | 88,9 | 101,3 |
| Goranboy rayonu | 106,8 | 112,3 | 100,9 | 100,6 | 99,4 | 101,9 |
| Göygöl rayonu | 84,4 | 86,6 | 83,2 | 100,4 | 101,9 | 99,6 |
| Samux rayonu | 101,8 | 102,9 | 100,6 | 96,8 | 91,8 | 102,5 |

Mənbə: Azərbaycan Respublikası Statistika Komitəsi

## Nəticə

Azərbaycan Respublikasında 2016-cı illə müqayisədə 2021-ci ildə taxıl əkini sahələri 1,03 dəfə (3%), ümumi yığım 1,09 dəfə (9%), məhsuldarlıq isə 1.06 dəfə (6 %) artmışdır. Dənli və dənli paxlalı bitkilərdə də artım tempi illər üzrə dəyişmişdir. Onların əkin sahəsi 1,01 dəfə (1%), ümumi yığımı 1,13 dəfə (13%), məhsuldarlıq isə 1.12 dəfə (12%) artmışdır.Texniki bitkilərin illər üzrə təhlil qrafiki isə çox mürəkkəb olmuşdur. Belə ki, 2011-ci ildə şəkər çuğunduru əkin sahəsi 1852 ha təşkil edirdisə, 2012-ci ildən bu yana məhsul əkini, istehsalı və məhsuldarlığında iqtisadi durğunluq baş vermişdir. Tütün əkinləri 2017-ci ildə 9 ha idisə, hazırda 52.4 hadır. Bu da onu göstərir ki, keçən 4 il ərzində tütün əkini sahələri 5 dəfədən çox artmışdır. Dən üçün günəbaxan əkinləri 2019-cu ilədək artım qrafikini izləsə də, 2020-ci ildə əkin sahəsi 132 ha azalmış, 2021-ci ildə isə 11 ha artmışdır. Ümumi məhsuldarlıqda isə artım tendensiyası müşahidə olunur [3].

2017-ci il ərzində kəsilmiş çəkidə 316,8 min ton ət, 2024,1 min ton süd, 16,0 min ton yun və 1714,0 milyon ədəd yumurta istehsal edilmişdir. 2016-cı illə müqayisədə ət istehsalı 15,6 min ton və ya 5 faiz, süd istehsalı 15,2 min ton və ya 0,7 faiz, yun istehsalı 7 ton və ya 5 faiz azalmış, yumurta istehsalı isə 104,2 milyon ədəd və ya 6,5 faiz artmışdır.

Nəticələr göstərir ki, kənd təsərrüfatı bütün regionda inkişafın mühüm hissəsidir və yerli ümumi məhsulu gəlirin artmasına töhfə verir. Eyni zamanda, vəsaitlərin daxil olması hesabına, onun bir hissəsi ilə kənd təsərrüfatında başqa sahələr yaradılıb. Növbəti addımlar seçilmiş regionda təklif olunan metodologiyanın sınaqdan keçirilməsi, regionların diferensiallaşdırılması üçün limit qiymətlərinin müəyyən edilməsi və regionların problemlərinin, onlarda kənd təsərrüfatının mövqeyinin işlənib hazırlanması olacaq.

8.

## ƏDƏBİYYAT SİYAHISI:

1. E.A. Salahov, G.A. İbrahimova. Kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında kooperativlərin rolu. Elmi-praktik konfrans. Gəncə, 15 mart 2019.
2. Məmmədov A.İ. 1992, Kənd təsərrüfatının iqtisadiyyatı. Bakı, s.25-65
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Azərbaycanın kənd təsərrüfatı" statistik məcmuə , Bakı, Azərbaycan,2021
4. İsmət Abbasov , "Azərbaycan və dünya ölkələrinin kənd təsərrüfatı", Bakı, Azərbaycan 2013
5. file:///C:/Users/HP/Downloads/AZ%C6%8FRBAYCANIN%20REG%C4%B0ONLARI%202022.pdf
6. https://www.agriculturejournals.cz/pdfs/age/2003/05/06.pdf
7. https://xalqqazeti.com/az/news/111791

**Джейхун Амин оглы ВАЛИЕВ, к. э. н.**

**Эльшад Эльшан оглы АМИРОВ**
Бакинский Инженерный Университет
E-mail: eemirov@std.beu.edu.az

## РОЛЬ РЕГИОНОВ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ АЗЕРБАЙДЖАНА

**Резюме**

Благодаря концепции и реализации принципов устойчивого развития происходят радикальные изменения места и роли аграрного сектора в развитии национальной экономики. Взгляд на сельское хозяйство как составную часть регионов начинает утверждаться в связи с принятием основных принципов. Определяя показатели, характеризующие регионы, и устраняя на их основе выявленные проблемы, можно на их основе определить благополучие отдельных регионов. На основе статистических данных последних лет фиксировались посевные площади, валовой сбор и продуктивность растений региона, применялся метод сравнительного анализа.

**Ключевые слова:** аграрный сектор, сельское хозяйство, структурная политика, регионы, статистический анализ.

**Jeyhun Amin oglu VALİYEV, Ph.D.**

**Elshad Elshan oglu AMİROV**
Baku Engineering University
E-mail: eemirov@std.beu.edu.az

# ROLE OF REGIONS IN AGRICULTURE OF AZERBAIJAN

**Summary**

Due to the concept and implementation of the principles of sustainable development, there are radical changes in the position and role of the agricultural sector within the development of the national economy. The view of agriculture as an integral part of the regions begins to assert itself in connection with the adoption of basic principles. Determining the indicators that characterize the regions and eliminating the problems identified based on them, it is possible to determine the prosperity of individual regions based on them. On the basis of statistical data of recent years, the cultivated areas, total harvest and productivity of plants in the region were recorded, and the method of comparative analysis was used.

**Keywords:** agrarian sector, agriculture, structural policy, regions, statistical analysis**.**

**Nazim Davud oğlu VERDİYEV, i.f.d., dos.**
Azərbaycan Texnologiya Universiteti

**Səid Malik oğlu AYDINLI**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: Said.2000@internet.ru

# TURİZM MÜƏSSİSƏLƏRİNDƏ YENİ MARKETİNQ XİDMƏTLƏRİNİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASI

**Xülasə**

Turizm şirkətləri məhsullarını satmaq və sənayedə digərləri ilə rəqabət aparmaq üçün yeni üsullar tapmağa çalışırlar. Onlar bunu ona görə edirlər ki, getdikcə daha çox insan tətilə getmək və fərqli seçimlər istəyirlər. Bu şirkətlər özlərini daha yaxşı bazara çıxarmağı və onlara kömək etmək üçün texnologiyadan necə istifadə etməyi öyrənirlər. Onlar da başqa şirkətlərin tətbiq etdiyi strategiyaları izləyir və onlardan öyrənməyə çalışırlar. Onlar üçün sənayedə baş verənləri öyrənmək vacibdir ki, yaxşı qərarlar qəbul etsinlər. Turizm sənayesində yeni marketinq xidmətlərinin yaranması və böyüməsi turizmdə iqtisadi və rəqabətli mənzərə, həmçinin turizm məhsullarına daim dəyişən tələbatla şərtlənir. Bu məqalədə marketinq strategiyalarının inkişafı, turizmdə mövcud olan cari marketinq xidmətləri, rəqəmsal marketinq metodlarından istifadə və turizm marketinqi fəaliyyətlərinin idarə edilməsində qlobal təcrübələr daxil olmaqla, bu yeni marketinq xidmətlərinin təşkili və idarə edilməsi araşdırılır. Bundan əlavə, məqalədə yerli turizm müəssisələrində marketinqin mövcud vəziyyəti araşdırılır.

**Açar sözlər:** Turizm müəssisəsi, turizm marketinqi, marketinq xidməti, yeni marketinq, rəqəmsal marketinq.

**JEL: L83**

## Giriş

Turizm müəssisələri son illər həm Azərbaycan, həm də dünya iqtisadiyyatına mühüm töhfə verən şirkətə çevrilib və unikal xüsusiyyətləri onların inkişafında, xüsusən dövlət səviyyəli layihələrin və strateji yol xəritələrinin həyata keçirilməsində marketinq elementlərindən istifadəni zəruri edir. Yerli turizm müəssisələri rəqabət qabiliyyətli məhsullar təklif etmək üçün yeni marketinq strategiyaları qəbul etməlidirlər, çünki turizm məhsullarının və xidmətlərinin istehsalında və satışında marketinq fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, yeni xidmətlərin yaradılması turizm müəssisələrinə bazar şərtlərindən xəbərdar olmağa və müvafiq qaydada uyğunlaşmağa imkan verir. Ona görə də, Azərbaycanda marketinq xidmətlərinin effektiv idarə olunması və marketinq strategiyalarının həyata keçirilməsi, o cümlədən nəticələrin təhlili və Azərbaycanda yeni turizm məhsullarının hazırlanması turizm müəssisələrinin uğurları üçün həyati əhəmiyyət kəsb edir[1].

